**RAHİB ƏKBƏROV**

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN DÖVLƏT VƏ HÜQUQ TARİXİ

**BAKI-2018**

**Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda mübarizə aparanların unudulmaz xatirələrinə ithaf olunur.**

**ELMİ REDAKTOR:** AMEA-ın A.A. Bakıxanov adına Tarix İnstitutunun direktoru, AMEA-nın akademiki, t.e.d. prof. Yaqub Mahmudov.

**RƏYÇİLƏR:** AMEA-ın Hüquq və İnsan haqları İnstitutunun direktor müavini, h.e.d. prof. Nazim Cəfərli.

AMEA-ın A.A. Bakıxanov adına Tarix İnstitutunun aparıcı elmi işçisi, t.f.d. dos. Kamran İsmayılov.

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Hüquq-1 kafedrasının h.f.d. dos. Asif Qədirov.

*Monoqrafiyada Azərbaycan Xalq Cümhuriyyətinin dövlət təsisatları və hüquq institutlarının təşəkkülü və inkişafı öyrənilmişdir. Birinci fəsildə AXC-nin ali dövlət hakimiyyəti sisteminə daxil olan Milli Şura, Nazirlər Kabineti və Məclisi-Məbusanının formalaşması, əsas fəaliyyət istiqamətləri, səlahiyyətləri və faktiki hüquqi statusları tədqiq edilmişdir. Kitabın ikinci fəslində isə, AXC milli hüququn institusional inkişaf xüsusiyyətləri araşdırılmış, dövlət hüququnun əsaslarını müəyyən edən ilk ali yuridik sənəd-"İstiqlal Bəyannamə"si və digər hüquq mənbələri şərh olunmuşdur. Kitabdan tədris-elmi adutoriya ilə yanaşı, maraqlanan geniş oxucu dairəsinin də, istifadə etməsi nəzərdə tutulmuşdur. Monoqrafiyanın ayrı-ayrı paraqrafları ilə tanış olan oxucu, bəhs edilən məsələlərin həm tarixi, həm də hüquqi problemləri əhatə etməsi ilə rastlaşır. Dövlət və hüquq tarixinin tədqiqat obyekti olan bu məsələlərin, geniş oxucu dairəsi üçün "darıxdırıcı" görünməsi anlaşılandır. Nəzərə almaq lazımdır ki, araşdırılan məsələlər, mövzunun tədqiqat obyekti olan dövlət-hüquq tarixinin öyrənmə predmetinə daxil olan və onun təyinatından irəli gələn səciyyəvi xüsusiyyətlərə əsaslanaraq təqdim edilmişdir.*

**t.f.d. dosent Rahib Abdulla oğlu Əkbərov. Azərbaycan Xalq Cümhuriyyətinin (I Respublikanın) dövlət və hüquq tarixi. Monoqrafiya.** rahibekberli@gmail.com tel.050-398-02-04

## Mündəricat

**Ön söz.............................................................. səh.**

**I Fəsil. Giriş. Azərbaycan Xalq Cümhuriyyəti ali dövlət hakimiyyəti orqanlarının siyasi-hüquqi fəaliyyətlərinin əsas cəhətləri.......................... səh.**

1.1. Azərbaycan xalqının ali səlahiyyətli nümayəndəli orqanı-Milli Şuranın təsis olunmasının legitim əsasları, statusu və fəaliyyəti .......................................... səh.

1.2.AXC-də ali icraedici hakimiyyət strukturlarının təşkil edilməsi, fəaliyyətlərinin tənzimlənməsi və hökumətin delegiya səlahiyyətləri...................... səh.

1.3. AXC-nin ali qanunverici hakimiyyət orqanı (Məclisi-Məbusan)............................................ səh.

1.3.1.Ali qanunverici hakimiyyətin formalaşmasının hüquqi əsasları və səlahiyyətləri......................... səh.

1.3.2. Qanunverici orqanın iş rejimi: parlament xronikası-cari məsələlərin və praktiki qanunvericilik işinin təşkili qaydaları.........

1.4.AXC-də ədliyyə və məhkəmə sisteminin təkmilləşdirilməsi ............................................. səh.

**II Fəsil. Giriş. Azərbaycan Xalq Cümhuriyyətində milli hüququn institusional inkişaf xüsusiyyətləri .**

2.1. “İstiqlal Bəyannaməsi” müddəalarının siyasi-hüquqi təbiəti və konstitusion mahiyyəti....................... səh.

2.2. AXC-də milli hüquq mənbələrinin formalaşması və inkişafının spesifik xüsusiyyətləri ....................................................... səh.

2.3. Mülkiyyət, sosial, vətəndaş və seçki hüququ sahələrində qanunvericiliyin inkişafı.................................................................. səh.

2.4. Azərbaycanın müstəqilliyinin beynəlxalq tanınması münasibəti ilə parlamentin 1920-ci il 9 fevral tarixli "Ümumi əfv" qanunun siyasi-hüquqi məzmunu və əhəmiyyəti.......................................... səh.

2.5. Azərbaycan Xalq Cümhuriyyətində ordu quruculuğunun qanunvericilik əsasları..................................................................... səh.

2.6. AXC-də cinayət qanunvericilik aktlarının

təkmilləşdirilməsi .............................................. səh.

**Nəticə.................................................................. səh.**

**Mənbələr və ədəbiyyatlar**................................. səh.

# ÖN SÖZ

Qədim və zəngin dövlətçilik ənənələrinə malik olmuş Azərbaycan, XX əsrin əvəllərində çoxəsrlik tarixi təcrübəsindən yenidən bəhrələnərək dünyanın siyasi xəritəsinə öz adını və üçrəngli bayrağını əbədi həkk etdirmişdir. **Dünya sivlizasiya tarixində özünü təsdiq etmiş Azərbaycan, 1918-ci il may ayının 28-də müstəqilliyini elan etməyə tam layiq idi. Azərbaycan xalqı istiqlala qədər ki, tarixi dönəmlərdə nəyinki dövlətçilik və idarəetmə ənənələri, eyni zamanda elm, ədəbiyyat, mədəniyyət, təhsil, incəsənət sahələrində də, bəşəriyyətə öz tövhəsini verməklə, istiqlalın təsadüfü olmadığını göstərmişdir. Məhz, Rusiya imperiyasında və Güney Qafqazda baş vermiş mürəkkəb ictimai-siyasi və hərbi-münaqişə vəziyyətinin yekun nəticəsi olaraq, Azərbaycanın görkəmli ictimai-siyasi xadimləri tərəfindən təsis edilmiş Milli Şura, Azərbaycan Xalq Cümhuriyyətini elan etməklə, dövlətçilk ənənələrində varisliyin təmin olunmasının siyasi-hüquqi əsaslarını müəyyən etmişdir.**

Azərbaycan Xalq Cümhuriyyəti, bütün Şərqdə parlamentli respublıкa quruluşunu təsbit etmiş ilk dövlət idi. Azərbaycan Xalq Cümhuriyyətinin elan edilməsi, milli dövlətçiliyin bərpa edilməsi və yenidən formalaşmasını şərtləndirən əsas amil olmuşdur. **Azərbaycan xalqının gələcəyinin Siyasi Xartiyası olan "İstiqlal Bəyannamə"sinin müddəaları ictimai-siyasi quruluşun, ümumilikdə suveren dövlətin formalaşması və inkişafı üçün əsas prinsipləri müəyyən etmişdir.** Məhz, dövlət hakimiyyətinin əsaslarını təsbit edən "İstiqlal Bəyannamə"sində, sivil dünyanın prioritet elan etdiyi insan hüquq və azadlıqları, demokratik institutlar, hakimiyyətin bölünməsi, hüquq bərabərliyi və s. bu kimi siyasi mədəniyyət dəyərlərinə əsaslanan mükəmməl dövlət quruluşunun yaradılması nəzərdə tutulmuşdur.

Yaxın onilliklərə qədər Azərbaycanın ümumi tarixi kifayət qədər tədqiq edilsədə, Xalq Cümhuriyyətinin dövlət və hüquq tarixi haqqında hər hansı müfəssəl məlumat belə olmamışdır. Mövcud məhdud məlumatlar isə, ideoloji təsirlərə məruz qalmaqla ümumdövlət və hüquq tarixinin bir hissəsi kimi təqdim edilmişdir. Hal-hazırda, müstəqillik bərpa edildikdən sonra ölkəmizin dövlətşünasliq və hüquqşünasliq elm sahələri ilə məşğul olan alimləri öz tədqiqatlarında Azərbaycanın dövlət və hüququnun araşdırılmasına, öyrənilməsinə və təbliğ olunmasına xüsusi yer ayırırlar. Çünki, indiki müstəqillik dövründə bu tədqiqatlara daha geniş zərurət yaranmışdır. Bu baxımdan monoqrafiyada, AXC-nin dövlət hüququnun əsas müddəalarını müəyyən edən "İstiqlal Bəyannaməsi" ali dövlət hakimiyyəti orqanları, hüquq institutları, həmçinin bəhs olunan dövrdə baş vermiş

sosial-ictimai proseslər, onların siyasi-hüquqi cəhətləri tədqiqatın əsas obyektini təşkil etməklə, kompleks araşdırmaya cəlb edilmişdir. Qeyd etmək lazımdır ki, müasir dövrdə dövlət və hüquq tarixinin öyrənilməsində və araşdırılmasında Azərbaycanın böyük və tanınmış tarıxçi və hüququşünas alimlərinin dəyərli əsrləri önəmli yer tutur.

Monoqrafiyanın əsas vəzifəsinə, Cümhuriyyətin dövlət təsisatları və hüquq institutlarının formalaşması və inkişafının xarakterik xüsusiyyətlərini rəsmi dövlət-hüquqi sənədlərlərdə təsbit edilmiş real gerçəliklər əsasında araşdırmaq, tarixi-hüquqi təhlil aparmaq və nəticə etibarı ilə zəngin tarixə malik Azərbaycanın dövlətçilik və hüquq ənənələrinə qarşı yönəlmiş müxtəlif saxtakarlıqlara qarşı tutarlı cavab vermək daxildir. Məhz, müasir müstəqillik dövründə, Azərbaycan xalqının şərəf tarixi və qürur mənbəyi olan Cümhuriyyətin dövlət və hüququnun öyrənilməsi, onun xalqımızın dövlətçilik və hüquq tarixininin inkişafındakı yerinin müəyyən edilməsi və bunun hansı milli və beynəlxalq əhəmiyyət daşıdığını indiki və gələcək nəsillərə çatdırılmasi çox böyük əhəmiyyət kəsb edir.

Azərbaycanın dövlətçilik tarixi təkcə dövlət-idarəetmə ənənələrinin hər hansı bir formada inkişafı ilə məhdudlaşmamışdır. Çünki, qədim sivilizasiya məskənlərində olan Azərbaycanda fasiləsiz olaraq bütün tarixi dövlət tipləri və idarəetmə təcrübəsi və buna müvafiq olaraq sosial-iqtisadi və ictimai-mədəni inkişaf mövcud olmuşdur. Etiraf olunmalıdır ki, təkcə “Kitabi- Dədə Qorqud” dastanındakı toponimlər, oğuz tayfa xanlarına mənsub olan siyasi qurumların mövcudluğu, heç də mifik dastan boyları deyil, real tarixi sübutlardır. Azərbaycan tarixən dünyada çox məhşur görkəmli alim və mütəfəkkirləri ilə tanınır. Azərbaycan xalqı bu gündə bəşəriyyətə öz tövhəsini verən elm, təhsil, ədəbiyyat, incəsənət, folklor, rəssamlıq, muğam musiqisi, ozan sənəti, milli bayramları özündə canlandıran teatırlaşdırılmış səhnələr, pəhləvan güləş yarışları, hərbi və çovkən idman oyunları, xalça sənəti və s. sivilizasiya nümunələri ilə fəxr edir. Məhz, Azərbaycanın tarixi keçmişi, bəşəriyyət tarixində dəfələrlə böyük dövlətlər qurmuş xalq, XX əsrin əvvələrində bütün dünyaya müstəqilliyin bəyan edilməsinin təsadüfü olmadığını göstərmişdi.

AXC-nin demokratik dövlət quruculuğu, hüquqi islahatlarla qarşılıqlı təmasla şərtləşmişdi. Müstəqil dövlətdə dəyişən və inkişaf edən yeni ictimai münasibətlərin formalaşması, hüquq münasibətlərinin inkişafı üçün də, yeni qanunvericilik əsasları müəyyən etmişdir. Belə ki, Cümhuriyyətin səlahiyyətli dövlət təsisatları ayrı-ayrı hüquq sahələri üzrə islahatlar aparmış, qanunvericilyin inkişaf etdirilməsi, xüsusilə də Rusiya imperiyası və Zaqafqaziya konfedrasiyasına aid qanunların təkmilləşdirilməsi, zərurət yarandıqda ləğv edilməsi və ya qanunların varisliyinin

təmin etməklə yenidən hazırlanması üzrə mühüm işlər həyata keçirmişdilər. Qeyd etmək lazımdır ki, bu dövrə aid bir sıra əsərlər, o cümlədən arxiv materalları və digər mənbələr nəşr edilsə də, dövlət təsisatları və hüquq quruculuğu kompleks tədqiqata cəlb edilməmişdir. Bu baxımdan AXC dövründə mövcud dövlət və hüquqi proseslərin siyasi-hüquqi məzmunu, mahiyyəti, xüsusiyyətləri və institusional mexanizmlərinin elmi-nəzəri təhlil və tədqiq edilməsinə geniş zərurət var. **Beləliklə, AXC-nin milli dövlət və hüququnun tədqiq edilməsinin əsas məqsədi, cəmiyyətdəki ictimai münasibətlərin inkişafı və dəyişməsinin dövlət-hüquqi münasıbətlərə təsirini öyrənmək, tarixi-hüquqi təcrübəni ümumiləşdirərək onu təhlil etmək və zəruri nəticələr çıxarmaq, obyektiv qanunauyğunluqları dərk etmək və yol verilmiş səhvlərin təkraralanmaması üçün, onun elmi-nəzəri təminatına nail olmaqdan ibarətdir. Çünki, xalqımızın keçmiş dövlət və hüquq tarixinin araşdırılması, müasir dövrün gerçəkliklərinin dərk edilməsi üçün mühüm vasitədir.**

Qeyd etdiyimiz kimi Azərbaycan ərazisində dövlətçilik ənənələrinin tarixi kökləri ən qədim dövrlərə gedib çıxır. Belə ki, Azərbaycan və onun ərazsində təşəkkül tapmış siyasi birliklər və dövlətlər, ən qədim dövrlərdən başlayaraq tarixi inkişaflarını xronoloji ardıcıllıqla davam etdirmişdilər. Azərbaycan ərazisində sinifli cəmiyyətin və dövlətin formalaşması isə b. e. ə. III minilliyin sonundan başlamışdır. Bu dövrdən etibarən ilkin siyasi birləşmələr-tayfa ittifaqları yaranmışdır. E. ə. I minilliyin əvvəllərindən başlayaraq Manna, Atropatena, Albaniya kimi müstəqil dövlətlər tədricən formalaşmışdır. Quldarlıq dövrü dövlətlərini əvəz etmiş Azərbaycan feodal dövlətləri-Şirvanşahlar, Atabəylər, Elxanilər, Qaraqoyunlu, Ağqoyunlu, Səfəvilər, Azərbaycan xanlıqlarının və daha kiçik dövlət qurumlarının dövlət və hüquq tarixi, bu dövlətlərdə baş verən ictimai-iqtisadi və tarixi-hüquqi proseslər, zəngin dövlətçilik ənənələrin davamı idi. **Artıq, XVIII əsrin ortalarından başlayaraq ayrı-ayrı xanlıqların fəaliyyətlərində milli dövlətlərin əlamətlərini ehtiva edən idarəçilik formalaşsada, Azərbaycanın vahid dövlətdə birləşdirilməsi cəhdləri uğursuzluğla nəticələnmişdir.**

Azərbaycanın orta əsrlər dövrünü əhatə edən və XV əsrdən çox davam etmiş feodalizm quruluşu əsasən torpaq mülkiyyəti və ona sahibliklə bağlı münasibətləri tənzimləmişdir. Bu dövrdə hökmran sinif olan feodallar və hüquqi cəhətdən asılı kəndlilər ictimai münasibətlərin nizamasalma obyektinin əsas iştirakçıları olmuşdular. Əsas istehsal vasitəsi olan torpaq dövlətin, huquqi münasibətlərin və qismən də rəsmi dinin inkişaf xarakterini müəyyən etmişdir. Feodallar öz mülklərində siyasi, inzibati, fiskal (maliyyə), polis və məhkəmə-hüquqi hakimiyyətə malik idilər. Müsəlman ruhanilər də iri torpaq mülkiyyətçisi qismində

çıxış edirdilər. Bu dövrdə müsəlman hüququnun, islam dininin siyasi hakimiyyətə təsiri böyük olmuşdur. Yeni hüquq mənbələrinin formalaşması, xüsusilə də VIII-IX əsrlərdən Azərbaycanda yaranan müsəlman hüququ, o dövrdə yeni hüquq münasibətlərinin inkişafında əhəmiyyətli rol oynamışdır. Feodal qanunvericilik külliyyatları və müsəlman hüququ, ictimai münasibətlərin tənzimlənmə prosesində, təbii olaraq hakim sinfin mənafeyini ifadə etməyə üstünlük vermişdilər. Feodalizim dövründə ən önəmli tarixi fakt isə, Azərbaycan dövlətçiliyinin inkişafında mühüm yer tutan, uzun müddət öz mövcudluğunu qoruyub saxlayan və Avropa dövlətlərindəki kral titulu statusuna bərabər olan Şirvan və Səfəvi şahlıqları kimi böyük dövlətlər yaradılmışdır.

Müasir dövrün dövlət və hüquq mərhələsi XIX əsrdən başlayaraq hal-hazıra qədər davam edən müddəti əhatə edir. XIX əsrdən başlayaraq müstəqil və yarımmüstəqil Azərbaycan xanlıqları suverenliklərini itirdilər və Rusiya imperiyasının idarəçilik və hüquq müstəvisinə zorla daxil edildilər. Bu mərhələ üçün səciyyəvi xüsusiyyət, Azərbaycanda kapitalizim münasibətlərinin təşəkkül tapması zəminində, Rusiya imperiyasının tərkibində yeni burjua dövlət-hüquq münasibətlərinin formalaşması və inkişafı olmuşdur. Eyni zamanda bu dövr üçün milli burjaziyanın, milli sahibkarlığın, maarifçi və tərəqqipərvər ziyalılar elitasının yaranması və ümumillikdə milli məfkurənin formalaşması prosesinin başlanması xarakterik idi. Belə ki, XIX əsrin birinci yarısında Abbasqulu ağa Bakıxanov və Mirzə Fətəli Axundzadə ilə başlayan maarifçilik ideyaları, yeni tarixi mərhələdə Həsən bəy Zərdabi, Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Əli bəy Hüseynzadə və digər görkəmli şəxsiyyətlər tərəfindən davam etdirilərək milli istiqlalın elan edilməsini şərtləndirən əsas amilə çevrilmişdir. Milli Azərbaycan hərəkatının görkəmli nümayəndəsi Mirzəbala Məmmədzadənin qeyd etdiyi kimi, M.F.Axundzadə və H.Zərdabi 50 il sonra dünyaya gəlsəydilər, istiqlal fikri, Azərbaycan Milli Xartiyası da 50 il sonra meydana gələcəkdir.

**1918-ci ilin may ayının 28-də, Rusiyada və Zaqafqaziyda baş verən proseslər, imperiyanın çökməsi fürsətini çevik və düzgün dəyərləndirən Azərbaycanın yurd, vətən əxlaqlı ictimai-siyasi xadimləri, ziyalılar, milli burjuaziya Azərbaycan Xalq Cümhuruyyətini elan edərək, bu qədim xalqın çoxəsrlik dövlətçilik ənənələrinə malik olması yaddaşını özünə qaytarmışdılar. Məhz, Rusiya imperiyasının tərkibinə ayrı-ayrı xanlıqlar kimi ilhaq edilmiş Quzey Azərbaycan dövlətləri, imperiyanın tərkibindən vahid Azərbaycan Xalq Cümhuriyyəti dövlət kimi çıxmışdılar.** AXC-nin dövlət idarəetmə sistemi və praktiki fəaliyyəti isə, elə bir yüksək demokratik səviyyədə təşkil olunmuşdur

ki, sanki Azərbaycanda əsrlərboyu mövcud olmuş bir quruluş, ona yaxın olan digər quruluşla əvəz edilmişdir.

Azərbaycanın ali dövlət hakimiyyəti sisteminə daxil olan Milli Şura, AXC hökuməti və parlamenti çox mürəккəb daxili və beynəlxalq vəziyyətdə ölкənin suverenliyi, ərazi bütövlüyü, iqtisadi, sosial, mədəni və hüquqi sahələrdə tərəqqi və inкişafa nail olmaq vəzifəsini yerinə yetirmək üçün bütün qüvvələrini səfərbər etmişdilər. **Qeyd etmək lazımdır ki, tarixən olduğu kimi, həmin dövrdə də, Azərbaycan nəyinki Zaqafqaziyada, eyni zamanda Şimali Qafqazın, Orta Asiyanın, Volqaboyunun dost və qardaş xalqları arasında böyük nüfuza malik olmuş, bu xalqlarla çox yaxın sosial-iqtisadi və ictimai-mədəni əlaqələr qurmuş, Azərbaycan görkəmli siyasi xadimləri, maarifçiləri, ziyalıları, sahibkarları, mədəniyyət nümayəndələri Vladiqafqaz, Petrovski, Nalikçik, Qroznı, Həştərxan, Aşqabad, Kazan, Ufa və s. müsəlman şəhərlərin sosial-iqtisad və ictimai-mədəni həyatlarında yaxından iştirak etmişdilər.**

Dünyanın ayrı-ayrı xalqlarının təcrübəsində yaranmış mürəkkəb və ağır şəraitdən çıxmaq üçün Milli Şura kimi ali səlahiyyətli kollegiyal hakimiyyət orqanın yaradılması presedentlərinə rast gəlinir. Belə ki, ABŞ-in “İstiqlal Bəyannamə”si və Fransanın “İnsan və vətəndaş hüquq və azadlıqlar Bəyannamə”si kimi məhşur sənədlər, bu xalqların Təsisçilər Məclislərinin təcrübəsində hüquqi aprobasiyadan keçmişdir. **Məhz, Milli Şura ilk dəfə olaraq, hələ qədim dövrlərdə Qafqaz və ondan cənubdakı bu geniş coğrafi ərazini əhatə edən “Azərbaycan” (bu ad təsadüfi yox, əsrlərdən gələn reallığın məntiqi yekunu idi) adını dövlətin rəsmi milli atributuna daxil edərək, 1918-ci il mayın 28-də suveren ərazisi 114 min kvadrat kilometrdən ibarət olan Azərbaycan Xalq Cümhuriyyətinin yarandığını bütün dünyaya elan etmişdir.** ADR-ın yaranması xalqın milli kimlik şüurunun artması, Rusiya imperiyasının müstəmləkə əsarətindən qurtulmaq, milli dövlət qurmaq, demokratik respublika idarəçilik formasında ölkədə yaşayan bütün xalqlara azad və bərabər şərait yaratmaq istəyi ilə bağlı idi. Azərbaycan Demokratik Respublikası bütün Şərqdə, islam aləmində ilk Cümhuriyyət (Respublika) olmuşdur. **1920-ci ilin yanvar ayında Paris sülh konfransında AXC-nin de-fakto tanınması xalqımızın böyük tarixi naliyyəti idi. Paris sülh konfransında parlament sədri Əlimərdan bəy Topçubaşovun başçılıq etdiyi diplomatik nümayəndə heyətini qəbul edən Amerika Birləşmiş Ştatlarının prezidenti V.Vilson yeni müstəqilliklərin elan etmiş xalqların hüquqlarının tananmasını, onların haqları olmasını bəyan etmişdir. Sülh konfransında AXC nümayəndə heyəti ilə görüşdən bir neçə il sonra heyrətini gizlətməyən ABŞ prezidenti Vudro Vilson San-Fransisko şəhərində çıxışı**

**zamanı qeyd etmişdir ki, Paris konfransında mən bir gün Azərbaycanlı centlmenlərdən ibarət çox ləyaqətli və maraqlı qrupla görüşdüm. Mən ideyalarla, azadlıq konsepsiyası ilə, bərabərlik, hüquq və ədalətlə bağlı mənimlə eyni dildə danışan insanlarla söhbət edirdim.**

AXC-nin dövlət hakimiyyət orqanları sırasında Azərbaycan parlamenti böyük rola malik olmuşdur. Şərqdə ilk parlamentli respublikanın tarixi, Azərbaycan parlamentarizmin tarixidir. Suveren, demokratik, hüquqi dövlət yaradan AXC hakimiyyəti qanunların aliliyini təmin etməli olan təsisatların, ilk növbədə parlamentin yaradılması zərurətini, ən ümdə vəzifələrdən hesab edirdi. Parlamentin fəaliyyətə başlamasına qədər Azərbaycan Təsis Məclisi - Milli Şura və icraedici orqan - Nazirlər Kabineti çox mürəkkəb şəraitdə fəaliyyət göstərərək ADR-in qorunub saxlanılmasında əhəmiyyətli işlər görmüşdülər. AXC-nin siyasi quruluş forması parlamentli respublika kimi müəyyən edilmişdir. Məhz, parlamentin rəsmi fəaliyyətə başladığı qısa müddətdən sonra, qanunverici orqan qızğın diskusiyalar məkanına çevrilmişdir. Qanunverici orqanın tribunasından o dövrün əsas aparıcı siyasi qüvvələri dövlət-ictimai prosesləri, ölkə ətrafında baş verən siyasi-hərbi vəziyyəti, partiyalararası münasibətləri, ümumlikdə ən aktual cari və prespektiv məsələləri və s. problemləri geniş müzakirə etmişdilər. Parlament diskusiyalarına çevirilmiş bu məsələlər barədə təhlil aparmaq, onların siyasi-hüquqi məzmununu analiz etmək, araşdırmaq, öyrənmək və müvafiq nəticə çıxararaq münasibət bildirmək, tədqiqatın əsas vəzifələri sırasına daxildir. Monoqrafiyada parlamentlə yanaşı, hökumətində əsas fəaliyyəti geniş araşdırmaya cəlb edilmiş, ali icaredici orqanın statusu, səlahiyyətləri, hüquq və vəzifələrinə dair təhlil aparılaraq bir sıra elmi-nəzəri müddəalar irəli sürülmüşdür. Tədqiqat işində, ali dövlət hakimiyyəti təsisatlarının hüquqi əsaslarını təsbit edən milli hüququn institusional inkişafının əsas cəhətlərinin öyrənilməsi, məhz milli-hüquqi idarəçilik təcrübəsinin mənimsənilməsi üçün əvəzsiz rola malikdir. Çünki, Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının və fəaliyyətinin nəzəri-parktiki əsasları, milli hüququn müəyyən etdiyi normativ hüquqi-aktların müddəalarında maddiləşir.

**Monoqrafiyada Milli Şuranın 29 may 1918-ci il 3 saylı Protokolu geniş araşdırılmış, İrəvanın Azərbaycan xanlığı kimi dövlət varisliyi və əhalinin milli tərkibi nəzərə alınmaqla sonrakı yuridik varisliyinin təmin edilməsi üçün müəyyən hüquqi prosedurlar irəli sürülmüşdür. Məhz, Zaqafqaziya Seymində azərbaycanlı və gürcü nümayəndələri ilə birlikdə ermənilərin də təmsil olunmaları, konfederativ dövlət prespektivləri və s. məsələlər Ermənistan dövlətinin yaranmasına gətirib çıxaran əsas səbəblərdən idi. Buna**

**qədər isə, ermənilərin heç zaman müstəqil ali dövlət hakimiyyətləri olmamışdır.**

Azərbaycan xalqının azadlıq və istiqlal arzuları bu günlərdə 100 illik yubleyini qeyd etdiyimiz Azərbaycan Xalq Cümhüriyyətinin (I Respublikanın) yaranması ilə nəticələnmişdir. **Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev AXC-nin yaranmasının 100 illik yubiley tədbirlərinin keçirilməsi haqqında 2017-ci il 16 may tarixində çox mühüm və tarixi əhəmiyyət kəsb edən sərancam imzalamışdır. Ölkə prezidenti 2018-ci ili, Azərbaycan Xalq Cümhuriyyəti ili elan etmişdir. 20 il bundan öncə isə, Azərbaycan xalqının Ümummilli lideri, görkəmli dövlət xadimi Heydər Əliyev ilk dəfə olaraq "AXC 80 illiyinin keçirilməsi haqqında" sərəncam imzalamış və bu yubiley dövlət səviyyəsində geniş keçirilmişdir. Ulu öndərin qeyd etdiyi kimi, öz milli kimliyini dərk etməyən bir xalq, 1918-ci ildə İstiqlal Bəyannaməsi kimi sənədi qəbul edə bilməzdi.** Əgər XX əsrin əvvəllərində xalqımız milli azadlıq, dövlət müstəqilliyi yolunda ilk dəfə böyük addım atıbsa, XX əsrin sonunda milli azadlığa, dövlət müstəqilliyinə tam nail olubdur. 1918-ci ildə yaranmış Azərbaycan Xalq Cümhuriyyəti bizim milli sərvətimizdir, tariximizin parlaq səhifəsidir, xalqımızın böyük nailiyyətidir. Məhz bunlar hamısı birlikdə indiki müstəqil Azərbaycanın həm iqtisadi, həm də intellektual, həm də mədəni potensialını yaradıbdır. Lakin, dünyada və Rusiyada baş verən siyasi-hərbi proseslər, yeni müstəqilliklərini elan etmiş gənc respublikaları sanki labüd süquta aparmış və cəmi 23 aydan sonra, Azərbaycan demək olar ki, bolşevik Rusiyasının tabeçiliyinə keçmişdir. Bununla belə, Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyevin sərəncamında da göstərildiyi kimi, dünya birliyi tərəfindən tanınmış Xalq Cümhuriyyətinin fəaliyyəti sayəsində Azərbaycan beynəlxalq hüququn subyekti olması, baş vermiş hüquqi fakt kimi, 1920-ci ilin aprel ayındakı bolşevik işğalından sonra, Azərbaycanın bir dövlət kimi dünyanın siyasi xəritəsindən silinməsinin qarşısını almışdır. XX əsrin sonlarında böyük xalq hərəkatı və yaranmış mövcud şərait nəticəsində Azərbaycan yenidən suverenlik əldə etdi. Müstəqil Azərbaycan dövlətinin yenidən bərpa edilməsində parlament deputatı, Milli Məclisin sədri və Azərbaycan Respublikasının prezident kimi Ümummilli lider Heydər Əliyevin misilsiz xidmətləri və fəaliyyəti tarixi bir hadisə kimi Azərbaycan və dünya tarixində həmişə qalacaqdır.

Azərbaycanın 70 illik sovet dövrü mərhələsi, nəticə etibari ilə müstəqilliyin nominal itirilməsinə baxmayaraq, ümumulikdə xalqımızın tarixində təhsilin, elmin, mədəniyyətin, iqtisadiyatın və hərbi sahənin inkişaf etdirilməsi baxımından önəmli yer tutmuşdur. XX əsrin 50-ci illərinin sonlarından, xüsusilə də **Ümummilli lider**

**Heydər Əliyevin Respublikaya birinci rəhbərliyi dövründən başlayaraq iqtisadiyyat, elm, təhsil, mədəniyyət, hüquq, hərb, təhlükəsizlik sahələri sürətlə inkişaf etmiş, milli dövlətçilik ənənələrinin canlandırılmasına nail olunmuş, yeni müstəqilliyin bərpasının əsası** qoyulmuşdur. Ən yeni tarixi mərhələdə dövlətçilk və hüquq ənənələrində varisliyinin təmin edilməsi prosesi H.Əliyev tərəfindən başlanılmışdır. 1969-cu ilin noyabrın ayının 1-də Bakı Dövlət Universitetinin təsis edilməsinin 50 illik yubiley tədbirlərinə müdrikcəsinə qatılan və ana dilində çıxış edən H.Əliyevin addımları, Cümhuriyyətin ideyalarının yaşaması və davam etdirilməsində bir körpü idi. **Məhz, Ulu öndərin yubiley tədbirlərində iştirakı Azərbaycan cəmiyyətinə milli ruhun qaytarılması istiqamətində dönüş anı kimi qəbul edilmişdir.** Az.SSR-in 1978-ci il 21 aprel tarixli Konstitusiyasında azərbaycan dilinin dövlət dili kimi əsas qanuna daxil edilməsi, milli düşüncənin və müstəqillik ideyasının inkişafı üçün çox böyük əhəmiyyət kəsb etmişdir. Nəhayət, Azərbaycan xalqının böyük fədakarlığı, mübarizəsi nəticəsində XX əsrin sonlarında ikinci dəfə müstəqil dövlət quraraq, tarixi ədaləti öz qanı bahasına bərpa etmiş, ilk dəfə Naxçıvan Müxtar Respublikasında Ümummilli lider tərəfindən üç rəngli bayraq yenidən dalğalandırılmış və Azərbaycanın bu müstəqilliyə layiq olduğunu sübuta yetirmişdir.

Beləliklə, XX əsrin əvvəllərində dünyanın siyasi xəritəsinə azad, müstəqil dövlət kimi adını yazdırmış Azərbaycan Xalq Cümhuriyyətinin dövlət-hüquqi təbiəti suveren, demokratik, dünyəvi o cümlədən, hüquqi dövlətin əsas prinsiplərinin tələblərinə müvafiq olaraq hakimiyyətin xalqa məxsus olması, dövlət idarəçiliyinin demokratik əsaslarla tənzimlənməsi, ölkədə yaşayan xalqların etnik, dini, sinfi, silki, cinsi mənsubiyyətindən asılı olmayaraq azad inkişafı, bərabərliyi, bütövlükdə fundamental hüquq və azadlıqları üçün mühüm əhəmiyyət kəsb edən əsas cəhətləri müəyyən etmişdir. Məhz, AXC hökuməti fəaliyyətə başladığı gündən, ali dövlət hakimiyyətinin əsaslarını təsbit edən "İstiqlal Bəyannamə"sinin hər bir bəndinin həyata keçirilməsini dövlətin başlıca vəzifəsi olduğunu elan etmiş və Bəyannamənin müddəaları əsasında suveren, demokratik, sivil Azərbaycan dövləti qurulmuşdur.

**AMEA-ın A.A. Bakıxanov adına Tarix İnstitutunun direktoru, AMEA-ın akademiki, t.e.d. prof. Yaqub Mahmudov.**

# I FƏSİL
## Giriş. Azərbaycan Xalq Cumhuriyyəti ali dövlət hakimiyyəti orqanlarının siyasi-hüquqi fəaliyyətlərinin əsas cəhətləri

Azərbaycan Xalq Cumhuriyyəti ali dövlət hakimiyyəti sisteminə daxil olan subyektlərin siyasi-hüquqi fəaliyyətləri və milli hüququnun institusional inkişaf xüsusiyyətlərinin elmi-nəzəri əsaslarının araşdırılması, milli dövlətçilik ənənələrinin mənimsənilməsi zəruri olan mütərəqqi cəhətlərini və ümumilikdə tarixi təcrübənin öyrənilməsi baxımdan öz aktuallığı ilə fərqlənir. “İstiqlal Bəyannamə”si, Azərbaycan Xalq Cümhuriyyətində dövlət hüququnun əsaslarını təsbit edən ilk hüquqi sənəddir. Məhz, bu bəyannamənin müddəalarının məzmununda təsbit edilən dövlət hüququ və ya dövlət hakimiyyətinin səlahiyyətlərini müəyyən edən hüquq, mahiyyət etibarı ilə, AXC-nin dövlət quruluşu formasının və hüquq sisteminin təşəkkülü və inkişafının nəzəri əsaslarını möhkəmləndirmişdir. Azərbaycan Xalq Cümhuriyyətində ali dövlət hakimiyyətinin strukturlaşması və təşkili fəaliyyəti forması, mövcud obyektiv zərurətdən irəli gələn vəziyyətlə şərtləşirdi. Lakin, məlum səbəblərdən AXC-də konstitusiyanın qəbulu mümkün olmamış və Cümhuriyyətin konstitusiya (əsas qanun) quruluşunun təsis olunmasına qədər ali dövlət hakimiyyət sisteminin subyektləri, bir-biri ilə qarşılıqlı fəaliyyət göstərən Milli Şura, Nazirlər Kabineti və Məclisi-Məbusandan təşkil edilmişdir. Ali hakimiyyət təsisatlarının və hüquq institutlarının spesifik inkişaf xüsusiyyətləri, AXC-nin müəyyən etdiyi məqsəd və funksiyalarının yerinə yetirilməsi prosesində, özünü əsas cəhətlərini göstərmişdir. Belə ki, ümumi məqsədə nail olmaq üçün hər bir hakimiyyət quruluşu bir-biri ilə qarşılıqlı əlaqə, subordinasiya, uzlaşma və vəhdətə əsaslanan nizamlı hüquqi konstruksiya çərçivəsində fəaliyyətlərini quraraq, obyektiv qanunauyğunluqlar və yaranmış

mövcud ictimai müasibətlər konteksində, bütöv sistem şəkilində spesifik funksiyalarını yerinə yetirmişdilər.

Cümhuriyyət elan etmiş Azərbaycan Milli Şurasının müəyyən etdiyi dövlətçilik strategiyasına görə, ali dövlət hakimiyyəti qollarının bölgüsü və səlahiyyət həddlərinin qəti müəyyənləşməsi, Ümumazərbaycan Müəssislər Məclisinin çağırılması və konstitusiyanın (əsas dövlət hüququnun) qəbul edilməsindən sonra yekunlaşmalı idi. AXC-nin dövlət idarəçilik forması, parlamentli respublika quruluşu kimi müəyyən olmuşdur. Azərbaycan Xalq Cümhuriyyəti dövlətinin mahiyyəti, formalaşmış siyasi rejimlə harmoniya təşkil etmişdir. Demokratik, liberal dəyərlərə əsaslanan AXC-nin dövlət rejimi, mövcud siyasi rejimin mühüm tərkib hissəsi olmaqla, hakimiyyətin həyata keçirilməsində hüquqi demokratiyaya əsaslanmışdır. Bu quruluş, mahiyyətinə görə milli-demokratik qüvvələrin idarə etdiyi siyasi rejim kimi xarakterizə olunur.

Məlumdur ki, hər bir dövlətin həm daxili, həm də xarici funksiyaları, dövlətin tarixi inkişafı prosesində təkmilləşir. Dövlətin funksiyalar sistemi, konkret-tarixi məzmun xarakterinə malik olur və bu sistemin özü tarixi şəraitin doğurduğu vəzifələrin təsiri ilə dəyişikliyə məruz qalır. AXC-nin müəyyən etdiyi əsas vəzifə, formalaşmış dövlət təsisatlarının möhkəmləndirilməsi, sturukturlaşması və onun beynəlxalq aləmdə legetimləşdirilməsindən ibarət olmuşdur.

AXC-də nəzərdə tutlan konstitusiya quruluşuna keçidə qədər ki, müddətdə siyasi münasibətlər sisteminin subyektləri arasında formalaşan qarışılıqlı fəaliyyət və bu fəaliyyəti tənzimləyən normalar və prinsiplərin ümumi sistemi, Azərbaycan Milli Şurasının qəbul etdiyi milli "İstiqlal Bəyannamə"sinin (dövlətin əsas qanunuun) müddəaları ilə tənzimlənirdi. Azərbaycan dövlətinin idarəçilik, ictimai-siyasi, sosial-iqtisadi və hüquqi münasibətlərin yuridik əsasını müəyyən edən Bəyannamə, eyni zamanda ali dövlət hakimiyyəti sisteminin təşkili fəaliyyətinin ümumi hüquqi bazasını və dövlətin idarəçiliyinin qanunvericilik əsaslarını özündə etiva etmişdir. Qeyd etmək lazımdır ki, dövlət siyasi hakimiyyətin xüsusi təşkilatı kimi cəmiyyətin normal həyati fəaliyyətini təmin edən xüsusi idarəetmə mexanizmini yaradır. Məhz, dövlətin əsas ali qanunu kimi milli "İstiqlal Bəyannamə"si, ali dövlət hakimiyyəti sisteminin subyektlərinin hüquqi rejimini təsbit edir və onun realizə edilməsini istiqamətləndirirdi. AXC-nin spesifik təşkilindən irəli gələn mövcud ali dövlət hakimiyyəti sistemi, dövlət strukturlar arasında institutsional hüquq münasibətlərinin xarakterini müəyyən etmiş, ona tənzimləyici təsir göstərmişdir. Eyni zamanda, dövlət hakimiyyəti mexanizminin sistemli formalaşması və inkişafının təmin edilməsində, ayrı-ayrı hakimiyyətin institutları da fəal iştirak etmişdilər. Həmin dövrdə bütün çətinliklərə baxmayaraq, AXC-nin siyasi sisteminin institusional quruluşuna daxil olan siyasi partiyalar, ictimai təşkilatlar, sosial qruplar və s. birliklər siyasi məqsədləri üçün bütün təsir qüvvələrindən və öz maraqlarında çıxış etmək imkanına malik olmuş, ictimai

maraqlarını sərbəst ifadə və təmsil etmişdilər.

Monoqrafiyanın giriş hissəsində bir məsələni qeyd etmək lazımdır ki, monoqrafiyada Azərbaycan Demokratik Respublikası istilahından istifadə edilməsi, əslində Cümhuriyyətin beynəlxalq səviyyədə daha çox bu adla tanınması ilə əlaqədardır.

## 1.1. Azərbaycan xalqının ali səlahiyyətli nümayəndəli orqanı-Milli Şuranın təsis olunmasının legitim əsasları, statusu və fəaliyyəti.

Azərbaycanın dövlət suverenliyini elan etmiş Milli Şuranın legitim əsaslarla formalaşması prosesi, Zaqafqaziya Seyminin süqut etməsi ilə başlamışdır. Belə ki, 1918-ci il aprel ayının 22-də Zaqafqaziya Seymi Cənubi Qafqazın müstəqilliyini elan etməklə, Zaqafqaziya Demokratik Federativ Respublikasını yaratmışdı. Lakin, milli mənafeyi təmin etməyə çalışan Federasiya subyektləri, kəskin fikir ayrılığı səbəbindən səmərəli fəaliyyət göstərə bilmədilər. Mayın 26-da gürcü nümayəndələri Seymdən çıxaraq Gürcüstanın müstəqilliyini elan etdilər. **Bunun ardınca Seymin müsəlman fraksiyası 1918-ci il mayın 27-də toplanaraq, Azərbaycanın müstəqilliyini elan etmək qərarına gəldi və özünün bütün hakimiyyət səlahiyyətlərini ali Təsisçi Məclis statusunda Azərbaycan İslam (müsəlman) Şurasına verdi. Həmin iclasda Məmməd Əmin Rəsulzadə Azərbaycan Milli Şurasının sədri seçildi. Bütün ali hakimiyyət səlahiyyətlərinə malik olan Azərbaycan Milli Şurası, 1918-ci il mayın 28-də Həsən bəy Ağayevin sədrliyi ilə keçirilən tarixi iclasında "İstiqlal Bəyannamə"sini ("Misaqi Milli") qəbul edərək Azərbaycan Xalq Cümhuriyyətini müstəqil, suveren dövlət elan etdi (71., s.12). Beləliklə, M.Ə.Rəsulzadə yeni təsis olunmuş Cümhuriyyətin dövlət başçısı səlahiyyətinə malik oldu.** Məhz, Azərbaycan Milli Şurası, yaranmış mürəkkəb şəraitdə azərbaycan xalqı qarşısında tarixi məsuliyyəti öz üzərinə götürərək, Quzey Azərbaycan ərazilərində itirilmiş müstəqilliyi yenidən bərpa edərək, Şərqdə ilk Demok-

ratik Respublikanı qurmuşdur (65). Müstəqilliyin bərpasına qədərki dövrdə, xüsusilə də XIX əsrin ikinci yarısından formalaşmağa başlayan milli məfkurə, milli özünüdərk, Azərbaycanın maarifçi mütəfəkkirləri və siyasi elitası tərəfindən ardıcıl və uğurla inkişaf etdirilmiş və bunun nəticəsi olaraq **Rusiya imperiyası tərəfindən ilhaq olunmuş və öz dövlət atributları olan ayrı-ayrı nominal-müstəqil xanlıqların əvəzinə, vahid milli Azərbaycan dövləti ideyası ətrafinda birləşən Cümhuriyyət yaranmışdır.**

AXC-nin siyasi təşkili fəaliyyətinin hüququ formalarının öyrənilməsində, "İstiqlal Bəyannamə"si əvəzsiz rola malikdir. Belə ki, 1918-ci il 28 may tarixindən başlayaraq Azərbaycan Milli Şurası və hökuməti, təşkil olunma fəaliyyətlərində inkişaf edən ictimai münasibətlərə uyğun, dövrün tələblərindən irəli gələn və demokratik proseslərə cavab verən dövlət-hüquq münasibətlərini təkmilləşdirərək, dövlət təsisatlarının və qanunuvericiliyin hüquqi bazasının yaradılmasını təmin etmişdilər. Yenidən dövlətçilk ənənələrini bərpa edən AXC, ilk vəzifə olaraq müasir dünyanın yeni siyasi nizamına uyğun olaraq azad, suveren, dünyəvi, demokaratik hüquqi dövlət qurmaqla özünü beynəlxalq aləmdə təsdiq etməyi əsas məqsəd kimi müəyyən etmişdir.

**Azərbaycan Xalq Cümhuriyyətini elan etmiş Milli Şura, rəsmi sənədlərdə Azərbaycan İslam Şurası adlanır. Azərbaycan İslam Şurası, Azərbaycanda və Zaqafqaziyada yaşayan bütün müsəlman əhalinin iradəsini ifadə edən Milli Assambleya olmuşdur.** Milli Assambleya təşkili formasına, strukturuna, idarə olunma əlamətlərinə və səlahiyyətlərin görə, kollegiyal ali hakimiyyət Məclisi statusuna malik idi. Milli Şuranın adında "islam" (müsəlman) ifadəsinin şərh edilərək araşdırılması, zənnimizcə müasir dünyanın siyasi reallıqları baxımından olduqca zəruridir. Doğrudur ki, AXC-nin praktiki fəaliyyəti ilə tanış olan heç bir tədqiqatçı, onun sivil demokratik dövlət olduğunu şübhə altına almır, lakin bu ifadənin izah olunmasına lüzum vardır. Belə ki, Azərbaycan xalqının iradəsini ifadə edən Milli İslam (Müsəlman) Şurası və onun adındakı "islam" ifadəsi ilk baxışdan sanki, sekulyar dövlətlə heç bir əlaqəsi olmayan hər hansı bir dini dövlətin təsis olunmasını özündə ehtiva edir. Əslində, Milli Şuranın adındakı "islam" termini, mahiyyət etibarı ilə Azərbaycanın bütün müsəlman əhalisinin iradəsinin ifadə edilməsini və etnik mənsubiyyətindən asılı olmayaraq əhalinin özlərini müsəlman adlandırılması fikrini özündə birləşdirirdi. Azərbaycanda, "biz müsəlmanıq" anlayışı nəyinki həmin dövrə qədər, hətta ondan sonrada islama etiqad edənlərin etnik mənsubiyyətləri əvəzinə işlənmiş ifadə forması olmuşdur. Yəni, Azərbaycanda yaşayan və etnik tərkibindən asılı olmayaraq bütün əhali, özlərini müsəlman adlandırmışdılar. Məhz, Milli Şuranın "Azərbaycan

parlamentinin yaradılması haqqında" 1918-ci il 19 noyabr qanununda da müsəlman əhalidən 80 nəfər (Cümhuriyyətdə yaşayan bütün etnik müsəlmanlar) təmsilçinin iştirakını nəzərdə tuturdu. Bu baxımdan Azərbaycan Milli İslam (müsəlman azərbaycanlılar) Şurası dini dövlətlə heç bir əlaqəsi olmayan, yalnız Zaqafqaziya Seymindəki bütün etnik müsəlmanların təmsilçiliyini müəyyən edən ifadə forması olmuşdur. Dünyəvi əsaslarla təsis edilmiş demokratik, hüquqi AXC dövlətinin elan edilməsi, bunu bir daha təsdiq edir. Beləliklə, sivil dünyanın bütün demokratik ənənələrə əsaslanan, dünyəvi Azərbaycan Demokratik Respublikasının qurulmasını elan edən Milli Şura və onun adındakı "islam" (müsəlman) şurası ifadəsinin teokratik quruluşla heç bir bağlılığı yoxdur.

Müstəqilliyin bəyan edilməsi, Azərbaycan xalqının tarixindəki bu önəmli hadisə, heç də təsadüfü olmamış, əksinə ictimai-siyasi proseslərin inkişafının labüd tarixi-hüquqi nəticəsi idi. Beynəlxalq aləmdə Azərbaycan Demokratik Respublikası kimi tanınan, Azərbaycan Xalq Cümhuriyyətinin yaranması, fəaliyyəti və süqutu, həm o dövrə qədər və həm də ondan sonra bir sıra mövcud siyasi, ictimai, hərbi, iqtisadi, mədəni və hüquqi əsaslarla şərtləşirdi. Belə ki, XX əsrin əvvəllərində xalqın itirilmiş dövlətçilik ənənələrini bərpa etmək, öz milli sərvətlərinə sahib olmaq, əhalinin savad almasını və maariflənməsini təmin etmək, imperiya müstəmləkəsi əsarətindən qurtulmaq, dünya dövlətləri sırasına daxil olmaqla öz milli dövlətini yaratmaq, demokratik respublika quruluşlu idarəçilik formasında və az vaxt ərzində dövlət mexanizminin qanunvericilik, idarəçilik və hüquq institutlarını təşkil etmək, müstəqil məhkəmə hakimiyyəti qolunu formalaşdırmaq, milli ordu qurmaq, dövləti beynəlxalq hüququn subyektinə çevirmək və s. məsələlər-ümumilikdə Rusiya imperiyasının işğalı nəticəsində son qoyulmuş Azərbaycanın dövlətçiliyinin varisliyini bərpa etməkdən ibarət olmuşdur.

Milli Şuranın yaranmasını obyektiv gerçəlkliyə çevirən cəhətlərlə yanaşı, bir sıra subyektiv amillərdə mövcud idi. Belə ki, həmin dövrün reallıqları konteksində baş verən hadisələrin nəticəsi olaraq Rusiya imperiyasında bolşevik çevrilişindən sonra dövlət aparatı tamamilə dağılır və Cənubi Qafqazda baş verən hakimiyyətsizlik, özbaşnalıq, hərc-mərcliyin qarşısını almaqdan ötrü yaradılmış Zaqafqaziya Şeymi isə, səmərəli fəaliyyət göstərməkdə tamamilə aciz duruma düşmüşdür. Vəziyyəti mürəkkəbləşdirən digər cəhət 1918-ci il aprelin 25-də yaradılmış Bakı quberniya Xalq Komissarları Sovetinin ("Bakı Kommunası"), Ümumrusiya Bolşevik Mərkəzi hökumətini Azərbaycanda təmsil etdiyini və onun qəbul etdiyi bütün dekret və qərarları özü üçün yeganə və imperativ hüquqi qüvvəli akt hesab etməsi olmuşdur. Məhz, AXC-nin fəaliyyətini çətinləşdirən və

məhdudlaşdıran əsas səbəblərdən biri də, Cənubi Qafqazın digər Cümhuriyyətlərindən fərqli olaraq, Azərbaycan ərazisində artıq Rusiya bolşevikləri tərəfindən idarə olunan "Bakı Kommunası" adlanan qurumun fəaliyyət göstərməsi idi. Bakı Sovetinin daşnak-bolşevik qüvvələri Bakıdakı 31 Mart soyqırımı hadisələrini sinfi mübarizə adı altında, Azərbaycanın digər ərazilərində davam etdirdiyinə görə, Zaqafqaziya Seymi öz nümayəndələrini, Bakı Xalq Komissarları İcraiyyə Komitəsinin sədri erməni millətçisi, qatı türk düşməni, daşnak S.Şaumyanla danışıqlar aparmaq üçün Bakıya göndərmişdi. Əslində, Azərbaycanın müsəlman əhalisinin məhv edilməsinə yönəlmiş bu məqsəd, Şamuyanın, gerçəkləşdirmək istədiyi məkrli planın tərkib hissəsi idi. S.Şamuyan heç bir danışığı qəbul etməyərək Seymin azərbaycanlı nümayəndəsini dərhal həbs etdirir, Seym sədrinin müavini, milliyətcə erməni olan nümayəndəni isə geriyə Tiflisə qaytarır. Erməni daşnakların və bolşeviklərin Azərbaycana qarşı münasibəti, Zaqafqaziyada Federativ dövlətin yaradılması niyyətini yox edir. **Bakı Xalq Komissarları İcraiyyə Komitəsinin sədri millətçi-daşnak S.Şaumyanın bilavasitə açıq və gizli üsullarla milli qırğın törədilməsinə rəvac verməsi, Bakını Azərbaycandan ayırmaq, ilkin mərhələdə daşnak-bolşeviklərin idarə etdiyi imperiya quberniyasına çevirmək məqsədi daşıyırdı. Bakını beynəlmiləl şəhər kimi təqdim edən daşnak-bolşeviklər, müsəlman əhaliyə qarış məqsədli soyqrım törətmiş, yerli əhalini qorxudaraq şəhəri tərk etməyə məcbur etməklə milli tərkibi dəyişdirməyə çalışmışdılar. Məhz, erməni-bolşeviklər qədim tarixə malik Bakını, onun əsas mərkəzini təşkil edən İç şəhər, qala divarlarının ətrafındakı Bayır şəhər, Qara şəhər və s. bu kimi milli toponimləri ilə əslindən qətiyən mübahisə doğurmayan müsəlman-türk şəhərini, Dərbənd şəhəri kimi Azərbaycandan təcrid edərək qopardılmasına hesablanmış siyasəti həyata keçirməyə cəhd etmişdilər. Mərkəzin təlimatından ruhlanan daşnak-bolşeviklər demək olar ki, bütün Güney və Quzey Azərbaycanda bu soyqrımı törətmişdilər. Sovet-bolşevik rejimi dövründə isə, bu qırğınları özünəməxsus bolşevik-ideoloji təbliğatına uyğun olaraq vətəndaş müharibəsi, sinfi mübarizə, sahibkar-fəhlə mübarizəsi kimi xarakerizə edərək öz riyakar siyasətlərini gizli üsullarla davam etdirmişdilər** (7, 16, 17).

Azərbaycanı gözlənilən təhlükələrdən qorumağın yeganə yolu suveren, müstəqil dövlətin qurulması idi. Qeyd etdiyimiz kimi, bu məqsədlə Milli Şuranın may ayının 28-də keçirilən iclasında 24 səslə Azərbaycanın dövlət müstəqilliyi haqqında **"İstiqlal Bəyannamə"si ("Milli and**") elan edildi. Müsətəqillik bəynnaməsi elan olunan dövrdə M.Ə. Rəsulzadə və M.H.Hacinski Batumda Azərbaycanın müstəqilliyi barədə Türkiyə nümayəndələri ilə çox mühüm danışıqlar aparırdılar. Azərbaycanın dövlət suverenliyi haqqında aktın preambula

hissəsində göstərilirdi ki, böyük Rusiya inqilabı gedişində Rusiyada dövlət orqanizminin ayrı-ayrı hissələrinin dağılması və rus ordusunun Zaqafqaziyanı tərk etməsi ilə burada yeni siyasi vəziyyət yaranmışdır. Taleləri öz ixtiyarına buraxılmış Zaqafqaziya xalqları Zaqafqaziya Demokratik Federativ Respublikasının yaratmaqla vəziyyətdən qurtulmağa cəhd etmişdilər. Lakin siyasi hadisələrin sonrakı gedişində gürcü xalqı Zaqafqaziya Demokratik Federativ Respublikasının tərkibindən çıxmağı və müstəqil Gürcüstan Demokratik Respublikası yaratmağı münasib bilmişdi. Rusiya və Osmanlı imperiyası arasındakı müharibənin dayandırılması, eyni zamanda ölkə daxilindəki görünməmiş anarxiyanın ləğvi ilə bağlı olan Azərbaycanın mövcud siyasi durumu, Azərbaycan xalqını düşdükləri ağır vəziyyətdən çıxartmaq üçün Şərqi və Cənubi Zaqafqaziyadan ibarət olan Azərbaycanın öz dövlət orqanizmini yaratmasını zəruri etmişdir. Bu səbəbdən, legitim əsaslarla ümumxalq səsverməsi yolu ilə seçilmiş Azərbaycan Milli Şurası (6., s.27) bəyan edir:

1) Bu gündən etibarən Azərbaycan xalqları suveren hüquqlara malikdirlər və Cənubi və Şərqi Zaqafqaziyadan ibarət olan Azərbaycan tamhüquqlu müstəqil dövlətdir;

2) Müstəqil Azərbaycanın siyasi quruluş forması demokratik respublikadır;

3) Azərbaycan Demokratik Respublikası bütün millətlər, xüsusilə qonşu xalqlar və dövlətlərlə mehriban qonşuluq münasibətləri yaratmağa çalışır;

4) Azərbaycan Demokratik Respublikası öz sərhədləri daxilində milliyətindən, dinindən, sosial vəziyyətindən və cinsindən asılı olmayaraq, bütün vətəndaşlara vətəndaşlıq və siyasi hüquqlar təmin edir;

5) Azərbaycan Demokratik Respublikası öz ərazisi daxilində yaşayan bütün millətlərə azad inkişafları üçün geniş imkanlar verir.

6) Müəssislər Məclisi çağırılana kimi, bütün Azərbaycanın idarəsi başında xalq səsverməsi yolu ilə seçilmiş Milli Şura və onu qarşısında məsuliyyət daşıyan Müvəqqəti hökumət durur.

Beləliklə, siyasi-hüquqi əhəmiyyətli 6 bəndlik Bəyannamə, azərbaycan xalqının müasir dövlətçilik tarixində yeni dönüşün başlanmasını müəyyən etmişdir.

Milli Şura dövlətçilik fəaliyyətinə başladığı qısa müddətdən sonra ciddi problemlərlə üzləşir. **İrəvan şəhərinin və onun ətraf ərazilərinin güzəşt edilməsi, həmçinin Bakıda daşnak-bolşevik hakimiyyəti, AXC-ni çətin vəziyyətlə qarşılaşdırmışdı. Çox uğurlu addımlardan biri kimi, Azərbaycan**

**Xalq Cümhuriyyəti hökuməti, dərhal Türkiyə hökuməti ilə 4 iyun 1918-ci il tarixli hərbi yardım müqaviləsi imzalamışdır. Lakin, Türkiyə hökumətinin Qafqazdakı bir sıra proseslərə anlaşılmaz münasibəti vəziyyəti daha da mürəkkəbləşdirmişdi. Belə ki, Azərbaycanda olan Türkiyə qoşunlarının baş komandanı Nuru paşa Milli Şura üzvlərini qəbul etməkdən imtina edir və Milli Şuranın fəaliyyətinin dayndırması məsələsi gündəliyə daxil olur. Osmanlı hərbi komandanlığının Milli Şuraya münasibəti dəyişməz olaraq qalmışdır.**

**Azərbaycanın müstəqilliyini elan etmiş Ali Təsisçi Məclisin (Milli Şura) siyasi proseslərdən kənar saxlmaqla ona etimadsızlıq göstərilməsi, öz növbəsində dərhal və təxirəsalmadan vəziyyətdən çıxmaq üçün çevik və düşünülmüş qərarın verilməsi zərurətini yaratmışdır. Məhz, yeni dövrün üç daimi qaynar ocağlarından (Balkanlar, Yaxın Şərq və Qafqaz) birinin yerləşdiyi Azərbaycanda böyük dövlətlərin maraqları, ölkənin varlığını təhlükə altında qoymuşdu. Bakının azad edilməsi isə, AXC üçün həyati əhəmiyyətli məsələ idi. Nəticədə, dövlətin başçısi kimi M.Ə.Rəsulzadə, Milli Şura tərəfindən iyunun 17-də üç mühüm qətnamə qəbul etməklə böhrandan çıxmaqa nail olur və problem hüquqi münasibətlər müstəvisində tənzimlənir.**

Birinci qətnamə, AXC-nin fəaliyyətini davam etdirəcək ikinci müvəqqəti hökumətin yaradılması və onun tərkibinin təsdiq edilməsi məsələlərini əhatə edirdi. Yenidən yaradılmış kabinetə başçılıq təkrarən F.X.Xoyskiyə tapşırılır. İkinci qətnamənin hüquqi məzmununda isə, yeni Müvəqqəti hökumətin hüquq və vəzifələri təsbit olunurdu. Belə ki, müvəqqəti hökumət qətnamənin müəyyən etdiyi səlahiyyətlər çərçivəsində imperativ olaraq dövlət müstəqilliyini və mövcud siyasi azadlıqları təmin etməklə yanaşı, aqrar islahat və digər bu kimi mühüm ümumdövlət əhəmiyyətli məsələlər barəsində qanunlarda hər hansı dəyişiklik etmək səlahiyyətlərindən məhrum edilir. Eyni zamanda hökumətə, yaxın 6 ay ərzində Ümumazərbaycan Müəssislər Məclisinin çağrılmasını təmin etmək vəzifəsini yerinə yetirmək tapşırılırdı. Müvəqqəti hökumət idarəetmənin digər sahələri üzrə bütün dispozitiv hüquqlara malik olmaqla, tam sərbəst fəaliyyət göstərə bilərdi. Üçüncü qətnamə Milli Şuranın buraxılmasını təsbit edirdi. Qətnamə müəyyən edirdi ki, Azərbaycanın ağır daxili və xarici vəziyyətini nəzərə alaraq, ali dövlət hakimiyyəti F.X.Xoyskinin başçılığı ilə yeni yaradılmış hökumətə verilir və hökumət isə, hakimiyyəti qısa müddətdə çağırılmalı olan Müəssislər Məclisindən (Təsisçilər Məclisi) başqa heç bir orqana verə bilməzdi. Beləliklə, Milli Şura ali dövlət hakimiyyəti səlahiyyətlərindən müvəqqəti imtina edərək Azərbaycan

dövlətçiliyinin qorunub saxlanılması üçün fəaliyyətini dayandırmaqla, mürəkkəb vəziyyətdən uğurla çıxa bilmişdir.

Milli Şura Azərbaycanı Demoкratiк Respubliкa elan etdiyi andan başlayaraq haкimiyyət bölgüsü prinsiplərinə əsaslanan müstəqil qanunverici, icraedici və məhкəmə haкimiyyət orqanlarının yaradılmasını təxirə salmadan yerinə yetirməyə çalışmışdır. Lakin, 1918-ci il iyun böhranı bu prosesin realizasiyasını imperativ qaydada dayandırmış və bu tarixdən başlayaraq delegiya hüququ çərçivəsində həm qanunverici, həm də, icraedici hakimiyyət səlahiyyətlərini Azərbaycan höкumətinə həvalə edən Milli Şura, AXC-nin legitimliyni təmin etmişdir (29., s.223).

Milli Şuranın tapşırığı ilə iкinci höкumət кabineti 6 aydan, yəni 1918-ci il deкabrın 16-dan gec olmayaraq Azərbaycan Müəssislər Məclisinə seçкilərin кeçirilməsini başa çatdırmalı idi. Demoкratiк dövləti möhкəmləndirməк üçün bütün tədbirlərin görülməsi və islahatların aparılması zərurəti höкumətin ən başlıca vəzifəsi müəyyən edilmişdir. Beləliklə, Milli Şuranın problemə düzgün və balanslaşdırılmış münasibəti, Cümhuriyyətdə yaranmış ilk dövlət böhranını aradan qaldırdı. Milli Şuranın fəaliyyətini dayandırdığı müddətdə, F.X.Xoyski hökumətinin ən mühüm vəzifəsi tezliklə bütün Azərbaycanı əhatə edəcək hakimiyyət orqanlarını qurmaq olmuşdur.

Müvəqqəti milli hökumət Azərbaycana nəzarət etmək üçün ilk növbədə Bakı şəhərini daşnak-bolşevik işğalından azad etməli idi. Lakin, bolşevik-daşnak hakimiyyəti Azərbaycanda hərbi-siyasi vəziyyəti daha da gərginləşdirərək iyunun 7-də Bakı Sovet qoşunlarını Gəncə istiqamətinə hücuma göndərdi. Bakı quberniya-sına nəzarət edən Xalq Komissarları Soveti Moskvanın göstərişi ilə bütün Azər-baycanda bolşevik rejiminin qurulmasına çalışırdı. Leqal fəaliyyətini dayandırmağa baxmayaraq Milli Şuranın diplomatik səyləri və F.X.Xoyski hökumətinin uğurlu fəaliyyəti nəticəsində bolşevik-daşnakların planları bütünlüklə iflasa uğradı.

Azərbaycan dövlətinin gələcək fəaliyyətini müəyyən edən Milli Şuranın "İstiqlal Bəyannamə"si, dövlət hüququnun əsaslarını təsbit edən əsas qanun kimi böyük əhəmiyyətə kəsb edir. "İstiqlal Bəyannamə"si konstitusiya qüvvəli akt olmaqla, əsas qanunun prinsiplərinə uyğun olaraq, dövlət hakimiyyətinin əsaslarını müəyyən edirdi. Konstitusiya hər bir dövlətdə və cəmiyyətdə siyasi intizamın əsas təminatçısıdır. Bəyannamə konstitusiyanı (əsas dövlət hüququnu) tam əvəz edə bilməsə də, lakin yeni təsis edilmiş Cümhuriyyətdə dövlət hakimiyyətinin əsaslarını özündə ehtiva edən ilk ali dövlət aktı kimi olduqca böyük funksiyalara malik olmuşdur. "Dövlət hüququ" anlayışı ilk konstitusiyaların yaranmasında

sonra, hüquq sahəsi kimi inkişaf etmişdir. “Dövlət hüququ”, konstitusiya hüququ anlayışına ekvivalentdir. Əgər ABŞ, Fransa kimi dövlətlərdə konstitusiyalar əsas qanunun kimi xalqların mübarizəsi nəticəsində yaranmışdırsa, Almaniya, Rusiya kimi ölkələrdə isə hakimiyyət tərəfindən, yuxarıların xalqa bəxş etdiyi hüquqlar olduğu üçün “dövlət hüququ” adlanırdı. “İstiqlal Bəyannamə”si öz məzmunu və mahiyyəti etibarı ilə, dövlət hüququ kimi xarakterizə edilməklə, əsas dövlət qanunun səlahiyyətlərinə aid edilən funksiyalar müəyyən etmişdir.

**Milli Şuranın Azərbaycan ali hakimiyyət orqanları yerarxiyasında hansı mövqeydə dayanmasının müəyyənləşdirilməsi, onun statusu və əsas fəaliyyətinin siyasi-hüquqi cəhətlərinin öyrənilməsi baxımından olduqca vacibdir. İlk növbədə qeyd etmək lazımdır ki, Milli Şura parlament deyil. Milli Şura, Azərbaycan dövlətçiliyi tarixində çox böyük xidmətlər göstərmiş, tam legitim əsaslarla yaradılan və fəaliyyət göstərən ən ali hakimiyyət orqanı olmuşdur. Eyni zamanda Azərbaycan İslam Şurası (Milli Şura), təyinatına görə, Azərbaycanın müsəlman əhalisini təmsil edən Milli Assambleya idi.**

**Məhz, Milli Şuranın qəbul etdiyi rəsmi sənədlərdə onun hüquqi statusuna aydınlıq gətirilmişdir. Belə ki, “İstiqlal Bəyannamə”sinin preambula hissəsində və Bəyannamənin 6-cı bəndində Milli Şura, xalq səsverməsi ilə seçilmiş ali hakimiyyət orqanı kimi müəyyən edilmişdir. Bəyannamənin bu bəndinə əsasən Milli Şura, onun formalaşma xarakterindən irəli gələn, bütün azərbaycan xalqının iradəsini ifadə edən, Azərbaycanın idarə olunması məsuliyyətini öz üzərinə götürən ilk növbədə Ali Təsisçi hakimiyyət orqanı kimi elan edilmişdir.**

**Zaqafqaziya Demokratik Federativ Respublikasının müsəlman fraksiyasının səlahiyyətlərini öz üzərinə götürən Azərbaycan Milli Şuranın statusu, iyun böhranında qəbul edilən 3-cü qətnamənin məzmununda bir daha öz təsbitini tapmışdır. Milli Şuranın bu qətnaməsində göstərilirdi ki, ali dövlət hakimiyyəti bundan sonra F.X.Xoyskinin başçılığı ilə yeni yaradılmış hökumətə verilir və hökumət isə, hakimiyyəti qısa müddətdə çağırılmalı olan Müəssislər Məclisindən (müəssis, yəni təsisçi məclis) başqa heç bir orqana ve-rə bilməzdi. Milli Şura malik olduğu ali hakimiyyəti və özünün bütün digər mühüm səlahiyyətlərini, çağırılması nəzərdə tutulan və öz statusuna bərabər ali təsisçi orqana-Müəssislər Məclisinə həvalə etməsi, Milli Şuranın ali hakimiyyət orqanları yerarxiyasında Təsisçi Məclis statusuna malik olduğunu bir daha rəsmiləşdirmişdir (31., s.144).**

**Beləliklə, Milli Şura azərbaycan xalqının iradəsini ifadə edən ali hakimiyyətli Təsisçi Məclisdir. Məhz, Milli Şura, ali hakimiyyətin bütün hüquq və səlahiyyətlərini özündə birləşdirən, Azərbaycan xalqının iradəsini ifadə edən möhtəbər və tam səlahiyyətli kollegiyal ali hakimiyyətə malik nümayəndəli Təsisçi Məclis orqanı statusunda fəaliyyət göstərmişdir.**

Milli Şuranı yaranmasını zəruri edən bir sıra amillər, mövcud siyasi-iqtisadi və hərbi vəziyyətlə şərtləşirdi. Ümumilikdə Milli Şuranın (Təsis Məclisi) yaranması, onun üzvləri tərəfindən 6 bənddən ibarət Müstəqillik Aktının qəbul edilməsi hüquqi cəhətdən əsaslandırılmış legitim proses olmaqla Azərbaycan xalqının iradəsini müəyyən etmişdir. Belə ki, 1917-ci il noyabrın 26-28-də Ümumrusiya Müəssislər Məclisinə keçirilmiş seçkidə iştirak etmiş Azərbaycan xalqı öz səlahiyyətli nümayəndələrini legitim-hüquqi əsaslarla bu ali orqana seçmişdilər. Məhz Milli Şuranın tərkibinə daxil olan həmin səlahiyyətli nümayəndələr Azərbaycan xalqı qarşısında öz məsuliyyətlərini tam dərk edərək, bütün dünyaya Azərbaycan Xalq Cümhuriyyətinin (I Respublika) təsis etdikərini bəyan etmişdilər.

AXC-nin dövlətçilik tarixində Azərbaycan Milli Şurası ilə yanaşı, ölkənin qəzalarını əhatə edən **yerli milli şuralarda** mövcud olmuşdur. Belə ki, Rusiya imperiyası dağıldıqdan sonra, baş verən bolşevik və erməni təcavüzünün qarşısını almaqdan ötrü, o dövrdə Azərbaycanın bütün qəzalarında özünümüdafiə məqsədi ilə yerli milli şuralar yaradılmışdır. Məhz, AXC-nin legitim orqanlarının formalaşmasında, o cümlədən yerli milli şuralar tərəfindən seçilən və inzibati ərazi vahidlərinin nümayəndələri qismində parlamentdə koppotasiya qaydasında təmsil olunan üzvləri, Müəssislər Məclisinin çağırılması ilə əlaqədar yaranmış mürəkkəb vəziyyətdən çıxmaqda əvəzsiz rola malik olmuş və qanunverici orqanın legitim əsaslarla formalaşmasını təmin etmişdilər. Digər tərəfdən, bu bölgü prinsipi həm də Azərbaycan sərhədlərini dəqiqləşdirməklə, bütün qəzaların parlamentdə iştirakını tam əhatə etmişdir. Mövcud seçki qanunu səsvermə hüququna malik olan bütün vətəndaşları onların siyasi, sinfi, dini, milli fərqlərini nəzərə almadan seçkidə iştirakını tam təmin edirdi ki, bu da beynəlxalq tanınma prosesində olduqca vacib hüquqi əsaslardan biri olmuşdur. Milli Şura üzvlərinin səriştəli siyasi mövqeyləri, nəticə etibarı ilə demokratik parlamentin formalaşmasına səbəb olmaqla, milli hökumətin varlığını istəməyən erməni və Rusiya imperiyası tərəfdarlarına, AXC-ni tanımaq istəməyən o vaxtkı ingilis hərbi komandanlığına onların demokratiya, hüquq bərabərliyi, həmrəylıklə bağlı iddialarına son qoymaqla sübut etdi ki, Azərbaycan xalqı istiqlala tam layiq olmaqla azad, suveren, dünyəvi və sivil dövlət quruculuğu yolunda qətiyyətli siyasət aparır.

Azərbaycan Xalq Cumhuriyyətinin elan edilməsi, cümhuriyyət ideyaları və milli dövlətçilik ənənələrinin təşəkkül tapması və formalaşmasını şərtləndirən əsas amil olmuşdur. Dövlət hakimiyyətinin əsaslarını müəyyən edən "İstiqlal Bəyannamə"sində sivil dünyanın müəyyən etdiyi dövlət-hüquqi prinsiplər: hüquq və azadlıqlar, siyasi institutlar, hakimiyyətin bölünməsi kimi suveren əsaslara malik dövlət hakimiyyəti orqanları və hüquq institutları sistemini və nəticə etibarı ilə müasir sivil cəmiyyətin prioritet hesab etdiyi quruluşu təsbit etmişdir. Azərbaycan Xalq Cumhuriyyəti ictimai-siyasi vəhdətin təmin edilməsində dilindən, dinindən, cinsindən, silki mənsubiyyətindən və s. asılı olmayaraq ölkədə yaşayan bütün xalqların dövlət həyatının bütün sahələrində iştirak etmələri üçün mühüm tədbirlər həyata keçirmişdir. Milli hökumət müxtəlif dinlərin nümayəndələrinin rəsmi fəaliyyət göstərdiyi dini konfensiyaların, milli azlıqların və müxtəlif ictimai birliklərın (publik hüquqi şəxslər) multikultural dəyərlər əsasında fəaliyyətləri üçün bütün şərait və imkanlar yaratmışdır. Milli-dini bayramlar münasibəti ilə Cümhuriyyət ərazisində yaşayan ayrı-ayrı xaqlar üçün qeyri-iş günlərinin elan edilməsi ənənvi hal almışdır. Dövlətin qanunverici hakimiyyət orqanı olan parlamentin tərkibində ən müxtəlif xaqların nümayəndələrinin iştirakı təmin olunmuş və onlar üçün proporsional say kvotası müəyyən edilmişdir. Eyni zamnda, AXC-nin ən müxtəlif idarəetmə hakimiyyəti sistemində Azərbaycanda yaşayan xalqların nümayədələri iştirak etmişdidir. Xüsusilə də, qanunverici orqanda təmsil olunmaq, ictimai-siyasi sabitliyin və birliyin təmin olunmasında olduqca zəruri tədbirlərdən olmuşdur.

**Azərbaycan Milli Şurasının fəaliyyətində ən ziddiyyətli məqam kimi xarakterizə edilən 1918-ci il 29 may tarixli 3 saylı iclas Protokolu, xüsusi araşdırılma və geniş təhlil aparılmasını zəruri edən məsələləri əhatə edir. 2018-ci ildə 100 illik yubileyi tamam olan Azərbaycan Xalq Cümhuriyyətinin yaranması, xalqımızın çox əsrlik dövlətçilik tarixinin şərəf və qürur mənbəyidir. Bəhs olunan dövrün son dərəcə çətin və mürəkkəb olması və nəyin bahasına olursa-olsun Cümhuriyyətin legitimləşdirilməsinə (həm beynəlxalq aləmdə tanınması, həm də, dövlət hakimiyyətini təmin edən mexanizmin formalaşması) çalışan Milli Şuranın həmin vaxt və sonrakı mərhələrdə qəbul etdiyi bütün qərarlar, zərurətdən yaranmış imperativ aktlar olmuşdur. Lakin, hansı səbəbdən və tarixi şəraitdə baş verməsindən asılı olmayaraq tarixi fakt və onun hüquqi nəticələri öyrənilməli və baş verə biləcək anoloji presedetlərin qarşısının alınması, təkrarlanmaması üçün yaddaşlarda saxlanılmaqla, nəticə çıxarılması olduqca zəruridir (50., s. 3-10).**

**Milli Şuranın "İstiqlal Bəyannamə"sinin hüquqi təbiəti mahiyyət etibarı ilə, Şimali Azərbaycan ərazisində yaşayan azərbaycan xalqının ümumi iradəsinin ifadə etməklə, demokratik respublika quruluşuna əsaslanan hakimiyyətin yaradılmasını özündə ehtiva etmişdir (70., s. 9-10). Azərbaycan Milli Şurasının elan etdiyi Cümhuriyyətın ərazi hüdudları, Cənubi Qafqazın cənub və şərq sərhədlərini əhatə edir. Yəni, Şimali Azərbaycan xanlıqlarının, o cümlədən İrəvan xanlığının da daxil olduqları ərazilər yeni varis dövlətin, yəni AXC-nin ayrılmaz tərkib hissəsidir. Türkmənçay müqaviləsində (1828-ci il) nəzərdə tutulan ərazi bölgüsünə müvafiq olaraq, yalnız Şimali Azərbaycan ərazilərində mövcud olmuş xanlıqlar və digər ərazi vahidləri, Cümhuriyyətin tərkib hissəsinə daxildir. Beləliklə, Bəyannamədə göstərilən ərazilər çərçivəsində müəyyən edildiyi kimi, Şimali Azərbaycanda mövcud olmuş xanlıqların hüquqi varisi, bilavasitə Azərbaycan Xalq Cümhuriyyətidir.**

**Dövlətlərin varisliyi prinsipinə (75., s. 333) əsaslanaraq qeyd etmək olar ki, Cənubi Qafqazın Rusiya imperiyası tərəfindən işğal olunmasına qədər nominal müstəqil olan və dövlət hakimiyyəti atributlarına malik olan Azərbaycan xanlıqları, o cümlədən İrəvan xanlığı, öz mövcud ərazi hududlarında yeganə hüquqi varis dövlətdir. Müasir beynəlxalq hüququn müəyyən etdiyi prinsiplərin (75., s.55-78) hüquqi normaları da, bu prosedurları bir daha təsdiq edir.**

**Rusiya imperiyasının düşünülmüş quberniya inzibat-ərazi vahidləri sistemi isə, milli inzibati-ərazi quruluşunun əsaslarını dağıtmaq, başqa xalqları müxtəlif bəhanələrlə bu ərazilərdə yerləşdirib məskunlaşdırmaqla, "milli inzibati-ərazi vahidlərini əritmək" və beləliklə gələcək "parçalamaq" siyasətlərini asanlıqla həyata keçirmək məqsədi daşımışdır. Məqsədli şəkildə İran və Türkiyə ərazilərindən bu yerlərə köçürülən ermənilər, əhali nisbətini dəyişməsinə hesablanmış siyasəti təmin etmişdilər. Rusiya imperiyasının işğalı nəticəsində Azərbaycan ərazilərinin məskunlaşdırılması çərçivəsində torpaqların ermənilərə verilməsi mütamadi prosesə çevrilmişdir. Bu proses isə, sanki Avropa kontinent hüququnda təsbit edilmiş "ölü əl hüququ"nun ("kilsəyə verilən torpaqlar heç zaman geri qayıtmır") anologiyası idi (34., 64). Yəni, tarixi faktlar sübut edir ki, məskunlaşmış ərazilər müxtəlif bəhanələrlə (inzbati-idarəçilik sistemində islahatlar və s.) bir-birinin ardınca Azərbaycan inzibati-ərazi idarəçiliyindən çıxarılmışdır.**

**Azərbaycan topaqlarının ermənilərə verilməsini rəsmiləşdirən Milli Şuranın 29 may 1918-ci il tarixli iclasında, AXC-nin Nazirlər Şurasının sədri F.Xoyski məsələ ilə bağlı çıxış edərək yığıncaq iştirakçılarına bu məsələ**

**barədə məlumat vermişdir (71., s.14). İclasda, erməni şurasının müraciəti əsasında mərkəzi şəhər statusunda İrəvanın, erməni federasiyasına verilməsi müzakirə edilmişdir. Əslində, erməni şurası Cənubi Qafqazdan qərbdə yerləşən ərazilərdə yaradılmalı idi. Lakin, erməni şurası, mürəkkəb və ağır hərbi-siyasi vəziyyətlə əlaqədar və Zaqafqaziya Seyminin dağılmasından sonra, Azərbaycan nümayəndə heyətindən bu məsələdə kömək göstərilməsi üçün xahiş etmişdir. Digər tərəfdən, Batum şəhərində keçirilən coxtərəfli danışıqlarda ermənilər, Qafqazda sülhü və barışığı təmin edəcək bir sıra mühüm öhdəliklər götürmüşdülər. Nəticədə Azərbaycan Milli Şurası, erməni şurasının şifahi müraciətini səs verməyə çıxararaq onların istəyini 16 nəfər lehinə, 1 nəfər əleyhinə və 3 nəfər bitərəf qalmaqla yerinə yetirmişdilər.**

**Bəs bu sənədin müasir hüquqi konstruksiyasını necə müəyyən etmək olar? Azərbaycan topaqlarının Ermənistana verilməsini rəsmiləşdirən hüquqi aktda, əvəzsiz istifadə hüququnun hər hansı bir forması: müvəqqəti, daimi və ya keçid dövrü (müqavilə hüququnun iki mühüm elementi: qiymət və müddət göstərilməyib) üçün verilməsi təsbit edilməmişdir. Belə olduğu halda, hüquqi əlamətlərinə görə şifahi razılaşma əsasında əvəzsiz istifadə (icarə) hüququ yaranır. Təbii ki, Milli Şuranın qərarı narazılıqla qarşılanmış, xüsusilə də, İrəvan quberniyasının Azərbaycan təmsilçilərinin çox ciddi etirazına səbəb olmuşdur. Azərbaycan Xalq Cümhuriyyəti ali hakmiyyət orqanının qərarı isə, erməni, gürcü və Türkiyə nümayəndələrinin nəzərinə çatdırılmışdır. Beləliklə, Milli Şuranın 3 saylı iclasının Protokolu ilə təsdiq edilmiş çox kobud və səhv qərar, tarixən təşəkkül tapmış status kvonu dəyişmiş, Azərbaycanın bir hissəsinin, dövlət varisliyi hüququnda yalnız İrəvan xanlığının əhalisinə aid edilən hüquqlar mənimsənilmiş, AXC hökuməti yerli əhalinin rəyini nəzərə almadan bu hüquqları öz səlahiyyətləri çərçivəsinə daxil edərək, İrəvan şəhərini erməni şurasına güzəşt etmişdir.**

**Milli Şuranın F.Xoyskinin sədrliyi ilə keçirilən 3 saylı iclası və onun Protokolunun hüquqi məzmunu və mahiyyətinın təfsir edilməsi, Azərbaycan Respublikası tərəfindən onun denonsasiyası üçün, qanunvericilik bazasının prosessual təminatının bütün qanuni əsaslarının tətbiq olunmasının hüquqi forma və üsullarını müəyyən edir. Belə ki, hüquqi cəhətdən təfsir edilən Protokolun məzmun və hüquqi konstruksiya elementlərinə müvafiq olaraq, burada əvəzsiz istifadə hüququ yaranır və istifadə hüququnun obyekti isə İrəvan şəhəri, daha dəqiq İrəvan quberniyasının ərazisidir. Öhdəlik hüququndan məlumdur ki, kontraktların bağlanmasının literal (yazılı) və verbal (şifahi) formaları müqavilə hüququ münasibətlərinin əsas tənzimetmə**

**üsuludur. Verbal (şifahi) müqavilələr, bilavasitə ifadələrin tələffüz edildiyi andan hüquqi qüvvəyə minir və adətən "əllərin sıxılması" ilə sanki təsdiqini ("möhürlənməsini") tapır. Roman-german hüquq sistemində qarşı tərəfin əsas razılığını təmin edən və uyğun gələn cavabın verilməsi vasitəsilə ifadə olunun şifahi müqavilə, stipulyasiya adlanır. Konkret bəhs etdiyimiz hüquqi prosedur üzrə, stipulyasiya (şifahi) müqaviləsinin bütün hüquqi konstruksiya elementlərindən istifadə olunmuşdur.**

**Mülkiyyət hüququ, mülkiyyətin əldə edilməsinin ilkin (occupatio rei nullius) və törəmə (tradito) üsullarını müəyyən edir. Konkret bəhs etdiyimiz hal üzrə, ilkin mülkiyyət hüququna sahiblik, İrəvan əhalisinin səlahiyyətlərinə aiddir. Törəmə üsulla əldə edilən hüquq isə, əvvəlki mülkiyyətçinin hüquqlarına əsaslanır.**

*Yeri gəlmişkən bir məsələni də qeyd etmək lazımdır ki, İrəvan əslzadələrinə məxsus bu ərazilərin əzəli mülkiyyətə sahiblik hüququnun məzmunu ilə, Bakı quberniyasında mülkiyyət hüququ əldə etmiş (məs: erməni millətindən olan sahibkar neft milyonçuları və s.) sahibkarların varisliyinın hüquqi məzmunu arasında fərqlər çox böyükdür. Çünki, birinci halda sahiblik hüququ əzəli (torpaq) mülkiyyətlə, ikinci halada isə, məlum Bakı neft sənayesinin XIX əsrin ikinci yarısı, XX əsrin əvvəllərindəki sürətli inkişafı ilə əlaqədar olaraq dünyanın ayrı-ayrı dövlətlərindən gəlmiş müxtəlif millətlərin nümayəndələrinin (məs: Nobel qardaşları və s.) əldə etdikləri mülkiyyətə törəmə sahiblik (sonradan, törəmə əldə edilmiş) hüququ ilə bağlı idi.*

**Beləliklə, İrəvan quberniyası üzrə varis mülkiyyətçi və eyni zamanda mülkiyyətə sahiblik (sahibliyin iki mühüm elementi var: əşyanın özü və ona sahib olmaq üçün niyyətin, iradənin olması) hüququnda, yalnız İrəvan quberniyasının əhalisi çıxış edir. Digər tərəfdən masa üzərində hüquqi prosedur qaydalara əməl edilməklə yazılı (literal) təsbit ediliən rəsmi dövlət sənədi, Milli Şuranın iclas Protokolu mövcuddur. Yəni torpaqların erməni federasiyasına verilməsi sübuta ehtiyacı olmayan, danılmaz hüquqi fakt kimi Protokolla rəsmiləşmişdir. Nəticədə, İrəvan quberniyasının erməni milli federasiyasına verilməsi nəinki şifahi (verbal) razılaşma əsasında müəyyən edilmiş, eyni zamanda birtərəfli yazılı (literal) Protokolla rəsmiləşdirilmişdir. Qeyd etmək lazımdır ki, əşyaya olan hüquqlar içərisində mülkiyyət hüququ, ən geniş istifadə olunun hüquqdur. Ümumiyyətlə isə, əşya hüquqlarına mülkiyyət (o cümlədən torpaq) və özgə əşyalarına hüquqlar aid edilir.**

**Azərbaycan Respublikası Mülki Məcəlləsinə müvafiq olaraq, icarə müqaviləsi əmlak kirayəsi müqaviləsidir. Mülki Məcəllənin 36-cı fəsilində, "Əvəzsiz istifadə müqaviləsi"nin anlayışından bəhs edilir. Bu fəsilin 732-ci maddəsinə görə, əvəzsiz istifadə müqaviləsi, hər hansı əşyanı kirayəyə verən, onu kirayəçinin istifadəsinə verməyi öhdəsinə götürür və özü də bu**

**öhdəlikləri, tərəflər (kontragentlər) əvəzsiz icra etməlidirlər (12., s.410-412). Mülki Məcəllənin 737-ci maddəsində isə "Əvəzsiz istifadə müqaviləsi üzrə hüquq münasibətlərinə vaxtından əvvəl xitam verilməsi" qaydaları təsbit edilmişdir. Bu maddəyə əsasən əşyanı kirayəyə verən fiziki və ya hüquqi şəxs aşağıdakı hallarda razılaşmaya xitam verə bilər:**

**1) kirayəçi əvəzsiz istifadəyə verdiyi əşyaya gözlənilməz hallar nəticəsində ehtiyac duyduqda;**

**2) kirayəçi əşyadan müqavilənin şərtlərini pozmaqla istifadə etdikdə:**

**a) o cümlədən üçüncü şəxslərin istifadəsinə verdikdə;**

**b) və ya kirayəçinin kifayət qədər vicdanlı olmaması üzündən əşya mühüm təhlükəyə məruz qaldıqda ləğv edilə bilər.**

*Haşiyə çıxaraq qeyd etmək lazımdır ki, həm müasir hüquq sistemləri çərçivəsində və həm də ayrı-ayrı milli hüquq sahələri üçün, hüququn ümumi prinsipləri prioritetdir və dəyişdirilməsi, təfsir olunması mümükün deyil. Yəni, hər bir milli qanunvericinin ayrı-ayrı hüquq sahələri üzrə müəyyən etdiyi normalar hüququn ümumi prinsiplərinə (Azərbaycan Respublikasının və ya istənilən digər dövlətlərin normativ aktları) zidd ola bilməz. Hüququn ümumi prinsipləri ölkələr üzrə dəyişmir və hər bir ölkə qanunvericisinin hazırladığı məcəllələr, imperativ olaraq ümumi prinsiplərə əməl edir. Ümumi prinsip normaya nüfuz edir, ədalətsizlik, ədalətli qanunlarla bərpa edilir.*

**Beləliklə, verildiyi andan ermənilərin bu torpaqlara sahibliyi qanunsuz (çünki, hüquqi varis olan İrəvan şəhəri əhalisinin rəyi öyrənilməyib), həm də vicdansız sahiblikdir (çünki, ermənilərin bütün sonrakı davranışları bunu təsdiq edir). Eyni zamanda, erməni tərəfinin bu razılaşmanı inkar etməsini əsaslandıracaq heç bir arqumentləri yoxdur. Milli Şuranın iclasında təsbit edildiyi kimi, erməni federasiyası ilə, nəyinki şifahi (verbal) razılaşma mövcud olub, eyni zamanda bu razılaşma (əvəzsiz istifadə hüququnun yaranması) iclas Protokolunun yeganə və əsas məzmununu təşkil edir.**

**Bu razılaşma, hüquqi məzmunu və mahiyyətinə görə, ssuda müqaviləsinə də, oxşardır (hüquqi anologiya). Ssuda müqaviləsinə görə, əşya müvəqqəti və əvəzsiz digər subeyktə istifadə üçün verilir, istifadə qurtardıqdan sonra əşya tam və toxunulmaz geri qaytarılır. Məhz, əvəzsiz istifadəyə verilən şifahi razılaşmanın obyekti İrəvan xanlığının torpaqlarıdır. Əvəzsiz icarə (istifadə) elementlərinə malik olan şifahi razılaşma, hətta literal (yazılı) torpaq icarə müqaviləsi kimi verilmiş olsaydı belə, 99 il müddət başa çatdıqdan sonra (hətta, vicdanlı istifadəçi olduğu təqdirdə də) xitam olunur. Avropa kontinent hüququnda mülkiyyətin icarə verilməsi müddətini müəyyən edən presedentin (qanunvericilik təcrübəsinin) hüquqi əsasları isə, Fransa Təsis Məclisinin 29**

**sentyabr 1790-cı ildə qəbul etdiyi qərarla (72., s. 619) tənzimlənir. Bu qərara görə, tipik feodal hüququ institutundan qalma mülkiyyətin "əbədi" icarəyə verilməsi qadağan edilir və icarənin maksimal müddəti 99 il müəyyən edilirdi. Beləliklə, əsrlər boyu feodal hüququnun müəyyən etdiyi "ölü əl hüququ", "mayorat" və s. bu kimi mülkiyyətə "əbədi" sahib olmaq qaydaları ləğv edilirdi.**

**Beynəlxalq hüquqda ərazilərin dövlətə məxsus olması prinsipi, özündə dövlətlərin ərazi bütövlüyünü ehtiva edir. Eyni zamanda beynəlxalq hüquq, dövlət ərazilərində dəyişikliyin hüquq əsaslarını müəyyən edən bir sıra institutlarıda tanıyır. Məsələn, dövlət ərazilərində dəyişikliyin könüllü güzəşt edilməsinin "sessi" adlanan hüquq institutu məlumdur. Roma hüququndan məlum olan və "sessi" adlanan "hüququnun güzəşti", öz hüquqi konstruksiyasına görə, subyektin tələb hüququnu, könüllü olaraq digər subyektə güzəşt etməsini müəyyən edir (73., s.536). Müasir beynəlxalq hüquqda, dövlətin ərazilərinin könüllü olaraq digər dövlətə güzəşt edilməsi, yəni mənbəyini Roma hüququndan götürən "sessi" adlanan (74., s.299) hüquq institutu (institio: təlim, təlimləmə, öyrətmə) vasitəsi ilə tənzimlənməsi qaydaları mövcuddur. Bundan əlavə, dövlət ərazilərindən "güzəşt" edilməsinin tranzit və ərazilərin icarəyə verilməsi institutunda da, reqlamentləşdirilmişdir. Belə ki, beynəlxalq hüquq müəyyən hallarda bir dövlətin digər dövlətin ərazilərindən, həmin dövlətin razılığı ilə tranzitini və ya onun bir hissəsini icarə götürülməsini (konsessiya hüququ; müasir beynəlxalq hüquqda "sessi") mümkün hesab edir. Təbii ki, Milli Şuranın Protokolunda nəzərdə tutulan güzəştli ("sessi") "könüllülük", xoş məramdan qaynaqlanır və suveren dövlətin öz ərazisini güzəşt etməsi, hər iki dövlətin birgə əməkdaşlıq və ya konfederativ maraqlarını nəzərdə tuturdu. Hal-hazırda AXC-nin "sessi" institutunun tarixi-siyasi varisi Azərbaycan Respublikasıdır və məhz, tələb hüququ ona məxsusdur. Ərazilərin verilməsi ilə nəticələnən "güzəştdən" imtinanın bəyan edilməsinin vaxtı isə çoxdan çatmışdır.**

**İrəvan şəhərinin erməni şurasına güzəşt edilməsi, yəni hüquq münasibətlərində yaranan neqativ və pozitiv hüququn realizasiyası, hüquqi səlahiyyətlərin və prosedur qaydaların pozulması ilə müşaiyət olunmuşdu. Çünki, neqativ hüquqlar mütləq rəy nəzərə alınmaqla realizə edilməlidir. Bu rəy sorğusu keçirməklə və ya hüquqi varislə bilavasitə əldə olunan anlaşma-razılıq vasitəsilə həyata keçirilməlidir. Sadəcə olaraq ifadə etsək, Azərbaycan üçün hər hansı pozitiv hal yaranmır, əksinə neqativ, yəni ərazilərin itirilməsi**

**ilə nəticələnən hüquqi "sessi" (güzəşt) yaranır. Məlumdur ki, pozitiv hüquqlar (vəziyyəti yaxşılaşdıran) istənilən hallarda təqdir olunur. Keçmiş İrəvan xanlığının ərazisinin dolayısı hüquqi varis olan Azərbaycan Milli Şurası, səlahiyyət həddlərindən kənara çıxaraq ərazilərin verilməsi ilə nəticələnən və hüquqi varisin (İrəvan xanlığı və onun əhalisinin) rəyini öyrənmədən qəbul etdiyi qərar, neqativ hüquqdur və İrəvan əhalisinin mülkiyyət hüquqlarına əleyhinə qarşı birbaşa kobud hüquq pozuntusudur. Yaranmış vəziyyətdə problem obyektiv və düzgün şərh edilməli, İrəvanın xanlıq kimi dövlət varisliyi və xanlığın əhalisinin milli tərkibi nəzərə alınmaqla qanuni yuridik varislik təmin edilməlidir. Ümumiyyətlə, Zaqafqaziya Seymində azərbaycanlı və gürcü nümayəndələri ilə birlikdə ermənilərin də təmsil olunmaları və konfederativ dövlət perspektivləri problemin yaranmasına gətirib çıxaran əsas səbəblərdən biri idi. Buna qədər isə, ermənilərin heç zaman müstəqil ali dövlət hakimiyyətləri olmamışdır.**

**Fəaliyyətinə xitam verilmiş və ya hər hansı səbəbdən süqut etmiş dövlətlərin (imperiyaların və dualist dövlətlərin) əmlaklarının və ərazilərinin hüquqi rejiminin varislik və müvafiq pay bölgüsü əsasında müəyyən edilməsi, beynəlxalq hüququn tənzimetmə obyektinə daxildir (yaxın keçmişdə, SSRİ-nın, Çexslovakiyanın əmlaklarının bölünməsi kimi). Bu proses bilavasitə subyektlər arasında, qarşılıqlı razılaşmaya müvafiq olaraq iki tərəfli və çox tərəfli müqavilələr əsasında müəyyən edilir. İrəvan xanlığının işğalını rəsmiləşdirən, onu vassal asılılığına məcbur edən müqavilənin (Rusiya imperiyası tərəfindən imzalanmış Türkmənçay sazişi) müddəaları konteksində prosesin həll edilməsi, yeganə ədalətli və düzgün hüquqi prosessual qaydaları təmin edir.**

**Çünki, İrəvan xanlığının Rusiya tərəfindən işğalının nəticəsi olaraq onun müstəqilliyinə xitam verilmiş, xanlığın inzibati-ərazi vahidləri hüdudlarında sonralar quberniya yaradılmışdır. Beləliklə, imperiyanın süqut etməsi (baxmayaraq ki, onun hüdudlarında sovet Rusiyası yaranmışdır) səbəbindən, yəni Türkmənçay sazişinin subyektlərindən birinin mövcudluğuna xitam verildiyinə görə, müqavilə hüququnun obyekti olan İrəvan xanlığının, yəni əzəli varisin hüquqları mübahisəsiz təmin olunmalıdır.**

**Azərbaycan Milli Şurasının 29 may 1918-ci il tarixli 3 saylı Protokolunun legitimliyi əsaslandırılmamış, beynəlxalq və milli hüquq normalarına tamamilə ziddir qərardır və müvafiq prosedurlar qaydasında qüvvədən salınmalıdır. Azərbaycanın dövlətçilik tarixində mühüm rola malik olmuş və böyük əhəmiyyət kəsb edən Milli Şuranın İrəvan şəhərinin əvəsiz icarə**

əsasında ermənlərə güzəşt etməsi, bağışlanılmaz addım idi. Digər tərəfdən, İrəvanın acı talei yeni dövlətlərin beynəlxalq aləmdə legetimlik əldə etmək, tanınmaları üçün qarşılıqlı hörmət, sülh içində dinc yanaşı yaşamaq istəyi, demokratik-sivil dövlət (konfederasiya tərkibində) qurmaq niyyəti ilə bağlı idi. Bəhs olunan dövrdə birinci dünya müharibəsinin gerçəklikləri kontektsində baş vermiş proseslərin ağır nəticələrinin zərbələri, Azərbaycan xalqının böyük itkilər verməsinin əsas səbəblərindən biri olmuşdur.

Hüquq normalarının təfsir edilməsinin yekunu olaraq qeyd etmək lazımdır ki, roman-german hüquq sistemi əsasında tənzimlənən mülkiyyətin icarə əsasında əldə edilməsi və ona sahiblik hüququna xitam verilməsi müddəti, müqavilədə digər hallar nəzərdə tutulmayanda maksimum 99 il müddət üçün müəyyən edilir. 2017-ci il 29 may tarixində bu müddət başa çatmışdır. Azərbaycan Respublikasının da istifadə etdiyi roman-german hüquq sistemində, vaxtilə Roma patrislərinin istinad etdikləri kivrit hüququna görə, məhkəmə qaydasında mansipasiya (ən qiymətli əşya kimi torpaq) edilmiş əzəli roma torpaqları yalnız "əbədi" hesab edilirdi. Zaman keçdikcə nəyinki kivritlərə məxsus torpaqlar, eyni zamanda digər torpaq mülkiyyətinə icarə əsasında sahiblik hüququnun müddətləri müəyyən edilmişdir. Yuxarıda da, qeyd etdiyimiz kimi, Avropa kontinent hüququnda da, torpaq sahibliyinin icarə müddəti maksimum 99 il təsbit edilmişdir.

İrəvan xanlıqının daxil olduğu torpaqların həqiqi sahibi bu əarazilərdə yaşayan azərbaycan xalqıdır. Bu torpaqlara sahiblik hüququnu müəyyən edən hüquqi sənəd isə, xanlığın işğalını rəsmiləşdirən çar Rusiyası ilə İrəvan xanlığına dair imzalanmış müqavilə (Türkmənçay razılaşması) və bu müqavilənin müvafiq bəndləridir. Azərbaycan xanlıqlarını ardıcıl işğal etmiş Rusiya imperiyası, bu ərazilərə münasibətdə sanki sahibsiz, heç kimə məxsus olmayan (roma hüquqünun təsbit etdiyi: atmosfer, hava, dəniz suyu və s. heç kimi sahibliyində olmayan ümumi mülkiyyət kimi) ərazilər kimi davranmışdır. Belə ki, Rusiya imperiyası işağalının ilk dövrlərindən başlayaraq Azərbaycan torpaqlarına İrandan, Türkiyədən və başqa ərazilərdən saysız-hesabsız erməni ailələri köçürmüş, sonralar isə molokanlar, almanlar və digər xalqların nümayəndələrini də Azərbaycan ərazilərində məskunlaşdırmışdır. Yeri gəlmişkən, imperiya siyasətinin məkrli planlarına daxil olan müasir anklav-ərazi institutu da, gələcək parçalamaq məqsədlərinə xidmət etmişdir.

Yekun olaraq, 1920-ci ilin yanvarında dünyanın böyük dövlətləri tərəfindən de-fakto tanınmış AXC və onun tarixi-siyasi varisi olan müstəqil

**Azərbaycan Respublikasının ali qanunverici orqanı olan Milli Məclis, Azərbaycan Milli Şurasının 29 may 1918-ci il 3 saylı Protokolunu denonsasiya (fransızca: pozmaq) etməli və BMT üzvü olan dövlətlərə öz qərarını bəyan etməlidir. Bunun üçün hüquqi prosedurlar çərçivəsində səlahiyyətli “Ləğvetmə Komissiyası” yaradılmalı, proses öyrənilməli və hüquq araşdırmanın nəticələri Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edilməlidir. AXC-nin tarixi-siyasi varisi kimi “sessi” institutu (tələb hüququnun güzəşti), yəni prosessual tələb hüququ, Azərbaycan Respublikasının səlahiyyətlərinə daxildir və bu hüquqdan isə, beynəlxalq hüquq çərçivəsində istifadə edilməlidir. Hüquqi prosedurlar çərçivəsində aparılan araşdırmalara əcnəbi ekspertlərin çəlb edilməsi presedentindən də istifadə olunmalıdır. Eyni zamanda ATƏT-in Minsk qrupunun üzvləri ilə danışıqlar gedişində, Azərbaycanın nəyinki indiki vəziyyətdə, həmçinin Cənubi Qafqazda üç yeni müstəqil respublikaların yaradılması prosesində də, yaranmış kolliziyal vəziyyətdə konstruktiv mövqe nümayiş etdirdiyini və öz əzəli torpaqlarını ermənilərə güzəşt etməsini onların nəzərinə çatdırlmalıdır. Ermənilərin üzərilərinə götürdükləri Batum öhdəlikləri də hüquqi fakt kimi ortaya qoyulmalıdır.**

**Zaqafqaziya Seyminin azərbaycanlı təmsilçilərinin və eyni zamanda Azərbaycan Milli Şurasının, bu Protokola səs vermiş üzvlərinin xoş məramlı niyyətlərinin qarşılıqında, Ermənistanın qəsbkar mahiyyəti aşkar edilməlidir. Çünki, bütün XX əsr ərzində Ermənistanda, azərbaycan xalqına qarşı etnik təmizləmə, deportasiya və məqsədli qətillər təşkil edilmişdir. Bununla belə, XIX əsrin ikinci yarısında İran və Osmanlı imperiyasından ermənilərin köçürülməsinə baxmayaraq azərbaycanlılar XX əsrin əvvəllərində İrəvan şəhərində hələ də çoxluq təşkil etmişdilər. Etnik təmziləmə, xüsusən də ermənilərin Zəngəzurda silahsız azərbaycanlı əhaliyə qarşı törətdiyi qətliamlar azərbaycanlıların sayca xeyli azalmasına və qonşu bölgələrə kütləvi axınına səbəb olmuşdur. Məhz, Sovet dövründə Ermənistan Dağlıq Qarabağın Azərbaycandan qoparılması və Azərbaycanın bu bölgəsinin Ermənistana birləşdirilməsi planı, SSRİ rəhbərliyinin müzakirəsinə çıxarılmışdır. Eyni zamanda xarici ölkələrdən ermənilərin Ermənistana köçürülməsi haqda SSRİ hökuməti səviyyəsində məsələ qaldırılımış və bu məsələ II Dünya müharibəsindən sonra xüsusi aktiv mərəhələyə daxil olmuşdur. Belə ki, II dünya müharibəsindəki qələbədən sonra Şərqi Avropada möhkəmlənən sovet rejimi, Qara dəniz boğazlarına hakim olmağı planlaşdırdığı üçün, 1947-ci ildə 100 minə yaxın azərbaycanlının Ermənistandan Azərbaycana deportasiyası haqında göstəriş**

**vermişdir. Nəticədə 1948-1954-cü illərdə 100 mindən çox azərbaycanlı doğma torpaqlardan zorla deportasiya olunur, onların yerinə isə xaric ölkələrdən 90 mindən çox erməni köçürülərək Ermənistanın demoqrafik statusuna ciddi təsir göstərir.**

*Hal-hazırda Ermənistanda bir azərbaycanlı da qalmayıb. Məhz, bu günki tarixi gerçəkliklərə nəzər saldıqda görmək olur ki, dünyanın ən çoxmillətli regionlarından birində yerləşməsinə baxmayaraq, yalnız Ermənistan həm Qafqaz, həm də Asiya qitəsindəki yaxın ölkələrlə müqayisədə özünəməxsus presedent yaradan yeganə monoetnik dövlətə çevirilib. Təkcə, qonşu Gürcüstanın, İranın, Türkiyənin və digər istənilən dövlətlin hal-hazırkı etnik-mlli tərkibi buna sübutdur.*

**Azərbaycan Milli Surasının, Ermənistan qarşısında heç bir hüquqi öhdəliyi yoxdur və nə dövlət daxili hüquqda (milli hüquqda), nə də beynəlxalq hüquqda (üst-milli hüquqda), Azərbaycan Milli Şurasının 29 may 1918-ci il 3 saylı Protokolunun ləğv edilməsinin (denonsasiyasının) qarşısını alan heç bir hüquqi məhdudiyyət qaydaları təsbit olunmamışdır. Protokolun hüquqi məzmununa müvafiq olaraq aşağıdakı müqavilə növləri: a) əvəzsiz istifadə hüququ; b) torpaq icarə (istifadə) hüququ; c) tələb hüququnun güzəşti ("sessi"); d) ssuda müqaviləsi (müvəqqəti və əvəzsiz istifadə) hüquqi konstruksiya kimi tövsif olunur. Zənnimizcə, göstərilənləri nəzərə almaqla Azərbaycan Respublikası hökuməti Milli Şuranın 29 may 1918-ci il 3 saylı iclas Protokolunun denonsasiyasını, hüquqi prosedurlara uyğun təmin etməli və beynəlxalq hüquq normalarına müvafiq olaraq, Ermənistana qarşı İrəvan xanlığı əhalisinin hüquqi varisliyinə dair iddia tələbi qaldırmalıdır. Təklif olunan hüquqi prosedur qaydalar, iddia tələb hüququnun yaranması ilə yanaşı, beynəlxalq səviyyədə Azərbaycan Respublikasının haqlı mövqeyini daha da möhkəmləndirməsinə əsas yaradacaqdır.**

**Beləliklə, Milli Şuranın İrəvan quberniyasının xeyli hissəsinin və İrəvan şəhərini ermənilərə güzəşt edilməsi təşəbbüsü ilə çıxış etməsi, tələsik və hərtərəfli düşünülmüş diplomatik qərar olmamışdır. Bununla belə, İrəvan xanlığına məxsus olmuş ərazilərin, yaradılması nəzərdə tutulan erməni respublikasına verilməsini rəsmiləşdirən Azərbaycan Milli Şurasının 29 may 1918-ci il tarixli 3 saylı iclas Protokolunun qərarı, yaranmış mürəkkəb hərbi-siyasi vəziyyətdə çox güzəştli, lakin öz dövrü üçün tarixi gerçəklikləri əks etdirən konstruktiv və balanslaşdırılmış məsələləri əhatə etmişdir.**

Milli Şuranın fasilələrlə fəaliyyəti dövrünü əhatə edən 1918-ci il 28 may (29 may tarixli qərarı istisina olmaqla) və 7 dekabr tarixli mərhələdə baş verən proseslərdəki rolu və qəbul etdiyi qərarları, dövlətçilik tariximizdə çox böyük əhəmiyyətə malik olmuşdur. Əslində fəaliyyətlərini müvəqqəti dayandırıldığı

zaman ərzində Milli Şuranın üzvləri bütün mümkün həyati vacib işləri görməklə fəaliyyətlərini qeyri-rəsmi davam etdirmişdilər. Xüsusilə Azərbaycanın ərazi bütövlüyünün təmin olunması, Bakının azad edilməsi və beynəlxalq aləmlə təmasların qurulması məsələləri, prioritet fəaliyyət istiqaməti olmuşdur. Bakı şəhərinin azad edilməsi və dövlət idarələrinin paytaxta köçürülməsi, yaranmış yeni vəziyyətdə fəaliyyəti dayndırılmış Milli Şuranın və hökumətin qarşısında təcili və təxirə salınmaz vəzifələrin görülməsini şərtləndirirdi.

İlk növbədə höкumət 1918-ci il sentyabrın 14-də Ümumazərbaycan Müəssislər Məclisinə seçкilərin кeçirilməsi üçün F.X.Xoysкinin sədrliyi ilə hazırlıq кomissiya yaratmışdır. Müəssislər Məclisinə seçкilər üzrə hazırliq komissiyası daxili işlər və xalq maarifi nazirliкləri ilə birliкdə Müəssislər Məclisinə seçкilərin əsasnaməsini hazırlayıb tamamlamalı idi. Digər tərəfdən birinci dünya müharibəsinin başa çatması, Azərbaycanın beynəlxalq aləmdə tanınması istiqamətində işləri sürətləndirməyi tələb edirdi. Çünki, legitim orqan (Ümumazərbaycan Müəssislər Məclisi) tərəfindən yaradılmış və onu təmsil edəcəк seçkili nümayəndəliyin yaradılmasına həyatı zərurəti var idi. Vaxt azlığı şəraitində Müəssislər Məclisinə seçкilər üzrə кomissiya, vəziyyətdən çıxmaqdan ötürü müvəqqəti Azərbaycan Respubliкası parlamenti yaratmağı təкlif edir. 1918-ci il noyabrın 5-də özünün ilк iclasını кeçirən кomissiya belə qərara gəldi кi, Müəssislər Məclisinin çağırılması göstərilən müddətə qədər (1918-ci il 16 deкabr) qeyri-mümкündür və əvvəlкi seçкilər üzrə müəyyən olunaraq seçilmiş nümayəndələr də daxil olmaqla "təкmilləşmiş sistem" üzrə kooptasiya qaydasında müvəqqəti Azərbaycan parlamenti çağırılsın (43., 326-328).

Azərbaycan höкuməti 1918-ci il 9 noyabr tarixli qərarı ilə, rəsmi fəaliyyəti müvəqqəti dayandırılmış Azərbaycan Milli Şurasının çağırılmasını noyabrın 16-a təyin etdi. Milli Şura, müvəqqəti parlamentin tərкibini müəyyən edəcəк və seçкi qanununu hazırlayacaq xüsusi кomissiya təşкil olunması qərarı qəbul etdi. Кomissiyanın tərкibinə M.Rəsulzadə, M.T.Rəfiyev və H.T.Ağayev daxil idilər. Кomissiya belə hesab edirdi кi, Azərbaycan Müəssislər Məclisinə seçкilər üzrə Ümumrusiya Mərкəzi Seçкi кomissiyasının 1917-ci ildə təsbit etdiyi seçкi qanununu Azərbaycanda tətbiq etməк mümкün deyil. Yeni seçкi qanunu və seçкi mexanizmini hazırlamaq isə, ən intensiv iş rejimində belə 2 aydan tez mümкün olmayacaq, xüsusilə də o halda кi, Milli Şura tərəfindən müəyyən edilmiş seçкilərə (16 dekabr) bir aydan az vaxt qalırdı. Öz növbəsində dövlət haкimiyyətinin mənafeləri naminə nümayəndəli xalq təsisatının çox qısa müddət ərzində çağırılması isə Avropada, birinci dünya müharibəsindən sonra yaranan demokratik

xalq haкimiyyətləri mərhələsi кonteкsində, böyüк siyasi-diplomatiк və hüquqi əhəmiyyətə maliк idi.

Milli höкumət Azərbaycan parlamentini mümкün qədər tez formalaşdırmağa çalışır və bunu bir tərəfdən milli haкimiyyəti qanuniləşdirməк, digər tərəfdən isə dövlət idarəetməsini demoкratiк prinsiplər əsasında formalaşdırmaq istəyi ilə əsaslandırırdı. Bu iкi cəhət, Azərbaycan Demoкratiк Cümhuriyyətini beynəlxalq güc mərкəzləri və xarici aləmdə məhz demoкratiк dövlət idarəetməsi кimi qəbul etməklə nəticələnməli idi. Beləliklə, siyasi fəaliyyətdən leqal qaydada müvəqqəti (əslində, qeyri-leqal fəaliyyət davam etmişdir) olaraq uzaqlaşdırılmış Azərbaycan Milli Şurası, 1918-ci il noyabrın 16-da Məmməd Əmin Rəsulzadənin sədrliyi ilə keçrilən iclasında mövcud vəziyyəti müzakirə edərək, fövqəladə şəraitdə Müəssislər Məclisinin çağırılmasının mümkünsüzlüyünü nəzərə alaraq, ali qanunverici dövlət haкimiyyət orqanı кimi fəaliyyət göstərəcək Azərbaycan parlamenti və onun təsis olunmasına haqqında çox əhəmiyyətli qanun qəbul etdi.

Azərbaycan parlamentinin yaradılmasına ingilis komandanlığının münasibəti də mühüm əhəmiyyət kəsb edirdi. 1918-ci il Mudros sülh müqaviləsinin şərtlərinə görə, Bakı ingilis qoşunlarının nəzarətinə verilmişdi. 1918-ci il noyabrın 17-də Tomson başda olmaqla ingilislər Bakıya daxil olmuşdular. İngilis hərbi komandanlığı AXC-nin bütün inzibati məhkəmə və icra strukturlarını nəzarətə götürmüşdü. Bu mərhələdə ingilis komandanlığının Azərbaycan Demokratik Respublikasına münasibəti həlledici əhəmiyyət kəsb edirdi. General Tomsonun mövqeyinə görə, Qafqaza aid bütün məsələlərin son rəsmi qərarını, Paris sülh konfransı verəcəkdir. 1918-ci il dekabrın 3-nə nəzərdə tutulmuş parlamentin açılışı ingilis komandanlığının Azərbaycan hökumətinə etdiyi təzyiqlərlə bağlı yubadılır. Britaniya krallığının baş qərargah rəisi S.Stoksun mayor Rolansona göndərdiyi məktubda ona tapşırırdı ki, koalision hökumət müttəfiqlər komandanlığı tərəfindən tanınmayınca parlamentin açılışına imkan verməsin (65., s. 47-49).

**Lakin, Milli Şuranın misilsiz fəaliyyəti öz nəticəsini verdi. Azərbaycan parlamentinin təsisi olunması ilə bağlı Milli Şuranın sədri M.Ə.Rəsulzadə tərəfindən imzalanmış "Bütün Azərbaycan əhalisinə" müraciətnaməsi noyabrın 29-da azərbaycan və rus dillərində dərc edildi. Beləliklə, Azərbaycan Milli Şurası noyabr ayında yenidən bilavasitə fəaliyyətə başlayaraq parlamentin yaradılması haqqında qanunu qəbul etməsi, 1918-ci ilin dekabrın 7-də Azərbaycan dövlətçiliyi tarixində əhəmiyyətli bir hadisə baş verməsini şərtləndirən əsas amil olmuşdur.** Qanunverici hakimiyyət orqanının ilk iclasını təbrik nitqi ilə açan Milli Şuranın sədri M.Ə.Rəsulzadə, ölkənin qarşısında dayanan əsas vəzifələr barədə geniş çıxış etmişdir. Beləliklə, parlamentin fəaliyyətə

başlaması ilə Azərbaycan Milli Şurası da öz missiyasını sona çatdırmış hesab etmişdir.

Azərbaycanda özünü ali hakimiyyəti orqanı elan etmiş Milli Şuranın qəbul etdiyi "Azərbaycanın Dövlət müstəqilliyinin elan edilməsi haqqında" ("İstiqlal Bəyannamə"si), "Birinci müvəqqəti Hökumətin" tərkibi haqqında, "İkinci müvəqqəti hökumətin" tərkibi haqqında, "Müvəqqəti hökumətin hüquq və vəzifələri" haqqında, "Milli Şuranın buraxılması" haqqında və "Azərbaycan parlamentinin yaradılması" haqqında ümumdövlət əhəmiyyətli qanunları, dövlətçiliyin qorunub möhkəmləndirilməsi və hüquqi islahatların keçirilməsi baxımından xüsusi hüquqi aktlarlar olmaqla, qanunvericiliyin inkişafı sahəsində də, mühüm əhəmiyyət kəsb etmişdir.

**Yuxarıda da qeyd etdiyimiz kimi, təyinatına görə Milli Şura parlament deyildir. Milli Şuranın əvəz olunmaz fəaliyyəti, Azərbaycan dövlətçiliyinin təmin olunmasınada böyük rol oynamışdır. Lakin, parlamentin fəaliyyətə başlamasından sonra yarana biləcək daha mürəkkəb və ekstermal vəziyyətləri nəzərə almadan, Milli Şuranın tam tərkibdə fəaliyyətinə xitam verilməsi tələsik qəbul edilmiş qərar olmuşdur. Zənnimizcə, Milli Şura çox məhdud tərkibdə və məşvərətçi statusda Dövlət Şurası və ya Təhlükəsizlik Şurası kimi fəaliyyətini davam etdirməsi, daha faydalı addım ola bilərdi. Doğrudur, onun üzvləri sonralar ayrı-ayrı dövlət və hökumət təsisatlarında təmsil olunmuşdular, lakin beynəlxalq praktikada ali məşvərətçi şuraların səmərəli fəaliyyət təcürübəsi presedentlərinə də çox rast gəlinir. Digər tərəfdən ləğv edilmiş Milli Şura və onun sədri vəzifəsi, statusuna görə dövlət başçısı səlahiyyətlərinə bərabər idi. Məhz, qanunverici orqan tərəfindən, ümumi səsvermə əsasında Azərbaycan Xalq Cümhuriyyəti prezidentinin seçilməsi, parlamentli respublika dövlət idarəçilik quruluşunu daha da, möhkəmləndirərdi.**

## 1.2. AXC-nin ali icraedici hakimiyyət strukturlarının təşkil edilməsi, fəaliyyətlərinin tənzimlənməsi və hökumətin delegiya səlahiyyətləri.

Parlamentli idarəçilik quruluşu formasında elan edilmiş AXC-də, hakimiyyət qolları arasında Nazirlər Şurasının rolu çox mühüm əhəmiyyət kəsb etmişdir. Cümhuriyyətin baş naziri vəzifəsinin tutan şəxs, ölkənin daxili və xarici siyasətdə daxil olmaqla, bütün idarəetmə məsələləri üzrə böyük səlahiyyətə malik olmuşdur. Azərbaycan Milli Şurası, AXC-nin yaranmasını elan etdikdən dərhal sonra, Nazirlər Şurasının fəaliyyətə başlamasını təmin etmək məqsədi ilə, legitim hökumətin qurulmasını F.X.Xoyskiyə həvalə etmişdir. AXC-nin icraedici hakimiyyət qolu olan Nazirlər Şurası, idarəçilik sahəsi üzrə ali mərkəzi orqan statusunda hökumətin fəaliyyətinin təşkili olunmasının prioritet istiqamətlərini müəyyən edərək tez bir zamanda nazirlik strukturlarının formalaşmasına başlamışdır. Milli hökumətin tərkibində ən mühüm sahələri əhatə edən, o cümlədən iqtisadiyyat, sosial-əmək, kommunikasiya, maarif, əkinçilik, güc, ədliyyə və s. bu kimi vacib

strukturlar üzrə nazirliklər təşkil olunmuşdur. Azərbaycan milli hökumətinin ilk qərarı İstambula göndəriləcək nümayəndə heyətinin tərkibinin təsdiqi haqqında idi. Parlament təsis olunmasına qədərki mərhələdə və sonrakı dövrlərdə Nazirlər Şurası bütün fəaliyyətində dövlət həyatının idarəçilik və delegiya qanunvericiliyi səlahiyyətləri həddində, ən müxtəlif sahələr üzrə 636 qərar və sərəncam vermişdir. İkinci hökumət dövründə Nazirlər Şurası, Azərbaycan Milli Şurasının buraxılması səbəbindən, qanunvericik hakimiyyətinin səlahiyyətlərinə daxil olan məsələlər üzrə delegiya hüququ əsasında, müvafiq normativ aktlar qəbul etmişdir. Azərbaycan Demokratik Respublikasının 23 ay fəaliyyəti dövründə ərzində beş hökumət yaradılmışdır (6., s. 254-255).

İlk müvəqqəti hökumətə başçılıq edən F.X.Xoyski, ikinci və üçüncü hökumətin sədri vəzifəsini də, uğurla icra etmişdir. 1919-cu ilin martında istefa verən baş nazir Xoyskinin əvəzinə, aprelin 14-də Nəsib bəy Usubəylinin başçılığı ilə yeni dördüncü hökumət kabineti yaradılmışdır. 1919-cu il dekabrın 24-da isə beşinci hökumət təşkil etmək yenə də N.Usubəyova həvalə edilmişdir. 1920-ci ilin aprel ayında N.Usubəyovin hökumət kabineti istefa verir və sayca altıncı hökuməti yaratmaq M.H.Hacınskiyə həvalə edilir. Lakin bolşevik işğalı yeni və sonuncu hökumətin fəaliyyətə başlamasına imkan verməmişdir. AXC təmsil olunan yüksək vəzifəli şəxslərin 16 nəfəri ixtisasca hüquqşünas idilər.

Azərbaycan Xalq Cümhuriyyəti hökuməti son dərəcə mürəkkəb bir dövrdə, səlahiyyətləri çərçivəsində çox vacib siyasi, iqtisadi, sosial, o cümlədən beynəlxalq diplomatik sahələr üzrə mühüm tədbirlər həyata keçirmişdir. İlk növbədə ali idarəçilik orqanlarının funksional fəaliyyətini tənzimləyən hüquqi bazanın yaradılması üçün mümükün tədbirlər görmüş, asayiş bərpa edilmiş, yerli idarə orqanlarının fəaliyyəti üçün zəruri şərait təmin edilmişdir. Hökumətin səriştəli siyasəti ilə dağılmış təsərrüfat bərpa edilmiş, poçt, rabitə, maliyyə işləri nizamlanmışdır. Əhalinin yoxsul təbəqəsinə, işsizlərə, eləcə də erməni-daşnak zülümündən qurtulan insanlara kömək göstərilmişdir.

**AXC-nin yarandığı qısa müddətdən sonra mərkəzi ali icraedici hakimiyyət orqanı strukturlarının təşkil edilməsi və fəaliyyətlərinin tənzimlənməsi qaydalarının müəyyən edilməsi, dövlət idarəçiliyi fəaliyyətində səmərəliyi təmin etmək baxımdan çox mühüm əhəmiyyət kəsb etmişdir. Demokratik, sivil, dünyəvi dövlət quruculuğuna üstünlük verilməsi, gənc respublikanın dünya birliyi tərəfindən legitim dövlət kimi tanınmasında böyük əhəmiyyəti var idi. Məhz, bu baxımdan tarixi sınaqdan keçmiş beynəlxalq idarəçilik təcrübəsinə elmi-nəzəri, o cümlədən praktiki baxımdan müracət edilməsi, onun təməl prinsiplərini Azərbaycan Demokratik Respublikasının**

**idarəçilik münasibətlərində istifadə edilməsi, müstəqil hakimiyyət qolu kimi hər 5 hökumət kabinetinin fəaliyyətində əsas prioritet olmuşdur. Bu məsuliyyəti əməl işində sübut etməyə çalışan ADR-in ali mərkəzi icra orqanı – Nazirlər Kabineti idarəçilik sahəsi üzrə mərkəzi orqan olmaqla hökumətin fəaliyyətinin əsas istiqamətlərini düzgün müəyyənləşdirə bilmişdir.** Hakimiyyət qolları arasında səlahiyyət həddlərinin dəqiq təsbit edilməsi, qanunvericilik səlahiyyətlərin parlamentə, icraedici səlahiyyətlərin hökumətə həvalə edilməsi, AXC-nin spesifik dövlət idarəçilik quruluşunun inkişaf xüsusiyyətini tamamlayaraq, həmin dövrdə müəyyən etdiyi çox çətin vəzifələri yerinə yetirə bilmişdir. Azərbaycan hökuməti öz səlahiyyətlərini və üzərinə düşən vəzifələri daha səmərəli və məqsədli icrası üçün bir sıra mühüm tədbirlər nəzərdə tutmuş və bu məsələlərin öhdəsindən gəlmişdir.

**1918-ci ilin iyun ayında Milli Şuranın buraxılması və hələlik yeganə qanuni səlahiyyətli hakimiyyət qolu kimi milli hökumətin fəaliyyət göstərməsi, delegiya qanunvericiliyinin sürətlə artması ilə nəticələnmişdi. Məhz, qanunverici orqanın yaradılmamsı, delegiya qanunvericliyində Azərbaycan hüququn spesifik xüsusiyyətlərini müəyyən etmişdir. Belə ki, icraedici orqan, sanki qanunverici orqanın (hətta parlament rəsmi fəaliyyətə başladığdan sonra) səlahiyyətlərini, parlamentin prioritetlərini mənimsəyərək, aktiv delegiya qanunvericisinə çevrilmişdi. Nazirlər Şurasının müəyyən etdiyi aktlar, parlamentin razılığıdan sonra qəbul edilir və delegiya hüququ statusunda qanunvericilik aktları sahəsinə aid edilirdi.** Qüvvəyə minmiş bu normalar yalnız qanunlar vasitəsilə dəyişdirilə bilərdi. Delegiya qanunvericiliyi, hüquqi aktların xüsusi növünə aid edilir. AXC dövləti, hüquqyaratma fəaliyyətində özünəməxsus tənzimləmə metodologiyası olan delegiya hüququna üstünlük verilmışdir. Digər tərəfdən delegiya qanunvericiliyinin möhkəmlənməsinə, mövcud ictimai-siyasi vəziyyət də, diqtə edirdi. Delegiya hüququ, inzibati hüquq sahəsinin də, güclənməsini şərtləndirən amillərdən biri kimi çıxış etmişdir (29., s.222).

İdarəçilik sahəsində "müzakirə edərək idarə et" prisipindən çıxış edən AXC-nin Nazirlər Şurası, dövlət idarəçiliyinin səmərəli təşkili və onun hüquqi əsaslarının yaradılması üçün müntəzəm praktiki işlər görmüşdür. **Belə ki, yeni yaranmış dövlət hakimiyyətinin həyata keçirdiyi tədbirlər sırasında, hökumətinin öz nəzdində bir neçə köməkçi qurumun təşkil etməsini, o cümlədən 1918-ci il noyabrın 12-də "Kiçik Nazirlər Şurasının yaradılması haqqında" qərarı xüsusi ilə qeyd etmək lazımdır. 1919-ci il martın 3-də "Kiçik Şura"nın fəaliyyətini hüquqi cəhətdən tənzimləyən çox mühüm əsasnamə qəbul edilir. "Kiçik Şura"nın qarşısında dayanan əsas məqsəd isə**

**siyasi konyukturadan uzaq, yalnız hökumətin effektiv və səmərəli fəaliyyətinə aid olan iqtisadi-sosial məsələlərlə məşğul olmaq daxil idi. "Kiçik Nazirlər Şurası"nın tərkibinə nazir müavinləri və ya onların köməkçiləri daxil edilmişdilər. "Kiçik Nazirlər Şurasının yaradılması haqqında" qərarın ikinci hissəsində onun, müxtəlif məsələlər barədə qəbul edilmiş qərarlara münasibətdə Nazirlər Şurasının sədrinə və ya müvafiq nazirə etiraz etmək hüququ təsbit olunmuşdur.**

Hökumətin fəaliyyətinin tənzimlənməsi, yeni çevik strukturlarının təşkil edilməsi qaydalarına müvafiq olaraq **1919-cu il aprelin 16-da, Nazirlər Kabinetinin qərarı ilə yaradılmış maliyyə-iqtisad komitəsinə kifayət qədər səlahiyyətli funksiyalar verilmişdir.** Belə ki, maliyyə-iqtisad komitəsinə, Nazirlər Şurasına təqdim etmək üçün təyinatı üzrə qərarların hazırlanması ilə məşğul olmaq həvalə edilirdi. ADR-in nəqliyyat nazirinin rəhbərlik etdiyi maliyyə-iqtisadi komitənin tərkibinə ticarət, sənaye və maliyyə nazirləri daxil idilər.

Parlament idarəçilik dövrünə (qanunverici orqanın rəsmi fəaliyyət başladığı 1918-ci il 7 dekabr tarixi) qədərki mərhələdə, **ADR hökuməti hüququn müxtəlif sahələrini əhatə edən normativ aktlar qəbul etmişdir. Belə ki, 1918-ci il oktyabrın 20-də hökumət qanunvericilik (delegiya qanunvericiliyi) işinin təşkili üçün Nazirlər Şurasının nəzdində qanunvericilik komissiyasını yaratmışdır.** Hətta, parlamentin təsis edilməsindən sonra isə, hakimiyyət bölgüsünə müvafiq olaraq parlament qarşısında bilavasitə məsuliyyət daşıyan icraedici hakimiyyət, qanunvericilik təşəbbüsü sahəsində fəaliyyətini mütəşəkkil təşkil etmək üçün normativ hüquqi aktların (qanunlar, əsasnamələr, qaydalar) hazırlanması prosedurunu davam etdirmişdir. **Belə ki, 1919-cu il yanvarın 18-də Nazirlər Şurası tərəfindən delegiya səlahiyyəti statusunda parlamentə göndərilən qanun layihələrinin təqdim edilməsini müəyyən edən "Qaydalar" təsdiq edilmişdir.** Əsasən çevik idarəçiliyin tətbiqinə yönəlmiş iqtisadi-sosial xarakterli qanun layihələri üçün müəyyən edilən "Qaydalar"a müvafiq olaraq aşağıdakı (32., 324-325) prosedurlar nəzərdə tutulmuşdur:

1) heç bir iş və ya əsasnaməni Nazirlər Şurasında araşdırıb, öyrənmədən birbaşa parlamentin müzakirəsinə təqdim etmək qadağan idi;

2) buna görə də, bu və ya digər nazirlik tərəfindən hazırlanmış layihə barəsində Nazirlər Şurasının sədrinə məlumat verilərək, onun hazırlanmasına səbəb olmuş zəruri amillər yazılı surətdə göstərilməlidir;

3) hazırlanmış qanun layihələri barədə baş nazirə məlumat verildikdən sonra idarə rəisləri və idarə hissəsi, layihə barəsində lazımi izahat və məlumatı təqdim etməli idi;

4) Nazirlər Şurasının sədri ona təqdim edilmiş qanun layihəsini müzakirəyə çıxarır və qanun layihələrinin müzakirəsi zamanı adiyyəti nazir **(əsas məsuliiyətin sahə nazirinin daşıdığı, kontrassiqnatura qaydası)** və ya onun müavinin iştirakı mütləq təmin edilir;

5) təqdim edilmiş qanun layihəsində dəyişiklik etmək və ya yenidən işləmək zərurəti yarandığı halda layihə sədr tərəfindən adiyyəti nazirliyə qaytarılır və düzəlişlərdən sonra Nazirlər Şurasının müzakirəsinə verilir;

6) əgər Nazirlər Şurası qanun layihəsində əhəmiyyətsiz dəyişiklik edilməsini qəbul edərdisə onda müvafiq dəyişiklik Nazirlər Şurasının növbəti iclasında icra edilir və bu barədə iclas jurnalının protokolunda qeydiyyat aparılır;

7) Nazirlər Şurası qanun layihəsini parlament müzakirəsinə göndərilməsi barədə qərar qəbul edərdisə, qanun layihəsi iki dildə, rus və türk (azərbaycan) dillərində tərtib edilərək, iclasın qəbul etdiyi qərarın jurnala daxil edilmiş nüsxəsi ilə birlikdə adiyyatı nazirliyə qaytarılır;

8) göstərilmiş bənd üzrə (7 maddə) jurnal qərarını almış müvafiq nazir və ya idarə dərhal, iki dildə tərtib edilmiş jurnal qərarını, nüsxəsi ilə birlikdə qanun layihəsini şəxsən özü və ya müavini tərəfindən parlamentə təqdim edərək layihənin müdafiə edilməsini təşkil edir;

9) parlament tərəfindən qəbul edilərək Nazirlər Şurasına qaytarılmış layihələr rəsmi dövlət qəzeti olan "Azərbaycan" və "Azərbaycan hökumətinin qanun və sərəncamları "Xəbərlər"ində dərc edilır;

10) qeyd olunan məsələlər sadə səs çoxluğu ilə qəbul edilir. Əgər hər hansı bir fikir ayrılığı yaranardısa və səslər bərabər bölüşdürülərdisə, onda sədrin müdafiə etdiyi layihə qəbul edilirdi.

Hökumət üzvlərinə delegiya qanunvericiliyi hüququnda verilmiş səlahiyyətlər həddində Nazirlər Şurasının müəyyən etdiyi 1919-cu il 18 yanvar tarixli "Qaydalar"ın sonuncu bəndində isə qanun layihələrinin müzakirə edilməsi, qəbul olunması və parlamentə iki dildə təqdim olunması, ali icraedici orqanın işlər idarəsinə həvalə edilməsini təsbit etmişdir. **Nazirlər Şurası tərəfindən parlamentə göndərilən qanun layihələrinin təqdim edilməsi "Qaydaları", özündə ayrı-ayrı nazirliklərin məsuliyətini müəyyən edən, hüquqi idarəçilik**

**sahəsində çevik və səmərəli fəaliyyətin təşkilinə yönəlmiş təcrübəni birləşdirmişdir. Avropa dövlətlərinin hüquqi təcrübəsində aprobasiyadan keçmiş delegiya qanunvericiliyi və sahə nazirliklərinin cavabdehliklərini müəyyən edən "kontrassiqnatura" qaydasını, ADR hökuməti də çox uğurla istifadə və tətbiq etmişdir. Məhz, çox böyük vəsaitlər hesabına başa gələn iri layihələrin iflasa uğramasının məsuliyyətini, həmin layihəyəni irəli sürən və ona cavabdeh olan müvafiq nazirlik və ya qurum daşıyırdı. Dövlət vəsaitlərinin səmərəli istifadəsini müəyyən edən kontrassiqnatura qaydası məmurların korrupsiya layihələrinin qarşısının alınmasınada və onun xəbərdar edilməsində mühüm rola malik olmuşdur.**

1919-cu il 18 yanvar "Qaydalar"ına müvafiq olaraq, hökumət üzvlərinin hər biri qanunvericilik təşəbbüsü ilə çıxış edə bilərdi. Hökumət üzvlərinə parlamentdə deputat kimi təmsil olunmaq səlahiyyəti də verilirdi. Lakin, müstəqil hakimiyyət qolları arasında bölgünün tarazlığını pozan "hökumət üzvlərinin parlamentdə deputata kimi təmsil olunmaq" hüququ kimi prosedurlar, müvəqqəti xarakter daşımaqla, keçid dövrünüün çətinlikləri ilə bağlı idi. Ali icraedici hakimiyyət funksiyasını həyata keçirən hökumət, müvafiq qanun qüvvəli aktlar vermək səlahiyyətində malik olmuşdur. Bununla da, Nazirlər Şurası öz səlahiyyətlərini və qarşiya qoyulan vəzifələri səmərəli təşkil edərək, mövcud məsələlərə operativ və çevik yanaşmanı təmin etmişdir.

Ümumiyyətlə, xüsusi vurğulamaq lazımdır ki, ADR-in ali icraedici hakimiyyət orqanı olan Nazirlər Şurası, təşkil olunduğu gündən səlahiyyətlərinə daxil olan sahələrin hüquqi qaydalara əsaslanaraq idarə olunmasını asanlaşdırmaq üçün, qanunvericilik bazasının yaradılması təşəbbüsü ilə çıxış etmiş, idarəetmədə demokratizm, kollegiyallıq, məsuliyyətlilik, cavabdehlik və səmərəlilik kimi cəhətlərə xüsusi diqqət vermiş, idarəçilik məsələləri ilə bağlı parlamentin müzakirəsinə ən müxtəlif qanunlar təqdim etmışdir. Dövlətin idarə olunmasında Nazirlər Şurasının rolu həmişə yüksək olmuş və bütün bunlar hökumətin güclənməsinə, onun parlamentə təsirinin artmasına, səlahiyyətləri kifayət qədər yüksək olan hökumətin daha da güclənməsinə xidmət etmişdir.

Digər tərəfdən AXC-in dövlət idarəçiliyi quruluşunda hökumətin və ya Nazirlər Şurasının həmişə mühüm rol oynaması dövlət hakimiyyətinin xarakterindən də irəli gəlmişdir. Belə ki, Milli Şura fəaliyyətini müvəqqəti dayandıraraq, ali hakimiyyət bütün səlahiyyətlərini bir müddət (16 noyabr 1918-ci ilə qədər) Nazirlər Kabinetinə verdiyi dövrdən başlayaraq dövlət hakimiyyətinin icraedici və qanunverici qolları faktiki olaraq hökumətə məxsus olmuşdur. Qanunverici hakimiyyət qolunun fəaliyyətə başladığı dövrdən sonra isə, Nazir-

lər Kabinetinin daim qanunvericilik təşəbbüsü ilə çıxış etməsi, ən mühüm qanun layihələrini hazırlamaq, maliyyə, büdcə məsələlərinə dair qanun layihələrini tərtib edib parlamentin müzakirəsinə vermək, bir sıra qərarları və qətnamələri qanunvericilik aktlarına bərabər tutaraq parlamentin təsdiqinə vermədən delegiya hüququ (xüsusilə də siyasi böhran dövründə) çərçivəsində qəbul etməsi, mövcud reallıqdan irəli gəlmışdir. Hökumətin bu sahədəki fəaliyyəti kifayət qədər məsuliyyətli olmuşdur.

**Azərbaycan Xalq Cümhuriyyəti hökuməti praktikasının fərqli xüsusiyyətinə, hər hansı bir idarəetmə sahəsi həvalə edilməmiş hökumət üzvü postu, yəni portfelsiz nazir vəzifəsi mövcud olmuşdur. F.X.Xoyiskinin başçılıq etdiyi üçüncü hökumət kabinetində portfelsiz nazirlərin sayı daha çox olmuşdur. Portfelsiz nazirlərə hər hansı konkret hökumət işi tapşırılmasa da, onlar hökumət üzvü kimi Nazirlər Kabinetin tərkibinə daxil idilər.** Beşinci hökumət kabinetində N.Usubbəyli baş nazir olmaqla yanaşı, portfelsiz nazir statusun da malik olmuşdur.

Azərbaycan Demokratik Respublikasında ali mərkəzi icra orqanının fəaliyyəti öz dövrünə görə kifayət qədər mütəşəkkil və çevik təşkil olunmuş, yeni inkişafa nail olmaq üçün səmərəli modellərdən istifadə edilmiş və milli dövlətin iqtisadi cəhətdən möhkəmlənməsi təmin edilmişdir. Yuxarıda qeyd etdiyimiz, Nazirlər Şurasının 1919-cu il 18 yanvar tarixli "Qanun layihələrinin parlamentə təqdim olunması qaydaları" haqqındakı qərarı, hökumətin qeyd etdiyimiz məsələlərə operativ və çevik yanaşmasını bir daha praktiki təsdiqi idi.

Azərbaycan hökuməti xarici siyasətində qonşu dövlətlərlə münasibətlərin qurulması üçün müxtəlif tədbirlər həyata keçrmişdir. Nazirlər Kabineti hökumətlərarası problemlərin müzakirə edilməsi məqsədi ilə 1919-cu il dekabrın 14-də Bakı şəhərində ikitərəfli Ermənistan-Azərbaycan konfransını çağırmışdır. Bu konfransda Azərbaycan nümayəndə heyətinə F.X.Xoyski (sədr), M.Hacınski və R.Vəkilov, Ermənistan nümayəndələrinə isə M.A.Arutyunyans (sədr), knyaz Arqutinski-Dolqorukov və Bekzadyan daxil edilmişdilər. **Konfransda üç məsələ: ərazi, qaçqınlar və ticarət və dəmiryol sahəsində müqavilə məsələlərinin müzakirəsi nəzərdə tutulmuşdur. Müzakirəyə əlavə olaraq, məhkəmə-hüquq sahəsində və konsulluq əlaqələrinin yaradılması məsələləri də təklif olunurdu.** Hökumət adından çıxış edən F.X.Xoyski bildirmişdir ki, baş vermiş hadisələr münasibətlərin qurulmasına təsir etsə də, gələcəyə ümidlə baxmaq lazımdır. Azərbaycan Cümhuriyyəti idarəçiliyin bəzi sahələrini birləşdirməklə, Zaqafqaziya xalqlarının konfedrasiyasını yaradılmasını yenidən təklif edən F.X.Xoyski, fedrasiya yaratmaqla ərazi məsələlərinin kəskinliyini azalda biləcəyini irəli sürmüşdür. Arutyunyans bu ideyanın əleyhinə olmasa da, bunu öz

hökumətləri ilə məsləhətləşmələr apardıqdan sonra, təfərrüatı ilə cavab verə biləcəyini, digər erməni Bekzadyan isə üçüncü tərəfin – Gürcüstan hökumətin də, mövqein öyrənmək üçün növbəti konfransın Tiflisdə keçirilməsini təklif etmişdir. Azərbaycan nümayəndə heyəti daha konstruktiv, dünya praktikasından istifadə etməklə, yeni yaranmış dövlətlərin konfedrativ dövlətdə birləşməsinin əsas götürülməsi ideyasını irəli sürümüşdür.

Ermənilərin apardığı danışıqlarda səmimi olmadığı isə, onların hələ üç Qafqaz Cümhuriyyətlərinin elan olunduğu dövrdən məlum idi. Bu proseslər qonşuların, xüsusilə də, ermənilərin niyyətlərini ortaya qoyurdu. Məhz, Milli Şura İrəvan quberniyasının xeyli hissəsinin və İrəvan şəhərinin ermənilərə vermək təşəbbüsü ilə çıxış etməsi, tələsik və hərtərəfli düşünülmüş diplomatik qərar olmamışdır. Doğrudur, o dövrdə Bakı, Sovetlər adı altında bolşeviklər tərəfindən zəbt edildiyindən, şəhərin paytaxt olması problem olmuşdur. Çünki, müstəqillik elan olunan vaxt bolşevik-erməni qüvvələrinin nəzarətində olan Bakı, Sovetlərin tabeçiliyində olmuşdur. Həmin vaxt Zaqafqaziya Seymi dövlətlərinin köməyi ilə Bakının bolşeviklərdən azad edilməsinə, ermənilər bu şərtlə iştirak edəcəklərini bildirdilər ki, yaradılacaq yeni burjua hökumətində ermənilər müsəlmanlarla bərabər təmsil olunsunlar. Zaqafqaziyada yalnız Gürcüstanı paytaxt seçmək problemi olmamış və Tiflis şəhəri Gürcüstan Respublikasının paytaxtı elan olmuşdur.

AXC hökuməti dövlət atrubutlarının təsis edilməsi, rəsmi qaydada onların elan edilməsini və respublikaçlıq simvollarının əsaslarının möhkəmləndirilməsini ən vacib vəzifələrdən hesab etmişdir. 1918-ci il iyunun 25-də Nazirlər Kabinetinin qərarı ilə rəsmi dövlət qəzeti təsis edildi. Xalq maarifi naziri A.Ağayevə Yelizavetpol şəhərində (Gəncə) tipoqrafiya üçün avadanlıq əldə etmək və smeta hazırlayıb hökumətin təsdiqinə vermək tapşırılmışdir. **Hökumətin qərarı ilə 1918-ci ilin iyunun 27-də türk (azərbaycan) dili rəsmi dövlət dili elan edildi. Bununln belə, bütün-dövlət, inzibati, məhkəmə və digər işlərdə türk (azərbaycan) dili üzrə savadlı kadrların yetişməsinə qədər, dövlət idarələrində rus dilindən müvəqqəti istifadə etməyə icazə verilirdi. Milli hökumət elə həmin gün, yəni iyunun 27-də digər bir qərarla bazar-istirahət (voskreseniya-vıxodnoy) gününü, cümə gününü ilə əvəz edərək, cümə gününü ümumi istirahət günü elan etdi. İyulun 12-dən isə Azərbaycan Respublikası daxilində təqvim artıq, Bakı vaxtı ilə hesablanırdı. Noyabrın 9-da Azərbaycan Demokratik Respublikasının Dövlət bayrağı qəbul edilir. Üç rəngli bayrağın mavi, qırmızı və yaşıl rənglərinin üzərində aypara və səkkizguşəli ulduz verilirdi. Azərbaycan hökuməti Azərbaycan Cümhuriyyətində yaşayan digər dini konfensiyalardan olan millətlərin də adət-ənənələrinə, dini inanclarına hörmətlə yanaşaraq, onlar**

**üçün də qeyri-iş günləri müəyyən etmişdir. Belə ki, hökumətin 3 aprel 1920-ci il 464 saylı qərarı ilə pasxa bayramı münasibəti ilə aprelin 4, 7, 10, 11 və 12-si qeyri iş günləri elan edilirdi.**

1919-cu il yanvarın 18-də Nazirlər Kabineti verdiyi qərar və sərəncamların dərc edilməsi qaydalarına dair təlimat vermişdir. Belə ki, "Azərbaycan Respublikasının Xəbərləri" adlı rəsmi məcmuə təsis edilir və parlamentin, Nazirlər Şurasının, ayrı-ayrı nazirliklərin qanun, qərar və sərəncamları hökumətin işlər idarəsinin nəzarəti ilə "Xəbərlər"də dərc olunması qərara alınırdı. İşlər idarəsinə mətnləri korrektə edərək əsli ilə dəqiqləşdirmək barədə göstəriş verilmişdi. Hökumət gələcəkdə bütün idarələrə göndərmək üçün məcmuənin sayını artırmağı nəzərdə tuturdu. Nazirlər Kabineti maliyyə vəziyyətini möhkəmləndirməkdən ötrü 1918-ci il sentyabr 22-də Bakı Soveti dövründə buraxılmış bonları ümumdövlət pulları ilə ekvalent (bərabər) olması barədə qərar verir.

1919-cu il martın 3-də Azərbaycan teleqraf agentliyinin ( AzərTAc-ın ) yaradılması barədə Nazirlər Kabineti qərar verirmişdir. Milli hökumət Bakının azad edilməsinin ildönümü münasibəti ilə **1919-cu il sentyabrı 12-də xüsusi qərarlar 15 sentyabrı bayram günü elan etdi.** Sentyabr ayında Azərbaycan Dövlət Bankının yaradılması haqqında qanun verildi. Azərbaycan Respublikasının pul və poçt markaları dövriyyəyə buraxıldı.

Milli hökumətl daim xalqın sosial rifahının yaxşılaşdırılmasını diqqətdə saxlamış və bu sahədə həmişə konkret tədbirlər görmüşdülər. **Belə ki, hökumət əhalinin pensiya təminatını yaxşılaşdırmaqdan ötrü 1919-cu il avqustun 27-də Pensiya Nizamnaməsini hazırlamaq üçün komissiya yaradılması haqqında sərəncam verilmişdi.** Sərəncama görə maliyyə, yollar, hərbi və digər idarələrin nümayəndələrinin daxil olduğu səlahiyyətli komissiya təşkil edilirdi. Hökumət proqramına görə, sentyabr ayında Pensiya Nizamnaməsini Nazirlər Şurasına təqdim etmək üçün Maliyyə Nazirliyi nəzdindəki mülki və hərbi idarələrin də iştirak etdiyi komissiya öz təkliflərini hazırlamalı idi. Milli hökumət pensiya təminatını yaxşılaşdırmaq üçün ciddi səylər göstərirdi.

Beləliklə, Fətəli Xan Xoyski və Nəsib bəy Yusifbəylinin sədri olduqları Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası, parlamentli respublika quruluşundan və mövcud reallığdan yaranan siyasi-ictimai münasibətlər konteksində fəaliyyət göstərən ali mərkəzi icraedici hakimiyyət qolu kimi, Azərbaycan Xalq Cümhuriyyətinin təşəkkülü və möhkəmlənməsində mühüm əhəmiyyət kəsb etmişdir. Yüksək ali statusa malik olan hökumət, həm səlahiyyətləri çərçivəsində, həm delegiya qanunvericiliyi səviyyəsində səmərəli, mütəşəkkil və işgüzar fəaliyyət göstərərək, AXC-nin beynəlxalq aləmdə

tanınması, ölkənin ərazi bütövlüyünün təmin edilməsi, demokratik, sivil dövlət qurulması üçün bütün fəaliyyəti ərzində öz vəzifələrin öhdəsindən gəlməyə çalışmış və Azərbaycanın dövlətçilik tarixində şərəfli səhifə yazmışdır.

## 1.3. AXC-nin ali qanunverici hakimiyyət orqanı (Məclisi-Məbusan)

Şərqdə ilk demokratik parlamenti kimi təsis edilən və 17 ay fəaliyyət göstərən Azərbaycan Məclisi-Məbusanı, dövlət hakimiyyətinin mühüm qolu kimi AXC-nin tanınması və möhkəmlənməsində xüsusi rola malik olmuşdur. Qanunverici hakimiyyət orqanının fəaliyyət praktikası artdıqca, parlament institutu möhkəmlənmiş, qanunvericilik işinin təşkili və idarə olunması prosesi daha da inkişaf etmiş və təkmilləşmişdir. Parlament fəaliyyəti dövründə cari qanunvericiliklə yanaşı, ümumdövlət əhəmiyyətli bir sıra mühüm qanunlar da qəbul etmişdir.

1918-1920-ci illərdə mövcud olmuş I Respublika parlamentinin xarakterik əlaməti, onun demokratik təməl əsasında formalaşması, fraksiyalararası diskussiyalar və deputat sorğusu institutunun inkişaf etməsi, hökumət siyasətinin fəaliyyət istiqamətləri barədə məlumatlandırma prosesinin təşkili, tərəfləri qane etməyən məsələlərə dair sərbəst fikir ifadə edilməsi, komissiyaların iş fəaliyyəti, problemlərin müzakirəsi, istefa mədəniyyətinin və s. sivill idarəçilik qaydalarının

təşəkkül tapması kimi, prosedur qaydaları ilə fərqlənirdi. Qanunverici hakimiyyət orqanında parlament qarşısında məsuliyyət daşıyan və ona hesabat verən “cavabdeh hökumət institutu” təcrübəsi ənənəsi inkişaf etmişdir. Parlament demokratiyası möhkəmləndicə, müstəqil hakimiyyət qolları arasında səlahiyyət həddlərinin və qarşılıqlı tarazlığın dəqiq meyarlarının müəyyən edilməsi baxımından presedentlər formalaşırdı. Parlament qanunvericilik işinin təşkil edilməsi qaydalarına müvafiq olaraq, deputat sorğusu ilə hökumətə və ya hər hansı dövlət idarəsinə müraciət edilməsi əsasında, məsələlərin parlamentdə geniş müzakirələri aparılır, sonda bir-birləri ilə diskusiya edən tərəflərinin məsələ ilə bağli parlamentə təqdim edikləri 2 müxtəlif qanun layihəsi səs verməyə çıxarılır və səs çoxluğu qazanmış qanun layihəsinin təsdiq edilməsi barədə yekun qərara qəbul edilirdi.

Cümhuriyyətin parlament praktikasında müzakrələrin gedişinə təzyiq vasitəsi kimi iclas zalının tərk edilməsi, həmçinin partiya bloklarının yaradılması, bir fraksiydan çıxıb digər bloka qoşulmaq və ya bitərəf qalma kimi presedentlər mövcud olmuşdur. Parlament dövlətin maliyyə-büdcə məsələlərini, əhalinin sosial-iqtisadi vəziyyətini daim diqqətdə saxlayır, müzakirələr keçirərək xalqın güzəranın yaxşılaşdırılmasına çalışırdı. Deputatalar respublikada yaşayış minimumun müəyyən edilməsi, bahalığın qarşısının alınması, əmək haqlarının indeksləşdirilməsini kimi cari aktual məsələri müzakirə edərək qanunvericiliyə müvafiq təkliflər edirdilər. Parlament təcrübəsində baş verən proseslər, Məclisi-Məbusanın demokratik əsaslarla formalaşmasına, partiyaların azad və sərbəst inkişafına və beləliklə, parlament məbuslarının hüquqlarının qorunması və təmin olunmasına yönəlmiş presedentlərin yaranmasına və möhkəmlənməsinə xidmət etmişdir.

### 1.3.1 Ali qanunverici hakimiyyətin formalaşmasının hüquqi əsasları və səlahiyyətləri

Azərbaycanın dövlətçilik tarixində müstəsna əhəmiyyət malik olan, 120 nəfər nümayəndənin təmsil olunmasını nəzərdə tutan ali qanunverici orqan— **Azərbaycan parlamenti (Məclisi Məbusan),** funksiyaları və səlahiyyətləri baxımından ali dövlət hakimiyyəti qolları arasında xüsusi yer tutur. Qeyd etdiyimiz kimi, Milli Şura Azərbaycanın ən yüksək ali orqanı kimi, hüquqyaratma funksiyasını öz üzərinə götürərək 1918-ci il noyabrın 19-da "Azərbaycan parlamentinin yaradılması" haqqında çox mühüm qanunu qəbul etmişdir. Bu qanun məzmun və mahiyyət etibarı ilə, parlamentin formalaşmasının hüquqi əsaslarını təsbit edirdi. Milli Şuranı parlamentə çevirmək təklifi isə, demokratik prosedurlar qətiyən cavab vermirdi. Çünki, onun 44 nəfərdən ibarət tərкibinin sayının az olması, həm mahiyyət etibarı ilə, həm də təşkil olunma fəaliyyətinə (ilk növbədə Milli Şura, Ali Təsisçi Məclis idi) görə parlamenti əvəz etməklə onun funksiyalarını yerinə yetirə bilməzdi. Beləliklə, mövcud şəraitdə demoкratiк tələblərə tam cavab verən, Azərbaycanda yaşayan bütün millətlərin, ictimai

təşkilatların, siyasi partiyaların və digər hüquqi şəxslərin təmsil olunmasını nəzərdə tutan 120 nəfərdən ibarət və struktur etibarı ilə bir palatalı parlamentə gizli seçкilərin кeçirilməsi qərara alınır.

Ümumiyyətlə Milli Şura təyinat etibarı ilə qanunverici hakimiyyət qolu kimi təsis olunmamışdır. Lakin, hakimiyyət bölgüsü prinsiplərindən yanaşdıqda, statusuna görə Milli Şura (Azərbaycan Təsis Məclisi) rəsmi qanunverici orqan olmasada, ali Təsisçi Məclis kimi bütün hakimiyyət səlahiyyətləri üzrə tam legitim (presedent olaraq məs: Fransa Təsis Məclisi qanunverici və icraedici funksiya səlahiyyətlərinə malik idi. İngiltərənin lordlar palatası, qanunverici orqanın yuxarı palatasıdır, lakin məhkəmə hüququ səlahiyyətlərinə də malikdir və s.) fəaliyyətə malik idi. Cümhuriyyət hökuməti və Milli Şura, ölкəni çox ağır ictimai-siyasi və sosial-iqtisadi vəziyyətdən çıxaracaq, əhalinin bütün təbəqələrini və milli azlıqların nümayəndələrini təmsil edəcəк parlamentin tezliкlə fəaliyyətə başlaması üçün кonкret tədbirlər həyata keçirmişdir. Parlament haqqında qanunun qəbul edilməsi, siyasi-hüquqi hadisə кimi təqdirə layiq olmaqla seçкilər üçün də qanunvericilik bazasının əsaslarını müyyən etmişdir. Digər tərəfdən Respubliкada barışığın (əslində isə, bolşevik-erməni ünsürlərin törətdikləri hüquqa zidd əmələrin qanunla təqib edilməsinin dayandırılması) əldə edilməsi, parlamentdə milli təmsilçiliкdən istifadə etməкlə beynəlxalq, xüsusilə də Baкıda olan ingilis hərbi idarəçiliyinin rəğbətini qazanmaq, dövlət mənfeləri baxımından da, çox zəruri addım idi.

Beləliklə, eкstermal şəraiti nəzərə alan Milli Şura, seçкili orqan olan Məclisi-Məbusana кoopitasiya qaydasında, yəni ümumi seçкi кeçirmədən, məhdud seçкi qaydaları əsasında, o cümlədən qəzaların yerli milli şuraları tərəfindən müəyyən edilərək seçilmiş nümayəndələrin də təmsil olunduğu "Azərbaycan Cümhuriyyəti müvəqqəti parlament"ini yaratmaq qərarına gəlmişdir. Yuxarıda göstərdiyimiz kimi, çarizm hakimiyyəti (sovet tarixşünaslığında imperiyanın "çarizmə" və "bolşevizmə" bölərək belə adlandırılmasında əsas məqsəd, birinin "pis", digərinin "iyi" olması görüntüsünü yaratmaq olmuş, əslində Azərbaycana münasibətdə hər iki quruluş, haq-ədaləti deyil, erməni-daşnakların qanunsuz əməllərini müdafiə etmişdir) dağıldıqdan sonra, baş verən bolşevik və erməni təcavüzünün qarşısını almaqdan ötrü, o dövrdə Azərbaycanın bütün qəzalarında, özünümüdafiə məqsədi ilə yerli milli şuralar yaradılmışdır. Məhz, parlamentə yerli milli şuralar tərəfindən seçiləcək və inzibati ərazi vahidləri təmsilçilərini öz tərkibinə daxil edəcək hüquqi prosesin müəyyən edilməsi, yeganə düzgün və demokratik tələblərə cavab verən kifayət qədər təqdirə layiq legitim qərar idi.

Milli Şuranın müəyyən etdiyi seçki əsasnaməsinin 3-cü bəndinə görə seçiləcəк müsəlman və qeyri-millətlərin deputatları üçün inzibati ərazi vahidləri üzrə aşağıdaкı

proporsional qaydalar sistemi müəyyən edilmişdi: 80 nəfər deputatdan ibarət müsəlman əhalisi Bakıdan 5 nəfər, Göyçaydan 2 nəfər, Cavad qəzasından 2 nəfər, Quba şəhərindən 1 nəfər, Quba qəzasından 2 nəfər, Lənkəran qəzasından 2 nəfər, Şamaxı qəzasından 2 nəfər, Gəncə qəzasından 3 nəfər, Ərəş qəzasından 2 nəfər, Cavanşir qəzasından 1 nəfər, Zəngəzur qəzasından 2 nəfər, Qazax qəzasından 1 nəfər, Cəbrayıl qəzasından 1 nəfər, Nuxa qəzasından 2 nəfər, Şuşa qəzasından 2 nəfər, Zaqatala qəzasından 2 nəfər, İrəvan quberniyasının Azərbaycan hissəsindən 3 nəfər, Tiflis quberniyasının Azərbaycan hissəsindən 1 nəfərlə təmsil olunurdular. Parlamentdə təmsil olunacaq erməni əhalisi üçün Gəncədən 8 nəfər, Şuşadan 8 nəfər və Bakı erməni Milli Komitəsindən 5 nəfər nümayəndə müəyyən edilmişdir.

İlk Azərbaycan parlamentinin deputat heyətinin əsas hissəsini Milli Şuranın 44 üzvü təşkil edirdi. Bu tərkib, 1917-ci ilin noyabrın 26-28-də Ümumrusiya Müəssislər Məclisinə keçirilən seçkilərə müvafiq olaraq "Müsavat" partiyası 10 nəfər, müsəlman-sosialistlər 2 nəfər, ittihadçılar 1 nəfər və bolşevik-hümmətçilər 1 nəfər deputat və cəmi 14 deputat mandatı olmaqla müəyyən edilmişdir. 1918-ci ilin fevral ayında Zaqafqaziya Seymi formalaşdırılan vaxt təklif olunur ki, siyası partiyaların seçilmiş nümayəndələrinin sayı proporsional qaydada 3 dəfə artırılsın. Çünki yaranmış şəraitdə seçki keçirmək mümkün olmadığına görə, Zaqafqaziya Seymində daha geniş tərkibdə təmsil olunmaq zəruriyyəti yaranmışdır. Buna görə də, Azərbaycanı təmsil edən əsas siyasi partiyalar müvafiq olaraq —müsavat 30, müsəlman-sosialistlər 7, bolşeviklər 4, ittihadçılar 3 nümayəndə və birlikdə cəmi 44 nəfər təmsilçi heyət Seyimin tərkibinə daxil olur. İlk Azərbaycan parlamentinin 36 əlavə müsəlman nümayəndələri isə, keçmiş yerli milli komitələrin xətti ilə şəhər və qəzalardan seçilmişdilər. Qeyd etmək lazımdır ki, şəhər özünüidarəsi və yerli milli komitələri olmayan qəzalarda deputatlar kənd icmaları nümayəndələrinin qurultayı tərəfindən seçilirdilər. Beləliklə, Milli Şuranın misilsiz xidmətləri və səyləri ilə yaradılmış Azərbaycan parlamenti, gələcəkdə seçiləcək Ümumazərbaycan Müəssislər Məclisi çağrılana qədər aşağıdakı sistem üzrə seçilmiş 120 deputat üzvlərdən ibarət olmuşdur:

a) Zaqafqaziya müsəlmanlarının 4 siyasi partiyasının siyahıları üzrə Ümumrusiya Müəssislər Məclisinə seçilən, sonra isə genişləndirilmiş siyahı əsasında Zaqafqaziya Seymində üzv qismində iştirak edən və Azərbaycan Milli Şurasını təmsil edən 44 deputatdan;

b) milli azlıqların səlahiyyətli milli təşkilatları tərəfindən seçilən nümayəndələrdən;

c) Azərbaycan şəhər özünüidarəsinin və müsəlman yerli milli кomitələrinin (şuralarının) nümayəndələrindən;

d) sənayeçilərin və tacirlərin nümayəndələrindən;

Beləliklə, birinci Respublikanın parlamenti haqqında qanunda, onun milli tərкibi müsəlmanlar 80 nəfər, ermənilər 21 nəfər, ruslar 10 nəfər, almanlar 1 nəfər, yəhudilər 1 nəfər, gürcü milli şurasından 1 nəfər, polyaк milli кomitəsindən 1 nəfər, həmçinin Baкı həmкarlar ittifaqından 3 nəfər, Baкı Neft Sənayeçiləri Şurası və Ticarət Sənaye İttifaqından 2 nəfər müəyyən edilmişdir. Milli Şura noyabrın 25-də erməni və rus Milli Şuralarına müraciət edərək öz nümayəndələrini parlamentə göndərməyi təklif etsədə, hər iki şura parlamentdə iştirakdan imtina edir. Erməni milli şurası bəhanə kimi, bütün ermənilərin mənafelərini parlamentdə təmsil edə bilməyəcəklərini göstərirdilər. Cənubi Qafqaz respublikalarının öz müstəqilliklərinin elan etmələri isə, ümumilikdə rus Milli Şurasının mənfi rəyi ilə qarşılanmışdır. Belə ki, rus Milli Şurası, Ümumrusiya Müəssislər Məclisi və beynəlxalq sülh konfransının yekun qərarlarının çıxarılmasına qədər Qafqazda hər hansı bir dövlətin elan olunmuş müstəqilliklərini qəbul etmədiklərini və Cənubi Qafqazı Rusiya dövlətinin tərkib hissəsi kimi gördüklərini bəyan edirdi. Rus Milli Şurası tamamilə Rusiya dövlətinin maraqlarını təmsil edərək göstərirdi ki, Rusiyanın iradəsini bilmədən bizim, nə Azərbaycan Cümhuriyyətini, nə də onun parlamentini tanımaq səlahiyyətimiz yoxdur. Qeyd etmək lazımdır ki, yuxarıda göstərilən icmalarla yanaşı, solçularda parlamentə dərhal daxil olmamış, yalnız 1919-cu ilin fevral ayında öz qərarlarını dəyişərək Məclisin işində iştirak etməyə başlamışdılar.

Ali qanunverici orqanın səlahiyyətləri və onun təşkili qaydaları suveren, azad, demokratik, hüquqi və dünyəvi dövlətlər üçün xarakterik olan hakimiyyətin bölünməsi, hüququn aliliyi, plüralist parlament demokratizmi və respublikaçılıq prinsiplər əsasında həyata keçirilmişdir. Belə ki, beynəlxalq praktikada parlamentli respublika quruluşlu idarəetmə formasına və hakimiyyət bölgüsü prinsiplərinə müvafiq olaraq, parlament hökumətinin hesabatını dinləmək, hökumətin istefasını qəbul etmək, yeni hökumətin tərkibini təsdiq etmək, ictimai-siyasi vəziyyəti müzakirə etmək, ölkənin təhlükəsizlik məsələləri, daxili və xarici siyasət istiqamətləri barədə qərarlar vermək, qanunvericilik funksiyasını yerinə yetirmək və s. çox geniş səlahiyyətlərə malik idi (49., s. 77). Azərbaycan Demokratik Respublikası müvəqqəti parlamentinin yaranmasının hüquqi əsasları, məhz, Azərbaycan Milli Şurasının 1918-ci il noyabrın 19-da qəbul etdiyi "Azərbaycan Cümhuriyyəti Parlamenti" haqqında qanunda təsbit edilmişdir. 1918-ci il dekabrın 7-də Azərbaycan parlamentarizmi tarixində böyük hadisə baş verdi. Bakıda

H.Z.Tağıyevin qız məktəbinin binasında Azərbaycan Xalq Cümhuriyyəti parlamenti Milli Şuranın sədri M.Ə.Rəsulzadənin giriş sözü və təbrik nitqi ilə açıldı. Təsis iclasında bütün Nazirlər Kabineti, baş nazir F.X.Xoyski başda olmaqla hökumət iştirak edirdi. Struktur etibarı ilə bir palatadan ibarət parlamentin yaranmasına qədər, Azərbaycanda ali hakimiyyət orqanı funksiyalarını yerinə yetirmiş Milli Şura öz səlahiyyətlərini qanunverici orqana verməklə fəaliyyətini rəsmən başa çatdığını elan etdi. Parlamentin "Müsavat" fraksiyasının təklifi ilə Əlimərdan bəy Topçubaşov parlamentin sədri, Həsən bəy Ağayev isə onun müavini seçildi. Bitərəf və ixtisasca hüquqşünas olan Ə.M.Topçubaşov diplomatik və digər dövləti işlərilə əlaqədar olaraq parlamentin açlışında və ümumiyyətlə sonrakı iclaslarında iştirak etməmişdi. Maraqlıdır ki, Azərbaycanın ilk ən ali dövlət hakmiyyəti vəzifəsi olan Milli Şura sədri postuna seçkilərdə də, M.Ə.Rəsulzadə iştirak edə bilməmişdir. Çünki, iclas keçirilən gün M.Ə.Rəsulzadə və M.H.Hacinski Batum şəhərində Azərbaycanın müstəqilliyi barədə mühüm danışqlar aparırdılar. Qanunverici orqanın ilk iclaslarında Azərbaycan parlamentarizmi ənənələrinin təməli qoyulur, sonrakı fəaliyyət üçün presedent olan nümunələr təşəkkül tapırdı. Parlamentin ilk toplantısında, onun ən gənc üzvü Rəhim bəy Vəkilov katib seçilmişdi. Təsis iclasında, Milli Şura tərəfindən hələ 1918-ci il iyunun 18-də hökumətə verilən səlahiyyətləri öz üzərinə götürən F.X.Xoyski, ona həvalə edilən bütün hakimiyyət səlahiyyətlərini parlamentə verdiyini elan etdi. Parlament ən qısa müddətdə yenidən hökuməti formalaşdırmaq üçün, baş nazir səlahiyyətlərini müvəqqəti icra edən F.X.Xoyskiyə tapşırıq verir. Qanunverici orqanın fəaliyyəti dövründə digər ən mühüm vəzifələrindən biri, AXC-nin konstitusiyasının qəbul etmək olmuşdur. Lakin, bu vəzifənin yerinə yetirilməsi, Müəssislər Məclisi çağırılmasına qədər təxirə salınmışdı.

Beləliklə, siyasi müzakirə meydanı olan Məcilisi-Məbusan, öz statusuna müvafiq olaraq qanunvericilik fəaliyyəti ilə yanaşı ali dövlət hakimiyyətinin bütün məsələləri üzrə geniş və qızğın diskusiyalar aparır, mütəmadi olaraq hökumət üzvlərinin hesabatlarını dinləyib qəbul edir, deputatların və fraksiya liderlərinin parlament rəhbərliyinə və hökumətə sorğu ilə müraciət etmələrini təşkil edir və bu sorğular ətrafında müzakirələr aparır, daxili və xarici siyasətin əsas istiqamətlərini müəyyən edir, ən vacib problemlərin həll olunmasına, respublika vətəndaşlarının hüquq və azadlıqlarının təmin olunmasına, xalqın sosial vəziyyətinin yaxşılaşdırılmasına, milli dövlətin beynəlxalq səviyyədə legetimləşdirilməsinə, xarici ölkələrdə diplomatik nümayəndəliklərin yaradılmasına, qonşu dövlətlərlə mehriban əlaqələrin qurulmasına çalışırdı.

Parlamentin təsis edilməsi, AXC-nin legetimləşdirilməsi prosesində çox

mühüm mərhələ olmuşdur. Məhz, “Azərbaycan Cümhuriyyətinin parlamenti” haqqında qanunun qəbul edilməsi tarixi hadisə idi. Azərbaycan Xalq Cümhuriyyətinin ali qanunverici orqanı olan Məclisi-Məbusan dövlətçiliyin möhkəmlənməsində əvəzsiz rol oynaması, ictimai-siyasi və hüquqi proseslərin sonrakı inkişafı ilə öz təsdiqini tapdı. Parlamentin tərkibində Azərbaycanda yaşayan bütün icmalar təmsil olunurdu.

**Monorafiyada AXC parlamentinin 17 ay ərzində əsas funksiyalarından olan qanunvericilik səlahiyyətlərinin bir çox aspektləri, ilk növbədə parlament statusundan irəli gələn qanunyaradıcılığı fəaliyyəti, qanunların parlament iclasının gündəliyinə daxil edilməsi və qanunların müvafiq komissiyalarda müzakirəsi və ümumi iclasa təqdim edilməsi prosedurları, qanunların geri qaytarılması qaydaları, siyasi mövqeyindən asılı olmayaraq deputatların müzakirələrdə fəal iştirakının tənzimlənməsi, iclasların legitemliyini müəyyən edən deputataların say kvorumunun toplanması, “məsluliyyətli hökumət” prinsipindən irəli gələn Nazirlər Kabinetinin və ayrı-ayrı hökumət üzvlərinin parlament qarşısında hesabatları, beynəlxalq münasibətlərin nizamlanmasından yaranan məsələlər barədə diskussiyalar, dövlət daxili problemlərin həlli üçün müvafiq deputat komissiyalarının təşkil edilməsi və s. ümumlikdə dövlət həyatının bu kimi ən müxtəlif məsələləri araşdırılaraq təhlil edilmişdir.** Məhz, parlamentli respublika quruluşuna müvafiq olaraq, dövlət hakimiyyətinin mühüm qolu kimi parlament funksiyalarına, qanunvericilik fəaliyyəti ilə yanaşı dövlət quruculuğunun bütün vacib məsələləri-Azərbaycan dövlətinin müstəqilliyini möhkəmləndirmək, demokratik quruluşu inkişaf etdirmək, beynəlxalq aləmdə Azərbaycanın tanınmasına nail olmaq kimi ən çətin və məsuliyyətli vəzifələr də daxil idi.

AXC-nin parlamentinin fəaliyyətindən bəhs edərkən, ilk növbədə onun ilk sədri seçilmiş Əlmərdan bəy Topçubaşovun müstəsina xidmətləri qeyd edilməlidir. Azərbaycan dövlətinin rəhbəri kimi Ə.Topçubaşov ölkənin beynəlxalq aləmdə tanınması üçün çox mühüm əhəmiyyət kəsb edən işlər görmüşdür. Topçubaşov və onunla birlikdə çalışan nümayəndə heyətinin (Ə.A.Şeyxülislamov, M.Məhərrəmov, M.Y.Mehdiyev və C.Hacıbəyli) diplomatik bacarığı, fədakarlığı və əzimi nəticəsində Azərbaycan Paris Sülh konfransında müttəfiq dövlətlər tərəfindən de-fakto tanınmışdir (6). **Məhz, Azərbaycan Xalq Cümhuriyyətinin dövlət müstəqilliyinin tanınmasında bütün nümayəndə heyətinin və onun rəhbəri Məclisi-Məbusan sədri Əlimərdan bəy Topçubaşovun parlament fəaliyyətindən kənar gördüyü işlər, bir dəfə belə iclaslarına qatıla bilmədiyi qanunverici orqanının tarixində, həmişə öz sədrləri üçün fəxr edəcəkləri əvəz**

**edilməz, heç bir ölçüyə gəlməz misilsiz və iftixar etməyə layiq fəaliyyəti, böyük ehtiramla xatırlanaraq yaddaşlarda əbədi qalacaqdır. 1919-cu il may ayının 28-də Ə. Topçubaşovun ABŞ prezidenti V.Vilsonla görüşü, bir qədər sonra Azərbaycanın dünya birliyi tərəfindən de-fakto tanınmasında mühüm rol oynamışdır. Məhz, müttəfiqlərin Ali Şurasına daxil dövlət başçılarından yalnız ABŞ prezidenti, Paris şəhərində "Qafqaz Azərbaycanından" olan nümayəndə heyəti ilə görüşmüşdür. Qeyd etmək lazımdır ki, Vilson sülh prinsiplərinin əsasında, bolşeviklərsiz "vahid və bölünməz" Rusiya və yaxud bolşevizimlə yanaşı xırda dövlət quruluşlarında yox, konfederativ quruluşda (məs: Gürcüstan, Azərbaycan, Ermənistan) yeni suveren dövlətlər birliyinin yaradılması ideyası dayanırdı.**

Azərbaycan parlamentinin qəbul etdiyi bütün qanunlar çox böyük əhəmiyyət kəsb etmişdir. Lakin, bir sıra qanunlar hüquqi baxımdan dövlətçiliyin möhkəmləndirilməsi və legitimləşdirilməsində müstəsna rola malik idi. Belə ki, Ali qanunverici orqanın qəbul etdiyi mühüm qanunlardan biri, 1919-cu il iyunun 21-də "Azərbaycan Respublikasının Müəssilər Məclisinə seçkilər haqqında Əsasnamə"nin təsdiq ediməsi olmuşdur. Öz dövrünə görə çox mütərəqqi müddəaları təsbit edən seçki qanununu, "İstiqlal Bəyannamə"sinin müddəalarında da, təsbit edildiyi kimi, millətindən, dinindən, cinsindən, siyasi mənsubiyyətindən asılı olmayaraq seçkiləri bərabər, birbaşa və gizli səsvermə yolu keçirməyi nəzərdə tuturdu. Qadınlara kişilərlə bərabər seçki hüququ verilirdi. Halbuki, konstitusiya quruluşulu Qərb ölkələrində qadınlara belə hüququn verilməsi hələ də müzakirə mövzusu idi. Azərbaycan palametinin qanunvericilik fəaliyyəti təkcə qeyd olunan qanunlarla deyil, digər çox mühüm hüquqi aktların qəbul edilməsi ilə zəngin olmuşdur. Məhz, qanunvericilik fəaliyyətinin yüksək təşkil olunması, eyni zamanda Azərbaycan Demokratik Respublikasında parlamentarizim ənənlərinin təşəkkül tapması prosesinin əsaslarını müəyyən etmişdir.

Azərbaycanın müvəqqəti parlamenti bir palatadan ibarət təşkil edilmişdir. Parlamentdə 11 komissiya, o cümlədən büdcə, təsərrüfat, fəhlə, aqrar, hüquq, hərbi məsələlər və s. sahələr üzrə fəaliyyət göstərirdi. "İstiqlal Bəyannamə"sinin müddəaları əsasında AXC-nin qanunverici və icraedici hakimiyyət qollarının funksiyaları müəyyən edilmişdir. Yuxarıda da, qeyd etdiyimiz kimi, Azərbaycan parlamentinin qəbul etdiyi mühüm qanunlar sırasına, funksional səlahiyyətlərin bölünməsinin dəqiq həddlərini müəyyən edən "Deputatlıq və məmurluq haqqında" 4 maddədən ibarət qanunu şamil etmək olar. Parlament кomissiyalarında da geniş müzaкirə olunan qanun layihəsi qanunverici və icraedici haкimiyyətlərin bir-birindən ayrılıb müstəqil olması və respubliкa dövlət idarəçilik quruluşunun

demoкratiк, hüquqi dövlət ənənələrinə müvafiq olmasını müəyyən edirdi. 1919-cu il yanvarın 25-də qəbul edilmiş dövlət qulluğu ilə yanaşı, eyni zamanda parlamentin üzvü olması qaydalarını tənzimləyən "Deputatlıq və məmurluq haqqında" qanun, nazirlər istisna olmaqla, iкi müxtəlif təyinatlı haкimiyyət orqanında təmsil olmağı qadağan edirdi. Qanuna görə gələcək seçkilərdə digər məmurlar məbus (deputat) seçildiкləri və ya seçiləcəyi təqdirdə deputat кimi fəaliyyət göstərmələri özlərindən asılı idi. Belə ki, seçki qanuna görə deputat olmaq istəyənlər, məmur vəzifəsində çalışa bilməzdilər. Qanun görə, elmi-pedaqoji sahədə, o cümlədən idarə xidmətində (inzibati vəzifə tutmayan məmurlar) çalışmayan məкtəb məmurları və ya professorlar, eləcə də müxtəlif azad peşə sahibləri, hüquq məsləhətçiləri və həкimlər dövlət məmurları olmadıqlarına görə istisna təşкil edirdilər. Seçki qanununun müəyyən etdiyi kimi parlament üzvü olan nazir, məvacibini nazir heyəti təsisatında alırdı. Keçid dövrünün çətinliklərini nəzərə alaraq, yalnız nazirlərə istisina kimi parlament üzvü olmasına icazə verilmişdir.

AXC-nin ilk qanunverici orqanın tərkibi, ölkdə yaşayan xalqların təmsilçilərindən ibarət olmaqla müəyyən edilmişdir. Parlament üzvləri ölkənin siyasi partiyaları ilə yanaşı ayrı-ayrı icmaların, bitərəflərin, ictimai birliklərinn, ittifaqların nümayəndələrindən (hüquqi şəxslərin nümayəndələri) təşkil olunmuşdur. Azərbaycan parlamentində "Müsavat" ən böyük siyasi partiya kimi iştirak etmişdir. Parlament üzvləri, xüsusilə də, siyasi partiyalar dövlət istiqlalının möhkəmlənməsinə yönəlmiş qanun layihələri və islahat proqramları ilə qanunverici hakimiyyətinin fəaliyyətini istiqamətləndirdilər. Bu qanun layihələri və islahat proqramlarında nizami ordu yaradılması, torpaqların kəndlilər arasında pulsuz bölüşdürülməsi, 8 saatlıq iş günü, söz, mətbuat, yığıncaqlar, ittifaqlar və s. digər demokratik hüquq azadlıqlar kimi son dərəcə aktula məslələr əhatə olunmuşdur.

Ali qanunverici hakimiyyət orqanın daxili reqlamenti (Parlament "nakazı", "təlimatı") müəyyən edilmişdi. Qanun və qərarlar səs çoxluğu ilə qəbul olunurdu. Səsvermədən keçməyən qanun layihələri yenidən işlənmək üçün komissiyalara qaytarılırdı. Bütün rəsmi sənədlər azərbaycan dilində hazırlanırdı.

Azərbaycan xalqının suveren hüquqlarını təmsil etmək, AXC-nin ali dövlət və qanunverici hakimiyyət orqanı olan Azərbaycan parlamentinin səaliyyətlərinə həvalə edilmişdir. Dövlətin konstitusion əsaslarla qəti fəaliyyət göstərməsi isə, ilk konstitusiyasının qəbul edilməsi ilə şərtləndirilirdi ki, bu prosesin reallaşdırılması, Ümumazərbaycan Müəssislər Məcisinə seçkilərdən sonra başa çatmalı idi. Beləliklə, Azərbaycan Məclisi-Məbusanı dövlətçilik tarixi üçün böyük əhəmiyyət kəsb edəcək ölkə konstitusiyasının qəbulunu, torpaq məsələsinin həllini,

ümumilikdə siyasi-hüquqi və sosial-iqtisadi inkişafı kimi mühüm vəzifələri yerinə yetirilməsini təmin edəcək "Müəssislər Məclisinə seçkilər haqqında" qanun layihəsinin müzakirəsini 1919-cu il 21 iyul tarixində başa catdıraraq parlamentin təsdiqinə vermişdir.

"İstiqlal Bəyannamə"sinin mahiyyətində, suveren və demokratik Azərbaycan Xalq Cümhuriyyəti dayanırdı. "İstiqlal Bəyannamə"sinin ikinci bəndində göstərilmişdir ki, müstəqil Azərbaycanın siyasi quruluş forması demokratik respublikadır. Məhz, bu baxımdan legitim parlamentin fəaliyyəti, mahiyyət etibarı ilə istənilən demokratik ölkədə, respublika quruluşunu elan olunduğu siyasi sistemdə, xalqla dövlət arasında birbaşa əlaqə və xalqın demokratik proseslərdə öz nümayəndələri vasitəsi ilə iştirakını təmin edən çox vacib dövlət mexanizminin yaradılması, ən aktual məsələ idi. Dövlət həyatında parlament nəyinki qanunvericilik fəaliyyəti, həmçinin çox mürəkkəb daxili və beynəlxalq vəziyyətdə ölkənin suverenliyi, ərazi bütövlüyü, iqtisadi-sosial və hüquqi sahələrdə tərəqqi və inkişafı təmin etmək vəzifələrini yerinə yetirən ali hakimiyyət orqanı funksiyasına malik olmuşdur. Sonrakı proseslər göstərdi ki, Azərbaycan parlamenti gənc respublikanı dünyaya tanıtdırılması, onun legitimləşdirilməsində zəruri olan qanunverici bazasını çox sürətlə yaradılması vəzifəsinin öhdəsindən uğurla gəlmişdir. I Respublika elan edildiyi ilk günlərdən dövlət idarəçiliyi və qanunçuluq sahəsində təcrübəyə malik olmayan, lakin vətəni sevən görkəmli ictimai-siyasi xadimlərin, dövlət hakimiyyətində təmsil olunan və olunmayanların yaxından köməyi nəticəsində səriştəli və işgüzar milli hökumət və çox qısa müddətdə nümunəvi parlament yaratmağa nail ola bilmişdilər. Məhz, qanunverici orqanın fəaliyyətinə nəzər saldıqda hətta çox əsrlik parlament ənənələrinə malik dövlətlərdən heç də geri qalmayan, özündə parlamentarizmin bir çox demokratik elementlərini birləşdirən Azərbaycan Xalq Cümhuriyyəti parlamenti xalqın ümidlərini doğruldaraq onun müstəqillik arzusunu yerinə yetirmişdir (45).

Fəaliyyətə başladığı qısa müddət ərzində parlament, dövlət quruculuğu və qanunvericiliyin təşəkkülü və təkmilləşdirilməsi sahəsində kifayət qədər işlər görmüşdür. Parlament fəaliyyətində nəyinki qanunvericilik səlahiyyəti ilə məhdudlaşmış, eyni zamanda icraedici orqan - Nazirlər Kabineti üzərində qanunların icra edilməsinə nəzarət funksiyasını yerinə yetirmiş, hökumətin hesabatlarını qəbul etməklə ali dövlət idarəçiliyi sistemi daxilində Azərbaycan parlamentarizmi ənənəsini yarada bilmişdir. Parlament dövlət quruculuğunda hakimiyyətlərin bölgüsünün iştirakçısı olmaqla və ilk növbədə qəbul etdiyi konstitusiya qüvvəli qanunlarla onların səlahiyyətləri hədlərini müəyyən etmişdir. AXC-də parlamentarizmin möhkəmlənməsi və inkişafı üçün qanunverici orqanın

fəaliyyətinin tənzimlənməsi və nizamlanmasına dair bir sıra mühüm qanunlar qəbul etmişdir. Bu qanunlar deputatların səlahiyyətlərini, onların hüquq və vəzifələrini, qanunların qəbul olunması proseduru, işçi qruplarının yaradılması, komissiyaların fəaliyyəti, fraksiyaların təşkil edilməsi, intizamın qorunması və s. məsələləri əhatə etmişdir.

Seçkili orqan olan parlamentin dövlət hakimiyyəti orqanları arasında aparıcı mövqeyə malik olması parlamentarizmin səciyyəvi cəhətlərinə xas olan əlamətdir. Belə ki, bu səciyyəvi cəhətin əsas əlaməti kimi, ali dövlət hakimiyyətinə aid funksiyaların qanunverici orqan tərəfindən yerinə yetirilməsi, parlamentə üstünlük verməklə (ali dövlət hakimiyyəti vəzifələrinin yerinə yetirilməsinə münasibətdə) qanunvericilik və icraedicilik səlahiyyətlərin bölüşdürülməsində ehtiva olunmuşdur. Dövlət hakimiyyəti orqanları sisteminə daxil olan parlamentin səciyyəvi cəhətlərindən ən mühümü onun xalq tərəfindən seçilməsi idi. Parlamentli respublika quruluşunda hökumətin qanunvericilik funksiyaları məhdudlaşdırılır. İcraedici hakimiyyət parlament qarşısında vaxtaşırı hesabat verir. Parlament hökumətin istefasını (hökumət, parlamentin buraxılmasına təsir edən hüquqi mexanizmə malik olmamışdır) qəbul edir. Məhz, strukturuna görə, bir palatalı Azərbaycan parlamentində o dövrün bütün siyasi qüvvələrinin təmsil olunması, dövlət quruculuğunun və parlament idarəçiliyinin hüquqi, plüralist, çoxpartiyalı sistemini müəyyən etməklə, demokratik ənənələrin başlanğıcı üçün möhkəm hüquqi baza yaratmışdır.

Qanunverici orqanda idarəetmə institutunun təşkil edilməsi, parlamentarizm fəaliyyətinin əsas prioritetlərindən biri olmuşdur. “Azərbaycan parlamentinin nakazı” adlanan daxili nizamnamə, aparatın işini təşkil etmək üçün qəbul edilmiş hüquqi təlimat idi. “Parlament nakazı” Rusiya imperiyası Dövlət Dumasının daxili nizamnaməsi təcrübəsindən istifadə etməklə hazırlanmışdır. Azərbaycanın qanunverici hakimiyyət qolunda, parlamentin özünün ali idarəedici orqan kimi “senyorenkonvent” (rəyasət heyəti) adlanan məsləhət şurası yaradılmışdır. Məsləhət şurasında sədrdən, birinci müavindən və fraksiya nümayəndələrindən ibarət tərkibdə məşvərətçi orqan formalaşdırılmışdır. İlk iclaslarda parlamentdə mandat (etimadnamə), reqlament və təsərrüfat komissiyaları yaradılaraq onların tərkibinə seçkilər keçirilmişdir. Fraksiyaların gələcək fəaliyyətinin əsas prinsipləri və proqramları onların bəyanatlarında ifadə olunurdu. Bəyanatların mahiyyətində ilk növbədə, bütün fraksiyaların müstəqilliyinin qoruması və ölkədə demokratik idarəçiliyi təmin etmək dayanırdı.

Qanunverici orqanın işini mütəşəkkil və səmərəli təşkil etmək üçün Ş.Rüstəmbəyov (müsavat fraksiyası), A.Səfikürdski (sosialist fraksiyası),

Z.Vəzirov (ittihad fraksiyası), Moisey Quxman (milli azlıqlar fraksiyası, yəhudilərin təmsilçisi) mandat komissiyasına; M.Y.Cəfərov (müsavat fraksiyası), Q.Qarabəyli (ittihad fraksiyası), din xadimi Vasili Kravçenko (slavyan-rus ittifaqı fraksiyası, rusların nümayəndəsi) reqlament komissiyasına; A.Kazımzadə (müsavat fraksiyası), H.Məmmədbəyov (ittihad fraksiyası) Tsxakaya (milli azlıqlar fraksiyası, gürcülərin nümayəndəsi) təsərrüfat komissiyasına üzv seçilmişdilər. Parlamentin sonrakı iclaslarında daha bir neçə komissiya, o cümlədən maliyyə-büdcə, fəhlə, qanunvericilik təklifləri (hüquq), redaksiya, hərbi işlər, aqrar, sorğu, ölkənin məhsuldar qüvvələrindən istifadə, Müəssislər Məclisinin çağırılması üzrə komissiyalar yaradılmışdır. Qeyd etmək lazımdır ki, Azərbaycan parlamentinin ilk iclasında müttəfiq (Antanta) qoşunların komandanı general Tomsonun şəxsi nümayəndəsi polkovnik Kokkerelin, İranın baş konsulu Sədülvüzarənin, İranın maliyyə agenti Vəlik-ül-mülkün, Dağlılar Respublikası hökumətinin sədri T.Çermoyevin, bu hökumətin Azərbaycan hökuməti yanındakı təmsilçisi Qantamirovun, Gürcüstan Respublikasının təmsilçisi Karstvadzenin, eləcə Araz Respublikasının nümayəndəsi P.Əliyevin iştirak etməsi artıq AXC-ni regional de-fakto tanınması ümidünü daha da artırmışdır. AXC-nin ali qanunverici hakimiyyət qolunun ilk iclasının yekununda **“İttihad” fraksiyasından Q.Qarabəyli humanizm prinsiplərindən çıxış edərək Azərbaycan parlamentinin açılışı münasibəti ilə siyasi məhbuslara ümumi amnistiya verilməsi təklifini irəli sürmüşdür. Amnistiya təklifinin irəli sürülməsi ilə demokratik, hüquqi dövlət kimi AXC-də daha bir presedentin əsasları müəyyən edilmiş və parlamentin sonrakı fəaliyyətində dəfələrlə bu praktikadan istifadə edilmişdir.** Parlament fraksiyaları bu təklifi yekdilliklə qəbul etmiş və ölkədə humanizmin, sabitliyin, barışın təmin edilməsi üçün amnistiya haqqında qanun lahiyəsi hazırlamaq məqsədilə 5 nəfərdən ibarət işçi qrup yaratmışdılar. Komissiyanın tərkibinə sosialist blokundan A.Səfikürdski, Hümmət partiyasından S.Ağamalıoğlu, bitərəflərin nümayəndəsi A.Əfəndiyev, “İttihad” partiyası tərəfindən Z.Tağıyev və “Əhrar” fraksiyasından A.Qardaşov daxil edilmişdilər.

Azərbaycan Xalq Cumhuriyyəti və onun parlamenti uzun əsrlər boyu təşəkkül tapmış bəşəri dəyərlər mövqeyindən çıxış edərək, müstəqilliyin elan olunmasından sonra, bu dəyərlərin qorunub saxlanılması və inkişaf etdirilməsinə çalışmışdır. Bütün ölkə vətəndaşları, o cümlədən milli və dini mənsubiyyətindən asılı olmayarq bu torpaqda yaşayanlar, bir vətənin övladları kimi birgə həyatlarını qurmaq və bərabər olaraq inkişaf etdirmək üçün AXC dövləti və hökumətindən tam zəmanət almışdılar. Azərbaycanın milli mədəniyyətinə müvəffəqiyyətlə inteqrasiya olan müxtəlif xalqların nümayəndəlləri, sabit və harmonik inkişaf etmələri üçün AXC, bütün təminatları praktiki işində əməl etmişdir. AXC hakimiyyətinin XX əsrin

əvvələrində bəşəri dəyərlər əsaslanan fəaliyyəti (əslində isə, Azərbaycanda multikultural sivilizasiya. hüquqi dövlət quruluşundan çox-çox əvvəllərə gedib çıxır) artıq sübut etmişdir ki, multikultural sivilizasiyalı cəmiyyətlərin formalaşması və möhkəmlənməsi bu cəmiyyətlərdə qarşıdurmanın, milli və dini münaqişələrin aradan qaldırılmasının ən etibarlı vasitəsidir.

### 1.3.2.Qanunverici orqanın iş rejimi: parlament xronikası-cari məsələlərin və praktiki qanunvericilik işinin təşkili qaydaları.

Parlamentin stenoqrafik materialları (4; 5) əsasında Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin iş rejiminin təşkil edilməsi qaydaları və praktiki qanunuvericilik fəaliyyətinin araşdırılması, nəyinki demokratik qanunvericilik işlərinin prosedur qaydalarının formalaşması və inkişafını müəyyən etməyə, eyni zamanda qanunverici orqanının işinin reqlamentləşdirilməsi prosesi, baş verən mühüm ictimai-siyasi hadisələr, ölkənin qarşılaşdığı problemlər və onların tənzimlənməsi yolları, təşəkkül tapmaqda olan qanunvericilik və idarəçilik münasibətlərinin hüquqi aspektləri və ümumilikdə gənc respublikanın mübarizələrlə dolu ictimai-siyasi həyatını, mövcudluğunu, varlığını izləməyə imkan verir.

Məlumdur ki, AXC-nin qanunverici hakimiyyət orqanın yaradılması üçün Milli Şura və hökumət maksimum səviyyədə parlament üzvlərinin çoxtərkibli, bütün xalqların iştirakını müəyyən edəcək seçki sisteminin yaradılmasını təmin etməyə çalışmışdır. Belə ki, seçkilər haqqında qanun geniş müzakirə üçün qəzetlərdə nəşr edilmiş, protokolların forma nümunələri tərtib edilərək qubernator və rəislərə göndərilmişdir. Azərbaycan parlamentin yaradılmasının hüquqi əsaslarını müəyyən edən “Azərbaycan Məclisi-Məbusanın təsisi haqqında” qanunda, deputatların tərkibinin müəyyən edilməsi qaydlarının əsasları təsbit edilmişdir. Qanun bütün seşki proseduru üzrə qaydaları tənzimləyir, seçkilərin gizli səsvermə ilə keçirilməsi və 24 min seçici əhaliyə bir deputat seçilməsini müəyyən edirdi. Həmin dövrdə Bakı və Gəncə quberniyası, Zaqatala dairəsi, İrəvan və Tiflis quberniyalarının bir hissəsini təşkil edən Azərbaycan ərazilərində 2 milyon 250 min əhali yaşayırdı. Bu əhalinin 1 milyon 900 min nəfərinin müsəlman (azərbaycanlı), 500 min nəfərini erməni, 230 min nəfərin rus təşkil etmişdir. Milli Şura əhalinin ümumi sayını nəzərə alaraq Azərbaycan parlamentində müsəlmanlara 80, ermənilərə 21, ruslara 10, alman 1, yəhudilərə 1 məbus (deputat) olmaqla proposional mandat yeri ayırmışdır. “Azərbaycan Məclisi-Məbusanı təsisi haqqında” qanuna görə, seçkidə iştirak edəcək namizədlərin seçilməsi qaydaları və seçkilərin nəticələrinin elan edilməsi proseduru şəhərlərdə bələdiyyə rəislərinə, uyezdə (qəzalarda) ədalət məhkəmələri və ya onların müavinlərinə həvalə edilirdi. Azlıq təşkil edən millətlərin nümayəndələrinin seçkilərinin təşkil olunması qaydası, mənsub olduğu millətin milli şura rəislərinin (sədrləri) təşəbbüsü və nəzarəti ilə icra olunur və onların imzası və etimadnamələri verilməsi ilə öz hüquqi qüvvəsini təsdiq edirdi.

Seçki qanunu, o cümlədən parlamentin 44 nəfərdən ibarət olan keçmiş Milli Şura üzvlərindən hər hansı birinin deputatlıqdan istefa verməsi və ya digər səbəbdən parlamenti tərk etməsi (ölüm və s.), onun yerinə daxil olduğu fraksiyanın hər hansı digər bir üzvünün namizədi ilə əvəz olunması qaydasının təsbitini nəzərdə tuturdu.

Demokratik, azad və plüralist prinsiplər əsasında işini təşkil edən ali qanunverici orqan, parlamentdə təmsil olunan əsas siyasi partiyalara mənsub olduqları təşkilatlarının platforma və mövqeylərini parlament tribunasında elan etmələri, həmçinin deputatların həm plenar iclaslarda, həm müxtəlif komissiya və işçi qruplarında fəaliyyətləri üçün hər cür şərait yaratmışdır. Məhz, parlamentin rəsmi fəaliyyətə başladığı qısa müddətdən sonra, qanunverici orqanda qızğın diskusiyalar keçirilmiş, ən müxtəlif məzmunlu müzakirələr aparılmışdır. Parlament xronikasında, ölkədə yaranmış ictimai-siyasi vəziyyət, respublika xaricində baş verən siyasi proseslər, partiyalararası münasibətlər, ümumlikdə ən aktual cari məsələlər və s. problemlərdən bəhs edilirdi. Parlament diskusiyalarına çevirilmiş bu məsələlər barədə təhlil aparmaq, onları analiz etmək, eyni zamanda qaldırılan problemlərin həlli və tənzimlənmə təcrübəsindən nəticə çıxarmaq və bu təcrübənin mümkün tətbiqi barədə elmi-nəzəri təminata malik olmaq, monoqrafiyanın əsas məqsədlərindən biridir.

Bəhs olunan dövrdə, əsas siyasi qüvvlərin mövcud quruluşa münasibəti tarixi təcrübənin öyrənilməsi baxımından olduqca aktual hesab olunur. Çünki, yeni yaranmış dövlətin möhkəmlənməsinin təminatçısı qismində həm də ölkədəki siyasi partiyalar və onların tutduğları mövqey mühüm rola malikdir. **Ali qanunverici orqanın tribunasından siyasi platformalarını elan etmək üçün ilk çıxışı “Müsavat” firqəsi adından onun sədri M.Ə.Rəsulzadə etmişdir.** Azərbaycan Məclisi - Məbusanında 23 deputatla təmsil olunan Müsavat partiyası Azərbaycan istiqlalını möhkəmləndirmək, hüquqi islahatlar keçirmək və ölkə xaricində tanınmq üçün bütün səylərin birləşdirilməsini zəruri hesab edirdi. Partiya, Azərbaycan vətəndaşlarının sosial rifahının yaxşılaşdırılmasını, əkinçiyə torpaq, işçiyə isə iş verilməsini, hökumətin başlıca vəzifəsi kimi göstərirdi.

Azərbaycan Xalq Cümhuriyyətində mövcud ictimai-siyasi vəziyyətə, həmçinin partiyanın fəaliyyətindəki çətinlikləri barədə parlamentdə çıxışı zamanı Rəsulzadə göstərirdi ki, partiyanın yaxın keçmişdə fəaliyyətləri ilə əlaqədar hər iki tərəfdən həm sağdan, həm də soldan təzyiqlər edirlər. Sağdan edilən təzyiqlər ona görə edilirdi ki, guya müsavatçılar bütöv islama birliyinə zərərə vurub müsəlmanları parçalayır, solçular isə iddia edirlər ki, onlar Azərbaycanı inqilabçı və azadlıqpərvər Rusiya demokratiyasından ayırır. Lakin, Müsavat partiyası Rusiya imperiyası tərkibində olan xalqların bərabərliyi ideyasını müdafiə edərək,

Azərbaycan muxtariyyətini tələb etmişdir. Hal-hazırda Azərbaycan firqələri arasında onun müstəqilliyi ideyası ixtilafa səbəb olmur, əksinə xalqın zehnində istiqlal fikri möhkəm yer tutmuş və üç rəngli məğrur Azərbaycan bayrağı bütün siyasi qüvvələri bir bayraq altında birləşdirmişdir. Partiya Azərbaycan məsələsinin beynəlmiləl məsələyə çevrilməsi, müstəqil Azərbaycanın ölkə xaricində müdafiə edilməsi, onun müstəqillik haqqının təsdiq edilməsini, yeni təşkil ediləcək hökumətin əsas məramı kimi irəli sürürdü. Amerika Birləşmiş Ştatların prezidenti V.Vilson yeni müstəqilliklərin elan etmiş xalqların hüquqlarının tananmasını, onların haqları olmasını bəyan etmişdir. Millətlərin öz müqəddaratlarını həll etmək ixtiyarına malik olduqlarını, ingilis hərbi komandanlığının generalı Tomsonun isə, Qafqaz məsələsinin sülh məclisində həll olunacağını elan etməsi, Azərbaycanın müstəqilliyinin tanınmasının reallaşacağını söyləməyə əsas verirdi.

Müsavat fraksiya ölkənin xarici siyasətinin başlıca istiqamətlərindən biri kimi, Qafqaz ölkələrinin ittifaqının təşkil edilməsi, dostluğun və əməkdaşlığın möhkəmləndirilməsi, bütün fikir ayrılıqlarının sülh, əməkdaşlıq, qarşılıqlı güzəştlər və ən sonu hökm vasitəsilə həll edilməli olduğunu irəli sürürdü. Gənc respublika qarşısında ilk növbədə görüləcək tədbirlərdən dövlətlərarası diplomatik münasibətlərin qurulması, nümayəndəliklərin yaradılması, xarici işlər orqanlarının əlaqələrinin genişləndirilməsi idi. Xarici dövlətlərə sülh və əməkdaşlıq təklifi ilə çıxış edən üçüncü hökumət, ölkə daxilində demokratik azadlıqları, bərabərliyi və asayişi qorumağı əsas vəzifə hesab etməlidir. Birinci və ikinci hökumətdə yalnız müsəlmanlardan ibarət olmuş nazirlər heyəti yeni təşkil ediləcək hökumətdə müştərək əsaslarla müəyyən olunmalıdır. Fraksiya Azərbaycan Cümhuriyyətində bütün millətlərin: erməni, rus, yəhudi, gürcü, alman, polyak və s. azlıqda qalmış millətlərin doğma vətəni olmaqla onlara Azərbaycan vətəndaşı kimi bərabər hüquqlar verilməsini, milli mədəniyyətlərini inkişaf etdirilməsi üçün şərait yaradılmasının təmin edilməsini əsas prioritet hesab etmişdir.

Milli hökumət aqrar məsələyə baxılması və bu sahədə islahatlar keçirilməsini mühüm vəzifə hesab edirdi. Müsavat fraksiyasının təqdim etdiyi "Torpaq məsələsi" aşağıdakı tənzimlənmə qaydalarını nəzərdə tuturdu: xəzinəyə, çara və çar nəslinə mənsub xanədan, eləcə də mülkədarlara və xüsusi malikənlərə məxsus olan bütün torpaqlar pulsuz və əvəzsiz olaraq zəhmətkeşlərə və rəncbər xalqa verilməli və bu torpaqlar kəndlilərin mülkiyyətinə keçməklə, həmin torpaq yerləri üzərində sərəncam hüququ onlara məxsus olmalıdır; hər bir mülkiyyət sahibinə veriləcək torpaqların həcmi qanunla təsdiqlənəcək və ondan artıq torpağa sahib olmaq qadağan ediləcəkdir; rəncbərlərə əvəzsiz verilmiş torpaqların yerinə torpaq sahiblərinə xüsusi yaradılmış fond hesabına dəymiş zərərin mükafatı

ödəniləcəkdir; xüsusi torpaq sahibliyinə məxsus ərazilərdəki yerin təkində olan sərvət, dövlətin müəyyən etdiyi xüsusi nizam və qanunla tənzimlənəcəkdir; meşələr, səhralar, göllər, duzlaqlar və axar sular ümumi istifadəyə verilir; və onlar yerli hakimiyyət idarələrinin əlində olmaqla, ayrı-ayrı fiziki şəxslərin istifadəsini qanunla tənzimləyir. Beləliklə, aqrar məsələyə diqqət və onun həll edilməsi olduqca aktual məsələ idi. Çünki, bu məsələ ətrafinda bolşeviklər daim öz məqsədlərini təmin etmək üçün istifadə edirdilər. Torpaq kadastrının müəyyən edilməsi ölkənin ərzaq təhlükəsizliyi sahəsində vəziyyətini yaxşılaşdırmaqla strateji əhəmiyyət kəsb edən məsələ olmuşdur. Digər dövlətlər ticarət əlaqələrinin yaradılması və dövriyyənin artırılması, həmçinin yolların qurulması və mühafizəsi hökumətin mühüm vəzifəsi olaraq qalırdı.

Aqrar məsələ ilə yanaşı fəhlələrin hüquqlarının təmin edilməsi də, mühüm əhəmiyyət daşıyırdı. Parlament müzakirələri çərçivəsində fəhlələrin hüquqlarının qorunmasına yönəlmiş "İşçi məsələsi" xüsusi yer tuturdu. Müsavat firqəsinin müzakirəyə təqdim etdiyi bəyannəmə zəhmətkeşlərin əmək hüquqlarının tənzimlənməsinin aşağıdakı qaydalarını təklif edirdi: ilk növbədə fəhlələr üçün 8 saat iş günü və bir gün istirahət nəzərdə tutulur; qanunla müəyyən edilmiş iş günündən artıq işləmək tamamilə qadağan olunur; gecə qulluğu axşam saat 9-dan saat 6-ya qədər qadağan edilir, lakin zərurət olduqda qarşılıqlı razılıqla gecə işləməyə icazə verilir; 16 yaşına qədər olan yeniyetmələrin işləməsi qadağan edilir, 16 yaşından 18 yaşına qədər olan gənclər üçün 6 saatlıq iş günü müəyyən edilir; qadınlara zərərli işlərdə çalışmaq qadağan edilir; hamilə qadınlara doğuşdan əvvəl 4 həftə, sonra isə 6 həftə ərzində əvəzi ödənilməklə məzuniyyət verilir; fəhlələr və qulluqçuların sığortalanması, həmçinin iş qabiliyyətini qismən və tamamilə itirmiş şəxslər üçün isə, xüsusi fondlar hesabına ödənişlər nəzərdə tutulur; bütün müəssisələrdə fabrik müfəttişləri təyin edilir; fəhlə kazarmalarında sanitar-gigenik tədbirlər yerli özünüidarə orqanları tərəfindən və fəhlələrin yaxından iştirakı ilə aparılır; hər fabrik, zavod və başqa müəssisədə sahibkardan asılı olmayan sanitar nəzarətçi təyin olunur; "Fəhlələr haqqında" ("İşçi məsələsi") qanunu pozan sahibkar məsuliyyətə cəlb edilir; hər müəssisədə mübahisəli məsələləri həll edərkən, hər iki tərəfdən həm fəhlələr həm də sahibkarlar bərabər sayda nümayəndələri olan komissiyaları yaradılır; fəhlə təşkilatlarının iştirakı ilə əmək birjaları təşkil edilir; əhalinin əsas hissəsini təşkil edən əməkçi xalqın kütləvi epidemiyalardan qorunması üçün təcili və davamlı tibbi və sanitar tədbirlər həyata keçirilir; xalq maarifi sisteminin qurulmasına diqqəti artırılır; və kəndlərdə məktəblərin tikilməsi və şəhərlərdə seminariyaların təşkil olunması ən zəruri işlərdən hesab edilirdi. Rəsmi dövlət idarələri arasındakı sənədləşmələrin milli dildə aparılması da, hakim partiyanın diqqət mərkəzində idi.

Ölkənin təhlükəsizliyi və ərazi bütövlüyünun möhkəmlənməsində ordunun təşkili xüsusi əhəmiyyət daşıyır və bu məsələ eyni zamanda xarici təhlükədən dövlətin qorunması və ölkə daxilində asayişin saxlanılması üçün də vacib proses idi. Hərbi mükəlləfiyyətin ümumi olması təklif edilirdi. Fraksiya hesab edirdi ki, dövlət büdcəsinin bütün ağırlığı kasıb təbəqənin deyil, varlı sahibkarların üzərinə düşməlidir. Yeni yaradılmış hökumətdən, tezliklə Ümumazərbaycan Müəssislər Məclisinin təcili çağırılması üçün tədbirlər görülməsi də tələb edilirdi. Fraksiya, seçki qanunu hazırlamaq üçün xüsusi komissiyanın yaradılmasınıda irəli sürürdü. Xalqın azad, dövlətin isə müstəqil yaşamasını təmin edəcək, indiki şəraitdə koalision əsaslarla yaradılacaq hökumətin olması mühüm məsələ idi. Koalisiya həm milli, həm də partiya əsasları üzrə təşkil edilməklə yanaşı, parlament qarşısında məsuliyyət daşıyan çevik icaraedici hakimiyyət orqanı kimi fəaliyyət göstərməlidir. Məhz, partiyanın mövqeyinə görə, yalnız parlament qarşısında məsuliyyət daşıyan, həmrəylik əsasında və partiya mövqeyindən və milli mənsubiyyətindən asılı olmayaraq yaradılmış yeni hökumət, ölkəni Müəssislər Məclisinə qədər apara və bizim müstəqilliyimizin beynəlxalq birlik tərəfindən tanınmasına nail ola bilərdi.

**Azərbaycan Xalq Cümhuriyyəti qanunverici orqanında 9 nəfər əzası (üzvü) ilə təmsil olunan "Əhrar" (azadlıqsevərlər) partiyası, 14 yanvar 1919-cu il rəsmi "Azərbaycan" qəzetində nəşr olunmuş proqramında Azərbaycanın dövlət müstəqilliyini tam dəstəklədiyini bəyan etmişdir.** Partiyanın mövqeyinə görə, parlament tam demokratik seçilmiş tərkib kimi olmasa da, fraksiya belə hesab edir ki, mövcud şəraitdə Azərbaycan parlamentini tanıyır və onu ümumi, bərabər, birbaşa və gizli keçirilməli olan Ümumazərbaycan Müəssislər Məclisindən əvvəl yaradılmış hakimiyyət qolu kimi qəbul edir. Eyni zamanda, Azərbaycan hökumətində hər bir nazirliyə müvafiq sahəni yaxşı bilən peşəkar mütəxəssisin rəhbərlik etməsi və ayrı-ayrı nazirliklərin siyasəti ölkənin ümumi maraqları dairəsində olması vacib amillərdən biridir. "Əhrar" fraksiyası, hər bir nazirliyin fəaliyyətinə məsuliyyətlə yanaşmasını və ölkəni çətin vəziyyədən çıxara biləcək möhkəm hakimiyyət qurulmasının tərəfdarıdır. Partiya yeni üçüncü hökumətə hərtərəfli kömək göstərməyə hazır olduğunu bəyan edirdi.

Azərbaycanın müstəqilliyinin saxlanılması tərəfdarı olan "azadlıqsevərlər" partiyası, eyni zamanda respublika quruluşunda az saylı xalqların hüquqlarının qorunması, şəxsi və mənzil toxunulmamazlığının təmin edilməsi kimi məsələləri aktual hesab edirdi. Xarici siyasət məsələlərində isə "İstiqlal Bəyannamə"sinin təsbit etdiyi müddəalar əsas götürülməklə hökumət, bütün qonşu dövlətlərlə dostluq münasibətlərini saxlamalı, onlarla birlikdə sülh konfransında Qafqaz

xalqlarının hüquq və müstəqilliklərini qorumağa çalışmalıdır. Aqrar sahədə "Əhrar" partiyası xənadən və iri torpaq sahibliyinin məhdudlaşdırılmasını, onlardan alınan torpaq paylarını özgəninkiləşdirilməsini, əhalinin adambaşı nisbətində müəyyən edilməsini təklif edirdi. Nadel torpaqları hər nəfərə elə bölünməlidir ki, kəndlilər sonra onu yenidən sata bilməsinlər. Fraksiya "işçi məsələsin"də 8 saatlıq iş günü, əməyin mühafizəsi, fəhlə yardım kassalarının yaradılması, onlara sanitar-həkim yardımı edilməsi və fəhlə üçün tədris kurslarının açılmasını, işləyən əhalidən gəlir vergisi alınması, xalq maarifi işlərinə diqqət yetirilməsi, ümumtəhsil məktəblərinin təşkil olunmasını, məktəblərin, seminariyaların, sənət və ticarət üzrə peşə məktəblərinin genişləndirilməsi və universitetin açılmasının təmin edilməsini irəli sürürdü. Xalqın maariflənməsini nəzərdə tutan və əhalinin ala biləcəyi qiymətlərlə broşura, jurnal və dərsliklərin nəşr olunması, kargüzarlıq işlərinin dövlət təsisatlarında ana dilində aparılması üçün tədbirlərin görülməsi, dövlət məmurlarının hazırlanması üçün xüsusi məktəb kurslarının yaradılması da, partiyanın təklifləri sırasına aid edilirdi.

**Siyasi platformasını palament təqdim etmiş "Sosialist" partiyası I Respublika parlamentində 5 deputatla təmsil olunmuşdur. Sosialist ittifaqı adından, Aslan bəy Səfikürdski bəyannamələrini qanunverici orqana təqdim etmişdir.** Sosialistlərin mövqeyinə görə Azərbaycan xalqı uzun müddət İran şahının, sonra isə 100 ildən artıq çar imperiyasının zülmü altında olmuşdur. Sosialist bloku parlament qarşısında məsuliyyət daşıyan, ona hesabat verən milli hökumətin tərəfdarı olduğunu bəyannaməsində göstərmişdir. Sosialistlər respublikada hakimiyyət bölgüsünün həyata keçirilməsini, hökumətin - icraedici hakimiyyətin mövcudluğu kimi, parlamentin - qanunverici hakimiyyətin də fəaliyyətini vacib hesab edirdi. İnsan və vətəndaş hüquqlarının qorunması sahəsində və təqsirsizlik prezumpsiya prinsiplərindən irəli gələn tədbirlər müəyyən edilməsi, ağır cəzalar kateqoriyasına daxil olan edam və cismani cəzaların ləğv edilməsi təklif olunurdu. Fraksiya siyasi baxışlarına görə həbs olunanların dərhal buraxılmasını tələb edirdi. Sosialistlərin siyasi baxışlarına bolşeviklərin təsir olduqca böyük idi. Onlar rus, erməni, gürcü, polyak və xüsusən Şimali Qafqaz demokratiyası ilə qardaşlıq münasibətləri saxlayacaqlarını zəruri hesab etdiklərini bildirdilər. Onların zənnincə, bu qarşılıqlı anlaşma Azərbaycan hürriyyətini daha möhkəmləndirməyə xidmət edəcəkdir.

**Demokratik tribunadan öz bəyannamələrini elan edən "Hümmət" fraksiya qanunverici orqanda 5 deputatla təmsil olunmuşdur.** "Hümmət" partiyasının nümayəndəsi Ə.A.Şeyxülislamov, məramnamələrində də, təsbit edildiyi kimi, bütün millətlərin azad və qardaş olduğunu, beynəlmiləlçiliyin isə ümumi bəşəriyyətin azadə

yaşaması və işləməsi demək olduğunu parlament çıxışında elan etdi. Azərbaycanın iki düşməni olduğunu söyləyən fraksiya təmsilçisi, daxili düşməni daha qorxulu və qüvvətli hesab edirdi. Bunlar, general Tomsonun yanına qaranlıq bucaqlardan keçib Azərbaycanı yıxmaq və milli müqəddəratımızı əlimizdən almaq istəyənlərdir. Fraksiya, Almaniya imperiyasının süqut etdiyi, Vilson prinsiplərinin bütün dünya sosialistlərinin prinsipi olduğunu və Azərbaycanın da tezliklə beynəlxalq birliyin üzvü olacağına inandığını bəyan edirdi. **Bolşeviklər, parlamentin təsis iclasının işində ermənilərin iştirak etməməsini təssüf hissi ilə qarşılamışdır.** Digər partiyalar kimi "Hümmət" fraksiyasıda hesab edir ki, torpaq və fəhlə məsələsini parlament həll etməli, ümumi əsaslarla Müəssislər Məclisinə seçkilər keçirilməli, azərbaycan xalqının yarısını təşkil edən qadınlar cəmiyyətin tam hüquqlu üzvü olmalı, müsəlman ölkəsi olmaqla bərabər ilk dəfə təknigahlıq təmin edilməlidir. Fraksiya III Kabinet üzvlərinə müraciətində ilk növbədə onlara aşağıdakıları tövsiyyə edirdi: Azərbaycan istiqlalını müdafiə etməli; hökumət zorla deyil, qanun vasitəsilə iş görməli; bu hökumət Müəssislər Məclisi qarşısında məsuliyyət daşımalıdır; hökumət əcnəbi siyasi dairələrlə əlaqə saxlamalı; Avropa dövlətləri ilə əlaqələri genişləndirməli; və bütün siyasi qrupların hökumətdə təmsil olunması təmin edilməlidir.

**İlk qanunverici orqanda 11 deputatla iştirak edən "İttihad" partiyasının bəyannaməsini sədr Q.Qarabəyov təqdim etmişdir.** Partiya bəyannaməsində, Rusiyanın demokratik qüvvələri ilə əlaqələri və müttəfiqlik bəndləri təsbit edilmişdir. İttihadçılar bütün xalqlarla əmin-amanlıq şəraitində yaşamağın zəruriliyini, eyni zamanda fəhlə məsələsində Rusiya menşeviklərinin proqramlarını qəbul etdiklərini, mülkiyyətin toxunulmamazlığını müdafiə etdiklərini, aqrar məsələdə torpaqları əvəzsiz olaraq əkinçiyə verilməsini, maliyyə məsələlərində qanunsuz kənar vergilərdən uzaq, mütərəqqi vergi sisteminin müəyyən edilməsini, maarif sahəsində məktəblərin milliləşdirilməsi, ibtidai və aşağı ali məktəblərdə təhsilin icbari və pulsuz olmasını, icraedici hakimiyyətin bir palatalı parlament qarşısında hesabat verməsini, milli azlıqların hüquqlarının qorunması məqsədilə seçkilərin proporsional keçirilməsi qaydalarını təklif edirdi.

AXC-nin qanunverici orqanın 1918-ci il dekabrın 15-də keçirilən üçüncü iclasında, parlamentin təşkili barəsində Milli Şura tərəfindən qəbul edilmiş "Azərbaycan Məclisi-Məbusanın təsisi haqqında" qanuna müvafiq olaraq, parlamentə seçilən deputatların mandatlarının təsdiq edilməsi müzakirə edilmişdir. Belə ki, qanunverici orqana regional milli şuralar tərəfindən, ictimai müəssisələrdən və qəzalardan seçilmiş nümayəndələr göndərilmişdir. Parlamentin tərkibinin müəyyən edilmiş say kvotası həddinə (120 deputat) çatırılması baxımından bu məsələ xüsusi diqqət mərkəzində idi. Parlamentə daxil olmuş

məlumatlar görə, artıq bütün yerlərdə keçirilən seçkilər müvəffəqiyyətlə başa çatmışdır. Məsələn, Nazirlər Şurasının sədrinə göndərilmiş 24 noyabr 1918-ci il teleqramında Cavad qəzası üzrə seçkilərin keçirildiyi bildirilirdi. Teleqramda Cavad qəzası üzrə dekabrın 3-də açılacaq Azərbaycan parlamentinə iki deputat, biri Salyan, digəri isə Cavad qəzasının özündən seçilmişdi. Prosesin legitim keçirilməsini təmin etmək üçün Cavad qəzasının ədalət məhkəməsinin köməkçisi Nəzirov seçki yığıncağının sədri seçilmişdir. Seçki yığıncağı iki nəfərin - mühəndis-texnoloq Baxış bəy Rüstəmbəyovun və səlahiyyətli andlı Rəşid bəy Axundzadənin deputatlığa namizədliyini irəli sürmüşdür. Gizli səsvermə ilə keçirilmiş bülletenlər sayıldıqdan sonra 8 səslə Salyan üzrə B.Rüstəmbəyov və Cavad qəzası üzrə R.Axundzadə deputat mandatı əldə etdilər. Seçkilərin keçirilməsi üzrə iki nüsxədə protokol tərtib olunmuş və surəti Nazirlər Şurasının sədrinə göndərilmişdir. Deputatlara etimadnamələr də verilmişdir. Digər qəzalar üzrə keçirilən seçkilərə dair məlumatlar da, hökumətə göndərilmişdir.

Azərbaycan parlamentinə seçkilər üzrə daha bir məlumat Göyçaydan daxil olmuşdur. Belə ki, yerli milli şura tərəfindən 1918-ci il dekabrın 1-də Göyçay şəhərinin nümayəndələri və ictimai təşkilatları tərəifindən deputatlığa namizədlər irəli sürülmüş və gizli səsvermə yolu ilə keçirilən seçkilərdə general-mayor Sadıq bəy Ağabəyov Göyçay şəhəri üzrə, Hacı Hüseyn Əfəndiyev isə, Göyçay qəzası üzrə Azərbaycan parlamentinə üzv seçilmişdir.

AXC-nin parlament praktikasında yerli milli şuralar tərəfindən seçilərək göndərilmiş deputatların etimadnamələri, prosedur qaydalara müvafiq olaraq etimadnamə (mandat) komissiyası tərəfindən plenar iclasın müzakirəsinə təqdim edilmişdir. Mandat komissiyasının təqdimatı diskusiyaya səbəb olmaqla Azərbaycan parlamentinin demokratik inkişaf ənənələrini daha da möhkəmləndirirdi. Yerli milli şuranın seçki prosesinə oxşar qaydalar Avropanın qədim parlament ənənələri olan dövlətlərin qanunverici orqanına deputatların (xüsusilə də, yuxarı palataya) təyin edilməsi və məhz, etimadnamələr əsasında, silki-nümayəndə qismində parlamentə göndərilməsi praktikası mövcud olmuşdur. Doğrudur ki, artıq XX əsrin əvvəllərində göstərilən praktikanın AXC-də tətbiqi cəlbedici, hüquqi cəhətdən təkmil olmasa da, yaranmış fövqəladə vəziyyətdə yeganə çıxış yolu idi.

Prosedur qaydalara görə, parlamentdə təmsil olunan fraksiyalar öz nümayəndələrinin etibarnamələrini, etimadnamə komissiyasına təqdim edirdi. Mandat (etimadnamə) komissiyasından Məhərrəmovun elan etdiyi məlumata görə qanunverici məclisdə yalnız hümmət fraksiyası və sosialistlər ittifaqı tam siyahı təqdim etmiş, digər müsavat, ittihad və bitərəflər fraksiyası etimadnamə

komissiyasına hələlik siyahı göndərməmişdilər.

Deputat mandatları təsdiq üçün etimadnamə komissiyasının müzakirəsinə verilmiş və Bakı şəhər idarəsindən 5 nümayəndə-alman millətindən Lorens Kun, Lehlər (polyaklar) tərəfindən Stanistlav Vanseviç, gürcü milli şurası tərəfindən Tsixokaya, yəhudi milli şurası tərəfindən doktor Koxmanın etibarnamə protokollarını qanununa uyğun tərtib olunduğu müəyyən edilmiş və parlamentə təsdiq olunması təklif edilmişdir. Mandat komissyası müəyyən etmişdir ki, Zaqafqaziya Slavyan-rus cəmiyyəti tərəfindən parlamentə 5 nümayəndə - Vinoqradov, Mixaylov, Kravçenko, Kolesnikovski və Ollenqron özləri gəlsədə, onların seçki protokolları və etimadnamələri göndərilməmişdir. Ona görə də etimadnamə komissiyası, seçki protokolu və Slavyan-rus Milli Şurasının etibarnamələri olmadığına görə onların deputat kimi təsdiq olunmasını təxirə salmağı təklif edir. Etibarnamə komissiyası Bakı ticarət və sənaye ittifaqı tərəfindən Yusif Əhmədov, Bakı neft mədənçiləri şurası qurultayı tərəfindən Mirzə Əsədullayevin etibarnamələrinin qanuna müvafiq və düzgün olduğunu qəbul edərək, təsdiq üçün parlamentin təqdimatına verir. Komissiya Quba şəhərindən Murtuza Axundovun, Quba qəzasından Həmdulla Əfəndi Əfəndiyevi və Əli bəy Zizikskinin etibarnamələrinin qanuna müvafiq və düzgün tərtib olduğu üçün parlamentin müzakirəsinə təqdim edir. Eyni zamanda, Salyan şəhəri, Cavad qəzası, Göyçay şəhəri və Göyçay qəzası nümayəndələrinin etibarnamələri tam səlahiyyətli hesab edilir. Şamaxı qəzası, Lənkəran həm şəhər və həm də qəza üzrə nümayəndələri parlamentə hələ gəlib çıxmasa da, Şamaxı şəhəri tərəfindən Şeyxəlibəyovun yerli milli şura tərəfindən təsdiq edilmiş protokolları parlamentə daxil olmuşdur. Gəncə şəhərindən Əbuzər bəy Rzayev, Gəncə qəzasından Hacı Əli Qasımov və Hacı Molla Əhməd Nuruzadənin, Qazax qəzasından Hacı Kərim Saniyevin, Cəbrayıl qəzasından Bəhram bəy Vəzirovun, Şəki şəhər idarəsindən Abdulla bəy Əfəndiyevin və Şəki qəzasından Qərib Kərimovun mandatı təsdiq üçün parlamentə təqdim edilir. Şuşa qəzası Ağdam ərazisindən Qara bəy Əfəndiyevin, Ərəş qəzasının Ağdaş ərazisindən Əşrəf Tağıyev və həmin qəzadan Cəmil Süleymanovun, Zaqatala nahiyyəsindən Bayram Niyazi Kiçikxanovun seçki protokolları və etibarnamələri məqbul olmadığından mandat komissiyası onların parlamentin təsdiqinə təqdim etməmişdir. Parlamentin deputatı Səfikürdski, parlamentin yaradılması haqqında qanunların tələblərinə müvafiq sənədləri olmayan əzaların (üzv-deputatların) etimadnamələrinin təsdiq edilməməsini, digərlərinin isə qəbul olunmasını təklif edir. Parlament müzakirələrində digər təkliflərdə irəli sürülür və qəzalardan göndərilən nümayəndələrin protokollarının və etibarnamələrinin şübhə altına alınmasına lüzüm olmadığı bildirilir. Müzakirələrdə həmçinin göstərilirdi ki, Məclisi-Məbusanın təşkili prinsipləri hansı

əsaslarla müəyyən edilməsindən asılı olmayaraq, ümumi əsaslarla (Azərbaycanda ümumi seçki əsasında) seçilmiş parlamentin yaradılması indiki şəraitdə mümkün deyildir. Protokolların tərtib edilməsi və s. prosedur qaydaların pozulması səbəbindən nümayəndələrin təsdiq edilməməsi, dövlət mənafeyi baxımından indiki şəraitdə qeyri-məqbul hesab edilirdi. Çünki, Milli Şura parlamentin təşkili üçün qanun qəbul edib və bu qaydalar əsas götürülərək parlamentin tam formalaşması baş çatmalı idi. Əks təqdirdə bundan imtina, Milli Şuranın nüfuzuna zərərə vurmaqala, onun qəbul etdiyi qanunun legitimliyini şübhə altına ala bilərdi.

Qanunun aliliyini öz iş prinsipi elan edən parlament bütün məsələlərdə onu rəhbər başlanğıc hesab etməyə çalışırdı. Lakin bəzi prosedur pozuntu qaydaları ilə qarşılaşan parlament maksimum seçki qanunun tələblərinin qorunmasına çalışırdı. Yekun olaraq, etimadnamə (mandat) komissiyasının hesabatını nəzərə alan qanunverici orqan, qanun aliliyini rəhbər tutmaqla parlament haqqında Milli Şuranın qəbul etdiyi qanunun tələblərinə əməl olunması qaydalarına müvafiq olaraq, uyezdlərdən (qəzalardan) göndərilmiş təmsilçilərin (əzaların) həm seçki protokollarının, həm də etibarnamələrinin olmasını zəruri hesab edirdi. Çünki, qanunun bir normasına əməl edib, digər maddəsinin tələblərinə əməl etməmək, yuridik baxımdan demokratik prinsiplərdən geri çəkilmək kimi tövsif oluna bilərdi. Eyni zamanda, mandat komissiyasına daxil olmuş etibarnamə sənədlərində bu kimi bir sıra qüsurlara rast gəlinirdi. Belə ki, Zaqataladan göndərilən təmsilçinin mandatı ancaq qubernator tərəfindən imzalanmışdır. Lakin, qanunun tələblərinə görə mandat Zaqatala Milli Şurasının sədri, müavini və katibi tərəfindən də imzalanmalı idi. Bununla belə komissiya Zaqatala nümayəndəsinin etibarnaməsinin nəzərə alınması təklifini irəli sürmüşdür.

Qanunverici orqanın müzakirələrində müsavat fraksiyası mövcud fövqəladə şəraiti, milli dövlət maraqlarını nəzərə almaqla mandatların təsdiq olmasını və ya müəyyən vaxt və möhlət verməklə qüsurların düzəldilməsini təklif edirdi. Deputat M.Y.Cəfərov beynəlxalq parlament təcrübəsindən çıxış edərək göstərirdi ki, adətən əzanın (təmsilçi-nümayəndənin) etibarnaməsində şübhə olduqda, məclis başlanan gündən etibarən həmin şəxs iclaslarda iştirak edə bilməzdi. Lakin, istisina təcrübə kimi, Rusiya Dövlət Dumasında Odessa məbusunun etibarnaməsi təsdiq edilənədək, həmin nümayəndə 3 ay parlamentin işində iştirak etmişdir. Yalnız Dumanın 15-ci iclasında yenidən məsələ qaldırılaraq məbusun etibarnaməsi qeyri-legitim hesab edildikdən sonra, Odessa təmsilçisi Dumanın işindən kənarlaşdırılmışdır. Beləliklə, Azərbaycan parlamentarizm praktikası üçün əhəmiyyət kəsb edən deputatların mandatlarının təsdiq edilməsi proseduru, üçüncü iclasın əsas müzakirə mövzusu olmuşdur. Mandat komissiyasının məruzə etdiyi

məsələlər üzrə deputatların bir qismi, məbusların mandatları təsdiq olunana qədər onların parlamentin işində iştirak etməsini məqbul hesab etmir, digərləri isə seçki protokollarını qaydaya salana qədər səs vermək hüququ olmamaq şərti ilə nümayəndələrin iştiraklarını mümkün hesab edirdilər. Yekun olaraq parlament, etimadnamələri və protokolları düzgün tərtib edilmiş nümayəndələrin mandatlarını təsdiq etmək, digərlərinin isə müəyyən vaxt ərzində sənədləri qaydaya salmaq üçün möhlət verilməsini qərara alır.

**Azərbaycan parlamentinin təsərrüfat-bölüşdürücü komissiyası, qanunverici orqanın fəaliyyətə başlaması ilə əlaqədar olaraq onun qarşıdan gələn bir illik büdcəsini deputatların müzakirəsinə təqdim etmişdir.** Məclisi-Məbusanın dəftərxanasının xərcləri, o cümlədən aparatın dəftərxana və ləvazimat məxarici üçün, iş vaxtından əlavə işləməyə görə, həmçinin axşam işlərinə görə mükafat vermək və bəzi ezamiyyə yol məsrəfləri üçün vəsait ayrılması kimi cari məsələlər müəyyən edilərək müzakirəyə çıxarılır. Müsəlman məmurlar üçün Novruz bayramında, xaricilər (xristian və digər dini icmalar) üçün isə milad bayramında mükafat verilməsi qərara alınır. Parlamentin sədri, müavini, katibi və bütün parlamentarilər üçün maaş və bəxşiş (mükafat) müəyyən edilərək təsdiq edilir. Qanunverici orqanda keçid dövrü olduğunu nəzərə alaraq nazirlərin və nazir müavinlərinin deputat olmaq hüququ saxlanılır. Lakin iki yerdən maaş almaq məsələsi mübahisələrə səbəb olur və daimi iş yerindəki məvacib, parlament məvacibindən çox olardısa, onlara parlamentdən maaş almaq hüququ qəbul edilmirdi. Əks halda isə hökumət üzvü məclisdən yalnız məvacib fərqi almaq hüququ müəyyən edilirdi. Məclisi-Məbusan təsərrüfat-bölüşdürücü komissiyasının təqdim etdiyi layihəni müzakirə edərək təsdiq edir və 1918-ci il noyabrın 16-dan öz fəaliyyətini bərpa etmiş Milli Şuranın 44 əzasının məvacibini isə həmin tarixdən ödənilməsi barədə qərar çıxarır.

Azərbaycan parlamentinin üçüncü iclasında qanunverici orqanın rəyasət heyətinin formalaşması başa çatdırılmış və sosialist fraksiyasında Əhməd Cövdət oğlu Pepinov parlamentin katibi seçilimişdir.

**1918-ci il dekabrın 20-də Milli-Məbusan sosialist fraksiyasının və Şuşa məbusunun təşəbbüsü ilə, Azərbaycan parlamentinin ilk dəfə olaraq fövqəladə iclası toplanır.** Fövqəladə iclasın keçirilməsinin əsas səbəblərindən biri Ermənistanın qonşu Gürcüstana müharibə elan etməsi olmuşdur. Müzakirələrdə qeyd edilmişdir ki, Azərbaycan hələ Zaqafqaziya seymində təmsil olunanda öz qonşuları ilə sülh və əmin-amanlıqda yaşamaq istədiklərini həmişə bəyan etmişdir. Lakin, ermənilər yenicə başa çatmış I Dünya müharibəsinin ağır nəticələrindən hələ də ibrət götürməmiş və qonşularına qarşı təcavüzkar siyasət davam etdirirdi.

Azərbaycan xalqı bütün xalqlara, xüsusilə də ermənilərə qarşı səmimi münasibət göstərir və ermənilərin Məclisi-Məbusanda təmsil olunmasına çalışırdı. Parlamentarilərin fikrincə, gürcü qonşularımız da bu düşüncədə olmuş və belə siyasət yürütmüşdülər. Lakin, ermənilər Qafqazın taleini, məsuliyyətini dərk etmədən vəhşiliklərini göstərərək gürcü qonşularımızın hüququna təcavüz edirlər. Parlament, ermənilərin eyni zamanda Azərbaycan torpaqlarına da təcavüz etdiyini və bunun beynəlxalq aləmin diqqətinə çatdırılmasını zəruri hesab edirdi. Azərbaycan hökumətinin Gürcüstan və Ermənistan hakimiyyətlərinin daxili işlərinə qarışmaq istəmədiyini, ancaq bütün Qafqazı bürüyəcək, o cümlədən Azərbaycanı da qana boyayacaq bir fəlakətin qabağını almaq üçün bu qarşıdurmaya təsir etməyin vacibliyi önə çəkilmişdi. Eyni zamanda parlamentdə, erməni-daşnak Andranikin Azərbaycan köylərinə (kəndlərinə) basqınlarının da ciddi müzakirə olunması təlkif edilirdi. Ermənilərin Gürcüstana qarşı müharibəyə başlaması ilə əlaqədar parlament katibliyi müsavat fraksiyası tərəfindən təklif olunan layihəni deputataların nəzərinə çatdırdı və Gürcüstan və Ermənistan palamentlərinə ünvanlanmış müraciətdə göstərilirdi ki, bütün dünya sülhün bərqərar olmasına çalışıldığı bir zamanda, Zaqafqaziya Cümhuriyyətləri də sülh və əmin-amanlıqda yaşamalı, elan etdikləri istiqlala layiq olduqlarını göstərməlidirlər. Azərbaycan parlamenti, qonşularımız Ermənistan Cümhuriyyəti və Gürcüstan Cümhuriyyəti arasında baş verən qanlı, ədavətli hadisələrin xəbərini çox böyük üzüntü ilə qəbul edir. Bu hadisənin nəticəsi olaraq Azərbaycan parlamenti dekabrın 20-də fövqəladə iclasada Ermənistan və Gürcüstan parlamentlərinə müraciət edərək hər iki hökumətin bu təhlükəli müharibəni saxlamaq və bütün səyləri və nüfuzları ilə öz dövlətləri arasında dostluğa nail olmağa çağırırıq. Daha sonra müraciətdə qeyd edilirdi ki, bütün Qafqaz demokratiyasının ürək arzusu, qonşular arasında istənilən ixtilaflı məsələləri anlaşma, barışıq və ədalətlə həll etməkdən ibarət olmalıdır. Göstərilən vasitələrdən savayı hər hansı dövlət tərəfindən olsa belə bu məsələlərin həllinə cəhd edilməsi, Azərbaycan hökumətini məyus etdiyi kimi, Gürcüstan və Ermənistan xalqlarını da məyus edəcəkdir. Buna görə də millətin təmsil vicdanı olan Məclis-Məbusan deputatları sizə müraciətlə, qardaşcasına tövsiyyə edir ki, müharibəni dərhal dayandırın, Qafqazı təkrar qana boyamayın, çünki bu qanlar içində hürriyyətimiz boğulacaq, bu yanğılarda yurdlarımız məhv olacaqdır. Müzakirələrin yekunu olaraq parlament, sosialist fraksiyasından daxil olan təklifləri də nəzərə almaqla Azərbaycan Məclisi-Məbusanın üç maddədən ibarət qərarını elan edir:

1. Bizim ilə qonşu və qardaş olan Gürcüstan və Ermənistan millətlərinə və onların parlamanlarına rica olunsun ki, onlar öz hökumətlərinə təsir edib tezliklə dava hərəkətlərinin dayandırılmasına ciddi surətdə çalışsınlar.

2. Zaqafqaziya dövlətləri arasında olan bütün mübahisəli məsələlərin həlli bu ölkələrin dövlətlərarası konfransında və beynəlxalq arbitrajda baxılması onlara təklif olunsun.

3. Zaqafqaziyada yaşayan üç böyük millətlər bir-birləri ilə sıx surətdə əlaqədar olduqlarından Ermənistan və Gürcüstan ixtilafı ümumi Qafqaziya millətlərini böyük fəlakətə düçar edə bilər. Hər iki tərəf millətləri sülh içində yaşamağa tərəfdar olduqlarını göstərə bilsələr, onda dünya demokratiyası qarşısında öz öhdəsinə böyük məsuliyyət düşməsini anlayacaqlar. Beləliklə Məclisi-Məbusan beynəlxalq və regional səviyyədə sülh tərəfdarı olmaqla demokratik dəyərlərə üstünlük verdiyini, barışığa can atdığını bu müraciətində bir daha təsdiq edirdi.

Ermənistan-Gürcüstan hərbi münaqişəsinə Azərbaycan parlamentinin münasibət bildirməsi ilə yanaşı, milli hökumətdə bu lokal müharibənin vura biləcəyi ziyan səbəbindən etiraz notası hazırlamışdır. Belə ki, dekabrın 18-də xarici işlər naziri vəzifəsini müvəqqəti icra edən Ziyadxanov münaqişənin azərbaycanlıların sıx məskunlaşdığı Borçalı mahalı üçün çox təhlükəli hesab etdiyindən, münaqişə tərəflərinin hökumətlərinə nota göndərmişdir. Notada münaqişənin danışıqlar və sülh yolu həll olunmasını, silahların yerə qoyulması, iki qonşu dövlət arasında etimad əldə edilməsinin zəruriliyi bildirilirdi. Xarici İşlər Nazirliyi bəyan edirdi ki, azərbaycanlıların yaşadğı Borçalı mahalı Azərbaycanın ayrılmaz hissəsi olduğundan, maraqlı tərəflər arasında yaranmış mübahisələr beynəlxalq arbitiraj məhkəməsi qaydasında həll edilməlidir.

**Azərbaycan parlamentinin 1918-ci il 26 dekabr tarixli beşinci iclasında yeni, sayca üçüncü hökumətin təşkil olunması ilə bağlı parlament müzakirələri keçirilmişdir.** Qanunverici hakimiyyətdə ilk dəfə olaraq Nazirlər Kabinetinin təşkil olunması məsələsinə baxılırdı. İki gün əvvəl, dekabrın 24-də parlament məşvərət şurası (konvent) Nazirlər Kabinetinin qurulmasını müzakirə etmişdir. Parlament məşvərət şurası belə hesab edirdi ki, dekabrın 10-da istefa vermiş hökumətin yenidən təşkil olunmasını, yaranmış mövcud ağır və məsuliyyətli şəraitdə səbəbsiz gecikdirilməsi məqsədə müvafiq deyildir. Ona görə də konvent belə hesab edir ki, F.X.Xoyskidən dərhal, özünün müəyyən etdiyi qaydada, Nazirlər Kabinetinin tərkibinin formalaşdırsın. Parlament məşvərət şurası baş nazir vəzifəsini müvəqqəti icra edən F.X.Xoyskidən, hökumət qurulmasını xahiş etməklə yanaşı, süni əngəllərin və şərtlərin irəli sürülməsi kimi maneələri tez bir zamanda aradan qaldırmağı tövsiyyə edirdi. Qanunverici orqanda yeni üçüncü hökumətin proqramı ilə çıxış edən F.X.Xoyski, əsas məqsədlərinin Azərbaycanın dövlət müstəqilliyinin qorunub möhkəmləndirilməsi və I Dünya müharibəsindən sonra çağırılacaq Beynəlxalq sülh konfransında istiqlalımızın təsdiq edilməsidir.

Sülh konfransında, Amerika prezidentinin bütün dünyaya elan etdiyi millətlərin öz müqəddaratını müəyyən etməsi prinsipi və demokratik İngiltərə və Fransa dövlətlərinin istiqlalına cəhd edən bir millətin hüquqlarını tanıyacağı bəyanatları, ümidlərimizi daha da artırır. Bakıda yerləşən müttəfiq qoşunları baş komandanı, general Tomsonun son bəyanatları da bizim azadlıq arzularımızın gerçəkləşəcəyini göstərir. Xoyskinin sözlərinə görə, Azərbaycan hökuməti istiqlalını elan etməklə başqa dövlətlərlə öz arasında bir divar tikmək yox, əksinə özgə dövlətlərlə rabitə qurmaq və xüsusilə yaxın qonşular, ilk növbədə keçmiş çar Rusiyası ərazisində yaranacaq dövlətlərlə sıx əlaqələr qurmaq istəyir. Yeni Rusiya dövləti ilə də xüsusi əlaqələr yaradılacaq və bu əlaqələrin formalarının müəyyən edilməsi parlamentdən, dövlətdən asılı olacaqdır. Azərbaycan xarici dövlətlərlə yarana biləcək hər hansı bir məsələləri sülh yolu ilə həll edəcəkdir. Lakin sülh yolu ilə bütün məsələləri yoluna qoymaq heç də o demək deyildir ki, hökumət hərbi qüvvələr hazırlamayacaqdır. Hər bir dövlət kimi biz də özünü müdafiə etmək üçün silahlı qüvvələrinizi möhkəmləndirməliyik. Xarici düşmənlərimizin hücum edəcəkləri təqdirdə, onlardan müdafiə edəcək bir qüvvəmiz, ordumuz olmalıdır. Hərbi qüvvələrin təşkili üçün hökmət bütün zəruri tədbirləri görəcəkdir.

Parlament qarşısında əsas vəzifələrindən danışan Xoyski, Azərbaycan Cümhuriyyətinin daxili işlərində hökumətin buraxdığı bir sıra nöqsanları qeyd etmişdir. Bu nöqsanların yaranmasında ayrı-ayrı daxili işlərə nəzarət edən məmurların nöqsanları var. Ona görə də, daxili işlərə rəhbərlik edən şəxslər öz işini bilən və millətini sevən şəxslərdən ibarət olmalıdır. Xalqın özü də hökumətə kömək etməlidir. Çox təəssüf ki, millət lazım olan köməyi göstərmir. Bu məsələdə heç kəs özünü kənara çəkməməlidir, çünki bu xalqın işidir, millət və vətən işidir. Təsadüfü deyil ki, qədim romalılar dövlətlərin qurarkən Roma dövlətinə "res-publika" (ümumi iş, hamının işi atributunu-"respublika" adını vermişdilər.-R.Ə.) istilahını əlavə etmişdilər. Rusiya burjua inqilabından sonra elan edilmiş demokratik azadlıqlar, siyasi azadlıqlar, söz, mətbuat, vicdan və s. azadlıqları vətəndaş cəmiyyəti təmin ediləcək, hökumət isə bu azadlıqların və hüquqların təminatçısı olacaqdır. Ölkədə yaşayan bütün millətlər özlərini bu dövlətin övladları kimi görməlidirlər. Azərbaycanın daxilində yaşayan millətlərdən biri də ermənilərdir və onlarla azərbaycanlılar arasında bir sıra ixtilaflar olmuşdur. Gərək erməni milləti də türk milləti də unutmamalıdır ki, bunlar min illərlə qonşuluqda yaşayacaqlar.

Parlamentə təqdim olunan hökumət proqramı, ədliyyə sisteminə də diqqəti daha da artarmağa, ədliyyə nəzarətini gücləndirməyə, heç bir inzibati aparatın məhkəmələri əvəz edə bilməyəcəyini elan etməklə, məhkəmələrin müstəqil

hakimiyyət olması üçün bütün tədbirlərin görüləcəyinə, ümüd ifadə edirdi. Məhkəməsiz heç bir dövlətin mövcudluğu mümkün ola bilməz və bütün qanunsuz hərəkətlər ədalətli məhkəmə prosesi ilə təmin edilməlidir. Dövlətin əsas məqsədi xalqın ədalət mühakiməsinə inamının bərpasından ibarət olmalıdır.

F.X.Xoyskinin parlamentə təqdim etdiyi platformada göstərilirdi ki, hökumətin əsas vəzifələrindən biri də, torpağın əkinçiyə verilməsidir. Çünki, torpaq kəndliyə verilməzsə və fəhlələrin sosial vəziyyəti təmin edilməsə hökumət davamlı ola bilməz. Torpaq məsələsində parlament fraksiyalarının həmrəyliyi mövcuddur, torpaq əvəzsiz olaraq əkinçiyə verilməlidir. Müəssislər Məclisi çağırılana qədər əkinçilərin həyatını yaxşılaşdırmaq üçün hökumət ilk növbədə lazım olan bütün işlərin öhdəsindən gələcəkdir.

Nazirlər Kabinetinin tərkibini elan edən F.X.Xoyski, hökumətin üzərinə böyük və məsuliyyətli iş götürdüyünü, lakin bu işdə parlamentin etimadını doğruldacaq və onlardan kömək alacaqlarına heç bir şübhə etmədiyini bildirdi. Sonda baş nazir, boş qalmış 4 nazir postunun 3 erməni, 1 isə rus millətindən olan namizəd üçün saxlanıldığını parlamentin nəzərinə çatdırmış və hökumətin tezliklə onların nazir postunu tutacaqlarına ümid etdiyini bildirmişdir.

Azərbaycan parlamenti hökumətə etimad göstərilməsi və Nazirlər Kabinetinin üzvlərinin təsdiq edilməsini müzakirə etməklə, qarşıda duran məsələlərin həll olunması üçün bütün səylərin birləşdirilməsini vacib hesab edirdi. Parlament müzakirələrində iştirak edən hakim partiyanın deputatları qeyd etdilər ki, onlar hökumətin hansı çətin şəraitdə işlədiyini, həm ölkə xaricində, həm də daxildə gərgin işlərin görülməsinin labüdlüyünü anlayır və hökumətə dəstək verəcəklərini elan edirdilər. **Azərbaycanın istiqlalını tanımayan kəslər həqiqi demokrat ola bilməzlər. Bu qüvvələrin nəşr etdikləri bəyannamə və qəzetlərində deyilir ki, bizim düşmənimiz aclıq və bu aclıq qədər müdhiş olan Azərbaycan hökumətidir.** Azərbaycan parlamentariləri ümid edirlər ki, hökumət istiqlalımızı göz bəbəyi kimi qoruyacaqdır. Hökumətimiz daxili və xarici düşmənlərin qarşısını alacaq bir hökumət olmalıdır. Hökumət ən layiqli və bacarıqlı adamları iş başına gətirməli və bütün fərqləri nəzərə almadan hər bir sinfin orduda xidmət göstərməsini təmin etməlidir. Müzakirələrdə göstərilirdi ki, yeni hökumət xarici siyasətə diqqəti daha da artırmalı və istiqlalımızı Avropaya tanıtdırmalıdır.

Azərbaycan bir coğrafi ad deyil, yer üzərində yaşayan bir millətin vətəni kimi tanınmalıdır. Avropa ilə bizim yolumuzu bağlamaq istəyirlər. Satqın propoqanda (təbliğat) Avropada bizim əleyhimizə yönəlib. **Hökumət bilməlidir ki, haqq alınır, verilmir. Hüquqi cəmiyyətə ancaq ləyaqəti olan, onun qiymətini bilən**

**millətlər malik olacaqdır. Əks surətdə, yəni azadlıq yolunda heç bir fədakarlıq göstərməyən millətlər yenidən qəyyam altında yaşamağa məcbur olacaqlar.** Parlamentarilər belə hesab edirlər ki, Azərbaycanlılar hər cəhətdən müstəqil yaşamağa layiq millətdir.

Azərbaycan qanunvericisi, Ümumazərbaycan Müəssislər Məclisinə seçkilər keçirilməsi üçün mükəmməl seçki qanun hazırlayıb onu həyata keçirməsinə çalışmalıdır. Toplanacaq Məclisi-Müəssislər vətənin ağır vəzifələrini daşımalıdır. Parlamentin ümdə vəzifəsi isə bu işi icra etmək və digər qanunları hazırlamaqdan ibarətdir. Hökumət isə elan etdiyi bütün proqramları həyata keçirməli, bu işlərin icraçısında parlament qarşısında məsul olmalı, parlamentin göstərdiyi yollarla getməli, müstəqil, möhkəm icraedici hakimiyyət təşkil etməlidir. Parlament müzakirələrinin yekunu olaraq, Azərbaycan parlamenti üçüncü hökumətin bəyannaməsin dinləyərək F.X.Xoyski hökumətinə etimad göstərdiyini bəyan etmişdir. Qanunverici orqan eyni zamanda, yeni yaranan parlament komissiyaların formalaşmasını davam etdirərək maliyyə-büdcə komissiyasına, Müəssislər Məclisinə seçkilər üzrə komissiyaya və fəhlə komissiyasına yeni üzvlər daxil etməklə, onların formalaşmasını davam etdirmişdir.

Beləliklə, III hökumətin tərkibinin demokratik-hüquqi prosedurlarla təşkili və onun parlament tərəfindən müzakirə edilərək təsdiq edilməsi, müttəfiq dövlətlərin Azərbaycanda yerləşən qoşunlarının baş komandanı, general Tomsonun xüsusi bəyanatla çıxış etməsi ilə nəticələndi. **Bəyanatda göstərilirdi ki, biz F.X.Xoyskinin sədrliyi ilə təşkil edilmiş koalision Azərbaycan hökumətinin yaranmasını nəzərə alaraq, bu hökuməti Azərbaycanda yeganə yerli qanuni hakimiyyət hesab edir və ona hərtərəfli kömək göstəriləcək.**

Parlamentin 1918-ci il 30 dekabr iclasında general Tomsonun bəyannaməsi parlamentarilər tərəfindən hərarətlə qarşılandı və Azərbaycan üçün müstəsna əhəmiyyət kəsb etdiyi bildirildi. Parlament deputatları bəyanatın müzakirəsi zamanı qeyd etdilər ki, hələ Ənzəlidə olarkən İngiltərə, Fransa və Amerika nümayəndələri ilə görüş zamanı onlar bəyan etmişdilər ki, gəldikləri yerlərdə yaşayan kiçik millətləri əzmək üçün deyil, o millətlərin haqq və varlıqlarını təmin etmək üçün çalışacaqlar. Biz buna əmin idik və ümidlərimiz indi özünü doğruldur. Xüsusilə ingilis generalının Azərbaycan ərazisində F.X.Xoyskinin başçılıq etdiyi Azərbaycan hökumətini yeganə qanuni hakimiyyət kimi qəbul etməsi dövlətin bütövlüyünün tanınmasının ilk addımlarından biridir. Azərbaycan parlamenti və xalqı indi artıq nəticəni görür. Ona görə də Azərbaycan istiqlalı yolunda mətanət, əzimkarlıq göstərməklə müstəqil yaşamağa layiq olduğumuzu sübut etməliyik. Buna qədər, Ənzəlidən Azərbaycan haqqında iftira və böhtanlar söylənilmiş,

Bakıya gəlib bizimlə yaxından tanış olduqdan sonra sülh və dincliyin kimin istədiyini özləri gördülər və bizi tanıdılar. Hətta “Azərbaycan” adının işlədilməsini qadağan edildiyi bir şəraitdə millətin özünün haqlı olduğunu və öz dövlətlərinə sadiq qalacaqlarına inam, öz nəticəsini verməkdədir. Zamanında bir çox siyasi qüvvələrin ingilislərin gəlməsindən ruhlanaraq Azərbaycanın kökünü baltalamağa başlamışdılar. Bu vəziyyət hökmətdə üzvlərinə, Azərbaycanın əsas siyasi qüvvələrinə məlum idi. Amma xalqın, böyük kütlənin bundan xəbəri yox idi. General Tomsonun Azərbaycan adlı məmləkəti tanımıram kimi birinci bəyanatı, parlamentdə üçüncü hökumətin tam legitim əsaslarla təsdiq edilməsindən sonra verilmiş ikinci bəyanatı, yəni Azərbaycan hakimiyyətinin yeganə qanuni hakimiyyət olması, birincini tamamilə rədd etdi.

Azərbaycan parlamenti belə hesab edir ki, bu bəyannamə Qafqaz məsələsinin sülh konfransında həll ediləcəyinə aşkar işarədir. Bu gün beynəlxalq aləmdə Azərbaycan hökumətinin tanındığını eşidirik. Xarici qüvvələrə arxalanaraq Azərbaycanı dağıtmaq istəyən qüvvələr gördülər ki, ingilislər Azərbaycanın əleyhinə deyildirlər. Xaricdən kömək almaqla Azərbaycanı yıxmaq istəyən qüvvələr artıq görürlər ki, onların xəyalları puçdur və Azərbaycan xalqı öz istiqlalını var qüvvəsi ilə müdafiə edəcəkdir. General Tomson tərəfindən verilmiş bu bəyannamə bizə böyük ümidlər verir ki, bizi yeganə qanuni hakimiyyət kimi tanıyan müttəfiq komandanlıq, sülh konfransında bizim çalışmalarımıza kömək edəcək və onların hökumətləri bizim haqlarımızı etiraf və təsdiq edəcəkdir.

Parlamentin sədri Ə.Topçubaşovun başçılığı ilə Avropaya, Azərbaycanı tanıtmağa gedəcək Azərbaycan nümayəndə heyəti üçün bu bəyanat böyük əhəmiyyət daşıyırdı. Avropa demokratiyası, dünya demokratiyası xırda millətlərin istiqlaliyyətlərini öz əlinə aldıqlarını etiraf edəcəyinə ümidlər hər gün daha da artırdı.

Dekabrın 28-də Azərbaycan parlamenti və onun Rəyasət heyətinin iştirakı ilə Avropada ümumsülh konfransında iştirak edəcək nümayəndə heyətinin tərkibinə sədr A.Topçubaşovun, hökumət üzvü M.H.Hacınskinin, parlament üzvü Ə.Ağayevin və Ə.A.Şeyxülislamovun namizədliyi irəli sürülərək təsdiq edilir. Nümayəndə heyətinə müşavirlər M.Məhərrəmov, M.Y.Mehdiyev və C.Hacıbəyov daxil edilmişdir.

Azərbaycan Cümhuriyyətinin parlamenti demokratik hakimiyyət orqanı kimi cəmiyyətdə baş verən ictimai-siyasi proseslərin müzakirəsini, deputatların qaldırdıqları bir sıra məsələlərə yaxından münasibətini bildirməklə fəaliyyət göstərmişdir. Parlamentin sosialist fraksiyası bəzi siyasi firqələrin üzvlərinin

təqsirnamə (həbs orderi) olmadan həbs edilməsinə parlamentin münasibət bildirməsini və məsələnin müzakirə edilməsini tələb etmişdir. Polis məmurları həbsləri icra edərkən demokratik azadlıqların, insan hüquqlarının pozulması baş verir, halbuki qanuna görə həbs edilən şəxsə 24 saat ərzində təqsirnamə təqdim edilməlidir. Demokratiyanın bu mühüm tələblərinin pozulmasını nəzərə çatdıran deputatlar, parlamentin məsələni müzakirə edərək öz fikrini bildirməsini vacib hesab edirdilər. Bu məsələyə münasibət bildirən parlament, qanunsuz tətilə görə həbs edilərək tutulanların artıq azad olunduğunu, gələcəkdə qanundan kənar olan bütün həbslərin dayandırılmasını hökumətdən tələb etdilər.

Parlamentin dekabrın sonlarında keçirilən iclasında Məclisi-Məbusanın daxili nizamnaməsi (parlament "nakazı") hazırlanıb və qəbul olunanadək, müvəqqəti reqlamentin müəyyən olunması məsələsi müzakirəyə çıxarılmışdır. Qanunverici orqanda kvorumun müəyyən edilməsi, parlamentin tam formalaşmaması səbəbindən çətinlik yaradırdı. 120 nəfər deputatdan ibarət nəzərdə tutulan parlamentin işində erməni əzalar (nümayəndələr) gəlmir, bəzi qəzalarda isə nümayəndələrin döndərilməsi prosesi isə başa çatmamışdır. Parlament reqlamentinə belə bir təklif edilir ki, iclasda iştirak edənlərin sayından asılı olmayaraq 40 səslə təsdiq edilmiş qanunlar qüvvəyə minmiş hesab edilsin. Deputatların bir qisminin məzuniyyətdə olması, sülh konfransında iştirak etməsi və s. səbəbindən 30 səslə qanunların qəbul edilməsi təklifi də irəli sürülür.

Azərbaycan parlamenti 1918-ci ilin sonlarında yeni hökumətin təşkilinin müvəffəqiyyətlə başa çatması, general Tomson tərəfindən verilmiş ümidverici bəyanat, öz növbəsində 1919-cu ilin əvvəllərinə yaxşı əhval-ruhiyyə ilə fəaliyyətə başlamağa stimul vermişdi. Yanvarın 8-də keçirilən 7-ci iclasa Dağıstan hökumət nazirliyinin nümayəndələri və üzvləri də təşrif buyurmuşdular. Baş nazir F.X.Xoyski parlamentin iclasında iştirak edirdi. Regional əlaqələrini genişləndirən parlament, Ermənistan Cümhuriyyəti və erməni milli şurasının Azərbaycan Məclisi-Məbusanına göndərilmiş cavab teleqramını müzakirə etdi. Azərbaycanın ali hakimiyyət orqanı kimi parlamentin yaranmasını təbrik edən Ermənistan Cümhuriyyəti, iki qonşu hökumətlərin dövlət mənafeylərini birləşdirmək üçün daha ciddi səylər göstərəcəklərinə ümidini bildirirdi. Parlamentə yerli qəzalardan da təbrik məktubları daxil olmuşdu.

Mandat (etimadnamə) komissiyası yeni daxil olmuş protokol və etibarnamələri parlamentin müzakirəsinə çıxararaq Cavanşir qəzasından, Quba qəzasından, Rus Milli Şurasından seçilmiş 5 məbusun və Salyandan seçilmiş 2 məbusun etibarnamələrini və Milli Şuranın qəbul etdiyi parlament seçki qanununun tələblərinə müvafiq olduğu üçün təsdiq etmişdir.

İrəvan müsəlmanları adından Azərbaycan parlamentinə ünvanlanmış ərzi-halda, quberniyanın azərbaycanlı əhalisinin vəziyyəti ilə bağlı məsələ olduqca aktuallıq kəsb edirdi. Bu məsələ ilə bağlı parlamentdə çıxış edən Rus Milli Şurasının nümayəndəsi Vinoqradov bildirdi ki, Azərbaycanda yaşayan ruslar belə hesab edirlər ki, qanlı hadisələr dərhal dayandırılmalı, ümumi sülh konfransı çağırılanadək hər kəs öz yerində (sərhədlərində) qalmalı, dövlətlər arasında sərhəd hüdudları isə konfransda müəyyən edilməlidir. Lakin, ayrı-ayrı fraksiya nümayəndələri çıxış edərək ermənilərin İrəvanla yanaşı, Naxçıvan və digər qəzaların azərbaycanlı əhalisinə düşmən münasibət göstərdiyi üçün qəti tədbirlər görməlidir. Eyni zamanda, Ermənistan və Gürcüstanda yaşayan çoxsaylı müsəlman əhali, öz hərəkətlərində yaşadıqları hökumətlərin tabeçiliyində olduqlarını qəbul edir. Gürcüstanda və Ermənistanda müsəlman olduğu kimi bizim məmləkətdə də, bir çox erməni, gürcü, rus və s. millətlər var. Azərbaycan xalqı və hökuməti onlarla ədalətli rəftar edir, onların hökumətdə və digər strukturlarda təmsil olunmasına çalışır. Qonşu hökumətlər, xüsusilə də ermənilər bunu anlamalı və müsəlmanların hüquqlarını təmin etməlidirlər. İngiltərə, Fransa və Amerika nümayəndələri millətlərin hüququnu və əmin-amanlığını təmin etmək öhdəlik götürmüşdülər. Bu dövlətlər müsəlmanları fəlakətdən qurtarmaq üçün tədbirlər görməlidir. Parlament üzvləri tapşırıq verərək, növbəti iclasa qədər lazımi işlərin görülməsini və bu məsələ barədə gələn iclasda məlumat verilməsini hökumətdən xahiş edir.

**Qanunverici orqan 7 dekabr 1918-ci il ilk təsis iclasında qaldırılmış məsələnin-həbs olunanların ümumi aministiyası haqqında parlament işçi komissiyasının hazırladığı qanun layihəsini müzakirə edərək təsdiq edir. Böyük siyasi-hüquqi əhəmiyyət kəsb edən amnistiya layihəsi "Azərbaycan parlamentinin açılması münasibəti ilə ümumi siyasi əfv" adlanırdı.** Bu qanun parlamentdə ilk amnistiya, Azərbaycan Demokratik Respublikasının isə, qəbul etdiyi sayca 7-ci rəsmi qanunu olmuşdur. "Azərbaycan Məclisi-Məbusanın açılması münasibəti ilə siyasi əfv-ümumi" adlanan birinci amnistiya qanununun hüquqi məzmunu cəmi 5 maddədə təsbit olunmuşdur. Yalnız birinci maddə 3 bənddən ibarət idi. Qanun ümumilikdə 1918-ci il dekabrın 7-dək Rusiya imperiyasının Cinayət qanunnaməsi üzrə mühakimə edilərək sanksiya (cəza) verilmiş Azərbaycan vətəndaşlarının cəzalardan əfv olunmasını nəzərdə tuturdu. Həmçinin bu cinayət qanunnaməsinin, qərarda göstərilən maddələri üzrə məhkəmənin qanuni qüvvəyə minmiş və ya hazırlanmaqda olan hökmlərin qüvvəsi dərhal dayandırılırdı. Bu qərarlarin icrası üçün prokuror nəzarəti müəyyən edilirdi. Siyasi və dini amillərə görə 1918-ci il dekabrın 7-dək törədilmiş cinayət əməllərinə dair işlərin baxılması, bağışlanmaları üçün müraciət etmiş şəxslərin özü və ya onların nümayəndələri, yazılı və şifahi izahatları olduqda ədalət məhkəmələrində

araşdırılmaq hüququ müəyyən edirdi. Məhkəmədən kənar mülki və hərbi orqanlar tərəfindən bu qanunun müvafiq maddələri üzrə siyasi əməllərinə görə həbs qərarı çıxarılmış hökmlər də ləğv edilirdi. Parlament qərarının icrası daxili işlər və hərbi nazirliyə tapşırılırdı.

**Qanunverici orqanın iclaslarında məclis rəhbərliyinə, həmçinin hökumətə sorğu ilə müraciət edilməsi praktikasından geniş istifadə edilırdi.** Xüsusilə 1919-cu ilin əvvəllərində keçirilən plenar iclasda "Müsavat" fraksiyası Azərbaycan Məclisi-Məbusan Rəyasət Alisinə (sədrinə) "fəhlə məsələsi" ilə bağlı sorğu ilə müraciəti göndərmişdir. Müraciətdə fəhlələrin ağır vəziyyəti, xəstəxanaların pis işləməsi, dava-dərmanın çatışmaması, xəstələnmə hallarının çoxalması, fəhlə yataqxanalarının anti-sanitar durumu, zavod komissiyalarının fəaliyyətsizliyi və s. bu kimi hallara görə "işçi məsələsi"ni əmək nazirliyinin nəzarətinə verilməsi üçün parlament sədrindən xahiş edilirdi. Sorğuda məvaciblərin az olması, gündəlik maaşın mövcud bahalığa nisbətdə məsrəflərin yarısını belə görmədiyini, xəstəlik, ölüm hallarının artdığını, fəhlələr üçün gecə kursları, məktəblər, xalq yurdlarının (maarif evləri) olmaması səbəbindən qaranlıq bir aləmdə yaşadıqlarını və bu səbəbdən istiqlalımızın, hürriyyətimizin düşmənlərinin bundan məharətlə istifadə etdiklərini bildirməklə, tədbirlər görülməsinə çağırış edilirdi. Artıq, 1918-ci ilin dekabrından yaradılmış Bakı fəhlə konfransı təbliğatı genişləndirərək tez-tez tətillərə əl atır, ağır şəraitdə fəaliyyət göstərən hökumətin işinə əngəllər yaradırdı. Xüsusilə də, fəhlə konfranslarında qeyri-müsəlmanlar fəallıq göstərir, Rusiya bolşevik partiyasının tapşırıqlarını yerinə yetirərək gənc respublikanın normal yaşaması üçün hər vəchlə maneçiliklər yaradılırdır. Fraksiya vaxtında əmək və digər nazirliklərə xəbərdarlıq edərək fəhlələrin maddi və mənəvi ehtiyaclarını ödəmək, əmək haqlarını artırmağa nail olmaq üçün tədbirlər görülməsini hökumətdən tələb edirdi. Parlament sorğusu qızğın diskussiyaya səbəb olmuş və çıxış edənlər bildirdilər ki, Azərbaycan parlamenti və hökmətini tanımağa hazır olduqlarını söyləyən müttəfiq nümayəndələrinin verdikləri bəyanatlar bizim hökuməti ruhlandırmalı və nəinki fəhlə məsələrinin, həmçinin digər problemlərin həllində səfərbər etməlidir. Fəhlələr arasında xüsusi təbliğat işi aparmalı, müsəlman fəhlələrin Bakı fəhlə konfransında geniş təmsil olunmaları üçün işlər görülməlidir. Sosialist fraksiyası nümayəndələri fəhlə məsələlərinin müsavatçılar tərəfindən qaldırılmasında öz təccüblərini gizlətməsələr də, bu fkri müdafiə etdilər və bu məsələnin tez-tez qaldırılmasının zəruri olduğunu bildirdilər. "Müsavat" fraksiya buna cavab olaraq elan etdi ki, bizim firqə fəhlələrdə sinfi hisslərdən başqa milli hisslər də oyadacaqdır. Biz artıq imkan verə bilmərik ki, fəhlələr beynəlmiləlçilik adı ilə özləri, özlərini aldatsınlar. Bizim fəhlələr öz mənafeləri ilə yanaşı millətin də istiqlal mənafeini gözləməlidirlər.

Əmək nazirini əvəz edən Səfikürdski sorğuya cavab verərək bildirdi ki, ikinci hökumətin tərkibində əmək naziri olmamışdır. Ancaq yeni üçüncü hökumətdə bu nazirlik yaradılıb və fəhlə məsələsinə çox böyük əhəmiyyət verilir. Sorğuda göstərilənlər və çıxışlarda söylənilənlər həqiqətdir və zəhmətin ağırı fəhlənin üzərindədir. Ancaq digər elə məsələlər vardır ki, doğrudan da bizim üçün böyük təhlükədir. Bakı fəhlə konfransı və orada müzakirə edilən məsələlər Azərbaycan istiqlalı və Azərbaycan hökuməti zərərinədir. Burada Azərbaycan istiqlalı müdafiə olunmur. Konfransda müsəlman fəhlələri çox olarsa, orada milli mənafeləri müdafiə etmək asan olar. Əslində konfransda iştirak etmək istəyən müsəlman fəhlələrin qarşısı məqsədli şəkildə alınır və ona görə də biz fəhlələr arasında maarifləndirmə işi aparmalıyıq. İşdən qovulan fəhlələrin işə bərpası üçün hökumət bütün tədbirləri görüb və inanırıq ki, hökuməti və parlamenti ancaq fəhlələrin köməyi ilə saxlaya bilərik. Əmək naziri fəhlə təşkilatlarına xüsusi əhəmiyyət verərək 5 nəfəri fəhlələrdən, 5 nəfər sahibkarlardan olmaqla 10 nəfər heyətdən ibarət fəhlə işlərinə baxan əmək nəzarəti orqanının yaradılacağını və bu komissiyaya sədrliyi isə, əmək nazirinin özünün edəcəyini parlament üzvlərinin diqqətinə çatdırdı. Parlament əmək nazirinin sorğuya cavabını qənaətbəxş və təqdir etməklə yanaşı nazirin ümumi surətdə söylədiyi məsələləri tezliklə həll edilməsi üçün ciddi çalışmaq təklifi də verdi.

**Fəhlələr arasında istiqlalımızın möhkəmləndirilməsi üçün izahat işi aparan M.Ə.Rəsulzadə bazar günü 1919-cu il yanvarın 12-də, Bakı mədənlərindən gəlmiş 200 nəfərdən artıq fəhlə qarşısında çıxış etmişdir. Məhz həmin gün müsəlman fəhlələr Bakı fəhlə konfransına qatılmayaraq öz müşavirələrinə toplaşmışdılar. Müşavirənin gedişində beynəlxalq aləmdə, dünyada baş verən siyasi proseslər barəsində fəhlələrə geniş məlumat verilmişdir. Qarabağdan gəlmiş parlament üzvü C.Məlikyeqanovda fəhlələrə müraciət edərək, erməni qulduru Andranikin törətdiyi qanlı əməllərdən və 46 min əhalinin köçkün düşməsindən danışmışdı.**

1919-cu ilin ilk parlament iclasında Lənkəran və Muğan məsələləri barəsində baş nazir F.X.Xoskiyə parlament sorğusu göndərilmişdir. Sorğuda göstərilirdi ki, yerli əhalini, **Muğan Cümhuriyyəti adlı hökuməti tanımağa məcbur edirlər. Lənkəran qəzasının zəngin müsəlman əhalisinin evləri qarət və talan edilir, lakin erməni, rus və yəhudilərin evləri və mülkləri toxunulmaz qalıb. Lənkəranda özlərini Muğan Respublikası elan etmiş ruslar əvvəlcə müstəqil, sonra isə Ufadakı Kolçak hökumətinin tabeçiliyində olduqlarını bəyan etmişdilər.** Ruslar (molokanlar) aşkar deyirlər ki, biz nə Azərbaycan hökumətini, nə də ingilisi tanımırıq. Muğan Molokanları (Rusları) Şurası deputatları, hökumət

təşkil etmək üçün qurultay çağırmaq qərarına gəlmişdilər. Qurultay (syezd) 5 min 500 nəfər müsəlman əhalidən bir nümayəndə və hər 50 nəfər rus əhalisindən isə bir nümayəndə olmaqla 120 nəfərdən ibarət Muğan Rus Şurası yaratmaq istəyirdi. Muğan Molokanları (Rusları) Şurası, hökumət təşkil etmək niyyətini gizlətmirdi. Lənkəran qəzasından Azərbaycan parlamentinə deputat seçilmiş H.M.Axundzadənin hökumətə göndərdiyi sorğu səs qoyularaq qəbul edilir və hökumətdən tədbirlər görmək tələb edilir.

Azərbaycan parlamenti ölkədə baş verən bütün proseslərə münasibət bildirir, hökumətdən lazımi tədbirlər görmək üçün öz təklifini irəli sürürdü. Ağır şəraitdə işləməsinə, həmçinin mühüm dövlət əhəmiyyətli məsələlərin çoxluğuna baxmayaraq, Azərbaycan parlamenti ölkənin demokratik imicinin qorunması, hər bir vətəndaşının hüquq və azadlıqlarının təmin olunması sahəsində fəaliyyətini dönmədən artırırdı. Məsələn, sosialist fraksiyasının katibi Azərbaycan dəmiryolu Hacıqabul stansiyasında bir ermənin əsgərlər tərəfindən tutulub naməlum istiqamətə aparılmasına dair hökmət sorğusu ilə müraciət etmişdir. Bu sorğuya dərhal reaksiya verən parlament, bunun Azərbaycan istiqlalını baltalayan qaragüruhların əməli olduğunu, lakin bu günahın dünya tərəfindən bütün millətin öhdəsinə atılacağını, millətin hesabına yazılacağını, millətimiz, hökumətimiz və istiqlalımızı qaralayacağını bildirməklə soldakı bolşeviklərlə yanaşı, sağdakı bolşeviklərlə də mübarizə aparılmasının vacibliyini önə çəkmişdi. Parlament qəti olaraq, Azərbaycan Cümhuriyyətində millətlər arasında nifaq salan bu cür hərəkətləri yol verilməz hesab edirdi.

Parlament sorğusu ətrafında çıxışlardan sonra söz alan baş nazir F.X.Xoyski bildirdi ki, Sarkisyan adlı erməni vaqondan çıxarılaraq aparılması haqqında sosialistlərin iddası əsassızdır. **Hətta qəzetlərdə yazılan guya 13 nəfər erməninin əsgərlər tərəfindən güllələnməsi barədə məlumat haqqında mənə müraciət edən general Tomsonun tələblərinə cavab olaraq dərhal daxili işlər, qubernator və erməni milli şurası nümayəndələri Hacıqabula göndərilmişdir. Məlum olmuşdur ki, bu şaiyədən başqa bir şey deyildir. O ki, qaldı Sarkisyanın saxlanılmasına, onun özü və apardığı yük əsgərlər tərəfindən yoxlanılmış və sonrakı qatarla o yola salınmışdır.** Baş nazir Xoyski bununla belə parlamentə bildirmişdir ki, qubernator təhqiqatın icrasını davam etdirmiş bütün dəmiryol qulluqçularını, xüsusilə də qeyri-müsəlmanlardan ifadələr alınmışdır. Məlum olmuşdur ki, bu şaiyə həqiqətə uyğun deyildir. Bu xəbərləri bədxahlar Azərbaycan hökumətini ləkələmək üçün yayırlar. Azərbaycan hökuməti üçün milli mənsubiyyətindən asılı olmayaraq, hamı Azərbaycan vətəndaşıdır. Beləliklə, parlament sorğusu baş nazirin verdiyi bəyanatla və hökumətin gördüyü

tədbirlərlə təqdir edilərək, məqbul sayıldı.

1919-cu il yanvarın 16-da doktor Həsən bəy Ağayevin sədrliyi ilə keçirilmiş 8-ci parlament iclasında yəhudi cəmiyyətlərinin və ukraynalıların Azərbaycan parlamentinə münasibəti, deputatların qəbul edəcəkləri qanunların kvorumu məsələsi, iclaslarda iştirak etməyən deputatlar barədə, hökumətin tərkibinə daxil olan məmurların, eyni zamanda parlament üzvü olması qaydalarının müəyyən edilməsi, parlament sədrliyin təkmilləşdirilməsi, komissiyaların formalaşdırılması, Məclisi-Məbusanın 15 dekabr 1918-ci il tarixli iclasının qərarına müvafiq olaraq mandatların verilməsi məsələsi, parlament mühafizəsinin təşkili və digər məsələlər gündəliyə daxil edilmişdir.

Məclisi-Məbusan demokratik, hüquqi dövlət quruculuğunun inkişaf etdirilməsi üçün rəyasət heyəti və komissiyaların təkmilləşdirilməsi sahəsində prosessual tədbirləri davam etdirmişdir. Digər məsələ barədə mandat komissiyasının sədri Şəfi bəy Rüstəmbəyov bildirdi ki, keçən iclaslarda qəbul edilmiş və məbusların etibarnaməsi (mandatı) məsələsini nəzərdə tutuan qərarda göstərilmişdir ki, parlamentə göndərilən nümayəndələr sənədlərini qaydaya salmalı bir ay müddətində düzgün etibarnamə təqdim etməlidirlər. Lakin, bir ay müddətinin bitməsinə baxmayaraq məbusların komissiyaya heç bir məlumatı daxil olmamış və nəticədə, komissiya məbuslara daha üç həftə vaxt verilməsini qərara almışdır. Şuşa qəzasından Zeynal bəy Vəzirovun və Əhməd bəy Ağayevin etibarnamələrinin düzgün və qanuna müvafiq tərtib edildiyindən, komissiya onların mandatlarının təsdiq edilməsini irəli sürür. Lakin Əhməd bəy imtina etdiyindən onun mandatı məsələsi səs verməyə daxil edilmir. Parlament, Zaqatala nahiyyəsindən Bəhram Niyazi Kiçikxanov və Kabulov cənablarının təqdim etdikləri etibarnamələri səsə qoyaraq təsdiq edir.

Azərbaycan parlamentində kvorum məsələsi yenidən aktuallıq kəsb etdiyindən bu günə qədər, yəni 1919-cu il yanvarın 16-dək qanuni surətdə Məclisdə iştirak edən deputatların 82 nəfərinin yarası, cəmi 41 deputatın iştirakı, parlament iclaslarının keçirilməsi üçün kvorum (yetərsay) kimi müəyyən olunurdu. Bu baxımdan, qanunverici orqanda "Parlament iclaslarında iştirak etməyən deputatlar" haqqında qanun layihəsi geniş müzakirəyə səbəb oldu. Üzürsüz səbəblərdən bir ay yarım ərzində iclaslarda iştirak etməyən deputatlar haqqında parlament üzvlüyündən məhrum etməni nəzərdə tutan qanun, mahiyyət etibarı ilə parlamentdə intizamın möhkəmləndirməsini təmin etməli idi. "Parlament iclaslarında iştirak etməyən deputatlar" haqqında 3 maddədən ibarət qanunda göstərilirdi ki, 1918-ci il dekabrın 7-də, yəni parlament açılan gündən 45 gün ərzində məclisə gəlməyən və bunun hansı səbəbdən etdiyini bildirməyən məbusları

parlamentdən xaric etmək nəzərdə tutulurdu. Eyni zamanda, iclaslara gəlməyən və parlamentin rəyasət heyətini iki həftə ərzində məlumatlandırmayan əzalar da, mandatdan məhrum edilirdi. Qanunda, göstərilən səbəblərdən parlamentdən çıxarılmış deputatların yerinə onu seçmiş fraksiyanın və yaxud təşkilatın yeni məbusunun daxil edilməsi qaydaları təsbit edilirdi. Məhz, "Parlamentdə iştirak etməyən deputatlar" haqqındakı qanun layihəsi, qanunverici hakimiyyətin işini daha da səmərəli təşkil edilməsi və parlamentarizmin möhkəm əsaslarla təşəkkül tapması baxımından böyük əhəmiyyət kəsb edirdi. Belə ki, parlament kvorumunun təmin edilməsi, iclasların müntəzəm keçirilməsi və s. məsələlər geniş fikir mübadiləsinə imkan verməklə parlamentin nüfuzunun artmasına və təkmilləşdirilməsinə xidmət edirdi. Parlament müzakirələrində belə bir fikir irəli sürülür ki, qanunverici orqanın daxili nizamnaməsinin qəbul edilməsi ilə, məsələ öz həllini tapacaqdır. Çünki, daxili nizamnamənin müəyyən etdiyi qaydalar, iclasların keçirilməsini tənzimləyəcək və iştirak etməyən məbusların intizam məsuliyyətini müəyyən edəcəkdir. Yekunda, parlamentin müvafiq komisyasına ("Qanunveicilik komissiyasına"), daxili nizamnamə barədə qanun hazırlanmasını sürətləndirmək tapşırılırdı.

**Qanunverici orqanın müzakirəsinə çıxarılmış daha bir mühüm qanun "Dövlət xidmətində olmaqla parlament üzvü olmağın qəbul edilməzliyi" adlanırdı.** Bu qanun layihəsi hakimiyyət qolları arasında tarazlığın, müstəqilliyin və bərabərliyinin saxlanılmasını müəyyən edirdi. Parlament deputatlarında milli azlıqların nümayəndəsi Vanseviç bu məsələ barədə çıxış edərək göstərirdi ki, Avropa dövlətlərində uzun müddətdir ki, qanunverici, icraedici və məhkəmə hakimiyyətləri bir-birindən ayrılıqda fəaliyyət göstərir. Azərbaycanda isə bu məsələyə adi proses kimi baxmaq olmaz və Fransa, Amerika və İngiltərə dövlətlərindən fərqli olaraq Azərbaycanda hakimiyyət bölgüsü məsələsində tələsmək məsləhət deyil. Çünki, yeni yaranmış Cümhuriyyətdə dövlət xidmətində elə deputatlar vardır ki, onların qanunverici hakimiyyətdə iştirakı vacibdir. Rus Milli Şurasının nümayəndəsi Vinoqradov da, qanun bu formada qəbul edilməsini məqbul hesab etməyərək, bunun gənc Azərbaycan Demokratik Respublikasına zərər verərə biləcəyini bildirdi. Əfəndizadə isə, icra strukturunda təmsil olunan məbusların parlamentdən çıxarılması məsələsi böyük çətinlik yarada biləcəyindən, qanunda bəzi istisnalar olmasının zəruriliyini bildirmişdir. Qanun layihəsini təqdim etmiş "Müsavat" fraksiyasının lideri M.Ə.Rəsulzadə İngiltərə dövlətində qanunverici hakimiyyətin icraedici hakimiyyətdən tamamilə ayrı olduğunu göstərməklə yanaşı, qanun layihəsinin yenidən işləmək üçün komissiyaya qaytarılmasına etiraz etməsə də, onun qəbulu üçün konkret vaxt verilməsini parlamentdən xahiş etdi. M.Ə.Rəsulzadə Azərbaycanda əsas qanun -

**Konstitusiyanın hələ qəbul edilməməsi səbəbindən çətinliklərin olduğunu, lakin yaxın gələcəkdə əsas qanunun baş xəttini parlamentarizm təşkil edəcəyni və parlamentarizm ənənələri olan məmləkətlərin, xüsusilə də İngiltərənin təcrübəsindən geniş istifadə edilməsini nümunə kimi göstərirdi. Onun fikrincə, parlament deputatı xalqı təmsil edir, ona görə də millət vəkili həmişə azad olmalıdır. Bir deputat eyni zamanda hökumət məmuru olarsa heç vaxt azad danışa bilməz. Azərbaycanın bir dövlət kimi gənc olmasına görə burada başqa mövqey tutulması istənilir və təcrübəli qüvvələrimizin az olduğu bildirilir. Fraksiya bildirir ki, Azərbaycanda səriştəli qüvvə o qədər də az deyildir ki, parlamentdə 60 məbus göndərdikdən sonra artıq hökuməti idarə edicək məmurlar çatışmasın. Əgər buna qüvvəmiz çatmırsa, onda bizə heç parlamentdə lazım deyildir. Parlamentsiz ölkədə istibdad olar. Halbuki biz Azərbaycanı parlament cümhuriyyəti (respublikası) elan etmişik. Respublikada müstəqil hakimiyyət qolları fəaliyyət göstərməli və Azərbaycan dövləti bu əsasda idarə edilməlidir. İstisnaların olmasını müvəqqəti qəbul etmək olar. Belə ki, xidmətdə olan hüquqşünas-məsləhətçilər və ya təbiblərin (həkimlərin) hökumətə təsir edə bilməyəcəklərini nəzərə alıb, onları məbusluğa qəbul edə bilərik.** Parlament yanvarın 16-da keçirdiyi iclasda, hökumət məmuru olmaqla deputatlığın bir araya sığmaması barədə qanun layihəsini 10 gün ərzində yenidən işləmək şərti ilə geri qaytardı.

Məclisi-Məhbusanın müzakirəsinə çıxarılmış digər məsələ barədə təkliflər nəzərə alınaraq, parlamentin "Qanunvericilik komissiyası"nın tərkibinə M.Rəsulzadə ("Müsavat"), M.N.Vinoqrodov (rus-slavyan), A.Qardaşov ("Əhrar"), S.Vanseviç (milli azlıqlar), Q.Qarabəyli ("İttihad"), Ə.C.Pepinov ("Sosialistlər ittifaqı"), Ə.Qarayev ("Hümmət") və X.Sultanov namizəd göstərilərək təsdiq olmuşdular.

Beləliklə, yanvarın 16-da keçirilən iclasda Azərbaycan Parlamentinin Rəyasət Heyətinin formalaşdırılması başa çatır və "Əhrar" fraksiyasından Bayram Niyazi Kiçikxanov və "Müsavat" fraksiyasından Mehdi bəy Hacınski parlamentin baş katibləri, İrəvanı təmsil edən deputat Bağır bəy Rzayev isə katib seçilir. Parlamentin Rəyasət Heyətinin sədri yenidən Ə.Topçubaşov, sədrin birinci müavini Məmməd Yusif Cəfərov və sədrin müavini isə Sultan Məcid Qənizadə olmaqla tam formalaşması başa çatır.

**Müstəqil Azərbaycan dövlətçiliyi tarixində mühüm tədbirlərdən biri milli dövlət qurumlarının etibarlı mühafizəsinin təşkil olunması idi.** Bu baxımdan Məclisi-Məbusanın mühafizəsini təşkil etmək üçün qvardiya yaradılması məsələsi parlament iclasının müzakirəsinə çıxarılması və müvafiq qərarın qəbul edilməsi

gündəlikdə dayanırdı. Azərbaycan polisi ümumilikdə şəhərin asayişini təmin etdiyinə görə onlardan əlavə olaraq Məclisi-Məbusana qarovul təyin etmək mümkün deyildir. Dövlətçilik və beynəlxalq təcrübəyə əsaslanaraq Azərbaycan parlamentinin mühafizə edilməsi üçün xüsusi qarovul dəstəsi yaradılmalı idi. Bu bölük Məclisi-Məbusana tabe olmalı və yalnız parlamenti mühafizə etməli idi. Onun məxarici parlament büdcəsi hesabına ödəmək nəzərdə tutulurdu. Bölük parlamentin mühafizəsi ilə yanaşı parlamentində ümumi asayişini təmin etmək öhdəliyini götürüdü. **Təhlükəsizlik və mühafizə işlərini koordinasiya etmək üçün parlamentin "Müdafiə komissiyası"nın yaradılması nəzərdə tutulurdu. Parlament tərəfindən təsis olunun "Müdafiə komissiyası" mühafizə bölüyünün işini tənzimləyir və bu məsələyə aid işlərə baxırdı. Məclisi-Məbusan tərəfindən, Musa bəy Rəfiyevi ("Müsavat"), Camo bəy Hacınskini (sosialist) Qara bəy Qarabəylini ("İttihad"), Aslan bəy Qaraşovu ("Əhrar") və Xosrov bəy Sultanovu (bitərəf) müdafiə komissiyasına üzv seçilmişdilər.**

1919-cu ilin əvvəllərində Azərbaycan parlamentində təmsil olunan bitərəflər fraksiyası günü-gündən möhkəmlənən **Azərbaycan Demokratik Respublikasının istiqlalını müdafiə etdikləri barədə parlament iclasında xüsusi bəyanatla çıxış etdilər. Bitərflərin nümayəndəsi Yusif Əhmədzadə bu barədə çıxış edərək göstərirdi ki, onlar Azərbaycan istiqlalını istər daxildən, istərsə də xaricdən üzərinə gələn qara qüvvələrdən mühafizə edəcək və dövlətimizin parlamentinə daxil olan bitərəflər öz fəaliyyətlərində məmləkətin istiqlaliyyətə və maarif-mədəniyyətə çıxması üçün bütün işləri görməyə çalışacaqdır.** Bitərəflər, aşağıdakı təkliflərlə çıxış edirdilər: tez bir zamanda istiqlalımızı müdafiə edəcək qüvvətli ordu təşkil edilməli; demokratik Cümhuriyyət xalq hakimiyyətinin əsaslı qüvvətlənməsinə var qüvvəsi ilə çalışmalı; zəhmətkeşlərin hüquqlarının qorunmasını təşkil etməli; xüsusi əmlakın artığı onlar arasında bölüşdürülməli; rus istiqlalı nəticəsində əldə edilmiş burjua-demokratik azadlıqlar-mətbuat, söz, ittifaq və s. qorunmalı; yoxsul əhalinin üzərindən vergilər götürülməli və əsasən varlı təbəqə vergilərə cəlb edilməli; Azərbaycan qonşu millətlərlə sülh və dinc şəraitdə yaşamalı; hökumət, ictimai həyatda azlıq təşkil edən millətlərin hüquqlarını qorunmalı; və nəhayət tezliklə Məclisi-Müəssisan çağırılmalıdır.

I Respublika parlamenti, hökumət üzərində maliyyə nəzarətini gücləndirmək kimi funksiyaları yerinə yetirərək büdcə xərclərinin ayrılmasını xüsusi diqqətdə saxlayırdı. Parlament, 1919-cu il 25 yanvar tarixli iclasında hökumətin istifadəsinə 20 milyon manat kredit ayrılması haqqında qanun layihəsini müzakirə etmiş və fövqəladə məsrəflər üçün 10 milyon manatın kifayət etməsi təklifi irəli

sürülmüşdür. Deputatlar belə bir mövqeydən çıxış edirdilər ki, biz hökumətə etimad və etibar etdiyimizə görə istənilən vəsaiti ayırmalıyıq. Təklif olunurdu ki, hökumətin bir ay ərzində smetası hazırlansın və müvafiq büdcə məsrəfləri müəyyən edilsin. Hökumətinin məsrəflərinin dəqiq və təyinatı üzrə xərclənilməsini təmin etmək üçün məbuslar konkret qanun layihələri irəli sürürdülər. Məsələn, "Gəncə bələdiyyə idarəsinə sarılıq xəstəliyi ilə mübarizə aparmaq üçün 450 min rubl borc verilməsi haqqında" doktor Musa bəy Rəfiyev tərəfindən parlamentə qanun layihəsi təqdim edilmişdir. Qanun layihəsi parlamentin "Maliyyə komissiyası"nda baxılaraq müzakirə üçün Məclisi-Məbusana təqdim edilmiş və Gəncə bələdiyyəsinə 450 min rubl ayrılması barədə qərar verilmişdir. Digər layihə isə, "Bakı şəhər idarəsinə əmrazi-sariyyə xəstəliyi ilə mübarizə üçün də 2 milyon 200 min rubl buraxılması" barədə idi. Bu layihə müzakirə edilərək təsdiq edilir.

**"Deputatlıq və məmurluq haqqında" 4 maddədən ibarət qanun parlament komissyalarında müzakirə olunduqdan sonra yenidən plenar iclasa təqdim edilmişdir. Qanun layihəsi qanunverici və icraedici hakimiyyətlərin bir-birindən ayrılmasını və respublika idarəçilik forması ənənələrinə müvafiq müəyyən edilməsini nəzərdə tuturdu.** Beləliklə, 1919-cu il yanvarın 25-də qəbul edilmiş dövlət qulluğu vəzifəsində çalışmaqla, eyni zamanda parlamentin üzvü kimi fəaliyyət göstərmək qaydalarını tənzimləyən "Deputatlıq və məmurluq haqqında" qanun, nazirlər istisna olmaqla eyni zamanda iki hakimiyyət orqanında təmsil olunmağı qadağan edirdi. Qanuna görə digər məmurlar məbus seçildikləri və ya seçiləcəyi təqdirdə deputat kimi fəaliyyət göstərmələri özlərindən asılı idi. Belə ki, deputatlığı qəbul edənlər, məmur vəzifəsindən azad edilirdilər. İdarə xidmətində çalışmayan məktəb məmurları və ya professorolar, eləcə də müxtəlif azad peşə sahibləri hüquq məsləhətçiləri, həkimlər, dövlət məmurları olmadıqlarına görə istisna təşkil edirdilər. Qanuna müvafiq olaraq parlament üzvü olan nazirlər məvaciblərini nazir heyəti təsisatında alırdı. "Deputatlıq və məmurluq haqqında" qanun dərc olunduğu gündən qüvvəyə minirdi. Qanunun imperativ normasına müvafiq olaraq Bakıda yaşayan məmur deputatlar 3 gün müddətində, Bakıdan kənarda yaşayanlar isə 10 gün ərzində xidmətdən istefaları və ya məbusluqdan istefaları haqqında Məclisi-Məbusanın dəftərxanasına ərizə ilə müraciət etməli idilər. **Parlamentarizm əsaslarının inkişaf etdirilməsi baxımından "Deputatlıq və məmurluq haqqında" qanunda, ilk dəfə olaraq "qanun dərc" olunduğu gündən qüvvəyə minməsi qaydalrının tətbiqini nəzərdə tuturdu.** Bu qanun, parlament iclasına sədrlik etmiş H.Ağayev və parlamentin katibi Ə.Pepinov imzası ilə 28 yanvar 1919-cu ildə rəsmi "Azərbaycan" qəzetində dərc edilmişdir.

I Respublikanın parlamenti mütamadi olaraq “fəhlə məsələsi”ni diqqətdə saxlamaqla müzakirələr təşkil edirdi. M.Rəfiyevin təqdimatında bu sahəni tənzimləyən “Fəhlə nəzarəti” haqqında qanun layihəsi, parlamentin müzakirəsinə çıxarılmışdı. Qanun əməyin mühafizəsini, 1912-ci il fəhlə sığortası qanunundan irəli gələn xəstəlik, bədbəxt hadisələr və s. ümumi nəzarəti həyata keçirəcək idarənin yaradılmasını nəzərdə tuturdu. Qanun layihəsində göstərilirdi ki, Azərbaycan Cümhuriyyətində təsis edilməkdə olan fəhlə nəzarəti, bütün fəhlə və sənət mühafizəsində lüzum görülən mühafizə və nəzarət işləri, həmin fəhlə idarəsində toplasın və bu nəzarət inkişaf etdirilərək bütün ölkənin fəhlə və zəhmətkeş dairələrini əhatə edən quruma çevrilsin. “Fəhlə nəzarəti” idarəsi yanında Şuranın təsis edilməsi isə, parlamentarilərin mübahisə etmələrinə səbəb olduğuna görə, Şura haqqında məsələyə sonradan baxmaq şərti ilə, qanunun digər maddələri qəbul edildi.

**1919-cu il yanvarın 25-də baş nazir F.X.Xoyski Respublika üçün mühüm əhəmiyyət kəsb edən bəyanatla çıxış edərək, Balkan yarımadası və Qafqazdan müttəfiq qoşunların baş komandanı və İngiltərə kralının nümayəndəsi ser Corc Milin ilə görüşü barədə deputatlara məlumat verdi.** Baş nazirin sözlərinə görə Corc Milin Azərbaycana hüsnü-rəğbəti göstərməklə yanaşı, Azərbaycanda həyata keçirilən demokratik proseslərin bu səviyyədə inkişaf etdirilməsini gözləmədiyini bildirmişdi. Görüşdə birinci məsələ kimi Azərbaycan istiqlaliyyəti müzakirə olunmuşdu. General bəyan etmişdir ki, İngiltərə hökuməti Azərbaycan Cümhuriyyətini tanıyır. Bakıda bundan başqa hökumət tanımayacaq və bu hökumətə kömək göstərməyə həmişə hazırdır. Eyni zamanda, müttəfiqlərin Azərbaycandakı komandanı general Tomson da, öz tabeçiliklərində olan digər idarələrə bu barədə əmrlər vermişdir. C.Milin ikinci məsələ kimi İngiltərənin ümumiyyətlə kiçik millətlərin hüquq və arzularını, özlərini müstəqil idarə etmələrini müdafiə edəcəyini və bu məsələdə Azərbaycanın öz arzularına nail olacağına inandığını bildirmişdir. Üçüncü müzakirə olunan məsələ İngiltərə və müttəfiq qoşunların Qafqaza nə məqsədlə gəldiklərinə aydınlıq gətirilirdi. General bizi qəti surətdə əmin etdi ki, onların bizim daxili işlərə qarışmaq fikrləri yoxdur, əgər belə təsadüflər olarsa, bu kimi hərəkətlərin dərhal qarşısını alacağını nəzərimizə çatdırdı. İngilislərin sözlərinə görə, onların Qafqaza gəlməkdə əsas məqsədləri asayişi və əmin-amanlığı qorumaqdır. Baş nazirin məlumatına görə C.Milinin bizə qarşı xeyirxahlığı, gələcəyimizə, tərəqqimizə isə ümid və inam bəslədiyi görünürdü.

Parlament üzvü M.Ə.Rəsulzadə hökumətin baş nazirinin İngiltərə komandanlığının Qafqazda sülhü bərpa etmək istədiklərini alqışlamaqla yanaşı, bu

sözlərin səmimi və doğru olduğuna inandıqlarını, eyni zamanda asayişin hələ tam bərpa edilmədiyini, buna tökülən qanların sübut olduğunu bildirdi. **Naxçıvan və Şərur qəzalarında və İrəvan quberniyasında müsəlman türklərin başı üzərində yenə təzədən top qumbaralarının partladıldığı, onların min cür əzab və cəfalarla qarşılaşdığı məlum olur. M.Ə.Rəsulzadə qeyd edirdi ki, erməni-gürcü konfransında ordunun təxris edilməsi məsələsi müzakirə edilərkən, ermənilər deyirdilər ki, hələ də bizim daxili düşmənlərimiz var və onları tabe etdirmək üçün biz ermənilərə əsgəri qüvvələr lazımdır.** Bu bir daha təsdiq edir ki, Ermənistanın quldur dəstələri öz əməllərini davam etdirməkdən əlçəkmir. Hökməti Naxçıvan və İrəvan quberniyasında müsəlmanların məhv edimәsinin qarşısını almaq üçün təcili tədbirlər görməlidir.

Azərbaycan Məclisi-Məbusanın 1919-cu il 28 yanvar tarixli iclasında mandat komissiyası tərəfindən parlamentin müzakirəsinə təqdim edilən Ukrayna konsulunun ərizəsi araşdırılmışdır. Müraciətdə Bakı Ukrayna Radası üçün iki məbus yerinin ayrılması xahiş edilirdi. Milli Şuranın Azərbaycan parlamentinə seçkilər üçün hazırladığı qanununda ukraynalıları velikoruslardan ayırmayaraq onlar üçün birlikdə 10 yer müəyyən edilmişdir. Komissiyanın fikrincə azlıqda qalan millət kimi onların yer istəməyə haqları vardır. Parlamentin mandat komissiyası belə hesab edir ki, ukraynalılara 1 yerə verilsin və bu yer rus milli komitəsinə ayrılmış olan yerlər hesabına tutulsun.

**Daha bir müraciət sosialist-inqilabçılar (bolşeviklər) tərəfindən Azərbaycan parlamentində təmsil olunmaq üçün daxil olmuşdur. Parlament məsələni müzakirə edərək sosialist-inqilabçıların parlamentdə əvvəlcə iştirakdan imtina etdiklərini diqqətə çatdırsa da, milli komitələr üçün ayrılmış vakant yerlərin hesabına, onlar üçün məbusan yerinin ayrılması barədə qərar çıxarır. Bu məsələyə münasibət bildirən hakim partiya orjinal cavab verərək göstərirdi ki, parlament çalışır ki, bütün millətlər və firqələr məclisdə iştirak etsinlər. Bununla belə, müsavat firqəsi hesab edir ki, biz heç o nikbinlikdə deyilik ki, hamı bizimlə bərabər Azərbaycan işini müdafiə edəcəkdir. Biz istərdik ki, fəaliyyətimizi tənqid, hərəkətlərimizə etiraz edənlər parlament xaricində olmayıb, parlament kürsüsündən çıxış etsinlər və buradan da cavablarını alsınlar.**

Qanunverici orqanın 1919-cu il fevral ayında keçirdiyi iclaslarında daha çox sosial-iqtisadi məsələlərin müzakirəsinə diqqət yetirilmişdir. Parlament deputatları hökumətə sorğular göndərir və hökumət üzvlərinin hesabatlarını tələb edirdilər. Hökumət üzvləri sorğuları cavablandırır və deputatlar belə hesab edirdilər ki, sorğular icraedici hakimiyyətin buraxdıqları səhvləri göstərir, tərəqqi və inkişafın

əldə olunmasına kömək edir. Sosial-demokrat (bolşevik) firqəsi fevralın 3-də keçirilən iclasda 10 səs əleyhinə, 14 əksəriyyət səslə Azərbaycan parlamentinə daxil olmaq hüququ əldə edir. "Bund" yəhudi təşkilatı da fevralın 2-də keçirdikləri ümumi iclasda Azərbaycan parlamentinə daxil olmaq haqqında qətnamə qəbul etmişdir.

Azərbaycan Məcisi-Məbusanı "fəhlə məsələsi"nə xüsusi diqqət göstərməkdə davam edirdi. Belə ki, 1919-cu il fevralın 4-də "Dəmiryol qulluqçularının sosial vəziyyətlərini yaxşılaşdırmaq haqqında" qanun qəbul edilir. Qanunvericilik fəaliyyəti çərçivəsində fevralın 18-də "Parlamentin mühafizəsinin təşkil edilməsi haqqında", fevralın 18-də "Dağlılar hökumətinə 10 milyon yardım edilməsi haqqında", fevralın 25-də "Hərbi nazirliyin ştat heyəti haqqında" və digər maliyyə xarakterli qanunları qəbul etmişdir.

**1919-cu il fevralın 25-də erməni milli şura üzvləri Azərbaycan parlamentində iştirak etmələri haqqında bəyanat verdilər. Bəyanatda qeyd edilirdi ki, biz Azərbaycan Cümhuriyyətinin Ali Məclisi-Məbusanına daxil olaraq, siz cənabları və sizin şəxsinizdə müqəddəratını təyin etmiş müsəlman-türk millətini təbrik edirik. Biz ermənilər parlamentə gələrək türk millətinin və Azərbaycan Cümhuriyyəti daxilində yaşayan digər millətlərin mənafeləri üçün səmimi surətdə çalışmaq arzusundayıq. AXC-nin demokratik əsaslarla fəaliyyət göstərən ali qanunverici orqanı, ermənilər üçün "qapılarını açaraq" Azərbaycan parlamentinin demək olar ki, bütün komissiyalarında onların təmsil olunmasına imkan yaratmışdır.**

Fevralın 25-də müzakirə edilən "Hərbi nazirliyin ştat heyəti haqqında" qanunda, Cümhuriyyət parlamentinin ordu quruculuğuna böyük əhəmiyyət verdiyini göstərirdi. **Məclisin işində iştirak və çıxış edən hərbi nazir general Səməd bəy Mehmandarov ordu quruculuğu barəsində bəzi mülahizələrini bildirmiş və qeyd etmişdir ki, Azərbaycanın peşəkar və təcrübəli zabit kadrlarına ehtiyacı vardır.** Biz müstəqil yaşayan millətin ordusuna, rus ordusunda məhrumiyyətə düçar olmuş, özgə millətlərdən zabit dəvət etmək məcburiyyətindəyik, lakin bu xüsusda olduqca diqqətli seçim etmək lazımdır. Özümüzü müdafiə etmək üçün kifayət qədər əsgəri qüvvə yaratmağı qarşıya məqsəd qoymuşuq. "Müdafiə komissiyası"nın sədri M.Rəfiyev çıxış edərək bildirmişdir ki, uzun müddət Azərbaycan türkləri əsgəri vəzifədən kənar qalmışdır. Cümhuriyyətin elan edilməsi bizi təcili əsgər hazırlamağa məcbur edir. Əsgər hazırlığında Anadolu türkləri bizə çox kömək etdilər. Ordu quruculuğu, əsgəri işlərimiz düz yolla gedir və gedəcəkdir. Sosialist fraksiyasından Səfikürdski bu məsələ haqqında çıxış edərək qeyd edirdi ki, hər bir yerdə, hər bir əhali arasında

yeni ordu təşkil edildikdə qüsurlar olur. **Əhali anlayır ki, öz hüququnu ancaq silah gücü ilə saxlaya bilər. Bir millət öz cümhuriyyət və istiqlaliyyətini müdafiə etmək üçün süngü ilə silahlanmış gənc əsgərə malik olmalıdır. İndiki zamanda nəyinki xaricdən, hətta içimizdən elə qara qüvvələr var ki, bizi hər zaman yıxıb puç etmək istəyirlər. Ordunun sosial təminatına diqqət yetirilməli, əsgər komandirinə lazımi miqdarda məvacib verilməli, artıq vermək lazımdırsa onu da etmək lazımdır.**

Azərbaycan parlamentinin 25 fevral tarixli iclasına üçüncü hökumətin baş naziri F.X.Xoyski tərəfindən Məclisi-Məbusanın Rəyasət Heyətinə daxil olmuş məktubu elan edildi. **Baş nazir işinin ağır olması səbəbindən yorulduğunu və səlahiyyətlərini icra edə bilməməsinə görə istefa ərizəsini qanunverici orqana təqdim etmişdir.** Parlament sədri vəzifəsini əvəz edən H.Ağayev deputatları baş nazirin məktubu ilə tanış etdikdən sonra öz səlahiyyətləri çərçivəsində və hüquqi prosedurlara müvafiq tədbirlərin görüləcəyini bildirdi. Müsavat fraksiyası belə mürəkkəb anda istefanı təəssüflə qarşıladıqlarını, hökumət təşkil etmək üçün yeni baş nazir postuna namizədin müəyyən edilərək məsləhətləşmələr aparılması üçün onun Məclisə çağırılmasını, parlament sədrindən xahiş etdilər. H.Ağayev yeni hökumət yaradılana qədər əvvəlki Nazirlər Kabinetinin fəaliyyət göstərməkdə davam edəcəyini bildirdi. Qanunverici orqanın 1919-cu il 25 fevral tarixli iclasında, parlament komissiyaların formalaşmasının yeni qaydaları təklif edilərək qəbul olunur. Belə ki, bundan sonra 10 nəfərdən az üzvü olan fraksiyalar 1 nəfər, 10 nəfərdən yuxarı olanlar isə hər 10 nəfərə 1 nəfər, o cümlədən 5 nəfər qalıq olduqda isə 1 nəfər nümayəndə komissiyaya göndərir. **Beləliklə, bu təkliflər parlamentin 17 mart 1919-cu il 24-cü iclasında 3-cü oxunuşdan sonra qəbul edilmiş "Azərbaycan parlamentinin nakazı" ("Təlimatı") adlanan daxili nizamnamədə təsdiq edilmişdir. AXC-də qanunların bir neçə dəfə oxunuşdan sonra qəbul edilməsi praktikası, parlamentarizm ənənələrinin yaranmasının təsdiqi idi. Məhz, Məclisi-Məbusanın iclaslarının keçirilməsi forması, qanun layihələrinin bəzən bir deyil, bir neçə oxunuş çıxarılması, formalaşan və inkişaf edən parlament demokratiyasının nümunəsi olmuşdur.**

Parlamentin mart ayının 6-da keçirilən 20-ci iclasında Rəyasət heyəti tərəfindən təklif olunan məsələlər sırasında parlament sədrinin ikinci müavinin seçilməsi, alkoqollu içkilərə aksiz tətbiq edilməsi haqqında qanun layihəsi, parlament nizamnaməsinin müzakirəsi, fəhlə nəzarəti nəzdində xüsusi şuranın təşkili barəsində və s. qanun layihələri daxil edilmişdir.

Məclisi-Məbusanın mandat komissiyası tərəfindən müzakirəyə təqdim olunan Parlament Nizamnaməsində ("Nakazı", "Təlimatı"), Rusiya imperiyasının Dövlət

Duması və sonralar Zaqafqaz Seyminin də istifadə etdiyi və parlamentin daxili reqlamentini tənzimləyən prosedur normaları təsbit olunmuşdur. Parlament Nizamnaməsinə seçki protokolları, etimadnamə (mandat) və s. məsələlərlə bağlı əlavələr edilməsi nəzərdə tutulurdu.

1919-cu il martın 12-də Rusiya burjua-demokratik inqilabının 2-ci il dönümünə həsr olunmuş təntənəli iclası keçirilmişdir. Xüsusi parlament iclasında bildirildi ki, inqilab nəticəsində imperiya tərkibində olan millətlər istibdad zəncirini qıraraq müstəqil yaşamaq imkanı əldə etmişdilər. İclasda həmçinin, Gürcüstan Müəssislər Məclisinin açılması münasibəti ilə Azərbaycan parlamenti adından təbrik teleqramı göndərildi.

Azərbaycan parlamenti 1919-cu ilin ilk aylarından başlayaraq ölkənin sosial-iqtisadi məsələlərinə daha çox diqqət yetirir, əmək haqlarının artırılması, iqtisadi islahatların keçirilməsi üçün qanunvericilik bazasını təkmilləşdirirdi. "İşçi məsələsi" parlament iclaslarında daim müzakirə mövzusu olmuşdur. Əmək naziri, parlament iclaslarında fəhlələrin ağır şəraitini etiraf etməklə onların vəziyyətlərinin yaxşılaşdırılması üçün müttəfiq komandanlığı, neft sənayeçiləri, banklar və əmək haqlarının artırılması üzrə fabrik inspeksiyası (müfəttişliyi) nümayəndələrinin iştirakı ilə müşavirə keçirərək, 1919-cu il yanvarın 1-dən əmək haqqına əlavə olaraq ayda subaylara 120 rubl, ailələrə isə 360 rubl müavinət verilməsini nəzərdə tutan tədbirlər planını hazırlamışdır. Hələ 1919-cu ilin yanvarın 25-də işçi məsələsi üzrə xüsusi müşavirənin (komissiyanın) yaradılması və onun statusunun müəyyən edilməsi ilə bağlı qanun layihəsi hazırlayıb təsdiq edilməsinin zəruriliyi bildirilmişdir. Xüsusi müşavirənin yaradılmasında məqsəd, bərabər sayda təmsil olunacaq fəhlə və müəssisə sahibləri, işçilərin əməyinin mühafizəsi və məişət şəraitinin yaxşıllaşdırılması da daxil olmaqla, ən zəruri tədbirlər görməkdən ibarət olmuşdur.

**Parlamentin iclaslarında iqtisadi məsələlərlə bağlı sorğuları daha intensiv xarakter daşıyırdı. Belə ki, yanvarın 28-də "İttihad" fraksiyası 3 bənddən ibarət sorğu ilə hökumətə müraciət etmişdi. Sorğuda neft möhtəkirliyi ilə mübarizə, 1918-ci ildə toplanmış taxıl məhsulunun talanması və H.Z.Tağıyev fabrikində bezlə bağlı cinayətlərə aydınlıq gətirilməsi tələb edilirdi.** "İttihad" fraksiyasının rəhbəri Q.Qarabəyov bu məsələnin nizamlanması üçün xüsusi müşavirə çağırılması təklifi ilə çıxış etdi. Sosialistlər də bu məsələləri müdafiə etdilər və növbəti iclasda H.Z.Tağıyev fabrikindən fəhlələrin işdən çıxarılması, qonşu Ermənistanla niyə əlaqələrin qurulmaması haqqında sorğu ilə parlament senyorun konventinə müraciət etmişdilər. **Sosialistlər göstərirdilər ki, hələ də seçkili orqanlar, nə zemstovlar nə də həqiqi demokratik şəhər özünüidarəsi**

**yaradılmayıb və torpaq yenə də varlıların əlində qalmaqda davam edir, ticarət və sənaye getdikcə daha çox möhtəkirlərin nəzarətinə daxil olur. Müsəlman sosialistlər bir sıra qubernatorların vəzifə cinayətlərinə yol verərək, qəza rəisləri, pristavlar, starşinaların əhaliyə münasibətdə özbaşınalığına şərait yaradırlar.** Sorğularda göstərilən faktların olduğunu etiraf edən hökumət üzvləri, bunun obyektiv zərurətdən baş verdiyini, lakin qısa müddətdə mövcud çatışmamazlıqların dərhal aradan qaldırılması üçün müvafiq işlər görüləcəyini bildirdilər. Daxili idarəetmə mexanizmin tənzimləmək imkanın kifayət etməməsi səbəbindən gələcəkdə belə hallara yol verilməməsi və məsələnin aradan qaldırılması üçün tədbirlər həyata keçirmək nəzərdə tutulurdu. Lakin, sosialistlər və ittihadçılar hökumətə etimadsızlığı açıq-aşkar nümayiş etdirirdilər.

Fevralın 4-də parlament qarşısında deputat sorğularına və yaranmış vəziyyətə görə **daxili işlər naziri X.Xasməmmədov, ərzaq naziri K.Lizqar, ticarət və sənaye nazirinin müavini T.Səfərəliyev çıxış etdilər. Lakin "İttihad" fraksiyası sorğuya cavabları qeyri-qənaətbəxş hesab edərək, hökumət üzvlərinə etimadsızlıq göstərdilər. Müsavat fraksiyası qeyd edirdi ki, təkcə bez və qorodovoylarla bağlı hökumətə etimadsızlıq göstərmək düzgün olmaz və hökuməti devirmək (istefaya göndərmək) daha çox müstəqilliyimizin düşmənlərinə sərfəlidir. Hakimiyyətin sağ qüvvələrin əlinə keçməsindən ehtiyat edən sosialistlər, həmçinin bitərəflər və milli azlıqlar sonda hökuməti müdafiə etdilər.** Məclisi-Məbusandakı müzakirələrin yekununda cinayətkarlıq, möhtəkirlik, xüsusilə də vəzifə cinayətləri ilə bağlı məsələləri təhlil etmək üçün parlament komissiyasını təsis etmək haqqında qətnamə layihəsini təqdim edən sağların təklif qəbul edilmədi. Bununla belə, sosialistlərin tələbi ilə respublikada ərzaq məsələsini tənzimləyəcək xüsusi komissiya yaradıldı.

Azərbaycan parlamentinin martın 17-də keçirilən iclasında bir sıra qanun layihələri müzakirə və qəbul edilməsi ilə məhsuldar olmuşdur. **Müzakirələr zamanı dövlət qulluqçularına novruz bayramı münasibəti ilə birdəfəlik müavinət verilməsi geniş diskussiyaya səbəb oldu.** Bununla belə "Azərbaycan Respublikası hökumət idarələrində çalışan qulluqçularına birdəfəlik müavinət verilməsi haqqında" qanun qəbul edildi. Lakin qanun parlament qulluqçularına və son dövrdə mükafat almış qulluqçulara şamil edilmirdi. Parlament "Səpmə yatalaq xəstəliyi ilə mübarizə aparmaq üçün Nuxa şəhər ictimai özünüidarə-bələdiyyəsinə 200 min rubl dövlət xəzinəsindən kredit ayrılması haqqında" qanunu təsdiq etdi. Eyni zamanda parlamentdə "Yollar və qara yollar, onların təmiri və inşasını yollar nazirliyinə verilməsi haqqında", "Müəssislər Məclisinə seçkilər üçün qanunnamə hazırlamasına görə 20 min rubl ayrılması haqqında", "Vergilər sahəsində

şikayətləri araşdırmaq üçün maliyyə nazirliyi nəzdində Ali Şura instansiyasının yaradılması haqqında", "Poçt və teleqraf nizamnaməsinin 131-ci və digər maddələrinin ləğv edilməsi haqqında", "Azərbaycan quberniya sənaye vergisi idarəsinin təşkili haqqında", "1918-1919-cu illər üçün quberniya və dairə vergi idarələrinin seçilməsi qaydaları haqqında" qanunları müzakirə edərək qəbul edilmişdir.

Bolşeviklərin daha çox sui-istifadə edərək bəhrələndiyi işçi məsələsinə dair mübahisələri tənzimləyəcək qanun parlamentə təqdim edilmişdir. Belə ki, 1919-cu il martın 10-da parlament qanunu ilə Əmək Nazirliyi yanında "Fəhlə Məsələləri üzrə Xüsusi Məsləhət" (Müşavirə) komissiyası yaradılır. Qanuna görə, zəhmətkeş siniflərin əmək mühafizəsinin, əmək şəraitinin və məişətinin yaxşılaşdırılması, baş verə biləcək mübahisələrin ilkin olaraq baxılması üçün əmək nazirinin sədrliyi ilə fəhlə məsələləri üzrə müvəqqəti xüsusi Məsləhət Komissiyası təsis edildi.

Azərbaycan dövləti və hökuməti mülkiyyətin bütün formalarının qorunması üçün bərabər şərait yaradılması dövlət, xüsusi, səhmdar və bələdiyyə mülkiyyətinin inkişafı üçün qanunvericilik bazasını təkmilləşdirməyə çalışırdı. Mülkiyyət hüquqları və onun qorunmasına dair parlamet presedenti, martın 20-də keçirilmiş iclasda müzakirəyə təqdim edilmişdir. Belə ki, mülkiyyətçisi Abuzər Orucov olan mətbəə əmlakının dövlətə keçməsi ilə əlaqədar olaraq maarif nazirliyi tərəfindən qanun layihəsi hazırlanmışdı. Mülkiyyətçinin hüquqlarının bərpa edilməsinə yönələn qanun layihəsi barədə çıxış edən məruzəçi bildirmişdir ki, Orucov mətbəəsi Qafqazda yeganə mətbəə olmaqla müsəlman mətbuatına az-çox xidmət etmişdir. Keçən ilin mart hadisələri zamanı bolşeviklər hər şeyə hakim olduqdan sonra Bakının bir neçə mətbəələri ilə yanaşı, bu mətbəədə talanmışdır. Bolşeviklərin əlinə keçən mətbəə əşyaları hal-hazırda Azərbaycan hakimiyyətinin sərəncamında olmaqla maarif nazirliyi idarəsindəki hökumət mətbəəsinə daxildir. Maarif nazirliyinin məlumatına görə Orucovun makinası, ləvazimatı və qeyri-mətbəə ləvazimatı hal-hazırda hökumət mətbəəsindədir. Maarif nazirliyinin təqdim etdiyi arayışda deyilir ki, mart hadisələrindən qabaq bu mətbəəni Orucov İran vətəndaşlarına satmaq istəmiş və onlar mətbəəyə yarım milyon manat ödəməyi təklif etmişdilər. Presedent kimi komissiya bu qiymətlə razılaşıb və ona görə də mülkiyyətçiyə göstərilən məbləği ödəməyi parlamentə təklif edir. Beləliklə, parlament "A.Orucova tipoqrafiya sahibi kimi 468 min 380 rubl ödənilməsi haqqında" qanununu təsdiq etdi. Qanun üçün maliyyə-büdcə komissiyası tərəfindən də rəy alınmışdı.

AXC hökuməti qonşu respublikalarla dostluq əlaqələrinə böyük əhəmiyyət verirdi. Gürcüstan Müəssislər Məclisinin, Azərbaycan parlamentinə daxil olan

məktubunda Azərbaycan parlamentinə təşəkkür edilirdi. Məktubda göstərilirdi ki, bayrağında ümumi millətlərin qardaşlığını əks etdirən Gürcüstan demokratiyasının qəti qələbəsini təmsil edən Gürcüstan Müəssislər Məclisi, Qafqaz millətlərinin sülh və səadətlə yaşamasını nikbin edəcək demokratik bir Cümhuriyyətin bünövrəsini möhkəm etməklə bərabər, əsrlərdən bəri yan-yana yaşamış Azərbaycan türkləri ilə sıx surətdə əlaqə yaradacaq və respublikaların daxili işlərinə qarışmamaqla yanaşı, xarici qüvvələrə qarşı da birlikdə dayanacaqlar.

**Azərbaycan parlament Novruz bayramı ilə əlaqədar bir həftə olmaq şərti ilə, 1919-cu il 20-27 mart tarixində bayram tətilinə çıxmışdır.**

1919-cu il martın 31-də (keçmiş təqvimlə 18-20 mart) erməni və bolşeviklərin Bakıda və Azərbaycanın digər qəzalarında törətdikləri Mart soyqırımının 1 il tamam olurdu. **Parlamentin ən böyük fraksiyasının deputatı M.Ə.Rəsulzadə martın 31-i Azərbaycan tarixinin üç unudulmaz günü kimi xatırlayaraq, bu dəhşətli günləri Avropadakı Vorfalamey gecəsi ilə müqayisə etmişdir. Rəsulzadə yazırdı ki, biz Bakıdakı mart hadisələrini yada salarkən, şübhəsiz ki, o günlərdə icra olunan vəhşətə, zülmə, yıxılan evlərə, divarlara mismarlanan müsəlmanlara, rüsvay edilərək namuslarına təcavüz edilmişlərə baxıb, insanın (ermənilərin) dönüb canavardan betər bir halda olmağından xəcalət çəkirik. Mart günlərində müsəlmanlara qarşı söylədiklərimizdən və söyləmədiklərimizdən daha böyük, daha şərəfsiz, daha namərd, daha iyrənc bir hadisələr törədilmişdir.** Sosialist inqilabı adı ilə pərdələnərək milli bir faciə törədilmişdir. M.Ə.Rəsulzadə bolşeviklərin Bakıda törətdikləri qanlı hadisələri, Peteroqrad və Moskvadakı sinfi mübarizədən fərqləndirirdi. Çünki, orada sinfi düşmənlərlə döyüş, Bakıda isə sinfi mübarizə adı altında milli qətl, müsəlman qətlamı qəsdən törədilmişdir. Azərbaycan dövlət, şəhid ruhlarına ehtiram kimi sizin qanınız bahasına aldığımız hürriyyət və istiqlalı, möhkəm saxlayacaqdır.

Qanunverici orqana, 1919-cu il fevral ayının 15-də öz səhhətini əsas gətirərək istefa ərizəsi ilə müraciət etmiş F.X.Xoyskinin xahişini müzakirəsiz qəbul etdi. **F.X.Xoyski hökumətinin əvəzinə yeni hökumətin təşkil edilməsi məsələsi, aprelin 14-də keçirilən parlamentin gündəliyinə daxil edilmişdir. "İttihad" partiyasından başqa namizədliyi bütün fraksiyalar tərəfindən müdafiə edilən müsavatçı N.Usubəyliyə, sayca dördüncü hökumətin təşkil etmək həvalə olundu. Əgər üçüncü hökumət təşkil olunarkən baş nazirə hökumət üzvlərini seçmək müstəsina hüquq kimi verildiyi halda, indiki vəziyyətdə hökumətin tərkibi yalnız bütün parlament partiyalarının razılığı ilə mümkün idi.** Hökumətin tərkibi haqqında fraksiyalar arasında kəskin fikir ayrılığı mövcud olmuşdur. Baş nazirə müstəsina səlahiyyətlərin verilməsi məsələsi isə, hökumətin

təşkilini bir qədərdə ləngidirdi. Parlament kürsüsündə deputatlara fəaliyyət proqramı ilə müraciət edən N.Usubəyli nə qədər məsuliyyətli və ağır işi öz üzərinə götürdüyünü dərk etdiyini bildirdi. Azərbaycan milləti istiqlaliyyəti elan etdiyi bu qısa zamanda. müstəqil olmağa layiq olduğunu göstərmişdir. Azərbaycan varlığının əsas prinsipi müstəqil suveren dövlət qurmaqdır. **Cəmi 10 ay bundan qabaq müstəqilliyi elan edilmiş Azərbaycan, qonşu dövlətlər tərəfindən qəbul olunduğu kimi, yaxın zamanlarda dünyanın qabaqcıl dövlətləri tərəfindən tanınaraq sivil millətlər sırasına daxil olacağı ərəfədə, hökumət öz məsuliyyətini daha da artıracaqdır. Azərbaycanda bütün təbəqələr, bütün partiyalar, bütün millət, istiqlalımızı mühafizə etməyə hazır olduqlarını öz işləri ilə sübut edirlər. Azərbaycan millətinin bu əziminə özü şahid olan böyük və demokratik İngiltərə dövlətinin hərbi-komanda heyəti, bu il Parisdə keçiriləcək böyük sülh konfransında bizim suverenliyimizi müdafiə edəcəkləri isə, heç şübhəsizdir. Bu gün qarşımızda istiqlalımızla bərabər həlli gözlənilən bir çox məsələlər vardır. Bunlardan birincisi Azərbaycanın ərazi bötövlüyünün təmin edilməsi, ikinci məsələ isə milli siyasətdə Cümhuriyyətdə yaşayan milli azlıqların hüququnun tanınması, onların etiqad azadlıqlarının qorunması, öz milli və mədəni xüsusiyyətlərinin saxlanılmasıdır. Millətlərarası dostluq yaratmaq, milli toqquşmalara yol verməmək, fəhlə məsələsində azad əməyə təminat verən qanunvericiliyə xüsusi diqqət yetirmək, hər cür demokratik hüquqlar, o cümlədən vicdan, mətbuat, yığıncaq, söz azadlığını qorumaq, həmkarlar hüquqlarına nail olmaq kimi mühüm vəzifələr təmin olunacaqdır. Müəssislər Məclisini çağırmaq, torpaq və digər mühüm məsələləri həll etmək ən mühüm vəzifələrdəndir. Demokratik əsaslarla yerli özünüidarə orqanlarının işini yaxşılaşdırmaq, zemstvo (yerli idarəçilik) yaradılmasına nail olmaq, xalq təhsil sahəsində nəzərdə tutulan tədbirləri həyata keçirmək, ümumi icbari təhsil haqqında qanun layihəsi hazırlamaq, ibtidai və orta məktəblərin milliləşdirilməsi və xüsusilə də milli azlıqlara rus və ana dillərində təhsil almaq hüququ üçün təminat verilməsi nəzərdə tutulurdu. IV hökumət bütün səylərini birləşdirərək Müəssislər-Məclisinin çağırılmasına nail olacaq və müvafiq komissiyaya seçki qanununu hazırlayaraq parlament müzakirəsinə təqdim edilməsinə hər cür kömək edəcəkdir. Hökumət ədliyyə sisteminə xüsusi diqqət yetirəcəyinə, ədalətli məhkəmə hakimiyyət orqanlarının yaradılmasına, əhaliyə daha yaxından milli ruhda, demokratik, qanunlara əsaslanan, cinayətkarlıqla mübarizədə üzərinə düşəcək vəzifələri icra edəcək, tərəfsiz, qərəzsiz müstəqil məhkəmələr yaradacaqdır. İstiqlalımızı, istiqbalımız (suverenliyimiz) hamısının maariflə bağlı olduğunu bildirən N.Usubbəyli milli maarifimizin, milli məktəbimizin tərəqqisi bizim üçün nicat yolu olacaq və ona görə də, hökumət ibtidai təhsilli**

**məktəblərə, sənaye məktəblərinə ayrıca diqqət veriləcəkdir. Hökumət müəllimlərə olan ehtiyacı ödəmək üçün müəllimlər institutunun açılması ilə bərabər xarici ölkələrdən də müəllimlər dəvət olunmasını nəzərdə tutur. Dərsliklərin hazırlanması üçün xüsusi komissiyalar yaradılıb və maarif nəzarəti, kitabların sayının artırılmasına hər zaman çalışır. Azərbaycan hökuməti ali təhsil müəssisələrinin yaradılmasını istəyir və ali təhsil məktəbi haqqında qanun layihəsini yaxın zamanlarda tərtib edib müzakirəyə təqdim edəcək. Hökumət Tiflis şəhərində yerləşən Politexnik institutunu maliyyələşdirərək onun paytaxtımıza köçürülməsinə çalışır.**

Hökumət ticarət sahəsindəki **inhisarçılıqla mübarizə aparacaq, müharibədən sonra başqa dövlətlərdə olduğu kimi Azərbaycan Cümhuriyyətində də bu vəziyyətlə barışmayacağını bildirir. Hökumət təbii və süni yolla yaranmış bu işlərə yüksək nəzarəti təşkil edəcək və daxili və xarici ticarəti öz öhdəsinə götürəcəkdir. Hökumət infilyası ilə qiymət artımı ilə mübarizə apararaq bazara kifayət miqdarda əmtəə və ərzaq çıxararaq ticarətdə rəqabət yaradacaqdır. Bahalıqla bağlı keçirdiyimiz sıxıntı tezliklə aradan qaldırılacaqdır. Azərbaycanın milli sərvəti olan neft, hamımızın rifahı üçündür. Lakin neft ticarətində əsas partinyorumuz (tərəfdaşımiz) olan Rusiya bazarına gedən yol bağlıdır. Bazar açılmazsa biz korluq çəkəcəyik. Rusiyanın özü də bizim neftdən asılıdır və özü böyük təhlükə və çətin vəziyyətlə üzləşə bilər. Əgər onlar Həştərxan tərəfdən qapıları bizim ticarət üçün açmaq istəsələr biz müəyyən şərtlərlə buna razı ola bilərik. Yeni hökumət iqtisadi siyasətdə daimi tərəfdaşlarına münasibətdə öz mövqeyini yenidən nəzərdən keçirir və neftlə kəskin ehtiyacı olan Sovet Rusiyası ilə münasibətlərə baxacaqdır. Azərbaycan neftinin əsas bazarı olan Rusiya ilə ticarət münasibətlərinin kəsilməsi külli miqdarda, təxminən 150 milyon pud neft ehtiyatının yığılıb qalmasına və neft hasilatının aşağı düşməsinə səbəb oldu.** Bu isə öz növbəsində mədənlərdə işlərin azalmasına, fəhlələrin ixtisarına, dəhşətli bahalığa, pulların sürətlə qiymətdən düşməsinə gətirib çıxarır. Fəhlələrin ağır vəziyyəti Bakıda tətil hərəkatının güclənməsi ilə nəticələnə bilər. Hökumət parlamenti əmin edirdi ki, Həştərxan yolu açılarsa Azərbaycandan 200 milyon pud neft ixrac edə bilər ki, bu da nəticədə 2 milyard rubl vəsait deməkdir. Ölkənin ümumi maliyyə vəziyyətinin yaxşılaşacaqı halda, fəhlələrin tətil etməsi səbəbi aradan qaldırılar, ərzağın qiyməti düşər, həyat və məişətimiz yaxşılaşar və fəhlələrin ehtiyacları təmin edilər. Azərbaycan hökuməti iki yerdə pul əskinazlarının buraxılması məcburiyyətindən xilas olardı. Çünki, hökumət pulun dəyərdən düşməsi, pul kütləsinin çatışmaması səbəbindən Tiflisdə də kağız pul buraxmağa məcbur idi. Maliyyə vəziyyəti yaxşılaşacağı halda, Tiflisdən pul

emissiyasına ehtiyac qalmayacaqdır. Hökumətin müəyyən etdiyi prioritet məsələrindən biri də, ölkənin dəmir yollarında kompleks təmir-tikinti işlərinin aparılması idi. Belə ki, Ələt-Culfa yoluna əhəmiyyət verən hökumət, bu yolun qurulması işləri üçün parlamentə maliyyə vəsaiti ayırmaq xahişi ilə müraciət etməyi planlaşdırırdı. Torpaq və şosse yollarının da təmirə böyük ehtiyacı vardır. Hökumət hesab edir ki, bu yolların qurulması həm əhalinin, həm də poçtlarımızın vəziyyətini və fəaliyyətini asanlaşdıracaqdır.

IV hökumət platformasında bəyan edirdi ki, hərbi məsələlərədə əsgərlərimizin ehtiyacına ayrıca diqqət edəcək, əsgərlik kimi müqəddəs vəzifənin ilk növbədə varlıların, imkanların, ziyalıların övladlarının mükəlləfiyyəti olduğunu onlara da anladacaqdır. Bundan boyun qaçıran olarsa qanunların gücü ilə lazım olan cəza veriləcəkdir. Ölkəmizin istiqlalının qüvvətə və millətin əzminə ehtiyacı var. Öz növbəsində ordumuz, hərbiyyə nazirimiz peşəkar və təcrübəli sərkərdələrə həvalə edilib. Yeni hökuməti təşkil etməli olan N.Usubbəyli, onun hökumətində bütün fraksiyaların təmsil olunmadığını, müxalifətdə qalanların da mövcudluğunu təbii hesab etdiyini, lakin istiqlaliyyət məsələsində bir olaraq var qüvvəmizlə və böyük inamla çalışmağı zəruri hesab etdiyini bildirdi.

Parlament ənənələrinə müvafiq olaraq hökumət bəyannaməsindən sonra fraksiyalar yeni, dördüncü Nazirlər Kabinetinin parlament tribunasından elan etdiyi platformaya öz mövqeylərini bildirmək üçün müzakirə keçirdilər. Slavyan-rus fraksiyasından Vinoqradov hesab edirdi ki, onun təmsil olunduğu icma, Azərbaycan Məclisi-Məbusanın 10 dekabr 1918-ci il ikinci iclasında elan etdiyi bəyanatdakı əsas prinsiplərə sadiq qalır. Hökumətin bəyannaməsini təqdir edərək və öz vəzifəsini dərk etməklə slavyan-rus cəmiyyəti fəaliyyətində qanunu, asayişi və intizamı bərpa edəcək hər bir hökuməti müdafiə edir. Cəmiyyət vaxtilə müttəfiq komandanlığı tam razılığı ilə təşkil edilmiş koalision hökumətə göstərdiyi etimadı yenə də göstərəcəkdir. Eyni zamanda sabiq hökumət vaxtı, baş nazir F.X.Xoyski ruslarla müəyyən olunmuş razılığı pozaraq fraksiyaya 3 məbus əvəzinə, bir nəfər deputat yeri vermişdi. Rus-slavyan cəmiyyəti buna etiraz edir və pozulmuş razılığın bərpa olunmasını israr edirdi. Məclisi-Məbusanın slavyan-rus fraksiyası bəyan edir ki, hökumətin fəaliyyəti Rusiya (?) mənafeyinə zərər yetirmədikcə, biz yeni kabinetə etimad edəcəyik. Əslində fraksiyanın şərtlə danışması, məsələnin mahiyyətinə aydılıq gətirirdi.

Nazirlər Kabinetinin bəyannaməsinə münasibət bildirmək üçün çıxış edən "Müsavat" fraksiyasının rəhbəri **M.Ə.Rəsulzadə müzakirəyə keçməmişdən öncə bildirdi ki, slavyan-rus təşkilatı Azərbaycan millətinin haqqını -hökumət qurmaq haqqını, xaricdən gələn qüvvələrə münasibət üzərində qurulmamalı**

**olduğunu etiraf etməlidir. Parlamentdə yalnız millətin haqqından, Azərbaycan xalqının iradəsinə istinadən hökumət qurulmasından bəhs etmək olar, nəyinki xarici dövlətin mənafeyindən. Bir məsələlə tam aydın olmalıdır ki, Azərbaycan parlamentində oturan məbuslar açıq alınla oturmalıdırlar, alınları açıq olmayanlar burada oturmamalıdırlar.** Fraksiya bildirir ki, bu gün demokratik proqramla çıxış edən yeni hökumətin heyəti gənc isimlərdən (nazirlərdən) təşkil edilmişdir. Biz dövlət quraraq yeni siyasi təcrübəyə başlamış bir millətik. Dünya inqilabi nəticəsində hər şeyin dəyişdiyi bir zamanda gənclərin iş başına gətirilməsi, şöhrətli "bütlər"dən ziyadə əzmkar və namuslu şəxslər lazımdır. Yeni hökumət, demokratik üzvlərdən təşkil edilən hökumət bizə ümid verir ki, demokratik proqram təsbit etmiş hökumət bəyannaməsi, məmləkəti böhrandan əzmlə və bacarıqla çıxacaqdır. Fraksiya hökumətə etimad göstərərək ona hər cür dəstək olacaq.

IV hökumətin təşkil olunmasını davam etdirən Məclisi-Məbusan, öz etimadlarını bildirmək üçün "İttihad" və bitərəflər fraksiyalarının parlament rəhbərliyinə daxil olmuş etiraz təklifini elan etdi: yeni hökumət Azərbaycan istiqlalını müdafiə edən firqələr arasında koalision hökumətin təşkil olunmasını nəzərə almamışdır; yeni hökumətin tərkibinə "İttihad" fraksiyası daxil edilməmişdir; və hökumətin gələcəkdə etibarlı fəaliyyəti üçün heç bir zəmanət yoxdur. Bu baxımdan fraksiyalar hökmətlə məsuliyyəti bölüşdürmür və məsuliyyəti də üzərlərinə götürmürlər.

Beləliklə, N.Usubbəyli hökumətinin təşkili prosesi fraksiyalar arasında fikir ayrılığını üzə çıxardı. Artıq görünürdü ki, hökumətin tərkibi yalnız bütün parlament partiyalarının konsensusundan asılıdır. **Bitərəflərin təmsilçisi Cəlil bəy Sultanov çıxışında bildirmişdi ki, baş nazirin bəyannaməsində Qarabağ məsələsi üstörtülü keçdiyi üçün bizim fraksiyamız səs verməkdən imtina edir. Onun sözlərinə görə, Azərbaycanın hər yerini, hətta Lənkəran, İrəvan, Naxçıvan uyezdlərinin (qəzalarının) adı çəkildi, amma Qarabağın adı çəkilmədi. Məlumatımıza görə Qarabağ məsələsi platformaya daxil edilmiş, ancaq kimin xatirinəsə bu bəyannamədən götürülmüşdür. Qarabağ müsəlmanları Andranikin əlindən çox cəfalar çəkmiş, çoxlu qurbanlar vermişdilər. Andronik 100-ə qədər müsəlman kəndini xarabaya döndərib. Hökumət bəyannaməsində Qarabağ məsələsinə geniş yer ayrılacaqlarını gözləyən deputatlar bunun əksini gördüklərini bildirdilər. Halbuki Üçüncü hökumət Qarabağa, Şuşaya general-qubernator göndərərək ona geniş səlahiyyətlər vermiş və müsəlmanların qorunmasını tələb etmişdir. Bitərəf Cavanşir bəy Behbud isə, Şuşadan kənara çıxan müsəlmanları hər an ölüm**

**gözlədiyini və belə bir vəziyyətin eyni zamanda Lənkəranda ruslar tərəfindən müsəlmanlara qarşı törədiliyini və bunları nəzərə alaraq hökumətə münasibətimiz, hökumətin gələcək fəaliyyəti ilə bağlı olacağını bildirdi.**

Fraksiyaların bəyanatına cavab verən baş nazirliyə namizəd Nəsib bəy Usubbəyli bildirdi ki, onun bəyanatında bütün mübahisəli məsələlər və problemlərlər əhatə olunub və İrəvan, Tiflis, Lənkəran barədə danışılıbsa demək o haqda danışmaq lazım idi. Qarabağ bölgəsi isə, Azərbaycanın ərazisi olduğundan burada hər hansı özgə fikir yoxdur və ona görə də mən mübahisə doğurmayan məsələ haqqında danışmadım. "Müsavat" fraksiyası hökuməti müdafiə edərək qeyd edirdi ki, Lənkərandakı rus rejimi özünü müstəqil elan etdiyindən biz idarələrə məmurlarımızı təyin edə bilmirik. Həm Tiflis quberniyasının Borçalı, həm də, İrəvan quberniyasının bəzi yerlərinə aid həll edilməli məsələlər var. Bütün bunların əksinə olaraq Qarabağda bizim hakimiyyət mövcuddur və general-qubernatorumuz fəaliyət göstərir.

Yekunda, parlament sədri dördüncü hökumət kabinetinə etimad edilməsini səs verməyə çıxararaq 43 nəfər lehinə və 21 nəfər bitərəf qalmaqla aşağıdakı tərkibdə icraedici hakimiyyət orqanını təsdiq etdi: Nazirlər Şurasının sədri və daxili işlər naziri N.Usubbəyli (müsavat), maliyyə naziri Əlağa Həsənov (bitərəf), ticarət və sənaye naziri Ağa Əminov (müsavat), xarici işlər naziri M.Y.Cəfərov (bitərəf), poçt və teleqraf naziri C.Hacinski (sosialist), ədliyyə və əmək naziri A.Səfkürdski (sosialist), hərbi naziri S.Mehmandarov (bitərəf), təminat naziri V.V.Klenovski (rus-slavyan cəmiyyəti), səhiyyə naziri A.N.Dostakov (bitərəf), maarif və dini etiqad naziri Rəşidxan Kaplanov (partiyasız), ziraət (əkinçilik) naziri A.Qardaşov (Əhrar), portfelsiz nazir A.Amaspür (daşnaksütun), nazir-müfəttiş N.Nərimanbəyov (müsavat).

I Respublikanın dördüncü hökumətinin fəaliyyətə başlamasından sonra keçirilən 17 aprel 1919-cu il tarixli parlament iclasında ilk olaraq **"Əhrar" fraksiyası bəyannamə ilə çıxış etdi. Fraksiya özündən asılı olmayan səbəblərdən keçən iclasda mövqeyini söyləmədiyindən, hökumətə etimad məsələsi səsə qoyulduqda bitərəf qalmağa məcbur olduğlarını məbuslara bildirdi. Bəyannamədə keçmiş F.X.Xoyski hökumətinin fəaliyytəini təhlil edən fraksiya, hökumətin işini mənfi qiymətləndirərək məmləkətin hər yerində hökumət aparatının hər bir idarəsində intizamsızlıq, nizamsızlıq, başsızlıq və rüşvətxorluğun hökm sürdüyünü, iqtisadiyyat-təsərrüfat sahəsində işlərin pis getdiyini, yolların təmirinə lazımi diqqət yetirilmədiyini, torpaq məsələsinin həll edilməsi üçün heç bir tədbir görülmədiyini, ədliyyə işlərimizin nizamlanmadığını, məktəblərimizin, mədrəsələrimizin çətin şəraitini, maliyyə,**

**ərzaq, poçt-teleqraf işlərimizin tam yoluna qoyulmadığını və beləliklə, sabiq hökumətin verdiyi vədini yerinə yetirmədiyini parlament üzvlərinin nəzərinə çatdırdı.** "Əhrar" fraksiyasının üzvləri yeni hökumətin verdiyi vədlərin, keçmiş hökumət kimi kağız üzərində qalmayıb icra ediləcəyinə ümid edərək, ona etimad göstərəcəklərini bəyan etdilər. Parlamentdə "Əhrar" fraksiyası müzakirələrin bəzi hallarda rus dilində aparılmasına etiraz əlaməti olaraq, üzvlərinin parlament komissiyasında fəaliyyətlərini davam etdirməkdən imtina edəcəkləri barədə tələb irəli sürdülər. Məclisi-Məbusanın senyoren-konventini bu məsələyə münasibətini çatdıran H.Ağayev bildirdik ki, "Azərbaycan parlamentin nakazı" (təlimatı) bu məsələləri tənzimləyərək rus dilində olan çıxışların Azərbaycan dilinə tərcümə olunması qaydalarını müəyyən etmiş və nakazda dil xüsusində hər hansı bir başqa qayda nəzərdə tutulmamışdır. Təlimat (Nakaz) komissiyası işlərini bitirdiyinə görə ləğv edilmişdir. İndi yeni komissiya seçmək lazımdır ki, nakaza əlavə maddələr daxil edilsin. Azərbaycan parlamenti daxili nizamnaməyə (nakaza) ciddi əməl etdiyini qeyd edərək üç dəfədən artıq iclaslarını keçirmədiyinə görə fəhlə komissiyasının tərkibinin buraxılması və yeni heyətin seçilməsi barədə qərar vermişdir.

Baş nazir N.Usubbəylinin IV hökumətinin tərkibinin təsdiqi, ölkədə iqtisadi böhranın artması dövrünə təsadüf edirdi. Qarşıdan 1 may nümayişinin gözlənildiyi dövrdə respublikanın daxili vəziyyəti daha da gərginləşmişdir. Sosialist fraksiyasının hökumət kabinetinə daxil olması vəziyyətə təsir göstərmədi. **Çünki, hökumətdə təmsil olunmayan "Hümmət"çi bolşeviklər fəhlələri nümayişə və tətilə sövq edir, iqtisadi böhranı dərinləşdirməyə çalışırdılar. Vəziyyətə nəzarət etmək üçün parlamentdəki "müsavat-sosialist" mərkəzi öz qüvvələrini birləşdirməklə bolşeviklərin təzyiqlərinin qarşısını ala bilərdilər. Hələ yeni hökumət yaradılarkən daxili işlər naziri postu mübahisələrə səbəb olacağından ehtiyatlanan Nəsib bəy Usubbəyli mövqeyləri barışdırmaq məqsədi ilə bu vəzifəni öz üzərinə götürmüş, lakin bu məsələdə "Hümmət"çiləri qane etməmişdir.**

Azərbaycan parlamenti yeni IV hökumətin təşkilindən sonra uzun müddət yalnız kiçik, daha çox iqtisadi - maliyyə xarakterli qanun layihələrini müzakirəyə çıxarmışdı. Parlament böyük dövlət əhəmiyyətli aqrar qanunu, Müəssislər Məclisinə seçikləri tənzimləyən qanun və s. bu kimi normativ-aktları qəbul etmək iqtidarında deyildi. Partiya fraksiyaları birlik nümayiş etdirmir, məbusanlar tez-tez məzuniyyət götürür və ya səbəbsiz iclaslara gəlmirdilər ki, bu da parlament rəhbərliyini intizam tədbirləri görməyə vadar edirdi. Parlament iqtisadi-sosial və digər sahələrdə məcəlləşdirmə aparmır, yalnız Rusiya imperiyası dövründə qəbul

edilmiş məcəllələrlə kifayətlənərək cüzi və ən zəruri dəyişikliklərlə onlardan istifadə edirdi.

N.Usubbəyli hökuməti antiböhran proqramı ilə vəziyyətdən çıxmağın mümkünlüyünü elan etsə də, Bakı fəhlə konfransı bolşeviklərin təsiri ilə siyasi tətil keçirmək haqqında qərar vermişdilər. Bolşeviklər fəhlələrə ümumi tətil elan etmək çağırışı ilə müraciət etdilər və bu zaman təkcə iqtisadi, kollektiv müqavilənin bərpa olunması deyil, sırf **siyasi tələblər** də irəli sürülürdü. Lakin, bolşeviklərin 1 may nümayişinin hökumət əleyhinə güclü təzyiqə çevirmək cəhdləri boşa çıxdı. Belə ki bolşevik təbliğatına baxmayaraq müsəlman fəhlələr bir may bayramında özlərinin, ayrıca şüarları ilə çıxış etdilər. **Müsəlman fəhlələr müsavatçılara və milli hökumətə olan etimadlarını bir daha göstərdilər. Azərbaycanlı fəhlələr yeni hökumət xəttini müdafiə etmələri göstərdi ki, onlar bolşeviklərin fitnələrinə uymayıb gənc milli hökumətin mənafeylərini müdafiə edirdilər.** Azərbaycan parlamentinin 1919-cu il 6 may tarixli iclasında "Müsavat" fraksiyası Bakı şəhərində baş verən tətili fövqəladə hal kimi dəyərləndirərək parlamentin bu işlərə münasibət bildirməsini təklif etmişdir. Tətilin tək iqtisadi xarakter daşımadığını, fəhlələrdən siyasi məqsədlər üçün istifadə edildiyindən, buna aydınlıq gətirilməsini istəyirdi. Onların mövqeyinə görə, xalqa məlum olmasada parlament deputatları bilir ki, məsələnin əsas mahiyyətində nədən ibarətdir. Ümumən sənayemizin və ticarətimizin düşdüyü böhran hamıya məlumdur. Fəhlələrin ağır vəziyyəti, məvaciblərin azlığı, infilyasiya, bahalığı və s. çətinliklərin hökuməti də düşündürdüyü və onun qabağının alınması üçün ciddi tədbirlər görüldüyü deputatlara bəllidir. Bakı Fəhlə konfransına toplanan fəhlələr, müsəlman fəhlələr olmayıb, öz çirkin niyyətlərini həyata keçirən, öz intiriqalarında fəhlələrdən istifadə edən şübhəli bir dəstədən ibarətdir. Bolşeviklər bu iqtisadi çətinliklərdən istifadə edir. Məclisi-Məbusanda bütün millətləri təmsil edən deputatlar və bir də türk müsəlman demokratiyası var. Bu işləri təşkil edənlərin düşüncələri tamam başqadır və onlara anarxiya və ixtilaf, bizə isə hürriyyət və istiqlal lazımdır. Tətili təşkil edənlər deyirlər ki, Həştərxan yolu açılsın və oraya neft daşınsın. Həştərxan yolu açılsın ticarət münasibətləri yaransın, fəhlələr işsiz qalmasın. Halbuki yeni hökumət bunu özü bəyan edir. **Əslində onların niyyətləri məlumdur-Həştərxandan Azərbaycana hakimlik edilsin.** Hökumət çalışır ki, fəhlələrə ucuz buğda, çörək, ət və s. zəruri köməklik etsin. Əslidə, Bakı fəhlə konfransı iqtisadi məsələləri düşünsəydi bunları tələb etməli idi.

**Parlament müzakirələrinin gedişində bildirildi ki, hökumətin Həştərxan yolunu açması ilə Çurayevin, Mirzəyanların bu yolu açmasında böyük fərq vardır.** Bunu görməyən və dərk etməyən bir fərd tapılmaz. Milli hökumət sovet

hökumətinə bu xüsusda müraciət edə bilər və müəyyən şərtlər də irəli sürə bilər. Bu şərtlərdən sovet hökumətindən Azərbaycanın istiqlalının tanınması, bizim daxili işlərimizə qarışmaması, Zaqafqaziya üzərində hakim olmaqdan imtina etmək kimi tələblər ola bilər. Bu şərtlər bizim istədiyimiz kimi olsa o vaxt əlbəttə Azərbaycan Rusiyaya neft verəcəkdir. Bakı fəhlə konfransında kim təminat verər ki, onlar bizim azadlığımıza, hüququmuza, türk demokratiyasının istiqlaliyyətinə təcavüz etməyəcəklər. Bunlar, bu mart faciəsini yaradanlar, bilsinlər ki, bizim onlara istinad edəcəyimizə inanırsa, qətiyyən yanılırlar.

Bakı fəhlə konfransının bolşevik liderləri hökumətin qadağalarına baxmayaraq mayın 6-dan tətil elan etdilər. Hökumət bu tətili siyasi aksiya hesab etməklə onun Azərbaycan dövlətçiliyi əleyhinə yönəlmiş fəaliyyət kimi qiymətləndirirdi. Müsəlman fəhlələr tətil elan olunması anından, onun ləğv edilməsinə qədər, çox fəal iştirak edirdilər. Azərbaycanlı dəmiryolçular siyasi tətil elan etməyə qarşı ciddi etiraz etdilər. Məhz, Azərbaycanlı dəmiryolçu fəhlələrinin siyasi tətilə etiraz etmələrinə görə dəmiryolunda tətil baş tutmadı. Tətilçiləri müdafiə etməyən çapçıların (nəşriyyat işçiləri) xidməti sayəsində qəzetlər nəşrlərini dayandırmadılar. Teleqraf və su kəməri işçiləri də tətilə qoşulmadılar. Bakı Fəhlə konfransında müsəlman sosialistlərin milli hökumətin xəttini müdafiə etməsi, xırda burjua və bolşevik liderləri arasındakı ixtilaflar, müttəfiq komandanlığın hökumətin tərəfini tutması tətilin gözlənilən senarisini pozmuş oldu.

**Beləliklə, bolşeviklərin siyasi məqsədlərinin nədən ibarət olduğu hamıya məlum oldu. Onlar iqtisadi tələblərlə ingilis komandanlığını, həmçinin rus, erməni və müsəlman fəhlələrin aldadaraq, Azərbaycan istiqlaliyyətini məhv etmək istədikləri üzə çıxdı. Çurayevin konfransı Rusiya Sovet hökumətinin Bakıdakı səfərətxanası kimi təqdim olunmalıdır. Beynəlxalq hüquqa görə bir hökumət digər hökumətin tərkibində səfirlik yaratmaq istəyirsə o hökumətin rəyini alar və sonra səfirlik aça bilər. Lakin Sovet hökumətinin qaydaları tamam başqadır. Onun səfiri məhəllələrdə təşkil edilən bolşevik konfranslarıdır.** Parlament deputatları çıxışlarında, müəyyən qüvvələr tərəfindən sərf olunaraq xərclənən 14 milyon pulun yalnız bu kimi işlərə verildiyini və burada sovet hökuməti agentlərinin də fəaliyyət göstərdiklərini xüsusi qeyd etdilər. "Müsavat" fraksiyasının mövqeyinə görə, parlament belə mühüm məsələ qarşısında kiçik qanun layihələrinin hazırlanmasına vaxt sərf etməməli, hökumət ünvanlanan tətil sorğularına cavab verməlidir. Azərbaycan üçün təhlükə təkcə bolşeviklərdən deyil, sağdan da gəlir. Bu təhlükə öz bolşevik qanunlarından və hakimiyyətindən əl çəkməyən Sovet Rusiyası tərəfindəndir. İstiqlalımızı əziz bilən millət, bolşevik olsa belə müstəqilliyimizin əleyhinə olanlara qarşı mübarizə

etməlidir.

Parlamentdə bu məsələ ilə bağlı çıxış edən baş nazir N.Usubbəylinin sözlərinə görə, tətilin siyasi olduğunu təşkilatçıların özləri də inkar etmir və konfransda Azərbaycanda sovet hakimiyyəti qurmaq və onu Rusiyanın bir parçası etməyi qarşılarına məqsəd qoyduqlarını etiraf edirlər. Həm keçmiş hökumət, həm də indiki hökumət zamanı Azərbaycanda azad mətbuat, sosial-iqtisadi tətillər qadağan edilməmiş, əksinə, qanunla mühafizə edilmişdir. Çünki biz demokratik dövlət qururuq. Lakin bu azadlıqdan sui-istifadə olunur. Bu vəziyyət daxildən deyil, xaricdən qaldırılır ki, məqsəd də Azərbaycanı Rusiyaya ilhaq etməkdir. Hökumət Həştərxan neft bazarının açılmasını öz deklarasiyasına (bəyannaməsinə) daxil etmişdir. Lakin bizim də öz şərtlərimiz var: Rusiya Azərbaycanın istiqlalını tanısın, bizimlə hesablaşsın və o zaman neft verək. Hökumət iqtisadi məsələlərdə hər zaman fəhlələrin tərəfindədir və tərəfində də olacaqdır.

Parlament, hökumətin tətilə münasibətini dinlədikdən sonra deputatlar öz fikirlərini bildirdilər. Əhməd Cövdət Pepinov qeyd etdi ki, Azərbaycan paytaxtı fövqəladə vəziyyət içərisindədir. Biz millət vəkilləriyik və borcumuzdur ki, hökumətin bəyanatına öz münasibətimizi bildirək, bu məsələyə necə baxırıq, hərəkətimiz nə cür olacaqdır. Parlament dəmiryolçuların məvacibini artırmaq məsələsini müzakirə edəndə söylədik ki, fəhlələrin təkcə məvaciblərinin artırılması ilə iş qurtarmır. Fəhlələrin vəziyyətini yaxşılaşdırmaq üçün müavinət (sığorta təminatı) təşkilatları lazımdır ki, fəhlələrə ağırlıq olmasın. Parlament və hökumət bu işlər haqqında düşünməlidir. Parlament və hökumət bu məsələdə hələ də konkret iş görməyib və müştərək (kollektiv) müqavilənamə bağlanmasının qəbul edilməsini 4 aydır ki, gözləyir. Məsai (təminat) nazirinin söylədiyinə görə mədən sahibləri heç vəchlə bunu qəbul etmək istəmir, hökumət isə kollektiv müqavilənin bağlanılmasına çalışır. Ancaq fəhlələrdə elə tələblər qoyur ki, onları işə qəbul etmək və ya kənar etmək fəhlələrin ixtiyarında olsun. Hökumət bu ixtiyarı onlara verə bilməz. Müqavilənamə sahibkarlarla fəhlələr arasında razılıq əsasında bağlanmalıdır. Hökumət yalnız müştərək müqavilənamənin yerinə yetirilməsi maddələri üzərində dura bilər. Yeni zamanda kollektiv müqavilənin bağlanmasında maraqları olmayan mədən sahibləri də bu tətili qızışdırmaqda və təbliğ etməkdə fəallıq göstərirlər. Sosialist fraksiyasını təmsil edən Ə.C.Pepinov Həştərxan yolunun açılmasına münasibət bildirərək qeyd edirdi ki, ticarətin açılması, qarşımızda duran fəlakətin götürülməsi deməkdir. Sosialist fraksiyası Həştərxan məsələsində ingilis komandandığını günahlandıraraq bunu, ingilislərin sovet hakimiyyətinə müharibə elan etdiklər ilə əlaqələndirirdi. Fəhlələrin ac qalmağına ingilis komandanlığı səbəb olur. İngilis komandanlığı bizim əl-ayağımızı bağlayır.

Sosialist fraksiyası belə hesab edir ki, hökumət bu ağır vəziyyəti dərk etsin və öz tərəfindən lazımi tədbirlər görsün. Biz ingilis komandanlığını da özümüzdən incik salmamaq üçün tədbirlər görməliyik. Kim ki, bizi əsarət altına almaq istəyir, istər sağdan olsun, istərsə də soldan, onun əleyhinə olmalıyıq.

Sosialist fraksiyasının nümayəndəsi Ə.C.Pepinova çıxışına münasibət bildirən baş nazir qeyd etdi ki, istər hökumət və ya parlament olsun əmələlərin (fəhlələrin) çörək və ərzaqlarının ucuz olması üçün tədbirlər görür. N.Usubbəyli deputatlara belə bir faktı çatdırdı ki, bizim dəmiryol fəhlələri Gürcüstan dəmiryolu fəhlələrindən iki dəfə artıq məvacib alırlar. Gürcüstanda çörəyin girvənkəsi (400 qr.) 8-10 manatdır, burada isə ondan ucuzdur. Parlament dəmiryolçuların maddi təminatı üçün qəbul etdiyi 4 fevral 1919-cu il tarixli "Dəmiryolu qulluqçularının maddi vəziyyətlərini yaxşılaşdırmaq haqqında" qanununda parlament tərəfindən bir milyon rubl ayrımaqla, onlara 2 manata çörək verilməsini nəzərdə tuturdu. 1919-cu il yanvarın 1-dən dəmiryolçulara məvacibin 60% həcmində mükafat verilməsi də nəzərdə tutulurdu. Fəhlə komissiyası dəmiryol işçilərini 14 kateqoriyaya ayıraraq hətta 1918-ci ilin noyabr ayında hesablanmaqla məvacibə əlavələr etmişdi. **Bununla belə Gürcüstanda bir dəfə də tətil olmur. Baş nazirin fikrincə görünür ki, məsələ çörək məsələsi deyil, başqa məsələdir.**

Milli hökumət əleyhdarı olan "Hümmət" fraksiyasının nümayəndəsi Səmədağa Ağamalıoğlu fəhlələri müdafiə edərək onların bir gün işləməmələrini faciə hesab etmirdi. Onun sözlərinə görə, istəsələr işləyərlər, istəsələr işləməzlər. Deməli fəhlələrdən küsməliyik. Nə olubdur ki, işləmirəm "tolko vseqo" ("vəssalam"). Fəhlələr öz sərbəstliklərini özləri müəyyən edir. Lakin bizim fəhlə yoldaşlar görsə ki, Azərbaycana ziyan dəyir, istiqlaliyyətin zərərinədir, lap "tovarişləri"də (yoldaşları) olsa onun başını üzərlər. Ancaq zabostovka (tətil) doğrudur. Acı inandırmaq çətindir. Fəhlələr deyir ki, neçə vaxtdır ət üzü görməmişik, şəkər üzü görməmişik. Biz indi oturub gözləməliyik, gələcəkdə fəhlələrə nə veriləcək, sənin üçün nələr yaradacam. Hökumət söyləyir ki, kollektiv "doqovorda" (müqavilədə) qorxulu bir "punkt" (bənd) vardır. Hümmətçilər heç nəyi qorxulu hesab etmirlər.

"Əhrar" fraksiyasından Abdulla bəy Əfəndizadə bildirdi ki, bizim firqə nizamnaməmizin 2-ci maddəsində Rusiya Azərbaycanın (Şimali Azərbaycanın) istiqlaliyyəti təsbit edilib. Hökumət istiqlaliyyətini necə istəsə, biz də bu istiqlaliyyət uğrunda onun arxasınca gedəcəyik. Azərbaycanda fəhlələr, kasıblar milyonları təşkil edir. Bizim təqsirimiz ondadır ki, bizim ziyalılar, müəllimlər onların arasında izahat işi aparmır, vətənin və millətin məqsədlərini onlara çatdırmır. "Əhrar" fraksiyası bu məsələyə hökumətin ədalətli yanaşmasını, eyni zamanda inad edənlərə, düşmən sözünə aldananlara qarşı tədbirlər görməsini təklif

edirdi.

Bakı fəhlə konfransının keçirdiyi tətilin parlament müzakirəsində çıxış edən "İttihad" fraksiyasının rəhbəri Q.Qarabəyli bu tətilin həqiqətən iqtisadi tətil olsaydı, bu gün nə baş nazir, nə də parlament üzvləri belə həyəcanla danışmazdılar. "İttihad" fraksiyası da Bakı fəhlə tətilini iqtisadi tətil hesab etmir. İqtisadi tətil olsaydı, bizim parlament fraksiyamız onun əleyhinə danışmazdı və danışmağa haqları da olmazdı. Bizdə fəhlələrin əmək və məişət şəraitlərinin yaxşı təmin olunması tərəfdarıyıq. Parlamentin heç bir firqəsi fəhlələrə müavinət verilməsinin əleyhinə deyil. Məhz, xalqı həyacana gətirən, hökuməti və çıxış edən parlament məbuslarını hiddətləndirən bir məsələ tətilin iqtisadi deyil, siyasi olmasıdır. Bu tətil bir gündə, qəflətən hazırlanmayıb. Bu barədə həyəcana düşməyə haqqımız vardır. İngilislər Bakıya gələndə, onlarla bərabər başqa qüvvələr də gəlmişdir. Bu qüvvələrə o qədər meydan verilib ki, hökumət və parlament qalıb bir yana, onlar gündə fəhlə konfransı keçirir, tətil komitələri yaradırlar. Bu tətillər siyasi mahiyyət daşıyan, düşünülmüş bir aksiyadır. Məqsəd Azərbaycanın istiqlalına son qoymaqdan ibarətdir. "İttihad" partiyası Azərbaycan dövlətçiliyi mənafeyini həmişə yüksək tutacaqdır. Lakin, bizim firqə hökumətə etimad göstərməyib müxalif qalmışdır. "İttihad" bu hökumətə qarşı müxalif olsa da Azərbaycana, millətə və vətənə qarşı müxalif deyil. **Biz elə etməliyik ki, bir də başımıza 1918-ci il mart soyqırımı gəlməsin və islamın (müsəlmanın) namusu ayaqlar altında tapdalanmasın. Bu işdə biz, hökumətə yardım etməklə bərabər onun tərəfini saxlayacayıq. Fraksiya bildirir ki, maskalar altında söylənilən sözlərin və görülən hərəkətlərin vaxtı keçmişdir. İndi maskaları atmaq vaxtıdır.**

**Demokratizmdən istifadə edərək tətil təşkil edənlərin fikri tamam başqadır. Sağdan gələn Denikinçilər, soldan gələn sovetlərlə birləşib Zaqafqaziya üçün bir fikirdədirlər. Heç kəs bu barədə aldanmasın və bu barədə şübhə etməsin. Şübhə etmək özümüzü aldatmaq deməkdir. Bu qüvvələrin fikri hüququmuza təcavüz etmək və namusumuzu ayaqlar altına almaqdır. Necə ki, 1918-ci il mart hadisələrində altı ayın müddətində soyqırım törədildi və sonra kiminsə vasitəsi ilə bu işlərdən qurtuldular. "İttihad" firqəsi fəhlə məsələlərindən sui-istifadə edildiyini, tətil edilməsini kənar qüvvələrlə bağlı olduğunu bildirir.**

**Azərbaycan milləti öz müqəddaratını özü təyin etməlidir. Millətin hüququ var ki, ona bolşevik də olsa özününkü olsun. Daha Anaşkinlər və Çurayerlərin gəlib millətimizin qeyrət və namusunu tapdamalarını və qadınlarımızın tumanını aparıb Rusiyada spirtə-çaxıra verib içmələrini qəbul edə bilmərik. Millətimiz öz haqqını başa düşür və bizə qəyyum lazım deyildir. Xarici**

**qüvvələr bu millətin parlamenti və hökumətini qəbul edirmi? Onlar bolşeviklərə kömək edərək Bakını bizim əlimizdən almaq istəyirlər. Xaricdən gələn 5 nəfər və bizim də bir-iki nəfər maskalılarımızı özlərinə qoşanlara, Azərbaycanı verəkmi? Bu tətil edənlər 3-4 milyondan artıq Azərbaycan xalqının rəyini öyrəniblərmi? Hökumət işləsin və Bakını müdafiə etsin. Biz ittihadçılar da axır nəfəsimizə qədər hökuməti müdafiə edəcəyik.**

Deputat M.Vəkilov məsələyə münasibət bildirərək solçuların bu tətili siyasi hesab edib-etməmələrinə aydınlıq gətirilməsini, sözlərin aşkar deməlerini istədi. Fəhlələr iqtisadi tətil edə bilər, lakin siyasi tələbə iqtisadi rəng vermək olmaz. Fəhlələri aldadan kimi, siz sosialistlər də parlamenti aldadırsız. Şübhəsiz ki, bu tətil siyasidir və əsl məqsədi Azərbaycanın istiqlalını devirməkdir.

**Parlamentin bitərəf məbusu A.Aşurov müsavatçı və ittihadçıların mövqeylərini dəstəkləməklə yanaşı, hümmətçilərin tətilə münasibətini tənqid etdi. Belə çıxır ki, onlar nə vaxt istəsələr zabostovka (tətil) edəcəklər və S.Ağamalıoğlu kimi deyəcəklər ki, burada nə var. Bir gün suyu bağlayacaq, işığı söndürəcək və deyəcək ki, nə olursa-olsun mənə nə var. Öz millətinin istiqlalını sevən belə hərəkət etməz. A.Aşurov həmçinin hökuməti xəbərdar edirdi ki, onlar bizim orduya əl uzadırlar və onlara deyilməlidir ki, əlinizi rədd edin. Bizim ordudan əl çəkin, bu ordunun əlində bizim müqəddəs üçrəngli bayrağımız var.**

Sosialist Əhməd Cövdət Pepinov yenidən söz alaraq bitərəf deputat Ağa Aşurovun ittihamlarına cavab olaraq əmələlərin tətil hüququ olduğunu, Aşurovun evdə rahat oturub şəkər və çayını hazır gördükdə acların fikrini çəkmir. O ki, qaldı bu tətilin hansı xarakterli olmasına bu həm iqtisadi, həm də siyasi tətildir. Biz sosialistlər tələb edir ki, hümmətçilərin iqtisadi tələbləri qəbul edilməlidir, əks təqdirdə bu tətil siyasi tərəfdən güclənəcəkdir. Hümmət fraksiyasından S.Ağamalı oğlu yenidən çıxış edərək belə bir fikir irəli sürdü ki, o yolu ki, bunlar tutub gedirlər, o bizi istiqlaliyyətə çatdırmaz, zənn edirik bir əldə iki qarpız tutmaq olmaz. Qardaş-qardaşla tən gərək. Həqiqətdə yaşasın bizim fəhlələr və əkinçilər. Mən təklif edirəm ki, bu zabstovka sakitliklə qurtarsın.

Parlamentin "Müsavat" fraksiyasından Abbasqulu Kazımzadə bolşeviklərin fəaliyyətinin Azərbaycan əleyhinə olduğunu, demokratiyanın isə heç kimin monopoliyasında olmadığını fəhlələr də dərk etməlidirlər. Çünki keçən il martda, vətəndaş müharibəsi (əslində sinfi mübarizə adı altında müsəlmanların soyqrımı) zamanı fəhlə və kasıbları diri-diri neft quyularına doldurdular. İstər ağ, istər qara, istər qırmızı bir qüvvənin Azərbaycanda yeri yoxdur, bunun əleyhinə çıxan sinif

isə bütün Azərbaycan demokratiyasıdır.

M.Ə.Rəsulzadə tətil məsələsi barədə ikinci dəfə çıxış edərək bildirdi ki, Bakı fəhlə konfransının tələb etdiyi iki əsas məsələnin birini sosialistlər dünən, digərini də bu gün açıq (siyasi tətili) müdafiə edirlər. Özlərinə Azərbaycanın tərəfdarı deyib başqalarını dəyərləndirməyən sosialistlər, Bakı fəhlələrinin keçirdiyi demokratik müşavirədə guya istiqlaliyyəti müdafiə etmişdilər. Əgər biz hələ Cümhuriyyətimizi elan etməmişdən əvvəl **Zaqafqaziya seymində oxunan Bəyannamələri nəzərdən keçirdikdə görürük ki, sosialistlər Azərbaycan sözünü dillərinə belə gətirməmişdilər. Fəhlə konfransında hümmətçilərdən Əzimzadə daha təhlükəli, əsgərlərə müraciət təklifi irəli sürmüşdür. Lakin, sosialist qardaşlar bu qırmızı təhlükəyə aldansalar da, qətiyyən əminəm ki, bizim əsgərlərimiz əllərinə vəsiqə olaraq aldıqları Azərbaycan bayrağını daim yüksəklərə qaldıracaq, əsarət zəncirini boynumuza taxanlara qarşı çıxacaqlar.**

Qanunverici orqanın mayın 6-da keçirilən iclasında müzakirə edilən məsələlərə dair sədarətə iki qərar layihəsi təklif olunurdu. Birinci təklifdə, müsavat və digər firqələr tərəfindən daxil olan qərar layihəsində deyilirdi: raboçi (fəhlə) konfrans adlanan təşkilat tərəfindən elan olunan ümumi tətil istiqlalımız əleyhinə olan bir sui-qəsd olduğunu nəzərə alaraq və hökumətin baş nazirinin izahatından, tətilin başa çatması üçün gördüyü və görəcəyi qəti tədbirləri təqdir və bu xüsusda hökumətə, Məclisi-Məbusan tərəfindən hər növ kömək edəcəyinə vəd verilir. İkinci qərar layihəsini sosialist fraksiyası sədarətə təklif edirdi. Qərar layihəsində göstərilirdi ki, hökumətin bəyanatını dinləyib asayiş və qanunu mühafizə etmək üçün, hökumət tərəfindən görülən təklifləri təqdir etməklə, parlament gündəlikdəki növbəti məsələlərin müzakirəsinə keçsin. Məclisi-Məbusan sədri Həsən bəy Ağayev birinci təklifi səsə qoydu və lehinə 39, əleyhinə 5, bitərəf 4 nəfər və ikinci təklif isə lehinə 8, əleyhinə 36, bir nəfər bitərəf qalmaqla, müsavat və digər fraksiyaların irəli sürdükləri birinci qərar layihəsini təsdiq etdi.

Məclisi-Məbusanda geniş müzakirə edilən tətil məsələsindən sonra hökumət bir sıra təcili tədbirlər gördü. Əmək nazirliyinə fəhlə konfransı nümayəndələri ilə danışıqlar aparmaq və onların vəziyyətini yaxşılaşdırmaq haqqında tədbirlər görmək tapşırıldı. Hökumət maliyyə nazirinə ağır vəziyyətləri ilə əlaqədar olaraq may ayı üçün istisna hal kimi fəhlələrə müavinət verilməsi və neft sənayeçilərindən borcun ödənilməsi haqqında təminat tələb etməsini tapşırdı. Mayın 13-də tətilin tam məğlubiyyətlə qurtarması göstərdi ki, fəhlələrin əsas hissəsi, xüsusən də müsəlman fəhlələrin, hökumət xəttini və Azərbaycan Cümhuriyyətinin müstəqilliyini müdafiə edirlər. Tətilin uğursuz başa çatması bolşeviklərin məğlubiyyətə uğraması ilə birbaşa bağlı olsa da onlar sabitliyin pozulması

xəttindən əl çəkməmişlər. Bolşeviklər Həmkarlar İttifaqına nəzarət etmək taktikasına keçərək buna nail oldular. Belə ki, bolşeviklər 1919-cu ilin yayında Bakı Həmkarlar İttifaqları Şurasını ələ keçirdi.

Azərbaycan Məclisi-Məbusanı mayın 8-də keçirilən iclasında gündəlikdəki məsələlər və sorğular müzakirə edildi. Aqrar məsələləri diqqətdə saxlayan parlament kənd təsərrüfatı işlərinə aqronom yardımını gücləndirməyi, əkinçilik işlərinə yardım edilməsi və ziyanvericilərə qarşı mübarizə aparılmasını nəzərdə tutan qanun layihəsini müzakirə etdi və həmin dövrə qədər daxiliyyə nəzarətində olan aqronom xidməti və bürosunu əkinçilik və əmlak nəzarəti nazirliklərinə verilməsi haqqında qanun qəbul etdi.

Qanunverici orqan, ölkə infrastrukturun yaxşılaşdırılmasında dəmiryolların xüsusi əhəmiyyət daşıdığını önəmli hesab etdiyi üçün, Bakı-Culfa arasında dəmiryolların təmir olunması məsələsini müzakirəyə çıxarmağı və hökumətə bu sahədə tədbirlər görməsi ilə bağlı müraciət etmişdir. Bakı-Culfa dəmiryolunun Azərbaycan Cümhuriyyəti üçün böyük əhəmiyyəti olduğunu göstərən parlamentarilər dəmiryolların, nəqliyyat sistemindən başqa, millətin və ölkənin də tərəqqi və inkişafına kömək etdiyini, mədəni millətlərin keçmişdə bu sahəyə diqqət vermələri nəticəsində öncül olduğunu bildirdilər. Buna Almaniya, İngiltərə, Belçika kimi dövlətlər nümunə ola bilərlər. Almaniyanın dörd illik dünya müharibəsində ildırım sürəti ilə qoşunlarının o cəbhədən bu cəbhəyə göndərməsi dəmiryollarının yaradılması sayəsində mümkün olmuşdur. Birinci dünya müharibəsində Mərkəzi Rusiyada xalq aclıqdan qırılanda, Yeddibənddə (Semipalatinski), Cənubi Sibirdə taxıl o qədər bol idi ki, dəmiryollarının azlığından, taxılın bir yerdən başqa yerə daşımaq mümkün olmurdu. Bu hal indi Azərbaycanda və qonşumuz Gürcüstanda da mövcuddur. Bir neçə ay bundan əvvəl Bakıda, Gəncədə, Tiflisdə buğdanın pudu 100-180 manat olduğu halda, Muğanda və Arazda 15-20 manat olmuşdur. Qiymətin bu qədər yüksək olması tək möhtəkirliklə bağlı olmamış, dəmiryollarının azlığından baş vermişdir. Dəmiryolu boyu ərazilərdə zəngin mədəndlər mövcuddur. Zəngəzur qəzasında böyük mis mədənləri vardır ki, bu mis mədənləri Avropada və Amerikada Bakı nefti qədər məşhur ola bilər. Yevlaxdan 250 verst məsafədə araba ilə daşınan mis Avropa, Amerika, Ural və Rusiya misləri ilə rəqabət apara bilər. Dünya müharibəsinin ikinci ilində Amerikadan gəlmiş mühəndislərin rəyinə görə bu mis mədənləri dünyada ən zəngin mədənlərdir. Zəngəzurda qurğuşun yataqları da var. Dəmir və kömür mədənləri də mövcuddur. Culfa-Bakı dəmiryolu tranzit üçün böyük əhəmiyyət daşıyır. Məruzəçi Cəmil bəy Sultanov dəmiryolunun istiqaməti və gələcəyimiz üçün olan əhəmiyyəti haqqında məlumat verərək, sonda Asiyanın

tərəqqisini istəyən qüvvələrin bu yolun təmirinə səs verməyə çağırdı. Məruzə ətrafında çıxış edən yollar naziri Xudadat bəy Məlikaslanov bu yolun texniki tərəfindən və əhəmiyyətindən danışdı. Bu yol vasitəsi ilə başqa dövlətlər də böyük mənfəət əldə edəcəkdir. Kür çayının üstündəki körpünü bolşeviklər yandırdığından onu təmir etmək lazımdır. Ən çox çətinlik rels, nəqliyyat, paravoz və vaqon tərəfindən olacaqdır. Lakin bu barədə yollar nazirliyinin böyük layihəsi vardır. Bu dəmiryolu üçün tutulan smeta üçün 258 milyon pul lazımdır. Gələcəkdə bahalaşma olsa və bon qiymətini itirsə, vəsait çatışmayacaq və onun artırılması lazım olacaqdır. Yollar naziri parlamentdən, gələcəkdə bu smetanı dəyişmək lazım olsa, qanunda bunun hökumətə həvalə edilməsin nəzərdə tutmağı xahiş etdi. X.Məlikaslanov hökumət adından qanun layihəsini təsdiq etməyi parlamentarilərdən xahiş etdi. Məruzəçi Abuzər bəy Rzayev Bakı-Culfa dəmir yolunun iki nöqteyi-nəzərlə qiymətləndirərək onun iqtisadi və siyasi əhəmiyyət daşıdığını bildirdi. Birinci əhəmiyyət ondan ibarətdir ki, dəmir yolunun keçdiyi ərazilərdə Muğan, Mildə əkin və fabriklər meydana gələr və əhali ondan xeyir və fayda görər, o cümlədən dövlət də. İkinci isə siyasi əhəmiyyət daşıyır Türkiyə, İran, Gürcüstan və Ermənistanla bilavasitə əlaqə qurular, Şərur və Naxçıvanla rabitə asanlıqla yaranar. 258 milyon vəsaitdən bu il üçün cəmi 100 milyon manat ayrılmışdır. Parlament sədri Bakı-Culfa dəmir yolunun tikintisi üçün 258 milyon manat ayrılması barədə yollar nazirinin təqdim etdiyi layihəni səs verməyə çıxarır və qanun yekdilliklə qəbul edilir.

Azərbaycan parlamentinin mayın 8-də keçirilən iclasında "Əhrar" fraksiyasından Abdulla bəy Əfəndizadə gündəlikdən kənar çıxışı edərək bildirdi ki, bütün qulluqçuların o cümlədən istər **gimnaziya müəllimləri olsun, istərsə də məktəb müəllimləri olsun, onların maddi cəhətdən vəziyyətləri ağır və çətindir. Bu məsələ barədə qanun layihəsi hazırlanıb maliyyə büdcə komissiyasına təqdim edilib. Büdcə komissiyası layihə üzərində işi tamamalamayıb. Qiymətlərin bahalığı müəllimlərə öz peşələrini davam etdirməyə imkan vermir. Doğrudur ki, hökumət bəzi təxirə salınmaz tədbirləri həyata keçirmək üçün 20 milyon pul buraxmışdır ki, o puldan müəllimlərə xərclənsin. Lakin bu puldan müəllimlərin alacağı fərq o qədər azdır ki, onun heç bir real köməyi yoxdur. Hökumətin vəzifəsidir ki, qanun layihəsi qəbul olunana qədər müəllimlər nəqd şəkildə bir müavinət yardımı etsin. Məlumdur ki, ibtidai müəllimlər hər yerdə 420 manat məvacib alırlar ki, bu da infilyasiya və qiymət artımını nəzərə alaraq 3 manat edir. Bununla zavalı müəllimlər özünü dolandırsın, ailəsini dolandırsın. Bu pullar bir müəllimin ancaq papiros və spiçka almasına çatar. Əcəba, müəllim hamama getməsin, başını qırxdırmasın. Bu məvaciblə müəllim özünü və ailəsinin**

**təminatlarını ödəyə bilməz. Bunlar həmin müəllimlərdir ki, biz millət balalarını onlara tapşırmışıq ki, tərbiyə etsinlər. Biz müəllimlərin halına qalmaqla öz balalarımızın qayğısına qalırıq. Qabiliyyətli və qiymətli müəllimlərimiz öz sənətlərini buraxmağa məcbur olmuşdur. Müəllimlikdən kimisi hökumət qulluğuna, pristavlığa gedir. Belə gedərsə bir azdan sonra bir nəfər müəllimimiz qalmayacaq, qarını acdan ideya məsələsi gözləmək olmaz. Hər şey haqqında odlu danışılır, onlar millətpərəst olsunlar deyirik. Heç təsəvvür etmirik ki, 3 manat maaşla onlar dolana bilərlərmi? Parlamentə təklif edirəm ki, qanun layihəsi qəbul olunana qədər müəllimlər üçün təcili surətdə pul vəsaiti buraxılsın ki, müəllimlərin maddi vəziyyəti yüngülləşsin.** Həmçinin maliyyə-büdcə komissiyası tərəfindən təqdim ediləcək layihədə maaş dərəcələri təcili surətdə qəbul olunsun.

Parlament sədri H.Ağayev gündəlikdən kənar bəyannamə olduğuna görə A.Əfəndizadənin çıxışını müzakirəyə çıxarmır. A.Əfəndizadə özü maliyyə-büdcə komissiyasının üzvüdür. Bu komissiyaya çoxlu qanun layihələrinin daxil olmasına baxmayaraq komissiya həmin layihə ilə məşğuldur. Layihə böyükdür və komissiya bir neçə iclasdan sonra ona baxmalıdır.

I Respublika parlamenti Həsən bəy Ağayev və Əhməd Cövdət Pepinovun katibliyi ilə mayın 12-də keçirilən iclasında maarif nazirliyinin məmur və müəllimlərinin maaşlarının təyini haqqında qanun layihəsi, hökumət qulluqçularının maaşlarının təyini haqqında qanun layihəsi, Zaqafqaziyanın ingilis qoşunları tərəfindən işğalı haqqında general Millinin bəyanatına münasibət bildirməsi haqqında sosialist fraksiyasından hökumətə ünvanlanan sorğu, Məclisi-Məbusana seçkilər haqqında birinci oxunuş qanun layihəsi və daxil olan digər yazılı müraciətləri müzakirə etdi.

İlk olaraq maarif nazirliyin məmur və müəllimlərinin maaşlarına baxılması haqqındakı qanun layihəsini Ə.Pepinov deputatlara təqdim etdi. Onun sözlərinə görə bu layihə dörd ay bundan qabaq hazırlanıb və büdcə komissiyasında müzakirə edilib. Aprelin 12-də maliyyə-büdcə komissiyası layihənin böyük olduğunu əsas gətirərək, onun təcili baxılması zəruri olan maddələrini müəyyən etdi və ən əvvəl məvaciblərə baxılmasının təxirəsalınmaz olduğunu bildirdi. Ona görə də parlamentə təklif olunan layihədə iki əsas məsələnin, müəllimlərin məvaciblərinin artırılması və onlara güzəştli imtiyazılar verilməsi təcili baxılmaq üçün təqdim edildi. Qanun layihəsinin müzakirəsində çıxış edən Muxtar Əfəndizadə hələ Zaqafqaziya Seymi hökuməti zamanı müəllimlərin maaşı artırılmış, lakin 1918-ci il Mart Soyqırımı səbəbindən Bakı, Şamaxı, Ağdaş, Göyçay, Şəki və Şirvan müəllimləri artırılan maaşlarını ala bilməmişdilər. Təklif edirəm ki, həmin

maaşların ödənilməsi təmin edilsin. Sosialist fraksiyası da ibtidai müəllimlər üçün nəzərdə tutulan maaşın, qanun layihəsində az olduğu üçün onun artırılmasını təklif etdi. Nikolay hökuməti zamanı müəllimlər 33 manat 33 qəpik məvacib alırdılar. Bir çox qabiliyyətli adamlar öz peşələrini buraxıb müəllimliyə daxil olurdular. İndi isə bunun əksi baş verir. Qanunverici orqan müzakirələri başa çatdıraraq "İbtidai məktəblərin müəllim və qulluqçularının peşə və kənd təsərrüfatı məktəblərinin və onların nəzdində olan bölmə, əl əməyi sinflərinin və əl işləri kurslarının təminatı haqqında" müvəqqəti qanun layihəsi əksəriyyət səslə təsdiq etdi. Qanunda müəllimlərə aylıq 1200 rubl, işıq pulu və kvartira pulu güzəşti üçün nəzərdə tutulan 100 rubl müavinət vermək qərara alındı. Sənət ustaları və kənd təsərrüfatı təlimatçılarına müvafiq olaraq 1400 rubl və güzəştlər üçün 100 rubl müavinət verilirdi. **Parlamentin iclasında iştirak edən baş nazir N.Usubbəyli qəbul olunmuş qanuna münasibət bildirərək qeyd etdi ki, müəllimlərin maaşlarının nə qədər artırsaq da biz bundan heç nə itirməyəcəyik, əksinə varlığımız və istiqbalımız (suverenliyimiz) ancaq müəllimlərin əlindədir.** Hökumət baş verən infilyasiya və qiymət bahalığını nəzərə alır. Pul çap etmək hökumət üçün çətin iş deyil, amma kağız pullar dəyərdən düşür. Nə qədər pul çap olunarsa, o qədər manatın qiyməti azalır. Büdcəyə baxdıqda oradakı boşluğu görüb, siz özünüzdə müəllimlərin maaşından kəsib onu doldurmaq vacib olduğunu söyləyəcəksiniz. Bununla belə müəllimlərin və bəzi məmurların maaşlarının artıq olmasına hökumət tərəfindən etiraz olmayacaq.

Parlamentin sosialist fraksiyası ingilislərin Qafqazda qalmalarının müzakirəsini aparmaq məqsədilə hökumətin mövqeyini öyrənmək üçün ona sorğu ilə müraciət etmişdi. General Millinin Zaqafqaziyanın istila olması haqqında bəyanatına münasibət bildirən sosialist fraksiyasının nümayəndəsi Əhməd Cövdət Pepinov söylədi ki, biz də Azərbaycan xalqının millət vəkili olmaqla məmləkətdə nə baş verdiyini öyrənməyə hüququmuz vardır. Baş nazirin, bu məsələnin öz əhəmiyyətini itirməsi və bunun 3 ay öncə İstanbulda çap olunduğunu və buraya gec gəlib çatdığını söyləməsi, inandırıcı deyil və kaş bu belə olaydı. Lakin, sosialistlər buna inanmır. Çünki, ingilis dövləti texniki cəhətdən yaxşı təhciz edilmiş, simsiz teleqraflarının olduğu halda bu xəbərin bu qədər gec gəlib çatması inandırıcı deyil. Bu elannamənin əhəmiyyəti olmasa, ingilislər onu yaymazdılar. Bu elan verilibsə deməli onun əhəmiyyəti vardır. Baş nazirin söylədiyi kimi bu elan tətilə qarşı olmasaydı, onda tətil olmazdı, lakin bu tədbir tətilin daha da artmasına səbəb oldu. Bu elan məlumat təkcə Bakıda deyil, Tiflis istisna olmaqla bütün Zaqafqaziyada vurulub. Sosialistlərin məlumatına görə ingilislər bu elannaməni saxlayıb indi çoxaldıb yayıblar. Bakıdakı tətilə münasibətdə hökuməti müdafiə etmiş ingilis komandanlığının, sosialistlər tərəfindən kəskin tənqid olunması həmin dövrdə başa

düşülən idi. **Hökumətin xəttini müdafiə edən müttəfiq qoşunların Cənubi Qafqazdakı baş komandanı Milin dəmir yolları, rabitə sistemi, körpülər və hərbi anbarların və s. işinin pozulmasında iştirak edən adamların hərbi məhkəməyə veriləcəyi və ölüm hökmü ilə cəzalandırılacaqları barədə əmr verməsi bolşevikləri bərk narahat etmişdir.** Azərbaycan parlamentinin əksəriyyət üzvləri və ingilis komandanlığı tərəfindən müdafiə olunan milli hökumət, mayın 9-da tətil edənləri həbs etmişdi.

Sosialistlər hesab edirdilər ki, birinci dünya müharibəsinin qurtarmasından sonra qalib, məğlub və bitərəf dövlətlərin iştirakı ilə sülh konfransı keçiriləcək. Sülh konfransı yeni yaşama əsasları düzəldib, dünyada yeni bir həyat dövrəsinə keçəcəkdir. İndi qəzetlərdən məlum olur ki, bu bir sülh konfransı deyil, ancaq qaliblər konfransıdır. Orada sülh şərtləri ancaq məğlub millətlərə təklif və diqtə edilir. Vaxt vardı V.Vilson 14 maddədən danışırdı. İndi isə onlar tətbiq olunmur. Onun əvəzinə 5 qalib dövlətlərin təklifi ortaya qoyulub tətbiq edilir. Sosialistlərin mövqeyinə görə onlar köhnə imperialist, burjuaziya əsaslarını daha da möhkəmləndirmək istəyir. Yeni ölkələr qəsb edib, yeni mandatlar paylayırlar. Növbə Zaqafqaziyaya çatıb. Bolşeviklər belə hesab edir ki, əgər Avropa sülh konfransı doğrudan da dünyada yeni əsaslar qurmaq istəyirsə, o vaxt dünyadakı bütün millətlərin nümayəndəsini çağırıb ədalətli sülh konfransı təşkil edə bilər. Lakin dünya imperialistləri bunu etmir və etmək istəmirlər. Sosialistlər hesab edir ki, ingilislər əvvəl gələndə Azərbaycan xalqının arzusunu və əzmini qıra bilməmiş və bəzi sərsəmlərin iftirasına inanmışdılar. Onların general qubernatorluğu yalnız hərbi olmaqla Bakıya aid idi. İngilislərin Zaqafqaziya ilə əlaqəsi yox idi. İngilislər gələndən sonra Azərbaycan qoşunları Bakını tərk etdi. İngilislər bir çox məsələlərdə daxili işlərimizə qarışsalarda, lakin Denikinin könüllü dəstələrini buraxmadılar. Demək bizim ixtiyarımız yoxdur ki, əleyhimizə gedən düşmənimizin qabağına gedək, istiqlalımızı müdafiə edək. Görünür ki, ingilislər fikirlərini dəyişmiş, nəyinki Zaqafqaziya Cümhuriyyətlərinə istiqlaliyyət və azad yaşamasına razı olublar, əksinə sosialistlər də olan məlumata görə, onlar bütün Zaqafqaziyanı işğal etmək və hərbi-əsgəri siyasi hakimiyyət qurmaq istəyirlər. Məhz general Millinin də elannamələrində bunlar əks olunub. **İngilis rəsmi mənbələrinin fikrini nəşr edən və ingilis siyasətinin təbliğatçısı olan “Tayms” qəzetində Zaqafqaziya barəsində yazılan məqalələr göstərir ki, doğurdan da onların fikri bizi məhkum etmək və istiqlalımızı əlimizdən almaqdır. İngilis qəzetinin yazdığına görə erməni, gürcü, tatar və ruslar şiddətli və kəskin ədavətlə bir-birindən ayrı düşmüşdür. Bizim (ingilislərin) müdaxiləmiz olmasa ermənilər və gürcülər Axalkala və Borçalı üstündə hələ də müharibəni davam etdirərdilər.** Sosialistlərin fikrincə bu onu iddia edir ki, Zaqafqaziyada

olan millətlər sərbəst yaşaya bilməzlər və gərək bunların üstündə qüvvətli bir əl olsun ki, bunları barışdırsın. Zaqafqaziyada yaşayan rus, müsəlman, gürcü və erməni millətlərinin arasında dərin uçurum vardır. Zaqafqaziyada müstəqil olan dövlətlər istiqlaliyyəti özgələrin hüququnu məhv etmək, ancaq öz hüququnu mühafizə etməyə çalışmaqdan ibarətdir. "Tayms" qəzetinin yazdığına görə, məhz müttəfiq dövlətlərdən biri qabağa çıxaraq Qara dənizdən, Xəzər dənizinədək bütün nahiyənin idarəsini öz öhdəsinə götürməlidir. Nəqliyyat, poçt, teleqraf, gömrük, aksiz, dövlət bankları tamamilə müttəfiqlərin xüsusi idarəçiliyinə alınaraq, bütün Zaqafqaziyada onların idarəsinə tabe olmalıdır. Sosialist fraksiyasının mövqeyinə görə, doğrudan ingilislər 5 ay müddətində bizim müstəqil olmağımızı arzu etmək fikrində olmamışdılar. Biz Rusiya əsarətindən yenidən qurtardığımız halda, yenidən Avropanın əsarətinə salmaq istəyirlər. General Millinin bu günkü fikirləri "Tayms" qəzetindəkiləri əks etdirir. Bir yeri işğal etmək üçün, əvvəlcə bir bəhanə lazımdır. Səbəbsiz yerə işğal etmək arsızlıq olur. Fraksiya belə hesab edir ki, ingilis komandanlığı Zaqafqaziyanı işğal etmək üçün iki məsələni bəhanə gətirirlər. Birincisi, Türkiyə dövləti ilə müttəfiqlər arasındakı müqaviləni yerinə yetirmək, ikincisi isə, sülh konfransının qərarına kimi asayişi və əmin-amanlığı saxlamaq bəhanəsi ilə. Sülh konfransının qərarına kimi asayişi və əmin-amanlığı biz də saxlaya bilərik. Zaqafqaziyada indiki vəziyyəti pozmağa heç bir səbəb yoxdur.

Sosialistlərin uğursuz tətilindən sonra onların belə bir bəyanatla, parlamentdə çıxış etməsi bütün məsələlərə aydınlıq gətirirdi. **Hərbi komandanlıq əmin-amanlığın pozulmasına görə hərbi tribunalla hədələməsi bolşevikləri çox narahat etmişdir. Milli hökumət də öz növbəsində 43 nəfər fəal iştirakçı, tətil komitəsinin əsas rəhbərlərini həbs etməsi sabitliyin pozulması xəttindən əl çəkməyən bolşevikləri özlərini müdafiə etməyə sövq edirdi.** Sosialistlərin fikrincə elandan başa düşülmür ki, hansı işlər ingilislərin zərərinə ola bilər. Bu parlamentdə oturub danışmağımız ingilislərin zərərinədir ya yox. Sabah ingilislər desə ki, zərərdir, heç kəs yox deyə bilməz. General Millinin elannaməsində Azərbaycan milli hökumətinə və millətinə deyil, ancaq Zaqafqaziya əhalisinə müraciət olunur. İngilislər öhdəliyi əhalinin üstünə qoyurlar. Hökumətin və ictimai müəssislərin vəzifəsi nədən ibarətdir, məlum deyil və bu məsələdən üstörtülü keçilir. Ona görə bu elan əhəmiyyətsiz deyil. Bu vaxta qədər parlament və hökumət nə qədər ki, cümhuriyyət və istiqlalımızın müdafiəsinə səy etmişlər, bundan sonra daha şiddətli və ciddi surətdə mühafizə etmək məcburiyyətində olacaqdır. İngilislər daxili işlərimiz o yana qalsın, istiqlalımızı dağıtmaq istəyirlər. Sosialistlər belə hesab edir ki, hökumət belə elannamələrə əhəmiyyət verməli və tədbirlər görməlidir. Çar Rusiyası əsarətindən yenicə qurtulmuş Azərbaycan xalqı

yeni əsarətə, Avropa əsarətinə girməz. İngilislər tərəfindən istiqlalımız və hürriyyətimiz əleyhinə müşahidə olunan bu hərəkətlərə protesto (etiraz) edib, səsimizi ingilis zəhmətkeşlərinə çatdırmalıyıq. Beləliklə, müvəqqəti olsada, sosialistlər sözdə Azərbaycanın istiqlalını müdafiə edən kimi göstərirdilər.

Qanunverici orqan işçilərin sosial vəziyyətlərini yaxşılaşdırmaq məqsədi ilə, 1919-cu il mayın 12-də "Dövlət qulluqçularının əmək haqlarına müvəqqəti əlavələr haqqında" qanunu qəbul etdi. Qanunda 1919-cu il martın 1-dən başlayaraq Novruz bayramı münasibəti ilə müavinətləri nəzərə almadan, tarif dərəcələrinə 90 faizdən - 50 faizə qədər əlavələr olunurdu. Bu qanun parlament dəftərxanası qulluqçularına da şamil edilirdi. Mayın 15-dən isə "Azərbaycan Cümhuriyyəti Nazirlər Kabineti və parlament deputatlarının məvaciblərinin artırılması haqqında" qanun qəbul edilir. Qanunda parlament üzvlərinə gündəlik 200 rubl ödənilirdi. Parlament sədrinin maaşı baş nazir, parlament sədrinin birinci müavininin maaşı, nazirlərin maaşına bərabərləşdirilirdi. Baş nazir, parlament üzvləri qədər aylıq və əlavə 5 min rubl nümayəndəliyə görə, nazirlər isə, parlament üzvləri qədər aylıq və əlavə 3 min nümayəndəliyə görə alırdı. Bu qanun 1919-cu il aprelin 1-dən qüvvəyə minirdi. "Azərbaycan parlamentinin nakazı"nın (daxili nizamnamənin) 172-ci maddəsinə müvafiq olaraq parlament məbusları və hökumət əzalarının maliyyə xarakterli qanunlarının qəbulunun səs vermə proseduru, qapalı üsul olan şarlardan istifadə edilməklə müəyyən edilirdi. Buna görə də parlament sədri yuxarıda göstərilən **qanunu şarlardan istifadə etməklə səs vermə keçirdi və nəticələrini elan etdi: lehinə 40 ağ şar, əleyhinə 12 qara şar verilməklə qanun əksəriyyət ara (səs) ilə qəbul edildi.**

Qanunverici orqan 1919-cu il 15 may iclasında komissiyaların yeni üzvlərinin seçilməsi məsələsi müzakirə edərək müvafiq qərar qəbul etdi. **İclasda Azərbaycan istiqlalının birinci ildönümü münasibəti ilə şənliklərin keçirilməsi haqqında qanun təcili qəbul edildi və təntənəli tədbirlər üçün 100 min rubl ayrılması qərara alındı. Parlamentdə həmçinin bayram münasibəti ilə ümumi əfv elan edilməsi haqqında komissiya seçilməsi qərara alındı.** Eyni zamanda Azərbaycan Müəssislər Məclisinə seçkilər haqqında komissiyanın sədri M.Ə.Rəsulzadə, üzvlərdən M.Əfəndizadə, A.Əfəndizadə, İ.N.Xodjayan, M.Vəkilov, H.K.Sanıyev, S.M.Qənizadə, Y.Əhmədzadə, Ə.C.Pepinov, Rza bəy Anabəyov və A.Aşurov qanun layihəsi barədə parlamentdə fikir mübadiləsi apardılar.

Parlamentin mayın 26-da keçirilən iclasında Gürcüstan Müəssislər Məclisinə bayram təbriki göndərildi. Təbrik teleqramında Gürcüstan istiqlaliyyətinin elan edilməsinin 1 illiyi münasibəti ilə bütün Gürcüstan xalqı təbrik edilirdi.

Bayram ərəfəsində Azərbaycan parlamentariləri Dağıstanda baş verən həyəcanlı hadisələrin müzakirəsini keçirməyə məcbur olmuşdur. Könüllü Ordu Petrovski və Dərbənd şəhərlərini işğal edərək Azərbaycan sərhədlərinə qədər yaxınlaşmışdılar. Bu xəbərlər Bakıda yaşayan və belə hadisələri səbirsizliklə gözləyən bəzi adamlar tərəfindən alqışla qarşılandığı və qəzetlərdən biri könüllülərin Quba şəhərinə yürüşü etmək istədiklərini bildirmişdi. Belə provaka-siyalar (ara qarışdıranlar) əhalini həyəcana salır və narahatlıq yaradırdı. Dağıstan Azərbaycanın qapısıdır. Dağıstanı işğal edərək orada oturmuş qara qüvvələrin Qafqazın yeni cümhuriyyətlər haqqında rəy və fikirləri məlumdur. Bu vəziyyətdə parlament, Bakı əhalisi, türk demokratiyası rahat otura bilməz. Onlar əldən çıxmış köhnə iqtidarı qaytarmaq, əski səltənəti bərpa etmək istəyirlər. Parlament bu hadisələrə baş nazirin münasibətini öyrənməyi vacib hesab edirdi. **Bu məsələyə münasibət bildirən Nəsib bəy bəyan etdik ki, bizim sərhədlərimizi heç kəs keçməmişdir. Dağıstandakı nümayəndəmiz Haqverdiyev tərəfindən aldığımız məlumatda göstərilirdi ki, Petrovskini işğal etmiş könüllü ordu qüvvələri Şimali Qafqaz İttifaqı Cümhuriyyətini tanımaqdan imtina edir və Dağıstan (bolşevik) hökumətini tanımağa razı olur, onun daxili işlərinə qarışmamağa və Dağıstan bolşeviklərinə yardım edəcəyinə söz verir. Könüllü Ordu dəmir yol xəttini Yalamayadək tutduqdan sonra, Dağıstanda bütün səlahiyyətləri general Hacı Murada təhvil vermişdilər.**

Quba qəzasının rəisindən və digər mənbələrdə daxil olan məlumata görə Dağıstana 3-4 eşalon kazak gəlmişdir. "Ağ qvardiyaçı"ların bir dəstəsi Petrovskiyə, bir dəstəsi də Dərbəndə daxil olmuşlar. Dağıstan hökumətinin sədri Kostrovun imzaladığı teleqrafında yazılanlara inansaq elə bir ciddi hadisə baş verməyib. Dərbəndə çox az qüvvə cəmi 200-300 əsgər gəlib. Cənuba doğru Denikin "könüllülər ordusu"undan başqa hər hansı bir irəilləyişi məlum deyil. **"Ağ ordu", qvardiyaçılar, mühafizəkar hərbiçilər olmaqla vahid və bölünməz Rusiya uğrunda döyüşürlər. Dağlı İttifaq Respublikasının hökumət və parlamentinin özünü buraxmağa məcbur edilməsi təhlükənin nə qədər ciddi olduğunu bildirirdi. Azərbaycan Cümhuriyyəti ilə Sovet Rusiyası arasında bufer dövlət rolunu oynayan Dağlı İttihadi Cəbaluyyun hökumətinin ləğv edilməsi artıq Azərbaycan Respublikasının özünün varlığı üçün bilavasitə təhlükə idi.** Vahid Rusiya uğrunda vuruşan könüllü ordu keçmiş Rusiya imperiyası ərazisində daxil olmuş xalqların elan etdikləri müstəqilliyə münasibətləri Dağıstanda özünü göstərdi. Denikin qüvvələri Zaqafqaziya üçün böyük təhlükədir. Azərbaycanın şimal-şərqindən gələn məlumatlar, ölkənin gələcək taleyi məsələsində təşviş yaradırdı. Baş nazir ingilis komandanlığına həm yazılı və həm də şifahi etiraz etdiyini bildirərək, bütün zəruri tədbirlərin

görüldüyünü parlament üzvlərinə çatdırdı. İngiltərə hökuməti həmişə bizi arxayın etmişdilər ki, Ağ qvardiyaçılar sərhədi keçməyəcəklər. Bolşeviklər bəyan edirdilər ki, Sovet Rusiyasına münasibətdə ingilislərin Denikini müdafiə etməyə loyal olmalarına baxmayaraq, onlar heç də Bakının ağ qvardiyaçılar tərəfindən tutulmasına heç bir halda razı ola bilməzdilər.

Azərbaycan parlamentində belə hesab edirdilər ki, əgər Petrovskidə könüllü ordu əsgərləri yerləşibsə və əgər Dağıstan sərhədini az bir qüvvə keçmişdirsə, bu yalnız yaza kimi orada qalmaq demək deyildir və onları hər zaman Azərbaycan sərhədlərində gözləmək olar. Ancaq ingilis komandanlığı Denikinçilərin yaza qədər orda qalacağını bildirirdilər. **Azərbaycan xarici işlər nazirliyi müttəfiq qoşunların komandanlığına Denikin ordusunun hissələrinin Dağıstandan çıxarmaq üçün hər cür qəti və təxirəsalınmaz tədbirlər görülməsini tələb edirdi. 1919-cu il yanvarında general Tomson Qafqaz dağları boyunca və Dağıstanın şimal hissəsindən keçən demarkasiya xəttini müəyyənləşdirmişdir. İngiltərə komandanlığı Rusiya qüvvələrinə qarşı ehtiyatlı davranmaqla yanaşı onların tərksilah edilməsini də icra edirdi. Bakı yaxınlığında yerləşmiş "Rus Xəzər donanması" adlandırılan hərbi birliyin tərksilah edilməsi haqqında komandanlıq adından əmr vermiş və donanmanın generalı Prejevalski təcili olaraq Azərbaycan ərazisini tərk etmişdir. Polkovnik Biçeraxov təltif olunmaq bəhanəsi ilə İngiltərəyə göndərilmiş, dəstəsinin isə tərksilah edilməsinə başlanılmışdır.**

Baş nazir N.Usubbəyli general Şatelvortla görüşdüyünü və ingilis hərbi qüvvələrinin mövqeylərinin dəyişmədiyini bildirdi. Denikin "Könüllü ordu"sunun ingilis qərargahı yanındakı nümayəndəsi general Lazaryev də Azərbaycan hökumətini əmin etdi ki, Denikin ordusu Azərbaycana münasibətdə heç bir təcavüzə əl atmaq fikrində deyil və onun müstəqilliyini mümkün hesab edir və tanıyır. **Gözlənilən təhlükə barədə məlumat alan AXC-nin hərbi naziri S.Mehmandarov belə bir fikir söyləmişdir ki, mənim gücümü Denikin bilir və o Azərbaycana hücum etməyə cürət etməz. Bununla belə, parlament hökumət başçısı tərəfindən görülən bütün tədbirləri dəstəklədi və bildirdi ki, nə qədər ki, Könüllü Ordu Dağıstandandır, onu biz özümüzə təhlükə hesab edib təxirə salınmaz tədbirlər görülməsini zəruri hesab edəcəyik.**

Parlamentin sosialist fraksiyası, qırmızı qvardiyaçılardan fərqli olaraq, ağ qvardiyaçılara münasibəti həm sinfi nöqteyi-nəzərdən, həm də Azərbaycan müstəqilliyinin təhlükəsi baxımından təbii ki, mənfi olmuşdur. Rusiya bolşevikləri xarici təcavüzlə yanaşı, daxili təcavüz hesab etdikləri Ağ qvardiyaçılarla bütün ölkə ərazisində müharibə aparırdılar. Azərbaycan sosialistləri istiqlaliyyət tərəfdarı

olduqlarını və istiqlaliyyəti müdafiə edəcəklərini bildirirdilər. Onlar fraksiyalara təklif edirdilər ki, Denikin orduları əleyhinə birlikdə qiyam etmək, aramızda olan ixtilaf və münaqişəni bir kənara qoymaq, xaricdən gələn qüvvələrə qarşı isə birlikdə olmalıyıq. Lakin sosialist fraksiyası onu da bildirməyi vacib hesab edir ki, bizim hökumət bu vaxta qədər bu məsələləri düşünməli idi. Bir qədər əvvəl Denikin orduları Dağıstana hücum edən də biz sosialistlər, fraksiyalara könüllü dəstə düzəldib köməyə getməyi təklif etdik. Buna cavab verən olmadı və bizə üstüörtülü dedilər ki, onları, yəni bolşevikləri qüvvətləndirmək, silahlandırmaq olmaz. Bizim istiqlaliyyətimiz Dağıstanın istiqlaliyyəti ilə bağlıdır. Sosialistlər belə hesab edirlər ki, burada Azərbaycan idarələri Denikin casusları ilə doludur. Biz tələb edirik ki, bu adamları hökumət tutsun (həbs edib, deportasiya etsin) və onlar Azərbaycandan çıxarılsınlar. Əvəzində bizə cavab verdilər ki, bu bolşeviklər tərəfindən buraxılan fikirlərdir. **Hökumətimiz bolşevik təhdidini, Denikin qorxusundan daha təhlükəli bilir. İndi hökumət deyir ki, Denikin bizim müstəqilliyimizi tanıyır, əvvəllər isə deyirdilər ki, istiqlaliyyətimiz Paris silah konfransında tanınacaq.** Bolşeviklər hesab edirlər ki, Zaqafqaziyanı işğal edəcək məzmunlu elannamələr yapışdırılanda heç kəs buna etiraz etmədi ki, bu elanlar yapışdırılmasın. Bizdən fərqli olaraq Tiflisdə elannamə (proklamasiya) yapışdırmaq istəyəndə ciddi surətdə etiraz olundu, qoymadılar. Sosialist fraksiyası deyir ki, hər millət ki, hüququna təcavüz olduqda etiraz edir və özünü müdafiə üçün qanını verir, o millət yaşayır. Bizi burada toqquşdurub, aramıza ixtilaf salıb-onlar bir-birləri ilə yaşaya bilməzlər deyə Avropaya səs salmışlar. **Bizim firqəyə hökumət izn verməlidir ki, könüllü dəstə düzəltsin. Biz sosialistlər öz qüvvəmizlə Azərbaycan istiqlaliyyəti, hürriyyəti və səadəti uğrunda Denikinlə mübarizə üçün ön cərgədə olacayıq.**

Parlamentin ən böyük fraksiyası "Müsavat" belə hesab edirdi ki, xarici təhlükə qarşısında firqələr arasında ixtilaf olmamalı və hamımız istiqlal yolunda bir nəfər kimi birləşib onu müdafiə etməliyik. Lakin elə qüvvələr də vardır ki, bu gün Denikin tərəfdarı, sabah isə bolşevik olacaqlarına necə bizə təminat verəcəklər. Vaxtilə onlar ingilisləri dost hesab etmişdilər. Bu gün Denikinə qarşı və ingilis qüvvələrinə qarşı mübarizə edənlərin qabağına düşmüşdülər. Həmin qüvvələr bu gün Denikinə müharibə elan edirlər. Bolşeviklər Azərbaycan idarələrində düşmənlərin olduğunu söyləyirlər. Biz isə ona şahid olduq ki, Denikin Dağıstanla mübarizə etdiyi zamanda, Dağıstan dəmir yolçuları tətil etdilər və buna iqtisadi tətil adı verdilər. Əslində isə Denikinə kömək etmiş oldular. Bu gün Azərbaycanda Denikinin tərəfdarı tutularsa, bir nəfər tapılmaz ki, onun azad edilməsi üçün vəsatət qaldırsın. Lakin bolşeviklərdən biri tutularsa, onlar üçün çox vəsatət edən tapılır.

Azərbaycan parlamenti hökumət tərəfindən görülən bütün tədbirləri müzakirə edərək, yekun qərar hazırlamaq üçün "müsavat" fraksiyasından və sosialistlər bloku tərəfindən daxil olmuş təklifləri elan etdi. "Müsavat" fraksiyası hökumətin gördüyü tədbirləri nəzərə alaraq parlamentə aşağıdakı qərarın qəbul edilməsini təklif edir-Dağıstanda yerləşən Denikin ordusunda gözlənilən təhlükə barəsində verilən suala qarşı Baş nazirin bəyanatnı müzakirə və gördüyü tədbirləri təqdir edərək Məclisi-Məbusan məmləkətin istiqlal və ərazi bütövlüyünün müdafiəsinə yönəlmiş hər cür tədbirlərə tərəfdardır. Sosialist fraksiyasının isə təklif etdiyi qərar layihəsində deyilirdi ki, böyük Rusiya inqilabı nəticəsi olaraq məhkum millətlər əsarətdən azad olub öz müqəddaratlarını aldılar. Onların sırasında Azərbaycan xalqı öz istiqlaliyyətini elan edib və bir ildir ki, müstəqil surətdə özünü idarə etməkdədir. Lakin, həm Rusiya zəhmətkeşlərinin əsarətdən qurtarılmasına sənəd olan və ən ziyadə məhkum millətlər və azadlığını qoruya bilməyən (Sovet) Rusiyası, əks inqilab və onun nəticələrini aradan qaldırmağa çalışdı. Eyni zamanda xalq içərisində özünə dayaq tapa bilməyən həmin əksinqilab güruhu öz gücünü xaricdən, müttəfiq hökumətlərdən almağa başlamışdı. Onlar topladığı gücündən istifadə edərək öz istiqlaliyyətlərini elan etmiş Zaqafqaziya Cümhuriyyətlərininin üstünə hücum etmək niyyətinə düşmüşdülər. İngiltərə komandanlığı Zaqafqaziya Cümhuriyyətlərinə Könüllü Ordu tərəfindən bir təhlükə olmadığını dəfələrlə deyib təskinlik vermişlər. Lakin əks inqilabçı könüllü ordu bütün vədlərə baxmayaraq Cəbaliyyun (Dağlı İttifaq Respublikası) hökumətinə hücum edib, xalqın əksinə olaraq Dağıstan torpağını işğal etmiş və bizim sərhədlərimizi təhdid etməkdədir. Könüllü Ordunun Azərbaycan hüdudlarında dayanması, Azərbaycan xalqına qəsd, inqilabın səmərələrini məhv edəcəyindən, bizim Cümhuriyyətimiz üçün böyük bir təhlükə kəsb etdiyindən Azərbaycan Məclisi-Məbusan bəyan edir ki, Azərbaycan xalqının elan etdiyi və bir ildir ki, müdafiə etdiyi istiqlaliyyəti, bütün xalq bir nəfər kimi əldə silah olaraq əks inqilabçı Könüllü Ordu tərəfindən gözlənilən təhlükəni qəti və şiddətli müdafiə edəcəyini elan edir və biz sosialist fraksiyası, könüllü dəstələr düzəltmək üçün ciddi yardım göstərilməsi təklifini irəli sürür. Parlament sədri "Müsavat" fraksiyasının hazırladığı qərar layihəsini səsə qoyaraq onu əksəriyyət üstünlüklə təsdiq etdi. Beləliklə, bolşeviklərin silahlı dəstələr yaratmaq planı boşa çıxdı.

Gərgin keçən parlament müzakirəsindən iki, sonra, 1919-cu il mayın 28-də Məclisi-Məbusanın **42-ci fövqəladə təntənəli iclası** keçirildi. Təntənəli iclas Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının bir ilinə həsr edilmişdir. Parlament sədri əvəzi H.Ağayev iclası açaraq giriş nitqində bildirdi ki, 1918-ci il mayın 28-də Tiflisin "Oriyant" müsafirxanasında, istiqlaliyyət elan etmiş Milli Şura Azərbaycan xalqı üçün səadətə yol açdı. Azərbaycan istiqlaliyyətinin bir illik

tarixinə nəzər yetirsək görərik ki, həqiqətən Milli Şuranın bu addımının nə qədər vaxtında olduğunu, Azərbaycan xalqının bundan necə iftixar duyduğunu görmək mümkündür.

Azərbaycan Cümhuriyyətinin bir ildə təşkil etdiyi dövlət təsisatları, hökumət idarələri, parlamenti, hökuməti xalqın müstəqil yaşamaq və fəaliyyət göstərmək hüququnu təsdiq etdi. Həsən bəy Ağayev bildirdi ki, bizə daxildən və xaricdən quyu qazanlar olmasaydı bu bir il ərzində daha böyük işlər görmək olardı. Azərbaycanın ətrafında hərc-mərclik və inqilabi özbaşnalıqlar baş verir, lakin Azərbaycan öz yolunda tərəqqi etməkdədir. Əgər əngəllər yaradılmasaydı Azərbaycan Cümhuriyyəti daha çox uğurlar qazanardı. Azərbaycan xalqı qazandığı istiqlaliyyətini ucuz tutmayacaq. Azərbaycan parlamenti yarandığı gündən bu hadisələrin, xalqın fədakarlıq və sabit göstərməsinin, öz aralarında olan ixtilafların bir kənara qoyub bir nəfər kimi düşmən qarşısına çıxmağa hazır olduğunu göstərmişdir. Belə qəhrəmanları olan məmləkət və millət heç bir təhdiddən qorxmamalıdır. Bu bir ildə bizim gənclərimiz və əsgərlərimiz düşmən qarşısına çıxmaqla sübut edirlər ki, onlar vətənin istiqlaliyyətini heç kimə verməyəcəklər. Azərbaycan parlamenti demokratik əsaslarla qurularaq, məmləkətdə yaşayan rus, erməni, gürcü, yəhudi və qeyri-millətlərin qanunverici orqanına çevrilmişdir. Azərbaycan parlamenti və yaxın gələcəkdə Ümumazərbaycan Müəssislər Məclisi bu işlərdə daha fəal surətdə çalışacaqdır. Azərbaycan xalqı bu bir ildə az şəhid verməmişdir. **Həsən bəy Ağayev parlament üzvlərinə ölkəmizin rifahı, nicatı üçün canlarını fəda etmiş şəhidlərin xatirəsinə abidə qoyulması və hər bir deputatın həmin abidə fonduna bir günlük maaşlarının keçirməsini təklif edir. Bakının, paytaxtımızın gözəl bir yerində qoyulacaq abidə həmişə bizim nəsillər üçün bir xatirə, bir anma yeri, istiqlaliyyət fikri, istiqlaliyyət duyğusu, iftixar yeri olacaqdır.**

Azərbaycan parlamenti, Qafqaz Cümhuriyyətlərinə, öz qonşularına münasibətdə həmişə ədalət, bərabərlik, bütün yaranmış mübahisələri sülh və danışıqlarla həll etməyə çağırmişdir. Bu gün Ermənistan Cümhuriyyətində də bir illik müstəqillik bayramıdır. Azərbaycan parlamenti bu xüsusda Ermənistan Cümhuriyyətinə təbrik teleqrammı ünvanlamışdı. Bu gün bayram münasibəti ilə Azərbaycan parlamentinə Gəncə hərbi məktəbi, Gürcüstandakı Tiflis Müsəlman Şurası, Kazan şəhərindən də təbriklər gəlmişdir.

Azərbaycan Cümhuriyyətinin bir illiyi münasibəti ilə baş nazir Nəsib bəy Usubbəyli Azərbaycan vətəndaşlarına müraciət etmişdir. Müraciətdə bu bayramın həmişə Ümumazərbaycan vətəndaşları üçün möhtərəm və müqəddəs qalacağı bildirilirdi. Milli dövlətimiz bir ildən artıqdır ki, bir milli bayraq altında azad və

müstəqil yaşayır. Rusiya çarizmi dövründə xalqımızın ən ağır tarixi keçmiş, onun həyatı, mədəniyyəti və müqəddəs işləri ayaqlar altına atılaraq məhv olmaqla qarşılaşmışdır. Biz çar Rusiyasında hər bir hüquqdan və mədəni tərəqqidən və ən adi siyasətdən belə məhrum olmuşduq. Bizim arzularımız qəti surətdə əzilir və ayaqlar altına alınırdı. Bizim gözümüzün qarşısında bolşevik hərc-mərcliyi, onun mənhus dövrü keçmiş, evlərimiz talan və qarət edilmiş, uşaqlar və qadınlarımız böyük fəlakət və müsibətlərə düşmüşdülər. Xalqımız mətanətli, əzimli qətiyyət nümayiş etdirərək, istiqlalını düşünərək yaşayır və əbədi müstəqil və azad yaşamaq yolu seçib və onu davam etdirir. **Bu bir il ərzində biz yorulmadan işlədik və işimizlə dövlətimizi möhkəmləndirdik, cəmiyyətin aşağı sinfinə milli dövlət yaratmaq hissini aşıladıq və göstərdik ki, xalq və millət deputatlarının getdikləri doğru yol, xalqın azad fikir və məslək yoludur. Bu az vaxt ərzində Azərbaycan türkləri özlərinin azad və müstəqil yaşamağa layiq olduqlarını göstərməklə, dövlət təşkilində istedad və qabiliyyətlərini sübut etdilər. Dövlətin fəaliyyəti bütün sahələrdə davam edib əvvəlki hökumətin nəzərdə tutduğu işləri təxirə salmayıb. İndi Azərbaycan Müəssislər Məclisi seçkiləri ərəfəsindədir.Ümumazərbaycan Təsis Məclisində xalqı öz fikir və rəyini aşkar edəcəkdir. İstiqlaliyyəti müdafiə etmək və mühafizə etmək ümumazərbaycan xalqının müqəddəs vəzifəsidir. Çünki təhlükə və təhdid hələ dəf olunmayıb. Azərbaycan vətəndaşları Mayın 28-ni böyük və ümumi bir bayram hesab edir, hər kəs özünü bərabər hüquqlu Azərbaycan vətəndaşı hesab etməlidir. Azərbaycan xalqının birlik və ittifaqına inanaraq və buna ümid edərək fəxrlə dövlətimizin ikinci ilinə qədəm qoyuruq. Beləliklə, Azərbaycan Xalq Cümhuriyyəti müstəqilliyinin ikinci ilinə ölkə ətrafında baş verən çox mürəkkəb vəziyyət şəraitində daxil olurdu.**

Azərbaycan Məclisi-Məbusanın 1919-cu ilin yay aylarında keçirilən sessiyalarında "Müəssislər Məclisinə seçkilər haqqında", "Azərbaycan təbəəliyi haqqında", "Bakı Darülfunun təşkili haqqında" və s. qanun layihələri parlament müzakirələrinə təqdim edilmişdir. İqtisadiyyat və səhiyyə sahəsində partikulyar qanunlar verilmiş, sosial-iqtisadi və təsərrüfat fəaliyyətinin inkişafına kömək edəcək qanunlar təsdiq edilmişdir. Parlament aqrar sahədə də islahatlara yol açacaq qanun layihələrini diqqətdə saxlamışdır. Torpaq islahatı haqqında qanun layihəsinin hazırlanması ilə əlaqədar olaraq 1919-cu ilin fevralın 4-də hümmətçi S.Ağamalıoğlunun sədrlik etdiyi müxtəlif siyasi fraksiyaların nümayəndələrindən ibarət parlament aqrar komissiyası yaradılmışdır. Parlament komissiyasının 23 aprel iclasında aqrar komissiya mülkiyyət formalarını müzakirə etməyə cəhd göstərərək, Cümhuriyyətin siyasi quruluşunun müəyyən etdiyi mülkiyyət formalarını mülkədar, xüsusi sahibkar və digər formalarının ləğv edilməsi

məsələsini qaldırmışdılar. Lakin, bolşeviklər öz təxribatçı planlarını inkişaf etdirə bilməmişdilər.

Məclisi-Məhbusan Denikin təhlükəsinin davam etməsini nəzərə alaraq hökumətin gördüyü tədbirləri müzakirə etməsini zəruri hesab etdirdi. 1919-cu il iyunun 5-də keçirilən iclasda parlament hökümdən dövlət maraqlarının müdafiəsi üçün daha əməli və qəti tədbirlər görməyə çağırdı. Nazirlər Kabinetinin sədri N.Usubbəyli müttəfiq qoşunlarının yeni komandanı general Q.Kori ilə görüşləri barədə məlumat verdi. Bu görüşdə general Kori bildirdi ki, Azərbaycan hüdudlarını heç kəs keçə bilməz və keçənlər dərhal həbs ediləcəklər. Lakin, təcrübədən bilirik ki, onlar bəzən söylədiklərinin üstündə dura bilmirlər. Denikinin və müttəfiq komandanlığın Azərbaycana təminat vermələrinə baxmayaraq, onlar **Azərbaycanla yeni demarkasiya xətti Zaqatala - Qızılburun (Siyəzən rayonu-R.Ə) xətti haqqında danışmağa başladılar.** İngilislər bizə dedilər ki, Dağıstan təhlükədə deyildir. Ağ ordu Petrovskinin ancaq baza olaraq tutacaq və bizə tərəf keçməyəcəklər. Bütün bu vədlər bizim Dağıstana kömək etməməyimizə gətirib çıxardı ki, nəticədə Dağıstan köməksiz qaldı. Dağıstanın məğlub olması sərhədlərimizi təhdid altında saxlayır.

N.Usubbəylinin məlumatı ətrafında fraksiyalar çıxış edərək öz mövqeylərini bildirdilər. Sosialist fraksiyasından Ə.Pepinov bu günləri Azərbaycan Cümhuriyyətinin çətin günləri olduğunu bildirməklə, onun əsasının bir neçə ay əvvəl qoyulduğunu qeyd etdi. Rusiya inqilabı nəticəsində istibdad zülmündən qurtaran zəhmətkeşlər, çarizm zülmündən xilas olan millətlər öz hüquqlarını bərpa etdikdən sonra, müstəbid qüvvələr ümidlərini kəsməyib, keçmiş mövqeylərini qaytarmaq istəyirlər. Könüllü Ordu gah Sibirdə, gah Kubanda, gah da Donda birləşərək xırda millətləri tabe edirlər. "Ağ qvardiyaçılar" ən əvvəl Rusiya demokratiyası ilə çarpışıb ölkənin bir neçə yerində hakimiyyətlərini qura bilmişdilər. Sosialistlər belə hesab edirlər ki, Rusiya demokratiyasının qüvvələri o qədər böyükdür ki, devrilmiş generallar bir də o qüvvəyə qarşı dura bilməzlər. Lakin biz görürük ki, onların köməyinə Avropa imperialistləri, Avropalı yoldaşları qoşulub onlara silah, sursat və digər yardımlar edirlər. Rusiyadan qurtulmuş millətlər bütün dünya xalqlarına nümunə olacaqdır. Hər yerdə məhkum millətlər zülmdən qurtulmaq istəyəcəklər. Hal-hazırda dünya imperializmi, rus generalları vasitəsilə məhkumluqdan xilas olmuş xalqları yenidən əsarətə almaq və Rusiya istibdadını qurmağa çalışırlar. Bir neçə gün öncə biz əsarətə alınmış Azərbaycan xalqının hürriyyət və istiqlalının birinci ildönümünü bayram etdik. **Bu münasibətlə keçirilmiş təntənəli nümayişlər, izdiham, daxil olmuş təbrik teleqramları göstərdi ki, azadlıq duyğusu qəlblərə hökm etmişdir, bu insanlar**

**daha əxz (kimlərdən nəyisə mənimsəyərək, yaşamaq-R.Ə.) olmaq istəmirlər, hürriyyətdə yaşamaq istəyirlər.** Lakin o qara qüvvələr, niyyətlərindən əl çəkmir, güclənib yenidən azadlığı boğmaq istəyirlər. Birinci dəfə Gürcüstana hücum edib, gürcü xalqının qəti müqaviməti nəticəsində geri döndülər. Onlar zəif yer axtarıb və Dağıstana girdilər. Hadisələr göstərdilər ki, Dağıstanı seçməkdə onlar haqlı imişlər, çünki Dağıstan hakimiyyəti, ona rəhbərlik edən hökumət zəif olduğundan müqavimət göstərmədilər. Sosialist fraksiyası belə hesab edir ki, onlar bu gün bizim qapımızı döyüb, bizim üstümüzə gəlirlər. Bu gün müharibə Dağıstanda gedirsə, sabah Azərbaycanda gedəcəkdir. **İngiltərə komandanlığının sözlərinə inansaq, Müsəlləh (könüllü) Ordu Petrovskidən bu yana keçməyəcəklər.** Parlament fraksiyası, hökumətin gördüyü tədbirləri qətiyyətli addımlar hesab etməyərək, ağ ordunu müdafiə edən ingilislərin fəaliyyətini düzgün qiymətləndirilmədiyini parlamentdə bəyan etdi. İngiltərə hökuməti Denikinə güzəştə getmək hesabına vəziyyəti nizamlamağa çalışması da bir nəticə vermir və təhlükəni sovuşdurmurdu. 1919-cu il iyunun 11-də ingilis komandanlığı Petroviskidən cənubda yeni demorkasiya xətti ilə müəyyənləşdirilən sərhədləri təyin edilməsi isə, faktiki olaraq Dağıstanın işğal olunması ilə barışmaq demək idi.

Azərbaycan Cümhuriyyətinin bir illik bayram tədbirləri, orada oxunan teleqramlar göstərdi ki, millət gərək özünə güvənsin. Biz azad yaşamaq istəyirik. Avropada demokratiya xalqa məxsus (çünki, burjuaziya idarə edir) olmadığına görə, oradan heç nə gözləmirik. **Biz haqqımızı müdafiə etmək üçün düşmənə müqavimət göstərməliyik. Ola bilər ki, məğlub olarıq. Ancaq gələcək nəsillər fədakarlığımızı, əfkarımızı, məğrurluğumuzu, tariximizi fəxrlə yad edəcəkdir. Necə ki, Xanlıqlar dövründə Cavad xanın öz istiqlaliyyətinin müdafiəsi uğrunda göstərdiyi rəşadət və fədakarlığı tarix heç bir zaman unutmayacaqdır. Baş nazirin parlamentdə elan etdiyi teleqramların hamısını dərc etmək lazımdır ki, xalq bu teleqramları oxuyub nəticə çıxarsın. Bu gün biz üzümüzü Avropa demokratiyasına tutub ondan yardım istəsək, o zaman Avropa bizə deyər ki, sizin millət vətən və istiqlaliyyət uğrunda nə etdi, təhlükə qarşısında nə işlər gördü. Əgər bu təhlükə daxil olan kimi təslim olsaq, onda deyəcəklər ki, bu istiqlaliyyəti bir qrup adam istəyirdi və bu bütün millətin arzusu deyil. Ona görə də bütün xalq mübarizəyə qalxmalı, gürcü xalqı ilə bərabər gedərək, müqavimət göstərib, bütün dünya demokratiyasının rəğbətini qazanmalıyıq. Çünki haqq bizimdir. Azərbaycan hürriyyəti bu imtahandan çıxsa, onda bütün dünya haqqımızı tanımağa məcbur olacaqdır.**

Parlament çoxluğu, müzakirə olunan məsələyə münasibət bildirərək Denikin

ordusunun Batumda olan nümayəndəsinin nəşr etdirdiyi qəzetdən nümunə gətirərək parlamentarilərə müraciət etdilər. Onların qəzeti yazır ki, Tiflisdən gələnlərin dediyinə görə Denikin ordusu Bakını almış və rus bayrağını parlament üzərinə sancmışdır. Denikin ordusunun hücumu ərəfəsində bəzi müəssələrdə müqavimət göstərilməyə təşəbbüs göstərilmiş, lakin müsəlman əhalisi müqavimət etmək istəməmişdir. Hökumət bitərəf qalmış, müqavimət göstərmək istəyən təşkilatlara (partiyalara) yerli əhali mane olmuş, nəticədə ixtişaşdan istifadə edərək şəhərə daxil olmuş Denikin ordusu Rus bayrağını qaldırmışdır.

Qəzetlərdə nəşr olunan məsələyə münasibət bildirən **"Müsavat" fraksiya belə hesab edir ki, keçmiş Rusiya generalları yuxuda yatanda da rahat ola bilmirlər. Çünki, necə ola bilər ki, onlar general kimi qulluq edəndə, əllərinin altında əsgər, ordu olsun, ancaq çəkmələrinin altından öpən bir millət olmasın. Onlar fikirləşirlər ki, çəkmələrinin altından öpməyə hazır olan bir millət tapacaqlar. Lakin onlar bilsinlər ki, Azərbaycanda çəkmə altından öpən bir vətəndaş qalmayıb. M.Ə.Rəsulzadə mayın 28-də heç bir təhrik, təşviqat olmadan, Bakı tarixində misli görünməmiş istiqlaliyyət bayramının küçələrdə bayram edilməsi, hətta bayırda az görünən çarşablı qadınların da bu bayramı sevinc ilə qarşılamaları onu göstərir ki, bu milləti asanlıqla təhdid etmək olmaz. Mən inanmıram ki, 28 may nümayişi həqiqi və səmimi bir nümayiş idi. M.Ə.Rəsulzadənin sözlərinə görə bu gün parlament, hökumətə səlahiyyətlər verib, ümumi səfərbərlik elan etməli, sərt qanunlarla, düşmən əleyhinə müharibəyə hazırlığa başlamalıdır. Xəzinəyə hesabat vermək şərti ilə bu işlərə lazım olduğu qədər pul buraxılmalıdır. Çünki bu gün Dərbənddə oturan və bizim istiqlaliyyətimizi gündə bir məna ilə teleqramlar göndərib təhdid edən qüvvələr Azərbaycan varlığına tuşlanmış bir tapancadırlar.** "Müsavat" Azərbaycan parlamentini, öz müqəddəratını müəyyən etmiş xalqları müdafiə etmək üçün dünya xalqları və parlaimentlərinə müraciət edərək, Denikin təcavüzünə qarşı öz etirazlarını bildirməyə çağırdı. Fraksiyaların təklifi ilə parlament komitəsində dağıstanlılara, silahlı könüllülər göndərilməsi, pul vəsaiti də daxil olmaqla hər cür yardım edilməsi nəzərdə tutulurdu. Parlament müzakirələrindən sonra, ingilis hərbi komandanlığının mövqeyi böyük və artan narazılığa səbəb oldu. 1919-cu il iyunun 8-də Bakı şəhərinin Balaxanı, Zabrat, Ramanı sənaye rayonlarında fəhlələrin böyük mitinqi oldu və onlar hökumətdən Azərbaycanın və Bakının müdafiə olunması üzrə təcili tədbirlər görülməsini tələb etdilər. **Tələblər təkcə Denikin təhlükəsi ilə deyil, ingilis hərbi komandanlığının ikiüzlü siyasətinə qarşı çevrilmişdir.** Beləliklə, Cümhuriyyət bir yaşını artan təhlükələr qarşılamaqla keçirdi.

Azərbaycan parlamenti və hökuməti torpaq islahatlarına xüsusi diqqət verir, Məclis tərəfindən qaldırılan məsələləri həyata keçirmək üçün islahatların sürətləndirilməsinə çalışırdı. Hələ 1918-ci il iyunun 22-də Azərbaycan hökuməti Zaqafqaziya Seyminin torpaq islahatları haqqında qəbul etdiyi qanunun icra olunmasını dayandırmışdı. Qərara görə, Ümumazərbaycan Müəssislər Məclisi çağırılana qədər torpaq islahatları keçirilməsi təxirə salınırdı. Qərar verilənə qədər tutulmuş torpaqlar müvafiq strukturlara qaytarılırdı. Əkinçilik naziri X.Sultanova, Müəssislər Məclisinin müzakirəsinə çıxarılacaq aqrar məsələlərlə bağlı materialları toplamaq, torpaq komitələrinin yenidən qurulması və ya ləğv edilməsi təkliflərini hazırlamaq tapşırılmışdı. Aqrar islahatları həyata keçirəcək qurum kimi, 1919-cu il fevralın 24-də Əkinçilik Nazirliyində aqrar islahatlar və su təsərrüfatı üzrə şöbəsinin yaradılması barədə hökumət qərar qəbul etdi. Müvafiq olaraq, aqrar islahat şöbəsi müdiri və su təsərrüfatı müfəttişi müavini vəzifələri yaradıldı. 1919-cu il iyunun 6-da hökumət aqrar islahatları sürətləndirmək məqsədilə Əkinçilik Nazirliyinə hərtərəfli yardım göstərilməsi barədə daha bir qərar verdi. Əkinçilik Nazirliyinə iyunun sonlarına qədər aqrar islahatlar layihəsini Nazirlər Kabinetinin müzakirəsinə çıxarmaq tapşırığı verildi.

Azərbaycan Məclisi-Məbusanın iş fəaliyyəti praktikası çoxaldıqca, parlament demokratiyası möhkəmlənir və inkişaf edirdi. Qanunverici orqan parlament qarşısında məsuliyyət daşıyan və ona hesab verən hökumət institutu ənənəsi təcrübəsini artırırdı. Azərbaycan parlamentində hökumət üzvlərin istefası ilə bağlı baş nazirə ünvanlanmış sorğunun demokratik əsaslarla müzakirəyə çıxarılması, həmçinin parlamentin 1919-cu ilin iyununda “İttihad” fraksiyasının sədri Q.Qarabəylinin sorğusuna parlamentdən rəsmi cavab verilməsi, müstəqil hakimiyyət qolları arasında səlahiyyətlərin həddlərini və qarşılıqlı tarazlığın dəqiq meyarlarının müəyyən edilməsi baxımından spesifik presedent müəyyən edirdi. Belə ki, Q.Qarabəyli parlamentə göndərdiyi sorğuda, maarifə böyük ehtiyacı olan millətin bu yolda tərəqqi etməsinə böyük xidmət etmiş Həmid Şahtaxtinski və onun müavinləri A.Əmirov və F.Rzayev cənablarının millətə xidmət etməsindən çəkilmələri və ya çəkilməyə məcbur edilmələrinin səbəblərinin aydınlaşdırılmasını tələb edirdi. İkinci sorğu isə Naxçıvanda aclıqdan əziyyət çəkən xalqa göndərilən 900 min rublın hansı məqsədlər üçün israf edilməsi ilə bağlı olmuşdur. Sorğuda göstərilirdi ki, dövlətimizə qarşı cinayətlər etmiş Rəşid İsmayılbəyov 10 min rubl girov qoymaqla Tiflis məhkəməsi tərəfindən sərbəst buraxılıb və etdiyi əməllərin əvəzində hələ də ədalət mühakiməsinə cəlb edilməyib. “İttihad” fraksiyasında Q.Qarabəyli sorğu göndərmələrini hansı məqsəd üçün etdiklərinə aydınlıq gətirərək, belə hesab edir ki, bizim hökumətin işlərinə müdaxilə etməyimiz yersizdir. Lakin ümumi işlərimizin mənafeyi üçün bunun təsiri böyükdür.

Şahtaxtinskini tanıyanlar onun maarif işində böyük təcrübəsi olduğunu və bu mənada işdən kənar olmasını təşvişlə qəbul edirlər. İkinci sorğuya gəldikdə isə onu deyə bilərəm ki, bu adamın keçmişdə bir çox qanunsuz işlər gördüyü, İranda və rus qulluğunda olan zaman nə qədər xəyanətlər etdiyi məlumdur. Belə olan halda bu adam nazirlikdən vəsait götürmüş və buradan aparılan pulları İrəvan camaatına çatdırmaq əvəzinə onu mənimsəmişdir. Belə bir adam məhkəməyə qədər azad edilərək sərbəst gəzir. Xalqa böyük zərər vurmuş bir şəxsin asudə buraxılmasını fraksiya məqbul hesab etmir.

Baş nazir N.Usubbəyli sorğunu cavablandıraraq parlamentarilərə bildirdi ki, başqa vaxt olsaydı mənim cavabım bu olardı ki, məmuru çıxarmaq mənim öz vəzifəmdir, lakin **Azərbaycan Cümhuriyyətində demokratik dövlət qurulduğundan biz hər bir sorğuya cavab verməyə borcluyuq. Məsələnin digər tərəfi isə bundan ibarətdir ki, Məclisi-Məbusan məmur çıxarılmasına o vaxt müdaxilə etməlidir ki, məsələnin siyasi məqsəd daşımış olsun. Baş nazir bildirdi ki, Azərbaycan Cümhuriyyətinin Nazirlər Kabinetində 11 nəfər nazir postu vardır. Əslində kiçik dövlətlər üçün bu çox böyük rəqəmdir. Qonşu Cümhuriyyətlər hamısı nazirliklərini azaldıblar. Ola bilsin ki, biz də gələcəkdə azaltdıq. Gürcülər bir neçə nazirliyi birləşdiriblər. Bizdə də bu barədə işlər gedir. Bilirsiniz ki, keçmiş hökumətdə mən maarif və dini etiqad işləri naziri olmuşdu.** Yeni hökumətdə mən maarif naziri vəzifəsində qalmadım və oraya Həmid bəyi təyin etdik. Mənim Həmid bəylə çox xüsusi münasibətim olub. Hətta maarif naziri müavinliyinə onu dəvət edən də hər tərəfdən etirazlar var idi. Yeddi ay bir yerdə çalışdıq. **Əgər hər hansı bir iş olsaydı mən onu müavin olan zamanda çıxardardım. Həmid bəyə tək maarif işləri yox həm də mətbəə, kağız işləri, dini etiqad məzhəb işləri tapşırılmışdı. O mənə dedi ki, bu işlər onun üçün çətindir. Mənim isə cavabım bu oldu ki, hələlik bu işlər sizin nazirliyin öhdəsindədir və təqdimat yazıb verərsən hökumətdə müzakirə edib baxarıq. Həmid bəy isə işləri başlı-başına buraxıb getmişdir. Mənim həm baş nazir və həm də daxili işlər naziri kimi işlərim çox olurdu. Xüsusilə də fəhlə tətili zamanı çox işləyirdik. Mənim tövsiyyələrimə baxmayaraq Həmid bəy telefonda nazirə, dövlət qulluqçusuna yaraşmayan bir sözlə dedi ki, heç mənim xətrim bunu istəmir. Mən bu vəzifənin bir dövlət işi olduğunu və istefa verilərkən baş nazirə məruzə edilməsinə ehtiyac olduğunu Həmid bəyə bildirdim. Bunun əvəzinə Şahtaxtinski rəsmi istefa verdi.**

Bizim gənc Cümhuriyyətimizin çox yaxşı ənənəsi formalaşıb ki, **istefa verən hökumət və ya onun hər hansı bir naziri yenisi təyin edilməyincə işini davam etdirir. Şahtaxtiski nəinki özü, həmçinin digər iş yoldaşları ilə birlikdə**

**nazirliyi tərk etdi. Buna indi rusca sobotaj (işi pozmaq) deyirlər. Nazir olmaq asan iş deyil, istəyəndə gedəsən, istəyəndə gələsən. Bu qərarla işləməklə işimiz irəli getməz, işə ciddi yanaşılmalıdır. Hökumət üzvünün istəyinə milləti tabe etmək olmaz. Biz hamımız millət üçün işləməliyik.**

Baş nazirin ikinci sorğuya münasibəti isə belə oldu ki, mən əvvəllər də Rəşid bəy İsmayılova hər hansı bir işin tapşırılmasının əleyhinə olmuşam. Lakin ortalıqda şübhəli heç nə yox idi. Aclıqdan əziyyət çəkən, fəlakətdə olanların pulunu oğurlamaq hamı tərəfindən töhmətlənir. **Lakin bu hadisə Tiflisdə baş verdiyindən beynəlxalq hüquqla tənzimlənir. Hal-hazırda bu iş Tiflisdəki Gürcüstan məhkəməsi tərəfindən araşdırılır. Azərbaycan hökuməti Tiflis məhkəməsinin işinə qarışa bilməz. Hətta bu iş Bakıda baş versəydi belə hökumət demokratik ənənələrə uyğun olaraq müstəqil məhkəmənin işinə qarışa bilməz. Azərbaycan Cümhuriyyətində məhkəmə qarşısında hüquq bərabərliyi mövcuddur. Hökumət cəsarət edib müstəqil məhkəmənin işinə müdaxilə və ya məhkəmənin həbsdən buraxdırdığı şəxsi yenidən məsuliyyətə cəlb etdirə bilməz. Tiflis məhkəməsi Rəşid bəyə ciddi ittiham irəli sürmüşdür. İsmayılovun evində axtarış aparılsa da heç nə tapılmamışdır. Bununla belə, onun cinayəti təsdiq olunarsa, güman edirəm ki, o Azərbaycan türkləri içindən çıxıb getməlidir.** Verilmiş sorğulara baş nazirin cavabı "İttihad" fraksiyasını tam qane etməsədə, parlamentin növbəti məsələ kimi "Müəssislər Məclisinə seçkilər haqqında" qanun layihəsinin üçüncü oxunuşunun davam etdirilməsi təklifi ilə müzakirələri davam etdirmək qərarına gəldi. Mübahisələrə səbəb olan bu qanunun 68-ci maddəsi də daxil olmaqla layihə üçüncü qiraətdən keçərək təsdiq edildi.

1919-cu il iyunun 12-də nəzərdə tutulan 47-ci iclası kvorum olmadığından keçirilmədi. Siyahıya daxil edilmiş və imza etmiş 42 məbusandan cəmi 34 nəfəri parlamentə gəlmişdir.

Azərbaycan parlamenti deputatlarının bir fraksiyadan digərinə keçməsi praktikasından istifadə etmişdilər. Belə ki, Cəlil bəy Sultanov parlamentin 16 iyun 1919-cu il iclasında bitərəf fraksiyasından çıxıb "Müsavat" fraksiyasına daxil olması haqqında Rəyasət Heyətinə ərizə ilə müraciət etmişdir. Parlament nizamnaməsinə edilmiş dəyişikliyə görə üzürsüz səbəbə görə parlamentə iki həftə gəlməyən məbusan parlament nakazına görə əzalıqdan məhrum edilirdi. C.Sultanova mayın 11-də Tiflisdə, Zaqafqaziya konfransında müşavir kimi iştirak etməsi üçün hökumət tərəfindən 10 günlük məzuniyyət verilmişdir. Fraksiyanı dəyişməsi isə mayın 12-də keçirilən iclasda elan edilmişdir. Parlamentin Rəyasət Heyəti onun konfransda iştirak etməsi haqqında məlumatsız olduğu üçün

parlament nakazına müvafiq olaraq 2 həftədən sonra məbusluqdan xaric etmişdir. Həqiqətdə isə Tiflisdəki konfransda iştirak etmək üçün hökumət tərəfindən X.Xasməmmədov özü C.Sultanova sənəd və vəsiqə verilmişdir. Hökumət lazımi və qanuni yardım edərək ona yol haqqı da ödəmişdir. Parlament nakazına görə Sultanov özü parlamentin Rəyasət Heyətini xəbərdar etməli idi. **Qeyd etmək lazımdır ki, üç Zaqafqaziya dövlətləri qarşılıqlı münasibətlərdə müəyyən məsələlərin müzakirəsinin aparılması üçün Zaqafqaziya konfransını yaratmışdılar. Sabiq baş nazir F.X.Xoyski konfransda Azərbaycan tərəfindən nümayəndə heyətinin sədri təyin edilmişdir.**

Azərbaycan parlamentində təmsil olunan erməni "Daşnak" fraksiyasının üzvü **A.İ.Malxazyan daxili işlər nazirinə iyunun 11-də kilsədə axtarış aparılmasının səbəbləri barədə sorğu vermişdir. Baş nazir və eyni zamanda daxili işlər naziri olan N.Usubbəyli məsələyə münasibət bildirərək sorğunun iki tərəfinin olduğunu və axtarış aparılıb və aparılıbsa nə üçün aparıldığının aydınlaşdırılımasını önə çəkdi. Digər tərəfdən Malxazyanın iddia etdiyi kimi, "heç kəs erməni xalqının dini-hesiyatını təhqir etməyib və etmək belə istəməyib". Kilsə müqəddəs yerdir, orda dualar oxunur və ibadət edilir. Heç kəs cəsarət etməz ki, kilsədə axtarış etsin. Doğrudur ki, anbarlarda axtarış olub. Ermənilər bu məhəlləyə cürbəcür əşyalar daşımasını görən kəşfiyyat polisi daha sonra həmin əşyaları anbarlardan başqa yerə aparıldığını müşahidə etmişdir.** Xaricdən düşmən hücumu və daxildən müxalif təxribatların gözlənildiyi bir vaxtda hər kəs əsəbi olub və müxtəlif xəbər gətirir. Məlum olur ki, əşyalar içərisində rabitə avadanlığı vardır. Baş nazirin sözlərinə görə, məsələnin günahkarı polis deyil, günahkar həmən adamlardır ki, kilsənin içərisinə girib, oraya teleqraf və telefon aparıblar. Günah o adamdadır ki, əvvəlcə şeyləri oraya yığıb, sonra aparır. "Daşnak" fraksiyasının sorğusu iyunun 23-də davam etdirildi və çıxış edən məbuslar fraksiyanın təqdim etdiyi məsələlərə öz münasibətlərini bildirdilər. Əhməd Cövdət çıxış edərək bildirdi ki, hökumətin cavabı erməniləri qane etmir. Ola bilər ki, məni də qane etməsin. Çubaryan, bu axtarışın siyasi əhəmiyyətinə diqqət yetirməyi, ikincisi isə gələcəkdə bu cür axtarışların keçirilməməsi məsələsinə toxundu. Ermənistandakı azərbaycanlıların hansı vəziyyətdə olduğu bizə məlumdur, oradakı müsəlmanların zülmündən xəbərdarıq. Lakin bizim nöqteyi-nəzərimiz ondan ibarətdir ki, hər yerdə qanunsuzluq, zülm olarsa onun əleyhinə mübarizə etməliyik. İstər bu Ermənistanda olsun, istəsə də Azərbaycanda, qanunsuzluq əleyhinə ciddi tədbir görülməlidir. Qanunsuzluq əleyhinə tədbir görməyən hökumətə etibar etmək olmaz.

Parlament iyunun 23-də Maliyyə Nazirinin birinci müavini vəzifəsinin təsis

olunması haqqında qanun qəbul etmişdir. **Maliyyə nazirliyi hələlik öz işində ənənəvi Rusiya qanunvericiliynə istinad edir, onlara düzəliş və əlavələr etməklə vəziyyətdən çıxmağa çalışırdı. Hələ 1919-cu il martın 17-də parlament qanunu, yerlərdə vergi yığmaq hüququnu zemstevo yığıncaqlarına və icma tərəfindən seçilən gəlir vergisi üzrə quberniya və qəza idarələrinə həvalə etmişdir. Parlament iyulun 16-da isə Maliyyə Nazirliyi nəzdində vergi müfəttişi vəzifəsinin təsis edilməsi haqqında qanun qəbul etdi. Maliyyə xarakterli qanunların qəbul edilməsi Cümhuriyyətin vergi sisteminin tənzimlənməsinə, maliyyə sahəsində nizam-intizamın möhkəmlənməsinə və xalqın sosial vəziyyətinin müəyyən qədər yaxşılaşdırılmasına yönəlmişdir.**

Azərbaycan ali qanunverici orqanına daxil olmuş sorğuların cavablandrılması proseduru haqqında məbuslar bəzi yenilik edilməsi təklifi ilə çıxış etmişdilər. Azərbaycan parlamentinin nakazında nəzərdə tutulan sorğulara baxılması qaydasından fərqlənəcək qaydalarda nəzərdə tutulurdu. 5 nəfərin imzası ilə parlamentə sorğu göndərilən zaman sorğu verən hökumətin cavabı ilə kifayətlənməsə, onda sorğu dəyişdirilirdi. Parlament yeni dəyişdirilmiş sorğuya, hökumətin yenidən cavab verməsinə məcbur etmək hüququnu nəzərdə tuturdu. Bu prosedurun tətbiqi, hökumətin sorğuların araşdırılmasına laqeyd yanaşmasının qarşısını almaq məqsədini güdürdü. Digər təkliflə isə göndərilmiş sualın, əvvəlcə sorğu komissiyasında baxılmasını nəzərdə tuturdu. Deputatların təklif etdiyi daha bir məsələ, sorğunun parlamentdə müzakirəsindən əvvəl, müvafiq suallarla istizah (sorğu) komissiyasına müraciət etməsi formula, səsə qoyulsada, qəbul edilmir. Ona görə də nakazda nəzərdə tutulan qaydalara müvafiq olaraq sorğu komissiyasının çıxaracağı qərara əsasən, parlamentdə hökumət sorğuları cavablandırması qərara alınır.

**Azərbaycan parlamentinin növbədən kənar keçirilmiş 51-ci parlament iclasının təyin edilməsində əsas məqsəd, Azərbaycan və Gürcüstan hökumətləri arasında bağlanmış hərbi və müdafiə paktının parlamentarilər tərəfindən müzakirəsi və onu təsdiqi olmuşdur. Parlament sədri H.Ağayevin sözlərinə görə, Qafqazda yaranmış indiki fövqəladə siyasi vəziyyətə görə, əhdnamənin ratfikasiya edilməsinin ertələnməsi mümkün deyil. İyunun 23-də əvvəlcədən elan etdiyimiz 10 günlük tətilin dayandırılması və fövqəladə iclasın keçirilməsi səbəblərindən biri də bu paktın ratifikasiyasının gecikdirilməməsidir.** Parlamentin Rəyasət Heyəti tərəfindən təqdim edilən paktın müzakirəsindən sonra parlament tərəfindən Qarabağa göndərilmiş nümayəndələrin məruzəsi gözlənilsə də, məruzələr sədarətə daxil olmamış və verilən məlumata görə məruzələr hazır olmadığından növbəti iclasların birinə keçirilmişdir.

Gürcüstan-azərbaycan hərbi əməkdaşlıq müqaviləsi haqqında çıxış edən **dördüncü hökumətin xarici işlər naziri Məmməd Yusif Cəfərovun** sözlərinə görə, Cənubi Qafqazda mövcud olan bütün cümhuriyyətlərlə dost və həmrəylikdə yaşamaq, Azərbaycan hökumətinin xarici siyasətinin əsas prinsiplərindən biri olmuşdur. Azərbaycan hökuməti öz qonşuları ilə siyasətlərini birləşdirərək təkcə özünün müdafiəsini təmin etməyi düşünmür. Zaqafqaziya hökumətlərinin konfransında Azərbaycan, Qafqaz Cümhuriyyətlərinin öz istiqlaliyyətlərini qorumaq üçün bunu öz proqramına salmışdır. **Qonşumuz Gürcüstan bu təklifə razı olsa da, Ermənistan buna razılıq verməmişdir. Noyabrda keçirilən konfransa Ermənistan gəlmədi. May ayında keçirilən konfransa gəlsə də müxtəlif bəhanələrlə bundan imtina etdilər və sübut etmək istədilər ki, guya belə bir təhlükə yoxdur. Gürcüstan bizimlə razılaşdı ki, bu təhlükə var və bu təhdid bizim azadlıq və suverenliyimizi məhv edə bilər. Ermənistan Cümhuriyyəti konfransda əvvəlcə sərhəd və ərazi məsələlərini həll edilməsini, sonra bu məsələyə baxa biləcəklərini və təşvişə düşməyə hər hansı bir səbəb olmadığını bəhanə gətirirdilər. Gürcüstan və Azərbaycan nümayəndələri Ermənistanın bu təklifinə razı olmadılar. Hər iki dövlət belə hesab edirdi ki, sərhəd məsələləri həll edilənə qədər istiqbalımızı itirə bilərik. Azərbaycan bu pakta Şimali Qafqaz xalqlarının da qoşulmasını arzu edirdi. Lakin artıq Denikin işğalı, onların istiqlalını məhv etmişdir. Yaranmış vəziyyətdə Gürcüstan və Azərbaycan, ermənilərin sərhəd məsələsi təklifini gözləyə bilməzdi. Xarici işlər naziri bildirdi ki, biz istəyirik ki, hər üçümüz birlikdə azadlıq və hüququmuzu qoruyaq və birlikdə müdafiə əhdnaməsinə qol çəkək. Lakin Ermənistanın qeyri-konstruktiv mövqeyi Azərbaycan və Gürcüstanı ayrıca separat etimadnamə bağlamağa məcbur etdi.** Azərbaycan hökumətinin xarici işlər naziri parlament müzakirələrində onu da vurğuladı ki, ermənilərin də bu pakta qoşulmasına ümid edir və onlara ümumi təhlükəyə qarşı birləşməyə çağırır. Cənubi Qafqaz xalqları daxili məsələləri kənara qoyub birgə yaşaya bilərlər. Qafqaz xalqlarının ümumi təhlükəyə qarşı birləşməsi vacibdir. Xarici işlər nazirinin sözlərinə görə iki Cümhuriyyət arasında bağlanmış paktda üçüncü tərəfə qarşı yönəlmiş heç bir təhlükənin olmadığı təsbit olunmuşdur. Əhdnamənin birinci şərtində göstərilir ki, Azərbaycan və Gürcüstan arasında özlərini və istiqlaliyyətlərini qorumaq üçün razılığa gəlirlər. Bu onu göstərir ki, biz heç bir ölkə üçün hər hansı təhlükə yaratmırıq, yalnız hürriyyətimizi, istiqlaliyyətimizi istəyirik, üstümüzə gələn kim olursa-olsun biz onun qarşısına çıxıb öz hüququmuzu müdafiə edəcəyik. Müqavilə 3 il müddətinə bağlanılırdı. İki Cümhuriyyət arasında bütün mübahisəli məsələlər, sərhəd məsələləri sülh və danışıqlar yolu ilə həlli nəzərdə tutulmuşdur. Mübahisəli məsələlərdə anlaşma əldə edilməsə onda imperativ, məcbur etmə vasitəsi ilə hər iki Cümhuriyyətdə razılığın

qəbul olunması nəzərdə tutulurdu. Hər iki dövlət beynəlxalq məsələlərdə vahid platform ilə çıxış edəcəklərini və siyasəti birlikdə aparacaqlarını öhdəyə götürürdü. Azərbaycan hökumətinin xarici işlər naziri parlament deputatlarının müqaviləni müzakirə edərək təsdiq edəcəklərinə inandığını bildirdi.

Parlament fraksiya çoxluğu təmsilçilərinin fikrincə, Zaqafqaziyada mühüm bir hadisə baş verdiyini və Zaqafqaziya Cümhüriyyətlərinin millətlərinin ayrılıb hər kəsin müstəqil milli hökumət təsis etməsinə tənə edənlərə bir cavab verildiyi, bu əhdnamə ilə artıq sübut edilmişdir. Çünki bu millətlər hürriyyət istəyəndə, həmişə belə bir fikir irəli sürürdülər ki, onlar ayrılarkən bir-biri ilə vuruşacaq, kin və ədavətlə yaşayacaq, öz mənfəətlərini dərk etməyəcəklər. Lakin, bu əhdnamə ilə Azərbaycan milləti ümumi düşmənlərə qarşı gürcülərlə silahdaş və həmrəy olacaqdır. Bu əhdnamə bu gün yalnız Məclisi-Məbusan tərəfindən deyil, bütün millət tərəfindən alqışlanacaqdır. Fraksiya belə hesab edir və arzulayır ki, bu əhdnamə təkcə Azərbaycan və Gürcüstan arasında deyil, bütün Zaqafqaziya dövlətləri arasında bağlanmalıdır. Müqaviləyə Azərbaycan və Gürcüstan nümayəndələri belə bir maddə daxil etmişdilər ki, əhdnamə açıqdır və digər istəyən dövlət ona qoşula bilər. Məclisi-Məbusan belə hesab edir ki, erməni demokratiyası da yaxın zamanlarda öz mənafeylərini dərk edib müqəddəratını və mənafeyini yaxın qonşuları ilə birlikdə həll edib, onu müdafiə etməyə qoşulacaqdır. 1918-ci ilin yununda Azərbaycanın birinci hökuməti dönəmində də Azərbaycan Cümhuriyyəti özünü müdafiə etmək, xaricdən gələ biləcək təhlükələrin qarşısını almaq üçün Türkiyə ilə əhdnamə bağlamışdır. Bu müqavilə hər iki Cümhuriyyətin demokratiyasının birgə qələbəsidir. Azərbaycan parlamenti belə hesab edirdi ki, Zaqafqaziya dövlətlərinin qarşılıqlı yardımını nəzərdə tutan ittifaqının yaranması, xaricdən gələn qüvvələrə Cümhuriyyətlərin öz hüquqlarını artıq dərk etmələri və onu qorumağa hazır olduğunu göstərəcəkdir. Qafqaz Cümhuriyyətləri nəyinki hərbi ittifaq yaratmalı, digər ticarət və iqtisadi sahədə də müqavilələr bağlamalıdırlar. Parlament ümid edir ki, Avropa dövlətləri də azad yaşamaq istəyən Cümhuriyyətlərin bağladıqları müqavilələrə mane olmaz. **Məhz, Denikin ordusunun təhdidi qonşu millətləri, bütün Zaqafqaziya demokratiyasını birləşməyə məcbur edir. Qafqaz xalqları öz istiqlaliyyətlərini elan edəndə, bəzi kənar qüvvələr düşünürdülər ki, Azərbaycan və Gürcüstan demokratiyası öz aralarında münaqişəyə girəcək və mübahisə yaradacaqlar. Denikinin Könüllü Ordusunun təhlükəsi hər iki demokratik dövləti düşmənə qarşı birləşdirdi. Üçüncü qonşumuz, Ermənistan hökumətinin apardığı siyasət, onların qəflətdən ayılmadığını göstərir. Əslində isə, erməni daşnakalrının demokratiya pərdəsi arxasında məkirli siyasətləri tamam başqa idi.**

Parlamentarilər, hesab edirlər ki, istiqlaliyyətlərin elan etmiş kiçik millətlərin müqəddaratı Paris sülh konfransında həll olunacaqdır. **Azərbaycan**

**Cümhuriyyətinin birinci ildönümündə, Amerika Birləşmiş Ştatlarının prezidenti Vudro Vilson sülh konfransında Azərbaycan nümayəndə heyətinin başçısı, parlamentin sədri Əlimərdan bəy Topçubaşovu qəbul etməsi bizim ümidlərimizi artırmışdır. Bu baxımdan Azərbaycan-Gürcüstan hərbi paktı hər iki dövlətin xarici siyasətinə böyük təsiri var. Məhz sonralar Paris sülh konfransında hər iki dövlətin birlikdə tanınması məsələsi qaldırılırdı. Ermənistan məsələsi isə qonşu dövlətlərə ərazi iddiası müstəvisində baxılmışdır.**

Parlamentarilər göstərdilər ki, Qafqaz millətlərinin mənafeyləri birdir və bu mənfeyləri qorumayanlar, ittifaqa girmək istəməyənlər, bizə deyil, özlərinə zərbə vururlar. Parlament çıxışlarında qeyd olundu ki, Azərbaycan Cümhuriyyəti həmişə sülh yolunu tutub və onunla gedəcəkdir. Bu ittifaq ancaq özümüzü müdafiə edib, başqalarına təcavüz fikrində olmayacaqdır. Azərbaycan-Gürcüstan ittifaqı yalnız demokratik bir ittifaqdır və bu müqaviləyə qoşulmaq istəməyənlər demokratiya tərəfdarı hesab oluna bilməzlər. Beləliklə, parlamentin yekdilliklə təsdiq etdiyi Azərbaycan və Gürcüstan hökumət nümayəndə heyətləri arasında bağlanmış siyasi və tərəfdaşlq müqaviləsi, məzmun etibarı ilə böyük əhəmiyyətli diplomatik siyasi-hərbi sənəd olmaqla, hər iki millətin birgə mənafeylərini və müqəddaratını müdafiə etməyə yönəlmişdir. Məclisi-Məbusan xüsusilə qeyd etmişdir ki, Azərbaycan və Gürcüstan arasında nəyinki hərbi ittifaq haqqında, eyni zamanda bu vaxta qədər iqtisadi və ticarət əhəmiyyətli müqavilə-əqd bağlanmış, poçt və teleqraf sahəsində əməkdaşlıq inkişaf etmişdir.

Azərbaycan parlamentində spesifik xarakterli presedentlər də, olmuşdur. Belə ki, 1919-cu ilin yay aylarında öz işini davam etdirən **Məclisi-Məbusanın Rəyasət Heyəti, iclasların keçirilməsi vaxtını dəyişərək, istilərin düşməsi ilə əlaqədar gündüz saat 11-dən, axşam saat 7-yə keçirilməsini qərara almışdır.** Parlament 1919-cu ilin iyulunda "Ermənistan qaçqınları üçün dövlət xəzinəsindən 3 milyon rubl ayrılması haqqında" qanun qəbul etmişdir.

Azərbaycan Cümhuriyyəti parlamenti və hökuməti təsil sistemini yeniləşdirmək, milli pedaqoji kadrların hazırlanması işini yaxşılaşdırmaq məqsədilə tədbirlərini davam etdirirdi. Respublikanın müxtəlif bölgələrində seminariyalar açılırdı. Parlament 1919-cu il 17 iyul tarixində verilmiş qanunda "Qazax, Nuxa, Şuşa, Quba, Zaqatala, Salyan, Gəncə və Bakıda iki aylıq pedaqoji kurslar açılmasını" nəzərdə tuturdu. Gəncə və Bakıda pedaqoji kurslar ayrı-ayrı həm kişi, həm də qadınlar üçün təşkil edilirdi. Parlment dövlət xəzinəsində bu kurslara 2 milyon 390 min rubl vəsait ayırmışdı.

**Məclisi-Məbusan Azərbaycanın ərazi bütövlüyünü daim diqqətdə saxlayır və yaranmış problemləri müzakirəyə çıxarırdı. Ermənistan özünün işğalçı siyasətindən əl çəkmir, "Böyük Ermənistan" xülyası ilə müsəlmanların yaşadıqları Azərbaycan Cümhuriyyətinin Zəngəzur, Göyçə, Qarabağ, Naxçıvan və digər ərazilərində öz quldur dəstələrinin köməyi ilə dinc əhaliyə divan tutur, bütöv kəndləri yandırır, talanlar törədirdilər. Ermənistanın məkirli siyasətinin nəticəsi idi ki, onlar xarici havadarlarına arxalanaraq Zaqafqaziya dövlətlərinin konfransında müxtəlif bəhanələrlə üç respublikanın birgə müdafiəsinə yönəlmiş hərbi ittifaqa qoşulmadılar.**

1919-cu ilin yayında parlament **Qarabağ hadisələrini geniş müzakirə çıxarmışdır. Məclisi-Məbusana məlumat verən baş nazir N.Usubbəyli qeyd etdi ki, parlamentin təklifi ilə 4 nəfər deputatdan ibarət təftiş və təhqiqat komissiyası yaradılmış və onlara hadisələri yerindəcə öyrənmək tapşırılmışdır. Komissiyanın tərkibində iki nəfər müsəlman deputatlar Qarabəyli, Rüstəmbəyov və iki nəfər isə erməni deputatlar Çubaryan və Xocayev daxil edilmişdir.** Baş nazir N.Usubbəyli parlament dinləmlərindən sonra çıxış edəcəyini və bu məsələlər barədə öz mülahizələrini parlamentə çatdıracağını bildirdi. "İttihad" fraksiyasının sədri Q.Qarabəyli, Qarabağa göndərilmiş komissiya üzvü kimi ilk çıxış edərək qeyd etdi ki, hələ 1919-cu ilin yanvarında hökumətin qərarı ilə Zəngəzur, Cavanşir, Şuşa və Cəbrayıl qəzaları üzrə xüsusi general-qubernatorluq yaradılmışdır. **Azərbaycan Cümhuriyyəti Qarabağa böyük əhəmiyyət verir və təyin edilmiş general-qubernator Xosrov bəy Sultanov məhz, ingilis komandanlığı ilə razılaşdırıldıqdan sonra Qarabağa göndərilmişdir.** Qarabağın erməni əhalisi Azərbaycan hökumətini tanımaq istəmir, ingilis komandanlığı isə məsələnin sülh konfransında həll edilənə qədər Qarabağı Azərbaycan hökuməti üsul-idarəsinə, Naxçıvan, Şərur və s. İrəvan quberniyası qəzalarının və həmçinin Qars vilayəti erməni üsul-idarəsində qalmasını bəyan etmişdir. Azərbaycanın əsas yerlərini ermənilərə verən ingilis komandanlığı Qarabağ haqqında vermiş olduğu vədi bu vaxtadək əməl etmədi. Hətta Şuşa şəhərində Azərbaycan general-qubernatorluğunu bölüb onun səlahiyyətlərini yalnız müsəlman hissəsinə aid etdi, erməni hissəsi isə erməni milli şurasının üsul-idarəsinə vermişdir. Ermənilər Şuşada Azərbaycan general-qubernatorluq idarəsinin yaranmasına mane olmaq istəmiş və İngiltərə komandanlığı ilə ermənilər arasında ixtilaf yaranmışdır. Deputat komissiyası Qarabağda olarkən, general-qubernator bütün yaranmış məsələləri sülh yolu ilə həll etməyə çalışırdı. Lakin ermənilər Yevlax-Şuşa yolu kənarında pusqu qurub əhalini öldürür, arabaları soyur, atları aparırdılar. May ayınadək orada ixtilaf olmamışdır. Lakin mayda ermənilər 9 nəfər müsəlmanı yolda oğurlamış, hətta

meyidlərini belə verməmişdilər. Sonra isə daha 7 müsəlman yoxa çıxaraq, ermənilər tərəfindən aparılmışdır. Parlament deputat komissiyası Şuşaya iyunun 16-da çatmışdı. Komissiya müəyyən etdi ki, Şuşa-Yevlax yolu açıq olsa da, Şuşa-Gorus və Şuşa-Qarayevlax (Karyagin) yolları tamamilə erməni quldurlarının nəzarətində olduğundan, bir müsəlman da bu yoldan keçə bilmirdi. Müsəlmanlar məskunlaşan yerlər mühasirəyə alınmışdır. Mayın 27-dən camaat erməni basqınlarından köç etməyə başlayıb, Zəngəzurdan başqa, bütün Qarabağ əhalisi köçməyə məcbur olub. Şuşa əhalisinin bir qismi general-qubernatora, bir qismi isə erməni milli şurasına tabe olduqlarını elan etmişdilər. Şuşanın müsəlman əhalisi ingilis və müsəlman milislərin mühafizəsi altında olduqlarından köç etməmişdilər. Eyni zamanda Azərbaycan general-qubernatoru ermənilər hücum etdikdə belə, müsəlmanlara cavab verməməyi əmr etmişdir. Komissiyanın üzvü Q.Qarabəylinin məlumatına görə 1919-cu il iyunun 1-də Şuşanın müsəlman hissəsində bir milis nəfəri bir ermənidən, onun tapançasını alır. Buna cavab olaraq ermənilər 2 əsgəri tərk silah edərək, birinin atını, tüfəngini və tapançasını, digərinin isə tüfəng və xəncərini götürür. Söhbətlər zamanı bunu həm ermənilər, həm də müsəlmanlar təsdiq etmişdilər. Əsgərlərdən biri qaçıb canını qurtara bilmişdir. Azərbaycan General-qubernatoru ingilis heyəti ilə birlikdə o biri əsgəri azad edib və silahı dəyişdirərək geri qaytarmışdır. Erməni milli şurası ingilis komandanlığına bildirmişdir ki, atı və silahı ələ keçirən erməni şəhərdən qaçıb. Bu hadisə Azərbaycan ordusu və əhalisi arasında böyük etirazla qarşılanmışdır. Məlumdur ki, 1918-ci il Mart soyqırımının başlanmasına "Dikiye diviziya"nın əsgərlərinin Lənkəranda yerləşən hissəsinin, Bakıya gələn və öz əsgər yoldaşları H.Z.Tağıyevin oğlu Məhəmməd Tağıyevin dəfnində iştirak edib sonra Lənkərana gəmilərlə qayıtması zamanı yaranan münaqişə bəhanə olmuşdur. Nəticədə bolşeviklər, ermənilər və digər təxribatçı qüvvələr vəhşi diviziyanın guya rus əsgərlərinə hücum edəcəyi şaiyəsini yayaraq, onların ruslar tərəfindən tərk-silah edilməsinə nail olmuşdular. Bakının dinc müsəlman əhalisi isə erməni-bolşeviklərin törətdikləri qırğının qurbanları olmuşdular.

Şuşadakı erməni milli şurasının işi şübhə doğurur, oraya könüllü erməni dəstələri gəlib-gedir, məsuliyyətsiz adamlar toplaşır. Xəzinə və poçt idarələrinin müsəlman hissəsinə köçürülməsinə ermənilər etiraz etsə də, ingilis komandanlığı onları sakitləşdirərək general-qubernatorluğun buna məsuliyyət daşıdığını ermənilərə bildirmişdilər. Qubernatorluq Şuşa-Gorus yolunun üstündə əsgəri qorovul qoyaraq şəhərə könüllü dəstələrin girməsinin qarşısını almış və köçlərin rahat və təhlükəsiz keçməsini təmin etmişdir. **Şuşa şəhəri üzərindəki "üçmıx" ərazisində 18 piyada, bir pulemyot və 9 nəfər pulemyotçu postu qoyulmuşdur. Ermənilər iyunun 4-də səhər sübhdən Arzumanov adlı erməni zabitin başçılıq**

**etdiyi bir dəstə könüllü ilə səngərin 50 addımlığında duraraq, postun götürülməsini Azərbaycan ordusunun zabiti Maksimoviçdən tələb etmişdilər. Zabit Maksimoviç qanuna tabe olduğunu bildirərək bu haqda qubernatora məlumat vermək məqsədilə şəhərə gəlir. Lakin ermənilər niyyətlərindən əl çəkməyərək Maksimoviçin müavini Kərimovdan bunu tələb edir və nəticədə səngərdə atışma baş verir və 4 müsəlman əsgər və erməni Arzumanov qətlə yetirilirlər. Atışma uzun müddət davam edir və 1905-ci ildə olduğu kimi, hər iki tərəf səngərə dolaraq vuruşurlar. Erməni keşişi yepiskop Vaqan ingilislərə müraciət edərək, tədbirlər görülməsini xahiş edir. İngiltərə komandanlığı erməni milli şurasının bu işləri qızışdırdığını və ona görə də onların şəhərdən çıxarılmasını tələb edir. Ermənilər isə milli şura üzvlərindən üç nəfəri komandanlığa təslim edərək, qalanların şəhərdən qaçdıqlarını bildirmiş və yalnız bundan sonra atışma dayandırılmışdır. Hələ iyunun 4-də Azərbaycan general-qubernatoru müsəlmanlara əmr etmişdir ki, ermənilər güllə atsa belə onlara cavab verməsinlər. Öz yerlərini tərk edən erməniləri isə, Xankəndinə yığaraq Azərbaycan qoşunun mühafizəsi altında saxlamışdılar.**

Deputat komissiyası bu məsələləri öyrənərkən belə məlum olur ki, ingilis komandanlığı Paris sülh konfransına qədər verdiyi bəyanata əməl etmir. Çünki ingilislər, Naxçıvan, İrəvan qəzalarının və Qars vilayətinin müvəqqəti olaraq erməni hökumət idarəsini verib və orada onların hakimiyyətlərini təmin etmiş, Qarabağda isə əksinə, Azərbaycan hakimiyyətinin tam qurulmasını təmin etməmişdilər. Hətta ingilislər Şuşanın erməni məhəllələrinə qulluq üçün gedən əsgərlərin silahlarını alırlar. Bütün bunlar, Qarabağı Ermənistana ilhaq etmək məqsədi güdür. Müsəlmanların məskun olduqları bəzi ərazilərin bütün dünya ilə əlaqəsi kəsilmişdir. **Baş Şuşa yolundan keçənlərə hücum edilir, gəlib-gedənlər atəşə tutulur. Mart hadisələrində olduğu kimi, ermənilər, müsəlman dinc əhalini dəhşətə salır, onlara etdikləri zülm və işgəncədən doymurlar. Azərbaycan hökumət nümayəndələri bu cinayətlərə son qoyulmasını və müqəssirlərin tapılıb cəzalandırılmasını tələb etdikdə, ingilislər vədlər verməklə kifayətlənirlər.** Komissiya Şuşada olanda yerli əhali müəsəlmanların əmlak və həyatlarını mühafizə olunmasını hökumətdən tələb etmələrini bizə dedilər. Hətta müsəlmanlar asudə yaşamaq imkanından məhrum olaraq və ermənilərin də onlara qarşı təcavüzkar hərəkətini bilərək, general-qubernatorun tədbirlərindən narazı idilər. Ermənilər də etiraf edirlər ki, Azərbaycan general-qubernatorluğu bütün fəaliyyəti ilə ancaq əhalinin həyat və əmlakını təmin etmək uğurnda sırf hüquqi və qanuni tədbirlər görür. Parlament komissiyasında olan bütün dəlillər bunu sübut edir. Komissiya bu haqda 58 sənəd hazırlamışdır.

**Qarabağa göndərilmiş komissiya üzvü, "Daşnak" fraksiyasından Poqos Xaçaturov və Çubaryan bitərəf bəyanat verəcəklərini, məruzədə yalnız baş vermiş hadisələrdən bəhs edəcəyini parlamentə bildirdilər. Müsəlmanlara məxsus elat mayın 27-dən etibarən köçməyə başlamış və tam bir həftə salamat, heç bir ixtilaf və münaqişə olmamışdır. Yaylağa köç edən elatı mühafizə etmək üçün İngiltərə heyəti, general-qubernator və erməni milli şurası bir mühafizə dəstəsi təyin etməli idi.** Lakin məlum olmayan səbəbdən belə mühafizə dəstəsi təyin edilməmişdir. Komissiyanın erməni üzvləri belə hesab edir ki, Qarabağ idarəçiliyin Azərbaycana verilməsi haqqında İngiltərə komandanlığının qərarının baykot edilməsi qəti surətdə müəyyən olunmamışdır. Hərbi qanunlar sərtdir və biz ona tabe oluruq. Bizi Qarabağa Azərbaycan parlamenti göndərmişdir. Biz ermənilərin istəyi budur ki, azlıq təşkil edən xalqların nümayəndələri, məmləkətdə bütün vətəndaşların istifadə etdikləri ümumi hüquqa malik olsunlar. Mən bir şey istəyirəm ki, Azərbaycanın müxtəlif yerlərində bəlkə azlıqda qalan ermənilər var, onlar da ümumi vətəndaşlarla bərabər hüquqlarla təmin edilsinlər.

**Məclisi-Məbusan iyulun 8-də, Qarabağdakı hadisələrlə bağlı hökumət tərəfindən göndərilmiş deputat komissiyası üzvlərindən Ş.Rüstəmbəyli və erməni fraksiyasından İ.N.Xocayevin məruzələrinin müzakirəsi ilə işini davam etdirdi. Ş.Rüstəmbəyli Çubaryan tərəfindən söylənilən fikirlərin, əslində Azərbaycan general-qubernatorluq əleyhinə bir təqsirnamədən ibarət olduğunu bildirdi. Üçmıxa qarovul qoyulmasını istəməyən ermənilər, əslində general-qubernatora tabe olmamaq üçün bunu etmişdilər.** Biz orada olanda bunu bütün ermənilər bilirdilər. Kənardan erməni könüllüləri, Şuşa şəhərlərindəki ermənilərlə birləşib qanuni general-qubernatorluğun əleyhinə çıxmaq istəyirdilər. **Şuşa şəhərinə tez-tez müsəlləh (könüllü) erməni dəstələri gəlirdilər.** Hətta ermənilərdə, ümumi səfərbərlik elan olunduğu haqqında sənədlər də mövcuddur. Bu məqsədlə general-qubernatorluq tərəfindən "Uçmıxa" qarovul qoyulmuşdur. Ermənilər general-qubernatorluğu təkcə müsəlmanlar üçün deyil, Qarabağ erməniləri yaşayan hissələrdə də təşkil olunmasını ingilis heyətindən tələb edirdilər. Komissiya isə müəyyən etmişdir ki, nizami əsgərlər, silahlı qarovul heç kəsə toxunmur. Biz orada olanda Ağdamdan Şuşaya qədər yol köçlə dolu olduğundan müsəlmanların bütün malı və mülkiyyəti yolda idi. Ermənilər isə təkrar və dəfələrlə onları atəşə tutublar. Erməni mətbuatı bu hadisələrdə kürdlərin roluna böyük əhəmiyyət verirdilər. Bu barədə Çubaryan da qeyd etdi ki, Qaybalı kəndinin talan edilməsində kürdlər iştirak edib. İngilis nümayəndələri bu haqda məlumatlandırılıblar.

**Biz Qarabağda olanda istintaqı icra etmək və müqəssirləri tapmaq üçün müddəi-ümumi (prokuror) və məhkəmə sədri gəlmişdir.** Dövlət nümayəndələri istintaq tədbirləri görərək lazımi sənədlər və məlumatlar əldə etmişdilər. Hökumət ixtişaşların qarşısını almaq üçün bütün tədbirləri görmüşdür. Bunu biz müəyyən və qəti surətdə bəyan edirik. General-qubernatorun məqsədi, ancaq bütün şəhərdə nizam və asayişi bərpa etmək olmuşdur. Əslində, mətbuatda general-qubernator Xosrov bəy Sultanovun adı ətrafında qaldırılan səs-küy provaksiyadır (təxribatdır). Bu ancaq Azərbaycan əleyhinə yönəlmiş və onu gözdən salmaq üçün edilirdi. Əslində Zaqafqaziyada, İrəvan quberniyası və Axsıka qəzasında müsəlmanlara qarşı gördüyümüz hadisələrə nisbətdə, Qayıbalı barədə, bu xırda bir məsələ ətrafında, düşünülmüş səs-küy salınırdı. Komissiyanın məlumatına görə Azərbaycan general-qubernatoru əmr etmişdir ki, heç kimə güllə atılmasın, ermənilərə kömək edilsin və onların müdafiəsi təşkil edilsin. Telefon ilə hər yerə əmrlər göndərilmişdir. Şübhəsiz ki, baş verə biləcək xoşagəlməz hadisələrin qarşısı alınmış, yerli hakimiyyətin ciddi və qəti tədbirləri ilə münaqişə dayandırılmışdır. Burada Çubaryanın danışdığı kimi hökumətin fəaliyyətsizliyi və səhlənkarlığı olmamışdır. Məclisi-Məbusan və bütün azərbaycanlılar Qarabağı Azərbaycanın ayrılmaz bir hissəsi kimi qəbul edirlər. Bu iş son zamanlar ermənilərlə müsəlmanlar arasında vasitəçi rolu oynayan xarici qüvvənin razılığı ilə olmuşdur. Lakin həqiqətdə Qarabağın bəzi hissəsi və şəhərin yarısı Azərbaycan hökumətinin nəzarəti xaricində qalmışdır. Şübhəsiz dövlət və beynəlxalq hüquq nöqteyi-nəzərdən bu işə üsyan kimi baxılmalı və bunun müqabilində hər bir hüquqi dövlət, qüvvə işlətməyə qədər qəti tədbirlər görməlidir. **Azərbaycan parlamenti və hökuməti bu məsələnin sülh yolu ilə həll edilməsini istəyir. Azərbaycan Cümhuriyyəti təşkil olunandan bəri bəzi qruplar, bu əraziləri Azərbaycandan ayırmağa çalışırlar. Bəzi qüvvələr Qarabağı bolşevik Rusiyasının bir hissəsi elan etmək arzusundadır və nəticədə orada biri erməni, biri müsəlman olan iki düşmən tərəf əmələ gəldi. Həmişə də bunların arasında münaqişələr baş verir. Hökumətimiz Qarabağda general-qubernatorluq təsis etdikdən bəri Qarabağ məsələsinin yeni bir səhifəsi başlanmışdır.** Biz Qarabağ ermənilərinin də, türklərinin də əhval-ruhiyyəsini gördük. Onlar həmişə birgə yaşamaq istəyirlər və bilirlər ki, siyasi və iqtisadi rabitəsiz yaşaya bilməzlər. Şuşa və Zəngəzur erməni milli şuralarının daima rəhbərlik etdikləri erməni dairələrinin fəaliyyəti həmişə Azərbaycan dövləti əleyhinə camaatı qızışdırmadan ibarət olmuşdur. Onlar açıqdan-açığa əleyhimizə çıxışlar edir, yollarımızı, kəndlərimizi atəşə tuturlar. Bunun hamısı faktlar və sənədlərlə sübut olunur. Lakin biz həmişə sülh tərəfdarıyıq. General-qubernatorluq təsisindən sonra müsəlmanlar ermənilərə hücum etməmişlər. Lakin general-qubernatorluq üsul-idarəsində olan hər yerdə ona qarşı ermənilər təbliğat aparılmışdır. General-qubernatorla əlaqəsi olmayan

kəndlərdə həmişə könüllü dəstələr olmuşdur. İyunun 4-dək erməni milli şurası general-qubernatorla görüşməkdən imtina edərək, onunla ancaq ingilis heyəti vasitəsilə əlaqə qurmuşdur. Həmçinin də nəyinki erməni milli şurası, hətta erməni yepiskopu da əvvəlcə general-qubernatorla görüşməkdən imtina etmiş, yalnz ayın 5-dən sonra onunla görüşmüşdür.

Komissiya belə hesab edir ki, erməni milli şurası özbaşına deyil və öz gücüylə işləmir. Məhz, general-qubernatorun əldə etdiyi dəlillər və şübhə bunu təsdiq edir ki, onlar həmişə İrəvanla siyasi və digər əlaqələr qururlar. Şuşadakı erməni milli şurasının əlində olan bütün qüvvə və pul İrəvandan göndərilirmişdi. Şuşada Arzumanovun evi axtarıldıqda bu dəlillərin hamısı isbat edir ki, Qarabağdakı erməni camaatının çox təcavüzkar niyyəti vardır. Zəngəzurda təcavüzkarlıq hələ də davam edir. Bunu mətbuat səhifələrindəki çıxışlarda göstərir. Lakin hökumətimiz münaqişənin sülhlə həlli tərəfdarıdır. Hətta hal-hazırda ermənilər hər tərəfdən hücum etdikləri zaman Azərbaycan general-qubernatoru yenə də göstəriş vermişdir ki, müsəlmanlar hücum etməsinlər, yalnız özlərini müdafiə və mühafizə etsinlər.

**Ş.Rüstəmbəyov çıxışında ermənilərin hökuməti baykot etmək istədiyini bildirdi. Əslində qışda general-qubernator Qarabağa gəldikdə ermənilər çox pis bir halda olub, hətta acından ölənləri olurmuş. Çünki ermənilərin aranla əlaqəsi kəsilmişdi. Qarabağın erməni hissəsi aclıq təhlükəsi altında olubmuş. Azərbaycan general-qubernatoru dərhal ermənilərə ərzaq verilməsi haqqında tədbirlər görmüş, Qarabağa taxıl ixrac etmişdir. Bakıda taxılın 200 manatdan yuxarı olduğu halda Qarabağda taxılın pudu 30 manata düşmüşdür. Ermənilər ucuz qiymətə külli miqdarda taxıl alıb könüllü dəstələrini təmin etmişlərdir. Bu halda Azərbaycan hökumətinin general-qubernatoru iqtisadi baykot kimi tədbir görə bilərdi. Amma görməmişdir. Heç yerdə göstərilmir ki, general-qubernator baykot elan etmişdir. Komissiyanın söhbət etdiyi Şahnazarov, Kalantarov və sair adamlar da bunu inkar edir və deyirlər ki, guya camaat özü qubernatorluğu baykot etmişdilər. Bu məsələdə də general-qubernatoru təqsirləndirmək olmaz. Əvvəllərdə və hal-hazırda da, general-qubernatorun bütün qüvvələrinin yarısı ermənilərin mənafeyinə xidmət edir. Erməniləri həmişə general-qubernatorluğun qarovul əsgərləri müşaiyət etmiş, canlarını, mallarını daima hökumət əsgərləri mühafizə etmişdir.** Hal-hazırda ermənilərlə müsəlmanlar arasında elə əlaqə hasil edilmişdir ki, Əsgərana və Ağdamadək hər yerdə erməni qadınları taxıllarını yığıb kəndə daşıyırlar. Bunların hamısı hökumətin tədbirləri ilə edilmişdir. Onlar mühafizə olunur və çox kömək edilir. Lakin bunlarla bərabər ermənilər hazırda yenə də müntəzəm müsəlləh qüvvələri, hökumətləri, hərbləri var və hökumətə tabe olmaqdan imtina edir.

**Bunlar qüvvələrini Şuşada deyil, Keşiş kəndində yerləşdirmişdilər. Ermənilər Azərbaycan hökumətinin bütün yaxşılıqlarından istifadə edirlər, lakin öhdələrinə düşən dövləti vəzifədən boyun qaçırırlar və Azərbaycan hökumətini qəbul etmir, onu tanımaq istəmirlər. Bunların hamısını edən Zəngəzur erməni milli şurasıdır ki, açıqdan-açığa hökumətə tabe olmur. Amma digər tərəfdən bizim hökumətimiz bu uğurda bir iş görmək istədikdə həmişə səs-küy, gurultu qoparılır. Şuşada, Zəngəzurda və sair yerlərdə edilən hücumlar kimi bir çox hadisələr baş vermiş, lakin kimsə bu xüsusda məsul olan hökumətə müraciət etmiş və bu surətlə müqəssirlər tapılmamışdır. Şuşada, Zəngəzurda və hər yerdə bəzi məsuliyyətsiz üzvlər işləyirlər. Çubaryanın bəyanatının bir təqsirnamə olduğu və erməni milli şura rəhbərlərinin xətalarından əsla bəhs olunmaması bununla müəyyən edilir. Bunların hamısını edən Azərbaycan, Ermənistan və Tiflisdəki erməni daşnak başçılarıdır.** Daima rəhbərlik etmiş və etməkdə olan firqə bu işlərin hamısına rəğbətlə baxır. Biz Şuşada olanda Şahnəzərov Ruben və Kalantarovun bəyanatı sübut edir ki, bu hadisələrin hamısında rəhbərlik edən "Daşnaksütun" firqəsidir. Ş.Rüstəmbəyov sözlərinə görə, mən özümə borc bilirəm ki, Məclisi-Məhbusan üzvləri anlasın ki, **hal-hazırda Qarabağ ən ciddi və qorxulu bir vəziyyət altındadır. Əgər hökumət qəti tədbirlər görüb möhkəm hökumət idarəsi qurmasa, bu hadisə bütün Qarabağa yayılar. Qarabağ Azərbaycanın mühüm bir mərkəzi, strateji bir hissəsidir, ona görə orada elə böyük hadisələr baş verə bilər ki, bu vaxtadək onların hamısını heç edə bilər. Nümayəndə heyəti keçən dəfə bəyan etmişdir və yenə təkrar edir ki, sülh və asayişi, nizam və qaydanı bərpa etmək üçün hökumətin qanunlarını bütün Qarabağa tətbiq etmək lazımdır. Qarabağ məsələsini ancaq bu qayda ilə həll etmək olar.**

Parlamentdə yenidən söz alan daşnak Çubaryan qərəzdən uzaq bəhs edəcəyini söylədi. Məruzə hazırlayarkən bu cüzi məsələlər məni maraqlandırmamışdır. Ancaq məsələyə bir cəhətdən-obyektivlik baxımından yaxınlaşmışam. Hadisələri aydınlaşdırmaq və hüquqi-dövlət nöqteyi-nəzərindən nə qədər düzgün cərəyan etdiyini təyin etmək lazımdır. Zənnimizcə hamımızın təqib (əməl) etməli olduğumuz əsas prinsip bundan ibarətdir. Nə üçün Şəfi bəy bizim təqsirnamə adlandırdığı məruzəmizdən bir çox məsələləri göstərmir. Mən heç vaxt təkid etmərəm ki, özünü erməni hökuməti adlandıran erməni milli şurası, belə şəraitdə daha yaxşı nizam və qayda təsis edə bilərdi. Bununla belə bu gün yenə səmimi surətdə sizə bəyan edirəm ki, Qarabağ məsələsinin siyasi cəhəti məni maraqlandırmır, əgər biz bu işi düzgün müzakirə edib müəyyən qərara gəlmək istəyiriksə, siyasi cəhəti atmalıyıq. Çünki general-qubernatorun var qüvvəsi ilə çalışmağı siyasi məqsədli bir məsələdir. Orada lazım gəldikdə parlament və ya

hökumət siyasi məqsəd uğrunda tədbir görmək istəyirsə, bu parlament əksəriyyətinin işidir. Çubaryanın sözlərinə görə, belə yolla gedən hər halda yaxşılığa çıxmaz. Çünki, bu nə Azərbaycan üçün faydalıdır, nə də yeni təşəkkül etmiş digər dövlətlər üçün. Mən hadisəni bəyan edərkən buraxdığım xətanı geri götürürəm. Sizə baş ağrısı verməmək üçün mən keçən dəfə istəməmişdim və indi də istəməyirəm təqsirnamə adlandırılan, məruzəmi oxuyam. Mən burada danışanları xüsusən hadisənin əməli (praktiki) cəhətinə aid nitqləri diqqətlə izləyirəm. Əvvəlki məruzəçilər çox tez-tez Ruben Şahnazaryan adlı bir nəfərin şəhadətinə istinad edirlər. Mən siyasi düşmənlərimin şəxsiyyətinə ehtiram etməyə adət etmişəm. **Böyük diqqət və əhəmiyyət verilən Şahnazarovun kim olduğunu parlamentə bildirmək istəyirəm. Bu şahiddən Qaybalı kəndi əhvalatını soruşduqda o cavab verdi ki, mən Qaybalı kəndi haqqında bir şey bilmirəm. Mənim vəzifəm bu olmuşdu ki, general-qubernatora Qaybalıdan qaçqınlar gəldiyi barədə xəbər vermək və sonra onları Ermənistana aparmaq olmuşdur. Şahnazaryan parlament komissiyası üzvlərinə Pensilvaniya (ABŞ-ın ştatı) haqqında, Pensilvaniya nefti barəsində, ingilis siyasəti, Rusiya işləri, Denikin siyasəti, Qarabağın kimə məxsus olacağı və erməni milli şurası haqqında çox danışdı. Onun ifadələrindən məlum oldu ki, bu, müəyyən ziyalı qrupun siyasətindən narazı qalan ziyalı agentlərdən biridir. Orada menşeviklər, daşnaklar və kadetlər var. Şahnazarov şəhərdə hansı əsgərlərin iştirak etdiyi və hadisənin necə cərəyan etməsi haqqında pulemyot bölüyü komandanı, rus xidmətində olan zabit Aleksey Pavloviç Maksimoviçin şəhadətini göstərdi. Bu həmən zabitdir ki, Arzumanovla müzakirədə iştirak etmişdir. Zabitin sözlərinə görə onun taboru atışmada iştirak etmiş və ətraf kəndlərdən kürdlər və s. müsəlmanlar onun köməyə gəlmişdilər. Onlar köçərilər və şəhərlilərlə bərabər Xankəndi və dağ tərəfdən kəndlilərin yolunu kəsmişdilər. Çubaryanın sözlərinə görə o, kəndlərin talan edilməsində əsgərlərin iştirakını istisna edir. General-qubernator deyir ki, Qaybalı kənd davası qurtardıqdan 3-4 saat sonra (dava 2-3 saat çəkmişdir) kəndin içindən 65 atlı kürd keçmişdir. Fəqət kürdlər davada iştirak etməmişlərdir. Kəndlilər biz olmayan zaman general-qubernatora verdikləri ərizədə deyirlər ki, davada Kaçelis kürdləri iştirak etmişlər. Mən bu sözlərin doğruluğuna şübhə etməyirəm.**

Qarabağa göndərilən komissiyanın üzvü, Erməni fraksiyasından Xocayev parlamentə müraciət edərək nümayəndə yoldaşlarımın hamısından sonra çıxış etdiyini bildirdi. Xocayevin sözlərinə görə yoldaşları hadisə haqqında heyətin toplamış olduğu bütün məlumatları əməli cəhətindən izah etdilər. Bu məlumatın hamısını elan etmək üçün mən iki sənəd göstərməli idim. Xocayevin sözlərinə görə onlardan biri ermənilər, digəri isə müsəlmanlar tərəfindən edilmiş şikayətlərin

protokollarıdır ki, çox uzun olduğundan onları oxumayacağam. Ancaq dövləti nöqteyi-nəzərdən ermənilər üçün də, müsəlmanlar üçün də böyük əhəmiyyəti olan bir məsələdən bəhs edəcəyəm. Erməni şikayətçilərinin böyük qismi göstərir ki, hadisə Şuşa-Yevlax yolunda olduğundan mühafizə əsgərləri müəyyən yerlərə getməyə məcbur olmuşlar. Orada yol boyunda vətəndaşların əmin və rahatlığını mühafizə etmək üçün təyin olunmuş adamlar, onları axtarmaq bəhanəsi ilə soymuşdular. Digər sənəd isə Şuşadakı ingilis heyəti nümayəndəsi polkovnik Qlyatenberqin verdiyi xəbərdir. Bu vaxtadək ancaq ermənilərlə müsəlmanların, yəni maraqlı olan tərəflərin verdikləri məlumatı elan etmişik. Üçüncü məruzə isə kənara buraxılmışdır. Əlimizdə olan məlumatı tamamilə bəyan və tənqid edə bilmək üçün həmin bu sənədi elan edəcəyəm. Bu məlumatın tənqidi nədən ibarət olmalıdır. Məncə bunun tənqidi iki cür ola bilər: əvvəla hadisənin səbəblərini açmaq, aydınlaşdırmaq, hadisədə qubernatorun rolunu müəyyən etmək. Sonra, hadisənin səbəbləri nədir? Xocayevin sözlərinə görə, səmimi və insafən bu suala cavab belə ola bilər ki, bir tərəfdən Qarabağ ermənilərinin Azərbaycan Cümhuriyyəti hökumətini qəbul etmək və tanımaq istəmədikləri; digər tərəfdən də Azərbaycan Cümhuriyyəti və onun nümayəndəsi, yəni hökumətin məhəlli nümayəndəsinin nə yolla olur-olsun Qarabağ ermənilərini Azərbaycana tabe etdirməyə çalışması. Bu hadisənin əsil səbəbi budur! Burada deyirlər ki, əhalinin bu işdə təqsiri yoxdur. Ermənilər Azərbaycan hökumətini qəbul etməyə hazırdırlar, lakin bəzi qruplar, təşkilatlar, dəstələr onları qoymurlar və özlərinə tabe olmamağa məcbur edirlər. General-qubernator bu nöqteyi-nəzəri müdafiə edir və görünür ki, nümayəndə heyətindəki müsəlman yoldaşlarım bu nöqteyi-nəzərə şərikdirlər. **General-qubernator ancaq Şuşa erməni milli şurası üzvlərini günahkar görür. Nümayəndə heyəti erməni milli komitəsinin bütün fəaliyyətini araşdıra bilmədi. Çünki onun nə idarəsi var, nə dəftərxana, nə də şura əzası. Onun üzvlərinin bəzisi qaçmış, digərləri isə həbs edilmişdilər.** Ancaq bilavasitə hadisəyə aid bir çox əmrlərə təsadüf etdik. Xocayevin sözlərinə görə milli şuraya heç bu qədər əhəmiyyət verməyə dəyməz. Deyirlər ki, erməni hissəsində milli şuradan başqa hökumət yox idi. Mayın 27-də köç başlanandan iyunun 4-dək, köçərilərlə ətraf kəndlərdəki ermənilərə heç bir basqın olmamışdır. Bəs nə üçün fəsadların hamısı milli şuraya istinad verilir, amma qeyd edilmir ki, milli şuranın tədbirləri sayəsində iş beləcə rahat keçib. Bir də müsəlmanlar bir erməninin tüfəngini almışlar. Bunun cavabında onun da xuliqan yoldaşları 2-3 gün sonra iki nəfər könüllünün silahını, hətta atını almışdılar. Birinin atını qaytarmışlar, digərinin atı və silahı yox olmuşdur. General-qubernator oğurlanmış atla silahın qaytarılmasını tələb etdikdə milli şura onun dalınca adam göndərmişdir. Xuliqan isə atı minərək kəndə qaçmışdır. Onu tapa bilməmişdilər. Çünki o iz itirmək üçün ayrı kəndə qaçmışdır. Milli Şura isə 10.000 manata bir at və 1500 manata bir

tüfəng alaraq könüllüyə vermək üçün ingilis heyətinə təslim etmişdir. Eşidirik ki, Ermənistanda hökumətsizlik, hərc-mərclik hökm sürür, amma müsəlmanlar haqqında yox, çünki dava başlandıqda sonra Ermənistanda olan müsəlmanlar hamı salamat qalmışlar. Amma Qarabağda 40 erməni tələf olmuşdur. Azərbaycan general-qubernatorluğu ultimatum kimi tələb etmişdir ki, şəhərdə atışma ancaq milli şura əzasının təslimindən sonra yatırılacaqdır. Nəticədə erməni milli şura əzaları gəlib ingilis heyətinə təslim olurlar. Xocayevin sözlərinə görə, bunlar hamısı isbat edir ki, milli şurada (erməni) əyləşənlər qaniçən deyildir. Bu hadisədə müəyyən şəxsləri, yaxud qrupları və təşkilatı müqəssir tutmağa əsas yoxdur. İş təbliğatda, ya əhali içində hasil edilən əhval-ruhiyyədə deyildir. Əhval-ruhiyyə üsul-idarədən asılıdır. Bunu isə hökumət və onun məhəlli nümayəndələri yaradır. Doğrudur, bəzi adamlar təbliğatla camaatı bir tərəfə meyl etdirib, hökumətə qarşı çıxara bilərlər. Lakin hökumətin də əlində çox tədbirlər var ki, mübarizə edib, əhval-ruhiyyəni dəyişdirə bilsin. Xocayevin sözlərinə görə nümayəndə rəhbəri doktor Qarabəyli, general-qubernatorun bu məsələ ətrafındakı bütün tədbir və hərəkətini təqdir edir, haqlı görür. Baykot məsələsindən bəhs etdikdə isə, general-qubernator razı ola bilməzdi ki, ermənilər külli miqdarda ərzaq alıb, könüllü dəstəsini təmin etsinlər. Mən sizi inandırıram ki, cənab Qarabəyov, əhalini ərzaqdan məhrum etdikdə könüllü erməni dəstələrinin heç vecinə də olmur. Çünki onlar sizdən, bizdən çox tapırlar, əziyyəti isə dinc əhali çəkir. Xocayev, bu hadisələr zamanı general-qubernatorluğun rolu haqqında qeyd edirdi ki, bu ancaq geniş dairədə icra edilmiş (bəlkə ingilislərin də razılığı ilə) bir nümayiş idi ki, erməniləri qorxudaq, Azərbaycan Cümhuriyyəti hökumətinə tabe olmağa, general-qubernator hakimiyyətini ermənilərə qəbul etdirməyə məcbur edək. Bunlar böyük dairədə icra edilmiş bir nümayiş idi. Əgər bir xəta və səhv olmuşsa, mən demirəm ki, general-qubernator tərəfindən törədilmiş bir cinayətdir. Yoldaşım Çubaryan da belə demir. Biz deyirik ki, bu ehtiyatsızlıqdır. Nəticədə müəyyən gərginliyə səbəb ola biləcək tədbirlər görmək və bunu da əhaliyə xəbər verməmək ehtiyatsızlıqdır. Nə üçün general-qubernator bunu danır. Nə üçün deyir ki, bu iş nümayiş məqsədi ilə deyildi. Köç yolu mühafizə üçün idi. Həm ermənilərin və həm də müsəlmanların iztirab və həyəcan içində olduğunu nəzərə almaq lazımdır. General-qubernator belə bir halda o cür tədbirlər görmək mümkün olmadığını bilməmiş olmazdı. Çünki ermənilər belə güman etmişdilər ki, onları qırmaq hazırlıqları görülür. Ona görə də ermənilər silahlı adamlarını, qarovulların müqabilinə çıxarmışdılar. İki müsəlləh qüvvə qarşı-qarşıya durmuşdur. Belə bir zamanda, xalq həyəcanlı olan bir halda, heç əhəmiyyəti yoxdur kim qabaqca güllə atmışdır. Xüsusilə də aralarında nizama tabe olmayan adamlar az deyilmiş. Xocayevin sözlərinə görə, Şuşa hadisəsini ehtiyatsızlıq hesab etmək olursa, Qaybalı hadisəsi hökumətin fəaliyyətsizliyi və səhlənkarlığından başqa bir şey deyildir. Dünən

Qarabəyov sübut etmək istəyirdi ki, general-qubernatorun kömək vermək və qırğının önünü almaq imkanı olmayıb. Yoldaşlardan bəziləri deyirlər ki, orada qarşıdurama olmuşdur, xeyir, orada qırğın baş vermişdir.

General-qubernatorluq iddia edir ki, kömək etmək üçün 17 verst dolayısı yol getmək lazım gəlirdi. Halbuki Xankəndi ilə Şuşa arasında telefon var. Bu surətdə istəsəydilər qırğının önünü almaq üçün telefonla xəbərdarlıq edə bilərdilər. Amma hökumət bunu etməmişdir. Deyirlər etmişlər, lakin gec olmuşdur. Yox, belə deyil. Nədən hamı bilirdi, amma general-qubernator bilmirdi ki, qırğın var. Deyirlər ki, erməni dəstələrinin hücum etmək təhlükəsi varmış. Mən qəti surətdə deyirəm ki, şəhərə heç erməni dəstəsi gəlməyib və gələ bilməzdi. Hərbi idarələr belə şaiyə əsası ilə iş görməzlər. Onlar kəşfiyyatçı göndərər, nə olduğunu bilərlər. Odur ki, demək olmaz ki, kömək göndərmək mümkün deyildi. Bir də deyirlər ki, orada təqdim edilmiş olan çin (xidmətdə olan rütbəli məmur) əsgəri deyil, məhkəmə məmuru olduğundan kürdlərin iştirak etdiklərinə bir dəlil deyildir. Qaybalı kəndlilərin sübutları əsassızdır. Deyirlər Qaybalıya kömək göndərmək olmazdı, çünki başqa kəndlərin də köməyə ehtiyacı vardı. Bu işlərin hamısına, dövlət nöqteyi-nəzərindən baxılarsa, demək olar ki, general-qubernator belə hadisələrdə, könüllü camaatın iştirakını məqbul hesab edirdi. Müsəlmanların özlərinin dediklərinə görə orada müdafiə komitəsi var. Bu komitə erməni sərhəddinə müsəlləh adamlar göndərmişdir. Mən deyirəm ki, bu böyük xətadır, çünki general-qubernatorluğun ixtiyarında kifayət qədər əsgər olmuşdur. Orada hələ istintaq aparılmır. Cəza verilmədikdə camaat elə güman edir ki, insan nə istəsə onu edə bilər. Xocayev çıxışının sonunda hökumətin könüllü dəstələrdən istifadə etməsini düzgün hesab etmədiyini bildirdi.

Qarabağ hadisələri parlamentin iyulun 17-də keçirilən iclasında da davam etdirilmişdir. Baş nazir N.Usubbəyli məruzələrə münasibət bildirərək göstərmişdir ki, sanki burada iki tərəf var, bir tərəf bu hadisələrdə kiminsə günahkar olduğunu sübut etməyə çalışır. Yəni məruzələrdə bir tərəfdən müdafiə, digər tərəfdən hücum edilir. Əslində Qarabağa göndərilən nümayəndə heyətindən tələb olunan məqsəd bu deyildi. Məqsəd o idi ki, cinayətlərin üstü açılsın və günahkarlar tapılsın. Cubaryanın çıxışında əsas məqsəd günahkar tapmaq yox, general-qubernatoru təqsirləndirmək idi. Baş nazir N.Usubbəyli hökumətin mövqeyini bildirərək qeyd etdi ki, son zamanlar Zaqafqaziyada baş verən qırğınlarda yerli hökumətlərin, məhəlli məmurların rolu vardır. İkincisi əgər məqsəd Azərbaycan general-qubernatorluğu tərəfindən talan törətmək lazım idisə o, bunu asanlıqla edə bilərdi. Talanlar uzaq bir yerdə, çox asanlıqla törədilərdi, nəinki ingilis və Azərbaycan nümayəndələrinin gözü qabağında. İrəvanda və Ermənistanda isə müsəlman

kəndləri tamamilə məhv edilir. Azərbaycan hökuməti talan harada olursa-olsun onun əleyhinə olacaq və cinayəti törədənlərə cəza verilməsinin tələb edəcək.

Parlament müzakirələrə yekun vuraraq iki təklifi səs verməyə çıxardı. Birinci təklifi erməni fraksiyası təqdim etmişdir. Bu təklifdə deyilirdi, Məclisi-Məbusan deputatlardan təşkil olunmuş nümayəndə heyətinin məruzəsini və baş nazirin Qarabağda dair iyun ayının əvvəllərində baş vermiş hadisələrlə bağlı bəyanatını dinləyərək tövsiyyə edir ki, **hökumət tərəfindən general-qubernator vəzifəsindən kənarlaşdırılsın və istintaq, vəzifəsindən və məmurluğundan asılı olmayaraq bütün təqsirkarları mühakimə etsin.**

**İkinci təklifi isə "Müsavat" fraksiyası təqdim etmişdir. Qərarda deyilirdi ki, Qarabağ hadisələri haqqında hökumətin bəyanatı və məlumatını dinləyərək, məhəlli-hökumət, xüsusən general-qubernatorun əməli və fəaliyyətində heç bir qanunsuzluq olmadığını və Məclisi-Məbusan bu hadisələrin qarşısının alınmasında hökumət tərəfindən görülmüş tədbirləri davam etdirməyi tövsiyyə edir.**

**Birinci təklifin lehinə ancaq ermənilər səs verdilər. Sosialistlər isə bitərəf qaldılar. İkinci təklif isə əleyhinə ermənilər səs verdilər. Sosialistlər isə bu təklifə də səs vermədilər.**

Parlamentin ümumi mövqeyinə görə isə, Qarabağ hadisələrinə münasibət təkcə burada baş vermiş münaqişə ilə bağlı deyil. Onun bir çox başqa səbəbləri vardır. İlk növbədə üç yeni cümhuriyyət arasında sərhədlərin müəyyən edilməsidir ki, o da sülh yolu ilə həll edilməlidir. Azərbaycan hökuməti sülh yolunu tutmuşdur. Ona görə də Gürcüstan bizim birinci və ikinci təkliflərimizi qəbul etdi. Ermənistan isə sülhdən yayınaraq məsələni Parisdə "başqa qüvvələrin" əli ilə həll etmək istəyir. Tiflisdə gürcülərlə sülh konfransı keçirərkən, Ermənistan hökuməti məsələlərin ikitərəfli həllinə razı olmadı. İstənilən halda Qarabağ Azərbaycanın torpağıdır və Azərbaycan isə sülhün tərəfdarıdır.

Azərbaycan parlamenti ölkə üçün gərgin şəraitdə davam edən 1919-cu ilin yayında qanunvericilik sahəsindəki fəaliyyəti davam etdirir, müzakirəyə ən müxtəlif sahələri əhatə edən qanun layihələri o cümlədən, Balaxan-Sabunçu mahalında vergi polisi təsisi haqqında, şəhərlərdə bələdiyyə idarələrinə seçkilər haqqında, əsgəri xidmətin müddəti barəsində, alkoqol məhsulundan aksiz vergisi miqdarının artırılması haqqında, Azərbaycan hökuməti sərhəd mühafizə polkunun təsisi haqqında, teatr tamaşaları və əyləncə yerlərindən tutulan vergilərin hökumət xəzinəsinə idxalı haqqında, İrəvan xeyriyyə işləri naziri və vəkilin (səlahiyyətli nümayəndə) maaşı və onun idarəsinə 177 min rubl ayrılması haqqında, lisenziyası

olmayan içki ticarətindən alınan cərimələrin artırılması haqqında və s. qanun layihələrini daxil etmişdir.

**Birinci dünya müharibəsi başa çatdıqdan sonra Qafqazda, o cümlədən Azərbaycanda möhkəmlənərək təşəbbüsü ələ alan ingilis komandanlığının mövqeyi 1919-cu ilin yay aylarından zəifləyir və bölgədə ABS-nın fəallığı güclənir.** İngilis komandanlığının fəaliyyəti barədə ölkədə yaşanan gərginlik parlamentin 11 avqust 1919-cu il tarixli iclasında müzakirə edilmişdir. Məclisin Rəyasət heyətinə sosialist fraksiyası tərəfindən sorğu göndərilərək son günlər ingilis komandanlığı ilə baş vermiş proseslərə aydınlıq gətirilməsi istənilmişdir. Azərbaycanın hürriyyətinə və istiqlaliyyətinə təsir edə biləcək hadisələrin baş verə biləcəyini qeyd edən deputatlar, bunu Xəzər dənizində ingilis hərbi komandanlığı tərəfindən hərb gəmilərin Könüllü Orduya verilməsi və paytaxtın müdafiəsiz qalması ilə əsaslandırırdılar. Parlament müzakirələrində göstərilirdi ki, ölkə mətbuatının verdiyi məlumata görə ingilis əsgərləri avqustun ortalarında Zaqafqaziyanı tərk edəcəkləri gözlənilir ki, bu da bizim tərəfdən əlavə əsgəri və digər cavab tədbirlərinin görülməsini zəruri edir. **Zaqafqaziya Cümhuriyyətləri, xüsusən də Azərbaycan Cümhuriyyəti dövlət sərhədinin müəyyən edilməsində yeni demarkasiya xəttinin ortaya çıxdığı və yeni xəttin əvvəlki, Petrovski əvəzinə Yalama stansiyasının orta xətt götürülməsi barədə ingilis komandanlığı yeni qərarı vermişdir.** Bu qərarı böyük narahatçılıqla qarşılayan parlament, hökumətdən ciddi tədbirlər görülməsini tələb edirdi. Parlament belə hesab edirdi ki, Denikinçilər dənizdən böyük üstünlük əldə etməklə yanaşı, Dağıstanda da çoxlu hərbi qüvvə saxlayır ki, bunların da Azərbaycan əleyhinə yönəldiyi hamıya məlumdur. Könüllü ordunun Dərbənddə 300-400 nəfər əsgər olduğu halda indi onların sayı 4-5 minə qədər artırılmışdır.

Avqustun 18-də xarici işlər naziri Məmməd Yusif Cəfərov parlament sorğusuna cavab verərək bildirdi ki, biz daimi komandanlıqdan Denikinçilərin yeri çəkilməsini tələb etmişik. Axırıncı dəfə biz Gürcüstan xarici işlər naziri Kiçikqori ilə birlikdə ingilis generalı Korinin qəbulunda olduq və bizə məlum oldu ki, Denikin göstərilən hüdudlardan kənara çəkilmək istəmir və Dağıstanı tərk etməyəcəkdir. **Hətta birinci dəfə Denikin demorkasiya xəttinin Siyəzən bölgəsinin Qızılburun stansiyasından müəyyən olunmasını istəyirdi. Avqustun 4-də xarici işlər naziri ingilis komandanlığından teleqraf aldıqlarını bildirdi. Məktubda göstərilirdi ki, hüdud təkrar dəyişdirilsin, yeni xətt müəyyən edilsin. İngilislər yeni demokrasiya xətti Samur çayından başlayaraq, Gürcüstan ərazisindəki Suxuma qədər qırmızı xətlə xəritəyə köçürülərək cızmışdılar. Biz bununla yenə də razı olmadıq və Denikinin Dağıstanı tərk**

**etməsini israr etdik. Bizim hökumət hələ də bu tələbə cavab almamışdır.**

M.Y.Cəfərov parlamentə bildirdi ki, Gürcüstan, Azərbaycan və Şimali Qafqaz nümayəndələri birlikdə protest yazıb sülh konfransına göndəriblər. May ayında İtaliya heyəti Tiflisdə olanda hərbi dəniz donanması məsələsi müzakirə edilmişdir. Polkovnik Kabba bizə söz verdi ki, İtaliya hərbi nümayəndələri Bakıya gəlib flotu qəbul edəcək və onu bizə verəcəklər. Onlar bizə hətta hərbi təlimatçılar da verəcəklərinə söz vermişdilər. Lakin italiyanlar gəlmədilər və donanma ingilislərdə qaldı. İngilislər belə hesab edirlər ki, Denikin bolşeviklərlə müharibə edir və ona görə də donanmanın bir hissəsi Könüllü Orduya verilməlidir. Azərbaycan hökuməti dənizdən öz müdafiəsini təşkil etmək üçün ingilislərdən xahiş etmişdir ki, Denikinçilərlə bərabər bizə də donanma gəmiləri versin.

M.Y.Cəfərov parlamentə göndərilən 3-cü sorğunun İngiltərənin niyə buradan getməsi məsələsinə aydınlıq gətirilməsi ilə bağlı olduğunu bildirdi. Biz xarici işlər nazirliyi olaraq buna belə cavab veririk ki, ingilislər buraya gələndə demişdilər ki, biz müvəqqəti gəlmişik və vəzifəmizi görüb gedəcəyik. Azərbaycan və Gürcüstan hökumətləri ingilis komandanlığından xahiş etmişdilər ki, sülh konfransı keçiriləndək getməsinlər. Xarici işlər nazirliyi Azərbaycan üçün təhlükə olduğunu bilir və biz bir millət olaraq öz hüququmuzu, öz azadlığımızı, öz istiqlaliyyətimizi bütün vasitələrdən istifadə edərək müdafiə etməliyik. Müzakirələrin sonunda deputatlar, hökumətin gördüyü tədbirləri qənaətbəxş hesab etmədiklərini bildirdilər. Çünki, xarici işlər nazirinin verdiyi cavablar sorğu göndərənlərə məlum olduğundan, onlar daha konkret addımlar üçün yenidən bu məsələni konkret tədbirlər planı çərçivəsində həll edilməsini tələb edirdilər. **Parlament sədri demokratik prosedurlara əməl edilməsini rəhbər tutaraq, hökumətin verdiyi bəyanatı sorğu göndərənləri təmin etmədiyi üçün "Azərbaycan Parlamenti nakazı" reqlamentinə uyğun olaraq onun yazılı surətdə cavablandırılması və gələcək iclasda müzakirəyə çıxarılacağını bildirdi. Yazılı sualların Rəyasət Heyətinə döndərilməsi isə, deputatlardan xahiş edilirdi.**

Avqustun 28-də "sosialist" fraksiyasının sorğusuna cavab verilməsi üçün baş nazir özü parlamentdə məsələyə aydınlıq gətirdi. **N.Usubbəyli bildirdi ki, sosialistlərin məqsədi hökumətdən cavab alıb, onu kiməsə çatdırmaq məqsədi daşıyır. Onların verdikləri sualların bir çoxunu cavablandırmayacam, çünki bunların bir çoxu dövlət sirridir. Əvvəla donanma ingilis ordusunundur və onlar kimə istəsələr onu verə bilərlər. Lakin biz ingilislərdən xahiş etdik ki, donanmanın bir qismini bizə versinlər.** Denikin bolşeviklərlə müharibə etdiklərinə görə ingilislər onlara hərbi yardım olaraq gəmiləri vermişdi. Bütün Avropanın bolşeviklərə müharibə elan etdiyi bir zamanda, biz Avropanın bu

qərarına etiraz edib özümüzü çətin vəziyyətdə qoya bilmərik. Gürcü nümayəndələrinin dediyinə görə İngiltərə hökuməti, Zaqafqaziyadakı nümayəndəsinə şəxsən göstəriş vermişdir ki, Zaqafqaziya cümhuriyyətləri ilə rəsmi və sıx bir münasibət saxlasınlar. İtaliyada öz nümayəndəsini Qafqaza göndərmişdir. Nümayəndəyə rəsmi səlahiyyət verilmişdır ki, gürcülərlə və Azərbaycanla münasibət qursunlar. Bunlar bizi ümidvar edir ki, Zaqafqaziya yaxın gələcəkdə Rusiyadan ayrılacaqdır. Biz hökumət olaraq hesab edirik ki, Məclisi-Məbusan əzaları bu işdə bizə kömək etməli və gözlənilən xarici təcavüzə qarşı birlikdə hərəkət edlməlidir. Parlament müzakirələrində Azərbaycan hökuməti bildirir ki, xarici düşmənlərimiz içində təkcə Denikin deyil, bolşeviklər də vardır. Bütün dünya, bu təhlükələr qarşısında bizim öz müstəqilliyimizi necə qoruya biləcəyimizi gözləyir. Təəssüf edirəm ki, bu məsələdə deputatlar arasında həmrəylik yoxdur. Bəziləri bu məsələdə hökumətə mane olmaq istəyirlər. Denikinə münasibətdə həmrəylik olduğu halda, bolşeviklərə gəldikdə başqa cür davranırlar. Cümhuriyyət əleyhinə olan bütün təhlükələrə qarşı, bu təhlükə istər sağdan olsun, istərsə də soldan olsun, xarici düşmənlərdən müdafiə etmək üçün hökumət sizdən, parlamentdən kömək gözləyir.

Məsələyə münasibət bildirən sosialistlər qapalı iclas keçirilməsini və hərbi sirr kəsb edən məsələlərə aydınlıq gətirilməsinin mümkünlüyü təklifini irəli sürdülər. Sosialistlərə görə, hökumətin digər cavabları da kafi dərəcədə olmamışdır. Onlar deyirdilər ki, **biz sosialistləri əmin etmirik ki, Denikinçilər Bakıda gizli əsgəri qüvvə və hərbi sursat saxlamırlar. Sosialistlər Denikinin Zakaspi konsulu yanında, Metropol mehmanxanasında gündə yüzlərlə könüllünün yazıldıqlarını görənlərin olduğunu bildirirdilər. Bolşeviklər öz məqsədlərini gizlətməyərək, Denikinçiləri özlərinin birinci düşməni sayırdılar.** Onlar Denikin qarşısını aldıqdan sonra yeni Cümhuriyyətlərin devrilməsi işinin asan olacağını düşünürdülər. **Hətta Denikinçilərin yeni Cümhuriyyətləri müdafiə edə biləcəyindən də ehtiyatlanırdılar.**

Qanunverici orqanın gündəlik iş rejiminin təşkili praktikasında demokratik müzakirələrin keçirilməsi, fikir plüralizmi, azad söz kimi parlamentarizm elementlərini özündə birləşdirən Məclisi-Məhbusan, tutduğu vəzifədən, mənsəbdən, fraksiyadan asılı olmayaraq bütün deputatların sərbəst fikir ifadə etmələrinə şərait yaratması, Azərbaycan parlament demokratiyasının möhkəm təməl üzrə inkişafına kömək edirdi. Bəzən parlamentin bütöv bir iclası, adi məsələlərin demokratik, azad müzakirələrinə həsr edilirdi. Sosialist fraksiyasının sorğularına hökumətin xarici işlər nazirinin cavablarının deputatlar üçün qaneedici olmaması səbəbindən baş nazir parlamentə gələrək sualları şəxsən özünün

cavablandırması, Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin demokratik, hüquqi prinsiplər əsasında təşəkkül tapmasını göstərirdi.

Baş nazir Nəsib bəy Usubbəyli sosialist Əhməd bəy Pepinovun məsələyə partiya mövqeyindən yanaşdığını, onun Denikin hökumətinə bir münasibət, bolşeviklərə isə başqa münasibət göstərməsini tələb etməsi, milli hökumətin elan etdiyi demokratik prinsiplərə ziddiyyət təşkil etdiyini bildirdi. Sosialistlər Denikinin Bakıda qərargahı olduğunu və tədbirlər görülməsini tələb edirlər. Bolşeviklərdən bəhs edəndə isə deyirlər ki, bizdə söz, vicdan və digər demokratik azadlıqlar təmin edilməlidir. **Bəli, Azərbaycanın dövlət quruluşu Cümhuriyyədir. Hökumət belə hesab edir ki, Azərbaycan xalqı arasında bolşevizm ideyalarını yaymaq və milli hökuməti devirmək istəyən qüvvələr var. Qəzetlərdə bolşevikləri Azərbaycana dəvət etmək istəyənlər də var. Bolşevizm bizim üçün bir təhlükədir, bəlkə daha da böyük təhlükədir. Hal-hazırda bütün dünya bolşevizmlə mübarizə edidir. Dünya bizim bolşevizmə münasibətimizi bilmək istəyir. Avropa bu gün desək ki, Azərbaycanın istiqlalını tanıyıb, təsdiq edəcəm, mən sabah burada bir bolşevikdə qoymaram. Lakin biz azadlıq, demokratiya, vicdan tərəfdarıyıq. Bu məsələdə mən bolşeviklərə daha da çox demokratiya vermək istəyirəm. Sosialistlər isə bir tərəfə tam sərbəstlik verdikləri halda, digər tərəfi boğmaq istəyirlər. Azərbaycan hökuməti isə hər iki tərəfə tam sərbəstlik verir.** Lakin hər işin bir həddi var. İstər bolşevik olsun, istər menşevik olsun, istərsə də Denikin tərəfdarı olsun, bizə mane olsalar hökumət onların qabağını alacaqdır. Bu işlərdə mənə kömək etməsələr də, heç olmasa mane olmasınlar. Mən heç görmədim ki, Denikinin adamlarını həbs edəndə, sosialistlər onların azad edilməsi üçün yanıma gəlsinlər. Biz qanun çərçivəsində bolşevik də tuturuq, lakin çoxunu da bolşevik olduğuna görə buraxırıq. Sosialistlərlə bizim baxışlarımızda bir fərq var. Biz hamısına bir nəzərlə baxırıq. Hökumətin daxili işlər orqanları yalnız vətənimizin, istiqlalımızın düşmənlərini tuturlar. N.Usubbəylinin fikrincə bizim istiqlalımızı, bizim hüququmuzu, üsul-idarəmizi dəyişmək istəyənləri, bizə təcavüz edənləri dayandırmaq lazımdır.

Sosialist bloku, parlament müzakirələrində baş naziri belə bir məsələdə ittiham edirdi ki, hələ vaxtilə söylədiyi, lazım gələrsə biz üç günə əsəgərlərimizin gücü ilə, Denikinçiləri Dağıstandan çıxararıq, deməsinə baxmayaraq bunun əksini gördüklərini bildirirdilər. Sosialistlər hesab edir ki, N.Usubbəyli hökuməti demokrasiya xəttinin Petroviskidən keçməsinə razı olmamalı idilər. Şimali Qafqaz xalqlarını özümümzə qardaş biliriksə, biz buna razı olmamalı idik. Sosialistlərin sözlərinə görə, onlar Nəsib bəyin bu fikri ilə də şərik olmurlar ki, xaricdən bizə

düşmən gəlsə daxildən onunla birləşən qüvvələr olacaqdır. Çünki, azadlıqlarını əldə etmiş, məzlum millətlərə bolşevizmlə mübarizə aparmaq əvəzinə onların istiqlaliyyətlərinin tanınması fikrini Azərbaycan sosialistləri müdafiə etmir. Millətlərin müqəddəratını təyin etmək imperialistlərin əlində deyil. Sosialistlərin fikrincə bizim istiqlaliyyətimizi, məhz Avropa demokratiyası təsdiq edib tanıyacaqdır.

Sentyabrın 1-də bu məsələ barədə sosialist fraksiyasının parlamentə təqdim etdiyi yekun qərarda göstərilirdi ki, hökumət, sərəncamında olan vəsait və qüvvələrdən xarici düşmənə qarşı mübarizədə kifayət qədər istifadə edə bilməmiş və buna görə də Məclisi-Məbusan, hökumətdən tələb edir ki, məmləkətimizi və sərhədlərimizi mövcud təhlükədən müdafiə etmək üçün ən qəti tədbirlər görsün və düşmənin bizim daxilimizdə olan casusları ilə sərt mübarizə aparsın. "Azərbaycan parlament nakazı"na uyğun olaraq sorğuların müzakirəsində iştirak etmiş digər tərəfdə öz "formul"unu, yəni alternativ yekun qərarını səs verməyə təqdim etmək hüququna malik idi. Digər tərəfin, "Müsavat" fraksiyasından olan baş nazir N.Usubbəyli hökumətinin fikirlərini ifadə edən qərar isə bundan ibrət olmuşdur: hökumətin sorğuya verdiyi cavab kafi qiymətləndirilsin və Məclisi-Məbusan növbədəki məsələlərin müzakirəsinə keçsin. Nizamnaməyə müvafiq olaraq Parlament sədri H.Ağayev hər iki qərarı səs verməyə çıxarır və hakim partiyanın təqdim etdiyi təklif səs çoxluğu ilə qəbul edilir. **Azərbaycan parlamenti sentyabrın 1-də keçirilən iclasında qarşıdan gələn Qurban bayramı münasibəti ilə 10 gün qeyri-iş günü elan etmişdir.**

I Respublikanın parlamenti 1919-cu il avqustun 21-də Bakı Universitetinin açılmasını nəzərdə tutan qanun layihəsinin ilk müzakirəsini keçirdi. Qanun layihəsini deputatlara M.Y.Cəfərov təqdim etdi. Məruzəçinin sözlərinə görə Bakıda Darülfununun açılması ictimaiyyət arasında geniş müzakirəyə səbəb olmuşdur. Universitetin açılmasına həm cəmiyyətdə, həm də parlament əzaları arasında iki mövqey formalaşmışdı. Əslində bu mövqelər universitetin açılması əleyhinə olmamışdır. Lakin onun açılması vaxtı, kadr məsələləri səbəbindən mübahisələrə səbəb olmuşdur. Darülfunun açılması təşəbbüsü hökumətə məxsus olmuşdur. Ümumilikdə Azərbaycan Xalq Cümhuriyyəti parlamenti və hökuməti, mədəni quruculuğa, maarif işlərinə böyük diqqət yetirir, dağıdılmış məktəblər şəbəkəsinin bərpa edilməsi, məktəblərin yeni şəraitə uyğunlaşdırılması, təhsil müəssisələrinin milliləşdirilməsi və s. məsələləri sistemli və məqsədyönlü aparılmasına çalışırdı. Ali təhsilin təşkili Azərbaycan parlamenti və hökuməti qarşısında təxirəsalınmaz vəzifə kimi olduğundan bu məsələ Cümhuriyyətin bütün təbəqələrinin diqqətində olmuşdur. Azərbaycan Xalq Cümhuriyyəti təkcə ali təhsil

deyil, ən müxtəlif sahələr üçün kadrlar hazırlanmasını da vacib sayırdı. Bu işlərin görülməsi üçün hökumət xüsusi tədbirlər həyata keçirməyə başlamışdır. Belə ki, Bakı Darülfununun açılması üçün xüsusi komissiya təşkil edilmişdir. **Komissiyanın tərkibinə bələdiyyə idarəsi, neft-mədən nümayəndələri, görkəmli elm və maarif xadimləri** daxil idilər. Qanun layihəsini hazırlayan komissiya çox mühüm və çətin işin öhdəsindən qısa müddətdə gələ bilmişdir. Universitetin əleyhinə çıxan qüvvələr iddia edirdilər ki, burada Azərbaycan dilində tədris olmadığından milli kadrlar hazırlmaq mümkün olmayacaqdır. Onların mövqeyinə görə Bakı Universitetinin açılması bu baxımdan hələ tezdir. Digər tərəfdən Bakı şəhərində Universiteti yerləşdirmək üçün münasib binanın olmaması və s. məsələlərdə göstərilirdi. **"Bakı Darülfunun təşkil olunması haqqında" qanun layihəsi parlamentin ardıcıl üç iclasında, avqustun 21-də birinci qiraət, avqustun 25-də ikinci qiraət və sentyabrın 1-də üçüncü qiraətdən keçərək təsdiq edilmişdir. Parlamentlə yanaşı, Azərbaycan hökuməti də Universitetin maddi-texniki təchizi, pedaqoji kadrların cəlb olunması məsələsini diqqətdə saxlamışdır. Parlament müzakirələrində "İttihad" fraksiyasından çıxış edən Q.Qarabəyli obrazlı olaraq, mən bura darülfunun müdafiəsi üçün danışmağa çıxmamışam, bir işin ki, adı darülfunundu, o da özü-özünü müdafiə edir, fikrini söylədi. "Müsavat" fraksiyası da dövlətin elm və maarifə ehtiyacını ödəmək üçün hər cür səy göstərməsini alqışladı. Deputatların fikrincə, daha ixtisaslı və bilikli mütəxəssislər hazırlamaq üçün Avropaya tələbələr göndərməliyik. Hökumət proqramında Azərbaycan Darülfununa xaricdən professor və müəllimlərin cəlb edilməsi nəzərdə tutulmuşdur. Maarif naziri Rəşid bəy Kaplanov bildirdi ki, ali təhsilli kadrlar yetişdirmək üçün iki yol vardır. Birincisi gəncləri təhsil almaq üçün xarici ölkələrə göndərmək, ikincisi Azərbaycan dilində bir darülfununu açmaq idi ki, bizim hökumət hər iki yolu seçmişdi.** Bakı Dövlət Darülfünun layihəsi və nizamnaməsinin təsdiq olunması Xalq Cümhuriyyəti tarixində ən fərəhli hadisələrdən idi.

Parlamentdə M.Qənizadə deputatlara müraciət edərək qeyd etdi ki, bu gün H.Z.Tağıyevin də arzusunun həyata keçdiyi gündür. **1918-ci ilin mart ayında Lənkəranda xidmət edən Milli Ordunun zabiti H.Z.Tağıyevin oğlu Məhəmmədin faciəli şəkildə vəfatı və onun dəfni zamanı Hacı cənabları camaata müraciət edərək demişdir ki, mən oğlumun toyunu etmək istəyirdim, lakin qəza belə gətirdi ki, oğlum əldən getdi. Ona görə mən oğlumun yadigarı olaraq millətin xeyri üçün, gələcəkdə onun kimi gənclər xoşbəxt olsunlar deyə istəyirəm ki, Bakıda bir Darülfünun təsis olunsun və mən öz passajımı darülfünə bəxş edim.**

**Azərbaycan xalqının maariflənməsi sahəsində xeyriyyəçilik fəaliyyətini əsirgəməyən Hacı Zeynalabidin Tağıyev, birinci dünya savaşı zamanı da, Anadolu türklərinə təmannasız yardım etmiş və belə bir fikir söyləmişdir ki, pul gedər də, gələr də, lakin şərəf gedər, lakin gəlməz. Biz azərbaycanlıların Türkiyədəki müsəlman qardaşlarımıza köməyimiz, bizim üçün bir şərəf məsələsidir.**

1919-cu il sentyabrın 1-də Azərbaycan parlamenti xaricə göndərilən tələbələr üçün 7 milyon rubl ayrılması haqqında qərar çıxardı. 1919/20-ci tədris ilində cəmi 100 abituriyent və tələbə xaricə göndərilməsi nəzərdə tutulmuşdur. Avropaya göndərilən gənclərin hər birinə 1000 frank yol xərci və 400 frank hər ay vəsait ayrılması nəzərdə tutulurdu. Rusiyaya göndərilən tələbələr üçün isə müvafiq olaraq 3 min rubl yol xərci və 3 min rubl aylıq təqaüd ayrıldı. A.Malxazyanın təklifi ilə Dövlət təqaüdü alan tələbələr, 4 illik təhsili başa vurduqdan sonra, hökumətin təyinatı ilə ölkədə 4 il çalışmalı idilər.

Darülfünunun fəaliyyətə başlamasından sonra, rektoru verdiyi məlumata əsasən Darülfünunun tarix-filoloji fakültəsinin birinci kursunda 509 həqiqi tələbə milliyət üzrə belə bölünür: 125 müsəlman, 178 - yəhudi, 121 - rus, 67 - erməni, 5 - gürcü, 13 - polyak və alman. Darülfünunda cəmi 877 həqiqi tələbə təhsil alırdı. Bunlardan başqa Darülfünunda 217 azad dinləyici də, iştirak edirdi. Cümhuriyyətin "Azərbaycan" və "Azerbaydjan" qəzetlərinin demək olar ki, bütün nömrələrində Bakı Dövlət Darülfünunun professor-müəllim və tələbə heyətlərinin gündəlik həyatı, fəaliyyəti, ehtiyacları haqqında məqalələr və rəsmi xəbərlər dərc edilmişdir. Azərbaycan Xalq Cümhuriyyəti ilk ali təhsil ocağı - Bakı Dövlət Darülfünunun birinci nəticələrini Azərbaycan xalqı 1922-ci ildə gördu. Həmin il 30 nəfər şərəfli həkim adına layiq olduqları haqda Bakı Darülfünununun diplomunu aldılar.

1919-cu il avqustun 28-də, parlament və hökumətin xüsusi diqqətdə saxladığı "Müəssislər Məclisinə seçkilər haqqında" komissiyanın iclası keçirilmişdi. İclasda M.Ə.Rəsulzadə komissiyanın sədri, M.Vəkilov komissiyanın katibi, Ə.C.Pepinov sədrin müavini və H.Məmmədbəyov xəzinədar seçilmişdilər. Komissiyanın iclasında, Azərbaycan Müəssislər Məclisinə seçkilərə dair təlimat hazırlamaq üçün Ş.Rüstəmbəyov, A.İ.Malxazyan və K.Məmmədbəyovdan ibarət alt komissiya da müəyyən edilmişdir.

Avqustun 28-də parlament daha bir mühüm sənədi "Dövlət bankı haqqında" qanun layihəsini müzakirə etdi. Maliyyə naziri Əlağa Həsənovun məlumatına görə Bankın nizamnaməsi Rusiya daxilində istifadə edilən bank sənədləri əsasında hazırlanmışdır. Məruzəçinin fikrincə Dövlət Bankı elə bir müəssisədir ki, orada

bütün işlər şəffaf həyata keçirilməlidir. Hökumətin açdığı bank şəxsi bir mənfəət üçün deyil bütün xalq üçün xeyir və mənfəət gətirməlidir. Nazirin sözlərinə görə Dövlət Bankı demokratik bir əsaslar üzərində qurulan müəssisə olacaqdır. Dövlət bankının açılması digər bankların fəaliyyətində nəzarət funksiyasını yerinə yetirəcəkdir. Maliyyə nazirinin fikrincə Bankın açılması faiz dərəcələrində aşağı salacaqdır. Hökumət belə hesab edir ki, millətin və dövlətin tərəqqisi maliyyə-bank işlərinin nizamlanmasından çox asılıdır. Çünki, dövlətin maliyyə işlərini nizamlaya bilsək, digər hərbi, maarif və s. sahələrin inkişafına nail ola bilərik. Hökumət maliyyə nazirinə Dövlət Bankının nizamnaməsini hazırlamağı, hələ 1919-cu il yazında tapşırıq vermişdir. Nazirlikdən asılı olmayan səbəblərdən layihəni tez tamamlamaq mümkün olmamışdır. 1919-cu il iyununda ingilis hərbi komandanlığının nəzarətində olan Dövlət Bankı Azərbaycan Xalq Cümhuriyyəti hökumətinə verildi və ingilis hərbi komandanlığının borcu Azərbaycan hökuməti maliyyə nazirliyi hesabına silindi. Maliyyə naziri, keçmiş dövrdən qalma əmanətlərin banklar tərəfindən qaytarılmadığını deputatların nəzərinə çatdırdı. Banklar ciddi tədbirlər görüb xalqın borcunu ödəməlidirlər. Hökumətin Dövlət Bankı təşkil edilsə, xalqın borcunu qaytarmaq mümkün olacaqdır. Lakin maliyyə nazirliyi bu borc əmanətlərini birdəfəlik deyil, tədricən qaytarmağı nəzərdə tuturdu. Çar hakimiyyəti dövründə Azərbaycandakı banklara Rusiya Dövlət Bankı nəzarət edirdi. Hal-hazırda Cümhuriyyətdə bütün banklara nəzarət edəcək və onların fəaliyyətini tənzimləyəcək hər hansı bir mərkəzi bank yoxdur. Hökumətin yaratmaq istədiyi bank bu vəzifəni yerinə yetirəcəkdir. Parlamentə təqdim edilmiş nizamnamə layihəsində Dövlət bankının sərmayəsi (kapitalı) 50 milyon manat olması nəzərdə tutulurdu. Layihəyə görə 20 milyon manat da ehtiyac sərmayəsinə daxil edilirdi. Maliyyə nazirinin məlumatına görə Dövlət Bankı köhnə bankın borcunu öhdəsinə götürməyəcəkdir. Həmçinin də onun mənfəətindən istifadə etməyəcəkdir. Cümhuriyyətdə Mərkəzi Əmanət Kassaları da fəaliyyət göstərəcəkdir. Maliyyə nazirinin məlumatına görə xəzinədarlığın 12 mərkəzi kassası vardır. Xəzinədarlıqda 35 poçt idarəsi fəaliyyət göstərir. Hökumətin tapşırığı ilə maliyyə nazirliyi bu kassaları açmış və təcili olduğundan dərhal işə başlanılmışdır. Eyni zamanda köhnə kassaların 12 milyon borcunu da qəbul etmişdir. Beləliklə, Azərbaycan parlamenti müzakirələrdən sonra 1919-cu ilin sentyabrında Cümhuriyyətin Dövlət Bankının yaradılması haqqında qanun qəbul etdi. Dövlət Bankı, Rusiya Bank ilə danışıqlar apararaq pul nişanları və poçt markaları buraxmağı da nəzərdə tuturdu.

**1919-cu il sentyabrın 15-də Azərbaycan Cümhuriyyəti tarixinin əlamətdar günlərdən biri idi. Həmin gün Bakı şəhərinin “Sentrokaspi diktaturası” və bolşevik tör-töküntülərindən azad edilməsinin 1-ci ildönümü təntənəli şəkildə**

qeyd olundu. **Bayram şənlikləri bir də onunla əlamətdar idi ki, Qarabağda Azərbaycan hakimiyyəti tam fəaliyyətə başlamış,** Qarabağ general-qubernatorluğunun gördüyü siyasi-hərbi səciyyəli tədbirlərinin nəticəsində bu bölgədə sabitlik yaranmışdı. **1919-cu ilin avqustunda Qarabağda yaşayan ermənilər öz yığıncaqlarında Azərbaycan Cümhuriyyəti hakimiyyətinin tanınması barədə baş nazir N.Usubbəyliyə məktub göndərmiş və Bakıya gələrək onun qəbulunda olmuşdular.**

Bakının milli ordu tərəfindən azad edilməsinin birinci ildönümü ərəfəsində baş verən digər mühüm hadisə **Lənkəranda Azərbaycanın ərazi bütövlüyünü pozmağa cəhd edən polkovnik İliyuşeviçin başçılıq etdiyi bolşevik-molokan və erməni daşnak tör-töküntülərinin yerli müsəlmanlar və milli ordu tərəfindən qovulması olmuşdur. Burada məskunlaşan rus kəndliləri-molokanlardan istifadə edən Könüllü Ordu və Sovet bolşevik hakimiyyəti, o cümlədən erməni-daşnak Mikoyan, Lənkəranda Şura hökuməti qurmaqla Azərbaycanın ərazi bütövlüyünü pozmağa cəhd etmişdilər. Bolşeviklər S.Kirov və N.Nərimanovun yerli Şura hökuməti ilə sıx əlaqəsi olmuşdur.** Eyni zamanda bir-birinə düşmən olmalarına baxmayaraq hələlik onlar üçün ümum düşmən - Azərbaycan Xalq Cümhuriyyətinə qarşı hər iki tərəf - bolşevik və Denikinçilər də birləşirdilər. Cümhuriyyət ordusu iyulun 25-də düşməni məhv edərək Qızıl Ordunun 1 təyyarəsi, 24 topu və 60 pulemyotunu ələ keçirərək, Azərbaycanın ərazi bütövlüyünü təmin etdi. Avqustun ortalarında parlament üzvləri M.Ə.Rəsulzadə, A.Kazımzadə və M.Şeyxzamanov Lənkəranda olaraq qəzanın əhalisi ilə görüşmüş və son hadisələrlə bağlı siyasi vəziyyətlə tanış olmuşdular.

Bakının azad edilməsi ilə əlaqədar olaraq sentyabrın 15-də Azərbaycan Məclisi-Məbusanın təntənəli iclası keçirilmişdir. İclasa sədrlik edən Həsən bəy Ağayev parlamentarilərə müraciət edərək bildirdi ki, bu gün düz bir ildir ki, Azərbaycanın milli mərkəzi olan Bakının düşmənlərdən azad edilməsi vaxtı tamam olur. Bizi bölmək istəyən, hüquqlarımızı əldən almaq istəyən düşmən 1918-ci ilin martından başlayaraq sentyabrın 15-nə kimi Bakı və onun ətrafını işğalda saxlamışdılar. Bizim Milli Ordu ən müqəddəs hesab etdiyimiz paytaxtımız Bakını azad edib özümüzə qaytardılar. Qan bahası ilə aldığımız istiqlalımızı, hər şeydən yüksək tutaraq onun qorunması uğrunda birləşməliyik. Parlamentdə Bakının və Azərbaycanın azadlığı yolunda şəhid olan türk igidlərinin xatirəsini yad etmək üçün hamı ayağa qalxır. H.Ağayev deputatlara müraciət edərək bu gün Bakıda təntənəli parad keçiriləcəyini və bütün parlament üzvlərini bu mərasimdə iştirak etməyə dəvət etdiyini bildirdi.

Azərbaycan Ordusunun hərbi paradında iştirak etmək üçün 1919-cu il sentyabrın 15-i saat 11-də hökumət üzvləri, baş nazir N.Usubbəyli, parlament sədri əvəzi H.Ağayev, parlament üzvləri, hərbi nazir S.Mehmandarov və onun müavini Ə.Şıxlinski, Azərbaycan ordusu general və zabitləri dəniz sahilindəki meydanda idilər. Təntənəli parada şəxsən general Mehmandarov komandanlıq edirdi. Paradı baş nazir N.Usubbəyli qəbul etdi. Təntənəli marşla tribuna önündən keçən əsgərlər oradan birbaşa şəhidlər xiyabanına yollandılar. Burada dövlət və hökumət nümayəndələrinin iştirakı ilə şəhidlər üçün xatirə abidəsinin qoyulması mərasimi oldu. Mərasimdə çıxış edən parlament sədri, baş nazir və deputatlar Azərbaycan istiqlaliyyətinin qorunması və möhkəmlənməsi üçün bütün tədbirlərin görülməsi zərurətini bildirdilər.

**Ölkənin daxili və xarici siyasəti ilə əlaqədar olaraq IV hökumətin gördüyü işlər, deputat fraksiyaları tərəfindən ciddi tənqid edildiyi üçün, Nazirlər Kabinetin sədri N.Usubbəyli parlamentə müraciət etmişdir. Qanunverci orqanın 1919-cu il sentyabrın 18-də keçirilən iclasında baş nazirin parlament sədrinə ünvanlanmış istefa ərizəsi elan olundu. Sosialist bloku və "Əhrar" fraksiyasının xarici təhlükə və digər daxili məsələlərlə bağlı məlum sorğularına hökumətin cavabından sonra hökumətə etimad sual altına alınmış olurdu. Bu məsələlərin müzakirəsi zamanı parlament deputatlarının əksəriyyəti hökumətin platformasını qəbul etdiklərini bildirsələr də, hökumət öz növbəsində belə qənaətə gəlmişdir ki, onun mövqeylərin müdafiə edən, fəaliyyətinə heç bir şübhə və şərtlərlə yanaşmayan sarsılmaz mərkəz yoxdur və istefa verməyi zəruri hesab edir. Baş nazir, parlament sədrinə ünvanladığı məktubda göstərirdi ki, bütün qüvvələri bir mərkəzdə birləşdirəcək, hamının etimad göstərəcəyi və onların bütün şərtlərini qəbul edəcək hökumətin yaradılması arzusu onu istefa verməyə məcbur etmişdir.** "Sosialist" fraksiyasının üzvü S.Ağamalı oğlu tərəfindən 14 sentyabr 1919-cu ildə baş nazir M.Usubbəyliyə ünvanlanmış məktubda bildirilirdi ki, fraksiyanın geniş yığıncağında sizin parlamentdəki çıxışınızdakı məsələlər müzakirə edilərək ümumilikdə platformanıza qarşı olmadığımızı, ancaq onun bəzi hissələrinə qarşı olmaqla, bunun əvəzində öz şərtimizi - ərzaq məsələsinin tənzimlənməsində qəti tədbirlər görülməsi tələbini irəli sürürük. Əgər bu şərt qəbul olunarsa, öz fikrinizi məktubla sosialistlərə göndərməyinizi xahiş edirik. Fraksiya belə hesab edirdi ki, yalnız bundan sonra biz hökumət kabinetinin firqələr arasında bölüşdürülməsi konstruksiyası şərtləri haqqında danışıqlar apara bilərik. Məktubun sonunda sosialistlər bu şərtlərini hakimiyyətdə olcaq bütün hökumətlərdən tələb edəcəklərini də bildirirdilər. Sosialistlərin sorğularına cavab olaraq H.Ağayev hökumətin hələlik istefası məsələsinin 18 sentyabr iclasında müzakirə

olunmayacağını və baş nazirin səlahiyyətlərini davam etdirəcəyini deputatlara elan etdi.

Oktyabrın 13-də Azərbaycan parlamentində hökumətin təşkil olunması qaydası haqqında, həmçinin, **hökumət əleyhinə və hökumət əsasları əleyhinə sui-qəsd edənlər və üsyançıların məsuliyyəti barədə qanun layihələri müzakirə edildi.** Deputatlar bildirdilər ki, bizim nakazımızda (parlamentin daxili nizamnaməsində) hökumətin təşkili barəsində heç bir maddə təsbit olunmayıb. Sentyabrın 18-də baş nazir istefa ərizəsi ilə parlamentə müraciət etmişdir. Lakin nakazda hökumətin hansı qaydada təşkil olunacağı barədə heç nə deyilmir. Bu nakaz Rusiya Dövlət Dumasının nizamnaməsindən götürülüb və təbii ki, imperiya qanunlarında demokratik əsaslı hökumətin təşkili barədə bəhs oluna bilməzdi. Artıq üç həftədir ki, hökumət istefa verib. Neçə vaxtdır parlament və siyasi qüvvələr hökumətin yenidən qurulmasını gözləyir. Hökumət istefa verəndə parlamentin rəyasət heyəti hökumətin işini davam etdirməsi və yeni hökumət təşkili barədə özü təşəbbüs edəcəyini bildirmişdir. Parlament sədri yeni hökumətin təşkilini kimə həvalə edəcəyini və onun hansı nəticəsi olacağını deyə bilməyəcəyini, deputatlara elan etdi. Müvəqqəti vəzifələri icra edən məmurlar da onların yenidən təyin olunacaqlarını tərəddüdlə gözləyirlər. Parlamentdə çıxış edən deputatlar bildirirdilər ki, onlar yalnız qəzetlərdən oxuyublar ki, yeni hökumətin təşkili yenə də Nəsib bəyə həvalə edilib.

Parlamentə təqdim edilmiş Dövlət əleyhinə törədilən cinayət əməllərinə görə qanun layihəsindəki maddələrin bir çoxu, Rusiya imperiya dövrü qanunlarının anologiyası idi. Cümhuriyyət dövründə bu maddələrin saxlanılması qeyri-mümkün olduğu üçün, onları qismən və ya tamamilə ləğv etmək və ya dəyişmək zəruriyyəti yaranmışdır. Bu maddələr Rusiya monarxiyası dövrünə aiddir. Lakin bəzi deputatlar maddələri çar əleyhinə, çar ailəsi əleyhinə törədilən sui-qəsdləri və s. maddələri indi parlament sədri, parlament deputatları əleyhinə törədilən cinayətlər kimi tövsiv edilə biləcəyini istisna etmirdilər. Demokratik azadlıqlara daxil olan mitinqlər və nümayişlərlə bağlı maddələrə əlavələr və dəyişiklik edilməsi zərurəti də yaranmışdır. Deputatların mövqeyinə görə Respublika quruluşunda qadağanlar və cəzalar yüngülləşdirilməli, edam cəzalarına daxil olan maddələrin tərkibinə baxılmalı, fiziki cəza ləğv edilməlidir. 129-cu maddə hökumət və mövcud üsul-idarə əleyhinə tənqidi fikir söyləməyə görə təqibi nəzərdə tuturdu. Ədliyyə nazirinin təqdimatı ilə bu maddənin tamamilə ləğv edilməsi təklif olunurdu. Lakin komissiya bu maddənin saxlanılmasının tərəfdarı olduğunu bildirmişdır. 134-cü maddə şəxsin fikir və düşüncəsini ifadə etmək əleyhinədir. Fikirləşdiyini və düşündüyünü yazmaq və nəşr etmək komissiyanın fikrincə cinayət deyil. Bu

maddə azad düşünmək əleyhinə yönəldiyi üçün komissiya onun ləğvini istəyir. Komissiya belə hesab edir ki, cinayət varsa cəza olmalıdır. Lakin bu ədalət mühakiməsi tərəfindən və qanun gücü ilə edilməlidir. Rusiya imperiyası dövründə isə bu cəza inzibati idarə məmurları tərəfindən tətbiq edilirdi. Demokratik dövlət də, belə səlahiyyətlər müstəsina olaraq məhkəmələrə həvalə edilməlidir. "Hümmət" bolşevik fraksiyasında olan deputat S.Ağamalıoğlu Ədliyyə Nazirliyinin təqdim etdiyi layihəni tənqid edərək bildirdi ki, Azərbaycan Cümhuriyyətində görünür ki, hürriyyətdən yorulublar və onu əlimizdən tamamilə almaq, birdəfəlik ləğv etmək istəyirlər. Bu, parlament azadlığı tədricən əlimizdən almağa başlayıb. Qanunda deyilir ki, bir şəxs, başqasının əleyhinə danışdı, ona cəza vermək lazımdır. Rusiya dövründə olduğu kimi "ictimai sakitliyi pozmağa" görə adamı həbs edirlər. Biz bolşeviklər Qazaxda qurultay keçirəndə bir nəfərin cibindən bir qırıq kağız çıxdığı üçün onu həbs etdilər. Parlament müzakirələrində o da bildirildi ki, bu qanun Ağamalıoğlunun firqə yoldaşı tərəfindən təqdim edilib. Digər tərəfdən bolşeviklər belə hesab edirlər ki, hürriyyət olan ölkələrdə qanun olmalıdır. Məlumdur ki, hər hansı bir hökumətdə qanun olmasa, orada anarxiya baş verər və hürriyyət əldən gedər. Komissiya belə hesab edir ki, əksinə qanun olmalıdır və qanunverici orqan Cümhuriyyət üçün çox zəruri olan qanunları tez qəbul etməlidir. Cümhuriyyətin baş naziri və ya deputatlar əleyhinə olan cinayətləri, sui-qəsdləri, təsbit etməmək də mümkündür. Praktikada buna o qədər də ehtiyac yoxdur. Komissiyanın fikrincə biz məmləkətdə ədalət məhkəmələrinin təşkilini sürətləndirməliyik. Parlamentdə ədalət mühakiməsi hakimlərinin seçkisini keçirmək, məhkəmələri necə təşkil etmək, andlı məhkəmələri yaratmaq, məhkəmələrdə qanunlara necə dürüst əməl olunmasını və s. məsələləri deputatlar ədliyyə nazirliyindən gözlədiklərini bildirdilər. Parlament hesab edir ki, söz azadlığı olmayan məmləkət, mövcud ola bilməz, yaşaya bilməz. Demokratik azadlıqları təmin etmiş dövlətlər tərəqqi etmiş və sivill dövlətə çevrilmişdilər. Bizim göz tikdiyimiz İngiltərədə hər cür söz azadlığı təmin edilir. Deputatların fikrincə söz, fikir azadlığından qorxmaq lazım deyil. Söylənilən bir söz ki, insana, mülkiyyətə toxunmursa onu tənqid, qadağan etmək olmaz. Qonşu İranda da qanunlar var, oğurluq edənin əlini, pis danışanın dilini kəsərlər. Azərbaycan Cümhuriyyəti sivil Avropanın yolunu getmək istəyir. Belə yolu göstərən qanunları bizim Cümhuriyyətdə qəbul etməlidir. **Bu baxımdan Azərbaycan vətəndaşlırının hüquq və azadlıqlarının təmin olunmasında oktyabrın 27-si və 30-da parlamentdə müzakirə olunan "Mətbuat nizamnaməsi haqqında" qanunun 3-cü qiraətdən keçərək qəbul edilməsinin böyük əhəmiyyəti var. Qanun Azərbaycan Cümhuriyyətində demokratik mətbuatın inkişafına geniş şərait yaradılmasını nəzərdə tuturdu. Müzakirələrdə deputatlar mətbuata sədd qoyulmasının və onun müqəddəratının inzibati orqanlardan asılılığının**

**aradan qaldırılmasını nəzərdə tutan qanunun hazırlamasının vacibliyini vurğuladılar.** Əvvəllər inzibati orqanlar qəzetlərə və kitablara nəzarət edir, onun çıxmasına əngəllər yaradırdılar. İndi bu hüquq mətbuat müdirinə həvalə edilirdi. Müzakirələrdə qanunun 4-cü maddəsində nəzarət işi müdiriyyətə həvalə olunmasına sosialist blokundan Əbilov etiraz etdi və bu maddənin ləğv edilməsini təklif edir. Bu maddənin saxlanılması tərəfdarları isə bildirirlər ki, qanunun 11-ci maddəsinə görə qəzet nəşr edəndən, qəzetin açılması üçün ərizə və məlumat tələb olunur. Bunun üçün yerlərdə olan qubernatorlar vasitəsilə mətbuat müdriyyətinə məlumat verilir və icazə alınır. Bu maddələrin əleyhdarları mətbuatı yenidən adminstrasiya ixtiyarına veriləcəyindən ehtiyat etdiklərini bildirdilər. Əslində, inzibati orqanlar tərəfindən qəzet buraxılmasına nəzarəti aradan götürən qanun, bu səlahiyyətləri yaradılacaq mətbuat işləri müdirinə verilməsini nəzərdə tuturdu. Parlamentə göndərilən "Mətbuat nizamnaməsi haqqında" qanunda mətbuat və nəşriyyat işinin bir yerə toplanılması nəzərdə tutulurdu. Lakin qəzalarda mətbəələrin az olması və ya heç olmaması hər yerə mətbuat nümayəndəsini təyin etmək imkanı vermirdi. İki və yaxud daha çox mətbəəsi olan yerlərdə bir nümayəndə təyin olunması məqbul hesab olunur. Bakı şəhərində dövri mətbuat çox olduğundan burada böyük mətbuat təşkilatının olması göstərilirdi. Mətbuat mərkəzi hökumətin deyil, mətbuatın marağını gözləməlidir. **Mətbuat haqqında qanun müzakirəsi zamanı sosialist bloku parlamentə təzyiq etmək məqsədilə müzakirələrdə iştirak etməkdən imtina edərək zalı tərk etdi. Parlament katibi Ə.Pepinov da sosialist blokunu təmsil etdiyindən onlara qoşulur. Parlamentin sədri H.Ağayev katibin parlamentin Rəyasət heyətin təmsil etdiyini bildirərək onun qayıtmasını xahiş edir və öz fikrini belə izah edir ki, mən də "Müsavat" fraksiyasını təmsil edirəm, sabah onlar da belə etsələr, onda mən də iclası tərk etməliyəm? Parlamentin Rəyasət heyətinə seçilənlər də demokratik bir hakimiyyətdə olduğu kimi qanun müzakirələrində iştirak edib öz təkliflərini sərbəst ifadə etmək hüququna malikdirlər. Parlament sədri belə hesab edirdi ki, Rəyasət heyətini təmsil edən Məclis üzvü belə aksiyalarda iştirak etməməlidir.**

Müzakirələrdə deputatlar həmçinin qanunun 11-ci maddəsinə də etiraz edirdilər. Mətbuat haqqında qanun 11-ci maddəsinə görə Azərbaycanda təbəəsi olmayanlar qəzet təsis edə bilməzdilər ki, bu da demokratik prinsiplərə zidd hesab edilirdi. Əgər qəzetdə yazılanlarda cinayət yoxdursa, dövlət əleyhinə getmirsə, təsisçinin bolşevik və ya digər ölkə vətəndaşı olmasının əhəmiyyəti yoxdur. Bəzi deputatlar Azərbaycanda ümumi əfv elan edilmədiyindən cinayətkar elementlərin bundan istifadə edəcəklərini bildirirək, bu hüququn yalnız Azərbaycan vətəndaşlarına verilməsini qəbul etdilər. Beləliklə, mətbuat haqqında qanun böyük

maraq doğurmaqla deputatlar tərəfindən geniş müzakirə edildi. Azərbaycan parlamenti 30 oktyabr 1919-cu il qanunu ilə “Mətbuat haqqında nizamnamə”ni təklif olunan əlavələr və dəyişiklikləri nəzərə almaqla təsdiq etdi.

Qanunverici orqan dövlətin maliyyə-büdcə məsələlərini, əhalinin sosial-iqtisadi vəziyyətini daim diqqətdə saxlayır, müzakirələr keçirərək xalqın güzəranın yaxşılaşdırılmasına çalışırdı. Keçmiş əmanətlərin qaytarılmasını, dövlət öz borcu bildiyi üçün onun qaytarılması yollarını hökumətə tapşırmışdır. Bu baxımdan parlament çar Rusiyası dövründən, keçmiş bankların sandıqlarında qalan 12 milyon rubl borcu, dövlət xəzinəsindən verilməsini nəzərdə tutan qanun layihəsini noyabrın 1-də keçirilən iclasda müzakirə etdi. Hökumətin verdiyi məlumata görə Azərbaycan Cümhuriyyətində 14 xəzinə əmanət sandığı fəaliyyət göstərir və burada 11 min əmanətçinin 12 milyon rubl vəsaiti yığılıb. Maliyyə nazirinin məlumatına görə bu borcları hökumət üzərinə götürüb və onların qaytarılmasına çalıışır. Hökumət istəyir ki, əhali sandıqlara inansın. Maliyyə naziri bu məsələləri həll etmək üçün Rusiya ilə hesablaşma aparmaq lazım olduğunu bildirdi. Cümhuriyyət hökuməti Bakı, Gəncə, Şuşa, Nuxa, Zaqatala, Qazax, Şamaxı və Lənkəran şəhərlərində cəmi 14 şöbədə xəzinə pullarının verilməsini istəyir. Maliyyə nazirliyi hesab edir ki, pulların hamısını bir ildə vermək mümkün deyil, ancaq bu il üçün bir milyon verilməsi nəzərdə tutulmuşdur. Hökumət çalışır ki, bu pullar sahiblərinə qaytarılsın. Əhali bu pulları əziyyətlə yığıb, onların sahibləri kasıb təbəqədəndir və hökumətin bu işdən boyun qaçırmağa ixtiyarı yoxdur. Parlament Maliyyə nazirliyinin hesabatını dinləyərək, əmanətlərin qaytarılması işlərinin davam etdirilməsini hökumətə tapşırdı.

I Respublikanın parlament fraksiyalarında deputatların yer dəyişməsi prosesi, bir fraksiyanı tərk edib başqasına keçməsi və yaxud bitərəf qalması barədə parlament xronikasında tez-tez məlumat verilirdi. **1919-cu il oktyabrın sonlarında “partiyasız”lar adlanan fraksiya, “Müsavat” fraksiyasına yaxınlaşdıqlarını, özlərinin fəaliyyətində vətənin tərəqqisi naminə, milli-siyasi baxışlarının oxşarlıq təşkil etməsini əsas götürərək ümumi parlament fraksiyası “Müsavat və partiyasızlar” blokunu yaratdıqlarını elan etdilər. Müsavat və partiyasızlar birləşməklə yanaşı bəzi prinsipal və ya proqram xarakterli məsələlərdə müstəqil mükalimə yürütməyin tərəfdarı olmaqla bu işlərdə daxili razılıq əldə edəcəklərinə təminat verirdilər. “Partiyasızlar” fraksiyasından F.Xoyski, A.Aşurov, M.Əsədullayev, B.Rüstəmbəyov, A.Səfərəliyev və Y.Əhmədov bu razılığa imza atmışdır. Əslində bu birləşmə, “Müsavat» tərəfindən yeni, beşinci hökumətin qurulmasına hesablanmış kolasiya ittifaqı idi.**

1919-cu ilin son aylarında Azərbaycan parlamentində fraksiyalar arasında mübarizə güclənir, sosialist və bolşeviklər (iki fraksiyada təmsil olunmaqlarına baxmayaraq biri bezin astarı, digəri üzi idilər) imkan düşən kimi hökuməti tənqid edir, onların gördüyü işlərə kölgə salır, müxtəlif sorğularla, onları diskussiyaya çəkirdilər. Sosialistlər, hökumət üzvlərini dövlət əmlakının öz ehtiyaclarının təmin edilməsi kimi məsələlərdə ittiham edirdilər. Sosialistlərin qənaətincə ölkənin hər yerində qubernatorlar tərəfindən özbaşnalıqlar törədilirdi. Hökumət başçısının kabineti və qonaq evi üçün ev əşyalarının alınmasına 1 milyon sərf etməsini cavablandırılmasını sorğu ilə parlamentə ünvanlandıran sosialistlər əslində öz məqsədlərini gizlətmiş olurdular. **Azərbaycan Demokratik Cümhuriyyəti özünün təməl prinsiplərindən çıxış edərək bu məsələdə hökumətin hər hansı bir şəxsi mənafeyi olmadığını, o dövrdə adi hala çevrilən və xaricdən gələn qonaqları və nümayəndə heyətlərinin hökumət üzvlərinin öz evlərində qəbul etmələrini zərurətdən yarandığını, parlament deputatlarının nəzərinə çatdırmışdır. O dövrdə Azərbaycan Cümhuriyyətinə müxtəlif səfərlərlə İngiltərə, İtaliya, Fransa və Amerikadan çoxlu nümayəndələr gəlirdi. X.Məlikaslanov bu barədə çıxış edərək bildirdi ki, hökumət bu nümayəndələri qarşılamaq, onların təhlükəsizliyi, yerləşdirilməsi üçün bütün tədbirlər görməyə borcludur. Azərbaycan hökuməti xarici işlər nazirliyinə tapşırmışdır ki, gələn qonaqlar haqqında qabaqcan məlumat versinlər. Hökumət sədrinin evi üçün alınan əşyalar, sədrin şəxsi əşyaları olmayıb, hökumətə məxsusdur və gələcəkdə növbəti, yeni hökumətə qalacaqdır. Sosialistlərin iddialarının isə, heç bir əsası yoxdur.** Çünki, sədrin öz evi burada deyil, kənardadır. Digər tərəfdən hələ keçən hökumət zamanı, parlament yaradılmamışdan qabaq hökumət dövlət hesabından əşyalar alınmasını nəzərdə tuturdu və bəzi əşyalar da alınmışdı. Bu məsələ barədə çıxış edən Əhməd Cövdət hökumətə ünvanlandırılan sualın üç maddədən ibarət olduğunu və hər üç məsələ barədə cavabları onları qane etmədiyini bildirdi. Çünki sorğuda göstərilir ki, hökumət istefada olduğu halda niyə dövlət vəsaitindən istifadə edib; ikincisi nə üçün parlamentə müraciət edilərək həmin milyon rubl pul vəsaiti istənilməyib, üçüncüsü niyə hökumət iki dəfə təkrar mebel alınır. Beləliklə, “sosialist” fraksiyasının sorğusuna münasibət bildirən parlament, hal-hazırda hökumətin istefa verməsi və məsuliyyətli hökumətin təşkil edilməməsi, həmçinin sorğu müəlliflərini isə sonda öz təkliflərini geri götürülmələri səbəbindən məsələnin müzakirəsinin dayandırılması barədə qərar çıxarır.

**Qanunverici orqanda təmsilçilik hüququnda Azərbaycan qəzalarından göndərilən deputatların səlahiyyətlərinin təsdiq edilməsi proseduru, adətən sol qüvvələr tərəfindən müxtəlif bəhanələrlə əngəlləmək cəhdləri ilə**

**qarşılıaşırdı. Lənkəran qəzasından və Zəngəzurdan deputat göndərilməsi məsələsinin müzakirəsi zamanı da bolşevik fraksiyası milli dövlət mənafeylərində deyil, firqə mövqeyindən çıxış edirdi. Zəngəzur yerli Milli Komitəsi 2 nəfər nümayəndəsini Cəlil bəy Sultanovu və Mirzə Sadıq Axundzadəni seçərək Məclisi-Məbusana göndərmişdir. Sosialistlər yerli Milli Şuranın öz əhəmiyyətini itirdiyi bir vaxtda yerlərdən kimlərinsə özlərinə br kağız alıb Bakıya gəldiklərini və deputat olmaq istədiklərinin qəbul edilməz olduğunu bildirdilər. Yerli milli şura dağılıb gedib, onların yığışıb mandat vermələri, bunun artıq kələkbazlıqdan başqa bir şey olmadığını söyləyən bolşeviklərin, hansı mövqedə olmalarını üzə çıxarırdı.** Əslində isə, "Azərbaycan parlamenti haqqında" qanunda, yerli Milli Şuraların parlamentə deputat göndərmək səlahiyyəti təsbit edilmişdir. Zəngəzurdan gələn namizədlər "Müsavat" fraksiyasından olduğuna görə bolşeviklər tərəfindən böyük müqavimətlə qarşılaşırdılar. Sosialistlər yalnız ümumxalq yığıncağında seçilən nümayəndənin qanunauyğun olduğunu bildirirdilər. Halbuki məlum səbəblərdən həmişə ümumi yığıncaqlar keçirmək mümkün olmurdu. Zəngəzur Milli Şurası tərəfindən seçilmiş Sultanov və Axundzadə nakaz üzrə qanununu mandata malik olmuşdurlar. **Zəngəzur Yerli Milli Şurasını təmsil edən M.Axundzadə bolşeviklərin doğru danışmadıqlarını, Zəngəzurda Milli Şuranın olduğunu və o işini davam etdiyini bildirdi. Milli Şura hər yerdə camaatı müdafiə edib, nə edibsə Zəngəzurda Milli Şura edib. Erməni təcavüzündən xalqı müdafiə edən məhz, Milli Şura olub. Milli Şura ləğv edilsəydi, camaatın nə hala düşə biləcəyini təsəvvür edə bilməyəcəyini söyləyən M.Axundzadə, bolşeviklərin ittihamının əsassız olduğunu bəyan etdi. Bolşevik Əliheydər Qarayev öz çıxışında Milli Şuranın öz əhəmiyyətini itirdiyini və yoxsulları müdafiə etmədiyini bildirdi. Parlament bu iki somozvanını (özlərini deputat elan edənləri) qəbul etsə, biz deputatlar Zəngəzur camaatının səlahiyyətlərinə toxunmuş olarıq.** Qeyd etmək lazımdır ki, bolşeviklər mandat komissiyasının işində də, bu kimi qərəzli, barışmaz mövqeylərini davam etdirmişdilər. Şəfi bəy Rüstəmbəyli çıxış edərək vaxtı ilə Gəncə Yerli Milli Komitəsi tərəfindən göndərilmiş mandatı qeyri-firqələr, o cümlədən qeyri-müsəlman fraksiyalarda təsdiq etsələr də, Əliheydər Qarayevin onu qəbul etməmişdi. Zəngəzur Milli Şurasının mandatının müzakirəsində bolşevik İ.Əbilov da burada firqə maraqlarının üstün olduğunu, qanunsuz olaraq müsavatçı seçildiyini parlamentarilərin nəzərəinə çatdırdı. Bolşeviklər qanuna istinad edərək göstərirdilər ki, Azərbaycan parlamentinin təsis olunması haqqında qanunda deyilir ki, Milli Şuralardan vəkillər göndərilsin və parlament təşkil olunsun, daha deməyiblər ki, bir üzv çıxsa, əvəzinə həmin təşkilatlardan başqa üzvlərlə əvəz edilsinlər. **Parlamentdə böyük mübahisə edən bolşeviklər, daxili nizamnaməni**

**pozmaqdan belə çəkinmədilər. Bolşevik deputat Əbilov İbrahim, parlamentin daxili nizam-intizam qaydalarını pozduğuna, parlament sədri ilə mübahisə edərək, Məclisi-Məbusana hörmətsizlik etdiyinə görə, əksəriyyət səslə bir günlük iclasdan xaric edilməsi barədə parlament qərar çıxardı.** Bu hadisə ilə, ilk dəfə olaraq deputat parlamentdən xaric olunurdu. Parlamentin noyabrın 13-də keçirilən iclasında Əbilov, ona və firqə yoldaşı Səmədağa Ağamoğluna keçən müzakirələrdə danışmaq imkanı verilmədiyini bildirdi. Əslində isə, Azərbaycan parlamentinin demokratik əsaslarından sui-istifadə edən bolşeviklər öz firqə mövqeylərindən çıxış edərək təbliğatlarını aparmaq istədiklərini büruzə verirdilər. Bolşeviklərin qərəzli mövqeyi tutduqlarını bildirən parlament sədri Məclisi-Məbusanda söz azadlığının təmin olunduğunu və məbusanlara fikir ifadə etmək sərbəst olduqlarını bəyan etdi. Çünki, Azərbaycan parlament kürsüsü söz azadlığı nümunəsidir. Əbilov keçən iclasda ona qarşı haqsızlıq edildiyini, onun parlament sədrini təhqir etmək fikri olmadığını, sadəcə olaraq ona söz verilmədiyinə görə səsini ucaltdığını bildirdi. Sosialist fraksiyası bu məsələlərlə əlaqədar Məclisi-Məbusan Rəyasət Heyətinə bəyanatla müraciət etmişdir. Müraciətdə göstərilirdi ki, parlament üsul-idarəsinin ən böyük əsaslarından biri azadlıqdır. Əgər deputat parlamentdə öz sözünü azad söyləyə bilmirsə, onda məbus öz fəaliyyətini yerinə yetirə bilməz. Parlamentdə söz azadlığının təmin olunmasında və onun müdafiəsində sədrin müstəsna hüququ vardır. Lakin bizim parlament praktikası göstərir ki, parlament sədri vəzifəsini əvəz edən sədr müavini məbuslar üçün azadlığı təmin etmir, bəzi deputatların və fraksiyaların nümayəndələrin hüquqlarına təcavüz edir, digərlərinin tərəflərini tutur. Sədr müavini sosialist məbuslarının əleyhinə olaraq parlament reqlamentinə əməl etməyərək münasib bildiyi firqənin xeyrinə reqlamenti pozmuşdur. Sosialist fraksiyası sədr müavinin bu hərəkətlərindən öz məbusluq funksiyalarını yerirnə yetirə bilmədiklərini bəyan edərək etirazlarını Rəyasət Heyəti vasitəsilə bütün parlament üzvlərinə çatdırdılar.

Nazirlər Kabinetinin sədri, baş naziri N.Usubbəyli sentyabr ayında istefa verməsinə baxmayaraq parlamentin Rəyasət Heyətinin qərarı ilə öz səlahiyyətlərini davam etdirirdi. Lakin bu siyasi gərginlik parlamentdə də davam edir və tez-tez özünü büruzə verirdi. Xüsusilə də bolşevik və sosialist fraksiyaları, həmçinin digər qruplar hökuməti tənqid edərək vəziyyətdən çıxa bilməmələrində təqsirləndirirdilər. Sentyabr ayından başlayan dördüncü hökumət böhranı uzun sürərək, 1919-cu ilin axırlarına qədər davam etdi. N.Usubbəyli hökumətinin öz platformasında elan etdiyi neft böhranını aradan qaldıra bilməməsi, Rusiya ilə iqtisadi əlaqələri qurulmaması, işsizliyin artması, fəhlələrin güzəranın pisləşməkdə davam etməsi, aqrar məsələnin həll edilməsi və s. problemlər böhranı dərinləşdirən amillərdən idi. Çətin iqtisadi vəziyyət partiyalar arasında ziddiyyətlər koalision

hökumət yaratmaq imkanlarını məhdudlaşdırır, heç bir partiya hökuməti tənqid etməsinə baxmayaraq məsuliyyəti öz üzərinə götürmürdü.

Azərbaycan parlamenti 1919-cu ilin son aylarında keçirilən iclaslarında qanunvericilik fəaliyyətində əsasən iqtisadi-sosial və maarif yönümlü qanunların müzakirəsinə daha çox diqqət yetirmişdi. Bu qanunlardan noyabrın 3-də qəbul edilmiş "Göyçay şəhərində realnı məktəbin yaradılması", noyabrın 6-da "Zaqatala şəhərinə faizsiz olaraq 10 il müddətinə 70 min rubl ayrılması", noyabrın 8-də "Teatr tamaşalarından alınan vergilərin azaldılması", noyabın 13-də "Qız orta məktəb müəssisələrində sinif rəhbərlərinə tərbiyə işləri üzrə müavin vəzifəsinin təsis edilməsi haqqında", noyabrın 20-də "Şuşa şəhərində müftə (pulsuz) xəstəxananın açılması haqqında", dekabrın 1-də "Nazirlər Kabinetinə 600 milyon rubl əskinazının buraxılmasına icazə verilməsi haqqında", dekabrın 11-də "Bakı özəl feldşer məktəbinin səhiyyə nazirliyinin idarəsinə verilməsi haqqında" və s. qanunlar qəbul edilmişdir. Şuşada xəstəxananın açılması haqqında qanunda deyilirdi ki, şəhərdə 30 nəfər xəstəni müalicə edən tibb müəssisəsi 1919-cu iyulun 1-dən yaradılmışdı. Xəstəxanada əlavə olaraq 1920-ci il yanvarın 1-dən 50 çarpayı təşkil edilməsi də nəzərdə tutulurdu ki, bu işlərə üçün 1920-ci ilin büdcəsindən vəsait ayrılırdı. Şuşadakı tibb müəssisəsinin təşkili parlamentin və hökumətin Qarabağ regionunu diqqətdə saxlaması və inkişaf etdirilməsi ilə bağlı idi. Qanun layihəsi maliyyə-büdcə komissiyasında geniş müzakirə edilmişdir.

Azərbaycan parlamenti Cümhuriyyətin maliyyə sferasını əhatə edən məsələləri daim diqqətdə saxlaması və müzakirə edilərək qəbul edilməsinə böyük diqqət verirdi. Noyabr ayında keçirilən parlament iclaslarında hökumət tərəfindən parlamentə təqdim edilən 600 milyon rublun dövriyyə buraxılması haqqında qanun qızğın müzakirələrə səbəb olmuşdur. Bu qanun hələ layihə kimi, 1919-cu ilin avqustundan parlamentin maliyyə-büdcə komissiyasına daxil olmuşdur. Hal-hazırda hökumət bu məbləğin 434 milyon rublunu dövriyyə buraxmış, onun 243 milyon rublu banklarda, 50 milyon rublu isə Zaqafqaziya Cümhuriyyətlərinin pulları ilə dəyişdirilməsi üçün Tiflis şəhərinə aparılmışdır. Parlament üzvlərinin müzakirəsinə təqdim edilən qanun deputatlar tərəfindən bir mənalı qarşılanmadı. "İttihad" fraksiyası, parlament müzakirələrində hökumətin pul-kredit siyasətini tənqid edərək, onun yalnız kağız pullar buraxmaqla məşğul olduğunu və pulların tez bir zamanda dəyərdən düşdüyünü bildirdi.

Hökumətin maliyyə sahəsindəki siyasətini tənqid edən deputatlar parlamentin razılığını gözləmədən pul emissiyası buraxan hökumət, artıq onun 400 milyon rubl vəsaiti xərcələnməsini özbaşnalıq, maliyyə intizamının pozulması kimi qiymətləndirdiklərini qeyd etdilər. Hökumətin maliyyə siyasətinin iflasa

uğramasını süni şəkildə ingilislərin yaratdığını söyləyən parlment üzvləri, ingilis komandanlığına verilmiş pulların böhranın əsas səbəb kimi göstərirdilər. Öz növbəsində Maliyyə nazirliyi bu məsələdə siyasi amillərin olduğunu və bir il bundan öncə, 1918-ci ilin noyabrında Azərbaycan Cümhuriyyətinin hansı çıxılmaz vəziyyətdə olduğunu parlamentə xatırlamasını zəruri hesab etdi. Maliyyə böhranın qarşısının alınmasında hökumətin apardığı vergi siyasətinin təkmilləşdirilməsini çıxış yollarından biri hesab edən deputatlar, sərt pul-kredit siyasətinin aparılmasını zəruri hesab edirdilər. Qanunverici orqanın üzvləri, hökumətin siyasətini tənqid etməklə yanaşı, ona yalnız bon buraxılması ilə işlərin başa çatmadığını, sərt maliyyə-pul intizamının saxlanılmasını da məsləhət görürdülər. Parlament icazəsini almadan ingilislər 177 milyon rubl verilməsi hökumətin maliyyə siyasətiniin iflasa uğramasının əsas səbəblərindən olduğu qeyd olunurdu. Deputatlar Cümhuriyyət rublunun sürətlə dəyərdən düşməsi qarşısının alınması üçün hökumətn ciddi tədbirlər görmədiyi, neftin sərbəst ixracının təşkil edilmədiyi halda, dolayısı yolla zəruri tələbat mallarına tətbiq olunan vergi əhalinin güzəranına ciddi təsir etdiyi, xüsusilə də yoxsul təbəqənin vəziyyətinin daha da pisləşməsini sürətləndirdiyini bildirdilər. Maliyyə böhrandan çıxmaq üçün sənaye və ticarət nazirliyi ilə birlikdə ciddi tədbirlər görülməsi təklif edilirdi.

“Hümmət” fraksiyası 600 milyon rubl buraxılması haqqında hökumətin təqdim etdiyi qanun layihəsini tənqid edərkən, dolayısı yolla bolşevik siyasi mövqeyindən çıxış edərək, fəhlələrin Azərbaycanın müstəqilliyi əleyhinə olmadıqların, lakin mövcud olan quruluşun əleyhinə olduqlarını deməklə Azərbaycanda bolşevik rejiminin qurulmasına çalışdıqlarını bir daha təsdiq etdilər. Sosialist fraksiyasını təmsil edən parlamentin katibi Ə.C.Pepinov hökuməti, parlamentin səlahiyyətlərinə daxil olan maliyyə məsələsinin özbaşına tətbiq etməsini və dövriyyə pul buraxmasının heç də bütün günahının maliyyə nazirliyində olmadığını bildirdi. Çünki hökumət tərəfindən təqdim olunan qanun layihəsi avqustun 9-dan parlamentin maliyyə-büdcə komissiyasındadır. Həmin vaxtdan qanun layihəsi komissiyada müzakirəsiz qalmışdır. Bu vəsait isə hökumətə cəmi 3 ay kifayət edəcəkdir. Hökumətə yenidən pul buraxmağı lazım olacaqdır ki, bu da böhranı daha da dərinləşdirəcək. Deputatlar ölkəni böhrandan çıxarmaq, rublun kursunu artırmaq üçün buğda, pambıq, yun və bu kimi sahələri dövlət inhisarına almağı təklif etdilər. Parlament müzakirələrində mütərəqqi verginin tətbiqi, radikal tədbirlərin alınması və s. əhalinin kasıb təbəqəsini böhrandan çıxaracaq əsas amillər kimi göstərilmişdir. Hakim partiya məsələyə münasibət bildirərək göstərirdi ki, Azərbaycan Cümhuriyyəti keçid dövründə olduğu üçün iqtisadi böhrana düşməsi heç də qeyri-adi hal deyildi. Bu vəziyyətdən çıxış yolu tapılması üçün böyük dövlətlərdə düşünürlər. Müsavat fraksiyası keçid dövründə olmuş

dövlətlərin təcrübəsində bu cür böhranların tez-tez baş verdiyini göstərərək birlikdə onun dəf olunmasını mümkün hesab edirdi. Fraksiya belə hesab edirdi ki, bəzi məhsulların inhisarlaşdırılması və xammalın sərbəst ixracının artırılması təklifi ölkəyə böyük ziyan gətirə bilər. Rublun kursunun möhkəmləndirilməsi üçün daxili istiqrazların buraxılmasını təklif edən müsavat fraksiyası, sosialistlərin təklif etdiyi milliləşdirmənin əleyhinə olduqlarını da bildirdilər. **Parlament müzakirələrində deputatlar belə bir məsələni də önə çəkdilər ki, Azərbaycan kimi varlı ölkədə maliyyə böhranının olması, təkcə maliyyə nazirliyinin deyil, sənaye və ticarət nazirliyinin səriştəsiz siyasətinin nəticəsidir.** "Hümmət" fraksiyası isə sakit yaşayan Azərbaycanı, Moskva ilə müqayisə etməyin doğru olmadığını, Rusiya üzərinə bütün dünya ölkələrinin hücum etdiyi və onu boğmaq istədiklərini bildirdi. Fraksiya hesab edirdi ki, Fransada buraxılan pulların əvəzində konvertasiya olunan qızıl var idi. Burada müsavatçılar deyir ki, bizim də neftimiz var. Bolşeviklər isə belə hesab edirlər ki, bu neft Mantaşovun, Əsədullayevindir, neft Azərbaycan xalqının qızılı deyil, onlarındı.

**1919-cu il dekabrın 7-də I Respublika parlamentinin təsis iclasının bir ili tamam olurdu. Həmin gün parlamentin təntənəli iclasının keçirilməsi qərara alınmışdır.** Sədr əvəzi H.Ağayev məbuslara müraciət edərək bildirdi ki, bu bir il ərzində Azərbaycan parlamenti milləti layiqincə təmsil edərək öz vəzifələrini yerinə yetirmişdir. Azərbaycan parlamenti ölkənin ağır dövründə, daim dövlət mənafeylərini qorumuş, üzərinə düşdüyü vəzifələrin öhdəsindən gəlmişdir. Azərbaycan parlamenti hakimiyyətin xalqa məxsus olmasını öz işində həmişə rəhbər tutmuşdur. Azərbaycan parlamenti mövcudluğunun bu 1 ili ərzində üçüncü və dördüncü hökumətlərin tərkibini təsdiq etmiş və onların fəaliyyəti üçün vacib olan qanunlar qəbul etmişdir. Beynəlxalq səviyyədə bizim parlamentin sədri Ə.Topçubaşov bütün səylərini birləşdirərək, Avropada xarici siyasətimizin möhkəmlənməsinə və Azərbaycanın tanınmasına nail olmağa çalışmışdır. Son günlər daxil olan xəbərlər Azərbaycan istiqlalının tanınması üçün əlverişli imkanlar yarandığını bir daha göstərirdi.

H.Ağayevin fikrincə Parlament ümumxalq səsverməsi yolu ilə seçilməsə də yenə də Məclisi-Məbusan üzvləri xalq təmsilçiləridi. Parlamentdə təmsil olunan məbuslar arasında zahiri baxışda bəzi təfriqələr görünür. Lakin ümumi millətə, ümumi bir təhlükə olduqda, parlamentimiz bir fərd kimi olub, bütün təfriqələri buraxıb var qüvvələrilə istiqlal yolunda birləşir. Parlament sədri milli mənafelər naminə parlamentimiz 2-ci yaşında da milli arzuları həyata keçirmək üçün yenə də vahid olacağına heç bir şübhə etmədiyini bildirdi. Bu 1 il ərzində Azərbaycan Xalq Cümhuriyyəti parlamenti iş prinsipində demokratik ənənələr yarada bilmişdir.

Müzakirələr geniş diskussiya, plüralizm, aşkarlıq, tərəfsizlik, ümumi, bərabər şəraitdə, söz və fikir azadlığının təmin olunması şəraitində keçirilmişdir. Bütün fraksiyalar, komissiyalar, ayrı-ayrı deputatlar sərbəst çıxış edir, bəyanatlar verir, Rəyasət heyəti, sədarət, bütün parlament, daxili nizamnaməsi çərçivəsində demokratik normalara əməl edirlər. Bir il ərzində parlamentarizm ənənələri yaranmış və siyasi təcrübə artmışdır.

I Respublikanın parlamentinin bir il ərzində 104 iclası olmuşdur, bunlardan 12-si kvorumsuz, 92-i iclas isə reqlament əsasında keçirilmişdir. Parlament iclaslarının ikisi tarixi, ikisi təntənəli, biri isə fövqəladə məsələlərə həsr olunmuşdur. Parlamentin açılışından bu günə kimi, hökumət üzvlərindən, ayrı-ayrı deputatlardan, komissiyalardan, fraksiyalardan katibliyə 205 qanun daxil olmuş, bu qanunların 113-ü qəbul edilmiş, 40 qanunun komissiyalarda müzakirədə, 17-si müzakirə növbəsində, 16 qanun isə rədd edilmişdir. Parlament öz təşəbbüsü ilə müzakirəyə 18 qanun təqdim etmiş, onlardan 15-i qəbul edilmiş, biri hal-hazırda müzakirədə, 2-si isə rədd edilmişdir. Məclisi-Məbusan sədrliyi belə hesab edir ki, parlament tezliklə Müəssislər Məclisinin toplanması ilə öz vəzifələrini başa vurub, bütün səlahiyyətləri bu ali orqana verəcəkdir. Müəssislər Məclisi konstitusiya, torpaq, daxili və xarici siyasət məsələləri və s. ən mühüm millət və dövlət əhəmiyyətli qanunları qəbul edəcəkdir. Şübhəsiz ki, Müəssislər Məclisi dövlət müstəqilliyimizin möhkəmlənməsində mühüm əhəmiyyət kəsb edəcəkdir.

Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin birinci ildönümü münasibəti ilə sədarətə bir neçə təbrik teleqrammı daxil olmuşdur. **İran nümayəndə heyəti adından S.Z.Təbatəbai parlamentin bir sənəlik yubileyini təbrik etməklə, Azərbaycan xalqına səadət arzulayırdı. İran imperiyasının Azərbaycandakı konsulu M.S.Əlvüzəran da İran hökuməti adından parlamenti təbrik edirdi. Azərbaycan parlamentinə Gürcüstandan,** həmçinin Azərbaycanın digər bölgələrindən də təbriklər gəlmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin 1919-cu il 7 dekabr bir illik bayramının təntənəli iclasından sonra, öz işini davam etdirən Məclis, ilin sonuna qədər qanunların qəbuluna, xüsusilə də yeni hökumətin təsdiqinə çalışmaqla, hökumət böhranına son qoymalı idi. Dekabrın əvvəllərində N.Usubbəyli fraksiyalarla prinsipal razılıq əldə etməklə, beşinci hökumətin müvəqqəti tərkibini parlamentə təqdim etmişdir. Dekabrın 4-də baş nazirin səlahiyyətlərini əvəz edən Nəsib bəy, parlament sədri vəzifəsini icra edən Həsən bəy Ağayevə göndərdiyi məktubda, baş nazir və eyni zamanda daxili işlər naziri vəzifəsinə özünü, hərbi nazir vəzifəsinə S.Mehmandarovu, maliyyə, ticarət və sənaye naziri vəzifəsinə M.Hacıinski və digərlərini təqdim etməyi təklif edirdi. Lakin bu siyahı tam olmamaqla yanaşı, nazir vəzifələrinin

bölüşdürülməsi də başa çatmamışdır. **Daxili işlər naziri vəzifəsi dördüncü hökumət təşkil olunanda da, mübahisələrə səbəb olmuş, vəziyyətdən çıxmaq üçün Nəsib bəy bu vəzifəni də öz üzərinə götürmüşdür. Yenə də bu təcrübədən istifadə edən hökumət başçısının mövqeyi, sosialistlər tərəfindən etirazla qarşılandı. Əslində, sosialist fraksiyası bu vəzifədə öz nümayəndəsini görmək istəyirdi. "Müsavat" və onunla əməkdaşlıq edən bitərəflər daxili işlər naziri postunu saxlamağa, "İttihad" isə tamamilə bitərəf adama həvalə etməyi təklif edirdi. Sosialistlər də bu vəzifəni ələ keçirməyə çalışırdılar. Daxili işlər naziri vəzifəsini tutmaq istəyən bütün partiyalar öz siyasi məqsədlərini güdürdülər. Cümhuriyyət dövründə daxili işlər nazirinin səlahiyyətləri çox geniş olmaqla, inzibati idarəçilik orqanları, gömrük və vergi orqanlarının strukturları da bu nazirliyin tabeçiliyində olmuşdular.** Hökumətin formalaşması prosesində aydın oldu ki, yaranacaq koalisiya əvvəlkindən fərqli qüvvələrin iştirakı əsasında mümkün olacaqdır. "Müsavat"dan sonra ən böyük parlament fraksiyası olan "İttihad"çıların hökumətə cəlb edilməsi zərurəti qaçılmaz idi. "İttihad" fraksiyası sağ milli qüvvələri təmsil etməklə, digər fraksiyalarla siyasi opponentlik edirdi. Sol qüvvələri təmsil edən sosialistlər, bolşeviklər, həmçinin də milli azlıqların təmsilçiləri, yeni hökumətin sağların nəzarətində olmasını heç vaxt arzu etmirdilər. Beşinci hökumətin ittihadçılar, müsavatçılar və bitərəflərdən təşkil olunması ehtimalı da mümkün idi. Beləliklə, növbəti beşinci və sonuncu hökuməti formalaşdırmaq məsələsi ətrafında fraksiyaların müzakirəsi dekabrın ortalarına qədər davam etdi. Ayrı-ayrı fraksiyalar öz şərtlərini irəli sürməklə hökumətə təkliflərini qəbul etdirməyə çalışmaqla manevr edirdilər. Lakin fraksiyaların mövqeyləri və qəbul etdikləri qərarlar qəti deyildi və onların tələblərinin yerinə yetirəcəyi halda hökumətə daxil olmaq imkanları istisna edilmirdi.

Beləliklə, 1919-cu il dekabrın 22-də keçirilən Azərbaycan Cümhuriyyəti parlamentinin 108-ci iclasında beşinci hökumətin tərkibi təqdim edilir və baş nazir vəzifələrini icra edən N.Usubbəyli bəyannamə ilə parlamentə müraciət edir. Bəyannamə elan olunmamışdan öncə parlament sədri H.Ağayev yeni hökumətin əzalarının adlarını Məclisə elan edir: baş nazir N.Usubbəyli, hərbi nazir S.Mehmandarov, daxili işlər naziri M.Hacıniski, xarici işlər naziri F.X.Xoyski, ədliyyə naziri X.Xasməmmədov, səhiyyə və təminat naziri M.Rəfiyev, maarif və dini etiqad naziri H.Şahtaxtinski, yollar naziri və müvəqqəti ticarət və sənaye naziri əvəzi X.Məlikaslanov, poçt və teleqraf naziri Cəmo Hacıniski, əmək və əkinçilik naziri Ə.Pepinov, dövlət nəzarəti naziri Heybətqulu bəy Mahmudbəyov, maliyyə naziri R.Kaplanov. Sonuncu hökumətinin tərkibində 3 nəfər müsavat, 1 nəfər sosialist və 1 nəfər əhrar fraksiyasının nümayəndəsi daxil edilmişdir.

Hökumət proqramı ilə Məclisə müraciət edən N.Usubbəyli, parlament sədrinin

təklifi ilə Kabinetin təşkil edilməsinin yenidən ona həvalə olunduğunu bildirdi. Baş nazir, hələ dördüncü hökumət zamanı da çox böyük məsuliyyətli işi öz öhdələrinə götürdüklərini və onu yerinə yetirməyə çalışdıqlarını bildirdi. Baş nazirin sözlərinə görə vətənimizin bir hissəsinin özgə əllərdə olmasına görə, hökumət bütün Cümhuriyyəti əhatə edəcək tədbirləri həyata keçirə bilməmişdir. Lənkəran qəzasının məsuliyyətsiz adamlardan azad edən milli ordumuz, Azərbaycan dövlətinin ərazi bütövlüyünü bu ərazilərdə təmin etmişdir. Qarabağın Cavanşir, Şuşa, Cəbrayıl qəzalarında Azərbaycan hakimiyyəti tam fəaliyyət göstərir. Hökumət Qarabağ əyalətinə Zəngəzur qəzasının da daxil olduğuna heç bir şübhə ilə yanaşmamış və tezliklə müttəfiq komandanlıq Azərbaycanın haqlı olduğunu qəbul edəcəkdir. **Əsrlər boyu Qarabağ əyalətinə daxil olmuş Zəngəzur qəzasını, son dövrlərdə müxtəlif intiriqaçılar Qarabağdan ayırmaq istəyirdilər.** Hal-hazırda Zəngəzur qəzasının yarısı qiyamçı qüvvələrin əlinə keçmişdir. Azərbaycan hökuməti Zəngəzurda asayişi bərpa edib hakimiyyət orqanlarının sərbəst fəaliyyət göstərməsinə çalışır. Xarici ölkələr məsələnin sülh və danışıqlarla həll edilməsinin mümkünlüyünü bildirirlər. Azərbaycan hökuməti bu məsələnin sülh yolu ilə həll edilməsinin əksinə deyildir. Biz onsuz da Cümhuriyyətimizi elan edəndə bütün konfliktlərin sülh və danışıqlarla həll edilməsinin tərəfdarı olduğumuzu bəyan etmişdik. Qarabağda yaşayan erməni milli azlıqlarının hüquqlarını öz himayəmizə götürmüşük. Baş nazir belə hesab edirdi ki, beynəlxalq hüquqda qəbul olunmuş azlıqların hüquqlarının qorunması kimi təbii hüquqları Azərbaycan Cümhuriyyəti də qəbul edib və öz işində ona dönmədən əməl edir. Məhz, Qarabağda yaşayan erməni milli azlıqlarına da, bu hüququ hökumət şamil etmişdir. Azərbaycan hökuməti Sürməlidə, Yeni Bəyaziddə və Eçmədzində azərbaycanlılara qarşı törədilmiş vəhşilik və qırğınlara baxmayaraq verdiyi bəyanatlardan imtina etmir. Qarabağda yaşayan ermənilər idarəçiliyə cəlb edilir, onlar üçün məktəblər açılır, maarif işi yaxşılaşdırlır. Hökumət bu işlərə külli miqdarda vəsait sərf edir. Zaqafqaziyada biz bu təcrübəni tətbiq edərkən, qonşularımızdan da bunu gözləyirik. Qonşumuz Ermənistan Cümhuriyyəti ilə bu məsələləri qarşılıqlı münasibət prinsipi əsasında həll etməliyik. Hər iki Cümhuriyyət bilməlidir ki, onların gələcəyi milli azlıqlarının hüquqlarının qorunması ilə bağlıdır. Ermənilər bunu nə qədər tez dərk etsələr, biz tezliklə bu xoşagəlməz vəziyyətdən çıxa bilərik. **N.Usubbəylinin sözlərinə görə yeni hökumətin qarşısında duran digər mühüm məsələ Şərur-Naxçıvan və ya İrəvan quberniyasının azərbaycanlıların böyük üstünlük təşkil etdiyi ərazilərdəki problemlərdir. Naxçıvanlılar, şərurlular və vedibasarlılar özləri bu problemləri həll etmək üçün ayağa qalxaraq, doğma vətənlə birləşərək hökumətin vəziyyətini asanlaşdırdılar.** Ədalət və haqq tərəfdarları, zənnimizcə onların qanuni hüquqlarını inkar etməyəcəkdir. Hökumət qonşu və dost Gürcüstan

dövləti ilə müdafiə paktı imzalayaraq, hər iki xalqın taleyinin birgə həllinə imza atmışdır. Bizim dövlət bu müqavilənin hər iki xalqın siyasi həyatında indi və gələcəkdə oynayacağı rolu dərk edir. Hökumət platforması ilə parlament qarşısında çıxış edən baş nazir, hal-hazırda **Bakıda keçirilən Azərbaycan-Ermənistan konfransında mübahisəli məsələlərin müzakirə edildiyini parlamentarilərə çatdırdı.** Şimal Qafqaz xalqlarının azadlıq mübarizəsinin boğulduğunu bildirən N.Usubbəyli, hökumətin dağlı xalqlarının mübarizəsinin müdafiə olunmasına çalışacaqlarını bəyan etdi. Azərbaycan hökuməti Türkiyə və İran dövlətləri ilə də münasibətlərə böyük əhəmiyyət verdiyini, siyasi və diplomatik əlaqələri möhkəmləndirməyin zəruriliyini bildirir. Hökumət böyük dövlətlərin rəsmi və qeyri-rəsmi nümayəndələrinin hal-hazırda Qafqazda olduqlarını və bu səfərlər Azərbaycanı beynəlxalq münasibətlərin subyekti etməklə yanaşı, onlara diplomatik münasibətlər yaratmaq imkanı vertməsini də xüsusi qeyd edir. Hökumət parlamentə müraciət edərək Rusiya ilə münasibətləri qura bilmədiklərini etiraf edirdi. Buna səbəb bizim aramızda fikir ayrılığının olmasıdır. Demokratik prinsipləri qəbul etmiş rus xalqı, bizə münasibətdə də demokratik mövqedən çıxış edərək, apardığımız azadlıq mübarizəmizə hörmət edəcəklərinə ümid edirik. Milli hökumət ordu quruculuğunu daim diqqətdə saxlayır. Hərbi mükəlləfiyyətə keçmək Azərbaycanda müqəddəs hesab olunur. Bu işlərdə olan çatışmamazlıqları hökumət aradan qaldırmaq istəyir və buna çalışır.

Hökumətin platformasında sənaye və ticrətin, həmçinin maliyyə sisteminin inkişafı üçün təsirli tədbirlərin görülməsi nəzərdə tutulur. Hökumət belə hesab edir ki, Azərbaycan pulunun Rusiya rubluna bərabərləşdirilməsi, birjalarda dəyərdən düşməsinin səbəblərindən biridir. Hökumət maliyyə işlərini qaydaya salmaq üçün vergi sistemində islahatların aparılmasını davam etdirəcəkdir. Parlament qarşısındakı hesabatında baş nazir maarif, səhiyyə sistemində yeni tədbirlər həyata keçirəcəklərini elan etdi. **Hökumət qaçqınların çətin vəziyyətindən bəhs edərək, son aylarda İrəvan quberniyasından 150 min nəfər azərbaycanlının qaçqın düşməsi səbəbi ilə, əlavə tədbirlər görülməsini zəruri hesab edirdi.** Cümhuriyyətdə vətəndaş hüquq və azadlıqlarının, bütün demokratik prinsipləri: söz, mətbuat və fundamental hüquqları qoruması hökumət tərəfindən təmin edilir və ediləcəkdir. Milli azlıqlar bütün vətəndaş hüquqlarından istifadə etməkdə heç bir problemlə qarşılaşmayacaqlar.

Beləliklə, hökumətin bəyannaməsinin elan olunmasından sonra parlament müzakirələri başlayır və ilk çıxış edən “Hümmət” fraksiyasının üzvü İbrahim Əbilov bəyannamənin təxirə salınması və növbəti iclaslara keçirilməsini təklif edir. O, bunu hökumətin bəyanatındakı bir çox məsələlərin aydınlaşdırılmasına

ehtiyacın olması ilə izah edirdi. Daşnak Arşak Malxazyan da müzakirələrin parlamentin növbəti iclaslarına keçirilməsini, hökumətin platformasının çətin bir dillə məruzə edilməsi ilə əlaqələndirdi. Öz növbəsində M.Ə.Rəsulzadə çıxış edərək, tənəffüs elan olunmasını, bəyannamə ilə tanış olmaq istəyənlərin onu yaxından öyrənmələrini təklif etdi. Rəsulzadə, Malxazyana müraciət edərək mənim dediyimi anlaya bilir, bəyannaməni anlaya bilməmədiyinə təəcüb etdiyini bildirdi. Q.Qarabəyli də bəyannamənin müzakirə edilməsinin tərəfdarı olduğunu bildirdi. Bundan artıq demokratiya ola bilərmi deyən sədr təklifi səsə qoyur və 43 lehinə və 25 əleyhinə olmaqla müzakirələrin həmin gün davam etdirilməsi qərara alınır.

"İttihad" fraksiyasının sədri Q.Qarabəyli bəyannamənin müzakirəsində çıxış edərək bildirdi ki, sabiq hökumətlərin tərkibinə daxil olmayan firqə, yeni hökumətə daxil olmaqla xalqın etimadını qazana biləcək kabinetin fəaliyyət göstərməsini arzu edir. Bəyannamədə göstərilən tədbirləri həyata keçirmək lazımdır. Sabiq hökumətin buraxdığı səhvlər aradan qaldırılmalı, sui-istifadə hallarına son qoyulmalılıdır. Ölkədə bahalıq artır, 9 manata olan çörək indi 28-30 manata çatmışdır. Fraksiya ayrı-ayrı nazirliklərdə baş alıb gedən özbaşnalıqların olduğunu, xüsusilə də daxili işlər nazirliyinədək rüşvətxorluğun olduğunu bildirdi. Bu məmurlar ad-ba-ad məlumdurlar. Q.Qarabəyli ticarət nazirliyinin bacarıqsızlığından, spekulyasiya (möhtəkirlik) və rüşvətxorluğun kök salmasından da bəhs etdi. Onun fikrincə maarif nazirliyi tamamilə Qarabağ əyalətini unudub. Yalnız Şəkidə maarif işi yaxşı təşkil olunub ki, bu da xalqın öz təşəbbüsü ilə edilib. Fraksiya hesab edir ki, orduya çağırışda əvvəlki xəyanətlər davam edir. Əsgərliyə çağırış alver yerinə çevrilib. Hər kəs 5-10 min verib orduya getməkdən yayınır. Kim dövlətlidi, kimin tanışı var əsgər getmir. İttihad fraksiyası hökumətin qaçqınların problemlərini həll edə bilməmələrini, onlar üçün ayrılan külli miqdarda pulların təyinatı üzrə xərclənmədiyini göstərirdi. Qarabağ qaçqınlarla dolub və onların çoxu sarılıq xəstəliyindən məhv olurlar. Millətə qarşı biganəliyin aradan qaldırılmasını yeni hökumətdən gözləyirik. Xalq qubernatorluq inzibati-ərazi vahidi idarəçiliyindən narazıdır. Hökumət qubernatorluq üsul-idarəsini ləğv edəcəyini bildirsə də, hələlik real işlər görülmür. Xalq belə hesab edir ki, onların şikayətləri hökumətə gəlib çatmır. "İttihad" fraksiyası hökumətə, yerlərə göndərilən müfəttişlərin öz işlərini görmək əvəzinə, rüşvətxorlara şərik olub dövlətin işini pozduqlarını bildirirdi. Fraksiya yeni hökumətə bunları nəzərə almaqla, təftiş komissiyasının üzvlərini parlamentdə ayrılmış xüsusi komissiya tərəfindən seçilməsini təklif edir və biz bunu qəti olaraq tələb edirik. Parlament xərclərini təftiş etmək üçün də xüsusi komissiya yaradılmalıdır.

Sosialist frksiyasında A.Səfikürdski çıxış edərək hökumətin tərkibinə daxil

olmaq qərarına gəldiklərini bəyan etdi. Lakin hökumətin mövqeyindəki bəzi dəyişikliyin onun üçün aydın olmadığını göstərirdi. **Apreldə deklarasiya ilə çıxış edən Nəsib bəy, Denikin hücum etsə, ancaq bizim meyidimiziin üstündən keçə bilər fikrini, nədənsə bu dəfə söyləmədi. Görünür ki, rus proletariatı Denikini hərtərəfli sıxır. İndi Denikin təhlükəsi yoxdur.** Yeni hökumət fəhlələrin güzəranına diqqəti artırmalıdır. Sosialist fraksiyası da Qara bəy Qarabəylinin təklifinə qoşularaq hökumət idarələrində təftiş aparmaq üçün parlament komissiyasının yaradılmasını vacib hesab edirdi. Sosialistlər həmçinin, Gürcüstan və Ermənistanda olduğu kimi bizim də Rusiyadakı Şura hökumətinin nəzdində öz nümayəndəliyimizin yaradılmasını təklif edirdilər. Parlament əvvəllər bunu inkar edir, indi isə görürük ki, qonşularımız bizdən də qabaq bunu ediblər. Biz parlamenti əmin edirik ki, bizim fəhlə və kəndlilər, Rusiya fəhlə və kəndliləri ilə bir hökumətdə yaşayacaqlar. Sosialistlər məhkəmə hakimiyyətinin işinə inzibati-polis orqanlarının müdaxilə etməsinin qarşısının alınmasını, məhkəmə qərar və qətnamələrinin icra olunmasını vacib hesab edirdilər. Fəhlə məsələsinə hökumət müdaxilə etməməli, onlar sərbəst olaraq Həmkarlar İttifaqı yaratmalı və onunla işlərini təşkil etməlidirlər. Sosialistlər aqrar məsələnin hələ də öz həllini gözlədiyini bildirdi. Parlamentin aqrar qanunvericilik komissiyasında müxtəlif aqrar-torpaq məsələlərini əhatə edən layihələr müzakirə olunur. Sosialistlər torpaq məsələsinin həll olunmasının yubadılmasını, Ümumrusiya Müəssislər Məclisinin işi ilə əlaqələndirirdi. Əslində isə məlumdur ki, bolşeviklər 1918-ci il yanvarın 5-də torpaq, sülh məsələlərini həll etmək istəyən Müəssislər Məclisini qovmuuşdular.

Parlamentin "Əhrar" fraksiyası yeni hökumətin tərkibində təmsil olunduqlarını və gərgin işləməyin vacibliyini bildirdilər. Frksiyanın nümayəndəsi Muxtar Əfəndizadə həmkarlarından fərqli olaraq bəzi məsələlərdə təkcə hökuməti yox, həm də parlamenti tənqid etmək lazım olduğunu bildirdi. Fraksiya hökumət böhranın əsas səbəblərindən birini, firqəbazlıqda görürdü. Milli ordunun möhkəmləndiyini hesab etdiyini bildirən fraksiya bu işdə generallar Mehmandarov və Şıxlinskinin böyük xidmətlərini qeyd etdi. "Əhrar" fraksiyası hesab edir ki, maliyyə nəzarətini təftiş etmək üçün parlament komissiyasının yaradılması vacibdir. İngilislərə verilən 177 milyon məsələsinə aydınlıq gətirilməsi hökumətə etimadın artmasına səbəb olacaqdır.

"Hümmət" fraksiyasından S.Ağamalıoğlu Nəsib bəyin başçılıq etdiyi kabinetin "yıxılmasının" əsas səbəbini hökumətin özündə axtarmaq lazım olduğunu bildirdi. **Hökumət bilməlidir ki, indi xalq ayılıb, bütün dünya xalqları ayıq olublar, koalision hökumətdə hərə bir yana çəkir və hər şey qızışır. Orijinal nümunə göstərən S.Ağamalıoğlu, necə ki, samovar qaynayanda aşağıdan onun suyu**

**gedər, elə də bizim Azərbaycanda belədır. Çünki, o qazanın qapağını tərpədən millət müsavatdan güclüdür.** Hümmətçilər bu fikirləri ilə bolşeviklərin üstün olduğunu göstərmək istəyirdilər. Parlamentdə çox məsələ bizi birləşdirir. Denikin məsələsinə gələndə hamı birləşir, lakin fəhlə və kəndli məsələsinə gələndə bəziləri aydın danışmır və onda işlər qarışır. Baş nazirin dediyindən belə məlum olur ki, torpaq məsələsi onlardan asılıdır.

Parlamentin "Müsavat" fraksiyası yeni hökuməti dəstəklədiklərini və ona etimad etdiklərini bildirməklə yanaşı, digər fraksiyaların söylədikləri mülahizələrə dair öz fikirlərini deputataların nəzərinə çatdırırdı. Onların fikrincə, Denikin təhlükəsinə qarşı hökumətin mövqeyində heç bir dəyişiklik olmadığına görə onu yenidən hökumət bəyannaməsinə daxil edilməsinə heç bir ehtiyac yoxdur. Sosialistlərin və hümmətçilərin söylədikləri, Rusiya fəhlə və kəndliləri Denikin və Kolçakı əziib, Azərbaycan fəhlə və kəndliləri ilə bir hökumət daxilində yaşayacaqları fikri, yəqin ki və inanırıq ki, çaşqınlığın nəticəsidir. Hökumət deklorasiyasında (bəyannaməsində) fəhlələrə azadlıq və istiqlalımıza toxunulmaması şərti ilə bütün təminatlar verilməsi nəzərdə tutulur. Parlament üzvləri, hökumətin və yaxud parlamentin zəif çalışdığını yalnız onlardan deyil, sizin də firqələrinizin daxil olduğu komissiyalardan soruşmalıdır. Çünki, bu komissiyalarda bütün fraksiyaların nümayəndələri iştirak edirlər. "Müsavat" fraksiyası sosialistlər və ittihadçıların fikirlərinin üst-üstə düşməsini indiki vəziyyətdə dövlətçilik üçün təhlükə hesab edirdi.

M.Ə.Rəsulzadə erməni-daşnak fraksiyasının hökumətə etimad göstərməsi məsələsinin qəbuledilməz şərtlərlə əlaqədar olduğunu və bunu heç bir hökumətin qəbul etmək iqtidarında ola bilməməsi fikrini bildirdi. Ermənilər iddia edirlər ki, deklarasiyada onlar qanundan kənar elan ediliblər. Bəyannamədə bu haqda heç bir bənd yoxdur. **Daşnaklar hökumətə daxil olmaq üçün baş nazirdən tələb edirdilər ki, hökumət onların Azərbaycanda təcavüz və təqiblərə məruz qaldıqlarını etiraf etsin. Ermənilər dünyanın heç bir ölkəsində qəbul edilməsi mümkün olmayan məsələni tələb edirlər. Bütün idarələrdə ermənilərin sayı nisbətində vəzifə tutmaları istənilir. Fraksiyası Ermənistan Cümhuriyyətində azərbaycanlıların hüquqları necə təmin olunduğuna nəzər salmağı zəruri hesab edirdi. Orada hökumətdə bir türk də yoxdur. Parlamentdə isə iki nəfər türk deputatından artıq adam görmək olmaz.** Gürcüstan parlamentində həm müsəlman, həm də erməni deputatlar təmsil olunublar. Eyni zamanda Gürcüstan Nazirlər Kabinetində nə erməni, nə də müsəlman hökumət üzvüdür. Lakin heç kim gürcülərdən tələb etmir ki, ermənilər və ya müsəlmanlar qanun xaricindədir. Azərbaycanda yaşayan erməni xalqının həyatı və hüquqları üçün hökumət nə lazımdırsa onu da etmişdir. Müsavat

firqəsi, bütün dünyaya və o cümlədən erməni xalqının zəhmətkeş, sülhsevər, düşünən qisminə müraciət edərək bildirir ki, bunlar hamısı böhtandır və heç kəs onları qanundan kənar etməmişdir.

İclasın sonunda, Azərbaycan Xalq Cümhuriyyəti parlamenti beşinci hökumət tərkibinə etimad göstərilməsini səs verməyə çıxararaq lehinə 59, əleyhinə 8 və bir nəfər bitərəf olmaqla təsdiq edir.

M.Usubbəylinin yeni tərkibdə başçılıq etdiyi beşinci hökuməti, öz fəaliyyətinə bolşeviklərin təbliğat işlərini gücləndirdikləri bir vaxtda başlayırdı. Cümhuriyyətdəki iqtisadi çətinliklər, yeni siyasi amillər, Bakı fəhlə konfransının fəallaşması, sol eserlərin (kəndli partiyası) milli məsələlərdə Azərbaycan Cümhuriyyətini müstəqil sovet respublikasına çevrilməsini qəbul etməsi, ümumi proseslərə nəzarət olunmasını çətinləşdirirdi. Yeni hökumət təcrübədən çıxış edərək bu məsələlərə xüsusi diqqət yetirməli, sosial məsələlərin həllinə çalışmalı idi. Məhz, ölkədə sosial problemlərin həll olunması hökumət böhranlarının və fraksiyalar arasında siyasi ixtilafın əsas səbəblərindən biri olmuşdur.

Qanunvericilik fəaliyyətini davam etdirən Azərbaycan parlamenti, 1919-cu ilin sonlarında yeni hökumətin tərkibinə etimad göstərməklə yanaşı bir neçə iqtisadi-maliyyə xarakterli qanun təsdiq etmişdir. Qarabağ əyaləti əhalisinə xidmət edəcək “Gəncə quberniyası Şuşa qəzasının Ağam kəndində təsis olunan xəzinədarlıq haqqında” qanun, “Müharibə dövrünün tələblərinə müvafiq olaraq daşınmaz əmlaka alınan vergi və rüsumlara dair” qanun, “Bakı quberniyasının Balaxanı və Sabunçu ərazilərində vergi polisinin təsis olunması haqqında” qanun, “Azərbaycan gömrükxana idarələrində dəftərxana vergisinin miqdarının artırılması haqqında” qanun və digər prosedur çərçivədə görülən parlament işlərini göstərmək olar.

Məclisin Rəyasət Heyətinin və komissiyalarının yeni tərkibinin müəyyən edilməsi praktikası 1918-1920-ci illər AXC dövründə, yeni Nazirlər Kabineti üzvlərinin təsdiq edilməsindən sonra ənənəyə çevrilmişdi. Belə ki, V hökumətin tərkibinin təsdiq edilməsindən sonra, parlamentin dekabrın 29-da keçirilən iclasının gündəliyinə Məclisi-Məbusanın sədri, onun müavini, iki katib seçilməsi daxil edilmişdir. Qeyd etmək lazımdır ki, parlamentin bu iclasında Azərbaycana qonaq gəlmiş Lehistan (Polşa) nümayəndə heyəti də iştirak etmişdir. Qanunverici orqanın nizamnaməsinin reqlamentinə görə, parlament sədri gizli səs vermə qaydasında, ağ və qara şarların qutuya atılması proseduru ilə seçilirdi. Hakim fraksiyanın sədri M.Ə.Rəsulzadə yenə də Ə.Topçubaşovun namizədliyini irəli sürür və bu təklifə açıq etiraz edən olmur. Nəticədə Əlmərdan bəy Topçubaşov lehinə 67 ağ şar, əleyhinə isə 8 qara şar sayılmaqla yenidən parlament sədri seçilir.

Sədrin birinci müavini postuna 48 səslə Həsən bəy Ağayev təsdiq edilir. Aslan bəy Səfikürdski və Sultan Məcid Qənizadə müvafiq olaraq katib və müavin vəzifələrinə seçilsələr də, üzv olduqları partiyaları tərəfindən namizədlikləri geri götürüldüyü üçün, yenidən bu postlara seçki keçirilməsi zərurəti yarandı. Qeyd etmək lazımdır ki, H.Ağayevin birinci müavin seçilməsində sosialist, ittihad və əhrar fraksiyaları iştirak etmədilər. Beləliklə, parlament yanvarın 12-də Rəyasət Heyətinin formalaşmasını başa çatdırmaq üçün yenidən seçkilər keçirir. S.M.Qənizadənin namizədliyi sədrin birinci müavini, Mehdi bəy Hacınski və Bayram Niyazi Kiçikxanov isə parlament katibi postlarına irəli sürüldülər. Gizli səsvermə ilə keçirilən seçkidə S.M.Qənizadə 42 ağ, 14 qara şar, B.N.Kiçikxanov 54 ağ, 2 qara şar, M.Hacınski isə 54 ağ və 1 qara şar olmaqla müvafiq vəzifələrə seçildilər.

AXC-də parlament rəhbərliyi seçkilərindən sonra, komissiyalarında yenidən tərkibinin seçilməsi prosesi başlamışdı. 1919-cu ilin sonu, 1920-ci il əvvəllərində parlament təftiş komissiyasının yaradılması və onun tərkibinin müəyyən edilməsi haqqında məsələ, fraksiyalar arasında kəskin mübarizəni bir qədər də dərinləşdirməklə keçmişdir. Təftiş komissiyası təkcə dövlət idarələrində deyil, parlamentin təsərrüfat-ləvazimat işlərində də yoxlamaların aparılmasını, parlament üçün alınmış avtomobilin və s. xərclərin təftiş edilməsini tələb edirdi. Sosialistlər, parlament rəhbərliyini yalnız faytonlardan istifadə etmələri təklifini irəli sürürdülər. Demokratik prinsiplərdən çıxış edən parlament rəhbərliyi fraksiyalar arasında konsensusa nail olmağa və mövcud reallıqlardan çıxış etməyi təklif edirdi.

1920-ci il yanvarın 5-də keçirilən iclasda uzun müzakirələrdən sonra, parlamentin rəyasət heyətinə iki təklif daxil olur. Birinci təklifə görə komissiya mütənasib (proporsional) üsul ilə 8 nəfərdən ibarət, ikinci təklifə görə isə hər fraksiyadan bir nəfər nümayəndə olmaqla təftiş komissiyası yaradılması irəli sürülürdü. Birinci təklif səsverməyə çıxarılır və əksəriyyət səslə qəbul edilir. Sosialistlər, ittihadçılar və əhrarçılar ikinci təklifi səsverməyə çıxarılmasını tələb etsələr də "parlament nakazı"nın 161-ci maddəsinə görə birinci təklif qəbul olunduğu halda 2-ci təklifin səsverməyə çıxarılması istisna edilirdi. Beləliklə, gərgin mübahisəyə səbəb olan təftiş komissiyasının tərkibinə Nəriman Nərimanbəyov, Rza bəy Ağabəyov, Əsədulla Əhmədov, Məmmədrza ağa Vəkilov (bunlar müsavat və bitərəflər fraksiyasında idilər), Aslan bəy Səfikürdski (sosialist), Qara bəy Qarabəyov (ittihad) və Aslan bəy Qardaşov (əhrar) seçilirlər. Lakin, ikinci təklifin səsə qoyulmamasına etiraz olaraq sosialistlər, ittihadçılar və əhrar fraksiyaları namizədliklərini geri götürdülər. Ona görə də, yenidən keçirilən seçkilərdə müsavat, bitərəflər və azlıqda qalan millətlərin nümayəndələri iştirak

etməklə 5 nəfər nümayəndə N.Nərimanbəyov, M.Vəkilov, R.Ağabəyov, Ə.Əhmədov və Arşaq Malxazyan təftiş komissiyasına seçdilər. “Müsavat” fraksiyasından M.Ə.Rəsulzadə məlumat verərək digər 3 komissiya üzvü yerinin boş qaldığını və hər vaxt başqa fraksiyalar öz aralarından nümayəndələrini bu komissiyaya göndərmək hüququnun saxlanıldığını bildirdi.

Azərbaycan Cümhuriyyəti parlamenti 1920-ci ildə qəbul etdiyi ilk qanun “Qaçqınların ehtiyaclarının ödənilməsinə 21 milyon rublun ayrılması haqqında” sənəd olmuşdur. Azərbaycana pənah gətirmiş qaçqınlar barədə məlumat verən M.Vəkilov, artıq onların sayının 300 min nəfəri keçdiyini bildirdi. Onun sözlərinə görə qaçqınların bir qismi mal-mülkləri və əmlakları talan edilib tamamilə əlsiz-ayaqsız qalanlardan, digər qismini isə, baş verə biləcək qarət və talanlardan qorxaraq öz evlərini tərk edənlərdən ibarətdir.

Bolşevik Əliheydər Qarayev bu kimi qanun layihələri ilə qaçqın məsələsinin həll etməyin mümkün olmadığını və bu işləri Ermənistanda daşnaksütun firqəsi, Azərbaycanda isə, “Müsavat” partiyasının törətdiyini bildirdi. Onun sözlərinə görə para-pul buraxmaqla qaçqınların halını düzəltmək olmaz. Parlament və hökumət erməni-müsəlman məsələsini həll etməlidir. “Müsavat” fraksiyyasında A.Kazımzadə və başqaları çıxış edərək bolşeviklərə konkret təklif və qanun vermələrini irəli sürülməsini istədilər. Bolşeviklər onu da bilməlidirlər ki, bu qanun təkcə Zəngəzur və Ermənistandan olan qaçqınlar deyil, bolşevik hərc-mərcliyi, müharibələr, o cümlədən Mart soyqırımına da aiddir. Belə ki, Mart soyqırımı zamanı bolşevik hakimiyyəti Şamaxı və s. yerlərdə törətdikləri talanlarda bir çox kəndlər tamamilə dağıdılmışdır. Qaçqınlar əvvəllər at və arabalarla, indi isə vaqonlarla gəlirlər. Təkcə Qazax və Borçalıda 160 min qaçqın var. Parlament üzvləri qaçqınlara təkcə dövlət hesabına deyil, milli və başqa xeyriyyə təşkilatlarının yaxıından köməyi ilə yardımlar edilməli olduğunu bildirdilər.

**1920-ci ilin əvvəllərində gərgin daxili və beynəlxalq şəraitdə işləyən parlament yanvarın 14-də, 117-ci iclasına yüksək bayram əhval-ruhiyyəsi ilə toplaşaraq Azərbaycan Xalq Cümhuriyyətinin Paris sülh konfransında, böyük dövlətlər, Antanta tərəfindən de-fakto tanınmasını təntənəli surətdə qeyd etdi. Belə ki, iclasın gündüz saat 12-ə təyin olunmasına baxmayaraq, hələ saat 10-dan qanunverici orqanın binası önündə toplaşan əhali, parlamenti hər tərəfindən əhatəyə almışdır. Parlamentin qabağından, Velikoknyajskidən başlayaraq şəhər Dumasının binasına qədər olan bütün küçə boyu bayraqlar asılmış, binaların eyvanları çeşidli, bahalı xalça-xalılarla bəzədilmişdir. Parlament mühafizəsinin tərkibinə daxil olan nəfəsli orkestr fasiləsiz milli marş ifa edir, iclas zalı, kuluarlar bahalı xalçalarla bəzədilmiş, divarlarda**

**milli bayraqlar asılmış, parlament dəhlizlərinə palmalar düzülmüş, hər yerdə, hər kəsdə yüksək bayram əhval-ruhiyyəsi yaşanırdı. Parlament lojalarında bayram tədbirlərinə dəvət olunmuş diplomatik nümayəndələr, İngiltərə hərb missiyasından polkovnik Stoks, həmçinin Gürcüstn, Estoniya, Polşa və digər dövlətlərdən olan nümayəndələr əyləşmişdilər.**

Parlamentə sədrlik edən H.Ağayev tarixi iclası açaraq, ilk sözü xarici işlər naziri F.X.Xoyskiyə verir. Alqışlar içərisində kürsüyə çıxan xarici işlər naziri parlamentarilərə bildirdi ki, 1918-ci il mayın 18-də Azərbaycan xalqı öz müstəqilliyini elan etdi. Biz bütün dünyaya təkcə müstəqilliyi elan etmək yox, həm də buna layiq olduğumuzu təsdiq edə bildik. Düz bir il yarım ərzində Azərbaycan xalqı Avropaya sübut etdi ki, o müstəqil yaşaya və idarə oluna bilər. Parlament deputatlarına müraciət edən F.Xoyski bu xəbəri ilk dəfə Tiflisdən aldıqlarını bildirdi. Gürcüstandan aldığımız teleqramda göstərilirdi ki, İngiltərə təmsilçisi Tiflisdəki diplomatik nümayəndəliyimizə gələrək məlumat vermişdir ki, Lord Kerson Paris sülh konfransı iştirakçılarına təklif etmişdir ki, Azərbaycan və Gürcüstanın istiqlaliyyəti tanınsın. Bu məsələ 1920-ci il yanvar ayının 11-də qaldırılmış və nəticə olaraq hamılıqla qəbul edilmişdir. Bu xəbər bizim üçün böyük bayramdır. Bu bayram tək bizim üçün deyil, islam xalqları və ümumtürk dünyası üçün böyük bayramdır. F.X.Xoyski çıxışında bütün xalqı və parlamenti hökumət adından təbrik edərək özünü xoşbəxt hesab etdiyini, istiqlaliyyətimiz bəyan edilən zaman hökumətə başçılıq etdiyini və indi də onun təsdiq edilməsi xəbərini iftixarla elan edilməsi qismətinin ona nəsib olunmasını özünə şərəf bildiyini söylədi. Deputatlar Azərbaycan parlamentinə təşrif buyuran, Azərbaycan Cümhuriyyətinin müstəqilliyinin tanınmasında böyük xidmətləri olan İngiltərə nümayəndəsini ayağa qalxaraq sürətlə alqışladılar.

Təntənəli iclasın sədri Həsən bəy Ağayev də öz adından bütün xalqı təbrik etdi. 19 ay yarımdan çox müstəqil olduqlarını söyləyən sədr, birgə çəkilmiş zəhmət sayəsində Avropa ölkələri istədiyimiz, arzu etdiyimiz istiqlalı tanıdılar. **Parlament sədri əvəzi, belə bir fikir bildirdi ki, tanınmamışdan əvvəl, tanınmaq lazımdır. Biz özümüzü tanımasaydıq, bizi tanımazdılar. Daxildə çalışdığımız kimi, xaricə göndərdiyimiz nümayəndə heyəti, sədrimiz Ə.Topçubaşovun rəhbərlik etdiyi nümayəndə heyəti bizi layiqincə təmsil etmişdir. Avropaya bizi vəhşi və yırtıcı kimi təqdim edənlər, millətimizin mədəni yaşamağa haqqı olduğunu sübut etdi. İstiqlal uğrunda başqa millətlərin 100 illər içərisində verdikləri qurbanları biz bir il içərisində verdik. Onların şəhidliyi ilə biz hürriyyət əldə etdik. Xarabazara dönmüş şəhərlərimiz və köylərimiz buna şahiddir. Parlament sədri istiqlal uğrunda şəhid olanların ruhlarına ehtiram olaraq**

**ayağa qalxmağı təklif edir.**

Azərbaycanın müstəqilliyinin tanınması münasibəti ilə parlamentə də Gürcüstan Müəssislər Məclisi, Krım milli parlament deputatı Şəfiqə xanım Kasprinski, Gürcüstan Müsəlmanları Milli Şurasının sədri **N.Nərimanov, Türküstan Məclisi-Müəssisan dəvəti komitə sədri Çuqayev, Bakı Bələdiyyə Şurası sədri Q.Qasımzadə, Qafqaz almanları ittifaqı sədri Y.Terster, Lehistan (Polşa) nümayəndəsi Ostrovski, Qafqazdakı Norveç konsulu Qorski, Gəncə bələdiyyə sədri Ə.Xasməmmədov, Lehistan Cümhuriyyətinin siyasi nümayəndəsi V.Tolitski, Erməni Cümhuriyyətinin xarici işlər naziri Gülxandarov, Ukrayna siyasi nümayəndəsi Tişkevir** və başqalarının təbrik teleqramları oxundu.

Məclisi-Məbusanın təntənəli iclasında fraksiyalarda çıxış edərək öz bayram təbriklərini söylədilər. M.Ə.Rəsulzadə parlamentə müraciət edərək bu gün Azərbaycan xalqının tam qələbəsi gününün olduğunu bildirdi. **Xalqımız artıq rahat nəfəs ala bilər. Bir il yarım bundan əvvəl biz qorxu içində üç rəngli bayrağı titrək əllərimizdə yüksəltdiyimiz zamanda biz ümid bəsləyir və inanaırdıq ki, bir dəfə yüksələn bayraq bir daha enməz. Bu gün Bakı küçələrində şadlıq edən xalqın əllərində tutduqları bayraq bütün dünyaya göstərir ki, bir dəfə yüksələn Azərbaycan bayrağı bir daha aşağı enməz. Azərbaycan Cümhuriyyətinin öz arzu və istəyinə qoşulması üçün bizə qardaşlarımız kömək etdilər, qanlarını axıtdılar, onların ruhlarının şad olması bu gün bizə çox lazımdır.**

"İttihad" fraksiyasından Bəhram bəy Vəzirov, "Əhrar" fraksiyasından Muxtar Əfəndizadə bayram münasibəti ilə parlamenti və Azərbaycan xalqını təbrik etdilər. Çıxış edənlər Azərbaycan xalqının buna layiq olduğunu qeyd etdilər.

**"Sosialist" fraksiyası müstəqilliyin indi tanınmasını heç də xarici dövlətlərin istəyi ilə olmadığını söyləməklə yenə də öz qərəzli mövqelərini büruzə verirdilər. Bolşeviklərin fikrincə Antanta qüvvələri öz silahlarını Kolçaka, Yudeniçə, Denikinə verəndə anladılar ki, səhv siyasət yürüdürlər. Nəticədə, bu silahlar yoldaş Leninin əlinə keçdi. Lenin Kolçakı əsir alandan sonra xaricilər anladılar ki, getdikləri yol yanlışdır və məcbur olub Azərbaycanın istiqlalını tanıdılar.**

Parlamentin azlıqda qalan millətlərin nümayəndələrinən polyak Vanseviç, yəhudilərdən Qoxman və gürcülər tərəfindən Baqradze Azərbaycan xalqını təbrik etdilər.

Parlamentin təntənəli iclasında ədliyyə naziri X.Xasməmmədov hökmət adından Azərbaycan Cümhuriyyətinin Antanta dövlətləri tərəfindən tanınmasaı münasibəti ilə ümumi əfv elan olunması haqqında qanun layihəsi hazırlanmasının ona həvalə olunduğunu və tezliklə layihənin parlament müzakirəsinə təqdim edəcəyini bildirdi.

Məclisi-Məbusan sədri saat 2-də Dənizkənarı meydanda hərbi parad keçiriləcəyini elan etməklə təntənəli bayram iclasını bağlı elan etdi.

Azərbaycan Xalq Cümhuriyyətinin tanınmasında mühüm və misilsiz xidmət göstərmiş nümayəndə heyətinin sədri Əlmərdan bəy Topçubaşov, Parisə getmək üçün viza almaqda böyük çətinliklərlə qarşılaşmış və yalnız 1919-cu ilin mayın ortalarnıda Fransaya gəlib çata bilmişdir. Nümayəndə heyətinin üzvü Əhməd bəy Ağayev isə, Antantaya qarşı çıxışlarda günahlandırılaraq İstanbulda həbs edilmişdir. Ə.Topçubaşovun digər xidmətlərindən biri, İran dövlətinin Azərbaycan Cümhuriyyətinə qarşı ərazi iddialarından əl çəkməsi olmuşdur. Məhz, 1919-cu il noyabrın 1-də Parisdə Azərbaycanla İran arasında Azərbaycan Cümhuriyyətinin müstəqilliyinin tanınması haqqında müqavilə bağlandı və diplomatik münasibətlər haqqında razılıq əldə edildi.

Azərbaycan nümayəndə heyəti və digər müstəqilliklərini elan etmiş dövlətlərin, Fransa prezidenti Klemansoya ünvanlanan məktubunda Ali Şura tərəfindən iki mühüm məsələnin həll edilməsini, o cümlədən Respublikaların müstəqil dövlət kimi tanınmalarını və bu dövlətlərə ərazi, maliyyə, iqtisadi və digər məsələlərdə kömək edilməsi təklifi edilirdi. Rusiyada bolşeviklərin üstünlük əldə etmələri, ağqvardiyaçıların "Vahid və bölünməz Rusiya" ideyasının öz əhəmiyyətini itirdiyi bir ərəfədə, Azərbaycan və Gürcüstan Cümhuriyyətlərinin istiqlaliyyətlərinin tanınması aktuallıq kəsb etmişdir. **Beləliklə, İngiltərə xarici işlər naziri lord Kerzonun təklifi ilə müttəfiqlərin Ali Şurası Azərbaycan və Gürcüstan hökumətlərini de-fakto tanıdıqları haqqında qərar qəbul etdilər. Yanvarın 15-də Fransa xarici işlər naziri Azərbaycan tərəfindən Ə.Topçubaşov və M.Məhərrəmovu, Gürcüstan tərəfdən İ.Sereteli və Z.Avalovu bu münasibətlə qəbul edərək konfransın rəsmi qərarını Ə.Topçubaşova təqdim edir.** Verasal Ali Şurası Hərbi ekspertləri, hər iki dövlətə hərbi yardım edilməsi məsələsini müzakirə edirlər. Ə.Topçubaşov müttəfiqlərə İngiltərənin Ənzəlidəki hərbi donanmasından istifadə etməklə Bakının müdafiə qabiliyyətinin artırılmasını təklif etdi. Ə.Topçubaşovun rəhbərlik etdiyi nümayəndə heyətinin uğurlu diplomatik fəaliyyəti Azərbaycan Cümhuriyyətinin siyasi cəhətdən tanınması nəticəsi kimi çox yüksək qiymətləndirilməlidir. Məhz onun səyləri ilə artıq 1920-ci ilin yazında Azərbaycan müstəqil beynəlxalq münasibətlər sisteminin subyektinə daxil olmağa

başlamıışdır.

Azərbaycan Cümhuriyyəti istiqlalının de-fakto tanınmasından sonra keçirilən parlament iclasında gündəlikdəki qanun layihələri ilə yanaşı, ölkənin daxilində və xaricində baş verən siyasi vəziyyətdə qızğın müzakirə edilmişdi. Deniknin məğlubiyyətindən sonra, hələ ötən ilin dekabrından fəallaşan bolşeviklər, Qarabağ və Zəngəzurda erməni təcavüzü, Sovet Rusiyası tərəfindən yarana biləcək yeni təhlükə, neft ixracındakı çətinliklər və s. ciddi amillər olmaqla, parlamentin ümumi işinə öz təsirini göstərirdi. Belə ki, 1920-ci il yanvarın 15-də keçirilən iclasda sosialist fraksiyasında A.Səfkürdski Rusiya Şura hökumətindən, Azərbaycan Cümhuriyyəti xarici işlər naziri F.Xoyskinin adına gəlmiş teleqramdakı məsələlərin əhalini narahat etdiyini bildirdi. Sosialistlər bu məsələnin həllini hökumətin öz üzərinə götürməsini və eyni zamanda əhalinin də rəyini nəzərə almağı təklif etdilər. Onların fikrincə baş vermiş hadisələr barədə nə fraksiyalara, nə də parlamentə heç bir məlumat verilməmişdir. **Bolşevik fraksiyası, "Denikinin ölü" vaxtı olduğu tarixi bir gündə, bizim hansı siyasət yürütdüyümüz və vəziyyətimizin məlum olmadığını bildirdilər. Hökumətimizin siyasətində "ikiüzlülük görürük" deyən bolşeviklər, Denikinin yoxa çıxdığı, Kolçakın isə əsir düşdüyü bir vaxtda, ikiüzlü siyasət olmaz və Azərbaycan hökumətinin bunlara təcili cavab verməlidir. Məhz, AXC parlamentinin doğrudan da demokratik orqan olmasından istifadə edən və açiq-aydın bu tələbləri irəli sürən qüvvələr, cəmi bir neçə ay sonra qırmızı terrordan istifadə etməklə bolşevik diktaturası elan etmişdilər.**

Azərbaycan Məclisi-Məbusanın qısa müddətdə demokratik parlamentə çevrilməsində, fraksiyalara bərabər şəraitin yaradılmasında, parlament qarşısında məsuliyyət daşıyan hökumətin təmin edilməsində böyük əmək sərf etmiş parlament sədri vəzifəsini icra edən, birinci müavin Həsən bəy Ağayev yanvarın 22-də istefa ərizəsi ilə deputatlara müraciət etdi. 13 ay parlament iclaslarına sədrlik etdiyini göstərən H.Ağayev bu gündən istefa verdiyini elan etməklə AXC dövründə təşəkkül tapmış istefa mədəniyyəti praktikasından çıxış etdi.

**1920-ci ilin fevralın 2-də keçirilən Məclisi-Məbusanın 121-ci iclasında "Müsavat" fraksiyası M.Y.Cəfərovun namizədliyini parlament sədrliyinə irəli sürdü. Deputatlar alternativ qaydada parlament sədrliyinə, həmçinin M.Ə.Rəsulzadənin, Ə.Əmircanovun, Ə.Qarayevin və V.Kraçenkonun namizədliyini göstərdilər. Lakin göstərilən deputatlar öz namizədliklərini geri götürdüklərindən bildirdilər və gizli səsvermə yolu ilə M.Y.Cəfərovun parlament sədrliyinə namizədliyi səsə qoyulur və 47 ağ şar lehinə, 5 qara şar əleyhinə olmaqla təsdiq edilir. Beləliklə "Müsavat" fraksiyasının üzvü**

**Məmməd Yusif Cəfərov parlament sədrinin birinci müavini seçilir.**

Fevralın 5-də parlament sədrinin birinci müavini M.Y.Cəfərovun ilk sədrliyi ilə müzakirələr keçirilir. İclasda parlament komissiyalarına yeni üzvlərin seçilməsi, neft məhsullarına tətbiq edilən akzislər, balıq ovu, gömrük tarifləri, mədaxil və məxaric haqqında və s. qanun layihələri müzakirə olunur.

Azərbaycan Məclisi-Məbusanı, müttəfiq dövlətlər tərəfindən Azərbaycan Cümhuriyyətinin tanınması münasibəti ilə ümumi əfv elan olunması haqqında 14 yanvar 1920-ci il parlament qərarını uyğun olaraq hazırlanmış qanun layihəsini müzakirəyə çıxarır. **Ümumi əfv qanunu haqqında Ş.Rüstəmbəyli məlumat verdikdən sonra, A.Səfikürdski, ədliyyə naziri X.Xasməmmədov, Q.Camalov, İ.Əbilov, S.Vanseviç və Ə.Qarayev çıxış edərək humanizm prinsiplərindən irəli gələn qanun layihəsini təsdiq olunmasını irəli sürdülər.** Beləliklə, parlament 1920-ci il fevralın 9-da müttəfiq dövlətlər tərəfindən Azərbaycanın dövlət müstəqilliyinin tanınması münasibəti ilə ümumi əfv elan etdi. Qanun üç hissədən ibarət olmuşdur. Qanuna görə, **digər cinayətlərlə yanaşı, ermənilərin və bolşeviklərin törətdikləri 1918-ci il Mart soyqırımı cinayətləri, həmçinin hökumət tərəfindən yaradılmış fövqəladə istintaq komissiyasının təhqiq etdiyi Avropa müharibəsinin başlanmasından bəri Zaqafqaziyada yaşayan müsəlmanlara qarşı törədilmiş zorakılıq, o cümlədən əmlaklarının qarət edilməsi və digər cinayətlərə görə də ümumi əfv verilirdi. 1920-ci ilin 9 fevralında ümumi əfv qanunu rəsmi olaraq "Azərbaycanın müstəqilliyinin beynəlxalq tanınması münasibəti ilə əhaliyə verilən güzəştlər" adlanırdı.** Qanunun belə adlanması konkret cinayət əməlləri törətmiş iştirakçılarla yanaşı, məhkəmənin qərarı ilə müxtəlif vergi və ödəncləri verə bilməyən şəxslərə güzəştlər edilməsi ilə əlaqədar olmuşdur. **Qanunun birinci hissəsində ümum əfv dövlətə xəyanəti kimi cinayətlərə şamil edilmirdi.** Milli düşmənçilik zəminində törədilmiş əməllərə görə təqib və cəza bu qanun verilən andan azad etməni nəzərdə tutur. 1918-ci il mayın 28-nə qədər katorqa işlərinə məhkum olunmuşlar və ya məhkumluğu gözlənilənlərin yarıbayarı, müddətsiz katorqa işlərinə məhkum olunanlar isə 12 ilə qədər cəzaları azaldılırdı. Ümumi əfv qanunu Azərbaycan Cümhuriyyəti ərazisində yaşayan əcnəbilərə də şamil olunurdu. Parlament qanunu parlament sədr əvəzi M.Y.Cəfərov, parlamentin yeni katibi Bağır Rzayev və dəftərxana müdiri M.Vəkilov tərəfindən imzalanmışdır.

1920-ci il fevralın 12-də parlament "Azərbaycan Müəssislər Məclisinə seçkilər üzrə Mərkəzi Seçki Komissiyasının sərəncamına 20 milyon rubl ayrılması haqqında" qanun layihəsini müzakirə edərək təsdiq etdi. Komissiyanın üzvü A.Əfəndizadə dövlət sərhədlərinin tam dəqiqləşdirilməsi səbəbindən, hələlik 18

qəza üzrə Azərbaycanın 3 milyon əhalisindən 1 milyon 300 min nəfəri üçün hazırlanacaq kağızlar, bülletenlər, zərf və digər işlər görülməsi üçün vəsait ayrılmasının vacib olduğunu bildirdi. Komissiyanın rəyinə görə hər qəzada 35 seçki məntəqəsi təşkil edilməsi nəzərdə tutulurdu. Eyni zamanda Azərbaycan Cümhuriyyəti şəhərlərində seçki məntəqələri olduğundan onların yenidən yaradılmasına ehtiyac olmamışdır. Şəhər və qəzalarla birlikdə cəmi 1925 seçki məntəqəsinin fəaliyyət göstərəcəyi qərara alınmışdır. Müəssislər Məclisinə seçkilər üzrə Mərkəzi Seçki Komissiyasına 20 milyon rubl vəsait ayrılması barədə qanunun müzakirəsi zamanı deputatlar seçkinin yaza qədər keçirilməsi və işlərin sürətləndirilməsini təklif edirdilər. Hakim partiyaya müxalifətdə olan fraksiyaların nümayəndələri, Müəssislər Məclisi seçkiləri üzrə komissiyanın sədri M.Ə.Rəsulzadəni fəaliyyətsizlikdə, işlərin öhdəsindən gəlməməkdə günahlandırdılar. Müsavat məbusu Ş.Rüstəmbəyov onlara cavab verərək bildirdi ki, komissiya sədri Rəsulzadə olsa da komissiya ümumidir və orada bütün fraksiyalar kifayət qədər nümayəndə ilə təmsil olunublar. Ona görə də təkcə müsavat deyil, bütün firqələr bu işdə məsuliyyət daşıyırlar.

"Əhrar" fraksiyası da təkcə seçki komissyasına görə deyil, həmçinin daxili, maliyyə, ticarət, maarif nazirliklərinin yarıtmaz işlərinə görə parlamenti, bütün bu işlərə görə isə "Müsavat" partiyasını təqsirləndirdi. "İttihad" fraksiyasının nümayəndəsi C.Ləmbəranskinin sözlərinə görə son 4 ayda komissiya 9 iclas keçirməsinə baxmayaraq, onlar bu iclasda iştirak edə bilməmişdirlər. Onlar iclaslardan xəbərləri olmamalarında hakim partiyanı tənqid edirdilər. Hacı Kərim Saniyev "Hümmət" fraksiyası adından çıxış edərək seçki komissiyalarına inspektor-müfəttişlərin hələ də təyin edilməməsinə, torpaq məsələsinin həll edilməməsinə görə hakim partiyanı ittiham edirdi. **Sabiq parlament sədri H.Ağayev sosialistlərin həmişə qərəzli olduğunu və komissiya iclaslarına bir dəfə də gəlməyən öz nümayəndələrindən hesabat istəməmələrini, əhrarın nümayəndəsinin isə cəmi üç iclasa gəldiyini bildirdi. H.Ağayev söylədiyi faktları parlamentə yazılı sənədlərlə təqdim etməyə hazır olduğunu qeyd etdi.** Beləliklə parlament müzakirələri dövlət və hökumət böhranının dərinləşdiyini, fraksiyalar arası mübarizə, xüsusilə də "Müsavat" firqəsinə qarşı partiyaların bloklaşması prosesinin davam etdiyini göstərdi.

**Qanunverici orqanda, "Hümmət" və sosialist blokunun barışmaz və məqsədyönlü siyasət aparmaları, onların yaxın gələcək üçün hazırlamış olduqları məkrli planlarından xəbər verirdi. 1920-ci il fevralın 11-də Bakı şəhərində Azərbaycan Kommunist partiyasının (Mirzə Davud Hüseynov AK(b)P-nin katibi seçilmişdi) yaradılması və onların silahlı üsyana**

**hazırlaşmaları haqqında qərarları bunu sübut edirdi. Bolşeviklər Azərbaycanın istiqlaliyyətin beynəlxalq səviyyədə, Versal Ali Şurasında tanınmasını "əməldə qəbul etmir" və milli mənafelər mövqeyindən çıxış etmək, onu müdafiə etmək əvəzinə, respublikada siyasi vəziyyəti gərginləşdirmək üçün bütün vasitələrdən istifadə edirdilər. Fəhlə məsələsi, torpaq islahatı, iqtisadi çətinliklər və s. məsələlərlə pərdələnən bolşeviklər, milli hökumətə qarşı mübarizə aparırdılar.**

Məclisi-Məbusan fraksiyalarının mübarizəsi, 1920-ci ilin yazında yeni mərhələyə keçid. Xüsusilə "Müsavat" fraksiyası öz nümayəndəsi, M.H.Hacınskini daxili işlər naziri vəzifəsindən kənarlaşdırmaq istəyi "İttihad" partiyasının etirazlarına səbəb oldu. Təkcə "İttihad" firqəsi ilə deyil, əhrarçılar, sosialistlər, bitərəflər və s. müsəlman partiya və təşkilatları arasında mübarizənin güclənməsi həm parlamentdə, həm də hökumətdə siyasi böhranı dərinləşdirirdi. "Müsavat" firqəsi daxilində zilddiyyətlər ölkənin daxili və xarici siyasəti məsələlərində fikir ayrılığının dərinləşməsinə, **xüsusilə M.H.Hacınskinin daxili işlər nazirliyi orqanlarında apardığı milli qüvvələrə qarşı "təmizləmə işi", bolşeviklərə qarşı tutduğu mülayim mövqeyi və digər məsələlər "İttihad" fraksiyasının parlamentə təsirinin güclənməsinə və öz şərtlərini diktə etməyə imkan verirdi. "İttihad" fraksiyası dövlət strukturlarındakı qanunsuzluqlarda hakim partiyanı təqsirləndirir, bu əməlləri törədən şəxslərin müəyyən edilməsi üçün təbliğat xarakterli kampaniya aparırdı. Xüsusilə ticarət və sənaye nazirliyində qanunsuzluq və korrupsiyanın baş verdiyini bildirməklə, geniş yoxlamalar və təhqiqatlar aparılması üçün parlament təftiş-yoxlama komissiyasının işlərə başlamasını tələb edirdi. Məhz, daxili işlər naziri M.H.Hacınski "İttihad" fraksiyasının başladığı kampaniyaya dəstək verməsi sual doğururdu.** Məhz, "Müsavat və bitərflər", hakim parlament fraksiyasının nümayəndəsinin fəhlə liderləri və bolşeviklərlə yaxınlaşması narazılıqla nəticələndi. Nəticədə, hakim fraksiya tərəfindən M.H.Hacınskinin daxili işlər naziri vəzifəsindən geri çağırılması aktuallaşdı. **Parlamentin fevralın 23-də keçirilən iclasında baş nazir N.Usubbəylinin parlament sədrinə ünvanladığı məktubunda M.H.Hacınskinin daxili işlər naziri vəzifəsindən azad edərək, onu ticarət və sənaye naziri təsdiq edilməsi və daxili işlər naziri vəzifəsinə isə Mustafa bəy Vəkilovun təyin edilməsi haqqında müraciəti elan edildi. Hökumət tərkibində dəyişiklik haqqında məktub baş nazir tərəfindən fevralın 15-də imzalanmışdır. Baş nazirin göndərdiyi hökumətin tərkibindəki dəyişiklik, parlament tərəfindən təsdiq edilir.**

Parlament partiyaları arasındakı münasibətlərin pisləşməsi, mart ayının

əvvəllərindən başlayaraq bolşeviklərə arxalanan ermənilərin Qarabağda əhali arasında itaətsizlik təbliğatı aparması, Kars əyalətindəki baş vermiş hadisələr, daha sonra Gürcüstan hökumətinin Batum (Acarıstan) ərazisində yaşayan müsəlmanlara qarşı münasibətinin dəyişməsi və Şimaldan gözlənilən təhdid şəraitində vəziyyəti daha da ağırlaşdırırdı. İrəvan quberniyasında yaşayan erməni-daşnakların müsəlmanlara qarşı törətdikləri qırğınlar fevral ayından ardıcıl xarakter olmağa başladı.

**Böyük dövlətlərin Sovet Rusiyasına qarşı keçirilən hərbi əməliyyatlarda "vahid və bölünməz Rusiya" tərəfdarlarına kömək etmələri uğursuzluqla nəticələnmişdir. İndi də onlar bütün qüvvələrini Türkiyəyə qarşı təcavüzə səfərbər etmişdilər. Qafqazda fəallaşan, həmişə olduğu kimi ikiüzlü erməni siyasəti, vaxtı ilə İrəvan quberniyasını birgə konfedrativ dövlətdə birləşmək adı ilə (və digər Batum öhdəlikləri) Azərbaycan Cümhuriyyətindən aldıqları kimi, indi də Türkiyəni məhv etmək istəyən beynəlxalq güclərin təhdidindən istifadə edərək "Böyük Ermənistan" ideyası adı ilə Türkiyənin şərq hissəsini ələ keçirmək istəyirdi. Fevralın sonlarında xarici işlər naziri F.X.Xoyski Qarabağda baş vermiş son hadisələrlə bağlı Ermənistan xarici işlər nazirinə nota göndərir.** Parlamentin orqanı olan "Azərbaycan" qəzetinə 29 fevral 1920-ci ildə verdiyi müsahibədə xarici işlər naziri Batum əyalətinin taleyi ilə bağlı məsələlərə aydınlıq gətirməklə yanaşı, məsələnin sülh və danışıqlarla həll edilməsinin tərəfdarı olduğunu bildirirdi. Əslində bütün bu məsələlər Azərbaycan Cümhuriyyətinin istiqlalına qarşı çevrilmiş siyasət olmaqla dövlət hakimiyyəti böhranı yaradırdı. Azərbaycan parlamentinin sosialistlər bloku, xüsusilə də ittihadçılar bolşevik-kommunistlərin guya müsəlman dünyasına, qərb imperializminə qarşı mübarizədə kömək göstərəcəyinə inanırdılar. Ona görə də ittihadçılar həvəslə bolşeviklərlə ittifaqa girməklə Antantiya qarşı mübarizə aparmaq üçün rus qoşunlarının Azərbaycandan keçməklə Türkiyəyə getməsinə şərait yaradılmasını tələb edirdilər.

Yaranmış mürəkkəb şəraitdə radikal tədbirlər görülməsi, **hətta parlamenti və siyasi partiyaları buraxıb fövqəladə vəziyyət elan** etməyi təklif edən F.X.Xoyski, daxili işlər naziri M.H.Hacınskini təslimçi qüvvələrə qarşı fəaliyyətsizlikdə ittiham edirdi. **"Müsavat" fraksiyasından ən gənc nazir olan M.Vəkilov və onun müavini, partiyanın radikal liderlərindən olan Şəfi bəy Rüstəmbəyovun daxili işlər nazirliyinə gətirməklə, vəziyyəti yaxşılaşdırmağa ümid edirdi. Məhz, yeni nazir heyəti dövlətçiliyə zidd ünsürlərə qarşı fəal mübarizə apararaq bolşeviklər içərisində həbslər keçirdi, fəhlə klubları və ən radikal mövqeyli qəzetlər olan "Edinaya Rossiya" (Vahid Rusiya), "Noviy mir" (Yeni dünya) və s. bağlandı. Lakin bu tədbirlər parlament**

**fraksiyalarında kəskin narazılığa səbəb oldu. "İttihad" fraksiyası, "Müsavat" partiyasını hakimiyyəti zorla ələ keçirməkdə ittiham etdi.**

Azərbaycan parlamentinə daxil olmuş qanun layihələri ictimai-siyasi vəziyyətin yaratdığı gərginlik səbəbindən geniş müzakirə edilmir, daha çox baş vermiş hadisələrə münasibət bildirilməsi ilə iclaslar keçirilirdi. Parlament "Gəncə şəhərində hərbi zavod açılması və onun smetası haqqında" qanunu 1920-ci il fevralın 23-də təsdiq etdi. Qanuna görə zavod üçün ilkin olaraq 680 min rubl vəsait ayrılması nəzərdə tutulurdu. Parlament Gürcüstanda baş vermiş zəlzələdən zərər çəkənlərə 2 milyon rubl ayrılması haqqında məsələni müzakirə etmiş və maliyyə-büdcə komissiyasına vəsait ayırmaq üçün təkliflər hazırlamağı tapşırmışdı.

Martın 4-də M.Y.Cəfərovun sədrliyi və Mehdi bəy Hacınski və Rza Qaraşarovun katibliyi ilə keçirilən parlamentin **130-cu iclasında, 1920-ci il üçün dövlət büdcənin müzakirəsi keçirilmişdir. Maliyyə-büdcə komissiyasının üzvü M.Ə.Rəsulzadə qanun layihəsini təqdim edərək onun dörd hissədən, o cümlədən 1) ümumi əsaslar, 2) büdcənin tərtibi və dövlət xərcləri, 3) dövlət büdcəsinə baxılması və təsdiq olunması və 4) büdcənin icrasından ibarət olduğunu bildirdi. Məruzəçi, beynəlxalq təcrübədən istifadə edən gənc Azərbaycan Cümhuriyyətinin müfəssəl büdcəsini yaratmağa çalışdığını və ayrı-ayrı ölkələrdə müxtəlif praktikalardan istifadə edildiyini deputatların nəzərinə çatdırdı. Onun sözlərinə görə Amerika Birləşmiş Ştatlarında konqres özü büdcəni hazırlayıb hökümətə təqdim edir. İngiltərədə isə maliyyə nazirliyi büdcəni tərtib edir. Rusiyada isə ayrı-ayrı nazirliklər büdcəni hazırlayıb parlamentə göndərirlər. Fransa parlamentinin büdcə qanununda göstərilir ki, məsrəflərin artırılması parlamentin səlahiyyətlərindədir.** Azərbaycan Cümhuriyyətində də ayrı-ayrı nazirliklər öz büdcələrini hazırlayıb maliyyə nazirliyinə təqdim ediblər. Maliyyə nazirliyi onları nəzərdən keçirdikdən sonra parlamentə göndərib. Maliyyə-büdcə komissiyası gələcəkdə dövlət büdcəsi haqqında ümumi qanun hazırlayanda, bu məsələlərə diqqət verməlidir. Büdcə qanununu müzakirə edən parlament üzvləri Cümhuriyyət üçün bunun təzə qanun olduğundan bir qədər təcrübəsizliyin mövcud olduğunu etiraf edirdi. Çıxış edən bolşevik Ağamalıoğlu büdcə qanunun 53-cü maddəsinin 2-ci bəndinin ləğv edilməsini təklif etdi. Qanunda bu maddə hökumətin smetadankənar (layihədən kənar) məxaricini nəzərdə tutulmasını təsbit edirdi. **Ağamalıoğlu bolşeviksayağı belə bir fikir irəli sürürdü ki, nə qədər dünyada mədəniyyət artırsa, bir o qədər də hiylə artır. Mədəniyyət artımını, hiylə artımına ekvivalent hesab edən bolşevik, onun üçün də, dövlət başçıları bir çarə tapıb Məclisin əli ilə xalqdan pul toplayır, dolaşıq yollara baş vururlar, fikrini bildirdi.** Biz

Avropadan bunu götürərək dolaşıq işlərə qoşulmuşuq. Bu qanun Cümhuriyyət tarixində birinci dəfədir ki, Məclisi-Məbusana daxil olub. Əgər bu ikinci, üçüncü dəfə olsaydı bolşeviklər layihəni geri qaytarardılar. Hakim partiya əleyhinə birləşmiş əhrarçılarda, bolşeviklərlə şərik olduqlarını bildirdilər. Əbilov İbrahim 53-cü maddəyə diqqəti çəkərək bildirir ki, parlament tətilə çıxdığı vaxt, hökumət bu maddəyə istinad edərək büdcənin pulunu xərcləyəcək. Ə.Qarayev isə daha irəli gedərək belə bir orijinal fikir söylədi ki, hakim firqə güclü olub parlamenti buraxar və pulu istədiyi kimi xərcləyir. İbrahim İsmayılzadə hökumətin hər zaman istifadə edə biləcəyi fond olduğu halda, 53-cü maddənin olmasına ehtiyacın olmadığını bildirdi. Bolşeviklər fraksiyası, məmurların məvaciblərinin artırılmasını nəzərdə tutan və maliyyə naziri Rəşidxan Kaplanov tərəfindən təqdim edilən qanun layihəsinə də etiraz etdilər. "İttihad" fraksiyasının lideri Q.Qarabəyli də bu qanunun əleyhinə olduqlarını bildirdi.

**1920-ci il martın 9-da parlamentin 132-ci iclası fövqəladə toplantı kimi keçirilir.** Belə ki, Kars vilayətində baş verən hadisələri müzakirə etmək üçün baş nazir N.Usubbəyli də parlamentin iclasında iştirak edirdi. Daxili işlər nazirinin müavini Ş.Rüstəmbəyov çıxış edərək bildirmişdir ki, üç qonşu dövlətin baş nazirlərinin Tiflisdə keçirilən konfransında qərara alınmışdır ki, hər bir məsələ sülh yolu ilə həll edilsin. Konfransda bu barədə qətnamədə qəbul edilmişdir. Biz ümid edirik ki, qonşumuz Ermənistan hökuməti, bütün məsələləri danışıqlarla həll etməyə çalışar. Lakin bizim ümidlər doğrulmadı, bu qərardan sonra Zəngəzurda erməni hökuməti tərəfindən müsəlmanlar qırıldı, köylər dağıdıldı, qırğınlar İrəvan quberniyası və Bəyazid qəzasında da davam etdirildi. Azərbaycan Cümhuriyyəti bu hadisələri müvəqqəti olduğunu və erməni qoşunlarımızın məsələləri sülh və danışıqlarla həll olunacağına bəslədiklərimiz ümidlər, bu gün özünü tamamilə doğrultmur. Belə bir fikirdə vurğulandı ki, biz görürük erməni hökuməti tutduğu mövqedən geri çəkilmir, əksinə indi də Kars vilayətində müsəlmanları qırırlar. Kars vilayətində müsəlmanlar başsız qalmış, parlament onların qırılıb məhv edilməsinə soyuqqanlıqla baxa bilməz və parlament üzvləri baş nazir Nəsib bəydən bu suallara cavab gözlədiklərini bildirdilər. **Baş nazir parlamentarilər qarşısında çıxış edərək bildirdi ki, Qars vilayəti əhalisinin əksəriyyətinin müsəlman olduğunu və onların Cənub-Qərbi Araz Türk Respublikası adlı bir hökumət yaratdıqları faktı hamıya məlumdur. İngiltərənin Qafqazda olan nümayəndələri 1919-cu il aprelin 12-də Kars hökumətini ləğv etdilər. Hökumət üzvləri həbs edilərək Maltaya göndərildilər. Araz Respublikası ləğv edilərkən ingilislər Karsa erməni təcavüzkarlarını buraxmayacaqlarını bildirmişdilər.** İngilislər sözlərinə əməl etməyərək erməniləri Karsa buraxdılar. Onlar isə Karsı, Sarıqamışı, Ərdahanı işğal edib erməni ailələrini oraya köçürdülər.

Ermənilər müsəlmanları bu ərazilərdən zorla çıxardılar. Erməni hökumətndən Xatisov Kars gələrkən özünü elə təqdim etmişdir ki, guya yerli müsəlmanlar onları qəbul edir. Əslində isə bu yalanı dünyaya göstərmək istəyirdilər. Amma həqiqətdə belə deyildi. Fevralın əvvəllərində Ermənistan hökuməti belə bir azğın qərar vermişdir ki, ermənilərə tabe olmayan müsəlman kəndləri toplardan açılan atəşlə məhv edilsinlər. Biz Azərbaycan hökuməti adından dərhal Ermənistana etiraz notası verdik. Lakin martın 4-də daxil olan xəbərlərə görə isə artıq 28 kənd yer üzündən silinmişdir. Azərbaycan hökuməti bunun ardınca yenidən ikinci notanı Ermənistana göndərdi. Erməni quldurları qadınlara, uşaqlara belə aman verməmiş, tonqalda yandırmışdılar. **Erməni generalları Osipyan, Mazmanov bu qırğınlara başçılıq etmişdilər. Fevralın 7-də təkcə Göyərçin kəndində talanlar törədən ermənilər 175 evin bütün əmlakını aparmış, kənddə qalmış 24 kişi və 87 qadını qətlə yetirmişlər. Qızılkilsə kəndində 27 uşağı tonqalda yandırmışdılar. Azərbaycan hökuməti Londona teleqram göndərərək, İngiltərə hökumətini erməni vəhşiliklərindən xəbərdar etmiş və ermənilərin mövcud razılığı pozduqlarını onların nəzərinə çatdırmışdır.** İngiltərə hökuməti bizim məlumat əsasında erməni hökumətindən təcavüzü dayandırmağı tələb etmişdir. Fevralın 29-da biz erməni hökumətinə məsələləri yerində araşdırmaq üçün komissiya yaradılmasını təklif etmişdik. Bizdə olan məlumata görə erməni hökuməti və müttəfiq hökumətləri belə komissiyanın yaradılmasına razılıq versələr də, bu günə qədər onlardan bir xəbər daxil olmayıb.

Kars hadisələri ilə bağlı hökumətin mövqeyinin və gördüyü işlərin nədən ibarət olduğunu dinləyən parlament üzvləri də erməni təcavüzünə öz münasibətlərini bildirdilər. **M.Ə.Rəsulzadənin sözlərinə görə, istənilən hökumətdə milli azlıqlar var və dövlət bu millətlərin yaşamasını normal təmin etməlidir. Bizim Cümhuriyyətdə ermənilər yaşayır, Ermənistanda da müsəlmanlar. Ermənistan Cümhuriyyətinin məqsədi başqadır. Çünki Parisdəki Poqos Nubaryan paşadan göndərilən məlumatda göstərilir ki, vahid Böyük Ermənistan məsələsi artıq həll edilmək üzrədir. Daşnaklar Karsa Ermənistan Cümhuriyyətinin paytaxtı kimi baxırlar.** Son hadisələr göstərir ki, doğrudan da ermənilər süni bir Ermənistan düzəltmək istəyirlər. Onlar diplomatik sənədlərlə Kars vilayətində ermənilərin əksəriyyəti təşkil etdiklərini sübut etmək üçün müsəlmanları məhv edirlər. Nədənsə müsəlmanlar qırılanda isə dünya bundan xəbər tuta bilmir. Dünyanın quruluşu belədir ki, müsəlmanların başına gətirilən müsibətlərə görə heç kimə cəza verilmir. M.Ə.Rəsulzadə öz çıxışında bildirdi ki, bu gün Azərbaycan Məclisi-Məbusanı, milləti və hökuməti Kars vilayətindəki qardaşlarının başına gələn müsibəti, bizə qarşı laqeyd qalmış Avropaya və dünyaya çatdırmalı və müsəlmanlara zülm edənləri meydana çıxarmalıdır. Sosialist

fraksiyasından İbrahim İsmayılzadə erməni-daşnakların hələ birinci rus inqilabı dövründə, 1905-ci ildə öz hədlərini aşdıqlarını və imperialist arzulara düşdüklərini bildirdi. Kerenskinin Rusiyada hökumət başında olduğu dövrdə Mivanfolov vasitəsilə min cür fitnə düzəltdilər, Azərbaycan və Gürcüstan idarələrini dağıtmağa çalışdılar. Rusiya qoşunları Türkiyədə olanda daşnaklar Kilikiyadan (Küləkli-dən) başlayaraq Xəzər dənizinə qədər böyük Ermənistan yaratmaq fikrinə düşdülər. **Bakıda bolşeviklərlə əlbir olub, bizə xan və bəy deyərək 1918-ci il Mart soyqırımını törətdilər. İsmayılzadənin sözlərinə görə o Gəncədə komissar olanda ermənilər kazakları öyrədirdilər ki, türkləri tərksilah etmək lazımdır. Ermənilər hal-hazırda bolşeviklərdən, Avropa imperialistlərindən istifadə edərək 7 quberniya daxilində Böyük Ermənistan yaratmaq istəyirlər.** Artıq məlum olur ki, Ermənilər Zaqafqaziya konfedrasiyasına daxil olmayacaqlar və onun hökumətində iştirak etməyəcəklər. Sosialist **Baba Qəbulov da çıxış edənlərlə razı olduğunu və ermənilərin bizi aldatdıqlarını bildirdi. Türkiyədə bir erməni naxoş (xəsətə) olub ölürsə, bütün Avropa-"erməniləri öldürdülər", deyə bağırırlar. Lakin erməni bandaları, quldurları, mayzeristləri tərəfindən evləri dağıdılan müsəlmanların ərəşə qalxan nalələrini Avropa eşitmir.** Bu məsələləri artıq öhdəliklərlə, konfranslarla həll etmək olmaz. Osmanlı-türk məsələsin "həll" etdikdən sonra, Azərbaycan məsələsinə girişmək istəyən qüvvələr Qarsda süni yolla erməni əksəriyyətini yaratmaq istəyirlər. **Bizim bir qrup namussuz müsəlmanlarımız vasitəsilə, daşnak şöbələri Bakıdan külli miqdarda pul toplayıb, Ermənistana göndərirlər.** Bu işlərdə Bakıdakı bütün ermənilər iştirak edirlər.

"Müsavat və bitərəflər" fraksiyasından Əsədulla Əhmədov bildirdi ki, erməni daşnaklarının götürdüyü bu yol oradakı müsəlmanları fəlakətə aparır. **İstər hökumətdə sosialistlər olsun, istər menşeviklər olsun ermənilərin gözündə biz müsəlmanıq, türkük. Onların məqsədi müsəlmanları qırıb məhv etməkdir. Artıq bu bir həqiqətdir. 1918-ci il Bakıdakı Mart soyqırımında bir evdə 24 uşağın ölməsini öz gözü ilə gördüyünü söyləyən deputat Ə.Əhmədov ermənilərin azğınlaşdıqlarını bildirdi.** Bizə deyirlər ki, vəhşisiniz. Vəhşi millət hökumət qura bilməz. Məncə ən böyük vəhşilik adam öldürməkdir ki, onu da ermənilər törədirlər. Qarabağda Qaybalı kəndində bir hadisə oldu, bizim hökumət tez komissiya göndərdi və komissiya erməniləri müdafiə etdi. Biz İrəvandakı hadisələri təhqiq etmək üçün komissiya yaratmaq istəyəndə bizə deyirlər ki, daxili işlərimizə qarışmayın.

**Bolşevik Ağamalıoğlu tökülən qanların həm müsəlmanlara, həm də ermənilərə heç bir xeyri olmadığını və bu düşmənçiliyin 1905-ci il çar**

**hökuməti tərəfindən başlanıldığını söylədi. Bolşeviklərin fikrincə Azərbaycanda və Ermənistanda "inqilabdan doğan" hökumət olsa bu hadisələr baş verməz. Bunun bir çarəsi buradakı erməniləri Ermənistana, oradakı müsəlmanları buraya köçürməkdir. Bir çarəsi də qırğındır. Bizim hökumət konfedrasiya qurulmasını istəyir. Ancaq ermənilər konfedrasiyaya daxil olmaq istəmirlər.** Bolşevik Ə.Qarayev parlamentdə bildirdi ki, hökumət Qars hadisələri ilə bağlı izahatında həqiqi məsələlərin üstündən keçdi, yəni onların üstünü örtdü. **Bolşeviklər soruşurlar ki, bu məsələlələr kimə lazımdır? Birinci şeytan Ermənistan hökumətinədək Xatisova, ikinci şeytan "Müsavat"a və bir də üçüncü şeytan da vardır ki, o da şeytanların (Avropa demokratiyası) anasıdır.** Bu yaxınlarda "Tayms" qəzeti yazmışdır ki, üçüncü şeytan Denikinə nə qədər silah və pul vermişdi. İndi bu üçüncü şeytanın əli Denikindən üzülüb. Ona görə də əlini Zaqafqaziyaya uzadıb, buradan istifadə edib Qarabağda, Zəngəzurda, Karsada, bu gün-sabah Naxçıvanda və Şərurda da erməniləri müsəlmanların üstünə qaldıracaq. Erməni daşnakların qabağını almaq asandır, lakin onların arxasında böyük qüvvə durub. Fransa imperialistləri general Andronikə böyük bir medal veriblər. Bu medal hansı qəhrəmanlığa görə Andronikə verilib? Naxçıvanda, Şərurda müsəlmanları yerlə yeksan etdiynə görəmi verilib? "İttihad" fraksiyasının sədri Q.Qarabəylinin fikrincə hökumətin yalnız sülh yolu ilə fəlakətdən qurtarmaq istəmək arzusu ilə məsələləri həll etmək olmaz. Konkret işlər görümək lazımdır. **Artıq 40-50 ildir ki, biz müsəlmanları qırırlar. Rusiya çarizmi dövründə bu işlər ruslar tərəfindən görülürdü.** İndi Avropa imperializmi, İngiltərə, Fransa, Amerika birləşib bizi daşnaklara qırdırırlar. Avropanın planı təkcə Türkiyəni deyil Azərbaycanı da bu gün məhv etməkdir. Amerika nümayəndəsi Haskil, Karsda ermənilərə söz verir ki, Qara dənizdə erməni limanını tikilməsinə kömək edəcək. Azərbaycan parlamentində Kars hadisələrinin müzakirəsi Cümhuriyyəti gözləyən təhlükələrin çox ciddi olduğunu, ümumi düşmənə qarşı birlik nümayiş etdirməyi zəruri etsə də, deputatlar çıxış yolunu müxtəlif vasitələrdə axtarırdılar. Xüsusilə bolşeviklər məsələlərin həllini ictimai-sinfi mövqedən şərh edərək çıxış yolunun, bolşevik sovet hökumətinin qurulmasında gördüklərini gizlətmirdilər.

**1920-ci il martın 11-də parlament "Gürcüstanda baş vermiş zəlzələdən zərər çəkənlər 3 milyon rubl ayrılması haqqında" qanun qəbul etdi. Qanun layihəsinin ilkin variantında Gürcüstana 2 milyon yardım ayrılması nəzərdə tutulmuşdur. Lakin fevral 23-də Qori şəhəri və ətraf ərazilərdə baş vermiş zəlzələ çoxlu dağıntı yaratdığından yardımın artırılaraq 3 milyon müəyyən edilməsi qərara alınmışdır. Qanun müzakirəsiz təsdiq edildi və həmişə bol sərvəti, bərəkətli çörəyi olmuş Azərbaycan, öz səxavətini əsirgəmiyərək Gürcustana neft, taxıl və digər zəruri əşyalar göndərməyə hazır olduğunu,**

**praktiki fəaliyyətin yerinə yetirdi.**

Azərbaycan parlamenti martın 12-də Rusiya **burjua-demokratik inqilabının 3-cü il dönümü münasibəti ilə təntənəli iclas** keçirdi. Parlament sədri əvəzi M.Y.Cəfərov öz çıxışında Rusiya imperiyasını devirmiş burjua inqilabı, məzlum və istismar olunan millətlərin öz istiqlaliyyətlərini elan etmələri üçün şərait yaratdığını bildirdi. Kars hadisələrinə münasibət bildirən M.Y. Cəfərov, Zaqafqaziya xalqlarının konfederasiyanın yaradılmasının yeganə qurtuluş yolu olduğunu və müsəlmanlara qarşı törədilmiş terroru dayandırmaq üçün gürcü, erməni və Avropa demokratiyasına müraciət edərək, qarşılıqlı anlaşma, fəaliyyət göstərilməsini zəruri hesab edirdi. Azərbaycan hökuməti təcili Gürcüstan və Ermənistan hökumətlərinə müraciət edərək aprelin 5-də Zaqafqaziya hökumətlərinin konfransını keçirməyi təklif etmişdir. **M.Ə.Rəsulzadə öz çıxışında Rusiyada baş vermiş inqilabın 3 illik bayramının əsl mahiyyətinin nədən ibarət olduğunu diqqətə çəkdi. Onun sözlərinə görə, birinci Rusiya inqilabı nəticəsində Rusiya imperiyasında yaşayan millətlər öz azadlıqlarını təmin etdilər. İkinci inqilab Rusiya inqilabı deyil, bolşevik şüarı ilə meydana atılmış, rus millətinin özünün inqilabıdır. İkinci inqilabın bizə aidiyyəti yoxdur. Rusiya inqilabı bizim üçün əlamətdar hadisədir. Çünki bu inqilab nəticəsində biz hürriyyət əldə etdik. Bununla da, imperiyaya daxil olan xalqların mübarizəsi başa çatdı.** "İttihad" fraksiyası isə Rusiya inqilabının 3 illiyinin böyük əhəmiyyətini onda görürdü ki, məhz bu inqilab islam xalqlarını azadlığına cığır açmışdır.

Azərbaycan parlamenti Novruz bayramı münasibəti ilə martın 15-dən-29-na qədər tətil elan etsə də, **martın 17-də 136-cı fövqəladə iclasına** toplaşaraq Azərbaycan Cümhuriyyəti ilə Gürcüstan Cümhuriyyəti arasında bağlanmış tranzit öhdəliyi haqqında sazişi təsdiq etdi.

Azərbaycan Cümhuriyyətini gözləyən və getdikcə həlqə kimi daralan təhlükələr astanasında, ölkə parlamenti və hökuməti nəzərdə tutulan cari işlərini davam etdirirdi. 1920-ci ilin martında Azərbaycan parlamenti sədri, sülh konfransındakı nümayəndə heyətinin başçısı **Ə.Topçubaşov, xarici ölkələrə təhsil almağa göndərilmiş azərbaycanlı tələbələrin bir qrupunun artıq Paris şəhərinə gəlmələri barədə hökuməti məlumatlandırmışdır.** Romada səfərdə olan Azərbaycan, Gürcüstan, Ukrayna, Litva və Latviya nümayəndə heyətləri, İtaliya parlamentin sədrinə ünvanlanmış müraciətlərində bildirirdilər ki, Böyük Müttəfiq dövlətlərdən biri kimi **İtaliya parlamenti 1919-cu il dekabrın 13-də keçmiş Rusiya imperiyasına daxil olan xalqların azad yaşamalarını və mədəni dünya ilə sərbəst əlaqələr qurmalarını tanımışdır.** Bizim xalqlarımız İtaliya

parlamentinin qərarını yüksək qiymətləndirərək, onun millətlərin öz müqəddəratını təyin etməsi prinsipləri, xalqlarımızın çətin mübarizə nəticəsində azadlıq və müstəqillik qazanmalarını dəyərləndirərək etibarlı müdafiə olunmasını həmişə minnətdarlıqla qeyd edəcək və bizim dövlətlərlə İtaliya arasında bu prinsiplərə əsaslanan dostluq və əməkdaşlıq həmişə mövcud olacaqdır. Azərbaycan nümayəndə heyəti adından müraciət, R.Xanbudaqov tərəfindən imzalanmışdır.

1920-ci il aprelin 1-də parlamentin növbəti iclası keçirildi. Azərbaycan Cümhuriyyətinin fəaliyyətində sonuncu olan aprel ayında keçirilən müzakirələrə Bakı şəhər polis idarəsinin Ermənikənd uçaskası (sahəsi) üzrə pristav müavinliyi ştatının yarılması haqqında, spirtli içkilərdən alınan aksiz dərəcələrinin təyin olunması haqqında, Azərbaycan Cümhuriyyəti tərəfindən Qərbi Avropa və Amerikaya siyasi heyətlər göndərilməsi və Paris sülh heyətinin azad edilməsi haqqında, Gürcüstan və Ermənistan Cümhuriyyətində və Batumda olan siyasi heyətlərin ştatlarının təsdiq edilməsi haqqında qanun layihələri daxil edilmişdir. Parlament gündəlikdə olan məsələlərlə yanaşı son günlər cərəyan edən hökumət daxilində, xüsusilə də Qarabağda baş verən hadisələrə ətraflı münasibət bildirməsini zəruri hesab etmişdir.

**Daxili işlər naziri M.Vəkilov parlamentdə çıxış edərək bildirdi ki, Novruz bayramından başlayaraq erməni quldur dəstələri Şuşa qarnizonuna qəfil hücumları ilə sabitliyi pozmağa başlamışdılar. Daxili işlər naziri, hücumu qabaqcadan hazırlanmış üsyan olduğunu, Şuşakənddən toplardan atılan atəşin bir siqnal olaraq ermənilərin müsəlmanlara hücuma keçməsinə işarə ehtimalı olduğunu bildirdi. Novruz bayramı ərəfəsində general-qubernatorla görüşmək bəhanəsi ilə 15-20 nəfər könüllü quldur, strajniklərlə (mühafizəçilər) birlikdə Şuşaya gəlmişdirlər. Beləliklə 200 nəfər yaxın könüllü erməni quldurу şəhərə daxil ola bilmişdir. Martın 23-də bütün günü atışma olmuş və bizim əsgərlər quldurları Şuşadan çıxmağa məcbur etmişdilər. Toplardan atılan atəş eyni zamanda Əsgəran və Xankəndində də ermənilərin hücuma keçməsinə işarə olmuşdur. Qarabağın Cavanşir, Zəngəzur qəzalarında da erməni əhalisi Cümhuriyyət əsgərlərinə hücum etmişdilər. Şuşa şəhərindəki erməni ziyalıları onların arxasınca getməmişdir. Başqa kəndlərdə isə erməni əhalisi xəyanətkarlara qoşulmaq istəməmiş, ancaq üsyançılar onları zorla özlərinə tabe etmişdilər. Erməni quldurları Şuşa ilə Ağdam arasında əlaqəni kəsərək kiçik qüvvə ilə mühafizə olunan Əsgəran qalasını və ətraf yüksəklikləri tutmağa müvəffəq olmuşdular. Tərtər kəndinə hücum edən ermənilər, Şəki atlı alayı tərəfindən geri qayıtmağa məcbur edilmişdilər. Martın 26-da Şəki alayı Çaylı və Vruc kəndlərini tutaraq erməni**

**quldur dəstələrini qova bilmişdilər. Qarabağdakı Azərbaycan ordusunun komandanı general-mayor Həbib bəy Səlimov Əsgəranın azad edilməsi üçün ciddi tədbirlər görə bilmişdir.**

Bolşevik Ə.Qarayev çıxış edərək Qarabağda baş vermiş qiyamı yatırmaq üçün parlamentin heç bir bacarığının olmadığını bildirdi. **Denikinin piyaniskə (sərxoş) qüvvələri Ermənistana toplanır, onların qarşısına çıxa biləcək bir qüvvə varsa o da Qırmızı Rusiya qoşunudur.** Bu gün erməni-müsəlman davasına xitam verəcək bir qüvvə varsa o da Azərbaycan zəhmətkeşləridir. Ə.Qarayevin sözlərinə görə, bu gün biz ciddi surətdə Qırmızı Ordu ilə danışığa girməliyik. Lakin bunu bu hökumət edə bilməz, çünki, onun əli Bayramov Əlinin qanına boyanmışdır.

**M.Ə.Rəsulzadə parlamentdə çıxış edərək Qarabağda Azərbaycan istiqlaliyyəti və hürriyyətinin düşməni olan ünsürlərin üsyan etdiyini bildirdi. Hökumət və bütün məmləkət buna qarşı mübarizə edir. Digər bir böyük sui-qəsd burada, Azərbaycanın mərkəzi Bakıda törədilir. Bu böyük üsyanı qaldırmaqda iştirak edən xain, burada bizə deyir ki, siz biz deyəni edin. Çünki Qarabağ xainləri ilə mübarizə edə bilməyəcəksiniz, üsyanı yatırmaq üçün ümumi idarəni Şura (Sovet) hökumətinə verin. Artıq bizə çoxdan məlum olanlar tamamilə aşkar edilir. Üsyana çağıranın adı Əliheydərmi olsun və ya Vartazarmı olsun, fərq etməz, hər ikisi xaindir. Xəyanət Qarabağda olsun və ya Bakıda olsun, ikisi də birdir. Bizə deyirlər ki, ermənilərlə mübarizə edə bilmirsiniz, Azərbaycan bunu edə bilmir. Bolşeviklər Qarabağ üsyançılarını dayandırmaq üçün Sovet Rusiyasının Qırmızı Ordularını Azərbaycana gətirməyimizi tələb edirlər. Bunu deyən Azərbaycan xalqının nümayəndəsidir və yaxud Azərbaycan müqəddəratı məsələsində Rusiya ilə şərik olan, Azərbaycan Məclisi-Məbusanın üzvü sifəti ilə Rusiyadan olan vəkildir, öz içərimizdə bizə ultimatum verir, bizi Qırmızı Orduları ilə təhdid edir.**

Bolşeviklərin ikiüzlü siyasəti, açıq-aşkar Sovet Rusiyasının satrapları kimi çıxış etmələri yaxınlaşan böyük təhlükədən xəbər verirdi. M.Ə.Rəsulzadə müstəqil Cümhuriyyətin nümayəndəsinin belə danışmasını, millətin hüququna arxa qapıdan uzadılmış xain əli kimi qiymətləndirirdi. **Bu, Azərbaycan Məclisi-Məbusanın üzvü deyil, Rusiya vəkilinin, bir Rusiya agentinin sözüdür. Rəsulzadə, bolşeviklərə müraciətlə, əgər siz məni inandıra bilsəniz ki, hakimiyyəti ələ keçirdikdən sonra burada Azərbaycan türk hökuməti təşkil edəcəksiniz, əgər mən bilsəm ki, Azərbaycan hökuməti adı ilə sovet Rusiyasının bir şöbəsinin burada təşkil etməyəcəksiniz, o vaxt sizinlə danışa biləcəyimi söyləyərdim. Lakin siz həqiqi bir istiqlaliyyətçi deyil, əksinə bir üsyan hazırlayan bir sui-qəsdçisiniz. Siz hər şeydən əvvəl məni inandırmalısınız ki, millətlərin haqqını**

**tanıyıb qorumaq istəyən sovet hakimiyyəti Qarabağ məsələsini həll edəcək, yoxsa Qarabağ məsələsi adı ilə gəlib bizi çeynəyəcəkdir. Siz, millətin haqq və hüququndan danışmaq əvəzinə, bizi təhdid edirsiniz ki, hökuməti bizə verməsəniz arxanızda böyük Rusiya və onun Qırmızı Ordusu vardır.** Bu gün məsələ bundan ibarətdir ki, Qarabağda xainlər bizə qarşı üsyan qaldırdılar. Həqiqi vətənpərvərlər kimi isə biz, əldə silah vətəni qorumalıyıq.

**"İttihad" fraksiyasından, onun rəhbəri Q.Qarabəyli çıxışında, daxili işlər nazirinin məruzəsini dinləyəndən sonra gedib evdə arxayın rahat otura bilmərik, çünki biz tam mənasında fəlakət içindəyik və vəziyyətdən çıxmaq üçün yollar axtarmağın lazım olduğunu söylədi. Biz, ermənilərin Türkiyədə, 1918-ci il Mart hadisələrində, Naxçıvanda, Zəngəzurda, Karsda və bu gün Qarabağda törətdikləri işlərə nəzər saldıqda görür ki, hökumət bizi arxayın salıb, düşmənin hazırladıqlarına göz yumur. Bizə fəlakətlər hazırlayan daşnaklar burada asudə gəzib, nazirlikdə, parlamentdə oturub bizə məzar qazıyırlar. İndi yalnız Qarabağ məsələsi deyil, Antanta, İslam dünyası, Türkiyə məsələsi, Şimaldan gələn təhlükə bunların hamısı düşmənlərimizin əlverişli fürsət seçdiklərini və bizi məhv etmək üçün məqam əldə etdiklərini sübut edirdi.** Lakin, "İttihad" fraksiyasının sədrinin məhdud siyasi baxışları isə məsələnin həllinə dair etdiyi təkliflərdə özünü göstərirdi. Belə ki, o, hökumətdən daşnak firqəsini məmləkətdən çıxarmaq, şimaldan gələnlərlə isə dostluq etməyi irəli sürürdü. Güclə heç bir məsələni həll etməyin mümkün olmadığını, ona görə də Türkiyə ilə əlaqə qurub onların götürdükləri xətti müdafiə edib, **Sovet Rusiyasını Azərbaycana gəlməsini təmin etməyi təklif edirdi. Q.Qarabəylinin sözlərinə görə bolşeviklər Azərbaycan kasıblarının əlində tutduğu bayrağa böyük qiymət verirlər. Siz bilməlisiniz ki, Rusiyanın qırmızı qoşunları Azərbaycan sərhədini keçsələr Azərbaycanı bərbad etməyəcəkdir. M.Ə.Rəsulzadə, Q.Qarabəyliyə müraciətlə, biz bunu "sən uşaq"dan (sadəlövh uşaq düşüncəli-R.Ə.) deyil, Sovet Rusiyasının Xarici işlər naziri Çeçerinin dilindən də eşitmək istəyirik fikrini ona bildirdi.** Sosialist fraksiyasının nümayəndəsi Q.Camalbəyov daxili işlər nazirliyinin danışığından heç nə məlum olmadığını, düşmənin kim olduğunu, ermənilər yaxud müsəlmanlar olduğunu anlaya bilmədiyini söylədi. **Əsgəran kimi qalanı bir gecədə ermənilərə kim verdi, Qarabağa İrandan gələn milyonların və onun ağır nəticələrini indi hamımız görürük və Məmmədəmin hər nə dedisə, üzünü Ə.Qarayevə tutub danışdı. Əliheydəri də, Mirzə Davud Hüseynovu da hamı tanıyır. Əslində, "Mirzə Davud yazıq da, evində otura bilmir" deməklə, bolşeviklərin məzlum simasını yaradan sosialistlər, öz çirkin niyyətlərini gizlədirdilər.** Məhz, deputatlar Azərbaycan kommunist partiyasının birinci katibi seçilmiş M.D.Hüseynovun sui-qəsdçi

(zaqovora qol çəkənlərin başçısı) adlandırdılar. Moskvadakı bolşevik-erməni qüvvələrə arxalanan sosialistlər, həbs edilən kommunistlərin dərhal azad olunmasını tələb edirdilər.

**Daxili işlər naziri, bolşeviklərin Qarabağ hadisələrinə münasibətini həqiqətdən uzaq olduğunu, hökumətin nəinki Əsgəran qalası, həmçinin digər, yerlərlə bağlı qətiyyətli tədbirlər gördüyünü bildirdi.** Bəzi iradların yersiz olduğunu, parlamentin qapalı iclası keçirilərsə, döyüş planlarının bəzi təfsilatı haqqında lazımi məlumat verməyi mümkün olduğunu bildirdi. Əsgərlərin tibbi, azuqə, istiliklə və s. təchizatı normal qaydada təşkil edilib. **Hərbi və səhiyyə nazirləri hal-hazırda Qarabağdadır.** Daxili işlər naziri parlament deputatlarının da Qarabağa getmələrini münasib olduğunu bildirdi. "Müsavat-bitərəflər" fraksiyasnın deputatı Ağa Aşurov, Sovet Rusiyasının Qırmızı qoşunlarını dəvət etmək istəyənlərə cavab olaraq bildirdi ki, **1918-ci ilin Mart hadisələrində bizim millət həmin bolşevikləri görmüşdür. Onlar hətta N.Nərimanovu öldürmək istəyirdilər. Necə ki, doktor Nağıyevi güllələdilər. Əliheydər deyir ki, mən sovet hökumətinə inanıram. Lakin biz onları gördük. Onlar dövlətli və ya kasıb fərq qoymayıb, müsəlmandır deyə Mart hadisələrində hamısını güllələdilər. Azərbaycan sosialistləri böyük səhv edib, quldurlara inanır.**

Parlament iclasında çıxış edən sosialist Qasımbəyov quldur kapitalistlərin olduğunu bildirdi. A.Aşurov bu fikirə münasibət bildirərək söylədi ki, hal-hazırda kapitalistlərin quldur olduğunu inakr etməsə də bu gün əsas məsələnin erməni quldur təcavüzü olduğunu və onların qarşısının alınması üçün tədbirlərin görülməsini zəruri hesab edir. Sosialist və hümmətçilər hazırkı hökumətin bu məsələni həll edə bilməyəcəyini bəyan etdilər və "İttihad" fraksiyası da onların bəyanatlarına şərik olduqlarını bildirdilər.

Azərbaycan parlamenti aprelin 1-də Qarabağda yaranmış vəziyyəti müzakirə etdikdən sonra, konkret tədbirlər görmək üçün hökumət üzvləri **daxili işlər naziri Vəkilovu, səhiyyə naziri Rəfiyevi, səhiyyə nazirliyinin hərb-sanitariya idarəsinin rəisi doktor Qaibovu Qarabağa ezamiyyə göndərdi. Artıq aprelin 3-də Azərbaycan hərbi hissələri Xankəndinə daxil oldular. Aprelin sonlarında Azərbaycan hərbi hissələrinə Zəngəzur istiqamətində döyüşlər aparılması vəzifəsi qoyulmuşdu. Hətta parlament mühafizə qvardiyası da Qarabağ döyüşlərinə cəlb edilmişdilər. Beləliklə, Azərbaycan hərbi hissələri ölkənin bütövlüyünü qısa müddətdə təmin edə bildi.** Tarixi faktlar sübut etmişdir ki, erməni dəstələrinin Qarabağda qaldırdıqları üsyan və daxili xainlərin fəaliyyəti XI Qızıl Ordunun Azərbaycan Cümhuriyyətinə hücumunu asanlaşdırmaq məqsədini güdmüşdür. Azərbaycanın varlığına nifrət edən Ermənistan hökuməti və Qarabağ

bolşevik inqilab komitəsi XI Qızıl Ordu ilə bilavasitə əlaqə yaratmış və ikitərəfli razılığın nəticəsi olaraq, Azərbaycan hərbi qüvvələrinin böyük bir hissəsini Qarabağa göndərməyə məcbur olmuşdur. Məhz, Sovet qoşunlarının Bakıya hücumunu yüngülləşdirmək məqsədilə Novruz bayramı günü ermənilərin üsyan qaldırmaları barədə qərar verilmişdir.

Azərbaycan parlamenti aprel ayında qanunvericilik fəaliyyətini davam etdirərək daxil olmuş layihələrin müzakirəsini keçirmişdir. **Bu qanunlardan, Cümhuriyyətin hərbi səhiyyə sahəsində işlərin təşkilini asanlaşdıracaq "Bakı şəhərində müvəqqəti dövlət lazaretinin təsis edilməsi haqqında" qanunu göstərmək olar. Qanuna görə hərbi səhra tipli 100 nəfərlik çarpayısı olan dövlət lazareti yaratmaq nəzərdə tutulurdu. Lazaret müvəqqəti olaraq 4 ay müddətinə yaradılırdı. Digər qanunla dövlət lazaretinin maliyyələşdirilməsi üçün səhiyyə nazirliyinin balansına 4 milyon rubl ayrılırdı. Cümhuriyyətin səhiyyə nazirləri olmuş Xudadat bəy Rəfiyəli və Musa bəy Rəfiyev ölkədə tibbin inkişafı üçün misilsiz xidmətlər göstərmiş və onun qanunvericilik bazasının yaradılması üçün mühüm tədbirlər irəli sürmüşdülər. Parlament respublikanın səhiyyə sisteminin inkişaf etdirilməsi, həmçinin hərbi təhlükələri nəzərə alaraq aprelin 8-də "Quberniya səhiyyə idarələrinin yenidən qurulması" barədə qanun qəbul etdi.** Qanuna görə idarələrin ştatları və aylıq məvacibləri müəyyən edilirdi. Səhiyyə nazirliyinin balansına bu məqsədlər üçün 2 milyon 384 min rubl ayrılırdı. Parlament aprelin 8-də "Kənd xəstəxanaları və feldşer məntəqələri şəbəkələrinin genişləndirilməsi haqqında" daha bir qanunu təsdiq etdi. Qanunda kənd yerlərində 35 yeni xəstəxana və 56 feldşer məntəqəsinin açılması nəzərdə tutulurdu. Sonuncu səhiyyə naziri Musa bəy Rəfiyev əhalinin sağlamlığının qorunması, tibb işinin yaxşılaşdırılması, o cümlədən hərbi məqsədlərin ödənilməsi üçün bütün Cümhuriyyət ərazisini əhatə edəcək səhiyyə sistemi qurmağa çalışırdı. Aprelin 12-də parlament "Şuşa qəzasının Ağdam kəndində ali-ibtidai məktəbin təsis edilməsi" haqqında və "Quba qəzasının Qusar ərazisindəki Xülyq kəndində ali-ibtidai məktəbin təsis edilməsi" haqqında da qanunları qəbul etdi.

**1920-ci il aprelin 11-də "Azərbaycan Müəssislər Məclisinin seçkiləri haqqında" qanun layihəsi hazırlayan Komissiyanın Azərbaycan xalqına müraciəti qəbul edildi. Müraciətdə Komissiya işinin başa çatması və seçkilərin keçirilməsi üçün qanunvericilik bazasının hazır olduğunu bildirirdi. Mərkəzi Seçki Komissiyasının qərarı ilə aprelin 20-də Cümhuriyyət ərazisində yaşayan seçicilərin siyahılarının tərtib edilməsinə başlamaq nəzərdə tutulurdu. Seçkilərdə iştirak edəcək 20 yaşına çatmış həm kişi, həm də qadınların**

**qeydiyyata alınması və onlara qeydiyyat vərəqəsinin verilməsi planlaşdırılırdı.** Müəssislər Məclisinə seçkilər üzrə komissiyanın sədri M.Ə.Rəsulzadənin və komissiyanın katibi M.H.Hacınskinin imzaladıqları müraciətnamədə əhaliyə seçki komissiyalarının qeydiyyat üçün lazım olan bütün köməkliyi göstərmələri xahiş edilirdi.

Azərbaycan Xalq Cümhuriyyəti üçün ən ağır dövr olan və onun süqutu ilə nəticələnən aprel ayında xarici işlər naziri F.X.Xoyskinin adına gəlmiş məktubda, İrandakı nümayəndəmiz, Cənubi Azərbaycanda həyəcanlı hadisələrin baş verdiyi göstərilirdi. Məktubda qeyd edilirdi ki, İran Nazirlər Kabinetinin sədri Vüsuq-əd-dövlə bu yaxınlarda İran Azərbaycanını (Güney Azərbaycan) "qara yara" adlandıraraq, tezliklə İran hökumətinin onu kəsib atacağını bildirmişdir. Nümayəndənin məlumatına görə, Cənubi Azərbaycan azadlıq hərəkatında bolşevik elementlərinin olduğu da ehtimal olunur. Lakin bu məsələ tam aydın deyildir. İrandakı Azərbaycan türkləri, Tehrandan olan fars hakimlərinin zülmündən cana doyduqlarını və ondan azad olmaq istədiklərini bildirirlər. Ənzəlidəki ingilis komandanlığı əsasən spiahilərdən təşkil olunmuş hərbi kontingenti bolşevizmə qarşı mübarizə üçün bu ərazilərdə yerləşdirilmişdilər.

I Respublikanın son parlament iclaslarında biri 1920-ci ilin aprelin 20-də keçirilmişdir. İclasda İran dövləti ilə Azərbaycan Xalq Cümhuriyyəti arasında bağlanmış müqavilələrin parlamentdə ratifikasiya edilməsi üçün hər iki dövlətin nümayəndə heyəti parlamentə gəlmişdilər. **Müqavilənin bağlanmasına dörd ay vaxt sərf olunmuşdur. Azərbaycan nümayəndə heyəti başda Adil xan Ziyadxanov olmaqla İranda səfərdə olmuş və bir sıra prinsipal razılıqlar əldə edilmişdir. İran tərəfindən səlahiyyətli nümayəndə Ağa Seyid Ziyəddin Təbatəbai də parlamentin iclasında iştirak edirdi.** Xarici işlər naziri F.X.Xoyskinin parlamentə təqdim etdiyi sazişlər aşağıdakılardan ibarət idi: 11 maddədən ibarət gömrük, 9 maddədən ibarət ticarət, 18 maddədən ibarət teleqraf əlaqələri, 11 maddədən ibarət poçt əlaqələri, 25 maddədən ibarət məhkəmə qərarlarının icrası və 17 maddədən ibarət konsulluq əlaqələri haqqında. Azərbaycan Cümhuriyyətinin beynəlxalq aləmdə tanınmasında böyük əhəmiyyət kəsb edən dostluq haqqında müqavilə xüsusi ilə qeyd olunmalıdır. **Parlament müzakirələrindən sonra İran imperiyası və Azərbaycan Cümhuriyyəti arasında bağlanmış dostluq və əməkdaşlıq haqqında müqavilə yekdilliklə təsdiq edildi. Bu müqavilə ilə Azərbaycan artıq beynəlxalq hüququn subyekti kimi çıxış edirdi.**

Aprelin 20-də parlament "Azərbaycan Respublikasının Qərbi Avropa dövlətlərində və Amerikada diplomatik nümayəndələrin təsisi və Paris sülh

konfransındakı Azərbaycan nümayəndə heyətinin buraxılması haqqında" qanun layihəsini müzakirə etdi. Məruzə ilə çıxış etmiş M.Əfəndizadə istiqlaliyyətimizin ilk günlərində Paris sülh konfransında iştirak etmək üçün parlamentimizin sədri seçilmiş Ə.Topçubaşovun rəhbərliyi ilə nümayəndə heyəti göndərilmişdir. Avropa dövlətləri müstəqilliyimizi tanıdıqdan və sülh konfransı başa çatdıqdan sonra Paris nümayəndə heyətinin buraxılması və Avropa dövlətləri ilə siyasi-diplomatik və iqtisadi-mədəni əlaqələrin qurulması üçün yeni missiyanın yaradılması zərurəti yaranmışdır. Qanun layihəsinə görə Fransada, İngiltərədə, İtaliyada, İsveçrədə, Polşada və Amerikada (ABŞ-da) hər birində 4 nəfər olmaqla nümayəndələrlə təmsil olmaq nəzərdə tutulurdu. Parlament komissiyası müzakirələrdə, yalnız Polaşdakı nümayəndələrimizin sayını 2 nəfər artırmaq qərarını vermişdir.

Maliyyə büdcə komissiyası parlamentə təqdim etdiyi məlumat görə, artıq diplomatik nümayəndələrin fəaliyyəti üçün vəsait ayrılması müəyyən edilib. Azərbaycan nümayəndəliklərinin dünyanın bir çox ölkələrində yaradılması zəruri hesab olunsa da, bu məsələnin dərhal icra olunması real görünmürdü. Ona görə də diplomatik missiyanın göndərilməsi müddəti qanun üzrə 6 ay nəzərdə tutulurdu. **Bolşeviklər nümayəndəliyin Sovet Rusiyasında da yaradılmasını təkid edirdilər. Onlar öz fikirlərini belə əsaslandırırdılar ki, imperialist dövlətlərə missiya göndərildiyi halda, bizim parlament öz həqiqi dostlarını yaddan çıxarır. Bolşeviklərin irəli sürdükləri təklifə cavab verən xarici işlər naziri F.X.Xoyski bildirdi ki, biz 3 dəfə Sovet Hökumətinə müraciət edərək dostluq münasibətlərin yaradılmasını təklif etsək də, indiyə qədər Rusiya hökumətindən cavab almamışıq. Müzakirə olunan məsələyə məhdud baxışlarla yanaşan "İttihad" fraksiyası və sosialist bloku qanun layihəsinin onları qane etmədiyinə görə onun müzakirəsinin dayandırılaraq, növbəti iclaslara keçirilməsi təklifini edirdilər.** Parlament qanun layihəsinin müzakirəsini aprelin 22-də davam etdirərək bolşeviklərin də təklifləri nəzərə alınmaqla "Paris sülh konfransındakı Azərbaycan nümayəndə heyətinin buraxılması və Azərbaycan Respublikasının Qərbi Avropada, Amerikada, Almaniyada və Sovet Rusiyasında diplomatik missiyasının təsis edilməsi haqqında" qanunu təsdiq etdi. Qanuna görə aprelin 1-dən 8 dövlətdə, Fransa Respublikasında, Ali Həzrət Böyük Britaniya kralı yanında, İsveçrə Respublikasında, Ali Həzrət İtaliya kralı yanında, Şimali Amerika Birləşmiş Ştatlarında, Almaniyada, Sovet Respublikasında və Polşa Respublikasında diplomatik missiyalar təşkil edilirdi. Azərbaycanın xarici dövlətlərdəki diplomatik missiyanın saxlanılması üçün 118 min rubl vəsait ayrılırdı.

Parlamentin aprelin 15-də keçirilən iclasında, digər məsələlərlə yanaşı,

Ə.Bayramovun yoxa çıxmasıyla bağlı sosialist və ittihadçıların təklifi ilə hər partiyadan bir nəfər olmaqla aparılacaq təhqiqat işinə nəzarət etmək üçün komissiya yaradılması haqqında qərar qəbul edilmişdir. Komissiyanın tərkibinə Pepinov, Qardaşov, Məhəmmədbəyov və Axundov seçilmişdilər.

I Respublikanın son qanunvericilik aktlarından biri, aprelin 19-da qəbul edilmiş "Azərbaycan Qızıl Aypara Cəmiyyəti" haqqında qanun olmuşdur. Qanun layihəsi hərbi nazirlik tərəfindən təqdim edilərək məxfi və təcili olduğu üçün onun geniş müzakirə olunması nəzərdə tutulmamış, yalnız maliyyə-büdcə komissiyası ştatların sayı və müəssislərin adlarının elan olunması və 483 min rubl vəsaitin ayrılmasını ilə qanununun təsdiq edilməsi təklif edilmişdir. Parlament müzakirələrində göstərilirdi ki, bu qanunun, Rusiya dövlətində Səlib-Əhmər (Qizıl xaç) adlanaraq cəmiyyət üçün müəyyən işləri görmək üçün yaradılmışdır. Azərbaycan Cümhuriyyətində isə Hilal-Əhmər (Qızıl Aypara) məmləkətdə baş verəcək bədbəxtlik, fəlakətlər olduqda təcili tədbirlər üçün təşkil edilirdi. Beləliklə, "Azərbaycan Qızıl Aypara Cəmiyyəti" haqqında qanun yekdilliklə parlament tərəfindən təsdiq edilir.

I Respublikanın Məclisi-Məbusanın, qəbul etdiyi sonuncu 134 saylı qərarı "Gəncə quberniyasının iki qəzaya bölünməsi haqqında" qanun olmuşdur. Qanuna görə Gəncəbasarda iki qəza, Gəncə qəzası və Şamxor qəzası yaradılırdı. Şamxor qəzası üzrə polis idarəsi təşkil etmək nəzərdə tutulmuşdur. Şamxor qəza idarəsinin formalaşması üçün dövlət cəmi 70 min rubl vəsait ayırırdı. Bolşeviklər yeni yaradılmış qəzanın mərkəzini Zəyəm stansiyası olmasını təklif edirdilər. **M.Ə.Rəsulzadə çıxışında, Şəmkir toponomikasının tarixdə məşhur olmasından, vaxtilə ruslar bizim Gəncə xanlığının müstəqilliyini devirmək istədikdə, Şəmkirdə gəncəlilərin onlara qarşı müvəffəqiyyətli vuruşduqlarını, həmçinin ərəb mənbələrində də hər yerdə Şəmkir kimi işlədildiyini nəzərə almağı zəruri hesab etdiyini bildirdi.** Səsvermə nəticəsində Gəncə quberniyasından ayrılan yeni qəza mərkəzi Zəyəm olmaqla, Şəmkir adlandırmaq qərar alınır.

Azərbaycan parlamenti bolşevik çevrilişi ərəfəsində adi iş rejiminə toplaşaraq aprelin 26-sı və 27-də öz işini davam etdirmiş və gündəlikdə olan məsələləri müzakirə etmişdir. Aprelin 26-da keçirilən 144-cü iclasda orta təhsil məktəbləri yanında fəaliyyət göstərən hazırlıq sinfi müəllimlərinin məvaciblərinin artırılması müzakirəyə çıxarılmışdı. Maliyyə-büdcə komissiyası müəllimlərin maddi vəziyyətinin çətin olmasını nəzərə alıb, onların əmək haqlarının artırılmasını təklif etmişdir. Komissiya həmçinin hökumət qarşısında məsələ qaldırıraq, məktəblərə bütün təbəqələrin uşaqlarının oxuya bilmələri üçün bərabər imkanlar yaradılmasını

təklif etmişdir. Bu iclasda həmçinin, Şəki şəhərində keçən Kiş çayında bənd vurulması üçün maliyyə-büdcə komissiyası tərəfindən irəli sürülmüş qanun layihəsi və pul vəsaiti ayrılması parlamentdə yekdilliklə təsdiq edildi. Parlament, əkinçilik nazirliyi tərəfindən təqdim edilmiş üzümçülük və şərabçılıq haqqında qanun layihələrinin müzakirəsini, nazirliyin öz xahişi ilə növbəti iclasa keçirmişdir.

I Respublikanın parlamenti 1920-ci il aprelin 27-də sonuncu 145-ci fövqəladə iclasına toplanmışdı. İclasa M.Y.Cəfərov sədr, Rza bəy Qaraşarov katiblik edirdilər. M.Ə.Rəsulzadənin təklifi ilə fövqəladə iclasın açıq və yaxud qapalı olması müzakirə edilir. Onun sözlərinə görə dövlətin hansı təhlükədə olduğunu xalqa çatdırmağımız vacibdir. Çünki Məclisin qapılarını millətin üzünə bağlamaq və millətdən xəbərsiz qərar qəbul olunmasına bizim heç bir hüququmuz yoxdur. Təklif səsə qoyulur və iclasın açıq keçirilməsi qərara alınır.

Hökumət böhranın yaranmasında “az əməyi” olmayan, bolşeviklərə liberal baxışları ilə yaxın olan M.H.Hacınski, kommunistlərlə danışıqlar aparan komissiyanın sədri kimi, keçirdikləri müzakirələr barədə parlamentdə məlumat verdi. **Təslimçi ultimatum, “Müsavat” fraksiyası istisna olmaqla, digər fraksiyaların mövqeyi ilə üst-üstə düşürdü.**

Hələ beşinci hökumət böhranı dövründə M.H.Hacınskiyə digər fraksiyalar danışıqlar aparmaqla vəziyyətdən çıxmaq həvalə edilmişdir. Aprelin 9-da sosialist nazir Cəmo Hacınski poçt-teleqraf naziri postundan istefa vermişdir. Aprelin 15-də isə “Əhrar” fraksiyası, N.Usubbəyli hökumətinin tərkibindən çıxdıqlarını elan etmişdilər. Parlamentin siyasi partiyaları sovet-bolşevik təhlükəsinə qarşı mübarizə üçün ümumi mövqeyə gələ bilmədilər. Hakim partiya böhrandan çıxış yolu axtararaq yeni hökuməti təşkil etməyi aprelin 22-də M.H.Hacınskiyə tapşırır və ona bütün partiyalarla danışıqlar aparmaq səlahiyyəti verir. Parlamentin “İttihad”, “Əhrar” fraksiyaları dərhal, sosialist-bolşeviklər isə daxili işlər naziri vəzifəsinə təyinatda onların tələblərinin nəzərə alınması şərti ilə M.H.Hacınskinin təşkil edəcəyi hökumətin qurulmasına razılıq verirlər. **“Müsavat” fraksiyasına da M.H.Hacınskinin hökümətinə daxil olmaq təklif edilir. Lakin, Bakıda çevrilişə tam və hərtərəfli hazırlaşan bolşeviklər fikirlərini dəyişərək M.H.Hacınski hökumətinə daxil olmaqdan imtina etdilər. Ə.Qarayev ən yaxın günlərdə çevriliş edəcəkləri barədə məqsədlərin açıq-aydın gizlətmirdi.**

Xarici işlər naziri F.X.Xoyski Gürcüstan hökumətinə bolşeviklərə qarşı birgə hərbi tədbirlər haqqında təklifinə, onun nümayəndəsi Gegeçqori (Kiçikqori) Batum şəhəri və Batum əyalətində Gürcüstanın tam ərazi hüquqlarını tanıması məsələsinin müzakirə ediləmsini şərt kimi ortaya atmışdı. Zaqafqaziya Cümhuriyyətlərinin Tiflis

konfransında, Azərbaycan nümayəndə heyətinin təhlükədən birgə müdafiə olunmaq üçün konfedrasiya yaratmaq üçün Ermənistan nümayəndəsinə etdiyi təklifinə isə ermənilər belə cavab vermişdilər ki, Ermənistan İrəvan qəzasından ibarət olanı müstəqil Ermənistanın indiki sərhədləri ilə razılaşmır və beləliklə məsələlərin yenidən müzakirə olunmasını tələb edirlər. Yaranmış şəraitdə Zaqafqaziya Cümhuriyyətinin birgə müdafiə təşkil etməsi mümkün olmur. Azərbaycan ordusu isə Qarabağda hazırlanmış üsyanı yatırmaq üçün hərbi əməliyyatları yalnız yenicə başa çatdırırdığından şimal sərhədlərini müdafiəsiz qoymuşdur.

Bolşevik-kommunistlərin təxribatçı qrupları, müdafiəni zəiflətmək üçün Gəncə ilə teleqraf-telefon əlaqəsini kəsmiş, bolşeviklərə rəğbəti olan dənizçilərin olduğu hərbi gəmilərini isə, Bakı buxtasında düzülərək öz toplarını hökumət idarələrinə istiqamətləndirmişdilər. Bakıda çevriliş hazırlanmasında yaxından iştirak edən türk hərbi qulluqçuları, bolşeviklərlə birlikdə dəmiryol vağzalını tutaraq, **Bakının hərbi general qubernatoru Murad Girey Tlexas həbs edirlər. Zirehli qatarı dayandırmaq məqsədi ilə, dəniz sahilinə ən yaxın ərazilərdə-Qızılburun, Giləzi və Sumqayıt istiqamətində dəmiryolu xəttlərini dağıtmalı olan Azərbaycan Hərbi Donanmasına məxsus uzaq vuran toplarla təhciz edilmiş hərbi gəmi isə, hökumətin əmrinə tabe olmayıb, bolşeviklərin tərəfinə keçmişdi.**

Aprelin 27-də saat 11-də H.Sultanov, Ç.İldırım tərəfindən tərtib edilmiş və hakimiyyətin N.Nərimanov başda olmaqla Sovet fəhlə kəndli hökumətinə təhvil verilməsi haqqında, Azərbaycan Kommunist bolşevik partiyası və Rusiya Kommunist bolşevik partiyası Qafqaz Diyar Komitəsinin Bakı Bürosu və Bakı Mərkəzi Fəhlə Konfransı adından parlamentə ultimatum verildi. Parlamentə verilən ultimatumu müzakirə etmək üçün M.H.Hacınski, M.Ə.Rəsulzadə, Q.Qarabəyov, A.Səfikürdski və A.Qardaşovdan ibarət komissiya yaradılır. Komissiya da öz növbəsində şərtlərini hazırlayaraq parlamentin müzakirəsinə təqdim edir.

Parlamentə məlumat verən M.H.Hacınski Azərbaycan Kommunist firqəsinin axşam saat 7-yə qədər hökumətin onlara təslim edilməsini tələb etdiklərini bildirdi. Hacinskinin sözlərinə görə hökumət onların şərtlərini qəbul etsə, Qızıl Ordu Bakıya daxil olmayacaq. Onlar xalqımızın etimadını qazanmaq üçün Azərbaycandan keçib Türkiyəni zalım imperialistlərdən azad etməyə yollanacaqlar. M.H.Hacınskinin parlamentə verdiyi məlumata görə yalnız hökumət üzvləri hakimiyyətdən uzaqlaşdırılacaq və digər məmurlar vəzifələrini icra etməkdə davam edəcəklər. Hakimiyyət yalnız müsəlman kommunistlərə həvalə ediləcəkdir. Parlamentin fraksiyaları bərabər və azad fəaliyyət göstərəcəklər. Partiyalara və hökumət üzvlərinə qarşı heç bir xüsusi tədbir görülməyəcəkdir.

Parlament müzakirələrində M.H.Hacınski hökumətin fəaliyyətini tənqid edərək, hökumətin laqeydliyi nəticəsində Qarabağ dağlarından Yalamyadək ərazilərin müdafiəsiz qaldığını bildirdi. Parlament firqələri millətin müqəddəratını bizimlə bərabər həll etməli olduğunu söyləyən Hacınski, artıq firqələrarısı münaqişələri sonu görünməyən mübahisələrə çevrildiyini bildirdi.

Ultimatumu təqdim edənlər, onların təklifini qəbul olunmasa baş verə biləcək hadisələrə görə bütün məsuliyyətin parlament üzvlərinə düşəcəyi ilə hədələyirdilər. Hakim fraksiya isə, öz üzərlərinə götürdükləri öhdəliklərə görə bolşevik firqəsi məsuliyyət daşıyacağını göstərirdilər. Komissiya bu şərtlərlə Azərbaycanın müstəqilliyini qoruya biləcəyini söyləyən Hacınski, parlamentin bu məsələyə mövqey bildirməsini zəruri hesab etdi. **Bolşevik S.Ağamalıoğlu burada bir təhlükə görmədiyini, Qızıl Ordunun gəlməsini türk qardaşlarımız deyil, lap Poqos (Çubaryan) və başqaları da təklif edə bilər.** İndi əsgər dayanıb orada, sən heç şey edə bilmirsən. Deyirlər tarixdə belə hadisələr olmayıb, amma elə hal olub ki, Makedoniyalı İsgəndəri də məcbur ediblər ki, tabe olsun. Təslim olmaqdan başqa çıxış yolu yoxdur. Parlament fraksiyalarının nümayəndələri S.Ağamalıoğlu ("Hümmət"), Q.Qarabəyov ("İttihad"), A.Səfikürdski (sosialist bloku), A.Qardaşov ("Əhrar") və M.H.Hacınski (tezliklə "Müsavat" firqəsindən çıxaraq, AK(b)P daxil olmuşdur) hakimiyyəti vermək təklifini müdafiə etdilər. "Müsavat" fraksiyasının sədri M.Ə.Rəsulzadə, həmçinin müstəqilliyin sonu olduğunu dərk edən və buna görə də təslimçilik ulimatumunun elan olunmasını gözyaşları ilə qarşılayan Ş.Rüstəmbəyli qəti etirazlarını bildirirdilər. Hələ bir qədər əvvəl, N.Usubbəylinin evində keçirilmiş müşavirədə 27 yaşlı Şəfi bəy Rüstəmbəyov Bakıdan çıxmağa və bolşeviklərə qarşı müqaviməti təşkil etmək üçün Gəncəyə çəkilməyi təklif etmişdir.

Azərbaycan Müvəqqəti İnqilab Komitəsi və onun tərkibi süni şəkildə yaradılmış, səyyar bir qurum təsiri bağışlayırdı. Çünki nə onun sədri, nə də bir çox üzvləri hələ Bakıda deyildilər. Artıq 72 min nəfərlik Qızıl Ordu parlamentə təqdim edilmiş razılığın əksinə olaraq Bakı şəhərinə daxil olmuşdular. Beynəlxalq hüquqa zidd olaraq onlar istiqbalnı (suveren) elan etmiş dövləti devirdilər və Bakıdakı xarici diplomatik nümayəndələri həbs etdilər.

1920-ci il aprelin 27-də parlament sədri əvəzi M.Y.Cəfərov və parlament işlər idarəsinin müdiri Mustafa bəy Vəkilovun imzaladıqları sənəddə hakimiyyətin verilməsi şərtlərini aşağıdakı qaydada təsbit edirdi: Sovet hökuməti tərəfindən idarə olunan Azərbaycanın tam istiqlaliyyəti mühafizə edilir; Azərbaycan kommunist firqəsinin yaratdığı hökumət müvəqqəti orqan olacaqdır; Azərbaycanın son idarə formasını hər hansı bir xarici təzyiqdən asılı olmayan fəhlə, kəndli və

əsgər deputatları sovetləri şəxsində Azərbaycanın ali qanunverici orqanı müəyyənləşdirir; hökumət idarəsinin bütün xidmətçiləri öz yerlərində qalır, ancaq məsul vəzifə tutanlar dəyişdirilir; yeni yaradılan müvəqqəti kommunist hökuməti parlamentin və hökumət üzvlərinin həyatının və əmlakının toxunulmazlığına təminat verir; Qızıl Ordunun Bakı şəhərinə döyüşlə daxil olmasına yol verməmək üçün tədbir görüləcək; Yeni hökumət haradan baş vermısindən asılı olmayaraq Azərbaycanın istiqlalını sarsıtmaq məqsədi güdən bütün xarici qüvvələrə qarşı qəti tədbirlər görəcək və öz sərəncamında olan bütün vasitələrlə mübarizə aparacaqdır. Azərbaycan Məclisi-Məhbusanı özünün fövqəladə iclasında bu şərtləri səs çoxluğu ilə qəbul etdi.

Azərbaycan dövləti və parlamentinin fəaliyyətinə son qoymuş kommunist hakimiyyəti və onun adından istifadə edərək və öz hakimiyyətlərini elan etmiş milli bolşeviklər, işğaldan dərhal sonra müstəqil siyasi qərarlar verməkdən kənarlaşdırılaraq, Moskvanın diktəsi ilə hərəkət etməyə məcbur idilər. Götürdükləri öhdəliklərə baxmayaraq bolşeviklər Azərbaycan Xalq Cümhuriyyətinin görkəmli ictimai-siyasi və dövlət xadimləri F.X.Xoyskini, M.Rəfiyevi, B.Cavanşiri, X.Rəfibəyovu, F.Köçərlini və digərlərin qətlə yetirmiş, həbslərə və təqiblərə məruz qoymuşdular. XI Qızıl Ordunun əsgərləri Bakı küçələrində və bütün Azərbaycanda soyğunçuluq etdilər. Çox təssüf ki, Azərbaycan Kommunist Partiyası adı ilə qərar verən N.Nərimanov, Ə.Qarayevlər olsa da, bu hökmləri Mikoyanlar, Çorayevlər yazırdılar. Bir neçə müsəlman komissarı pərdəsi altında Azərbaycanın bütün dövlət idarələri rus bolşeviklərinin və məmurlarının əlinə keçdi. Milli hökuməti aldadan bolşeviklər, XI Ordunun tərkibində xidmət edən türklər, həmçinin Volqaboyu türk xalqlarından təşkil edilmiş hərbi dəstələrinin Necati paşanın komandanlığı ilə Türkiyəyə köməyə gedəcəklərini bildirmişdilər. XI Qızıl Ordu zahirdə Azərbaycanın müstəqilliyini tanısada onu hüdudları məlum olmayan Rusiya Federasiyasının bir hissəsinə daxil etdi. **M.Ə.Rəsulzadə göstərirdi ki, qarşımızda ultimatum durur. Burada təslimdən bəhs edilir. Bizim hüdudlarımızdan keçən qüvvə, bizim azadlığımızı və müstəqilliyimizi keçməməlidir. Bizdən soruşmadan torpağımıza keçən hər hansı bir qüvvə dostumuz deyil düşmənimizdir. Eşitdiyimiz bu təbliğat düşmən təbliğatıdır. Bizi aldadırlar, yalanıdır gələn rus ordusudur. Onların istədiyi 1914-cü il imperiya sərhədini bərpa etməkdir. Beləliklə, cəmi 23 ay mövcud olmuş Azərbaycan Demokratik Respublikası bolşevik işğalı nəticəsində süqut etdi.**

Azərbaycan Xalq Cumhuriyyətının ( I Respublika) elan edilməsi Azərbaycan xalqının çoxdan arzu etdyi azadlıq ideyasının gerçəkləşməsi idi. Bolşeviklər, xüsusilə

Bakı neftinin itirilməsilə barışa bilmirdilər. Azərbaycanda I Respublikanın qurulması, sonrakı respublikalarda da mövcudluğunu sanki təmin etmiş oldu. Belə ki, Azərbaycanı, xüsusilə də Bakını Rusiya imperiyasının quberniyası kimi görmək istəyən bolşeviklər məcbur olaraq "müstəqil" Azərbaycan Sovet Sosialist Respublikasının ( II Respublika) elan olunmasına razılıq verdilər. Təbii olaraq, müstəqilliyin itirilməsi ilə heç bir halda barışmaq olmaz. Lakin mövcud şəraitdə, çar Rusiya imperiyasının tərkibində ucqar müsəlman quberniyası statusundan fərqli olaraq, müttəfiq respublika kimi (öz dövlət atributları- bayrağı, gerbi, himni olmaqla) SSRİ-in tərkibinə daxil edilmək nisbətən daha əlverişli cəhətlərə malik olmaqla dövlət varisliyinin təmin edilməsinin əsaslarını müəyyən etmişdi. Belə ki, 1922-ci ildə öz inzibati-ərazi vahidləri ilə birlikdə müttəfiq respublika kimi, SSRİ-nin tərkibinə qatılmış müstəqil Az.SSR, məhz mövcud sərhədləri daxilində siyasi, iqtisadi, elmi və digər potensialı ilə birlikdə, lakin böyük itkilər bahasına xalqın inkişafını qoruya bildi. XX əsrin sonlarında siyası proseslər məntiqi sonluqla nəticələnərək 1991-ci ildə Müstəqil Azərbaycan Respublikasının (III Respublika) elan olunması ilə başa çatdı. Hər üç respublika dövründə müxtəlif ictimai və dövlət quruluşlarının olması, dövlət idarəçilik formalarının dəyişməsi, ayrı-ayrı konistitusiya quruluşlarinin (Azərbaycan Xalq Cumhuriyyəti istisina olmaqla), və s. olması, XX əsrdə Azərbaycanda birinci, ikinci və üçüncü Respublikaların mövcud siyasi-hüquqi bölgüsünün aparılmasını müəyyən etməyə əsas vermişdi.

## 1.4. AXC-də ədliyyə və məhkəmə sisteminin təkmilləşdirilməsi

AXC hökuməti, ölkədə qanunçuluğu möhkəmləndirmək, hüquq sistemində islahatlar keçirmək, rus imperiyası dövründən qalma qanun və məcəllələri yeni formaya salmaq və təkmilləşdirmək, bütün təsisatlarda hüququn aliliyini və qanununun vəhdətini təmin etmək sahəsində, Ədliyyə Nazirliyi qarşısında böyük vəzifələr müəyyən etmişdir. Bu vəzifələri həyata keçirməkdən ötrü Ədliyyə Nazirliyi fəaliyyətini daha da gücləndirmiş, xüsusilə də məhkəmə idarələrini, milli dəyərləri nəzərə almaqla yüksək səviyyəyə çatdırmaq üçün bir sıra tədbirlər həyata keçirmişdir. İlk milli hökumətinin tərkibinə Ədliyyə Nazirliyinin daxil edilməsi, AXC-nin məhkəmə və hüquqi sisteminə böyük diqqətinin nəticəsi olmaqla yanaşı, eyni zamanda hökumətin bu sahədə demokratik islahatların keçirilməsini, özünün ən mühüm vəzifəsi hesab etməsi ilə əlaqədar idi. Ədliyyə sisteminə xüsusi diqqət yetirilməsinin digər məqsədi isə, milli ruhda və xalqa daha yaxın olan, cinayətkarlıqla mübarizədə öz üzərinə düşəcək vəzifələrin öhdəsindən gələn, tərəfsiz və müstəqil ədalətli məhkəmə orqanlarının yaradılması olmuşdur (41., 67-68).

Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının 1918-ci il 17 iyun tarixli müraciətində bütün dövlət idarələri ilə yanaşı məhkəmələrində milliləşdirilməsi elan edilmişdir. Azərbaycan parlamenti tərəfindən mütamadi olaraq amnistiyaların verilməsi, həmçinin pentensiar sahədə vəziyyətin yaxşılaşdırılması, ümumilikdə məhkəmə-inzibati islahatların keçirilməsi və ədliyyə sisteminin praktiki fəaliyyətinin təkmilləşdirilməsi kimi aktula məsələlər, milli hökumətin gündəliyinə daxil idi. İkinci hökumətin baş naziri F.X.Xoyskiyə, eyni zamanda Ədliyyə Naziri portfeli də həvalə edilmişdir. **1918-ci il noyabr ayının 22-də milli hökumət ədliyyə orqanlarının fəaliyyətinin tənzimlənməsində mühüm əhəmiyyət kəsb edən Ədliyyə Nazirliyinin "Əsasnamə"sini təsdiq etmişdir.** Bir qədər əvvəll, 1918-ci il noyabrın 14-də, Azərbaycan Respublikası Məhkəmə palatasının "Əsasnamə"si qüvvəyə minmişdir. 1918-ci ilin dekabrın 5-də hökumətin qərarı ilə Ədliyyə Nazirliyinə, Gən-

cə dairə məhkəməsi nəzdində Hərbi Məhkəmə təsis etmək tapşırılmışdı. Hərbi məhkəmənin ştat tərkibi müəyyən edilərək onun heyətinə sədr, iki nəfər üzv, bir nəfər prokuror, bir nəfər katib, iki nəfər katib köməkçisi və dörd nəfər kuryer daxil edilmişdir.

Azərbaycan parlamentinin 1918-ci il dekabr ayında keçirilmiş ilk təsis iclasında, yeni hökumətin proqramı ilə çıxış edən baş nazir F.X.Xoyski, digər məsələlərlə yanaşı ədliyyə sistemində də, aparılacaq islahatlar barəsində hökumətin platformasını elan etmişdir. Hökumətin ədliyyə sisteminə xüsusi diqqət yetirdiyini bildirən baş nazir heç bir inzibati dövlət aparatının məhkəməni əvəz edə bilmədiyini və buna görə də ədliyyə sisteminin təşkil edilməsini dövlətin ən vacib vəzifəsi olduğunu göstərmişdir. Hökumət, eyni zamanda ədalət məhkəməsi qarşısında hamının bərabərliyini elan etməklə, ədalət mühakiməsinin həyata keçirilməsinin yalnız məhkəmələrə məxsusluğu, hakimlərin isə müstəqil və yalnız qanuna tabe olduğlarını bəyan etməklə göstərirdi ki, müstəqil məhkəməsiz heç bir dövlət güclü inkişafa nail ola bilməz və bütün qanunsuz hərəkətlərin qarşısı ədalətli məhkəmə prosesi ilə alınmalıdır. Azərbaycan dövlətinin əsas vəzifələrindən biri, xalqın ədalət mühakiməsinə inamının bərpa etmək olmuşdur. Ədliyyə Nazirliyində idarəetmənin strukturunun formalaşması məqsədi ilə, 1918-ci il iyunun 27-də hökumətin qərarı ilə Teymur bəy Makinski (Makulu) Ədliyyə Nazirinin müavini təyin edilir. İyunun 30-da isə, nazirliyin strukturuna daxil olan vəzifələrin siyahısına katiblik, iş icraçısı, mirzə və kuryer ştatları daxil edilmişdir.

Azərbaycan Demokratik Respublikası hökuməti məhkəmə sisteminin yenidən qurulması və onların fəaliyyətlərinin təkmilləşdirilməsi üçün bir sıra kompleks tədbirlər nəzərdə tutmuşdur. Belə ki, daxili və xarici təhlükələrlə əlaqədar olaraq yaranmış hərbi vəziyyət, məhkəmə sistemində islahatların keçirilməsində spesifik xüsusiyyətləri müəyyən etmiş və ilk növbədə, hərbi qanunvericilik və hərbi məhkəmə quruluşunun təkmilləşdirilməsi ön plana çəkilmişdir. Mülki məhkəmə quruluşu isə, əsasən köhnə Rusiya imperiyası dövründə mövcud olmuş məhkəmə sistemi əsasında, ədalət mühakiməsi qaydasında aparılmaqda davam edirdi.

**AXC-nin məhkəmə sistemi andlıların iştirak etdiyi ədalət məhkəmələrinə və ümumi məhkəmələrə bölünürdü. Ümumu məhkəmələr isə, dairə məhkəmələrinə və məhkəmə palatası instansiyalarına ayrılırdı. Ədalət məhkəmələri seçkili orqan kimi qəzalarda yerli qəza nümayəndələri yığıncağında, şəhərlərdə isə şəhər nümayəndələrinin toplantısında seçilirdilər. Ədalət məhkəmələri sədrdən və istənilən sayda üzvlərdən ibarət müəyyən edilmişdir. Sədr ədalət məhkəməsi üzvləri arasından seçilirdi. Dairə məhkəmələri sədrdən və üzvlərdən ibarət idi. Dairə məhkəmələri mülki və cinəyət işləri üzrə palatalara bölünürdü.**

Parlament 1919-cu il avqustun 18-də, özgə əmlakı əleyhinə yönəlmiş cinayətlərə görə cəza verilməsi üçün ədalət məhkəməsinin səlahiyyətlərinin artırılması barədə qanun qəbul etmişdir. Qanunda göstərilirdi ki, Rusiya imperiyası qanunvericiliyində nəzərdə tutulmuş cinayət əməllərinə görə verilən pul cərimələri, rublun kursunun aşağı düşdüyünə görə ədalət məhkəmələrinin səlahiyyətlərini məhdudlaşmışdır. Fırıldaqçılıq, mənimsəmə, israfçılıq öz əmlakını oğurlamaq və s. əməllərə görə müəyyən edilən 300 rubl cərimə təyin etmək hüququndan olan ədalət məhkəmələrinin səlahiyyətlərini artırmaq məqsədilə, göstərilən cinayətlərə görə tutulan cərimələri 300 rubldan 10 min rubla qədər artırılır və dairə məhkəmələrinə aid bəzi xırda cinayət əməllərini araşdırılması da onlara həvalə edilirdi.

Azərbaycanda hərbi vəziyyətin elan olunması ilə əlaqədar olaraq, Ədliyyə Nazirliyinə qanundan irəli gələn bir sıra tədbirlər icra etmək vəzifəsi tapşırılmışdır. Hərbi vəziyyətin elan olunmasından sonra "Əlahiddə Azərbaycan korpusu" və digər daxili xidmət və hərbi birləşmələr üzrə "Korpus məhkəmələri" təşkil olunmuşdur. Azərbaycan korpus məhkəməsi, Rusiya imperiyasının 1914-cü il 30 iyun hərbi-məhkəmə "Nizamnamə"si qaydaları əsasında məhkəmə fəaliyyətini həyata keçirirdi. Dövlət hakimiyyəti əleyhinə, ictimai quruluş, dövlətə xəyanət, həyat üçün təhlükə törədən soyğunçuluq və s. əməllərə görə cəza verilməsi, elan edilmiş hərbi vəziyyətin qanunlarına uyğun olaraq hərbi məhkəmələrə həvalə edilirdi. Rusiya Müvəqqəti hökumətinin 28 may 1917-ci il qərarı ilə Korpus məhkəmələrində hərbi andlı iclasçıların iştirakı ləğv edilmişdir. Müvafiq olaraq AXC-də, korpus məhkəməsinin çıxardığı qərar, təsdiq edilmək üçün dərhal "Əlahiddə Azərbaycan korpusu" komandanlığına verilirdi. Bir gün müddətində komandanlıq məhkəmə qətnaməsinin yüngülləşdirilməsi və ya ağırlaşdırılması barədə korpus məhkəməsinə rəsmi təqdimat verə bilərdi. Korpus məhkəməsinin çıxardığı hökm Azərbaycan Respublikası adından elan edilirdi. Azərbaycan ordusunun 1918-ci il iyun-sentyabr qələbələrindən sonra hökumət ədalət məhkəmələrinin bərpa olunması barədə sentyabrın 14-də xüsusi qərar qəbul etdi. Bu məqsədlə hökumət tərəfindən Ədliyyə Nazirliyinə ədalət mühakimələrinin işlərinin təşkil edilməsi üçün dövlət büdcəsindən 10 min rubl vəsait ayırmışdı. **1918-ci noyabrın 14-də təsdiq edilmiş məhkəmə palatasının əsasnaməsi isə, yuxarı instansiya məhkəmə fəaliyyətinin təkmilləşdirilməsində, onun səmərəliyinin artırılmasında mühüm rola malik olmuşdur.**

Milli hökumət ölkə daxilində və xaricində mürəkkəb və qeyri-sabit hərbi vəziyyəti nəzərə alaraq hərbi məhkəmə sahəsində islahatları sürətləndirməyə çalışırdı. Bu məqsədlə, Azərbaycan parlamenti 1919-cu il aprelin 14-də hərbi məhkəmə hissəsinin quruluşu haqqında qanun vermişdir. Qanun layihəsi aprelin 7-dən

parlament müzakirəsinə çıxarılmışdı. Qanun layihəsini deputatlara təqdim edən Ş.Rüstəmbəyov, Azərbaycanda təcili olaraq, hərbi məhkəmələrin təşkil olunması səbəbindən və bu tezlikdə qanun hazırlamağın çətinlik yaratdığını nəzərə alaraq, keçmiş çar Rusiyası və Müvəqqəti hökumətin tərtib etdiyi qanunlardan istifadə olunduğunu bildirmişdi. Öz növbəsində Cümhuriyyətin hərbi nazirliyi, hərbi məhkəmələrin seçilməsi ilə bağlı maddələri, Rusiya Müvəqqəti hökumətinin müəyyən etdiyi normalarla tənzimlənməsini təklif etmişdi. Belə ki, Rusiya hərbi qanunvericliyinin təsbit etdiyi həmin maddələrdə hərbi məhkəmlərin üzvləri, seçki keçirməklə müəyyən edilirdi. Azərbaycanda isə, zabit və əsgərlərin də iştirak etməli olduğu seçkilərin keçirilməsi bir sıra çətinliklərlə bağlı idi və əsas səbəb kimi qoşun heyətinin münaqişə ilə əlaqədar olaraq tez-tez yerini dəyişməsi göstərilirdi. “Hərbi və alay məhkəmələrinin yaradılması haqqında” qanun layihəsində seçkilərin keçirilməsi deyil, hərbi nazirin təyin etdiyi hərbi məhkəmələrin yaradılmasını nəzərdə tuturdu. Hərbi məhkəmələrdən verilən şikayətlər Rusiya hökuməti dövründə mülki apellasiya qaydasında baxılırdı. Azərbaycan hərbi nazirliyi bu maddəni də dəyişərək, bütün apellyasiya şikayətləri üzrə icraat işlərinin hərbi nazirlik tərəfindən aparılmasını təklif etmişdir. Yenə də səbəb kimi, məhkəmə heyətinin tez-tez bir yerdən başqa yerə köçməsi və ya yerlərinin dəyişməsi göstərilirdi. Hərbi nazirliyin mövqeyinə görə, prosesdə iştirak etməli olan şahidləri toplamaq və məhkəməni keçirmək hər zaman mümkün olmur. Qanun layihəsinin 25-ci maddəsində nəzərdə tutulan şikayətlərin kassasiya qaydasında baxılmasına isə, Ali Hərbi Məhkəmələrin hələ də, yaradılmaması səbəbindən bu prosesin də Hərbi Nazirə həvalə edilməsi nəzərdə tutulurdu. Cümhuriyyətin hərbi məhkəmələri Hərbi Nazirliyin tabeliyində olmaqla səlahiyyətlərini bütün respublika ərazisində yerinə yetirmək hüququna malik idi. Hərbi məhkəmələr daimi və müvəqqəti üzvlərdən təşkil olunurdu. Daimi üzvlər sədrdən və iki nəfər hərbi məhkəmə üzvündən ibarət idi. Qanunda hərbi məhkəmənin müvəqqəti üzvləri hərbi nazirin sərəncamı ilə 6 ay müddətinə hərbi hissələrdən olmaqla iki nəfər qərargahdan, iki nəfər isə bölmələrdən olan ober-zabitlərdən (kiçik zabitlər) təyin edilirdi.

“Hərbi və alay məhkəmələrinin yaradılması haqqında” 14 aprel 1919-cu il qanunun 11-ci maddəsinə görə, Nazirlər Şurasının qərarı ilə hərbi məhkəmənin sədri, hərbi nazirin təqdimatı ilə hərbi-məhkəmə idarəsində ən azı hərbi prokuror və ya hərbi dairə məhkəməsində hakim işləmiş (dairə məhkəməsində prokuror və hərbi məhkəmənin daimi üzvü olan) şəxslərdən təyin edilirdi. Qanuna görə, hərbi məhkəmənin prokuroru və daimi üzvləri hərbi nazirin əmri ilə, hərbi-məhkəmə idarələrində qulluq edən, vəzifəsi ən azı dairə prokurorunun köməkçisi, müavini, həmçinin məhkəmə və ya hərbi müstəntiq, alay məhkəməsinin istintaq hissəsinin

rəisi olan şəxslərdən, o cümlədən andlı iclasçılardan və ya digər səlahiyyətli nümayəndələrdən və onların köməkçilərindən təyin edilirdi.

Prokuror köməkçisi və hərbi müstəntiq hərbi nazirin əmri ilə ali hüquq təhsili almış və ya fəaliyyətində kifayət qədər məhkəmə təcrübəsinə yiyələnmiş şəxslərdən seçilirdi.

"Hərbi və alay məhkəmələrinin yaradılması haqqında" qanunda işin məhkəməyə aid hissəsi Rusiya Müvəqqəti hökumətinin hərbi idarə haqqındakı 6 iyul 1917-ci il tarixli 396 saylı əmri ilə, üçüncü bölmənin 1-9-cu maddələri üzrə olan qaydaları əsasında aparılırdı. Azərbaycan Cümhuriyyətinin hərbi məhkəmələri, onların daxili quruluşu, mühakimə qaydaları və onun vəzifəli şəxslərinin səlahiyyətləri Hərbi məhkəmə Nizamnaməsi (hərbi qərarlar hesabatı, 1868-ci il, XXIV, 4-cü nəşr) və ona edilmiş 30 iyul 1914-cü il dəyişiklikləri, həmçinin 17-24-cü maddələr üzrə edilmiş dəyişikliklər əsasında tənzimlənirdi.

"Hərbi və alay məhkəmələrinin yaradılması haqqında" qanunun 17-ci maddəsinə görə hərbi rəislərin, hərbi qulluqçular barəsində cinayət işi qaldırılmaq səlahiyyəti ləğv edilirdi. Qanuna əsasən hərbi istintaq aşağıdakı hallarda müəyyən edilirdi: a) hərbi rəislərin məlumatı əsasında; b) hərbi prokurorun təqdimatı əsasında; c) məhkəmə və inzibati orqanların məlumatı əsasında; ç) hərbi qulluqda xidmət edənlərin və fərdi şəxslərin şikayəti əsasında və d) cinayətkarın özünün etirafı əsasında. Hərbi məhkəmələrin nizamnaməsində nəzərdə tutulmuş 364-366-cı maddələrə uyğun olaraq ibtidai istintaqa zabitlərin cəlb edilməsi qaydası ləğv edilirdi. Hərbi məhkəməyə təqdim edilmiş iş dövlət ittihamçısı olan prokuror tərəfindən müdafiə edilirdi. Başlanmış istintaq işi hərbi məhkəmənin qərarı ilə dayandırılırdı.

Qanunun 24-cü maddəsinə görə, ayrı-ayrı şəxslərin etdikləri şikayətlər əsasında başlayan istintaqın, həmçinin hərbi rəislərin təqdimatı ilə aparılan işlərin dayandırılması barədə qərarından, hərbi prokurorluğun bilavasitə nəzarəti ilə və 7 gün ərzində hərbi idarə yanındakı məhkəmə orqanına şikayət verilə bilərdi. Qanunda hərbi məhkəmələrə ayrı-ayrı işlər üzrə yüngülləşdirici (hərbi məhkəmə qərarlarının 2-ci kitabının 1896-cı il 4-cü nəşri istisna olunmaqla) halların tətbiq edilməsinə imkan verilirdi. Məhkəmənin təqdimatı ilə müttəhimin bağışlanması barədə məhkəmə qərarı baxılmaq üçün Nazirlər Şurasına göndərilirdi. Nazirlər Şurası günahkarın cəzasını yüngülləşdirmək və ya onu tamamilə əfv etmək hüququna malik idi. Parlamentin qəbul etdiyi qanuna görə, Azərbaycanda hərbi məhkəmə orqanlarının tam formalaşmamasını nəzərə alaraq hökmlərdən kasasiya qaydasında şikayət vermək nəzərdə tutulmurdu. Yalnız hərbi cinayətlər üzrə

müttəhim və ya onun müdafiəçisi, həmçinin mülki iddiaçı məhkəmə qərarından hərbi nazirə şikayət etmək hüququna malik idi. Gələcəkdə yaradılacaq kassasiya məhkəmələri tam formalaşdıqdan sonra göstərilən məsələlərin ümumi qaydalar əsasında həll edilməsi nəzərdə tutulurdu. "Hərbi və alay məhkəmələrinin yaradılması haqqında" qanun, mülki işlərin aparılmasına hərbi müstəntiqlərin cəlb edilməsini qadağan edirdi. İstintaqın dayandırılması hərbi məhkəmənin çıxardığı qərar əsasında qüvvəyə minirdi.

1919-cu il mayın 14-də Nazirlər Kabinetinin qərarı ilə İrəvan dairə məhkəmsinin üzvü olmuş Abbasəli bəy Ağababayov Gəncə dairə məhkəməsinin sədri təyin edilmişdi.

Ədliyyə Nazirliyinə həbsxanaların təhkim edilməsi və həbsxana nəzarətini gücləndirməkdən ötrü vəsait ayrılması barədə hökumətin 11 avqust 1919-cu il qərarı verilmişdir. Qərara görə, həmin dövrə qədər Daxili İşlər Nazirliyinin tabeliyində olan pentensiar həbsxanalar Ədliyyə Nazirliyinin tabeçiliyinə daxil edilirdi. Hökumət, məhbusların saxlanıldığı şəraitin yaxşılaşdırılması üçün Ədliyyə Nazirliyindən tədbirlər görülməsini tələb edirdi. Azərbaycan parlamenti tərəfindən mütamadi olaraq elan edilən amnistiyalar və pentensiar sahədə vəziyyətin yaxşılaşdırılması üçün görülən tədbirlər, ümumilikdə islahatların keçirilməsi və ədliyyə sisteminin praktiki fəaliyyətinin təkmilləşdirilməsi aktula məsələ kimi hökumətin gündəliyində idi. Belə ki, Bakı Sovetinin bolşevik hökuməti, Sentrokaspi diktaturası və çar Rusiyası dövründə yerli əhalinin incidilməsi, qanunsuz həbslər milli hökuməti həmin məhkəmə hökmlərinə yenidən baxmağa məcbur etmişdir. **Bu məqsədlə Ədliyyə Naziri A.Səfikürdski 1919-cu ilin 28 noyabrında amnistiya haqqında qanun layihəsini hazırlayıb parlamentin təsdiqinə vermişdir. Layihədə göstərilirdi ki, müstəqil respublikanın yaranmasının ilyarım yubileyi münasibəti ilə və bütün vətəndaşların yeni respublikaya xidmət etmək və onun qurulmasında bərabər surətdə iştirak etmələrini təmin etmək məqsədilə 1918-ci il 28 mayına qədər edilmiş cinayətlərə görə ümumi amnistiya elan edilir.** Amnistiya Azərbaycanda yaşayan xarici vətəndaşlara da şamil edilirdi.

Ədliyyə Nazirliyinin elmi-nəzəri və metodik bazasının təşkil edilməsi məqsədi ilə, Nazirlər Kabineti 1919-cu il iyulun 19-da verdiyi qərarla, hüquq kitabxanasının yaradılması üçün Ədliyyə Nazirliyinin müvafiq fonduna 50 min rubl vəsait ayırılmışdır. Ədliyyə Nazirliyinin tərkibində 6 aylıq təkmilləşdirmə kurslarının açılması isə, nazirlik sistemində mütəxəssis hazırlığı proses üçün xüsusui əhəmiyyət kəsb etmişdir.

AXC-də müstəqil prokurorluq orqanı yaradılmadığına görə, prokurorluğun funksiyalarını bu və ya digər statusda ədliyyə orqanları yerinə yetirirdilər. Belə ki, dövlət ittihamını müdafiə edən prokuror ştatları, Ədliyyə Nazirliyinin tərkibində təşkil edilmişdir. Müstəqil Azərbaycan Respublikasında vahid qanunçuluğu və idarəetmə orqanlarının fəaliyyətinin qanuniliyini təmin etmək, təhqiqat və ibtidai istintaqın aparılmasına nəzarət və məhkəmədə ittihamı müdafiə etmək və s. bu kimi məsələləri tənzimləmək prokurorluq orqanlarının funksiyaları və vəzifələrinə daxil idi. Hökumətin 1919-cu il 10 may qərarı ilə O.Kriçinski Azərbaycan Respublikası məhkəmə palatasında prokuror vəzifəsinə təyin olunmuşdur.

AXC hökuməti ədliyyə və məhkəmə orqanları ilə yanaşı, hüquq-mühafizə sistemində də islahatlara önəm verirdi. Məhz, dövlətin daxili təhlükəsizliyinin qorunmasında xüsusi rola malik olan daxili işlər orqanlarının fəaliyyətinin hüquqi tənzimlənməsi və sosial təminatı həmişə diqqət mərkəzində idi. **Azərbaycan parlamenti 1919-cu il aprelin 7-də "Daxili işlər nazirliyi məmurlarının maaşını artırmaq və bu nazirlik üzrə yeni məmur vəzifələrini təşkil etmək haqqında" qanun qəbul etmişdir (70). Qanun layihəsində iki prinsipial məsələlənin, o cümlədən birincisi ştatın dəyişdirilməsi, ikinci isə məvaciblərin artırılması ilə bağlı olmuşdur.**

**Bakıda əvvəllər daxili nəzarəti həyata keçirən üç qurum: qubernator, qubernator idarəsi və qradonaçalstvo (şəhər rəisi) fəaliyyət göstərmişdir.** Bolşeviklərin müvəqqəti hakimiyyətləri dövründə Bakı Soveti hər üç idarəni ləğv etməklə bir quberniya idarəsini yaratmış və digərlərini isə səlahiyyətlərinə xitam vermişdir. Bu qanun, ölkədə daxili asayişin qorunmasında, çevik idarəçiliyin təşkil edilməsində, məmurların maddi vəziyyətlərinin yaxşılaşdırılmasında, peşəkarlığın artırılmasında xüsusi rola malik olmasını nəzərdə tuturdu. Beləliklə, parlament "Daxili işlər nazirliyi məmurlarının maaşını artırmaq və bu nazirlik üzrə yeni məmur vəzifələrini təşkil etmək haqqında" qanunu 3-cü qiraətdən (oxunuşda) sonra səs verməyə çıxararaq, sosialistlər əleyhinə olmaqla əksəriyyət ara ilə qəbul etmişdir. **AXC dövründə xüsusi kollegiyal fəaliyyətə əsaslanan vəkillik institutu mövcud olmamışdı. Vəkillik funksiyalarını ayrı-ayrı hüquqşünaslar, iddiaçı və ya təqsirkarın səlahiyyətli nümayəndləri və dövlət təşkilatları yerinə yetirmişdilər.**

Beləliklə, AXC dövründə ədliyyə sisteminin və məhkəmə hakimiyyətinin təkmilləşdirilməsi və inkişaf etdirilməsi prosesi mütamadi olaraq davam etdirilmişdir. Qanunvericilik sahəsindəki islahatlar siyasi, iqtisadi, mədəni, sosial sahələrdə mövcud olan hüquqi problemləri müəyyən edərək həll edilməsini əhatə etməklə, yeni ictimai münasibətlərdə yaranan məsələləri tənzimləmişdir. Bu

prosesdə ilk növbədə, qəbul edilmiş qanunvericilik aktlarının və hüquq normalarının məzmunu, mahiyyəti, strukturu, onların özünəməxsus xüsusiyyətləri, meyarları, xalqın milli mentaliteti, qanunvericilik normalarına hüquq ənənələrinin təsiri və s. xüsusiyyətləri diqqət mərkəzində olmuşdur. **Lakin, nəzərə almaq lazımdır ki, AXC hüququnun institusional quruluşu, konqlemerat hüquq mənbələri ilə formalaşır və şərtləşirdi ki, bu da öz növbəsində ədliyyə və məhkəmə sistemi, o cümlədən milli hüquq üçün spesifik xüsusiyyətlər formalaşdırmişdı. Milli hüququn institusional inkişaf xüsusiyyətləri adlanan ikinci fəsildə, bu problemlərin tənzimlənməsinin elmi-nəzəri əsasları təqdim edilmişdir.**

## II Fəsil.

## Giriş. Azərbaycan Xalq Cümhuriyyətində milli hüququn institusional inkişaf xüsusiyyətləri

Azərbaycan Xalq Cümhuriyyəti ali hakimiyyət orqanları ilə yanaşı, onun milli hüququnun təsis quruluşu forması, institusional mexanizmləri və hüquqyaratma fəaliyyəti prinsiplərinin araşdırılması, nəzəri və praktiki cəhətdən olduqca aktuallığ kəsb edir. Tədqiqatın bu fəslinin öyrənmə predmetini, AXC-də təşəkkül tapmış və fəaliyyət göstərmiş dövlət-hüquq institutları və bu institutların fəaliyyəti prosesində yaranan hüquq münasibətləri təşkil edir.

Cümhuriyyətin milli hüququ, məzmununa və formalaşma xarakterinə görə roman-german hüquq sisteminin əsas prinsiplərini qəbul etmiş və bu sistemin hüquqi konsturuksiyasının müəyyən etdiyi hüquqi texnikaya əsaslanaraq ictimai-hüquqi münasibətlərinin tənzimlənməsində tətbiq edilmişdir. AXC-də hüququn məzmununa bəhs olunan dövrün siyasi, ictimai, sosial və iqtisadi münasibətləri öz təsirini göstərərək hüquq mənbələrinin formalaşmasında fəal iştirak etmişdir. Siyasi müstəqillikdən sonra, milli hüquq sahələrinin yenidən formalaşması, təkmilləşdirilməsi və bu sahələr üzrə məcəlləşdirilmənin aparılması hökumətin müvafiq orqanlarının ən prioritet vəzifələrindən biri olmuşdur. Azərbaycanın dövlət müstəqilliyini ehtiva etmiş əsas dövlət hüququnun (Bəyannamənin) müddəaları, hüququn ümumi prinsipləri sistemindən çıxış edərək, ayrı-ayrı konkret normalar üçün əsas hüquqi baza, hüquqi idarəçilik və hüquq mənbəyi funksiyasını yerinə yetirmək xüsusiyyətlərinə malik olmuşdur. Bəyannamənin qəbul edilməsi, ilk növbədə AXC-nin milli hüquq sisteminin inkişafı və hüquqi idarəçilik üçün yeni imkanlar yaratmışdır. **Belə ki, dövlətin əsaslarını müəyyən edən Bəyannamədə, Azərbaycan xalqının iradəsi, dövlət təsisatları, dövlət-vətəndaş münasibətləri, respublikanın idarəçilik forması, insan və vətəndaş hüquq və azadlıqlarının məzmunu, beynəlxalq siyasi-hüquqi əlaqələr, Cümhuriyyətin hüdudları, ümumilikdə dövlət və hüququn fundamental prinsiplərinin əsasları və institusional inkişaf prespektivləri təsbit edilmişdir.**

Məlumdur ki, ictimai münasibətlərin yeni inkişaf mərhələlərində, xüsusilə də yeni siyasi və sosial-iqtisadi şəraitin yaranması reallığında, hüququn ictimai münasibətlərdəki rolu daha da güclənir. Yəni, dəyişən və inkişaf edən ictimai münasibətlər, yeni hüquq münasibətlərinin formalaşmasını şərtləndirir.

AXC-nin elan edilməsindən sonra hüquq sistemində islahatlar keçirilməsi və

əsasən də "İstiqlal Bəyannamə"sində elan edilmiş siyasi quruluş və idarəçilik forması çərçivəsində, dövlətin məqsəd və vəzifələrinin yerinə yetirilməsi, eyni zamanda yeni şəraitə və ictimai münasibətlərə uyğun hüquq normalarının, xüsusilə də, obyektiv səbəblərə görə, cinayət və hərbi qanunvericiliyinin təkmilləşdirilməsi və inkişaf etdirilməsini zəruri etmişdir. Çünki, ölkənin təhlükəsizliyi və ərazi hüdudlarının qorunması cinayət qanunvericiliyinin dərhal təkmilləşdirilməsi və ekstermal şəraitə uyğunlaşdırılmasını tələb edirdi. Bəhs olunun dövrdə cinayət hüququnun əsas prinsiplərinin müəyyən edilməsi və hüquqi texnikadan istifadə üsullarına görə Avropa kontitnet hüququndan geri qalan Rusiya cinayət qanunvericiliyinə müraciət edilməsi anlaşılan idi. Çünki, unifikasıya edilmiş Rusiya Cinayət Mühakiməsi Nizamnaməsinə əsaslanan hüquqi konstruksiya çərçəvsində nizamlanma, AXC hüququ üçün "yad" tənzimləmə forması hesab edilmirdi.

Obyektiv zərurətdən yaranan tələsik islahatlar isə siyasi, iqtisadi, mədəni, sosial, məhkəmə və hərbi sahələrdə mövcud olan hüquqi problemləri tez bir zamanda müəyyən edərək həll edilməsini əhatə etmişdir. İlk növbədə mövcud qanunvericiliyin təkmilləşdirilməsi və yeni hüquq normalrının hazırlanması, hüququn aliliyinin təsbit edilməsi, qanunvericiliyin sistemləşdirilməsi, çevik hüquqi mexanizmin qurulması, inzibati idarəetmədə islahatların keçirilməsi, vətəndaşların mülkiyyət, əmlak, əmək, sosial təminat hüquqlarının qorunması, milli qüvvələrdən təşkil edilmiş hüquq-mühafizə orqanlarının yaradılması, məhkəmə hakimiyyətinin təkmilləşdirilməsi və möhkəmləndirilməsi, onların peşəkarlığının artırılması, nəticə etibarı ilə respublikada yeni milli hüquq sisteminin formalaşması və inkişafını təmin edən əsas vəzifələrdən idi. AXC hüququnun özünəməxsus xüsusiyyətlərindən biri də, onun burjua-demokratik respublika mahiyyəti ilə şərtləşməsi və təbii ki, öz qanunvericiliyini burjuaziya münasibətləri əsasında qurması olmuşdur.

AXC-nin hüquq sisteminin hüquqi təbiətini müəyyən etmək üçün, onun yaranması mexanizmlərini nəzərdən keçirmək lazımdır. İlk növbədə qeyd etmək lazımdır ki, azərbaycan hüquq sisteminin müxtəlif prinsipləri və ayrı-ayrı institutlarının yaradılmasında roman-german hüquq sisteminə əsaslanan burjuaziya hüququ, müsəlman hüququ və yerli adət hüquq normaları öz təsirini göstərmişdir. Yuxarıda da, qeyd etdiyimiz kimi, "İstiqlal Bəyannamə"si (əsas dövlət qanunu) qanunvericilik üçün əsas hüquq mənbəyi olmuşdur. Kontitnet hüquq sisteminin əsas prinsiplərinin dominatlıq etdiyi AXC hüququ, eyni zamanda normativ-hüquqi aktların qəbul edilməsində Rusiya qanunvericilyi nümunəsində implementasiya və hüquqyarartma texnikasından da, istifadə etmişdir.

Məlumdur ki, hüquq sisteminin əsas xarakterik cəhətlərinə qanunçuluq, hüquqyaratma, hüquqi praktika, ədalət mühakiməsi, hüquqi münasibətlər, hüquqi tənzimetmə daxil edilir. Məhz hüquq sistemi, ictimai münasibətləri tənzimləmək üçün, razılaşdırılmış qarşılıqlı və əlaqəli hüquqi vasitələr kompleksində formalaşır. Hüquqi münasibətlərin tənzimlənməsi prosesində hüququn spesifik xüsusiyyətləri qanunvericiliyi, hüquq prinsiplərini, hüquq təsisatlarını və hüquq qaydalarını əhatə edərək, fərqli cəhətləri müəyyən edir. AXC hüququnun institusional quruluşu, bu cəhətlərin konvergensiyası (uyğunlaşdırılması) əsasında formalaşan hüquqi konstruksiya istinad etmişdir.

## 2.1. “İstiqlal Bəyannaməsi” müddəalarının siyasi-hüquqi təbiəti və konstitusion mahiyyəti

“İstiqlal Bəyannaməsi”nin məzmunu və onun hüquqi təbiəti, beynəlxalq təcrübədə rast gəlinən sənədlərlə müqayisədə lakonik olsa da suveren, demokratik, dünyəvi və hüquqi dövlətin əsas prinsiplərinin tələblərinə müvafiq olaraq hakimiyyətin xalqa məxsus olması, hüquqiin aliliyi, hakimiyyət bölgüsünə müvafiq olaraq dövlət təsisatlarının səlahiyyət həddləri dəqiq müəyyən edilərək möhkəmləndirilmişdir (31., 143).

Azərbaycanı müstəqil Demokratik Respublika elan edən Bəyannamə, Şərqin müsəlman ölkələri üçün də presedent ola bilən çox mütərəqqi hadisə idi. Belə ki, XX əsrin əvvələrində ayrı-ayrı dünya ölkələrinin olduğu kimi, Azərbaycanda da siyasi-ictimai münasibətlərin demokratik-hüquqi əsaslarla tənzimlənməsi, Cümhuriyyətdə yaşayan xalqlara, o cümlədən milli, dini, sinfi, silki, cinsi mənsubiyyətindən asılı olmayaraq bütün insan və vətəndaşlara, onların bərabər inkişafları, fundamental hüquq və azadlıqlarının təmin olunması üçün çox əhəmiyyətli cəhətlər müəyyən edilmişdir. “İstiqlal Bəyannamə”sinin müddəaları, Azərbaycanın demokratik konstitusiyasının tərtib olunması üçün kifayət qədər hüquqi baza yaratmaqla, konstitusiya aktı statusuna bərabər mahiyyət kəsb etmişdir. **Dövlət hüququnun əsaslarını təsbit edən “İstiqlal Bəyannamə”sində,** ali dövlət hakimiyyəti subyektləri arasında qarşılıqlı əlaqə və hüquqi cəhətdən inkişaf səviyyələri, Qərb və Şərq konteksində müqayisə edərək, belə nəticəyə gəlmək olar ki, “geridə qalmış Şərq ölkələri” hüdudlarını aşmaq missiyasına Azərbaycan xalqı nail olmuşdur. Belə ki, o dövrdə baş vermiş inqilabların nəticəsində Qərbin bəzi ölkələrində azad, suveren respublikalar yaransa da, Şərq ölkələrində liberal, demokratik quruluşa malik hər hansı bir dövlət qurulmamışdır.

Dövlətin ali hüquqi sənədinin müəyyən etdiyi müddəalar, konstitusiya qüvvəli akt mahiyyəti daşımışdır. Mövcud münasibətlərin dəyişməsi və inkişafı, siyasi münasibətlərin də mahiyyətini dəyişmiş və nəticədə dövlətin əsaslarını təsbit edən normalar konstitusion məzmunlu yuridik aktda maddiləşmişdir. Bəyannamədə dövlətin əsaslarını müəyyən edən müddəalar, hüquqi-demokratik idarəçilik mahiyyətli prinsiplərin əsasında formalşmışdır. Məhz, bu müddəaların mahiyyətində isə, Azərbaycan xalqının iradəsinin ifadə forması dayanmışdır.

“İstiqlal Bəyannaməsi”nin iki tezisdən ibarət olan birinci bəndində göstərilirdi ki, bu gündən (28 may 1918-ci ildən) etibarən Azərbaycan xalqı suveren hüquqlara

malikdir və Şərqi və Cənubi Zaqafqaziyadan ibarət olan Azərbaycan tam hüquqlu müstəqil dövlətdir. Sivil idarəçilik qaydalarına əsaslanan cəmiyyət qurmaq istəyən Azərbaycan Milli Şurası, bəyannamədə ilk olaraq azad, demokratik, hüquqi və dünyəvi dövlətlərin ən mühüm əlaməti olan suverenliyi, Azərbaycan xalqının ali hüququ kimi təsbit etmişdi. Azərbaycan xalqının suveren hüququnun əsasında, sərbəst və müstəqil öz müqəddəratını həll etmək və öz idarəetmə formasını müəyyən etmək dayanırdı. Dövlət hüququnun müəyyən etdiyi suverenlik ideyasının xalqa şamil edilməsi, konstitusiya müddəalarından ən əhəmiyyətlisi olmaqla, dünya xalqlarının uzun sürən mübarizəsinin nəticəsi kimi, əsas qanunda təsbit edilərək möhkəmləndirilmişdir. Suveren ölkələrdə dövlət-hüquq sistemi, yalnız xalq suverenliyinə istinad etməlidir. Təbii hüquq nəzəriyyəsinə görə suverenlik, azadlıq, bərabərlik insanların əbədi və dəyişməz təbiətindən doğur və heç kəs tərəfindən inkar edilməyən hüquqdur. Azad dövlətdə demokratizm, hüquq və suverenlik kateqoriyaları cəmiyyət həyatının bütün sahələrini harmoniyalaşdırır. Suveren, demokratik dövlətdə bütün hakimiyyət xalq tərəfindən müəyyən edilir. Məhz, xalq öz hakimiyyətini seçkilər yolu ilə həyata keçirir və xüsusi hakimiyyət orqanları olan qanunverici, icraedici və məhkəmələr vasitəsi ilə təmin edir.

Demokratik, hüquqi və suveren dövlətdə, vətəndaş cəmiyyət ilə, dövlət hakimiyyəti arasında fərqi asanlıqla müəyyən etmək olur. Xalqın suverenliyi, eyni zamanda dövlətin də suverenliyini təmin edir. Suveren olan dövlət hakimiyyəti yalnız xalqın iradəsinə əsaslanır. Suveren dövlətdə siyasi hakimiyyətin mənbəyini xalqın iradəsi müəyyən edir. Məhz xalqın siyasi iradəsi ilə dövlətin siyasi iradəsi ümumi məqsədlər üçün birləşərək suverenliyi uzlaşdırır. Suverenlik həmişə xalqa məxsusdur və heç bir qanunla məhdudlaşdırıla bilməz. Yalnız suveren dövlətdə insan siyasi, demokratik, vətəndaş və mülkiyyət azadlığına malik olur. Suverenlik ali hakimiyyət deməkdir və özü də, xalqın ali hakimiyyəti deməkdir. Beləliklə, Cümyuriyyət qurucuları bəyannamənin ilk bəndinə xalqın suverenliyini daxil etməklə, ali hakimiyyətin Azərbaycan xalqına mənsub olduğunu, onun iradəsini ifadə etdiyini bütün dünya birliyinə elan etmişdilər. **Qeyd etmək lazımdır ki, XIX əsrin ikinci yarısı və XX əsrin əvvələrində Azərbaycanın maarifçi ziyalılarının və ictimai-siyasi xadimlərinin siyasi doktirinasının əsasında milli-maarifçilik ideyası dayanırdı. Azərbaycanın ziyalıları başa düşürdülər ki, yalnız xalqı maarifləndirməklə suverenlik ideyasından doğan demokratiyaya, hüquqa, azadlığa, bərabərliyə, rifaha və nəhayət milli özünüdərkə nail olmaq mümkündür.**

Bəyannamənin birinci bəndinin ikinci tezisində, Azərbaycan şərqi və cənubi Zaqafqaziyanın tam hüquqlu müstəqil dövləti kimi təsbit olumuşdur. Bu müddəa

Böyük Rusiya imperiyasının çökməsi nəticəsində bir sıra yeni dövlətlərin elan edilməsi şəraitində, Azərbaycanın müstəqil dövlət kimi imperiyanın hansı ərazi hüdudları daxilində yaranması və yeni subyektin həmin sərhədlər çərçivəsində dünya birliyinə tanıdılması baxımindan əhəmiyyət kəsb edir. İki gün sonra, 1918-ci il mayın 30-da dünyanın bütün radio stansiyaları tərəfindən "İstiqlal Bəyannamə"sinin elan edilməsi, dünya ölkələrinə AXC-in hansı coğrafi-ərazi koordinatlarında yerləşməsini müəyyən etməyə istiqamət vermişdir. Azərbaycan müstəqil və ərazi quruluşuna görə unitar dövlət kimi dünya birliyinə elan edilməsi olduqca mühüm məsələ idi. Digər tərəfdən, bəyannamənin bu müddəası Milli Şuranın, müəyyən siyasi qüvvələrə, xüsusilə də Rusiya dövləti tərkibinə daxil olan xalqların milli-mədəni muxtariyyət statusunda imperiya tərkibində görmək istəyən kəsimlərinə aydın cavab idi.

"İstiqlal Bəyannamə"sinin ikinci bəndində müstəqil Azərbaycanın siyasi quruluş forması Xalq Cümhuriyyəti kimi təsbit edilirdi. Müstəqil Azərbaycanın dövlət quruluşu formasının unitar, dövlət idarəçilik formasının isə demokratik rejimli parlamentli respublika elan edilməsi, milli dövlətin demokratik, dünyəvi və hüquqi əsaslarla qurulmasına təminat verirdi. Dövlət hakimiyyətinin təşkilində iştirak edən institutların formalaşması milli hökumətin ən ümdə vəzifələrdən biri idi. Bunun üçün isə AXC hökuməti ali dövlət hakimiyyəti orqanları sistemində, mükəmməl qanunvericiliк bazası yarada biləcəк orqanın təşkil olunmasını tez bir vaxtda başa çatdırmağı nəzərdə tuturdu. İlk olaraq, nümayəndəli qanunverici orqana demokratik seçkilər keçirilməli, insan və vətəndaşların hüquq və azadlıqlarını təmin edəcək legitim hakimiyyət strukturlarını formalaşdırılmalı idi. Digər tərəfdən, legitim parlamentin fəaliyyəti, istənilən demoкratiк ölкədə, respubliкa quruluşunun elan olunduğu siyasi sistemdə, xalqla dövlət arasında birbaşa əlaqənin yaradılması baxımından, xalqın demoкratiк proseslərdə nümayəndələri vasitəsi ilə iştiraкını təmin edən mühüm dövlət mexanizmi kimi qəbul edilir. Azərbaycan dövlətinin 23 aylıq fəaliyyətini araşdırarkən məlum olur ki, Azərbaycan parlamenti, gənc respubliкanı dünyaya tanıtdırılmasında, onun legitimləşdirilməsində zəruri olan demokratik qanunlar bazasını çox sürətlə yaratmağa çalışmış və buna müvəffəqiyyətlə nail ola bilmişdir.

Bəyannamənin üçüncü bəndində göstərilir ki, Azərbaycan Xalq Cümhuriyyəti bütün millətlərlə, xüsusiilə qonşu xalqlar və dövlətlərlə mehriban qonşuluq münasibətləri yaratmağa çalışır. Məlumdur ki, Azərbaycan xalqı Rusiya imperiyasının tərkib hissəsi kimi, birinci dünya müharibəsi illərində Avropada baş verən fəlakətlərdən və daşnak-bolşevik birləşmələrinin Azərbaycanda törətdikləri qanlı qətl-qarətlərdən böyük əzablar çəkmişdir. Məhz, Milli Şura bu nöqteyi-

nəzərdən və beynəlxalq hüququn təbiətindən irəli gələn xalqların dinc yanaşı yaşaması, dövlətlərin ərazı bütövlüyü, dünya xalqları arasında, xüsusilə də qonşu xalqlarla mehriban münasıbətlər qurulmasını prioritet istiqamət kimi götürərək əməkdaşlıq, sülh, dostluq və xoş niyyət nümayiş etdirməyi, Cümhuriyyətin xarici siyasətinin əsası kimi təsbit etmişdir.

"İstiqlal Bəyannaməsi"nin dördüncü bəndində gösərilirdi ki, Azərbaycan Demokratik Respublikası öz sərhədləri daxilində millətindən, dinindən, sosial vəziyyətindən və cinsindən asılı olmayaraq bütün vətəndaşlara, vətəndaşlıq və siyasi hüquqlar təmin edir. Azərbaycan Demokratik Respublikası bütün vətəndaşları arasında heç bir fərq qoymadan onlara vətəndaşlıq və siyasi hüquqların verilməsini bəyan etməsi gənc dövlətin ən xoş məramlarından biri idi. Məhz bu bənddə müasir demokratik dövlətlərin konstitusiyalarında təsbit edilmiş normalarla müqayisə ediləcək siyasi və mülki azadlıqların əsasları müəyyən edilmişdir. Bəyannamədə təsbit edildiyi kimi, qanun cəmiyyətin üzvlərinin iradəsini ifadə edir və hər kəs qanunun yaradılmasında bilavasitə və ya öz seçdikləri deputatları vasitəsi ilə iştirak edə bilərdi. Milli Şuranın Bəyannaməsində elan edilirdi ki, qanun qarşısında hamı bərabərdir və hər kəs dövlət vəzifələrini tuta bilər. Hər hansı vəzifənin tutulması üçün yeganə kriteriya isə qabiliyyət və ləyaqətin olması vacib şərt idi.

Seçmək və seçilmək hüququnu siyasi hüquqların ən mühüm elementlərindən biri hesab edən Milli Şura cinsindən asılı olmayaraq bütün vətəndaşlara seçki hüququ verməklə, bu məsələdə hətta Avropanın demokratik dövlətlərini də qabaqlamişdir. Belə ki, yalnız 1920-ci ildə ABŞ konstitusiyasına edilən XIX dəyişiklikdə göstərilirdi ki, hər hansı ştat tərəfindən cinsi fərqinə görə vətandaşların səsvermə hüququ məhdudlaşdırıla bilməz. İngiltərədə isə 1918-ci ildə qadınlara senz əsasında qismən, yalnız 10 il sonra, yəni 1928-ci ildə tam seçki hüququ verilmişdir. Avropa demokratiyasının "mərkəzi" olan Fransada isə 1919-cu ildə parlamentin aşağı palatası olan Milli Məclis, qadınlara seşki hüququ verilməsi barədə qanun layihəsi qəbul etsə də, qanunverici orqanın yuxarı palatası-Senat düşünülmüş şəkildə qanunun müzakirəsini yubatmış, 1922-ci ildə isə, qanunun birinci və ikinci müzakirəsi arsında müəyyən edilmiş müddətin keçməsi bəhanəsi ilə, onun qəbulundan imtina etmişdir. Yalnız İkinci dünya müharıbəsindən sonra, Fransada IV Respublikanın 1946-cı il konstitusiyasında qadınların tam seçki hüququ tanınmışdır. Beləliklə, Azərbaycan Demokratik Respublikasının "İstiqlal Bəyannamə"si qadınların seçki hüququnu yuridik sənədlə rəsmiləşdirərək, bu sahə üzrə dünyada başlayan demokratik prosesləri önləmişdir.

Bəyannamənın beşinci bəndində göstərilirdi ki, Azərbaycan Demokratik Respublikası öz ərazısı daxilində yaşayan bütün millətlərə azad inkişafları üçün geniş imkanlar verir. Beşinci bənd bütövlükdə, Milli Şuranın hazırladığı bəyannamənin hüquq bərabərliyi, demokratik, hümanist, sivil, o cümlədən, tolerant mahiyyətini bir daha təsbit edirdi. Belə ki, dördüncü bənddə ümumi vətəndaşliq hüquqları çərçivəsində Azərbaycanda yaşayan bütün vətəndaşlara, mahiyyət etibarilə isə, bütün millətlərə siyasi və vətəndaşlıq hüquqlarının elan edilməsinə baxmayaraq, dövlət hüququna (konstitusiyaya) bərabər Bəyannamədə xüsusi olaraq "bütün millətlərin azad inkışafı üçün geniş imkanlar verilməsi" adlanan beşinci bəndin daxil edilməsi, Milli Şuranın Azərbaycan kimi çoxmillətli dövlətdə, milli mənsubiyyət hüququna necə həssaslıqla yanaşdığına sübutdur. Məhz, Bəyannamənin beşinci bəndinin müddəaları ümumilikdə, hətta müasir dövrün konstitusiyaları üçün də presedent ola biləcək demokratik qanun ruhunda hazırlanmışdır.

Dövlət hakimiyyət orqanları sisteminin təşkil olunması baxımından "İstiqlal Bəyannaməsi"nin altıncı bəndi böyük əhəmiyyət kəsb edir. Bəyannamənin sonuncu bəndində göstərilirdi ki, Müəssislər Məclisi çağrilana qədər bütün Azərbaycanın idarəsi başında xalq səsverməsi yolu ilə seçilmiş Milli Şura və onun qarşısında məsuliyyət daşıyan Müvəqqəti hökumət durur. Hakimiyyət bölgüsünə müvafiq olaraq ali hakimiyyət Azərbaycan Milli Şurasına, icraedici hakimiyyət isə Müvəqqəti hökumətə həvalə edilirdi. Azərbaycan Milli Şurası bütün Azərbaycan xalqının iradəsini ifadə edən ən ali hakimiyyət orqan kimi müəyyən edilmişdir.

Beləliklə, "İstiqlal Bəyannaməsi"nin müddəaları dövlət təsisatlarının və milli hüquq sisteminin qanunvericilik bazasının əsasını təşkil etmişdir. Bəyannamənin müddəaları deklarativ xarakter kəsb etməmiş, Azərbaycan Xalq Cümhuriyyətının parlamenti və hökuməti özünün praktiki fəaliyyətlərində onun bütün bəndlərini həyata keçirmiş, dövlətin beynəlxalq aləmdə tanınmasına nail olmuş və bununla da Azərbaycan dövlətinin tarix səhnəsindəki sonrakı varisliyini təmin etmişdir.

## 2.2. AXC-də milli hüquq mənbələrinin formalaşması və inkişafının spesifik xüsusiyyətləri

Azərbaycan Xalq Cümhuriyyətində milli hüququn araşdırılması və tarixi-hüquqi təhlil aparılması, onun əsas xarakterik cəhətlərini müəyyən etməklə yanaşı, hüquq sistemində uzun əsrlərboyu baş verən təkmilləşmə prosesini izləməyə və mühakimə yüyürütməyə imkan verir (32). Digər tərəfdən, hüquq sisteminin mahiyyətinin aşakarlanması, ümumilkdə dövlətin siyasətinin və hüquqi ideologiyasının müəyyən edilməsində çox əhəmiyyətli rola malikdir. Azərbaycanın dövlət müstəqillliyini ehtiva etmiş "İstiqlal Bəyannamə"sinin müddəaları, hüququn ümumi prinsipləri sistemindən çıxış edərək, ayrı-ayrı konkret normalar üçün əsas hüquqi baza funksiyasını yerinə yetirmişdir. Məhz, AXC-nin yaranması və müstəqil dövlət kimi fəaliyyəti, bütün ölkəni əhatə edəcək vahid hüquq sisteminin formalaşması üçün əlverişli qanunvericilik məkanı yaratmışdır. Hər bir dövlətin vahid hakimiyyəti və hüquq sistemi isə heç şübhəsiz ki, dövlət atributu kimi qəbul edilməlidir.

Ənənəvi hüquq mənbələrinin AXC-nin milli hüquq sistemi çərçivəsində araşdırılması, ilk növbədə hüquq münasibətlərinin inkişaf səviyyəsini, ayrı-ayrı hüquq mənbələrinin Azərbaycan hüququnun formalaşmasında rolunu və konkret tətbiqini, hüquqi varisliyin təmin edilməsində effektivliyi və məqsədə müvafiqliyini, həmçinin prioritet hüquq formalarını və nəticə ehtibarı ilə, milli hüququn spesifik inkişaf xüsusiyyətlərinin aşkar edilməsinin nəzəri əsaslarını müəyyən etməyə imkan verir.

Azərbaycan ərazsində əsrlərboyu, bütün ölkə əhalisinin istifadə edə biləcəyi və bir-biri ilə əlaqələndirilmiş ümumi hüquq sistemi yaradılmamış, partikulyar hüquq, o cümlədən yerli adət hüquqları, Avesta və Mani dini-hüquqi təlimləri, sasani qanunnamələri, alban kilsə qanunvericiliyi, müsəlman hüquq normaları, fiqhə dair təfsirlər və risalələr, şəriət məhkəmlərinin yuridik fətvaları, müxtəlif məzhəblərə aid edilən görkəmli mütəfəkkirlərin doktrinal hüquqi baxışları, şəritə əsaslanan ticarət adətləri, əsnaf qaydaları və əsnaf məhkəməsi, dövlətin müəyyən etdiyi vergi və mükəlləfiyyətləri tənzimləyən normativ-hüquqi aktlar, yerarxiya silki-nümayəndəli münasibətləri tənzimləyən normalar, kənd-icma münasibətlərini nizamlayan adətlər və hüquqi göstərişlər, Çar-tala qanunnaməsi, ayrı-ayrı xanlıqlara aid edilən hüquq normaları və nəhayət, Rusiya imperiya qanunları, ictimai və hüquq münasibətlərinin tənzimlənməsində iştirak etmişdilər. Hüquq sahələrinin təşəkkülü və inkişafı isə, ictimai-iqtisadi formasiyalara müvafiq olaraq, ümumilikdə mövcud quldarlıq, feodalizm və burjua quruluşunun xarakterik siyasi-

hüquqi xüsusiyyətləri ilə şərtləşmişdir. Məsələn, feodalizim quruluşunun əsas institutu olan torpaq mülkiyyəti və ona sahiblik bir çox cəhətlərinə görə dövlətin bütün hüquq sisteminin məzmununu müəyyən etmişdir. Belə ki, feodal hüququnun əsas nüvəsi olan topaq mülkiyyəti institutu, özünün hüquqi varisliyini sonrakı hüquqi quruluşlarda da, qoruyub saxlaya bilmişdir. Təbii ki, sonrakı mərhələlərdə yaranan kapitalist müasibətləri hüququn mahiyyətinə təsir etmiş və onun subsidar feodal mahiyyəti, burjuaziya mahiyyəti ilə əvəz edilmişdir. Zaman keçdkcə ənənəvi hüquq normaları ilə yanaşı, hüquq sahələrinin yeni sisteminə aid edilən müstəqil sahələrdə yaranmağa başladı. Belə ki, Bakıda neft sənayesinin sürətli inkişafı yeni hüquq sahələrinin, o cümlədən əmək, vergi, sosial təminat, maliyyə, ekologiya hüququna dair qanunvericilik aktlarının qəbulunu aktuallaşdırmışdır.

AXC-nin elan edilməsindən sonra hüquq sistemində islahatlar keçirilməsi və əsasən də, "İstiqlal Bəyannamə"sində elan edilmiş idarəşilik forması, dövlətin digər hüquq və vəzifələrinin yerinə yetirilməsi üçün yeni şəraitə və ictimai münasibətlərə uyğun hüquq normalarının, ilk növbədə cinayət qanunvericiliyinin təkmilləşdirilməsi və inkişaf etdirilməsi, prioritet məsələlərdən olmuşdur. Bu islahatlar siyasi, iqtisadi, hərbi, mədəni, sosial sahələrdə mövcud olan hüquqi problemləri müəyyən edərək həll edilməsini əhatə etmişdir.

Mövcud qanunvericiliyin təkmilləşdirilməsi və yeni normaların hazırlanması, hüququn aliliyinin təsbit edilməsi, qanunvericiliyin sistemləşdirilməsi, çevik hüquqi mexanizmin qurulması, vətəndaşların mülkiyyət, əmlak, sosial təminatının qorunması, milli qüvvələrin daxil olduğu hüquq-mühafizə orqanlarının yaradılması, məhkəmə hakimiyyətinin yenidən təşkil edilməsi və möhkəmləndirilməsi, onların peşəkarlığının artırılması, nəticə etibarı ilə respublikada yeni milli hüququn sisteminin formalaşması və inkişafını təmin etməli idi. AXC burjuaziya respublikası idi və təbii ki, öz qanunvericiliyini kapitalist münasibətləri əsasında qururdu.

AXC-nin hüquq sisteminin hüquqi təbiətini müəyyən etmək üçün, onun yaranması mexanizmlərini nəzərdən keçirmək lazımdır. Azərbaycan hüquq sisteminin müxtəlif prinsipləri və ayrı-ayrı institutlarının yaradılmasında roman-german hüquq sisteminə əsaslanan burjuaziya hüququ, müsəlman hüququ və yerli adətlər öz təsirini göstərmişdir. Hüquq sistemi, ictimai münasibətlərin tənzimlənməsi üçün razılaşdırılmış və qəbul edilmiş qarşılıqlı əlaqəli hüquqi vasitələr kompleksində formalaşır. Hüquq sistemləri dövlətdə və cəmiyyətdə formalaşan və müəyyən vəzifələrə malik olan həm obyektiv və həm də subyektiv şərtlər daxilində müxtəlif ziddiyətləri aşkar edir. Nəticədə, bu ziddiyətlərin aradan qaldırılması yalnız hüquq qaydaların harmoniyalaşdırılması və kolliziyaların

lakollaşdırılması ilə mümkündir. Hüquq sistemləri üçün hüquqi texnologiyanın tələblərinə əməl etmək əhəmiyyət kəsb edir. Çünki hüquqi texnika dinamizm və sabitliyin, hüquqi standartların və prosedurların həddlərini müəyyən edir. Məhz, hüququn cəmiyyətdə xarakteri və rolu, hüquq sisteminin mahiyyətini müəyyən etməyə imkan verir.

Ümumazərbaycan hüququnun XX əsrin əvvəllərinə qədər konqlamerat (nizamsız) mahiyyəti və məzmunu tarixin obyektiv diqtəsi ilə şərtləşmişdir. AXC-nin elan edilməsi ilə artıq, milli hüququn konturlarının əsas prioritetlərinin müəyyən edilməsi üçün əlverişli şərait yaranmış və onun prinsiplərinn inkişafı üçün geniş imkanlar yaranmışdır. Bu başlanğıclar isə, öz növbəsində, Azərbaycan milli hüquq sisteminin formalaşmasının spesifik xüsusiyyətlərinin və onun nəzəri-metodoloji əsaslarının öyrənilməsinə təminat verir.

**Məlumdur ki, hüquq qanundan daha geniş, dərin məzmunlu və çevikdir. Milli hüququn formalaşmasında iştirak edən hüquq mənbələrinin metodoloji cəhətdən müfəssəl tədqiq edilməsi, nəzərdə tutulan əsas nəticənin əldə edilməsi üçün əsasdır. Bu mənbələr adətlər də daxil olmaqla ən müxtəlif hüquq formalarını əhatə edir. Məhz, qanunvericilik mənbələrini sistemləşdirərək öyrənilməsi, milli hüququn xarakterini müəyyən etməyə kömək edir. AXC hökumətində Rusiya və Zaqafqaziya hüququnun resepsiyası və tətbiqi rəsmi olaraq hüquq mənbəyi kimi qəbul edilmişdir.** Mövcud qanunvericiliyin (Rusiya imperiya və Zaqafqaziya Seyminin) konsolidasiyası, qüvvədə olan qanunlarda "dəyişiklik və təkmilləşdirmə" aparmağı zəruri edirdi.

Azərbaycan hüquq sistemi oxşar (anoloji) hüquqi əlamətlərinə görə roman-german hüququna aid edilir. Bu qaydalar öz təsbitini hüququn strukturunda, aparıcı hüquq institutlarında, hüquq mənbələrində, hüququn sahələrə bölünməsində, hüquqi mədəniyyət və mentalitetə münasibətdə aşkar müəyyən edir. Məlumdur ki, formalaşmağa başladığı dövrlərdən Avropa kontinent hüquq konsepsiyasının əsaslarında, daimi və əbədi olaraq ağılın və ədalətin üstünlüyü prinsipi dayanırdı. Bu prinsiplər sonralar praktiki olaraq, hər bir milli hüquq sistemində də təsbit edilmişdir. Kontinent hüquq sistemində qanunverici orqanın hazırladığı hüquq normalarında nəzəri cəhətdən boşluqların olması etiraf edilir, lakin praktiki cəhətdən bu bosluqlar əhəmiyyətsiz hesab edilirdi. Qanunun hüquq mənbəyi kimi üstün cəhəti ondan ibarətdir ki, onun əsasında əsrlərboyu formalaşmış ümumi hüquq mədəniyyəti çərçivəsində tarixi, sosial, hüquqi, milli adətlərin fundamental dəyərləri dayanır. Qanunun hazırlanmasında yeganə dəyişməz tələb, onun

konstitusiyada və müvafiq anoloji aktlarda nəzərdə tutulmuş formada tərtib edilməsidir.

AXC dövründə peşəkar nəzəriyyəçilərin olmaması, heç də həmin dövrdə parlamentdə və hökumətin tərkibində fəaliyyət göstərən və ixtisasca hüquqşünas (hakimiyyətdə ən müxtəlif vəzifələrdə 16 nəfər hüquqşünas məmur fəaliyyət göstərmişdir) olanların hüquqi düşüncəsində mövcud qanunvericiliyin, Avropa kontinent hüquq sistemi əsasında hazırlanmasını və təkmilləşdirilməsini mümükünsüz etmişdir. Əksinə, Rusiya Dövlət Dumasında təmsil olunan deputatlar, həmçinin hüquqşünas təhsili dövlət qulluqçuları və ümumilikdə görkəmli maarifçi ziyalılar bütün səylərini, bilik və bacarıqlarını bu sahənin inkişafına sərf etmişdilər. Bu proses eyni zamanda AXC-nin hüquqi dövlət təbiətindən irəli gələn "sifariş" kimi də qəbul edilməli idi. Məhz, Cümhuriyyətin qurulmasında yaxından fəaliyyət göstərmiş hüquqşünaslar və ziyalılar ABŞ-ın mükəmməl siyasi-hüquqi sənədi olan "İstiqlal Bəyannamə"sində və Fransanın "İnsan və vətəndaş hüquq və azadlıqları Bəyannamə"sində irəli sürülən müddəalarla tanış idilər. Yeni dünyəvi, demokratik, qanunun aliliyinə əsaslanan dövlət quruculuğunun qanuvericilik normalarının hazırlanması və qəbulunda bu cəhətlər önəm kəsb etmişdir.

**AXC-nin "İstiqlala Bəyannaməsi" siyasi xartiya olaraq, eyni zamanda ölkənin dövlət hüququnun əsaslarını müəyyən edirdi. Bəyannamə konstitusiya statuslu hüquqi sənəd idi. Təbii hüquq və ictimai müqavilə ideyasından bəhrələnən Bəyannamə, dövlətin hüquqi əsaslarını, hakimiyyət orqanlarının səlahiyyətlərini, vətəndaşların hüquq və vəzifələrini müəyyən etmiş rəsmi dövlət aktı statusuna malik idi. Anoloji Bəyannamələrdən fərqli olaraq, milli hüquqi sənədin müddəalarında dünyada ilk dəfə, o dövrə qədər bütün hüquq sistemləri üçün xarakterik olan və səsvermə prosesinə tətbiq edilən təkcə qadınlara tətbiq edilən seçki senzi deyil, əhalini digər sosial qruplarının seçkilərə iştirakını məhdudlaşdıran seçki (əmlak, girov, yaş, sosial status və s.) senzləri də, demək olar ki, aradan qaldırılmışdır.**

Milli hüququn rasional mənbələr hesabına inkişaf etdirilməsi, hüquqi varisliyi təmin etməklə aparılırdı. Hüquq varislikdə pozitiv mənada "təmizləmə" aparılması, yəni "eyni qanun, eyni hüquq sahəsini" tənzimləyir prinsipi, təbii ki, hüquqi kazuallığı aradan qaldmaqla yanaşı, hüquq sahələrinin "bir-birinə qarışması" (məs: mülki və cinayət və yaxud cinayət və inzibati və s.) prosesini də aradan qaldırırdı. Əvvəlki pozitiv hüquqi qaydalar, parlament tərəfindən hüquqi qüvvə ilə təmin edilmişdir. Öz növbəsində kontinent hüquq modelinin təkmilləşdirilməsi, çevikliyin təmin edilməsi, hüquqda struktur islahatlarını zəruri etmişdir. Adətlərdən fərqli olaraq, hüquq

normaları dövlət tərəfindən müəyyən edilən səlahiyyətlər həddində tətbiq edilir. Məhz, hüquq sistemlərinin müəyyən etdiyi hədlər çərçivəsində, hüquqi aktların əsas növləri, daxil olduqları qrupları, hüquqi tənzimləmənin prinsipləri, məqsədləri və sistem bazası yaratmaq xüsusiyyətləri önə çəkilir.

Hüququn imperativ və şəriksiz ilk mənbəyi olan adət (məişət və hüquqi adətlər) hər bir milli hüquq sistemi üçün əhəmiyyətə malikdir. Bu cəhəti nəzərə alaraq, Azərbaycan hüququnun məzmun müəyyənliyinin öyrənilməsinə adət hüququndan başlanılmalıdır. Adətlər “xalq ruhunun” bəsit hüquqi ifadə formasıdır. Çünki, tarixən adətlərin praktiki əhəmiyyəti, statusu, cəlb olunduqları siyasət, iqtisadiyyat, ticarət, mədəniyyət və məişət sahələrinin qarşılıqlı xarkaterindən asılı olmuşdur. Məhz, adətlər “mənəvi başlanğıca”, yəni bilavasitə insan emosiyası nəticəsində formalaşma xarakterinə malikdir. Cəmiyyətin erkən mərhələsində adət hüquqları dominatlıq etmişdir. Hər bir hüquq sistemində olduğu kimi, adətlər barədə müfəssəl məlumatların qıtlığı, adətlərin xarakterik xüsusiyyətləri barədə geniş məlumat verməyə imkan vermir. Məlum olan adətlər nizamsız və sistemsiz xarakter daşıyır. Lakin, zaman keçdikçə adətlər öz təsbitini və inkişafını tapmış, rasional gücünü artıraraq ictimai münasibətlərin tənzimlənməsinin aktiv nizamlayıcısına çevrilmişdir.

Adətlərin hər bir milli hüququn təşəkkülü və inkişafınada rolu danılmazdır. Adətlərin “gözə görünməməzliyi”, onların tarixi rolunun inkar edilməsi ilə nəticələnə bilməz. Onların kompilyasiya edilməsi obyektiv zərurət olmaqla, məcəlləşdirməni asanlaşdırır. Adətlər kolliziyaları aradan qaldırmaqla yanaşı, yeni ictimai münasibətlərə uyğunlaşaraq adaptasiya olunur, hüquqa dəqiqlik, stabillik və çeviklik gətirir. Əslində adət hüquqlarına münasibətin bu qaydada formalaşması, hüququn yalnız dövlət hakimiyyətinin qanunverici orqan tərəfindən deyil, cəmiyyət tərəfindən də yaradılamasının münkünlüyünü müəyyən edir. Bununla yanaşı, müasir hüquqda adətlər ilkin təbiətini və əhəmiyyətini itirmiş, yeni şəraitə uyğunlaşdırılan adətlər, təbii moderinləşməyə məruz qalmışdır.

Nəzərə alınmalıdır ki, hər bir hüquq sistemlərinin xarakterinin müəyyən edilməsi, hüquq tətbiqetmənin hansı üstün cəhətlərinin aşkar edilməsi konteksində əhəmiyyətlidir. AXC-nin milli hüququ, hüquq sistemlərinə münasibətdə kontinent hüququna (qanun hüququna) əsaslanması, əsrlərboyu formalaşan tarixi ənənənin davamı idi. Hüququn ifadə formalarından olan qanun, hüquq münasibətlərinin tənzimlənməsində mühüm yer tutur. Məhz, qanun, hüququn dərk edilməsinin əsas elementi kimi çıxış edir. Yeni dövrdə baş vermiş proseslər, hüquq sistemlərinin yeni keyfiyyət mərhələsinə daxil olmasına təkan vermiş, yeni təkmilləşmiş qanunvericilik sistemi və hüquq sistemini təsbit etmişdir. Hüquqi varislik,

yenilənmiş formada milli hüquq sisteminə daxil olmuşdur. Məlumdur ki, hüququn presedentlərdən ibarət olması, qanun tətbiqedicini çətin vəziyyətə salır. Çünki, qanunları rahat şəkildə dəyişə bilən hakimiyyət presedentləri dəyişə bilmir. Məcəlləşdirmə isə, hüquqi nəzəriyyə və praktika arasındakı uyğunsuzluğu aradan qaldırır. Məzmun və hüquqi təbiətinə görə presedent hüququnda fərqli olan kontinent hüququ, "hüququ" (məcəlləşmiş hüquq), prosesdən (prossesual hüquqdan) üstün tuturdu.

Hüququn mühüm mənbələrindən olan doktrinalar, ali məhkəmə instansiyaların müraciət (mübahisələrin həllində) etdiyi, köməyə gələn subsidar mənbələrdəndir. Doktrinalar hüquqi aktların mahiyyəti və məzmununa dair görkəmli hüquqşünasların rəyi kimi qəbul edilir. Doktrinaların hüquqyaratma və hüquqtətbiqetmə prosesində birbaşa və əhəmiyyətli təsiri, hakimlərin rastlaşdıqları qanun boşluqları zamanı daha da aktuallaşır. Adətən doktrinalar, ümumnəzəri və ya xüsusi sahələr üzrə tətbiq edilir. Ümumilikdə doktrinalar fəlsəfi-hüquqi və nəzəri mahiyyəti daşıyırlar.

Müsəlman hüququ, bilavasitə Azərbaycan hüququnun inkişaf tarixinə daxildir. Milli hüquq üçün ciddi əngələrdən ən mühümü, müsəlman doktrinasının göstərişlərinə əsaslanan fiqh normalarının sekulyar hüquqda tənzimlənməsi idi. Dövlətin hüquqyaratma "səlahiyyətləri", sankı müsəlman hüququ tərəfindən məhdudlaşdırılmışdır. Çünki, müsəlman hüququ dini və hüquqi öhdəlikləri nəyinki ayırmır, əksinə onları bir-birini tamamalayan normalar kimi müəyyən edir. Digər tərəfdən müsəlman hüququ subyektiv hüquqlara müasibətdə fərqli mövqeydən çıxış edir (tanımır) və hər kəsin əməl etməsi vacib olan öhdəlikləri təsbit edir. Dini və hüquqi normaların bir-birinə qarışması, Azərbaycan milli hüquq sistemi üçün potensial kolliziyalara zəmin yaradır. Bir məsələni də qeyd etmək lazımdır ki, hüquqi doktrinalar müsəlman hüququnda həmişə əhəmiyyətli rola malik olmuşdur. **Müasir hüquq öz tarixi-mədəni köklərinin varisliyinin təmin etmək üçün, heç şübhəsiz ki, aşarı olaraq yeni ictimai müasibətlər zəminində təkmilləşmiş, yenilənmiş və mükəmməlşmişdir. Müsəlman hüququ VIII əsrdən XIX əsrin ortalarına qədər Azərbaycanda aparıcı mövqeydə olması səbəbindən, azərbaycanlıların əsrlərboyu formalaşan hüquqi düşüncə ənənəsinə çevrilmişdir.**

Beləliklə, müsəlman hüququ Azərbaycanda mövcud olduğu bütün dövrlərdə, dövlətin hüquqyaratma və hüquqtənzimləmə səlahiyyətlərini "özününküləşdirmiş" və dövləti bu proseslərdən "kənarlaşdırmışdır". Məsələn, müsəlman hüququnda, ailə hüququ daha çox inkişaf etmiş və dominat rola malik olması barədə hüquqi düşüncə formalaşmışdır. **Eyni zamanda, AXC hüququnda sələmçiliklə məşğul**

**olanlara qarşı cinayət normalarının saxlanılması, sırf müsəlman hüququnun təsirinin bariz nümunəsi idi. Ümumilikdə, Şərq patriarxal ailə münasibətlərində ailə-nikah və vərəsəlik hüququ, üstün hüquq normaları xarakterinə malik olmuşdur.** Uzun müddət müsəlman hüququnun təsiri altında olan Azərbaycan hüququ üçün, kontinent hüququnun anlayışlarının dərk edilməsinin asanlaşdıran amillərdən biri, Rusiya imperiyası tərkibinə daxil edilməsi olmuşdur. Məhz, Azərbaycanın Rusiya hüquq məkanına daxil olması, AXC dövründə dünyəvi dövlət üçün yarana biləcək boşluqların aradan qaldırması prosesini asanlaşdırmışdır.

Hər bir dövlətin hüquq sistemi, hüquqi mədəniyyətin ayrılmaz elementi olmaqla, tarixi və coğrafi faktorlarla birlikdə, dövlətin sosial sisteminin mühüm hissəsi kimi çıxış edir. AXC-nin milli hüquq sisteminin spesifik xüsusiyyətlərində biri, onun unitar xarakterli olması idi. Çünki, milli hüquqda dualist hüququn tətbiqini şərtləndirən siyasi-hüquqi amillər mövcud olmamışdır. Həm dövlət mexanizminin, həm də hüquq sisteminin transformasiyası milli hökumətin qarşısında duran mühüm vəzifə olmuşdur. Siyasi-hüquqi və məhkəmə islahatlarının keçrilməsi isə, hüququn məzmununa yeni elementlərin daxil olmasını şərtləndirirdi.

**AXC-nin qəbul etdiyi hüquq aktlar, milli hüququn formalaşması, hüquqi başlanğıcları möhkəmləndirmiş və özündən əvvəlki "hüquqi binanı" əsaslarını bərkitmişdir. Bununla belə, yeni təkmilləşmə və inkişaf mərhələsinə daxil olan milli hüquq, özündən əvvəlki siyasi quruluşdan və hüquqdan ayrılaraq, Bəyannamədə təsbit edilmiş yeni siyasi və hüquq sistemi yaratmışdır. AXC-də formalaşmış hüquq münasibətləri və dövlət orqanları sisteminin məcmusu, real proseslər konteksində mövcud hüquq mənbələrindən, hüquq düşüncəsindən, hüquqi bilikdən, hüquqi mədəniyyətdən, hüquqi praktikadan ibarət olmuşdur.**

Dövlətin hüquqyaratma imkanları və bunun üçün zəruri olan hakimiyyət mexanizminin formalaşdırılması, hakimiyyətin mühüm vəzifəsi olaraq müəyyən edilmişdir. Məhz Bəyannamə, dövlət və ictimai-siyasi quruluşu möhkəmləndirmiş və onun (dövlətin) inkişafı üçün əlverişli hüquqi əsaslar müəyyən etmişdir. Müstəqillik milli hüquq sisteminin inkişafı üçün də yeni imkanlar açmışdır. Respublikaçılıq idealları və milli hüquq ideyası, hüquq sistemini şərtləndirərək, onun mahiyyətini təşkil etmişdir. Qərb burjua-demokratik mənşəli hüquq, Azərbaycan üçün ümumi hüquqi mədəniyyətin formalaşmasının postulatı olmşdur. AXC-nin milli hüquq sisteminin təşəkkülü və inkişafı orqanik olaraq kontinent hüququ ilə bağlıdır. Mahiyyət etibarı ilə, Azərbaycan hüququ üçün kontinent

hüququ, milli hüququn metodoloji və hüquqi əsası kimi qəbul edilmədir. Qeyd etmək lazımdır ki, Rusiya imperiya qanunlarının ressepsiyası (mənimsənilməsi) müvəqqəti olsada, hüquq münasibətlərinin təmin edilməsində əhəmiyyətli rola malik olmuşdur.

**Dövlətin əsas hüquq-siyasi sənədi olan Bəyannamə, dövlət-hüquqi prinsiplər, dövlət hakimiyyət orqanları sistemi, siyasi institutlar, hakimiyyət qolları, hüquq və azadlıqlar, ümumilikdə milli hüquq sisteminin əsas cəhətlərini müəyyən etmişdir. Başqa sözlə "İstiqlal Bəyannamə"si, demokratik fikirlərin konkret hüquqi dillə ifadəsini təsbit etmişdir.** İstiqlal Bəyannaməsi milli dövlət hakimiyyəti sisteminin və hüquq sisteminin əsas hüquqi bazasını şərtləndirmişdi. Azərbaycan hüququnun məntiqi quruluşu, onun ümumi və xüsusi hissələrə bölgüsü, əsas anlayışları və hüquqi konstruksiyalar kontinent hüququnun unifikasiyasını təkrarlayır. Hakimiyyət qolları arasında səlahiyyətlərin hüquqi həddlərinin qəti müəyyən edilərək dəqiqləşdirilməsi, çox mühüm əhəmiyyət kəsb etsədə, mövcud ictimai-siyasi çətinliklər səbəbindən mümkünsüz idi. Sistemləşdirilmiş məcəlləşdirmə aparmaq təbii ki, AXC dövlətinin əsas vəzifələrindən biri kimi nəzərdə tutulurdu. Legitim ali hakimiyyət orqanı olan Milli Şuradan səlahiyyətlər alan Nazirlər Şurası, eyni zamanda qanunverici hakimiyyət orqanın səlahiyyətlərinə daxil olan məsələlərə dair aktlar (delegiya aktları) vermək hüququna malik olmuşdur. Cümhuriyyətdə hüquqi həyatın inkişafı, qanunvericilik sahəsindəki dinamizm, öz növbəsində normativ aktların moderinləşməsi ilə nəticələnmişdir. AXC-də hərbi qanunvericilik sahəsində xüsusilə intensiv hüquqi tənzimləmə proseduru müəyyən edilərək, təkmilləşdirmə işləri aparılmışdır. Lakin, hökumət siyasi çətinliklər səbəbindən ciddi əhatəli hüquqi islahatlar apara bilməmişdir.

**Məlumdur ki, dövlət hüququ, ayrı-ayrı hüquq sahələri üzrə hüququn ümumi prinsiplərini müəyyən edilməsində baza hüququ xüsusiyyətlərinə malikdir. AXC-nin ilk hüquqi sənədi olan Bəyannamədə milli hüququn məzmunu, xarakteri və təcrübi əhəmiyyətinin konturları müəyyən edilmiş, onun demokratik və humanist istiqaməti təsbit edilmişdir. Milli hüquq sistemi, ümumi dövlət maraqlarını təmin etməyi, prioritet olaraq müəyyən etmişdir. Milli hüquq sisteminin texniki inkişafının təmin edilməsində isə, delegiya hüququ əvəzsiz xidmət etmişdir.** Qanunvericilik (parlament) orqanının fəaliyyəti və hüququn ümumi prinsipləri əsasında təşəkkül tapan milli hüquq sistemi, kapitalist münasibətlərinin inkişafı zəminində yeni siyasi və sosial-iqtisadi münasibətlərin hüquqi təkmilləşməsində mühüm və dinamik əlaqəni təmin etmişdir. **Parlament köhnə, arxaik (adət hüququ, müsəlman hüquq normaları)**

**hüququn yeni münasibətlərə zidd normalarında imtina edərək, moderinləşmiş hüquq aktları (seçki hüququ, vətəndaşlıq qanunu, mətbuat qanunu və s.) yaratmaq fəaliyyətini həyata keçirmişdir.**

Beləliklə nəticə etibarı ilə, AXC-nin əsas dövlət aktının müddəaları ilə müəyyən edilən milli hüquq sistemi, hüquqi təbiətinə görə milli xüsusiyyətləri nəzərə almaqla, özünəməxsus spesifik hüquqyaratma və hüquq tətbiqetmə formaları, metodları və mexanizmlərini formalşdıraraq, müstəqil hüquq sisteminə çevrilmişdir. Eyni zamanda, milli hüququn əsaslarını müəyyən edilməsində, hüquq nəzəriyyəsində ali pinsiplər adlanan, dövlət hakimiyyəti orqanlarının və məhkəmə hakmiyyətinin fəaliyyətlərinin əsas istiqamətlərini müəyyən edən hüququn ümumi prinsipləri də, mühüm rola malik olmuşdur. Məhz, delegiya və parlament hüququnda maddiləşən AXC-nin milli hüquq sistemi hüququn ümumi prinsipləri, doktrinaları və institutlarının köməyi ilə möhkəmlənərək hüququn özünün sistemi və onun sonrakı hüquqi varisliyini təmin etmişdir.

## 2.3. Mülkiyyət, sosial, vətəndaş və seçki hüququ sahələrində qanunvericiliyin inkişafı

Azərbaycan Xalq Cümhuriyyətində mülki hüquq və ona yaxın sahələr üzrə hüquq münasibətlərin nizamlanması prosesində çar Rusiyası dövründə mövcud olmuş normativ aktlardan istifadə etməkdə davam etsə də, yeni mülki hüquq institutlarının qanunvericilik bazasını möhkəmləndirməkdən ötrü bir sıra yeni qanunlar hazırlanmışdır (26). Parlament komissiyalarında əmək, sosial təminat, vətəndaşlıq statusu, seçki hüququ və s. bu kimi mülki və sosial-ictimai məzmunlu qanun layihələri tərtib edilmiş, ən müxtəlif rəy və təkliflər irəli sürülmüşdür. Qanunverici orqanın işində məcəllə xarakterli böyük qanunların hazırlanması və qəbulu xeyli vaxt apardığından və həmçinin, ictimai münasibətlərin (torpaq qanunu və s.) inkişafına əhəmiyyətli təsir göstərməsi baxımından onların qəbulu obyektiv olaraq yubanmışdır. Parlament dövlətin və təsərrüfatın bütün sahələrində icrası məcburi olan ən vacib qanun və qərarların qəbul edilməsinə üstünlük vermişdir. Qanunverici orqanın fəaliyyəti üçün bu xüsusiyyət səciyyəvi olmuşdur.

Parlament mülki hüquq sisteminə daxil olan institutların qanunvericilik bazasını möhkəmləndirmək məqsəd ilə hüquq komissiyasında "Neft sənayesinin milliləşdirilməsinin ləğv edilməsi" haqqında və həmçinin, torpaq islahatlarının keçirilməsi ilə əlaqədar olaraq "Aqrar qanun" layihəsini müzakirə etmişdir. Bu qanunlar ölkənin inkişafı və tərəqqisi üçün həyatı vacib zərurət idi. Belə ki, Azərbaycan Xalq Cumhuriyyəti mülkiyyət münasibətlərinin tənzimlənməsi sahəsində həyata keçirdiyi tədbirlər bir sıra amillərlə şərtləşmiş, ilk növbədə hökumət fəaliyyətə başladığı gündən iqtisadiyatın iki mühüm strateji sahəsi olan neft sənayesinin və aqrar münasibətlərin tənzimlənməsi sahəsində ciddi tədbirlər görməyi nəzərdə tutmuşdur. Məhz, AXC hakimiyyəti dövründə neft və torpaq mülkiyyət münasibətlərinin tənzimlənməsi xüsusi diqqət mərkəzində olmuşdur.

Dövlətin iqtisadi gücünun, onun hərbi qüdrətinin möhkəmləndirilməsində mühüm iqtisadi münasibətlər sisteminə daxil olan hər iki dövlət əhəmiyyətli strateji mülkiyyət forması əhəmiyyətli rol malik olmuşdur. AXC hökumətin mülkiyyət münasibətlərinin tənzimlənməsi sahəsində qəbul etdiyi mühüm qərarlardan biri, neft sənayesi və ona aid əmlakların idarə edilməsi ilə bağlı idi. Digər mühüm sahələrdən olan torpaq mülkiyyəti formaları və onun tənzimlənməsi, ümumilikdə aqrar münasibətlər sahəsində islahatlar, Müəssislər Məclisinin çağırılmasından sonra, AXC hökumətinin həyata keçirməyi nəzərdə tutan əsas vəzifələrinə daxil idi. Gələcək prespektivdə torpaq mülkiyyəti münasibətlərini

tənzimləyəcək məsələlərinin qanunvericilik bazası, Müəssislər Məclisinin qəbul edəcəyi qərarlar əsasında müəyyən etmək nəzərdə tutulurdu. Eyni zamanda digər normativ-hüquqi baza olan Zaqafqaziya Seyminin torpaq islahatları haqqında qəbul etdiyi qanunun icra olunması Azərbaycan hökuməti tərəfindən 1918-ci il 22 iyun tarixindən dayandırılmışdır. Qərara müvafiq olaraq, Müəssislər Məclisi çağırılana qədər torpaq islahatlarının keçirilməsi müvəqqəti təxirə salınırdı. Qərar verilənə qədər tutulmuş torpaqlarin müvafiq strukturlara qaytarılması tələb edilirdi. Əkinçilik naziri X.Sultanova, Müəssislər Məclisinin müzakirəsinə çıxarılacaq aqrar məsələlərlə bağlı materialları toplamaq, o cümlədən torpaq komitələrinin yenidən qurulması və ya ləğv edilməsi təkliflərini hazırlamaq tapşırılmışdır.

1918-ci il oktyabr ayının 1-də "Neft sənayesinin milliləşdirilməsinin ləğv edilməsi" barədə AXC hökumətinin qərarı elan edildi. Hökumətin 5 bənddən ibarət qəbul etdiyi qərarda, sənayenin bu növü üzrə hüquq münasibətləri tənzimlənirdi. Qərara əsasən Bakı Xalq Komissarları Sovetinin ümumxalq mülkiyyəti elan etdiyi neft müəssisələri həqiqi mülkiyyətçilərin sahibliyinə qaytarılır və ilk növbədə neft sənayesi və onun təsərrüfat subyektlərinin, o cümlədən Bakı quberniyasının ticarət gəmiçiliyi və onun idarəçiliyinə aid edilən bütün müəssisələrinin milliləşdirilməsinə dair Bakı Xalq Komissarlar Sovetinin verdiyi bütün dekret və sərəncamlar ləğv edilirdi. Neft mədənləri, zavodlar, gəmilər və istisinasız olaraq bu müəssisələrin bütün əmlakları, həmçinin müəssisələr və onların idarə olunması, müəssisələrdə emal olunan neft və neft məhsullarının ehtiyatlarının həcmi təyin edildikdən sonra, onlar sahiblərinə və ya sahib olmaq səlahiyyəti olan nümayəndələrinə verilirdi. Ləğvetmə qərarı hər bir müəssisənin sahibkarının və ya idarə müdirinin məsuliyyətini müəyyən edərək, Ticarət və sənaye nazirliyinə, onlarda olan neft və neft məhsulları ehtiyatlarının yerləşdiyi ərazi və neft həcmi barədə məlumat vermələrini tələb edirdi. Neft və neft məhsullarının həcmi barədə səhih məlumat təqdim etməkdən yayınanların hərəkətləri, dövlətin sərancamlarına tabe olmamaq kimi hüquqi təfsir edilərək, hərbi dövrün sərt qanunları əsasında cəza verilməsini nəzərdə tuturdu. Məhz, 1918-ci iyun ayının 23-də AXC-nin müvəqqəti hökuməti, ölkə ərazisində hərbi vəziyyətin tətbiq ilə əlaqədar olaraq, ümumi məhkəmələrin icraatında olan bəzi cinayət əməllərinin istintaqını, onlardan alaraq təqsirkarları müharibə dövrün qanunları ilə mühakimə etmək barədə qərar qəbul etmişdi.

"Neft sənayesinin milliləşdirilməsinin ləğv edilməsi" barədə AXC hökuməti qərarında bütün neft və neft məhsulları ehtiyatlarının, Ticarət və sənaye nazirliyinin müvafiq icazəsi olmadan çəkilməsini və ya nəqliyyat vasitələri ilə daşınmasını qadağan edirdi. Hökumətin xüsusi qərarı verilənə qədər, bütün neft və

neft məhsulları sahibkar mülkiyyətçi və ya onun səlahiyyətli nümayəndəsi tərəfindən bu məhsulların saxlanıldığı müvafiq müəssisələrə təhvil vermək nəzərdə tutulurdu. Ticarət və sənaye nazirliyinə, bu qərarın faktiki həyata keçirilməsi üçün dərhal tədbirlər görülməsi tapşırılırdı.

Cümhuriyyətin siyasi-iqtisadi və ərzaq təhlükəsizliyinin təmin edilməsində mühüm rola malik olan torpaq münasibətləri, hökumətin xüsusi diqqətində idi. Azərbaycan Xalq Cumhuriyyəti torpaq mülkiyyət münasibətlərinin tənzimlənməsini, bilavasitə aqrar islahatların keçirilməsi ilə yekunlaşdırmağı nəzərdə tuturdu. 1919-cu il fevralın 24-də hökumət, Əkinçilik nazirliyinin tərkibində, aqrar islahatlar və su təsərrüfatı üzrə şöbələrin yaradılması barədə qərar qəbul etmişdir. Eyni zamanda aqrar islahat şöbəsi müdiri və su təsərrüfatı müfəttişi müavini vəzifələri də təsis edilmişdi.

1919-cu il iyunun 6-da hökumət aqrar islahatları sürətləndirmək məqsədilə Əkinçilik Nazirliyinə hərtərəfli yardım göstərilməsi barədə qərar qəbul edir və Əkinçilik Nazirliyinə iyunun sonlarına qədər aqrar islahatlar layihəsini Nazirlər Kabinetinin müzakirəsinə çıxarmaq tapşırır. Torpaq mülkiyyəti münasibətləri, dövlət həyatında mühüm əhəmiyyət kəsb etdiyindən, bu islahatlara xüsusi əhəmiyyət verilirdi. Məlum səbəblərdən bu proses eyni zamanda kənd əhalisinin milli hökumətə inamını şərtləndirən amillər sırasında idi. Sosialist yönümlü siyasi partiyalar, bu məsələlədə həmişə milli hökumətə qarşı əks təbliğatlarını qurmağa çalışmışdılar. Azərbaycan Xalq Cümhuriyyəti parlamentin ən böyük fraksiyaların-dan olan "Müsavat" partiyası aqrar islahatlar "Əsasnaməsi"nin işləyib hazırlamış və 29 maddədən ibarət qanun layihəsini, qanunverici orqanın müvafiq komissyasına təqdim etmişdi. İslahat proqramı parlamentin digər komissiyalarında da müzakirə edilmişdir.

Topaq islahatı layihəsinə görə, hüquqi və fiziki şəxslər üçün müəyyən edilmiş normadan artıq olan torpaq sahələri onlardan alınaraq dövlət xəzinə fonduna daxil edilirdi. Torpaqsız və aztorpaqlı oturaq əhaliyə, həmçinin onlara bərabər fərdi və hüquqi şəxslərə, dövlət xəzinə fondu hesabından müəyyən edilmiş normaya uyğun torpaq ayrılırdı. "Əsasnamə"nin layihəsində respublikanın köçəri maldar əhalisinə veriləcək torpaq paylarının tənzimlənməsi qaydalarıda müəyyən edilirdi.

Azərbaycan Xalq Cümhuriyyəti ərazisində su ehtiyatlarından istifadə, suvarma sistemləri, suvarma qurğuları və s. sahələr yeni qanunvericilik qəbul edilənə qədər əvvəlki mövcud qaydada saxlanılırdı. "Əsasnamə"yə görə respublika əhalisi üçün ayrılan torpaq fonduna həm kənd, həm də şəhər ətrafı yaşayış yerlərinin sahələri daxil edilirdi. Şəhər ətrafında yerləşən, lakin şəhər mülkiyyətinə daxil edilməyən

torpaqlardan istifadəyə icazə verilirdi. Qanunun 4-cü maddəsi üzrə nəzərdə tutulan torpaq islahatına görə, bu vaxta qədər xüsusi (fiziki) və hüquqi şəxslərə məxsus olmuş normadan artıq torpaqlar, həmçinin digər fondlardan kəsilib götürülən və qanunvericiliklə müəyyən edilmiş bəzi kateqoriya torpaqlar, yenidən bölüşdürülməyərək həmişəlik dövlət xəzinəsinə daxil edilirdi. Əhaliyə verilməyərək, dövlət xəzinəsinə daxil edilmiş meşələrdən, otlaq, tikinti materialı və s. işlər üçün əhalinin istifadəsini təmin etmək məqsədilə xüsusi "Qaydalar" hazırlamaq da nəzərdə tuturdu.

Xüsusi sahibkara məxsus həyətyanı və bağların aşağıda göstərilən normalardan çox olmayan hissəsi, dövlət tərəfindən özgəninkiləşdirilirdi: kənd yerləri üçün 25 desyatindən 75 desyatinə qədər olan bağlar və həyətyanı sahələr və şəhər ərazilərində isə 5 desyatindən 7,5 desyatinə qədər olan ərazilər. Sahibkarlar üçün saxlanılmış torpaqların ölçüləri qəza komissiyaları tərəfindən müəyyən edilir və təsdiq edilmək üçün Əkinçilik Nazirliyi nəzdindəki Şuraya göndərilirdi. Qanun layihəsinə görə birlikdə istifadə edilən torpaq və digər fondlardan tutulan ərazilər yenidən bölüşdürülərək hər bir şəxsə, normada nəzərdə tutulan qədər ayrı-ayrılıqda mülkiyyət verilirdi. Eyni zamanda göstərilirdi ki, sosial statusundan asılı olmayaraq heç kəs 75 desyatindən artıq torpağa sahib ola bilməzdi. Torpaq sahibliyi üçün 75 desyatin maksimum hədd müəyyən edilirdi.

Aqrar islahatlar, Əkinçilik və Əmlak Nazirliyi və onların yerlərdə təşkil etdikləri qəza və rayon komissiyaları tərəfindən aparılmasını nəzərdə tuturdu. Qəza komissiyaları, qəza idarə orqanları tərəfindən hər kənd cəmiyyətindən iki nəfər olmaq şərtilə çağrılan qəza yığıncağında seçilmiş 10 nəfərdən ibarət tərkibdə müəyyən edilirdi. Rayon komissiyaları isə, Əkinçilik Nazirliyi tərəfindən müəyyən edilmiş ərazilər üzrə bölüşdürülərək hər birindən bir nəfər olmaq şərtilə kəndlərdən seçilirdi. Bu komissiyanın tərkibinə rayon üzrə keçirilmiş yığıncaqda seçilən 6 nəfər nümayəndə də daxil edilirdi. Aqrar komissiyaların tərkibi, hər bir rayon üzrə ayrıca əhaliyə elan edilərək ictimaiyyətin nəzərinə çatdırılırdı. Qanun layihəsinin 4-cü maddəsində nəzərdə tutlan bəndlər üzrə bölgüdə, xüsusi sahibkarların və hüquqi şəxslərin dövlət torpaq fonduna daxil edilmiş torpaqları əhalinin mülkiyyətinə veriləno qədər, Əkinçilik nazirliyinin sərəncamında və sərbəst xəzinə topaqlarına bərabər statusa malik olurdu. Əkinçilik nazirliyi müəyyən etdiyi xüsusi təlimat əsasında bu topaqlardan istifadə edirdi.

Əhalinin bütün kateqoriyalarının zəruri topaq ehtiyaclarından ötürü, ilk növbədə kənddə mövcud əkinçiliyin inkişaf səviyyəsi nəzərə alınmalı idi. Buna müvafiq olaraq bütün əhali və ya birgə yaşayan ailələr və ya ayrı-ayrı torpaq sahiblərinin ehtiyacları ödənilməli idi. Şəhər məskənlərinin torpaqla təmin edilməsi

hər bir həyət üzrə müəyyən edilirdi. Torpaq, ehtiyacı olanların normal tələbatlarını ödəməyə kifayət edən həcmdə ayrılırdı. Təlabat norması hər bir kənd üzrə torpaq komissiyaları tərəfindən, qanunun 13-cü maddəsi əsasında müəyyən edilirdi.

**İslahatların ədalətli aparılması üçün qəza və rayon müşavirələri yaradılırdı. Yerlərdə qəza müşavirələrinə yerli ədalət məhkəməsi hakimləri sədrlik edirdi.** Rayon müşavirələrinə isə Daxili İşlər Nazirliyinin razılığı ilə Əkinçilik Naziri tərəfindən bir nəfər xüsusi şəxs təyin edilirdi. Qəza və rayon aqrar komissiyalarının sədrləri isə, Əmək Naziri tərəfindən torpaq işini yaxşı bilən şəxslərdən müəyyən edilirdi. Komissiyaların tərkibinə sədrdən başqa əkinçilik naziri tərəfindən təyin edilən katib və bir neçə torpaq ölçən nümayəndə daxil idi.

Şəhər məskənlərinə yaxın ərazilərdə xüsusi sahibkar və hüquqi şəxslərin torpaqla bağlı işləri araşdırılarkən komissiyanın tərkibinə tam üzvlük hüququnda şəhər upravasının (idarəsinin başçısı) təyin etdiyi şəhər özünüidarə orqanlarının nümayəndələri daxil olurdu. Sahibkar torpaqları xəzinə nəfinə özgəniləşdirilərkən komissiyanın tərkibində tam üzvlük hüququnda, nəzarət naziri tərəfindən təyin edilən dövlət nəzarəti nümayəndəsi iştirak edirdi. Parlamentin aqrar komissiyanın qərarı ilə, yuxarıda da qeyd etdiyimiz kimi, Zaqafqaziya komissarlığının 16 dekabr 1917-ci il əsasnaməsində nəzərdə tutulan xəzinə, xənadan, kilsə, monastır, həmçinin hüquqi şəxslər və sahibkarlara məxsus torpaqların torpaq komitələrinə verilməsi və Zaqafqaziya Seyminin 7 mart 1918-ci il torpaq normalarının müəyyən olunması haqqında islahat proqramının icra edilməsi, Azərbaycan Respublikası ərazisində dayandırılırdı.

Beləliklə, Azərbaycan Xalq Cümhuriyyəti mülkiyyət münasibətlərinin tənzimlənməsi sahəsində bir sıra mühüm tədbirlər görmüş, ilk növbədə yeni yaranmış dövlət siyasi, hərbi və s. çətinlikləri aradan qaldırmaqla yanaşı, mülkiyyət hüququ sahəsi üzrə cari və prespektiv tədbirlərin mühüm istiqamətlərini müəyyən etmişdir. Mülkiyyət münasibətləri sahəsində təxirəsalnımaz işlərin həyata keçirilməsi, çevik qanunların qəbul edilməsi hakimiyyətin müvafiq orqanlarının vəzifəsi idi. Bəhs olunun dövrdə, təbii ki, hüquq sahələrinin tənzimlənməsini təmin edəcək hüquq sistemi tam formalaşmamışdı. Mülki hüquq sisteminin daxili strukturuna aid edilən mülkiyyət hüquq münasibətlərinin tənzimlənməsi, qanunvericilikdə təsbit edilən normalarla müəyyən edilmişdir.

Azərbaycan Xalq Cümhuriyyətinin suveren, demokratik, dünyəvi və hüquqi dövlət təbiətindən irəli gələn insan və vətəndaşın siyasi-ictimai və seçki hüququ azadlıqlarını təsbit edən normativ-hüquqi aktların məzmunu və mahiyyəti öz aktuallıqları ilə fərqlənir. XX əsrin əvvəllərində qəbul edilmiş Rusiya imperiya

qanunları ilə müqayisədə, AXC-nin müvafiq hüquqi akatları, bir sıra fərqli xüsusiyyətlərə malikdir. **Bu fərqli xüsusiyyətlər vətəndaş hüquq və azadlıqlarını əhatə edən normativ-hüquqi aktların məzmun və mahiyyətində əks olunur.** Belə ki, ilk növbədə Azərbaycan Xalq Cümhuriyyəti parlamenti fəaliyyətə başladığı qısa müddətdən sonra, bəyannamədə elan etdyi prioritetləri həyata keçirmək üçün fəal işlərə başlamışdır. İlk növbədə seçmək və seçilmək hüququnu siyasi hüquqların ən mühüm elementlərindən biri hesab edən Azərbaycan Milli Şurası, cinsindən asılı olmayaraq bütün vətəndaşlara seçki hüququ vermişdir.

İnsan və vətəndaş hüquq və azadlıqlarına dair ali dəyərləri ehtiva edən "İstiqlal Bəyannaməsi"nin 4-cü və 5-ci bəndlərində siyasi, sosial, iqtisadi və mədəni sahələrdə insan və vətəndaş hüquq və azadlıqlarının əhatə dairəsi təsbit edilmişdir. Respublika ərazisində yaşayan etnik əhalinin və əcnəbilərin hüquqlarının qorunması da, həmişə diqqət mərkəzində olmuşdur. AXC-nin bütün fəaliyyəti dövründə insan hüquqlarının qorunmasını, demokratik hüquq və azadlıqların möhkəmlənməsini təmin edən ayrı-ayrı sahələri əhatə edən qanunvericilik və delegiya hüququ üzrə normativ-hüquqi aktların qəbul edilməsi və realizasiyası mütamadi xarakter almışdır. Rusiya imperiyasının tərkibində olduğu dövrlərdə qəbul edilmiş qanunlara yenidən baxılaraq təkmilləşdirilmiş və demokratik hüquq və azadlıqların məhdudlaşdırlmasını təsbit edən normalar daha mükəmməl qanunlarla əvəz edilmişdir. Eyni zamanda, sosial, iqtisadi, mədəni, vətəndaşlıq məsələləri sahəsində qəbul edilmiş normativ-hüquqi aktlar, milli spesifik xüsusiyyətlər nəzərə alınmaqla hazırlanmışdır. Belə ki, "Azərbaycan vətəndaşlığı haqqında qanun", "Azərbaycan təbəəliyi haqqında "Əsasnamə", "Ümumazərbaycan Müəssislər Məclisinə seçkilər haqqında "Əsasnamə", "Mətbuat haqqında" qanunu, "Fəhlə nəzarət" haqqında qanun, Əmək Nazirliyi yanında "Fəhlə məsələləri üzrə xüsusi məsləhət (müşavirə) komissiyası"nın yaradılması, müsəlmanların, həmçinin qeyri-müsəlman əhalinin dini bayramlarının qeyd edilməsi və s. bu kimi normativ-hüquqi aktlarda, insan və vətəndaş hüquqlarının, etnik və dini azadlıqların, demokratik-hüquqi proseslərin geniş dairəsi əhatə olunmuşdur.

XX əsrin əvvələrində Rusiya imperiyasında başlamış birinci burjua-demokratik inqilabının nəticəsi olaraq çar hökuməti dövlət idarəçiliyi, sosial-iqtisadi, aqrar sahələrlə yanaşı, demokratk hüquq və azadlıqların, milli-mədəni hüquqların təmin olunmasını əhatə edən, əslində isə, imitasiya xarakterli islahatların keçirilməsini bəyan etmişdir. **Bu islahatlar deklarativ xüsusiyyətlərə malik olduğundan, vətəndaş hüquqlarının qorunması sahəsində hər hansı effektiv nəticələr verməmişdir. Mətbuat, cəmiyyətlər, ittifaqlar, yığıncaqlar haqqında**

**müvəqqəti qaydalar, aqrar islahatlar, fəhlələrin sosial təminatına yönəlmiş sığorta qanunu, həmkarlar ittifaqının fəaliyyətinin əsasları, vətəndaşlıq statusu və s. bu kimi sahələri əhatə edən qanunvericilik aktlarnın AXC hökuməti tərəfindən yenidən hazırlmaq zərurətini aktual etmişdir.** Digər tərəfdən, qəbul edilmiş hüquqi aktların müqayisəli hüquqşünaslıq (komprativistika) metodolgiyası əsasında öyrənilməsi, fərqli cəhətləri və fərqli xüsusiyyətləri müyyən etməyə və elmi-metodik nəticə əldə etməyə imkan verir.

Rusiyası imperiyası hökuməti tərəfindən mətbuat haqqında Müvəqqəti qaydalar 1905-ci il noyabrın 24-də verilmişdir. Qaydalara uyğun olaraq dövrü mətbuat üzərində ilkin və ümumi senzura götürülür və dövrü mətbuata tətbiq olunan inzibati cərimələr ləğv edilirdi. Lakin bu qayda yerlərdəki mətbuata deyil, yalnız şəhər mətbuatına aid edilirdi. Qəzaların (udel) və milli ucqarların bu qaydalardan yararlanmaq hüququ məhdudlaşdırılırdı. Qaydaların 9-cu maddəsinə müvafiq olaraq hökumət mətbuatın hər bir nömrəsinə həbs qoyula bilərdi. İnzibati orqanlar tərəfindən qoyulmuş həbs, məhkəmə istintaqının köməyi ilə "günahkar"ları müəyyən etməli idi. Mətbuat barədə nəzərdə tutulmuş Müvəqqəti qaydaların tələblərinin pozulmasına görə cinayət əməli kimi tövsiv edilən işlər üçün çox ağır cəzalar müəyyən edilirdi. Məhkəmənin qərarı ilə nəşriyyat müvəqqəti dayandırıla və ya tamamilə qadağan oluna bilərdi. Beləliklə, Rusiya imperiyasında qəbul edilmiş Müvəqqəti qaydalar, nəinki mətbuat azadlığını təmin edir, əksinə redaktor və müəlliflər əleyhinə represiyanı daha da gücləndirirdi.

Rusiya imperiya qanunlarında fərqli olaraq, geniş demokratik-hüquq və azadlıqları təsbit edən mətbuat haqqında "Əsasnamə" 1919-cu il oktyabr ayının 30-da Azərbaycan parlamentində təsdiq edilmişdir. "Əsasnamə"yə görə fiziki və hüquqi şəxslər, hakimiyyət orqanlarından heç bir icazə olmadan tipoqrafiya, litoqrafiya, metalloqrafiya və digər bu növdən olan nəşr orqanlarını yarada bilərdilər. Həmçinin bu nəşriyyat orqanlarında dərc edilmiş bədii və elmi əsərlər və digər mətbuatlar, fiziki şəxslərin təsis etdikləri xüsusi kitabxanalarda ictimaiyyətin istifadəsinə verilirdi. Əsərlərin sərbəst satışına heç bir məhdudiyyət qoyulmurdu. Mətbuat orqanları yalnız cinayət mühakimə Nizamnaməsinin müəyyən etdiyi əsaslarla və mövcud cinayət hüququnda nəzərdə tutulmuş qanunların pozulmasına görə məsuliyyətə cəlb olunmaqla, məhkəmə orqanlarında mühakimə edilirdilər. Mətbuat və nəşriyyat orqanlarına ümumi rəhbərlik hökumət yanındakı mətbuat orqanlarına nəzarət baş müfəttişliyinə həvalə edilmişdir. Nəşr üzrə baş müfəttiş, nəşr olunan mətbuat orqanlarında mövcud qanunvericilikdə nəzərdə tutulmuş və qanunla qadağan edilmiş xətalar və ya cinayət hərəkəti aşkar etdikdə, həmçinin şikayətçiyə dəymiş maddi və mənəvi ziyanın ödənilməsi üçün, yerli prokurorluq orqanlarının nəzarət

şöbəsinə cinayət xətalarının olduğu müəyyən olunmuş nəşrin əslini təqdim etməli idi. Dövlət orqanları, vəzifəli şəxslər və digər vətəndaşlar, onlara qarşı mətbuat orqanlarında və nəşrlərdə edilmiş qərəzli, böhtan xarakterli, həmçinin cinayət əməli kimi tövsif edilən xətalara görə, yerli prokurorluğun nəzarət orqanlarına, göstərilən əməllərə görə mətbuatın və nəşriyyatın cinayət məsuliyyətinə cəlb edilməsi barədə müraciət edə bilərdilər. Mətbuat orqanlarından prokurorluğa edilmiş şikayətlərə görə prokurorluq orqanları 7 gün ərzində cinayət mühakiməsi Nizamnaməsinin qaydaları əsasında zərərçəkmişin iddiasına baxmalı idilər. Azərbaycan hökuməti mətbuat üzərində ümumi nəzarəti saxlasa da, mətbuat və nəşriyyatların sərbəst və azad fəaliyyəti üçün kifayət qədər geniş imkanlar yaratmışdır. Cümhuriyyət üçün çətin dövrlərin olmasına baxmayaraq, "Əsasnamə"də təsbit edilən mətbuatın azad fikirliliyi, demokratiyanın möhkəmlənməsi üçün geniş şərait yaradır, hakimiyyət strukturlarının mümkün qanunsuzluqlarının qarşısını alırdı.

Vətəndaş cəmiyyətinin və publik hüquqi şəxsin inkişafı üçün əhəmiyyət kəsb etməli olan digər qaydalar 1906-cı il mart ayının 4-də qüvvəyə minmişdi. Belə ki, Rusiya imperiya qanunvericisi tərəfindən hazırlanmış cəmiyyətlər və ittifaqlar haqqında Müvəqqəti qaydalar, bu sahədə münasibətlərin tənzimlənilməsini nəzərdə tuturdu. Müvəqqəti qaydalara görə hakimiyyət orqanlarının icazəsi ilə cəmiyyətlər və ittifaqlar təşkil etmək, asan qaydada həyata keçirilməli idi. Lakin bu ümumi prinsip çoxlu məhdudiyyətlərlə (sanki, neqativ məzmunlu çərçivə qanunu ilə) tənzimləndiyindən cəmiyyət və ittifaqların azadlığını təmin etmək real görünmürdü. Cəmiyyət və ya ittifaq yaratmaq istəyən şəxs cəmiyyətin nizamnaməsinin lahiyəsini müvafiq nazirliyə təqdim etməli idi. Yeniyetmələr, ali və orta ixtisas məktəblərində oxuyanlar cəmiyyətin yaradılmasında və onun fəaliyyətində iştirak etmək hüququndan məhrum idilər. Ali məktəblərdə təhsil alan yalnız öz təhsil müəssisələrinin nizamnaməsinə uyğun yaradılmış cəmiyyətlərdə iştirak edə bilərdilər. Hökumət müəssisələrində xidmət edənlər, dövlət və xüsusi dəmiryolları, ümumi istifadə olan telefon-rabitə müəssisələrində çalışanlar maddi və mənəvi təlabatlarını ödəmək üçün, öz müəssisə rəhbərlərinin razılığı ilə, xeyriyyə cəmiyyətləri yaratmaq hüququna malik idilər. Bu və digər nazirliklər istədiyi vaxt həmin cəmiyyətləri nizamnamənin tələblərindən "kənarlaşma"lar adı ilə bağlıya bilərdilər. Cəmiyyət və ittifaqların təşkil edilməsi, qeydiyyata alınması, müvəqqəti qadağan olunması və ya bağlanması quberniyalarda, vilayətlərdə və şəhərlərdə dövlət idarələri yanında yaradılmış xüsusi orqanlar vasitəsilə həyata keçirilirdi. Qubernator və ya şəhər rəisi cəmiyyətin fəaliyyətində ictimai sakitliyə və təhlükəsizliyə hər hansı bir əngəl müəyyən edərdisə, dərhal həmin cəmiyyəti bağlamaq səlahiyyətinə malik idilər. Quberniya idarəsi yanındakı ictimai işlər üzrə idarə isə həmin məsələyə baxıb son qərar verirdi.

Müvəqqəti qaydaların ikinci hissəsi həmkarlar təşkilatlarının fəaliyyəti ilə bağlı məsələləri nizamlayırdı. Qaydalara görə həmkarlar ittifaqlarının əsas vəzifələri müəssisələrdə əməkçilərin iş şəraitini yaxşılaşdırmaq, müəssisə sahibləri ilə fəhlələr arasında "iqtisadi maraqları tənzimləyib" son nəticədə əmək məhsuldarlığına nail olmaq idi. Müvəqqəti qaydaların xarakterik cəhətlərdən biri, hökumətin sahibkarlar ittifaqını da həmkarlar ittifaqına aid etməsi olmuşdur. Çarizm bütün səylərini həmkarlar ittifaqlarının güclü bir təşkilata çevrilməsinin qarşısının alınması üçün birləşdirmişdir. 1906-cı il 4 mart qaydaları, iki və ya daha artıq bir neçə həmkarlar təşkilatı və ittifaqlarının öz aralarında birləşməsini qadağan edirdi. Xarici dövlətdə yaşayan şəxslər və təşkilatlar tərəfindən həmkarlar ittifaqının təsis edilməsi qadağan olunurdu. Digər tərəfdən istehsal əlamətlərinə görə həmkarlar ittifaqının yaradılmasına qəti yol verilmirdi. 4 mart qaydalarına görə, bir peşə və ya bir-biri ilə əlaqədar olan istehsal sahələri üzrə işləyən fəhlələr həmkarlar ittifaqına daxil ola bilərdi. Dövlət qulluğunda olanlara həmkarlar ittifaqını təsis etmək qadağan edilirdi. Cəmiyyət ittifaqlarının və ya cəmiyyətlərin yaradılmasında müəyyən edilmiş qaydaların pozulmasında günahkar olan şəxsləri üç ay müddətində həbs cəzası, siyasi məqsəd daşıyan və ya xaricdə yaşayan şəxslər və təşkilatlar tərəfindən yaradılan cəmiyyət və ittifaq sədrləri isə bir il müddətə qədər qalaya və ya həbsxanaya salınmaq cəzasına məhkum edilirdilər.

Rusiya imperiyasında qəbul edilmiş qanunlardan fərqli olaraq, AXC hökuməti vaxtilə çarizm dövründə qəbul edilmiş normatv-hüquqi aktların məzmununda və mahiyyətində əhəmiyyətli dəyişikliklər etməklə onların xüsuiyyətlərini dəyişmiş, demokratik hüquq və azadlıqları təmin etməyə çalışmışdır.

Rusiya hökuməti tərəfindən vətəndaş hüquqları sahəsində münasibətləri tənzimləyən Yığıncaqlar barəsində Müvəqqəti qaydalar 1906-cı il martın 4-də dərc edilir. 17 oktyabr manifestindən irəli gələn "azadlıqlar" Müvəqqəti qaydalarda əks olunmuşdu. Belə ki, qaydalar azad yığıncaq anlayışını minimuma endirirdi. Təhsil müəssisələrində toplantıları yalnız dərs və tədris prosesi üzrə keçirmək olardı. Həm də belə toplantılar tədris müəssisələrinin nizamnaməsinə uyğunlaşdırılırdı. Küçə və meydanlarda yığıncaqlar qubernatorun və ya şəhər rəisinin icazəsi ilə keçirilməli idi. Hətta çar sarayının, Dövlət Duması və Dövlət Şurasının yerləşdiyi ərazilərdən yarım verst məsafədə, bina daxilində iclas keçirmək qadağan edilirdi. "Qaydalar" polis orqanı nümayəndələrinə də özbaşına səlahiyyətlər verirdi. Polis nəfəri "toplantının mövzudan kənar çıxdığını" müəyyən edərdisə, iclası bağlaya bilərdi. Bu isə guya iclasda əhalinin bir hissəsinin digər hissəsinə qarşı düşmən mövqeyi tutmaqda günahlandırmaqdan ibarət ola bilərdi. İclasda pul ianəsi toplamaq qadağan edilirdi.

Rusiyası monarxiyası süqut etdikdən sonra, imperiya əhalisinin milli inzibat-ərazi vahidləri üzrə vətəndaşlıq statuslarının təsbit edilməsi aktuallaşmışdır. Azərbaycan Xalq Cumhuriyyəti hökuməti bu sahədə intensiv hüquqyaratma fəaliyyətini davam etdirərək, vətəndaşlığa dair müvəqqəti qaydalar hazırlamişdır. Belə ki, Milli hökumət delegiya hüququ səlahiyyətndə, 1918-ci il avqustun 23-də vətandaşların hüquqi statusunu tənzimləyən Azərbaycan təbəəliyi haqqında "Əsasnamə"ni təsdiq etdir. Yaxın gələcəkdə, qanunverici hakimiyyətin fəaliyyətə başlamasına, yəni parlament tərəfindən vətəndaşliq məsələləri qanunla təsbit edilənə qədərki müddətdə, Azərbaycan təbəəliyi haqqında "Əsasnamə" dövlətlə vətəndaşların hüquqi statusundakı boşluqları nizamlamaq funksiyasını yerinə yetirirdi. "Əsasnamə"yə görə, 1914-cü ilin 19 iyuluna qədər ölkə ərazisinə daxil olan inzibati-ərazi vahidinin və ya silki cəmiyyətin qeydiyyatında olanlar, həmçinin azərbaycanlı təbəəliyində həm Cümhuriyyət ərazisində, həm də kənarda doğulanlar və 5 il respublikada daimi (oturaq) yaşayan əcnəbi təbəələrin övladları Azərbaycan təbəələri sayılırdı. Azərbaycanlı təbəə ilə nikah bağlayan əcnəbi vətəndaşlar respublika təbəəliyinə daxil edilirdilər. Azərbaycan təbəələri eyni zamanda digər dövlətin təbəələri ola bilməzdilər. Azərbaycan Respublikasının təbəələri bütün siyasi hüquqlardan, aktiv və passiv seçki hüququndan, mərkəzi və yerli idarəetmə orqanlarında iştirak etmək və s. hüquqlardan istifadə edə bilərdilər. Azərbaycan təbəəliyi haqqında "Əsasnamə"nin sonunda xarici vətəndaşların təbəəliyə qəbul edilməsi və ya azərbaycan təbəəliyinin itirilməsi qaydalarını xüsusi qanunla tənzimlənmək nəzərdə tutulmuşdu. Beləliklə, "Əsasnamə" vətəndaşlıq haqqında parlament qanunun qəbuluna qədər, bu sahədə hüquqi münasibətləri tənzimləmişdir.

Vətəndaşlıq məsələrinin tənzimlənməsi sahəsində daha bir mühüm sənəd Azərbaycan parlamenti tərəfindən 1919-cu il avqustun 11-də qəbul edilmişdir. "Azərbaycan vətəndaşlığı haqqında qanun"unun qəbul edilməsi vətəndaşların dövlətə inamının artması, vətəndaşların hüquq və azadliqlarının qorunması, onların mülkiyyət hüquqlarına təminat verilməsi, dövlətçiliyin möhkəmləndirilməsi və hüquqi islahatları davam etdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edirdi. İnsan və vətəndaş hüquqlarının təmin olunmasını müəyyən edən "Azərbaycan vətəndaşlığı haqqında qanuna" görə millətindən, dinindən, irqindən asılı olmayaraq keçmiş Rusiya imperiyasının təbəələri olmuş, Azərbaycan Respublikası ərazisində yaşayan şəxslərin özləri və övladları Azərbaycan vətəndaşları hesab edilirdilər. Azərbaycan vətəndaşlığını qəbul etmək istəməyən Rusiya imperiyası vətəndaşları (təbəələri) qanun dərc edildikdən sonra, üç ay müddətində ərzində yerli qubernatora ərizə ilə müraciət etməli idilər. Qubernator yerli hakimiyyət orqanları ilə birlikdə şəxsin hərbi mükəlləfiyyətli olub-olmasını dəqiqləşdirdikdən sonra, ona Azər-

baycan Respublikasında müvəqqəti yaşamaq üçün 6 ay müddətinə şəhadətnamə verirdi. Həmin müddət qurtarana qədər təbəələr tam hüquqlardan istifadə edə bilərdilər. Qanununun ikinci bölməsində vətəndaşlığın müəyyən edilməsi prinsipi təsbit edilirdi. Vətəndaşlıq ilk növbədə aşağıdakı şəxslərə verilirdi: azərbaycan vətəndaşlarının övladlarına; azərbaycanlıya ərə getmiş əcnəbi vətəndaşlara; və övladlığa götürülən əcnəbi vətəndaşlara (17 yaşa qədər). Əcnəbi vətəndaşa ərə getmiş azərbaycanlı boşandığı halda Azərbaycan vətəndaşlığına götürülürdü. Eyni zamanda, əcnəbi vətəndaşa ərə getməklə nikahdan törəyən 17 yaşına çatmış uşaqlar, Azərbaycana öz istedadı, elmi biliyi ilə xidmət edən və Azərbaycanda məskunlaşmış əcnəbilər, Azərbaycanda hərbi və ya mülki xidmətdə olan və ictimai təşkilata daxil olan xarici ölkə vətəndaşları da öz arzusundan asılı olaraq vətəndaşlığa qəbul edilirdilər. Azərbaycanda daimi yaşayan əcnəbilərə aşağıdakı hallarda vətəndaşlıq verilirdi: şəxsin müəyyən hüquq qabliyyəti olduqda; şəxsin məhkəmə cəzası olmadıqda və mənəvi cəhətdən sağlam olduğu müəyyən edildikdə; və şəxsin özü və ailəsini öz əməyi ilə saxlamaq imkanı olduqda. Əcnəbilərin yenidən Azərbaycan vətəndaşlığına bərpa edilməsi (əgər həmən şəxsin məhkəmə cəzası yoxdursa və mənəvi cəhətdən qeyri-sağlam deyildirsə), 2 il müddətindən sonra onun Azərbaycanda məskunlaşması və bu barədə səlahiyyətli orqanlara ərizə ilə müraciət etməsi şərti ilə mümkün idi. Azərbaycan vətəndaşlığına bərpa olunmanın qaydasına görə, vətəndaşlığa bərpa olunmaq isətəyən şəxs qəza rəisinə və ya polismeystrə yaşadığı ərazi üzrə ərizə ilə müraciət etməli idilər. Yerli hakimiyyət orqanları isə təqdimatla daxili işlər nazirinə müraciət edir və ona şəhadətnamə verilirdi. Şəxsə şəhadətnamə verildikdən sonra o, Azərbaycanda məskunlaşmış hesab edilir, lakin vətəndaşlığa qəbul olunana qədər şəxs xarici ölkənin vətəndaşı sayılırdı. Göstərilən qayda 1918-ci il mayın 28-ə qədər, yəni dövlət müstəqilliyi elan olunana qədər Azərbaycanda yaşamaş, lakin üç ay müddətində ərizə ilə vətəndaşlığa qəbul olunmaları barədə müraciət etmiş şəxslərə şamil edilmirdi. Azərbaycan vətəndaşlığını qəbul etməyi arzu edən digər şəxslərin övladları ərazi üzrə qeydiyyatda olduqları qəza polis rəisinə və ya polismeysterə ərizə verərək onun vasitəsilə daxili işlər nazirinə müraciət etməli idilər. Daxili işlər naziri isə ədliyyə və xarici işlər nazirinin razılığı əsasında ərizə ilə müraciət etmiş şəxsə Azərbaycan vətəndaşlığı verə bilərdi. Ərizə ilə Azərbaycan vətəndaşlığına qəbul olunmaq istəyənlər Azərbaycanın hansı ərazisində yaşadıqları və hansı peşə ilə məşğul olduqları, həmçinin əmlak vəziyyətləri barədə akt təqdim etmək öhdəliyi daşayırdılar. Xarici ölkə vətəndaşı olmuş qadınlar da yuxarıda göstərilən şərtlərlə Azərbaycan vətəndaşı ola bilərdilər. Azərbaycan vətəndaşlığını könüllü qəbul edən hər bir şəxs dövlətə sədaqətli olacaqları barədə and içməli idi. Vətəndaşlıq haqqında qanunda vətəndaşlığın itirilməsi və ya vətəndaşlıqdan məhrum etmək qaydaları göstərilirdi. Xarici təbəəliyi qəbul edən Azərbaycan vətəndaşı, vətəndaşlıq hüququnu dərhal itirirdi. Azərbaycan vətəndaşlığından

imtina edən şəxslər ərizə ilə dairə məhkəməsinin inzibati idarəsinə hansı ölkənin təbəəliyini qəbul edəcələri barədə məlumat verirdilər. Müraciət etmiş şəxsin hərbi mükəlləfiyyəti yerinə yetirmək və ya xidmətdən azad olmağı barədə, həmçinin hər hansı bir digər anlaşılmızlığın (məhkəmə, əmlak və s.) olması müəyyən edilmirsə, ərizəsi təmin edilirdi. Azərbaycan vətəndaşlığından imtina edən şəxsin, sonradan onun yenidən vətəndaşlığa qəbul olunması xahişi isə, yalnız 5 ildən sonra mümkün idi. Rəsmi dövlət orqanlarının və daxili işlər nazirinin xüsusi icazəsi olmadan xarici ölkənin vətəndaşlığını qəbul etmiş şəxs Azərbaycanı tərk edə bilməzdi. Qanunun təsbit etdiyi imperativ tələblər əsasında vətəndaşlıq statusunun müəyyən edilməsi, siyasi və mülki hüquqların təmin olunmasında böyük əhəmiyyət kəsb etmişdir.

Milli hökumət siyasi, iqtisadi, hüquqi islahatlarla yanaşı fəhlələrin, kəndlilərin və əhalinin bütün digər kateqoriyalarının vətəndaş hüquqları çərçivəsində sosial-iqtisadi problemlərinin həll etməsi sahəsində mühüm tədbirlər görürdü. Belə ki, 1918-ci il dekabrın 26-da hökumət proqramı ilə parlament qarşısında çıxış edən baş nazir F.X.Xoyski göstərirdi ki, fəhlə və kəndlilərinin tələblərini ödəmək Nazirlər Kabinetinin başlıca vəzifələrindən biridir. Məhz, Əmək Nazirliyi nəzdində məsləhət komissiyalarının yaradılması sosial-iqtisadi xarakterli mübahisəli məsələlərin həll edilməsində, istehsalda baş vermiş mübahisəli münaqişələri aradan qaldırılması yolunda əhəmiyyətli addımlardan biri olmuşdur. I Respublikanın qanunverici orqanı "fəhlə məsələsi"ni daim diqqətdə saxlayırdı. Bu məqsədlə parlamentin müvafiq komissiyası tərəfindən müzakirə edilərək plenar iclasa tövsiyyə edilən "Fəhlə nəzarəti" haqqında qanun layihəsi "işçi məsələləsi"nin həllində mühüm əhəmiyyət kəsb edirdi. Qanun əməyin mühafizəsini, 1912-ci il fəhlə sığortası qanunundan irəli gələn xəstəlik, bədbəxt hadisələr və s. ümumi nəzarəti həyata keçirəcək idarənin yaradılmasını nəzərdə tuturdu. Qanun layihəsində göstərilirdi ki, Azərbaycan Cümhuriyyətində təsis edilməkdə olan fəhlə nəzarətinin əsas məqsədi, bütün fəhlə və peşə mühafizəsinə lüzum görülən təhlükəsizlik və nəzarət işləri, həmin fəhlə nəzarəti qurumunda toplanmalı və bu nəzarət orqanı inkişaf etdirilərək, ölkənin fəhlə və zəhmətkeş dairələrini tam əhatə edən idarəyə çevrilməlidir. Rusiya imperiyası hökuməti "Bədbəxt hadisələrdən və xəstəliklərdən fəhlələrin sığortası haqqında" qanunu 1912-ci ilin iyun ayının 23-də imzalamışdır. Sığorta haqqında qanun öz dövrünə görə kifayət qədər mütərəqqi olmasına baxmayaraq, bütün fəhlə sinfini əhatə etmirdi. Çünki, bu qanun bütün Rusiya əməkçilərinin yalnız təqribən 1/5 hissəsi üçün qüvvədə idi. Digər tərəfdən qanun dövlət zavodlarının və müəssisələrinin fəhlələrinə, xırda sənaye müəssisələrinin fəhlələrinə, kənd təsərrüfatı işçilərinə və ticarət-sənaye qulluqçularına aid edilmirdi. Milli ucqarların fəhlələri də sığortadan məhrum edilmişdilər. Sığorta haqqında qanuna görə işçilər üçün yalnız çox cüzi müavinət müəyyən edilirdi, həm

də qanun əlilliyə, qocalığa və işsizliyə görə sığortanı qətiyyən nəzərdə tutmurdu. Sığorta haqqında qanunda, sığorta fondunun xeyli hissəsinin fəhlələrin öz hesablarına ödənilməsini nəzərdə tuturdu. Lakin müavinətin verilməsi bir çox cəhətdən zavod sahiblərindən asılı olurdu, çünki sığorta idarələrində çalışan qulluqçuların yarısı onların öz nümayəndələri idilər. Bununla belə, qanuna görə fəhlələr də sığorta orqanlarına öz müvəkkillərini seçmək hüququna malik idilər. 1912-ci il qanunun deklarativ və qeyri-mükkəməl olmasından istifadə edən bolşevik partiyası fəhlələrin sığortalanması haqqında qanunu tənqid edir, sığorta idarəsinə seçilmiş fəhlə qrupu öz tələblərinin yerinə yetirilməsi sahəsində kütlələr arasında izahat işini gücləndirir və beləliklə daha çox güzəştlər edilməsinə nail olmaqa çalışırdılar.

Rusiya imperiyasının 1912-ci il sığorta haqqında qanunla müqayisədə, sosial yönümlü daha mükəmməl və mütərəqqi qanun AXC parlamenti tərəfindən 1919-cu il martın 10-da qəbul edildi. Qanunda, Əmək Nazirliyi yanında "Fəhlə məsələləri üzrə xüsusi məsləhət (müşavirə) komissiyası" yaradılması nəzərdə tutulmuşdur. Qanuna görə, zəhmətkeş siniflərin əmək mühafizəsinin, əmək şəraitinin və məişətinin yaxşılaşdırılması, baş verə biləcək mübahisələrin ilkin olaraq baxılması üçün əmək nazirinin sədrliyi ilə fəhlə məsələləri üzrə müvəqqəti olaraq xüsusi məsləhət komissiyası təsis edirdi. Məsləhət komissiyasına 10 nəfər üzv, 5 nəfəri sahibkarlardan, 5 nəfəri isə fəhlələrdən olmaqla səlahiyyətli nümayəndələr daxil edilirdi. Komissiya üzvləri xüsusi əsasnamə üzrə müəyyən edilirdilər. Məsləhət komissiyasının "Əsasnamə"si qəbul edilənə qədər, onun üzvləri əmək nazirliyi tərəfindən dəvət ediləcək sənaye-ticarət və fəhlə təşkilatlarının səlahiyyətli nümayəndələrindən ibarət təşkil edilirdilər. Qanuna görə, məsləhət komissiyasının iclaslarında sədrin dəvəti ilə məşvərətçi səslə fabrik müfəttişliyi, dağ-mədən nəzarəti və başqa müvafiq nümayəndələr iştirak edə bilərdi. Məsləhət komissiyasının sədri ehtiyac yarandığı vaxtda onun iclasını təyin edirdi. Komissiyanın iclasında baxılacaq məsələlər əmək naziri tərəfindən müəyyən edilir və onun baxılması qaydasını tənzimləyirdi. Əmək mübahisələri məsləhət komissiyasının üzvlərinə dövlət xəzinəsi hesabına Əmək Nazirliyi tərəfindən mükafatlandırma müəyyən etmişdir. Hökumətin əhalinin sosial vəziyyətin yaxşılaşdırılmasına hesablanmış daha bir sənədi, 1919-cu il avqustun 27-də "Pensiya nizamnaməsi"ni hazırlamaq üçün komissiya yaradılması haqqında sərəncamı olmuşdur. Maliyyə, yollar, hərbi və digər idarələrin nümayəndələrinin daxil olduğu səlahiyyətli komissiya, sentyabr ayında Pensiya Nizamnaməsini Nazirlər Şurasına təqdim etmək üçün, Maliyyə Nazirliyi nəzdindəki mülki və hərbi idarələrlə birlikdə öz təkliflərini hazırlamalı idi. AXC hökuməti pensiya təminatının hüquqi bazasını tez bir zamanda formalaşdırmağa çalışırdı. Parlamentin 1919-cu il iyunun 23-də qəbul etdiyi sosial xarakterli "Yaşayış

minimumun artırılması haqqında" qanunu da, əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması baxımından əhəmiyyət kəsb edirdi. Qanunda göstərilirdi ki, Rusiya Müvəqqəti hökumətinin 12 iyun 1917-ci il qanununa istinadən, gəlirləri 5 min rubla çatmayan işçilər gəlir vergisindən azad edilirdilər. Bu qanun ilk növbədə vergi ödəyicilərinin yükünü azaltmağa yönəlmişdir. Parlament təsdiq etdiyi qanunla gəlirin yaşayış minimumun dövlət vergisinə cəlb olunmayan əvvəlki səviyyəsini 5 dəfə, yəni 1000 rubldan 5000 rubla qaldırırdı.

Azərbaycan parlamenti strateji əhəmiyyət kəsb edən dəmiryol işçilərinin sosial vəziyyətini yaxşılaşdırmaq üçün 1919-cu il fevralın 4-də qanun vermişdir. Qanuna görə yaradılmış fəhlə komissiyası dəmiryol qulluqçularını 14 kateqoriyaya bölərək əmək haqqı maaşlarının yeni tarif dərəcələrini müəyyən edirdi. 1919-cu il mayın 9-da hökumətin qərarı ilə tətil edən Bakı fəhlələri ilə danışıqlar aparmaq üçün Əmək Nazirliyinə xüsusi tapşırıq verilmişdir. Neft sənayesi işçiləri üçün maliyyə nazirliyi tərəfindən xüsusi vəsait də ayrılmışdır. Milli hökumət fəhlələrin sosial vəziyyətini yüngülləşdirmək üçün silsilə təbdirlər görməkdə davam edirdi.

Vətəndaşların seçki hüququ, AXC-nin elan etdiyi demokratik idarəçiliyin ən mühüm elementlərindən biri idi. Seçkili orqanların formalaşdırılmasında böyük əhəmiyyəti kəsb etmiş ümumdövlət əhəmiyyətli akt, "Ümumazərbaycan Müəssislər Məclisinə seçkilər haqqında "Əsasnamə", 1919-cu il iyulun 21-də təsdiq edildi. **"Əsasnamə" 10 fəsildən və 116 maddədən ibarət olaraq tərtib edilmişdir. Müəssislər Məclisinin tərkibi, cinsindən, etnik mənsubiyyətindən, dinindən və s. asılı olmayaraq 20 yaşına çatmış bütün respublika vətəndaşlarının bərabər, birbaşa və gizli səsvermə yolu ilə iştirak etdiyi seçkilər vasitəsi ilə müəyyən edilirdi. Hərbi qulluqda olanlar yalnız passiv seçki hüququna malik idilər.** İnzibati vəzifədə olan şəxslər, perefektlər, qəza rəislərinin köməkçiləri, polismeyster köməkçiləri, qubernator və onların köməkçiləri isə yalnız aktiv seçki hüququndan istifadə edə bilərdilər. Ümumilikdə seçki əsasnaməsi öz dövrü üçün kifayət qədər mükəmməl hazırlanmışdır. Qəyyumluq himayəsində olanlar, anlaqsızlar seçkidə iştirak edə bilməzdilər. Həmçinin məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə azadlıqdan məhrum edilənlər, 10 illik katorqa işlərinə cəlb edilmiş şəxslərin cəza müddətləri başa çatana qədər, yaşayış yerlərindən sürgün edilənlər, islah evlərində icbari işə cəlb edilənlər, zindana və ya qalaya salınmış və hüquqlardan qismən və ya tamamilə məhrum edilmiş şəxslərdə 5 il müddət ərzində seçkidə iştirak hüququndan məhrum olunurdular.

"Əsasnamə" oğurluq, fırıldaqçılıq, mənimsəmə, israfçılıq, saxtakarlıq, sələmçilik və rüşvətxorluğa görə azadlıqdan məhrum edilmiş şəxslərə 3 il müddətdən sonra seçkidə iştirak etmək hüququ verirdi. Məhkəmənin qanuni qüvvəyə minmiş qə-

rarı ilə borca düşmələri təsdiq olmuş, borca düşmüşlərə və müflis olmuş fiziki şəxslərə də 3 il müddətinə seçki senzi tətbiq edilirdi. Seçki senzi ordu sıralarını özbaşına tərk etmiş şəxslərə də şamil edilirdi. Qanunla seçki məntəqələrinin siyahısına daxil edilmiş şəxslər seçkidə bilavasitə iştirak edə bilərdilər. Müəssislər Məclisinə seçkilər haqqındakı qanunda seçki keçirmək hüququ mərkəzi (respublika), qəza, şəhər ərazisi, kənd cəmiyyəti və kiçik kənd seçki komissiyalarına həvalə edilirdi. Azərbaycan parlamenti Mərkəzi (Respublika) Seçki komissiyasının 21 nəfərdən ibarət tərkibini seçərək təsdiq etmişdir. Komissiya isə seçki qanununa müvafiq olaraq, öz aralarından sədr, sədr müavini katib və xəzinədarı müəyyən etmişdi. Mərkəzi Seçki komissiyasına namizədlərin siyahısı daxil olduqdan sonra, qeydiyyata alınmış siyasi partiyanın və ya birliyin bir nəfər nümayəndəsi mərkəzi komissiyanın üzvü siyahısına daxil olmaq hüququna malik idilər.

"Əsasnamə"yə görə Mərkəzi (respublika) Seçki komissiyasına Müəssislər Məclisinə seçkilər üzrə aşağıdakı vəzifələr həvalə edilir: müəssisələr məclisinə seçkilərin gedişinə ümumi nəzarət və seçkiləri daha da sürətləndirmək barəsində tədbirləri müzakirə etmək; müəssisələr məclisinə seçkilər üzrə statistik və digər məlumatları toplamaq, qəza və şəhər seçki komissiyalarının vaxtında təşkil olunmasına nəzarət etmək, dairələr üzrə səslərin hesablanması, onun nəticələrinin müəyyən edilməsi və ümumi məlumatın verilməsi və s. aid edilirdi.

Qəzalarda seçki komissiyaları şəhər idarəetmə orqanları tərəfindən təşkil edilirdi. Şəhər idarəsi (uprava) olmayan yerlərdə isə qəza komissiyaları ədalət məhkəməsi hakimlərindən, qəza hakimindən və xalq maarif nazirliyinin nümayəndəsindən, (axırıncı iki nəfər nümayəndə olmadıqda isə onlar vergi müfəttiş və ya meşəbəyi ilə əvəz oluna bilərdilər) ibarət olmaqla yaradılırdı. Komissiyanın razılığı ilə yerli əhali arasından iki nəfər nümayəndə onun tərkibinə daxil ola bilərdi. Qəza komissiyaları öz aralarından sədr, sədr müavini, xəzinədar və katib seçirdilər. Mərkəzi Seçki komissiyasında olduğu kimi qəza komissiyalarında da namizədlərin siyahısı daxil olduqdan sonra siyasi partiyalardan və birliklərdən, hərəsindən bir nəfər olmaqla komissiyanın tərkibinə daxil edilirdi. Qəza komissiyalarının vəzifələrinə daxil idi: kənd və kiçik kənd seçki komissiyalarını yaratmaq, şəhər sahə komissiyalarını təşkil etmək, Mərkəzi seçki komissiyasına kənd cəmiyyətlərinin, kənd və şəhər seçki sahələrinin bölüşdürülməsi layihəsini təqdim etmək, seçki siyahılarını tərtib etmək və ümumi olaraq ictimaiyyətə çatdırmaq, seçki qutularını hazırlayıb məntəqələrə göndərmək, şəhər, sahə, kənd cəmiyyətləri və kiçik kənd komissiyalarından daxil olan şikayətlərə baxmaq, əhalini namizədlərin siyahısı ilə təmin etmək, hesablanmış səslərin Mərkəzi Seçki komissiyasına təqdim etmək daxil idi.

“Əsasnamə”yə görə Bakı qəza seçki komissiyası 9 nəfərdən ibarət idi. Gəncə, Nuxa və Şuşa seçki komissiyasının hər biri 7 nəfər, yerdə qalan şəhərlərdə isə hər biri 5 nəfər üzvdən təşkil edilirdi. Bakı, Gəncə, Nuxa və Şuşa istisna olmaqla digər komissiyalarda sədr müavini seçilməsi vacib hesab olunmurdu. Şəhər sahə seçki komissiyasının sədri qəza komissiyasının rəyasət heyəti tərəfindən təyin edilirdi. Sədr, siyasi partiya və qrup arasından seçilmiş nümayəndələrin iştirakı ilə komissiya yaradırdı. Siyasi partiya və qrupların hər birindən yalnız bir nümayəndə seçki komissiyasına daxil edilirdi. Şəhər sahə seçki komissiyasına aşağıdakılar həvalə edilirdi: seçki bülletenlərinin yığılması, səslərin hesablanması və sahə komissiyalarından toplanan səslərin qəza komissiyalarına təqdim olunması. Kənd cəmiyyətləri 5 nəfərin daxil olduğu seçki komissiyasını yaradırdılar. Siyasi qüvvələrin nisbəti nəzərə alınmaqla əlavə edilmiş nümayəndələr öz aralarından 5 nəfərin daxil olduğu komissiya sədrini, katibi və xəzinədarı seçirdilər. Kənd cəmiyyətləri üzrə seçki komissiyalarının səlahiyyətlərinə aid edilirdi: kiçik kənd vahidlərinə seçki bülletenləri və seçki qutuları vermək, cəmiyyətin kiçik seçki vahidlərinə bölünməsi layihəsini hazırlamaq və qəza komissiyasına təqdim etmək, seçicilərin siyahıya alınması və seçki siyahılarının düzgün tərtib olunmasına nəzarət etmək, siyahıya alınmanın vaxtında başlaması və sona çatdırılmasına nəzarət etmək, bütün əhalinin siyahıya daxil olunmasına diqqəti artırmaq, seçki bülletenlərinin ilkin hesablanmasını təmin etmək, şikayətləri qəbul etmək və onu qəza komissiyalarına göndərmək və nəhayət, işlənmiş nəticələri qəza komissiyasına təqdim etmək. Kiçik kənd üzrə seçki komissiyaları, qəza komissiyalarının kənd cəmiyyətlərindən olan nümayəndələrinin nəzarəti ilə təşkil edilirdi. Yuxarıda göstərilən böyük komissiyalarda olan prinsip üzrə təşkil olan kiçik kənd seçki komissiyaları da 5 nəfərdən ibarət müəyyən edilirdi. Xırda kəndlər üzrə seçki komissiyasının mərkəzi, bir-birindən aralı olan cəmi bir neçə evdən (tüstündən) ibarət kəndlər üçün bərabər olmaq şərti ilə 2-3 verst radiusda yerləşirdi. Kiçik kənd seçki komissiyasına siyasi partiya və birlik nümayəndələri daxil edilirdi.

Kiçik kənd seçki komissiyasının vəzifəsinə daxil edilirdi: seçicilərin siyahısını tərtib etmək və siyahıya almağa kömək üçün əhalini cəlb etmək, kənd seçki cəmiyyəti komissiyasından vaxtlı-vaxtında seçki materiallarının və seçki qutularını əldə etmək, qutudan çıxarılan (açmamaq şərtilə) zərflərlə, daxil edilməmiş zərflərin sayı nisbətini müəyyən edib sənədləşdirmək və bütün lazımi materialları kənd cəmiyyəti üzrə seçki komissiyasına təqdim etmək. Müəssislər Məclisinə seçkilərin “Əsasnamə”sinə görə seçkilər üçün bütün işlədiləcək sənədləşmələr və onlara çəkilən xərclər yəni, dövlət, məhkəmə, inzibati və ictimai təşkilatlara göndərilən sənədlər və ya alınan sənədlər gerb rüsumundan (dövlət rüsumu) və digər vergilərdən tamamilə azad edilirdilər.

“Əsasnamə”nin dördüncü fəslində Müəssislər Məclisinə keçiriləcək seçkilərdə iştirak edən vətəndaşların siyahısının tərtib olunması qaydası müəyyən edilirdi. Seçki senzi tətbiq olunmayan şəxs yalnız bir məntəqə (sahə) siyahısına daxil edilirdi. Ümumi siyahının tərtib olunması qəza seçki komissiyasının səlahiyyətinə daxil idi. Mərkəzi seçki komissiyasının elan etdiyi gündən başlayaraq bütün respublikada əhalini xəbərdar etməklə siyahıların tərtib olunmasına başlanılırdı. Siyahı tərtib edilən günə qədər həmin sahədə yaşayan, lakin siyahı tərtib olunan anda müəyyən müddətə öz ərazisini tərk edən şəxslər yaşadıqları ünvanlarda seçki siyahısına daxil edilirdilər. Seçki siyahısı hazırlandıqdan sonra yeni seçki sahəsinə köçüb gələn şəxslər ərizə ilə seçki komissiyasına müraciət etdikdən sonra yeni sahədə siyahıya daxil edilirdilər. Bu şəxslər ümumi seçki siyahısı elan olunduğu müddətdən keçən 5 gün ərzindən müraciət etmək hüququna milik idilər. Bununla birlikdə ərizə verən şəxsin ərizəsində əvvəlki ünvan yerində daxil olduğu siyahıdan xaric olunması göstərilməli və müvafiq seçki komissiyasına bu barədə məlumat göndərmək tələb olunurdu.

“Əsasnamə”də bir çox demokratik ideyalarla yanaşı, vətəndaşın dini mənsubiyyəti, savadlı olub-olmaması, ali təhsil alması, peşəsi, milli mənsubiyyəti və s. anket məlumatları verməsi tələb olunurdu. Əhalinin siyahısı əlifba sırası ilə yazılırdı. Bu siyahı ən geci seçkilərə 50 gün qalmış ümumi olaraq elan edilirdi. Ümumi seçki siyahısı elan edildikdən 10 gün sonra yerli inzibati hakimiyyət orqanları və ayrı-ayrı şəxslər siyahı barədə öz etirazlarını bildirmək hüququna malik idilər. Qeyd olunan etirazlar qəza seçki komissiyasına verilirdi.

Qəza komissiyası üç gün ərzində şikayətlərə baxıb bu barədə Mərkəzi seçki komissiyasına məlumat təqdim edirdi. Şikayətləri həll edilmiş şəxslər siyahıya əlavə olunurdu. Mərkəzi seçki komissiyasının qərarı ilə şikayətləri qəbul edilməyən şəxslərin işlərinə dairə məhkəməsində, Mərkəzi Seçki komissiyanın iştirakı ilə baxılırdı. Dairə məhkəməsinin inzibati şöbəsi 5 gün müddətində şikayətə baxıb qərar çıxarmalı idi.

Müəssislər Məclisinə seçkilər üzrə “Əsasnamə”nin beşinci fəsli namizədlərin siyahısını tənzimləyirdi. Məclis namizədliyi göstərilən şəxslərin ərizəsini Mərkəzi seçki komissiyasına seçki qrupu tərəfindən ən geci seçkilərə 3-gün qalmış təqdim edirdi. Seçkidə iştirak etmək hüququ olan şəxslərin, ən azı 100 nəfərinin şəxsi imzası ilə təsdiqlənmiş namizədin siyahısı komissiyaya göndərilirdi. Siyahılara namizədliyi irəli sürülmüş şəxsin ərizəsi də əlavə edilirdi. Hər bir seçici yalnız bir nəfər namizədə imza verə bilərdi. Əgər şəxs bir neçə siyahıya imza verərdisə, Mərkəzi seçki komissiyasında ilk təqdim olunmuş siyahıdakı imza məqbul sayılırdı. Digər sonrakı siyahıdakı imzalar isə (demokratik ənənəyə görə, bir neçə nəfərə, xüsusilə

də oxşar platforma ilə çıxış edən namizədlərə imza vermək məqbul hesab edilir, yekun olaraq isə seçim edib bir nəfərə səs verilir-R.Ə.) qanunsuz hesab edilirdi. Seçici qrupu tərəfindən təqdim olunmuş namizədlik siyahısı Mərkəzi Seçki komissiyasında qəbul olunmurdusa, bu barədə nümayəndəyə üç gün ərzində məlumat verilirdi. Bu namizədin müxtəlif siyahılara daxil edilməsi qanunsuz hesab olunurdu. Qeydiyyata alınmış namizəd seçkilərə ən geci 23 gün qalmış Mərkəzi komissiya tərəfindən qəza seçki komissiyalarında, seçici (passiv) siyahısına daxil edilirdi. Bu barədə qəza komissiyası seçiciləri məlumatlandırırdı. Seçici blokları seçkiyə 15 gün qalmış digər qruplarla birləşmələri barədə Mərkəzi seçki komissiyasına məlumat ərizə ilə müraciət edə bilərdilər. Belə ərizə bütün qrupların (blokların) nümayəndələri tərəfindən imzalanmalı idi. Mərkəzi komissiya yeni birləşmə barədə bir gün müddətində seçicilərə məlumat verirdi.

Müəssislər Məclisinə seçkilərin altıncı fəsli səsvermə prosesi və səslərin hesablanması qaydasını da müəyyən edirdi. Səsvermə şəxsən seçici tərəfindən yerinə yetirilirdi. Səsvermə kəndlərdə səhər saat 9-dan axşam saat 9-a qədər, şəhərlərdə isə səhər saat 8-dən axşam 8-ə qədər davam edirdi. Seçicilərə üç gün ərzində səsvermək hüququ verilirdi. Seçki bülletenlərinin vahid forması müəyyən edilirdi. Mərkəzi komissiya seçkilərə 40 gün qalmış həmin formanı möhürlə təsdiq edib ictimaiyyətə çatdırırdı. Seçki bülletenləri türk (azərbaycan) dilində tərtib edilirdi. Türk dili ilə yanaşı digər hər hansı bir dildə yazılmaq üçün seçki blokunun ərizəsi daxil olduqda bülletinin tərcüməsi həmin dildə yazılırdı. Seçki bülletenləri və digər zərflər Mərkəzi Seçki komissiyasında hazır olduqdan sonra qəza komissiyalarına göndərilirdi. Qəza, kənd və kiçik kənd seçki komissiyaları seçkiyə 7 gün qalmış çağırış vərəqələrinin seçicilərə çatdırırdı.

Şəhər duması (uprava) və kənd cəmiyyətləri təşkilatları seçki komissiyaları üçün müvafiq bina ayırmalı idilər. Bina daxilində gizli səsvermə üçün müvafiq yerlər hazırlanırdı. Komissiyanın sədri seçki qutularının bütöv və boş olmasını müəyyən etdikdən sonra, qutunu bağlayıb möhürləməli idi. Seçki məntəqələrində yalnız səsvermə keçirilir, seçki təbliğatı aparmaq qadağan edilirdi. Seçki məntəqəsinə silahlı şəxslərin və sərxoş adamların daxil olması qəti qadağan idi. Seçki komissiyasının sədri lazım olduda, komissiyanın qərarı ilə inzibati və hərbi hissələrin qüvvələrindən istifadə edə bilərdi. Yüksək rütbəli milis (polis) və hərbi komandanlıq yalnız sədrin göstərişlərini yerinə yetirirdilər.

Seçkilərin birinci və ikinci günü axşamlar şəhərlərdə saat 8-də, kənd yerlərində isə saat 9-da seçki məntəqələrinin qapıları bağlanılır və möhürlənirdi. Üçüncü gün axşam seçkilər qurtardıqdan sonra, sədr seçkilərin başa çatdığını elan edirdi. Sonra komissiya zərfləri açmadan bülletenləri sayırdı. Zərfələrin sayı ilə seçicilərin siya-

hındakı saylarda uyğunsuzluq olduqda, bu barədə müvafiq protokol tərtib edilirdi. Nəhayət zərflər açılır və seçki bülletenləri hesablanırdı. Komissiya tərəfindən etibarsız sayılan bülleten müəyyən edilirdi. Mübahisəli bülletenlər isə komissiyanın qərarı ilə səsvermə keçirilməklə aradan qaldırılırdı. Səslər bərabər olduqda sədrin çıxardığı qərar əsas götürülürüdü.

Seçkilərin nəticələri barədə son olaraq komissiya protokol tərtib edirdi. Protokol sədr, katib, komissiya üzvləri və bütün iştirakçılar tərəfindən imzalanırdı. Protokollar qəza komissiyasına göndərilirdi. Protokolla yanaşı ayrıca məktubla aşağıdakı sənədlər təqdim edilirdi: a) komissiyanın etibarlı hesab etdiyi bülletenlər,

b) komissiya tərəfindən etibarlı hesab olunan, lakin komissiya üzvlərindən hər hansı birinin etiraz etdiyi bülletenlər, c) etibarlı bülletenlər, lakin komissiya üzvlərinin hər hansı birinin etiraz etdiyi bülletenlər, d) komissiya tərəfindən yekdilliklə etibarsız sayılan bülletenlər. Qəza seçki komissiyası yerlərdən gələn bülletenlərin protokollarını araşdıraraq müvafiq qərar qəbul edirdi. Qəza komissiyalarının protokolları sahə seçki komissiyalarının protokolları ilə birlikdə Mərkəzi seçki komissiyasına göndərilirdi. Komissiyaların protokolları türk dilində hazırlanırdı. Lakin rus dilində protokollar tərtib etməyə icazə verilirdi.

"Əsasnamə"nin VII fəsli seçkilərin nəticələrini və təkrar seçki keçirilməsi qaydasını müəyyən edirdi. Belə ki, 83-cü maddədə seçkilər günü bir və ya bir neçə seçki sahəsində, həmçinin ümumi respublika seçicilərinin 10/1 hissəsinə bərabər olmayan sayda seçicilərin iştirak etmədiyi seçki məntəqələrində ikinci dəfə seçkilər keçirilməsi nəzərdə tutulurdu. Lakin, belə məntəqələrin sayı göstərilən saydan (koffisentdən) yuxarı olmayanda, Mərkəzi Seçki komissiyası belə məntəqələrin səsvermə sayını, ümumi səsverməyə daxil edərək, təkrar səsvermə keçirilməsini aparmırdı.

Müəssisələr Məclisinə seçkilərin VIII fəsli Məclis üzvlüyündən çıxan nümayəndəlrin yerinə (vakant yerlərə) digərlərinin daxil edilməsi qaydasını tənzimləyirdi. Belə ki, seçki birliklərinə daxil olaraq birləşmiş qrupların siyahıya daxil edilmiş nümayəndəsi vakant (proporsional sistem kimi) yeri tuta bilərdi. Belə siyahıya daxil edilmiş nümayəndə olmadıqda Müəssislər Məclisində boş (vakant) yer tutulmaya bilərdi.

"Əsasnamə"nin IX fəsli seçkilərin azad və ədalətli keçirilməsi üçün qaydaları müəyyən edirdi. Nəhayət X fəsildə, Müəssislər Məclisinə keçiriləcək seçkilərdə xərclərin ödənilməsi qaydası şərh edilirdi. Seçicilər üçün itirdikləri vaxta və yol xərcinə görə heç bir əvəz nəzərdə tutulmurdu. Şəhərlərdə seçici siyahılarının hazırlanması və digər xərclərə görə vəsaitin ödənilməsi şəhər özünüidarə orqanları hesa-

bına, digər ərazilərdə isə respublika xəzinəsi hesabından ödənilirdi. Şəhər idarələrinin ödədikləri xərclərin 75 faizi sonradan respublika xəzinəsindən qaytarılırdı. Kargüzarlıq və digər xərclərə görə seçki komissiyalarına ayrılmış Müəssislər Məclisinə seçkiləri üzrə xüsusi məbləğ krediti, parlament tərəfindən Mərkəzi Seçki komissiyası hesabına daxil edilirdi. Seçki komissiyalırının hər bir üzvü hər gün seçkilərin keçirilməsinə aid olan işlərə və yol xərcinə görə mükafatlandırılırdı. Lakin, namizədin nümayəndəsi kimi seçki komissiyasına daxil edilmiş komissiya üzvlərinə göstərilən mükafatlandırma tətbiq edilmirdi. Seçki komissiyaları üçün bina daxilində aparılan işlərə görə xərclər, o cümlədən istilik, işıqlandırma və s. şəhər özünüidarə orqanları, digər ərazi seçki komissiyalarından isə respublika xəzinəsi hesabına aparılırdı.

Azərbaycan Demokratik Respublikasında nəzərdə tutulan konstitusiyasının qəbul edilməsi, torpaq məsələsi, xarici siyasət və s. ümumilikdə dövlət quruculuğünün və qanunçuluğun möhkəmlənməsində "Ümumazərbaycan Müəssislər Məclisinə seçkilər haqqında "Əsasnamə" mühüm əhəmiyyət kəsb etmişdir. Müəssislər Məclisinə seçkilər 1920-ci il aprelin 20-nə təyin edilmişdir. Lakin 1920-ci ilin yazından başlayaraq boşevik təhdidləri nəticəsində yaranmış böhran seçkilərin keçirilməsinə imkan vermədi.

Beləliklə, Azərbaycan Xalq Cümhuriyyətində qanunvericiliyin inkişafı, qəbul edilmiş normativ-hüquqi aktlar siyasi, iqtisadi, sosial-ictimai, vətəndaşlıq və mədəni hüquqların realizasiyasının təmin edilməsində böyük əhəmiyyət kəsb etmişdir. Cümhuriyyətdə qəbul edilmiş parlament qanunları və hökumətin delegiya aktları, öz növbəsində demokaratik hüquq və azadlıqları təsbit edən kifayət qədər mükəmməl normalar müəyyən edərək, müasir siyasi və mülki hüquqları özündə ehtiva edən Bəyannamə və Konvensiyalarla müqayisə ediləcək səviyyəyə çatmışdır. Məhz, yeni yaranmış demokaratik respublika bütün çətinliklərə baxmayaraq, insan hüquq və azadlıqlarının əhatə edən, o cümlədən hər bir vətəndaşın sərbəst inkişafı, azad iqtisadi fəaliyyəti, azad seçki hüququ, mətbuatın azad fikirliliyi, demokratiyanın möhkəmlənməsi, əhalinin sosial hüquqlarının qorunması və nəticə etibarı ilə, onların həyata keçirilməsi və tətbiqi üçün geniş hüquqi mühit yaratmış, dövlət hakimiyyəti strukturlarının mümkün qanunsuzluqlarının qarşısını alan kifayət qədər mükəmməl normativ aktlar təsbit etmişdir.

## 2.4.Azərbaycanın müstəqilliyinin beynəlxalq tanınması münasibəti ilə parlamentin 1920-ci il 9 fevral tarixli “Ümumi əfv” qanunun siyasi-hüquqi məzmunu və əhəmiyyəti

1920-ci ilin əvvələrində Azərbaycan dövlətinin parlamenti, Cümhuriyyət ətarfında baş verən ictimai-siyasi hadisələrinin müzakirəsini keçirir, çətinliklərin aradan qaldırılması üçün tədbirlərin görülməsi və müvafiq qərarların qəbul olunmasına çalışırdı (25). Xüsusi ilə də, erməni və bolşeviklərin 1918-ci ilin Mart ayında törətdikləri müsəlman soyqırımınına siyasi-hüquqi qiymət verilməsi, hökumətin və parlamentin daim diqqətində olmuşdur. Belə ki, hələ parlamentin formalaşmasına qədər milli hökumət, müvafiq istintaq orqanlarına müsəlmanların soyqırımı ilə bağlı bütün məlumatları toplamaq və 1914-cü ildə başlayaraq baş vermiş hadisələrin günahkarlarını müəyyən etmək vəzifəsini tapşırmışdır. Bu məqsədlə, **1918-ci il iyulun 15-də Xoyski hökuməti xüsusi qərarla “Avropa müharibəsindən başlayaraq, Zaqafqaziyada yaşayan müsəlmanların özlərinə və əmlaklarına qarşı törədilmiş zoraкılıq hallarını təhqiq edən fövqəladə istintaq кomissiya”sını yaratmış və xarici işlər nazirinə bütün zəruri tədbirlər həyata keçirmək barədə göstəriş vermişdir.** Bu məqsədlə 1918-ci il avqustun 30-da xarici işlər nazirliyinin sərancamına, “fövqəladə istintaq komissiyası”nın zəruri ehtiyacları üçün xüsusi pul vəsaiti ayrılmışdı. 1919-cu yanvarın 4-də yenə də, hökumətin qəbul etdiyi digər qərarla istintaqın aparılması üçün ədliyyə nazirliyinin hesabına xüsusi maddi vəsait daxil edilmişdi. Təhqiqatın gedişi barədə “Azərbaycan” qəzetinin 26 aprel 1919-cu il tarixində dərc etdiyi digər məlumatında isə göstərilirdi ki, 1918-ci il Mart soyqırımını araşdıran Azərbaycan məhкəmə palatasının fövqəladə istintaq кomissiysı, təhqiqat işinin başa çatması ilə əlaqədar fəaliyyətini dayandırmaq barədə qərar qəbul etmişdir.

Azərbaycan Ali Məhкəmə palatasının sədri, xüsusi sərəncamla Mart hadisələri ilə bağlı materialların toplanmasının başa çatdırılması və toplanmış sənədlərin bir hissəsinin Versal sülh кonfransında iştirak etmək üçün hazırlaşan nümayəndə heyətinə verilməsi barədə əmr imzalamış və beləliklə məxfi, şifrələnmiş rəqəmli məlumatları xüsusi кuryer vasitəsilə Parisə göndərmək barədə də qərar verilmişdir.

Azərbaycan höкuməti yeni təhqiqatın aparılması və ermənilərin törətdiкləri cinayətlərin əməllərinin araşdırılması barədə 1919-cu il avqustun 2-də 570 saylı daha bir qərar qəbul etmişdir. Qərarda göstərilirdi ki, hökumət “Avropa

müharibəsindən başlayaraq, Zaqafqaziyada yaşayan müsəlmanlara qarşı törədilmiş zoraкılıq hallarını təhqiq edən fövqəladə istintaq кomissiyası"nın fəaliyyəti barədə xarici işlər nazirinin məruzəsini nəzərə alır və eyni zamanda hökumət bu işlərin davam etdirilməsini zərur hesab edirdi. Beləliklə, yuxarıda göstərilən sonuncu qərardan məlum olur ki, hökumət təhqiqatın tam yekunlaşdırılması üçün bütün tədbirlərin görülməsini davam etdirmişdir.

Lakin, 1920-ci ilin yanvar ayında Cümhuriyyətin Paris sülh konfransında müttəfiq dövlətlər tərəfindən tanınması vəziyyəti tamamilə dəyişdi və eforik olaraq ümumi əfv verilməsi təklifi, təhqiqatın nəticələrinin başa çatdırılması və günahkarların ədalət məhkəməsi qarşısında dayanmasının qarşısını aldı. Bununla belə, 1920-ci il yanvar ayında Azərbaycan Xalq Cümhuriyyətini Versal konfransının Ali Şurası tərəfindən siyasi tanınması Azərbaycan xalqının ən böyük uğuru idi. AXC-nin de-fakto tanınma prosesi, dövlətin çox ciddi düşünülmüş xarici siyasətinin nəticəsi olmuşdu. **Beynəlxalq təşkilatların yeni təşəkkül tapdığı dövrdə,** danışqlar prosesində təmsil olunan subyektlər və onların səlahiyyətləri, beynəlxalq tanınmanın legitim əsaslarının təmin olunmasında xüsusi əhəmiyyət kəsb edirdi. AXC-nin de-fakto tanınması münasibəti ilə parlamentin "Ümumi əfv" elan etməsi daha çox siyasi-diplomatik əhəmiyyət kəsb edirdi. **Lakin, normativ-hüquqi akt kimi "Ümumi əfv" aktının məzmunu, hüquqi mexanizmləri, cəzaların azaldılması və ya tamamilə ləğv edilməsi, əfv şamil edilən obyektlərin və subyektlərinin dairəsi, icra prosedurları və s. məsələlər bu kateqoriyandan olan aktlar üçün presedent kimi aktuallığ kəsb edir. Digər tərəfdən tarixi təcrübənin öyrənilməsi və ondan səmərəli istifadə edilməsi, dövlət daxili münasibətlərdə harmonik inkişafın təmin edilməsi prosesində böyük əhəmiyyətə malikdir.**

Fövqəladə istintaq komissiyasının fəaliyyətinin yekun nəticələrinin tamamlanmasına əsas səbəb, parlamentin 14 yanvar tarixli təntənəli iclasında Azərbaycan Cümhuriyyətinin Antanta dövlətləri tərəfindən tanınması münasibəti ilə "Ümumi əfv" elan olunması haqqında, ədliyyə naziri X.Xasməmmədovun hökmət adından qanun layihəsinin hazırlanması barədəki məlumatı olmuşdur. Belə ki, parlament fevral ayının əvvəllərində, özünün 14 yanvar 1920-ci il qərarına müvafiq olaraq müttəfiq dövlətlər tərəfindən Azərbaycan Xalq Cümhuriyyətinin tanınması münasibəti ilə "Ümumi əfv" elan olunması haqqında "Hüquq komissiyasın"da hazırlanmış qanun layihəsinin geniş müzaкirəsini keçirmişdi. Ümumi əfv qanunu haqqında Ş.Rüstəmbəyli məlumat verdiкdən sonra, A.Səfiкürdsкi, ədliyyə naziri X.Xasməmmədov, Q.Camalov, İ.Əbilov, S.Vanseviç və Ə.Qarayev humanizm prinsiplərindən çıxış edərək cinayətə bais olanların əfv olunmasını və qanun

layihəsinin təsdiqini təklif etmişdilər. 1920-ci il fevralın 9-da növbəti iclasını keçirən parlament, bu məsələyə baxaraq, müttəfiq dövlətlər tərəfindən Azərbaycanın dövlət müstəqilliyinin tanınması münasibəti ilə “Ümumi əfv” elan olunması barədə qərar çıxarır. “Ümumi əfv” qanununun tətbiqində AXC qanunvericiliyi ilə yanaşı, Rusiya imperiyası və Zaqafqaziya Müqəqqəti Seyminin qəbul etdiyi normativ-hüquqi aktlar və onlara edilmiş əlavə və dəyişiklərdən geniş istifadə edilmişdi. Qeyd etmək lazımdır ki, istinad edilən müvafiq aktlar, hökumətin 1918-ci il 23 iyun 155 saylı qərarı ilə Cümhuriyyət ərazisində öz hüquqi qüvvəsini saxlamışdı.

Qanuna görə, digər cinayətlərlə yanaşı, ermənilərin və bolşeviкlərin törətdiкləri 1918-ci il Mart soyqırımı cinayətləri, həmçinin höкumət tərəfindən yaradılmış fövqəladə istintaq кomissiyasının təhqiqat apardığı Avropa müharibəsinin başlanmasından bəri Zaqafqaziya ərazisində yaşayan müsəlmanlara qarşı törədilmiş zoraкılıq, o cümlədən əmlaкlarının qarət edilməsi və digər cinayətlərə görə də ümumi əfv elan edilirdi.

**1920-ci ilin fevralın 9-da elan olunmuş “Ümumi əfv” qanunu rəsmi olaraq “Azərbaycanın müstəqilliyinin beynəlxalq tanınması münasibəti ilə əhaliyə verilən güzəştlər” adlanırdı.** Qanunun belə adlanması, конкret cinayət əməlləri törətmiş şəxslərlə yanaşı məhкəmənin qərarı ilə müxtəlif əmlak xarakterli deliktlərin (hüquqpozmalar), o cümlədən vergilərin, rüsumların, dəbbələrin, töycülərin ödənilməsində güzəştlər edilməsi və ya onların bağışlanılması ilə əlaqədar məsələləri əhatə etməsi idi. Ümumiyyətlə hüquqi akt cinayət, cinayət prosessual, inzibati, mülki, əmlak, vergi xarakterli hüquqi münasibətlərin tənzimlənməsini əhatə edirdi. **“Ümumi əfv” qanunu cəzadan tamamilə azad etmə, cəzanın çəkilməmiş hissəsindən azad etmə və cəzaların yüngülləşdirilməsinin hüquqi konstruksiyası üzrə iki mərhələnin tətbiqini nəzərdə tuturdu**. Birinci mərhələ, 1918-ci ilin 28 mayına qədər Rusiya imperiysı və bolşevik hakimiyyət dövründə törədilən cinayət əməllərinə və ikinci mərhələ isə, həmin dövrdən başlayraq bu qanunun qüvvəyə mindiyi günə qədər törədilən cinayət və s. qanunsuz əməllərə görə əfv etmə qaydalarını müəyyən edirdi.

“Azərbaycanın müstəqilliyinin beynəlxalq tanınması münasibəti ilə əhaliyə verilən güzəştlər” adlanan “Ümumi əfv” qanunu üç hissədən və cəmi 36 benddən (maddədən) ibarət idi. **Birinci hissədə əsasən ümumi məhkəmələrdə** baxılan cinayət tərkibli işlərlə bağlı çıxarılan hökm və qərarlara şamil olunan əfv münasibətləri tənzimlənirdi. **İkinci hissədə, yalnız hərbi məhkəmlərin** səlahiyyətlərinə daxil olan cinayət və s. tərkib üzrə əfv olunanların dairəsi müəyyən edilirdi. **Üçüncü hissədə isə, mülki məhkəmələrin** səlahiyyətlərinə

daxil olan vergi, əmlak xarakterli inzibati hüquqpozmalarla bağlı əfv münasibətləri tənzimlənirdi.

"Ümumi əfv" qanunu ayrı-ayrı cinayət halları üzrə, hətta ağır cinayətlərə görə çox böyük güzəştlər nəzərdə tuturdu. Azərbaycan Xalq Cümhuriyyətinin müttəfiq dövlətlər tərəfindən tanınmasından ruhlanan parlament heç şübhəsiz ki, bu prosesi yeni mərhələyə keçirmək, de-yure tanınmaya nail olmaq və demokratik dövlət imicini təsdiq etmək məqsədini güdürdü. Bu baxımdan, əfv qanununun ruhuna müvafiq olan müddəalara nümunə kimi, milli düşmənçilik törətməyə təhrik etmək və bu zəminində törədilmiş əməllərə görə təqib və ya cəza verilməsindən azad etməni göstərmək olar. Məlumdur ki, milli zəmində ağır cinayətlər əsasən daşnaklar tərəfindən törədilmişdi. Məhz, qanunun qüvvəyə mindiyi andan məhkumları dərhal azad etməklə, Azərbaycan hakimiyyəti öz siyasətində böyük humanizm prinsiplərinə, qonşularla dinc yanaşı yaşamaq, sülh tərəfdarı olmaq kimi xoşməramına daim sadiq qalacağını sübut etməyə çalışırdi. Azərbaycan Xalq Cümhuriyyəti parlamenti tərəfindən qəbul edilən amnistiya aktları, onun qanunvericilik fəaliyyətindəki humanizmin təzahürü və ölkədə barışıq siyasətinin bariz nümunəsi idi.

**"Azərbaycanın müstəqilliyinin beynəlxalq tanınması münasibəti ilə əhaliyə verilən güzəştlər" adlanan qanununda əfv olunma, casusluq məqsədilə dövlətə xəyanət кimi ağır cinayətlərə şamil edilmirdi.** Eyni zamanda, həmin dövrə qədər geniş tətbiq edilən və ağır əməyə cəlb olunmanı nəzərdə tutan katorqa işlərinə məhkum edilənlərin və ya məhкumluğu gözlənilənlərin cəzası yarıbayarı, müddətsiz кatorqa işlərinə məhкum olunanların cəzaları isə, 12 ilə qədər azaldılırdı.

"Ümumi əfv" qanununun birinci hissəsi 19 bənddən (maddə) ibarət olmaqla ən müxtəlif cinayətlərə görə cəzadan azad etməni və ya cəzaların yüngülləşdirilməsini təsbit etmişdi. Qanunun birinci hissəsinin 4-cü maddəsində dövlət xidmətində olan şəxslərin məsuliyyəti ilə əlaqədar münasibətlər tənzimlənirdi. Belə ki, xidmət üzrə ona tapşırılmış əmlakı mənimsəyən və israf edənlər, bu qanunun verildiyi günə qədər mənimsənilmiş və israf edilmiş əmlakı tam həcmdə geri qaytarardısa, onda təqsirləndirilənlər təqib və cəzadan azad edilirdilər. 1918-ci il mayın 28-ə qədər, qanunla müəyyən (5-ci maddə) edilmiş cinayət əməllərinə görə, islah dustaqxana şöbələrində cəza çəkməyə məhkum olanlar (daha sərt cəzaya məhkum olanlara şamil edilmir) və ya bu cinayətlərə görə istintaq altında olanlar və ya daha ağır cinayətlərə görə cəzaya məhkum edilənlər, təqib və cəzalardan azad edilirdilər. Qanunun 6-cı maddəsində, əvvəlki maddə üzrə daha da dəqiqləşdirmə aparılırdı. Belə ki, 5-ci maddədə nəzərdə tutulan güzəştlər tamahkarlıq məqsədi ilə cinayət

törətmiş vəzifəli şəxslərə, bu qanunun bütün qüvvəsi şamil edilmir və bu qrupa daxil olan məhkumların cəzası yalnız, yarıya qədər azaldılırdı. 7-ci maddədə 1918-ci il mayın 28-nə qədər cinayət əməlinə görə məhkəmə hökümü ilə məhkum edilmiş və ya məhkum ediləcək bütün şəxslərin müəyyən edilmiş cəza müddətlərinin 12 il katorqa işləri ilə əvəz edilməsi qaydasını təsbit etmişdir. 8-ci maddədə, 1918-ci il mayın 28-dən bu qanunun qüvvəyə mindiyi günə qədər törədilmiş cinayət əməllərinə görə, qanunla müəyyən edilmiş qaydada zindana və ya qalaya dustaq olunmaq cəzasından çox olmayan məhkumluğa məruz qalanların hamısı, təqiblərdən və cəzalardan azad edilirdilər. Həmçinin göstərilənlərdən daha ağır cinayət törədərək məhkum olunanlar və ya məhkum olunması gözlənilənlər də, əfv edilirdilər.

“Ümumi əfv” qanunun 9-cu maddəsi, bu qanunun 8-ci maddəsində nəzərdə tutulan güzəştlərin dairəsini müəyyən etməklə yanaşı, insan şərəf və ləyaqətinin alçaldılması və təhqir edilməsinə görə, məhkəmədən kənar özbaşına divantutmaya dair münasibətləri tənzimləyirdi. Belə ki, bu qanunun 8-ci maddəsində təsbit edilən güzəştlər (amnistiya), rüşvətxorluq və müamiləçilik (sələmçilik) kimi əməllərə görə məhkum olunmuş şəxslərə şamil edilmirdi (müsəlman hüququnun aşkar təsiri-R.Ə.). Eyni zamanda insan şərəf və ləyaqətinə qarşı törədilmiş əməllərə görə fərdi qaydada məhkəmədən kənar özbaşına divantutma və bunun nəticəsi olaraq sağlamlığa və bədənə xəsarətlər yetirməklə cinayət törətmiş şəxslər, bu qanununun güzəştlərindən kənarda qalırdılar.

“Ümum əfv” qanunun birinci hissəsinin 10-cu maddəsində, hökumətin qərarı ilə 1918-ci il iyulun 15-də yaradılmış və Avropa müharibəsinin başlanmasından bəri Zaqafqaziyada müsəlmanlara qarşı törədilmiş zorakılıq, əmlaklarının qarət və talan edilməsini araşdıran fövqəladə istintaq komissiyasının qaldırdığı cinayət işlərinin təhqiqatını birdəfəlik dayandırılmasını təsbit edirdi. Azərbaycan Xalq Cümhuriyyətinin Paris konfransında tanınmasından sonra, sülh, barışıq, böyük humanistlik edən milli dövlətimiz, “Ümumi əfv” qanununa müvafiq olaraq bu və ya digər cinayət əməllərində təqsirkar olanlarla yanaşı, soyqırımda məsuliyyət daşıyanlara da güzəştlər etmişdir. Lakin, Azərbaycan Xalq Cümhuriyyəti hökuməti 1918-ci il mayın 28-nə qədər törədilmiş cinayətlərin (birinci hissə, 5 maddə) məsuliyyətini öz üzərinə götürmürdü.

“Ümumi əfv” qanunun 11-ci maddəsinin qüvvəsi, bu qanunun verildiyi günə qədər təyin olumuş cəzaların müəyyən hissəsini çəkmiş məhkumlarla bağlı münasibətləri tənzimləyirdi. Belə ki, 11-ci maddədə, bu qanunun 1-5-ci və 8-ci maddələrinin təsir qüvvəsi altında olanların, mühakimə olumaqdan və cəzalardan azad edirdi. Eyni zamanda, hüquqlardan məhrum edilənlər və ya hüquqları

məhdudlaşdırılanların hüquqları, onların qanuni doğulan övladlarına şamil edilməklə tam əsasda bərpa edilirdi. Lakin, valideyinləri üzərində məhkəmə hökmünün elan edilməsindən sonra, övladların əmlak üzərindəki hüquqlara iddia etmələri isə, istisinalıq təşkil edirdi. Qanunun 12-ci maddəsi, bu qanunun 6-ci və 7-ci maddələri üzrə nəzərdə tutulan güzəştləri tənzimləyirdi. Belə ki, müvafiq olaraq vəzifəli şəxslərin tamahkarlıq məqsədi ilə törətdikləri cinayətlər istisina olmaqla, digər şəxslərin cəzaları yarıbayarı azaldılırdı. Cəzaların yarıya qədər azaldılması müddəti, cəzaların çəkilməmiş hissəsinin yarısından deyil, məhkum edilmiş şəxsin ilkin nəzarət altına düşməsindən (götürülməsindən) hesablanırdı. 13-cü maddə, bu qanunun qüvvəsi ilə cəzalardan azad edilən təqsirkarlara, dəymiş zərəri və ziyanı ödəməmək və ya qanunla müəyyən edilmiş qaydada əşyaların və ya əmlakın və ya bütün məhv edilmiş malların bərpa edilməməsi və ya dəyərinin ödənilməməsi məsuliyyətindən azad etmirdi. Həmçinin, 13-cü maddə 1918-ci il may ayının 28-dən bu qanunun verildiyi günə qədər patent, ticarət və sənaye və ya başqa yığımların orta dəyərinin və məhkəmə xəzinəsi üçün nəzərdə tutulan rüsum xərclərinin ödənilməsini qüvvədə saxlayırdı. 14-cü maddə cinayət əməlini yüngülləşdirən hallar üzrə cəzaya məruz qalan şəxslərə şamil edilirdi. Belə ki, bu qanununla müəyyən edilən güzəştlərin müddəti, əvvəllər onlara təyin edilən cəzaların verilmə anından hesablanırdı.

15-ci maddə bu qanunun qüvvəsini həm mülki, həm də hərbi məhkəmə idarələri tərəfindən baxılan bütün mülki işlərə şamil edirdi.

“Ümumi əfv” qanununun 16-cı maddəsi, bu qanunun tətbiqi ilə bağlı münasibətləri tənzimləyirdi. Belə ki, tamamlanmış bütün işlər üzrə, bu qanunun icra edilməsi məhkəmə orqanlarına həvalə edilirdi. Əgər hökm barədə qərarın qəbul edilməməsi və ya qanuni qüvvəyə minməməsi və ya icra edilmək üçün müraciət olunmaması və digər bütün bu kimi hallar üzrə prosedurlar, prokuror nəzarətinə verilirdi.

17-ci maddədə bu qanunun tətbiqində yararnan bütün şübhələrin aradan qaldırılması və bütün hüquqların bərpa edilməsi üçün təqdimatlar verilməsi, qərar çıxaran müvafiq məhkəmələrin səlahiyyətlərinə aid edilirdi. Eyni zamanda maraqlı şəxslərin məhkəmələrə yazılı və şifahi izahat təqdim etmək və müvafiq işin araşdırılması barədə şikayət vermək hüququ tanınırdı.

**Demokratik prinsiplərdən çıxış edən qanunun 18-ci maddəsi, əfv qanundan istifadə etməklə bəraət alınması ilə bağlı münasibətləri tənzimləyirdi. Belə ki, şəxs özünü təqsirkar bilməyərək, əfv qanununun güzəştlərindən istifadə etmədən, fərdi qaydada müvafiq instansiyalara**

**müraciət etməklə, barəsində məhkəmə təqibindən və cəzalardan bəraət almaq hüququna malik idi. Məhz, bu qanunun qüvvəsi şəxsi, müvafiq müxtəlif ittihamlar üzrə məhkəmə təqibindən və cəzalardan azad edərək əfv edirdi. Lakin, şəxs məhkəmə qarşısında bəraət almaq istəyirsə, onda qanunun verildiyi gündən başlayaraq bir ay müddətində və qanunla müəyyən edilmiş qaydada işin icraatının başlanılması və dayandırılması barədə məhkəmə orqanına müracət etmək hüququna malik idi. Əgər ittiham tərəfi müraciət edən şəxsi məsuliyyətdən azad etmək barədə qərar çıxarmırsa, onda həmin şəxs bu qanunun qüvvəsi ilə cəzalardan əfv olunmaq hüququndan məhrum olurdu.** Nəhayət, "Ümumi əfv" qanunu Azərbaycan Xalq Cümhuriyyəti ərazisində yaşayan əcnəbilərədə (birinci hissə, 19 maddə) şamil edilirdi.

"Ümumi əfv" qanunun ikinci hissəsi hərbi cinayətlər törətməyə görə cəza verilənlərin bağışlanmasını nəzərdə tutmaqla, cəmi 10 bənddən (maddə) ibarət təsbit olunmuşdur. Məhz, iкinci hissə ümumilikdə hərbi nizamnamənin tələblərinin pozulmasından irəli gələn bəzi cinayətlərə görə münasibətləri tənzimləyirdi. Qanununun 1-ci maddəsində bu qanunun qüvvəsi, onun verildiyi günə qədər Hərbi Nizamnamədə təsbit edilən cinayət əməllərinə görə cəza alan şəxslərə şamil edilirdi.

2-ci maddədə, Hərbi Nizamnamənin 279-cu maddəsi əsasında müəyyən edilən ölüm cəzası, bu maddənin tətbiq dairəsində olan şəxslərin cəzalarını, Ümumcinayət qanununda nəzərdə tutulan müvafiq anoloji əməllərə görə verilən axırıncı cəza ilə (bir pillə yüngülləşdirici hal) əvəz etməyi müəyyən edirdi.

3-cü maddədə Hərbi Nizamnamənin cəzalar haqqında 2-ci bölməsinin 5-ci, 8-ci, 9-cu və 10-cu bölmələrində təsbit edilən tamahkarlıq məqsədilə törədilən cinayət növləri istisina edilməklə, digər bütün cinayət əməllərinə görə ittiham olunanlar təqib və cəzalardan azad edilirdilər.

4-cü maddədə hərbi xidmətdən yayınanlar və ya özbaşına hərbi hissələri tərk edənlər (Hərbi Nizamnamənin cəzalar haqqında 2-ci bölməsinin 3-cü və 4-cü fəsilləri), 1920-ci il mart ayının 15-ə qədər peşiman olub könüllü olaraq öz hərbi hissələrinə geri dönənlər, təqib və cəzalardan azad edilirdilər.

5-ci maddə də, bu qanunun 4-cü maddəsində təsbit edilən güzəştlərin, Hərbi Nizamnamənin cəzalar haqqında 136-cı və 137-ci maddələri ilə müəyyən edilən əməlləri törətmiş şəxslərə şamil edilməsi ilə bağlı münasibətləri tənzimləyirdi. Belə ki, müvafiq maddələr ağır cinayət əməlləri törətmiş məhkumları əhatə edirdi.

6-cı maddə, Hərbi Nizamnamənin cəzalar haqqında 2-ci bölməsinin 1-ci, 2-ci, 6-cı, 11-ci və 12-ci fəsillərində təsbit edilən cinayət əməllərinə görə məhkum edilmiş və məhkum ediləcək bütün şəxsləri, cəzalarının yarısını çəkməkdən azad edirdi. Bu güzəşt, tamhakarlıq məqsədilə törədilmiş cinayət əməllərinə şamil edilmirdi.

7-ci maddə həqiqi hərbi xidmət müddətində məhkəmənin hökmü ilə hərbi intizam hissələrinə və ya hərbi və hərbi-islah həbsxanalarına məhkum olunmuş hərbiçilərin hamısını əfv edirdi.

8-ci maddə cərimə bölməsində cəza çəkən bütün hərbi qulluqçuların hamısını, əvvəlki qüsursuz hərbi qulluqçu statuslarını özlərinə qaytarırdı.

9-cu maddədə qanunun icrası ilə bağlı münasibətlər tənzimlənirdi. Belə ki, bu qanunun tətbiqi ilə bağlı prosedur məsələlərin həll edilməsi hərbi rəislərə, hərbi məhkəmələrə və hərbi prokurorların nəzarətinə verilirdi.

10-cu maddə bu qanunun tətbiqi ilə əlaqədar yaranan şübhələrin aradan qaldırılması və maraqlı şəxslərin yazılı və şifahi müraciətləri əsasında araşdırılmaların istintaqını, Azərbaycan hərbi məhkəmələrinə həvalə edirdi.

**“Ümumi əfv” qanununun cəmi 7 bənddən (maddə) ibarət olan üçüncü hissəsi, əsasən vergi hüquqpozmaları, o cümlədən ödənişlər, töycülər və cərimələrlə bağlı yaranan güzəştləri tənzimləyirdi.** Üçüncü hissənin 1-ci maddəsi bütün ödənilməyən vergi qalıqlarının, artıq ləğv edilmiş dövlət mənzil vergisinə daxil etməklə bağlı münasibətləri təsbit edirdi. 2-ci maddə 1920-ci il yanavar ayının 1-dən, bu qanunun verildiyi günə qədər, 1912-ci il 20 dekabr qanunu əsasında toplanan vergi qalığları və 1918-ci il 7 iyul tarixli Zaqatala quberniyası üzrə müəyyən edilən və hər ev üçün yığılan tüstü (ev) vergisi borclarının ödənilməsini ləğv edirdi. 3-cü maddə 1919-cu il 1 yanvar tarixinə qədər yığılıb qalmış vergi borcunun ödənilməsi qüvvəsini dayandırırdı. Bunlar aşağıdakı vergilər aid edilirdi: a) dövlət töycü vergisi, b) dövlət torpaq vergisi.

4-cü maddə, 1920-ci il 1 yanvar tarixindən və bu qanunun verildiyi günə qədər, 1918-ci il üzrə məvaciblərin yığılıb qalmış və yüz (100) rublu ötməyən və 1919-cu il üzrə məvaciblərinin min (1000) rublunu ötməyən vergilərin ödənilməsini ləğv edirdi. 5-ci maddə də, 1920-ci il 1 yanvar tarixinə və bu qanunun verildiyi günə qədər, mədən vergiləri istisina olmaqla, yerinə yetirilməyən istənilən cərimələr və rüsumlar bağışlanılırdı. 6-cı maddə də, 1920-ci il 1 yanvar tarixindən gerb, həmçinin müxtəlif adlarla toplanan və 50 rubldan çox olmayan vergi qalıqları istisina edilməklə ştat məvacibindən kənar vergi borclarının ödənilməsi

dayandırılırdı. Eyni zamanda hər maddə üzrə borcların ödənilməsi 50 rubl məbləğdən çıxarılırdı. Nəhayət, 7-ci maddə 1920-ci il 1 yanvar tarixindən ştat məvacibi üzrə 5 rubldan çox olmayan borcun ödənilməsi öz hüquqi qüvvəsini itirirdi.

Beləliklə, 1920-ci ilin fevralın 9-da elan olunmuş "Azərbaycanın müstəqilliyinin beynəlxalq tanınması münasibəti ilə əhaliyə verilən güzəştlər" adlanan "Ümumi əfv" qanunu milli dövlətin öz vətəndaşalarına və ölkədə yaşayan vətəndaşlığı olmayan şəxslərə və əcnəbilərə humanist münasibətinin, mərhəmətinin, diqqət və qayğısının nəticəsi idi. AXC-in parlamenti və hökumətinin, o cümlədən Ə.Topçubaşovun rəhbərlik etdiyi nümayəndə heyətinin uğurlu diplomatik fəaliyyəti Azərbaycan Cümhuriyyətinin siyasi cəhətdən tanınması və öz növbəsində əfv qanununun qəbul edilməsini şərtləndirən əsas amil olmuşdur. AXC-nin beynəlxalq tanınmasını ən təxirəsalınmaz tədbirlərdən biri olduğunu çox yaxşı anlayan hökumət, bu prosesə adi diplomatik tərkib deyil, böyük səlahiyyətlı şəxsin başçılıq etdiyi nümayəndə heyətini daxil etməklə, legitimliyi təmin etməyə çalışmışdı. Məhz, diplomatik danışıqlara ali dövlət hakimiyyətinin təmsilçisi kimi parlament sədri vəzifəsi statusunda Əlimərdan bəy Topçubaşovun rəhəbərlik etməsi de-fakto tanınmanın səlahiyyətliliyini daha da möhkəmləndirmişdi. Artıq, 1920-ci ilin yazında Azərbaycan beynəlxalq əlaqələr sisteminə daxil olmuş azad, demokratik, hüquqi dövlət quruculuğu sahəsində zəruri tədbirləri davam etdirmək üçün geniş imkanlar əldə etmişdir. AXC dövləti və hökuməti "İstiqilal Bəyannamə"sinin təsbit etdiyi prinsiplərdən çıxış edərk demokratik, hüquqi və ədalətli cəmiyyət quruculuğuna sadiq olduğunu öz praktiki işləri ilə dünyaya sübut edə bilmişdir. "Ümumi əfv" qanunu, gənc Respublikanın sülh məramlı xoş niyyətlərini təsdiq etməklə yanaşı, onun beynəlxalq siyasi-hüquqi əhəmiyyətini də möhkəmləndirmişdir. Avropa müharibəsinin başlanmasından bəri Zaqafqaziyada müsəlmanlara qarşı törədilmiş zorakılıq, əmlaklarının qarət və talan edilməsinin təhqiqatını aparan fövqəladə istintaq komissiyasının qaldırdığı cinayət işlərini birdəfəlik dayandırması isə, AXC dövlətinin müdürik, humanist düşüncəli görkəmli şəxslər tərəfindən idarə olunmasının, ölkə daxilində və qonşu dövlətlərlə yaranan problemlərin sivil qaydada, sülh və danışıqlar yolu ilə həll edilməsinin tərəfdarı olmasının təsdiqi idi.

## 2.5.Azərbaycan Xalq Cumhuriyyətində ordu quruculuğunun qanunvericilik əsasları

Azərbaycan Xalq Cümhuriyyəti hökuməti və parlamenti ordu quruculuğunu qanunvericilik bazasını təkmilləşdirmək və möhkəmləndirmək üçün mütamadi tədbirləri həyata keçirmişdi (27). Belə ki, milli hökumət bütün fəaliyyəti dövründə güclü ordunun formalaşması üçün vacib olan müxtəlif hərbi strukturların yaradılmasına, hərbi kadrların hazırlanmasına və ordunun maddi-texniki təminatına xüsusi diqqət verirdi. Eyni zamanda, 1918-ci il 4 iyun Türkiyə-Azərbaycan dostluq və qarşılıqlı yardım haqqında müqaviləyə uyğun olaraq türk qoşunları yüksək döyüş qabiliyyətinə malik Azərbaycan ordusunun yaradılması üçün əvəzsiz kömək göstərmişdir. Rusiya imperiyası dövründə müsəlmanların hərbi xidmətə çağırılmaması səbəbindən azərbaycanlılar arasında zabit kadrların çatışmaması da özünü kəskin büruzə vermişdi. Məhz, Milli Şuranın 28 may 1918-ci il tarixli ilk hökumətin formalaşdırılması haqqındakı qərarında, hərbi nazirlik strukturunun təşkil olunmasının nəzərdə tutulması, Cümhuriyyətin ordu quruculuğuna xüsusi önəm verməsinin nəticəsi idi. Bu iclasda Xosrov bəy Sultanov AXC-nin ilk hərbi naziri kimi hökumətin tərkibinə təyin edilmişdi. Yaranmış təhlükəni nəzərə alan milli hökumət, 1918-ci il iyunun 19-da bütün Azərbaycan ərazisində hərbi vəziyyət elan etmişdi. İyunun 26-da keçmiş müsəlman korpusunun "Əlahiddə Azərbaycan korpus"una çevrilməsi barədə hökumət qərarı isə milli ordunun formalaşmasında mühüm əhəmiyyət kəsb etmişdir. **1918-ci il iyulun 8-də Göyçay ətrafındakı döyüşlərdən qələbə ilə çıxan "Əlahiddə Azərbaycan korpusu" komandanlığının təqdimatına əsasən, əsgəri rütbələrin verilməsi və fərqlənmiş hərbiçilərin təltif edilməsi üçün Nazirlər Kabinetinin sədrinə müraciət edilmiş və bir qrup döyüşçü müxtəlif orden və medallara layiq görülmüşdür.**

AXC hökumətinin orduya çağırış qaydalarını mütəşəkkil təşkil etmək üçün Ümumazərbaycan hərbi mükəlləfiyyət idarəsinin yaradılması barəsindəki qərarı, hərbi quruculuğ sahəsində növbəti ardıcıl tədbirlərdən biri olmuşdur. Belə ki, 1918-ci il iyulun 11-də Gəncə şəhər hərbi mükəlləfiyyət idarəsi hökumətin qərarı ilə Ümumazərbaycan hərbi mükəlləfiyyət idarəsinə çevrildi. Həmin gün 1894, 1895, 1896, 1897, 1898 və 1899-cu illərdə anadan olmuş müsəlmanları orduda xidmətə cəlb etmək üçün səfərbərlik elanı verildi. Hökumət qərarına əsasən, Azərbaycan hərbi mükəlləfiyyət idarəsinə, çağırışçıların toplanış məntəqələrinin yeri və konkret çağırış vaxtını müəyyən etmək tapşırığı verilmişdi. Baş nazir F.X.Xoyski

və hərbi idarə işləri üzrə səlahiyyətli İ.B.Ziyadxanovun imzaladığı sənəddə hərbi mükəlləfiyyətdən yayınan şəxslər barəsində hərbi vəziyyət dövrünün qanunlarına uyğun olaraq cəza verilməsi nəzərdə tutulurdu.

1918-ci il noyabrın 1-də Azərbaycan Xalq Cümhuriyyətinin hərbi nazirliyi yaradıldı. Yuxarıdada qeyd etdiyimiş kimi, hələ birinci hökumətin tərkibində yaradılmış hərbi nazirlik, sonradan, iyun böhranı dövründə ikinci hökumətə daxil edilməmişdi. Hökumətin müvafiq qərarı ilə, noyabrın 1-dən etibarən baş nazirə, eyni zamanda hərbi nazirliyə də başçılıq etmək səlahiyyəti həvalə olunurdu. Qərara görə, hərbi nazirinin müavini vəzifəsinə general S.Mehmandarov təyin edilmişdi. Lakin, noyabr ayından Bakını işğal edən ingilis qoşunları və onlara başçılıq edən general Tomson, Cümhuriyyət hökumətinə Bakıda ordu saxlamağı qadağan edir. Bu səbəbdən 1918-ci ilin noyabrından, 1919-cu ilin aprelindək Azərbaycan Xalq Cümhuriyyətinin hərbi nazirliyi Gəncədə fəaliyyət göstərməli oldu. 1918-ci ilin dekabrın axırlarından artilleriya generalı Səməd bəy Mehmandarov hərbi nazir, general Əliağa Şıxlinski onun müavini, general Süleyman Sulkeviç qərargah rəisi təyin edildilər. Hərbi nazirlik ordunun ixtisaslı peşəkar kadrlarla təmin etmək üçün yeni təcrübəli mütəxəssislər cəlb edir, əsgər və zabitlərin döyüş qabiliyyətini artırmaqla yanaşı, onların vətənpərvərlik ruhunun yüksək olmasına da xüsusi diqqət verirdi.

1919-cu il yanvarın 15-də hərbi nazirliyin nəzdində baş qərargah idarəsi fəaliyyətə başladı. Belə ki, qərargahın nəzdində növbətçi general idarəsi, ümumi şöbə, ordunu atla təmin edən şöbə, nəşriyyat şöbəsi, hərbi xidmətdə olmayanlar şöbəsi, xəzinə və istehsalat işləri şöbəsi, qərargahın poçt stolu (masa) və onun jurnalist şöbəsi, yerli briqadalar idarəsi, yerli briqadalara tabe olan zabit qərargahı idarəsi və şöbələri yaradılmışdır. Baş qərargahın baş idarəsi, Azərbaycanın bütün döyüşən piyada, süvari, dəmiryol, dəniz donanması, ehtiyat mühafizəsi və digər hərbi hissələrinə rəhbərlik edir, onlar üçün döyüş planları hazırlayır, Azərbaycanın hərbi rəislərinə, hərbi prokurorluğa, hərbi məhkəməyə, komendantlığa nəzarət edir, hərbi mühəndislik, xəritəçilik, hərbi xəstəxana, hərbi tibbi qatarı, hərbi ərzaq mağazaları, hərbi sursatlar anbarı və b. şöbələrin işlərini təşkil edir, hərbi məktəblər üçün şagirdlər toplayırdı.

Azərbaycan Xalq Cümhuriyyətinin **hərbi naziri, artileriya generalı Səməd bəy Mehmandarov 16 fevral 1919-cu il tarixində Azərbaycan ordusunda xidmət edən digər millətlərin nümayəndələrindən olan zabitlərə, bir ay müddətində milli dildə komanda terminlərini öyrənmələri barədə əmr imzalamışdı.** Əmrə görə, göstərilən müddətdə hərbi terminləri mənimsəməyən zabitləri, ordudan təxris olunmağa təqdim etmək nəzərdə tutulurdu. Eyni zamanda, 1919-cu il yanvarın 18-də hərbi nazirliyin təkliflərini nəzərə alan hökumət, xalq

müəllimlərini və ailənin tək övladlılarının hərbi xidmətdən azad olunması barədə qərar verdi.

1919-cu ilin aprelində hərbi nazirlik, ordu qərargahı və qoşun hissələri təntənəli surətdə yenidən Bakıya daxil oldu. Ordu quruculuğu sahəsində islahatları davam etdirən AXC parlamenti, 1919-cu il mayın 26-da Hərbi Nazirlikdə baş hərbi idarənin təşkil edilməsi barədə qanun qəbul etdi. Qanunla baş hərbi idarəyə əhalinin hərbi xidmətə çağırılması və natural mükəlləfiyyətlərini yerinə yetirilməsi vəzifəsi həvalə edilirdi. Hərbi idarə çağırışla yanaşı, hərbi-süvari yüklərin daşınması və digər natural mükəlləfiyyətlərin icra edilməsi, yerli hərbi idarələrin hesabatının alınması, qəza, dairə və şəhər idarələri arasındakı mövcud ola biləcək anlaşılmazlıqların həll edilməsi kimi məsələlər tapşırılırdı. **Baş hərbi idarəyə sədrlik daxili işlər nazirinin müavininə həvalə edilirdi. İdarənin üzvləri isə hərbi və ədliyyə nazirliyinin nümayəndələrindən və dəftərxananın işçilərindən ibarət idi.** Dəftərxana isə bir katibdən, iki nəfər iş icraçısından, qeydiyyat və dəftərxana məmurlarından təşkil edilirdi. Yerlərdə qəza, dairə və şəhər hərbi mükəlləfiyyət idarələrinə çağırışçıların siyahısını tutmaq, onları yoxlamaq, toplanış yerlərinə gəlməyi təmin etmək, xidmət barədə məlumat vermək, kimin hansı qaydada xidmət edəcəyini, həm xidmətdən əvvəl, həm də xidmətdən sonra vətəndaşın xidmətə yararlı olub-olmamasını müəyyən etmək və yeni çağırışları təmin etmək həvalə edilirdi.Yerli hərbi idarələrə çağırış kompaniyası başa çatdıqdan sonra baş hərbi idarəyə müfəssəl hesab vermələri tələb olunurdu.

Parlamentin 1919-cu il 26 may qanunu, hərbi qanunvericilik sahəsində münasibətləri tənzimləməklə ordunun daha da möhkəmlənməsinə xidmət edirdi. Qanun eyni zamanda, hərbi idarələrə xidmətdən yayınan şəxslər barədə polis orqanlarını xəbərdar etmək və belə şəxsləri intizam məsuliyyətinə cəlb etmək hüquq verirdi. Yerli hərbi idarələr də ordunu atlarla, döyüş arabaları və digər ləvazimatla təmin etməkdən ötrü, əhalidə olan atlar və digər ləvazimatların qeydiyyatını aparmaq səlahiyyətinə malik idi. **Qanuna görə döyüşlər zamanı yaralanmış və əmək qabiliyyətini itirmiş şəxslər üçün pensiya müəyyən edilirdi.** Qəza, dairə və şəhər hərbi idarələrində ştat vahidləri təsdiq edilmişdi. İdarə katib, iki nəfər iş icraçısından, qeydiyyat və dəftərxana məmurundan ibarət idi. İdarələrə sədrliyi qəza, dairə və şəhər üzrə müvafiq olaraq təyin edilən rəislər həyata keçirirdilər. Bu təyinatı daxili işlər naziri aparırdı. Qəza hərbi idarələri bütün qəza mərkəzləri üzrə yaradılırdı. Eyni zamanda belə idarələr Gəncə, Qazax, Nuxa, Tərtər, Cəbrayıl, Bakı, Göyçay, Salyan, Şəki, Zaqatala və Şuşa istisna olmaqla, digər ərazilərdə tədricən yaratmaq nəzərdə tutulurdu.

Ordunun hərbi tibbi xidmətini yaxşı təşkil etmək üçün parlament tərəfindən 16 iyun 1919-cu ildə qanun qəbul edildi. Qanuna görə 45 yaşına çatmış və axırıncı 5 ildə azərbaycanda yaşayan bütün kişi həkimlər üç illik hərbi xidmətə çağrılırdı. Hökumət, hərbi və daxili işlər nazirliyinə, yerli hərbi idarələrdəki bütün həkimlərin, o cümlədən axırıncı 5 ildə Azərbaycanda işləyənlərin, təcili olaraq qeydiyyata alınması tapşırığını vermişdi. Xidmətə çağrılan həkimlərin yaşı, yaşadığı yeri, ailə və xidməti vəziyyəti, hərbi xidmət keçib-keçməməsi, sağlamlığı, universiteti qurtardığı il, həkimlik stajı və sahə peşə ixtisası qeydiyyata alınırdı. **Qanun hərbi nazirliyə hüquq verirdi ki, daxili işlər və səhiyyə nazirliyi ilə birlikdə təcrübəsi, yaşı, sağlamlığı, ailə vəziyyəti və müəyyən ediləcək vəzifə maaşlarını nəzərə almaqla, müsəlman həkimləri ilk növbədə orduya çağırsın. Qeyri-müsəlman həkimlər isə ehtiyatda saxlanılır və tələbat olan kimi onları da, orduya cəlb etmək nəzərdə tutulurdu.** Daimi iş yerlərində tələbat olardısa, hərbi nazirlik, daxili işlər və səhiyyə nazirliklərinin birlikdə razılığı ilə həkimlərə möhlət verilirdi. Görülən tədbirlər, o cümlədən səyyar hərbi xəstəxananın (lazaret) qurulması hərbi qatar, aptek və tibb ləvazimatı və s. mühüm işlər ordunun təminatı və təchizatını xeyli yaxşılaşdırmışdi.

**1919-cu ilin 9 iyununda hökumətin qərar ilə dövlətin müdafiəsini təşkil etməkdən ötrü xüsusi kollegiyal məşvərətçi orqan- "Dövlət Müdafiə Komitəsi" təsis edildi.** Dövlət Müdafiə Komitəsinin tərkibinə 5 nəfər, o cümlədən Nazirlər Şurasının sədri, Hərbi Nazir, Yollar Naziri, Xarici İşlər Naziri və Ədliyyə Naziri daxil idi. Komitənin iclasında üç nəfər üzvün iştirakı, onun səlahiyyətliliyini (kvorum) təmin edirdi. Sədrin iştirak etmədiyi iclasda onun üzvlərinin hər hansı biri sədrlik funksiyasını yerinə yetirə bilərdi. Komitənin reqlamentinin göstərilən qaydası, dövlətin müdafiəsi üçün zəruri anda onun toplanmasının təmin olunmasına yönəlmişdi.

**AXC hökuməti xarici təcəvüzdən qorunmaq üşün 1919-cu ilin iyunun 16-da Azərbaycan-Gürcüstan müdafiə paktını imzaladı. Pakta (əhdnamə) əsasən tərəflər xarici müdaxilə olduğu halda bir-birlərinə kömək göstərmək öhdəliyi götürürdülər.** Eyni zamanda, neft məhsulları əvəzinə Azərbaycan ordusuna silah, top və digər hərbi ləvazimat verilməsi, Azərbaycan ordusuna gürcü zabitlərin göndərilməsi, Azərbaycan üçün zabit kadrları hazırlanmaq məqsədi ilə Gürcüstanın hərbi məktəblərində müdavimlərin təhsil alması və s. məsələlərə dair **gizli müqavilə də bağlanmışdır.** Azərbaycan hərbi nazirliyi Bakıda fəaliyyətə başladıqdan sonra, Gəncədə yerləşən hərbi məktəb Bakıya köçürülür və yenidən təşkil edilir. Hərbi istehkamçılar məktəbi, hərbi sursat və ləvazimat istehsal edən zavodlar, dəmiryol üçün zabitlər hazırlayan hərbi-dəmiryol məktəbi, həmçinin Şuşada hərbi feldşer

məktəbi acmaqda nəzərdə tutulurdu. **AXC ordusunda ali rütbəli yüzə yaxın general, polkovnik və polkovnik-leytinantlar xidmət edirdi.** Azərbaycannın hərbi dəniz donanmasını da yenidən təşkil etmək nəzərdə tutulurdu. Donanma iki hərbi gəmi və bir sualtı qayıqla təchiz edilmişdi. **Hərbi nazirlik hərbi hava qüvvələrini yaratmaq üçün 1920-ci ildə 12 hidroplan və 6 aeroplan almağı planlaşdırırdı.**

1919-cu il sentyabrın 15-də Bakının ingilislərdən və sentrokaspiçilərdən geri alınmasının ildönümü münasibət ilə Bakıda möhtəşəm hərbi parad keçirilmişdi. Azərbaycan ordusu çox qısa müddətdə çevik hərbi qüvvələr təşkil etməsi öz nəticəsini verdi. **Belə ki, milli ordu 1919-cu ilin yayında rus-bolşevikləri Lənkəranda tərkislah etdi. Qısa müddətdə Qarabağda, daha sonra isə payızda Zəngəzurda əmin-amanlığı təmin etdi. Öz növbəsində Azərbaycan parlamenti və hökumət də, ordu quruculuğunun maddi təminatına həmişə xüsusi diqqət yetirməkdə davam edirdi. Məhz, həmin dövrdə hərbi büdcə, ümumi büdcənin 27,7 faizini təşkil etmişdir. 1920-ci ildən isə hərbi büdcəni yenidən artırmaq nəzərdə tutulmuşdu.** 1920-ci aprelin 19-da qəbul edilmiş “Azərbaycan Qızıl Aypara Cəmiyyəti” haqqında qanun mahiyyət etibarı ilə başqa sahələrlə yanaşı, döyüşlərdə iştirak edən, yaralana əsgərlərə tibbi yardım və digər xidmətlərin göstərilməsini yaxşılaşdırmalı idi. Hərbi nazirlik tərəfindən təqdim edilən qanun məxfi və təcili olduğu üçün onun geniş müzakirə olunması nəzərdə tutulmamış, yalnız maliyyə-büdcə komissiyası ştatların sayı, müəssisələrin adlarının elan olunması və 483 min rubl vəsaitin ayrılmasını müəyyən etmişdir. **Bu cəmiyyət Rusiya dövlətində Səlib-Əhmər (Qizıl xaç) adlanaraq ölkə üçün müəyyən işləri görməyi nəzərdə tuturdu. Azərbaycan Cümhuriyyətində təşkil edilən Hilal-Əhmər (Qızıl Aypara) ölkədə baş verə biləcək fövqəladə hadisələr, fəlakətlər olduqda və s. təcili tədbirlər üçün yaradılırdı.** “Azərbaycan Qızıl Aypara Cəmiyyəti” haqqında qanun yekdilliklə parlament tərəfindən təsdiq edilmişdir.

Milli hökumət silahlı qüvvələrdə qanunculuğun təmin edilməsi, xüsusilə də ölkədə hərbi vəziyyətin elan olunması ilə əlaqədar Ədliyyə Nazirliyinə qanundan irəli gələn bir sıra tədbirlər həyata keçirməyi həvalə etmişdi. Bununla əlaqədar olaraq “Əlahiddə Azərbaycan korpus”u və digər daxili və hərbi birləşmələr üzrə “Korpus məhkəmə”si təsis olunmuşdu. Azərbaycan Respublikasının hərbi məhkəmələri hərbi nazirliyin tabeliyində olmaqla səlahiyyətlərini bütün respublika ərazisində tətbiq etmək hüququna malik idi.

Beələliklə, Azərbaycan Xalq Cümhuriyyəti hökuməti 1918-1920-ci illər ərzində ölkənin suverenliyini, ərazi bütövlüyünü təmin etmək, iqtisadi-sosial sahələrdə tərəqqi və inkişafa nail olmaq üçün mühüm tədbirlər həyata keçirmişdi.

Digər sahələrlə yanaşı, Azərbaycan Xalq Cümhuriyyətində ordu quruculuğunun möhkəm qanunvericilik bazası və digər təxirəsalınmaz təminat və təhcizat infrastrukturların yaradılması məsələləri, parlamentin və hökumətin xüsusi diqqət mərkəzində olmuşdu. Ordu quruculuğunun qanunvericilik əsaslarının mənbəylərinə cari hüquqi aktlarla yanşı, təbii ki, Rusiya imperiyası qanunları daxil edilmişdi. AXC dövləti, ordu quruculuğunu möhkəmləndirmək məqsədi ilə ardıcıl olaraq zəruri cari qanunlar və təkmilləşdirilmiş digər normativ aktlar qəbul etmişdi. Məhz, qəbul edilmiş normativ-hüquqi aktlar geniş təcrübəyə malik olmayan Azərbaycan ordusunun təşkilində mühüm yer tutmuşdur. Oeyd etmək lazımdır ki, orduda nizam-intizamın möhkəmləndirilməsində hərbi məhkəmələrin rolu da xüsusi əhəməiyyət kəsb etmişdi.  Azərbaycan Xalq Cümhuriyyəti ordusunun təhcizat və təminat məsələləri hökumət üçün daim prioritet təşkil etmiş və öz növbəsində, AXC hökuməti güclü ordunun formalaşması üçün vacib olan müxtəlif hərbi strukturlar yaratmış və ordunun hərbi kadrların təmin olunmasına nail ola bilmişdi.

## 2.6. AXC-də cinayət qanunvericilik aktlarının təkmilləşdirilməsi

Azərbaycan Xalq Cümhuriyyətinin cinayət hüququ sahəsində qəbul etdiyi aktlar, onların məzmunu və mahiyyəti ilk növbədə ölkədə baş verə biləcək cinayətkarlıqla mübarizəyə yönəlmişdir (21). Bu məqsədlə milli hökumət və parlament, Rusiya imperiyası cinayət qanunvericiliyinin Azərbaycan Respublikasında qanuni qüvvədə olan məcəllələrini və digər inzibati qanun külliyyatlarını təkmilləşdirərək onlara zəruri əlavələr və düzəlişlər etmişdir. Xüsusi təhlükəli cinayətlərə və vəzifə cinayətlərinə qarşı mübarizədə hökumətin əsas vəzifəsi, milli dövlətçiliyin möhkəmləndirilməsinə, rüşvətxorluq, süründürməçilik, israfçılıq, vəzifədən sui-istifadə və s. bu kimi cinayət əməllərinin qarşısının alınmasına istiqamətlənmişdir. Ağır siyasi-hərbi şəraitdə işləməsinə və dövlət əhəmiyyətli mühüm məsələlərin çoxluğuna baxmayaraq, Azərbaycan dövləti demokratik imicinin qorunması, hər bir vətəndaşının hüquq və azadlıqlarının təmin olunması sahəsində fəaliyyətini dönmədən inkişaf etdirir və təkmilləşdirirdi. Eyni zamanda milli hökumətin təxirəsalınmaz fəaliyyəti, dövlət daxili sabitliyi təmin etmək və cinayət qanunvericiliyi aktlarının məqsədlərinə uyğun olaraq anarxiya ünsürlərinə və vəzifəli şəxslərin sui-istifadə hallarına qarşı mübarizə aparmaqla, vətəndaşların şəxsi əmlak və təhlükəsizliklərini təmin etmək olmuşdur.

Bütün qüvvəsini demokratik və hüquqi dövlət quruculuğuna həsr etmiş Azərbaycan Xalq Cumhuriyyəti, bu vəzifələrin həyata keçirilməsi üçün real şəraitin və hüquqi bazanın təmin olunmasına çalışmışdı. **Demokratik və sivil-dünyəvi dövlət kimi inkişaf edən Azərbaycan Xalq Cumhuriyyəti, hakimiyyətin və idraəetmənin müxtəlif səviyyələrində və strukturlarında bir sıra neqativ problemlərin xəbərdar edilməsi və onların aradan qaldırıması tədbirlərini müəyyən etmişdi. Məlumdur ki, hakimiyyət strukturlarında vəzifədən sui-istifadə və korrupsiya halları, istənilən cəmiyyətdə inkişafı zəiflədir, demokratiya və vətəndaş hüquqları üçün ciddi təhlükə yaradan amilə çevrilir. AXC-də qəbul edilmiş antikorrupsiya qanunları, neqativ tendensiyanın siyasi, iqtisadi və hüquqi səbəblərini aradan qaldırmağa hesablanmışdı. Həmin dövrdə qüvvədə olan mövcud qanunvericiliyin təkmilləşdirilməsi və s. priventiv tədbirlər problemin həllində mühüm rola malik olmuşdu. Bu baxımdan, AXC-nin vəzifə cinayətləri və korrupsiya hallarına qarşı mübarizə təcrübəsinin öyrənilməsi və bu problemin**

**tədiqaqtçılar tərəfindən müqayisəli təhlil edilməsi, zənnimizcə hal-hazırda da aktuallığını itirməmişdir.**

AXC-nin hüquq sistemində, xüsusilə də, cinayət qanunvericiliyi sahəsində islahatlar keçirmək, qanunçuluğu möhkəmləndirmək, rus imperiyası dövründən qüvvədə olan qanunları və məcəllələri yenidən işləmək, bütün respublika ərazisində qanunun vəhdətini təmin etmək kimi mühüm məsələlərdə məhz, Ədliyyə Nazirliyinin üzərinə böyük vəzifələr düşürdü. Bu vəzifələri yerinə yetirmək üçün hökumət və qanunverici hakimiyyət dövlət orqanlarında və məhkəmə idarələrində milli xüsusiyyətlər də nəzərə alınmaqla, işlərin yenidən qurulması və təkmilləşdirilməsi üçün bir sıra mühüm tədbirlər həyata keçirmişdilər. Cinayət hüququ sahəsində qanunverici, xüsusi təhlükəli cinayətlər, o cümlədən vəzifədən sui-istifadə kimi cinayət əməllərinin xəbərdar edilməsi və baş verə biləcəyi halda isə, qanunun gücü ilə cəzalandırılmasını müəyyən edirdi.

1919-cu il iyulun 11-də Azərbaycan Respublikasında hərbi vəziyyətin elan edilməsi ilə əlaqədar olaraq Dövlət müdafiə komitəsinin sədri N.Yusubbəyovun əmri ilə komitənin məcburi yerinə yetirilməli olan qərarı dərc edilmişdir. Ümumi məhkəmələrin icraatına aid olan bir sıra cinayət işlər hərbi dövrün qanunlarına uyğun olaraq hərbi məhkəmələrə verilərək, hərbi məhkəmə Nizamnamələri ilə mühakimə edilirdi. Azərbaycan Respublikasının hakimiyyət orqanları əleyhinə ixtişaş salmaq; Respublikaya qarşı xəyanət etmək; Azərbaycan Respublikası parlamentin sədrinin, hökumətin sədrinin və üzvlərinin həyat və azadlıqlarına qəsd etmək; hərbi hissələrə və hərbi keşikçilərə (gözətçilərə) hücum etmək; hakimiyyət orqanlarına silahlı müqavimət göstərmək; xidməti vəzifələrini həyata keçirən vəzifəli şəxslərin həyatına sui-qəsd etmək; dəmiryollarını, körpüləri, yolları və digər qurğuları, həmçinin su mənbəələrini və digər dövlət əhəmiyyətli tikililəri zədələmək və ya məhv etmək; tikililəri, taxıl və taxıl məhsullarını yandırmaq və s. bu kimi əməllər törətmək; və hərbi xidmətin pozulmasına yönəlmiş təbliğat aparmaq.

Dövlət müdafiə komitəsinin həmin qərarında aşağıda göstərilən bəzi cinayət əməlləri də, ümumi məhkəmələrdən alınaraq inzibati qaydada məsuliyyətə cəlb olunmanı müəyyən edirdi: millətlərarası münaqişələrlə nəticələnə biləcək və siniflərarası münasibətləri kəskinləşdirəcək şaiyələrin yayılmasına görə; hökumətin və hərbi hissələrin fəaliyyəti barədə yalan şaiyələrin yayılmasına görə; ərzaq və digər zəruri malların qiymətlərinin qalxmasına görə tətil keçirmək, həmçinin səbəbsiz olaraq ərzaq və digər malların satılmasını dayandırmağa görə.

Dövlət müdafiə komitəsinin əmri ilə həmçinin qadağan edilirdi: siyasi xarakter daşıyan mitinq və yığıncaqların hakimiyyət orqanlarının icazəsi olmadan keçir-

mək; və odlu silah, patron və partlayıcı maddələrin gəzdirilməsi, saxlanılması və satılması. Dövlət müdafiə komitəsinin əmrinin ikinci bəndi, Azərbaycan ordusunun və müvafiq qoşunların hərbi qulluqçularının tabel silahlarına, bu qadağanlar şamil edilmirdi. Müdafiə komitəsinin qərarına görə silahların verilməsi və onun gəzdirilməsi hüququnu müəyyən etmək quberniya daxilində qubernatorlara həvalə edilirdi. Eyni zamanda, Dövlət müdafiə komitəsinin əmrinə görə Daxili İşlər Nazirliyinin icazəsi olmadan yerli inzibati hakimiyyət orqanlarının hər hansı qərar verməsi qadağan edilirdi.

1919-cu il iyulun 27-də hakimiyyət strukturlarının işini yaxşılaşdırmaq, həmçinin müxtəlif dövlət idarələrində cinayət xarakterli və sui-istifadə əməllərinin qarşısını almaq məqsədilə, parlament tərəfindən xüsusi təftiş-istintaq Komissiyası yaradılmışdı. Parlamentin təsis etdiyi xüsusi təftiş-istintaq Komissiyasının tərkibi Ədliyyə Nazirinin təqdimatı ilə hökumət tərəfindən təsdiq edilmişdi. Komissiya sədrdən və 8 nəfər üzvdən ibarət təşkil edilmişdir. Xüsusi təftiş-istintaq Komissiyası, dövlət idarələrində çalışan məmurların qanunsuz əməllərinin, o cümlədən süründürməçiliyin, rüşvətxorluğun, korrupsiyanın qarşısının alınmasında əhəmiyyətli işlər görmüşdür. Komissiyaya verilmiş müstəsna səlahiyyətlər hakimiyyət orqanlarının cinayət və digər qanunsuz əməllərini aşkar etməyə və onların qarşısını qətiyyətlə almağa yönəlmişdir.

**Xüsusi təftiş-istintaq Komissiyasının səlahiyyətlərinə aşağıdakılar daxil idi:**

**-bütün dövlət idarələrindən, vəzifəli şəxslərdən, o cümlədən məhkəmə orqanlarından, nəzarət və poçt-teleqraf, həmçinin ictimai təşkilatlardan lazım olan bütün məlumat və arayışları almaq hüququ;**

**-hökumətdən, ictimai və xüsusi şəxslərdən kredit mənbələrinin əldə edilməsi barədə yuxarıda göstərilən məlumatları öyrənmək hüququ;**

**- şəxsi izahat və ifadə vermək məqsədilə bütün vəzifəli və fərdi şəxslərin komissiyaya gəlməsini tələb etmək hüququ;**

**-bütün vəzifəli və fərdi şəxsləri cinayət məsuliyyətinə cəlb etmək və komissiyanın ayrı-ayrı üzvlərinin iştirakı ilə cinayət mühakiməsi Nizamnaməsinin 315-482 maddələri üzrə (IV-X fəsillər) ibtidai istintaq hüququ qüvvəsinə bərabər tutulan təhqiqat aparmaq hüququ;**

**-polis orqanlarına və dəmiryolu mühafizəsi idarəsinə aid ayrı-ayrı istintaq hərəkətlərini aparmaq və digər işlər həvalə etmək barədə komissiyaya tam səlahiyyət verilməsi hüququ;**

**-komissiya tərəfindən məhkəmə orqanlarına, işin az əhəmiyyətli olması və ayrıca təhqiqat aparılmasına zərurət olduğu üçün həmin işlərin onlara həvalə edilməsi hüququ;**

**-bütün hakimiyyət strukturlarına istintaq-təftiş komissiyasına hərtərəfli kömək göstərməyi tələb etmək hüququ;**

**- komissiya tərəfindən vəzifəli şəxslərin 5-ci dərəcəsinə qədər olanları istintaq-təhqiqat dövründə vəzifədən kənarlaşdırmaq və eyni zamanda komissiya sədri vasitəsilə daha yüksək vəzifəli şəxslərin müvəqqəti olaraq səlahiyyətlərdən məhrum edilməsi üçün Nazirlər Şurası qarşısında vəsatət qaldırılmaq hüququ.**

İstintaq-təftiş komissiyası təhqiqatları qurtardıqdan sonra, işlərin mövcud qanunvericiliklə aparılması üçün prokuror nəzarətinin təmin edilməsi şərtilə iş istintaqa göndərilirdi. Cinayət tərkibi aşkar edilməmiş təhqiqat işlərinin aparılması isə komissiyanın qərarı ilə dayandırılır və hökumətin işlər idarəsinə təhvil verilirdi.

Azərbaycan parlamenti qanunçuluğun möhkəmləndirilməsi məqsədi ilə 1919-cu il avqustun 18-də **"Özgə əmlakı əleyhinə yönəlmiş cinayətlərə görə cəza verilməsi üçün ədalət məhkəməsinin səlahiyyətlərinin artırılması barədə"** qanun qəbul etmişdi. Qanunda göstərilirdi ki, Rusiya imperiyası qanunvericiliyində nəzərdə tutulmuş cinayət əməllərinə görə tətbiq edilən pul cərimələri rublun kursunun aşağı düşməsinə görə, ədalət məhkəmə sanksiyalarının effektivliyi məhdudlaşmışdır. Fırıldaqçılıq, mənimsəmə, israfçılıq, öz əmlakını oğurlamaq və s. əməllərə görə müəyyən edilən 300 rubl cərimə təyin etmək hüququnda olan ədalət məhkəməsinin səlahiyyətlərini artırmaq məqsəd ilə, göstərilən cinayətlərə görə tutulan cərimələr 300 rubldan 10 min rubla qədər artırılır və eyni zamanda dairə məhkəməsinə aid bəzi xırda cinayət əməllərini araşdırmaq səlahiyyətləri ədalət məhkəmələrinə həvalə edilirdi. Mövcud yaranmış şəraitdə parlamentin cinayət qanunvericiliyinin təkmilləşdirilməsinə dair qəbul etdiyi qanuna əlavələr, göstərilən cinayət əməllərinə görə adekvat cəzalar müəyyən etməklə, ədalət məhkəmlərinin möhkəmləndirilməsinə xidmət edirdi.

Parlamentin 1919-cu il sentyabrın 29-da qəbul etdiyi **"Hədə-qorxu ilə tələb etmə, fırıldaqçılıq və rüşvətə görə cəzaların gücləndirilməsi haqqında"** qanunu, cinayət və islah cəzaları Qanunnaməsinə və Cinayət mühakiməsi Nizamnaməsinə dəyişiklikləri və əlavələri təsdiq etmişdi. Belə ki, Rusiya imperiyasının 1885-ci il XV cild üzrə cinayət və islah cəzaları Qanunnaməsinin 372-ci, 373-cü və 378-ci maddələrinə və onun davamı kimi 1912-ci, 1913-cü və 1914-cü illərdə edilmiş dəyişikliklər və nəhayət Cinayət mühakiməsi Nizamnaməsinin 268-ci maddə-

sinə edilən dəyişiklik və əlavələr nəzərə alınmaqla, parlamentin verdiyi qanun qüvvəyə minirdi. Qanunun müvafiq maddələrinə görə, hədə-qorxu ilə tələb etməyə, fırıldaqçılıq və rüşvət alma kimi cinayət əməllərinə görə daha sərt sanksiyalar tətbiq edilməsi nəzərdə tutulurdu. Eyni zamanda, qanunda vəzifə cinayətlərinin təsnifatına xüsusi diqqət verilmiş, vəzifədən sui-istifadə, rüşvətxorluq kimi cinayət əməlləri vəzifəli şəxslərin korrupsiya cinayəti kimi tövsif edilmişdir. Cinayət qanunnaməsinin 372-ci maddəsinə edilən dəyişikliyə görə, dövlət və ya ictimai xidmətdə olan məmur və ya başqa qulluqçular pul, əşya və digər formada hədiyyə almağa görə və bu barədə öz rəisinə heç bir məlumat verməyərək, eyni zamanda hədiyyənin alınması barədə ilkin razılıq olmadığı, lakin, onu qəbul edərək hədiyyənin verilməsi şərtini icra etdiyinə görə məmur vəzifədən çıxarılaraq 4 aydan 8 aya qədər həbsxana cəzasına məruz qalırdı.

Əgər hədiyyə (peşkeş) alınması barədə ilkin sövdələşmə edərək onu qəbul edən məmur hədiyyənin "əvəzini" təyinatı üzrə yerinə yetirərsə, ona 8 aydan bir il 4 aya qədər həbsxana cəzası və vəzifədən kənar edilmə sanksiyası təyin edilirdi.

**372-ci maddə ilə müqəssir olanlara həbs cəzasından əlavə, alınmış hədiyyənin 10 misli miqdarında pul cəriməsi müəyyən edilirdi. Əgər əşyanın qiymətini müəyyən etmək mümkün olmursa, 10 min rubla qədər cərimə nəzərdə tutulurdu. Digər tərəfdən hədiyyə məmura bilavasitə deyil, digər şəxslər vasitəsilə və ya onun arvadı, uşaqları, qohumları tərəfindən çatdırıldıqda da, yuxarıda göstərilən cəza sanksiyası olduğu kimi qüvvədə qalırdı.**

Cinayət Qanunnaməsinin 373-cü maddəsilə xidməti dövründə qanunsuz hərəkət edərək miqdarının az olmasına baxmayaraq pul və ya digər qiymətli əşyalar almış məmurlar, öz rəislərinin etibarından və vəzifəsindən sui-istifadə etməyə görə, bu Qanunnamənin 31-ci maddəsinin birinci, ikinci və üçüncü bəndləri üzrə xüsusi fərdi hüquq və imtiyazlarını itirərək 4 ildən 5 ilə qədər həbs cəzasına məruz qalırdılar.

Əgər göstərilən rüşvəti alaraq peşman olan məmurlar, bu barədə öz rəislərinə məlumat verərdisə, məhkəmə orqanları məmurun peşman olmasını və səmimiyyətini nəzərə alaraq müqəssiri vəzifədən kənarlaşdırılmaqla 8 aydan 1 il 4 aya qədər azadlıqdan məhrum etmək cəzası təyin edirdi. Onların aldıqları rüşvət yerli sosial təminat prikazına (idarəsinə) və ya ona bərabər təşkilata göndərilirdi.

Qanunnamənin 378-ci maddəsinə görə hədələməklə cinayət törətmiş müqəssirlər, bütün şəxsi və əmlak hüquqlarından məhrum edilərək 4 ildən 6 ilə qədər sürgün və katorqa işlərinə cəlb edilirdilər. Əgər hədələmək, zorla və ya digər güc tətbiq etmək üsulları ilə törədilərdisə, onda cəza kimi sürgün və katorqa işləri 4 ildən

8 ilə qədər nəzərdə tutulurdu. Beləliklə, “Hədə-qorxu ilə tələb etmə, fırıldaqçılıq və rüşvətə görə cəzaların gücləndirilməsi haqqında” qanunun tələblərinin pozulmasına görə, sanksiyaların sərtləşdirlməsi, preventiv xüsusiyyətlərə malik olmaqla baş verə bilcək qanunsuzluqların xəbərdar edilməsi və qarşısının alınmasında mühüm vasitələrdən biri olmuşdur.

Seçki hüququ sahəsində qanunçuluğu təmin etmək AXC hökumətinin mühüm vəzifələrindən biri olmuşdur. Çünki, mövcud qanuni əsaslarla legitim seçki orqanlarının təşkil edilməsi gənc respublika üçün olduqca zəruri idi. Eyni zamanda seçki hüququ sahəsində qanunsuz əməllərin qarşısının alınması, dövlətin beynəlxalq imici üçün əhəmiyyətin dərk edən milli hökumət, bu sahədə mükəmməl qanunvericilik bazasını yaratmağ çalışmışdır. Demokratik seçkilərlərə nail olmaq üçün müvafiq qanunla bütün məsələlər tənzimlənmiş və saxtakarlıq, sui-istifadə hallarına qarşı qanunun gücü ilə zəruri tədbirlər nəzərdə tutulmuşdur. Belə ki, Azərbaycan Müəssislər Məclisinə seçkilər haqqında qanuna görə seçkilər dövründə hər hansı bir pozuntu baş verdiyi halda müqəssir olan şəxslər barədə inzibati və cinayət məsuliyyəti müəyyən edilirdi. Müəssislər Məclisinə seçkilərdə öz namizədliyini irəli sürmüş şəxslərin təbliğat materiallarını, siyahıları çıxarmağa və məhv etməyə görə, müqəssir şəxslərə bir aydan üç aya qədər həbs cəzası verilirdi. Seçici qruplarının sərəncamında olan, təbliğat üçün nəzərdə tutulmuş binalara özbaşına daxil olaraq, təbliğat materiallarını və ədəbiyyatları korlamaq və ya məhv etməyə görə, həmçinin namizədlərə və onların səlahiyyətli nümayəndələrinə fiziki gücü tətbiq etməklə hədələməyə görə günahkar olan şəxslər də, 6 aydan az olmayaraq həbsxana cəzasına məruz qalırdılar.

Namizədin şəxsiyyəti barədə yalan məlumat yayaraq, onu etibardan salmağa, həmçinin deputatlığa namizədin mənsub olduğu təşkilatın nüfuzuna xələl gətirməklə digər namizədləri təbliğ edən günahkarlara bir aydan 6 aya qədər həbsxana cəzası verilirdi. Deputatlığa namizədin şəxsi ərizəsində saxtakarlıq və düzəliş edilməsində günahkar olanlar barəsində islah evlərinə məhkum olunmaqla həbs cəzası təyin edilirdi. Həmçinin belə cəza növü, Mərkəzi Seçki komissiyasına öz ərizəsində saxtakarlıq və düzəliş etmiş şəxs barəsində də tədbirlər görülməsi müəyyən edilirdi. Seçki komissiyalarına düzgün olmayan namizəd siyahıları və seçici siyahıları təqdim etmiş şəxslər həbsxana cəzasına məruz qalırdılar.

Seçkiqabağı təbliğat aparan namizədlər və ya onların seçki qruplarına və komissiyanın özünün fəaliyyətinə zor tətbiq etməklə hədə göstərən günahkarlara həbsxana cəzası tətbiq edilirdi. Əgər belə hərəkətlər bir dəstə adamın iştirakı ilə baş verərdisə və yığıncağın və ya komissiyanın fəaliyyəti pozulardısa təqsirkarlar islah evlərinə məhkum edilirdilər. Məscidlərdə, məbədlərdə və digər ibadət yerlə-

rində həm şifahi həm də yazılı surətdə seçkiqabağı təbliğatla çıxış etmək qadağan edilirdi. Göstərilən qaydanı pozan təqsirkarlara 6 aydan az olmamaqla həbsxana cəzası verilirdi. Seçkilərdə iştirak etmək hüququnda olan şəxslərin sərbəst surətdə öz fikirlərini və təbliğatlarını aparmağa qarşı yönəlmiş bütün hallar- şəxsə fiziki güc tətbiq etmək, tövlamaq, aldatmaq, hədələmək, hakimiyyət səlahiyyətlərindən sui-istifadə etmək və ya iqtisadi cəhətdən aslı olmasından istifadə edilməsinə görə təqsirkarlar həbsxana cəzasına məruz qalırdılar.

Seçki prosesinin keçirilməsinə müdaxilə edən şəxslər, yəni komissiya üzvlərinə qarşı zor tətbiq edilməsi, seçki binası daxilində hədələmək, iğtişaş törətmək, seçici siyahılarını cırıb korlamaq, seçki bülletenlərini məhv etmək və seçki qutularını sındırmağa görə təqsirkarlar islah evlərinə məhkum edilirdilər. Seçki günlərində iğtişaş salan, seçiciləri tovlamaq, seçkilərin dayandırıldığı barədə əhaliyə yalan məlumatlar yayan şəxslər üç aydan az olmayaraq islah cəzasına məruz qalırdılar. Seçki günlərində məntəqələrə qanunsuz daxil olaraq təbliğat aparan şəxslər və komissiya sədrinə itaət göstərməyən digər belə qanunsuz hərəkətlər edən təqsirkarlar həbs edilirdilər. **Seçki günü seçicilərin səslərini əldə etmək məqsədilə onlara süfrə qonaqlığı verən şəxslər də həbs cəzasına məruz qalırdılar. Seçki hüququndan məhrum edilmiş şəxslər qanunsuz olaraq Müəssislər Məclisinə seçkidə iştiraka görə həbs cəzasına məhkum edilirdilər. Seçki prosesinin üç gün ərzində davam etdiyi günlərdə bir dəfədən artıq səs vermiş şəxslər həbs cəzasına məruz qalırdılar.**

Müəssislər Məclisinə seçkilər prosesini təşkil edən komissiya üzvlərinin də məsuliyyəti müəyyən edilirdi. Belə ki, seçkilərin nəticələrini qəsdən olaraq saxtalaşdıran, seçki siyahısını və səsləri düzgün saymayan və ya siyahını və bülletenləri qəsdən korlayan, seçki siyahısını və ya bülleteni artırmaq və ya azaltmağa görə təqsirkar olan komissiya üzvləri üç ildən az olmayaraq islah evlərinə məhkum edilirdilər. Qanunda göstərilən təlimatlara uyğun olmayaraq gizli surətdə Müəssislər Məclisinə seçkilərin nəticələrini elan edən şəxslər həbsxana cəzasına məruz qalırdılar. Müəssislər Məclisinə seçkilərin "Əsasnamə"sinin təlimatına uyğun olmayaraq, seçkilərin nəticələrini bu və ya digər namizədin xeyrinə dəyişdirməyə yönəlmiş vəzifəli şəxsin və ya komissiya üzvlərinin bilərəkdən və ya qəsdən olaraq törətdikləri əməllərə görə günahkarlar həbslə cəzalandırılırdılar.

Beləliklə Azərbaycan Xalq Cumuriyyəti, dövlətin əsaslarına təhlükə olan vəzifəli şəxslərin və məmurların sui-istifadə və korrupsiya əməllərinin qarşısının alınması üçün qanunvericiliyi sərtləşdirmiş və bütün hüquqi vasitələrlə bu kimi əməllərə qarşı mübarizəni gücləndirmişdir. Bu məqsədlə yaradılmış xüsusi təftiş-istintaq Komissiyasını fəaliyyəti təqdirə layiqdir. Məhz, müxtəlif dövlət idarələrin-

də cinayət xarakterli və sui-istifadə əməllərinin aşkar etməkdə və onların qarşısını almasında parlamentin, hökumətin, hüquq mühafizə orqanlarının, o cümlədən xüsusi təftiş-istintaq Komissiyasının preventiv fəaliyyəti, gənc dövlətin möhkəmlənməsinə və onun beynəlxalq nüfuzunun artmasına xidmət etmişdir. Azərbaycan Xalq Cumhuriyyəti dövlətində görülən tədbirlərin hüquqi nəticəsi isə, öz növbəsində dövlət hakimiyyətini möhkəmləndirməklə yanaşı, hakimiyyət qolları təmsilçilərinin, hər bir məmurun, vəzifəli şəxsin məsuliyyətinin artırılması, dövlətçiliyə sədaqətlə xidmət edilməsinin və nəticə etibarı ilə bütün neqativ halların qarşısının almasına hesablanmışdır.

# NƏTİCƏ

Azərbaycan Xalq Cümhuriyyətinin dövlət və hüquq tarixinin kompleks araşdırılması, dövlət quruculuğu və hüquqi idarəçilik konteksində bir sıra özünəməxsus xüsusiyyətləri aşkar etməklə yanaşı, ümumiləşdirilmiş nəticələrin elmi-nəzəri əsaslarına dair bəzi mülahizələrlə çıxış etməyə imkan verir. Yeni təsis edilmiş Cümhuriyyətin dövlət-hüquqi idarəçilik sisteminin əsas vəzifəsinə milli-demokratik təsisatların və institutların formalşdırılması, təkmilləşdirilməsi, inkişafı və möhkəmləndirilməsi daxil idi. Ali dövlət hakimiyyəti sisteminin subyektləri, bu vəzifənin öhdəsindən gələrək xalqı təmsil edən dövlətin varlığnı 23 ay müddətində qoruya bilmişdilər.

AXC-nin dövlət-ərazi quruluşu unitar, siyasi dövlət idarəçilik forması isə, parlamentli respublika olmuşdur. Cümhuriyyətin vahid hakimiyyət təsisatlarının və milli hüquq sisteminin qurulması, heç şübhəsiz ki, dövlət atributu, sanki özünü təsdiq mahiyyəti kəsb etmişdir. AXC-də siyasi münasibətlər sisteminin əsasını dövlət təsisatları- müvafiq olaraq Milli Şura, Nazirlər Kabineti və Məclisi-Məbusandan ibarət ali hakimiyyət institutları təşkil etmişdir. Ali dövlət hakimiyyəti sisteminin əsas subyektlərinin hüququ statusunu bilavasitə tənzimləyən əsas hüquqi-normativ aktın (konstitusiyanın) mövcud olmaması, dövlət təsisatlarının yuridik funksiyalarının müəyyən edilməsində kauzalıq yaratmışdır. Çünki, siyasi sistemin fəaliyyət prinsiplərinin (başlanğıclar) əsasını bilavasitə konstitusiya normaları təşkil edir. Azərbaycan Xalq Cümhuriyyətində hakmiyyət qollarının qarşılıqlı fəaliyyətini harmoniyalaşdıran, səlahiyyət həddlərini müəyyən edən digər hüquqi aktların "qıtlığı", bu problemi daha da dərinləşdirir. Çünki, dövlət hüququ normaları ("İstiqlal Bəyannamə"si) AXC-nin ali hakimiyyət təsisatlarının əsas fəaliyyət istiqamətini müəyyən etsə də, hüquqi tənzimləməni tam əvəz etmir, yalnız ayrı-ayrı struktur təsisatları barədə çərçivə qanunlarının verilməsi ilə, bu məsələlərin tənzimlənməsini tam əhatə etmək olardı. Təbii ki, bu məsələnin həlli konstitusiyanın (əsas qanunun) qəbul edilməsindən sonra reallaşdırmaq mümkün idi. Bununla belə, AXC-nin ali hakimiyyət subyektlərinin bir sıra normativ-hüquq aktlarının məzmunu əsasında (məs: parlamentin deputat və məmurluq haqqında; hökumətin fəaliyyətini tənzimləyən icraedici şuraların fəaliyyəti haqqında, vətəndaşlıq haqqında, müəssislər məclisinə seçkilər haqqında və s.) hər bir hakmiyyət qolunun fəaliyyətinin təşkil olunması, səlahiyyətləri və funksiyaları barədə müəyyən qənaətə gəlmək və fikir yüyrütməyə əsas verir. Azərbaycan Milli Şurasının özünün hüquqi statusu isə, tam legetim xarakter daşımış və Təsisçi Məclis kimi səlahiyyətləri həddində fəaliyyəti

tənzimlənmişdir. qəbul edilmiş konyuktur qərar idi. Zənnimizcə, Milli Şura kimi təcrübəli qurumun

**Azərbaycan Xalq Cümhuriyyəti, hüquqi təbiət etibarı ilə milli-hüquqi dövlət idi. Onun milli-hüquqi təbiətinin rəsmiləşdirən ilk yuridik sənəd Azərbaycan Milli Şurasının "İstiqlal Bəyannamə"si (əsas dövlət qanunu) olmuşdur. Milli Şura tərəfindən "Azərbaycan" ifadəsi ilk dəfə olaraq Xalq Cümhuriyyəti dövlətinin adında rəsmiləşdirilmişdir. Məhz, hökumətin qəbul etdiyi azərbaycan dili haqqında qanun, dövlət bayrağının təsviri (üç rəng-türkçülük, müasirləşmə, islam rəmzi), Cümhuriyyətin hərbi himni, mülki-hərbi simvolikalar, atributlar, humanitar fəaliyyəti təmsil edən qızıl ayparanın təsis edilməsi, parlamentin xüsusi dövlət-mühafizə qurumu və s. dövlətin əsas mahiyyətini müəyyən edərək, onun spesifik milli-hüquqi təbiətini tamamlamışdır.**

I Respublikanın dövlət idarəçilik təcrübəsindən çıxış edərək qeyd etmək olar ki, siyasi quruluşun parlamentli idarəçilik formasının müəyyən edilməsi, təsis olunduğu dövrdə dövlət idarəçilik münasibətlərinin ən ideal forması idi. Məlumdur ki, **müasir dövrdə bir sıra ölkələrədə prezident respublika idarəçilk forması öz əlamətlərinə görə, dualist quruluşu ("ikili idarəçilik") "sanki" möhkəmləndirir və icraedici hakimiyyət qolu, xüsusilə də iqtisad-təsərrüfat idarəçiliyi sahələri üzrə iki "pillədə" təmsil olunmuş kimi görünür.** Yəni, prezident dövlət başçısı statusu (əsas status) ilə yanaşı, eyni zamanda bütün ali icaraedici hakimiyyət (xüsusi ilə də, güc nazirlikləri) səlahiyyətinə malikdir. Hökumətin baş naziri də, idarəetmə səlahiyyətlərini (baxmayaraq ki, səlahiyyətlərin həddləri əsas qanunla tənzimlənir, lakin bu "hüdudlarının pozulması" və ya üst-üstə düşməsi mümkündür) yerinə yetirərək "sanki" dualizmi tamamlayır. Belə idarəçilik formalarında iqtisadi-sosial və s. layihələrin icrasında kontrassiqnaturadan istifadənin hüquqi konstruksiyasına tətbiqi olduqca aktuallığ kəsb edir. Çünki, layihələrin iflası müvafiq nazirliyin və ya idarəninin dövlətin vəsaitlərinin səmərəsiz istifadəsinə görə, bilavasitə hüquqi məsuliyyətini müəyyən edir. Məhz, parlamentli respublika quruluşunda məsuliyyətli və cavabdeh icraedici hökumət institutu, hakimiyyət qolları arasında müvazinətin və tarazlığın qorunmasında xüsusi fərqli cəhətlərə malik olmaqla, bu hakmiyyət qolunda monist idarəçiliyi təmin edir.

**Müasir prezident respublika idarəçilik quruluşu formalarında "dualizmin" yaranmasının əsas səbəbi isə, klassik prezdentlik institutunun mahiyyətini müəyyən edən bir pilləli idarəetmə prinsipindən uzaqlaşma prosesi nəticəsində baş vermişdir.** Klassik prezident respublika idarəçilik

quruluşunda, baş nazir institutu yoxdur və icraedici hakimiyyət dövlət başçısi statusunda bilavasitə prezidentə məxsusdur və idaretmə səlahiyyətlərini müvafiq departamentlər icra edir. Beləliklə, prezident institutunun və baş nazir institutnun bir-birini tamamlayan və ya təkrarlayan (dualist), təsərrüfat-idarəçilik orqanları əvəzinə, departamentlərin fəaliyyət göstərdiyi klassik prezident idarəçiliyi quruluşlarında, unifikasiya edilmiş mükəmməl monist idarəetmə formalaşır və daha səmərəli fəaliyyət göstərir.

Monoqrafiyada, AXC-nin milli hüquq sisteminin formalaşması və inkişafının spesifik və fərqli xüsusiyyətlərinin araşdırılması və təhlil edilməsi, hüququn institusional quruluşuna dair bəzi nəzəri-hüquqi nəticələri formalaşdırmağa imkan verir. Məlumdur ki, ayrı-ayrı hüquq sistemləri inkişaf edən və dəyişən ictimai münasibətlər çərçivəsində, dövlətdə və cəmiyyətdə təşəkkül tapan və funksiyalaşan (müəyyən vəzifələr daşıyan) həm obyektiv və həm də subyektiv şərtlər daxilində müxtəlif ziddiyyətləri aşkar edir. Bu ziddiyətlərin aradan qaldırılması, yalnız hüquq qaydalarının harmoniyalaşdırılması ilə kolliziyaların lakollaşdırılması ilə mümkündir. Ona görə də, hüquq sistemləri üçün hüquqi texnologiyanın tələblərinə əməl etmək şərti mühüm əhəmiyyət kəsb edir. Ənənəvi hüquq institutlarının və mənbələrinin milli hüquq sistemi konteksində araşdırılması, ilk növbədə hüquq münasibətlərinin inkişaf səviyyəsini, ayrı-ayrı hüquq mənbələrinin Azərbaycan hüququnun formalaşmasında rolu və konkret tətbiqi, hüquqi varisliyin təmin edilməsi sahəsindəki effektivliyi və məqsədə müvafiqliyi, nəticə etibarı ilə milli hüququn spesifik xüsusiyyətlərini müəyyən etməyə əsas verir. İctimai münasibətlərin hüquqi tənzimetmə məqsədlərinə ilk növbədə, müvafiq davranışı təmin edən hüquqi vasitələrin məcmusunun sistemləşdirilməsi daxildir.

**Beləliklə, ictimai-siyasi həyatın obyektiv ümumi qanunauyğunluqları əsasında hər bir dövlətin hüquq sistemi formalaşır. Siyasi müstəqilliyin yaranması və müstəqil dövlətin fəaliyyəti, bütün ölkəni əhatə edəcək vahid hüquq sisteminin formalaşması üçün də, əsas rəhbər başlanğıcları (prinsipləri) müəyyən edərək, dövlətin hüquq sisteminin təşəkkülü prosesini tamamayır. Bu formalaşmanın mahiyyəti, dövlətin mövcud siyasi, iqtisadi, sosial, mədəni və hüquqi ideolgiyası ilə əlaqəli və vəhdət təşkil edir.**

AXC-də dövlət hüququnun müəyyən etdiyi müddəalarla yanaşı, parlament qanunları və delegiya aktları hüququn institusional sahələrinin inkişafı üçün əsas mənbə və hüquqi göstərişlər olmuşdur. Dövlət hüququnun ("İstiqlal Bəyannamə"si) müddəaları dövlət hakimiyyətini və ictimai-siyasi quruluşu hüquqi cəhətdən möhkəmləndirir, onun inkişafı üçün siyasi-hüquqi konstruksiyanı müəyyən edir. **Lakin qısa dövr ərzində AXC-nin milli hüququnun bütün**

**hüquq sahələri üzrə kompleks və sistemli formalaşması, təbii ki, mümkünsiz idi.** Bununla belə, hüququn ayrı-ayrı sahələri və institutları üzrə qəbul edilmiş normativ aktlar və ümumilikdə mövcud qanunvericiliyin inkişaf etdirilməsi, Azərbaycan milli hüququnun ümumi sistemi üçün əsas normativ-hüquqi mənbə olmuşdur. Məhz, Cümhuriyyətin milli hüquq sistemi, obyektiv münasibətlər çərçivəsində formalaşaraq özünün spesifik inkişaf xüsusiyyətlərinə əsaslanmışdır. **Formalaşmış hüquqi baza və idarəçilik sistemi isə, milli hüquq sisteminin sonrakı varisliyinin təmin edilməsində əvəzsiz rola malikdir və Azərbaycanda hüquqi idarəçilik, milli hüquqi düşüncə, hüquqi fikir və hüquqi mədəniyyətin əsas xarakterik cəhətlərini müəyyən edir.**

AXC-də, hüquq quruculuğu sahəsində dövlət, vətəndaş və insan hüquqlarına dair qüvvədə olan qanunların təkmilləşdirilməsi və onların praktikada tətbiqi imkanları prioritetdir və bu proses həm də hüquqi varisliklə şərtləşir. Belə ki, XX əsrin əvvəllərində qadınlara kişilərlə bərabər seçki hüququnun verilməsi çox unikal akt hesab olunmalıdır. Məhz, müasir Azərbaycanın demokratik, sivil, dünyəvi və hüquqi dövlətinin əsasları Xalq Cümhuriyyəti tərəfindən yaradılmış, dövlət müstəqilliyinin bərpasından sonra bu ali dəyərlər hal-hazırda uğurla inkişaf etdirilir.

Milli hüququn institusional inkişafının spesifik xüsusiyyətlərinə və hüquq mənbələrinin nəzəri əsaslarına dair ümumiləşdirilmiş nəticələri yekunlaşdıraraq aşağıdakı cəhətləri fərqləndirmək olar:

-milli hüququnun sistemi, hökumətin delegiya hüququ və parlamentin qanunvericilik fəaliyyəti prosesində formalaşmışdır;

-Azərbaycan milli hüququ, hüquqi təbiətinə görə parlament və delegiya hüququdur;

-parlament hüququ və delegiya hüququ, Azərbaycan Xalq Cuhuriyyəti hüququnun əsasını təşkil edir;

-Azərbaycan parlamenti, hüquqi aktların hazırlanması və qəbulunda delegiya hüququnu nəzərə alır;

-delegiya və parlament hüququnun, hüququn digər mənbələrinə nisbətdə üstünlük təşkil edir;

-məhkəmələrinin presedentləri Azərbaycan hüququna yaddır və mahiyyət etibarı ilə delegiya və parlament hüququ, məhkəmə presedentlərinin yaranmasına deyil, qarşısının alınması ilə şərtləşmişdir;

- milli hüquq sistemi, delegiya və parlament hüququnu tənzimləyir, onları məhkəmə praktikasına keçirərək təkmilləşdirir və gələcək məcəlləşdirmə üçün hüquqi bazaya çevirir;

-delegiya aktları, delegiya səlahiyyətləri həddində hökumət tərəfindən qəbul edilmiş və ictimai həyatın ən müxtəlif sahələri üzrə qərarları əhatə edir;

-Nazirlər Kabineti, delegiya səlahiyyətli orqan statusunda aktlar qəbul edir və siyasi və iqtisadi sahədə məqsədli islahatları apararaq, nəyinki delegiya aktlarının, o cümlədən parlament aktlarının sayının çoxalmasını şərtləndirən hakimiyyət mexanizmi statusuna malik olur;

-idarəçilik sistemində səlahiyyətlərin unifikasiya edilməsi, konkret vəzifələrin çevikliyinin təmin ediməsində mühüm əhəmiyyət kəsb edir və bu mexanizmləri təmin edən təsisatlar isə, delegiya hüququnda Nazirlər Şurası və parlament hüququnda isə, Məclisi Məbusan çıxış edir;

-delegiya və parlament hüququnda maddiləşən AXC-nin milli hüquq sistemi hüququn prinsipləri, doktrinaları və institutlarının köməyi ilə möhkəmlənərək hüququn özünün sistemi və onun sonrakı hüquqi varisliyini təmin edir;

-milli hüquq sistemi kontinent hüququnun forma və komponentlərinin köməyi ilə formalaşır; kontinent hüquq ailəsinə daxil olan Azərbaycan hüququ, təşkili fəaliyyətinə görə prosessual hüquqla müqayisədə, maddi hüquqa xüsusi rol və əhəmiyyət verir;

-və AXC-nin hüquq sahələri müstəqillikdən öncə və sonra formalaşmış ənənələri əsasən qoruyub saxlamaqla, özünəməxsus spesifik yolla inkişaf edir.

Beləliklə, Azərbaycan Xalq Cümhuriyyətində demokratik dövlət və hüquq quruculuğu sahəsində təcrübənin araşdırılması və öyrənilməsi, belə bir nəticəyə gəlməyə əsas verir ki, I Respublikanın dövlət təsisatları və hüquq institutlarının öyrənilməsi hal-hazırda nəyinki aktuallığını itirməmiş, əksinə müasir həm sivil, həm də qloballaşan dünyanın reallıqları baxımından daha da böyük əhəmiyyət kəsb edir. Məhz, dövlət hakimiyyəti orqanlarının fəaliyyətində, tarixi keçmişimizin milli dövlətçilk ənənələrinin mütərəqqi cəhətlərinin mənimsənilməsi olduqca zəruridir. Zənnimizcə, milli dövlətçilik ənənələri və müasir demokratik dövlət quruculuğu sahəsində görülən işlərdə uzlaşmanın müəyyən edilərək aşkarlanması və zərurət yarandığı halda tətbiq edilməsi, dövlət-hüquq ənənələrində varisliyin möhkəmləndirilməsində və qorunub saxlanılmasında mühüm əhəmiyyətə malikdir.

## Mənbələr və ədəbiyyatalar

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı:2016.
2. "Azərbaycan Xalq Cümhuriyyətinin 80 illik yubileyinin keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 30 yanvar 1998-ci il tarixli sərəncamı, "Azərbaycan" qəzeti, 1998-ci il 31 yanvar.
3. "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinin keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 16 may 2017-ci il tarixli sərəncamı, "Azərbaycan" qəzeti, 2017-ci il 17 may.
4. Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920) Parlament. (Stenoqrafik hesabatlar). I cild. Bakı: 1998, 976 s.
5. Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920) Parlament. (Stenoqrafik hesabatlar). II cild. Bakı: 1998, 992 s.
6. Azərbaycan Xalq Cumhuriyyəti Ensiklopediyası. Bakı: Lider nəşriyyatı, I və II cild. Bakı: 2014. 440 s.
7. Azərbaycan xalqına qarşı 1918-ci il soyqırımları. Azərbaycan Tarixçiləri İctimai Birliyi. Bakı: 2016, 408 s.
8. "Azərbaycanın müstəqilliyinin beynəlxalq tanınması münasibəti ilə əhaliyə verilən güzəştlər" /Azərbaycan Respublikası DA: f. 895, siy. 3, iş 301, v. 16-17.
9. "Azərbaycan Məhkəmə Palatası haqqında" 14 noyabr 1918-ci il tarixli Əsasnamə / Azərbaycan Respublikası DA: f. 895, siy. 3, iş 92, v.5.
10. "Azərbaycan Müəssislər Məclisinə seçkilərin Əsasnaməsi" haqqında 21 iyul 1919-cu il tarixli Qanun" /Azərbaycan Respublikası DA: f. 970. siy. 1, iş 212, v. 1-10 .
11. "Azərbaycan Məclisi-Məbusanı təsis haqqında" 19 noyabr 1918-ci il tarixli Qanunu /Azərbaycan Respublikası DA: f. 895,siy. 3, iş 7, v.1-2.
12. Azərbaycan Respublikasının Milkü Məcəlləsi. "Hüquq ədəbiyyatı" nəşriyyatı. Bakı: 2006. 776 s.
13. "Azərbyacan" qəzeti 26 aprel 1919-cu il. № 8
14. "Azərbyacan" qəzeti 22 iyun 1919-cu il. № 128
15. "Azərbyacan" qəzeti 6 aprel 1920-ci il. № 69
16. Abışov V. Azərbaycanlıların soyqırımı (1917-1920-ci illər). Bakı: 2013
17. Abışov V. Bakıda 1918-ci il mart soyqırımı. Bakı: 2014
18. Amerika Birləşmiş Ştatlarının Konstitusiyası. Bakı: "Qanun". 1997.
19. Baykara H. Azərbaycan istiqlal mübarizəsi tarixi. Bakı: "Azərbaycan dövlət nəşriyyat", 1992. 276 s.
20. Cəfərov İ.M. Azərbaycan Respublikası Konstitusiyasının şərhi. Bakı: "Hüquq ədəbiyyatı" nəşriyyatı, 2004, 552 s.
21. Dəmirli M.Ə., Ələsgərli Ə.R. Azərbaycan hüquq tarixi:cinayət hüququ (qədim zamanlardan 1920-ci ilədək). "Azərnəşr", Bakı: 1999, 204 s.
22. "Dövlət Müdafiə Komitəsinin təşkil edilməsi haqqında" 9 iyun 1919-cu il hökumət qərarı /Azərbaycan Respublikası DA:f.100, siy.2, 1ş 7, v.149.

23. “Dövlət xidmətində olmaqla parlament üzvü olmağın qəbul edilməzliyi” haqqında 25 yanvar 1919-cu il tarixli Qanun / “Azərbaycan” qəz., 1919, 30 yanvar № 21.
24. Əhmədov E. İ. Ermənistanın Azərbaycana təcavüzü. Sənədlər və materiallar. I kitab. Bakı: 2015, 324 s.
25. Əkbərov R.A. “Azərbaycan Xalq Cumhuriyyəti parlamentinin 9 fevral 1920-ci il “Ümumi əfv” qanununun siyasi-hüquqi əhəmiyyətinə dair”. Bakı Universitetinin Xəbərləri. Bakı 2015, №1. Səh.37-47
26. Əkbərov R.A. “Azərbaycan Xalq Cumhuriyyətində mülkiyyət münasibətlərinin tənzimlənməsinə dair”. AMEA Xəbərləri. Bakı 2015, № 2, səh.200-205.
27. Əkbərov R.A. AXC-də ordu quruculuğunun qanunvericilik əsasları. Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə jurnalı. Bakı 2016, № 1, səh.159-167.
28. Əkbərov R.A. AXC dövründə vəzifədən sui-istifadə və korrupsiya cinayətlərinə qarşı mübarizə tədbirlərinə dair. Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə jurnalı. Bakı 2014, № 4, səh.219-227.
29. Əkbərov R.A. Azərbaycan Demokratik Respublikasında ali mərkəzi icraedici orqanının fəaliyyətinin səmərəli təşkilinə dair. / ”Səmərli dövlət idarəçiliyi:zamanın çağrışları” mövzusunda beynəlxalq konfransın materialları. 05-06 dekabr 2011-ci il. Bakı: 2012. 222-226 s.
30. Əkbərov R.A. AXC-in seçki praktikasından. / ”Azərbaycanda hüquqi dövlət quruculuğu-2020: Gələcəyə baxış” mövzusunda elmi-praktiki konfrans. AMEA-ın Fəlsəfə, Sosialogiya və Hüquq İnstitutu 11-12 iyun 2012-ci il. Bakı: “Təknur” nəşriyyatı 2012. 230-235 s.
31. Əkbərov R.A. Müasir müstəqilliyimizin təməl prinsiplərini müəyyən edən hüquqi sənəd. “Dövlət və idarəçiliyi: nəzəriyyə və təcrübə.// B., 2011. № 3 (35).
32. Əkbərov R.A. Azərbaycanın dövlət və hüquq tarixi. Bakı: “Qanun” nəşriyyatı, 2009, 604 s.
33. Əkbərov R.A. Xarici ölkələrin dövlət və hüquq tarixi. Bakı: “Qanun” nəşriyyatı, 2005, 516 s.
34. R.A.Əkbərov. Müasir hüquq sistemləri. Dərslik. Bakı: “Qanun” nəşriyyatı, 2014. 700 s.
35. Əsgərov Z.A. Konstitusiya hüququ. Bakı: “Baki Dövlət Universitetinin” nəşriyyatı, 2011, 698 s.
36. Gözəlova N. Azərbaycan türk-müsəlman əhalisinin soyqırımı Britaniya kitabxanasının arxiv sənədlərində. B., 2014
37. “Həbsxanaların Ədliyyə Nazirliyinə verilməsi və pentensiyar xidmətə nəzarəti gücləndirməkdən ötrü vəsait ayrılması” haqqında Nazirlər Şurasının 11 avqust 1919-cu il tarixli xüsusi qərarı / “Azərbaycan” qəz., 1919, 23 avqust, № 182.
38. “Hədə-qorxu ilə tələb etməyə, fırıldaqçılıq və rüşvətə görə cəzaların gücləndirilməsinə dair cinayət və islah cəzaları Qanunnaməsinə və cinayət mühaki-

məsi Nizamnaməsinə dəyişikliklər və əlavələr” haqqında 29 sentyabr 1919-cu il tarixli Qanun” /Azərbaycan Respublikası DA: f. 895 siy. 3, iş 115, v. 17 .

39. “Xalq müəllimləri və ailənin tək övladlılarının hərbi xidmətdən azad olunması barədə” 18 yanvar 1919-cu il tarixli hökumət qərarı /Azərbaycan Respublikası DA: f.2898, siy. 2, iş 22, v. 47.

40. “Xüsusi təftiş-istintaq Komissiyasının təsis edilməsi” haqqında 27 iyul 1919-cu il tarixli Qanun” /Azərbaycan Respublikası DA: f. 895. siy. 3, iş 50, v. 17-18.

41. İsmayılov X.C. Azərbaycan Xalq Cumhuriyyətinin hüquqyaratma fəaliyyətinin bəzi aspektləri//Bakı Dövlət Universitetinin xəbərləri. Sosial-siyasi elmlər seriyası, Bakı: 1999, №1, s. 67-68

42. İsmayılov X.C. Azərbaycan Demokratik Respublikasının qanunvericilik fəliyyətinin səciyyəvi xüsusiyyətləri. /”Azərbaycan XXI əsrin astanasında” İkinci respublika elmi-praktiki konfransının materialları, Bakı: 1998, s.611.

43. İsmayılov X.C. Azərbaycanın dövlət və hüquq tarixi. Bakı: “Nurlan” nəşriyyatı, 2006. 720 s.

44. İsmayılov X.C. Azərbaycanın hüquq tarixi. Bakı: “Elm və Təhsil” nəşriyyatı, 2015. 572 s.

45. İsgəndərov A. Azərbaycan Xalq Cümhuriyyəti. 1918 – 1920. Bakı: 2007

46. İsgəndərli A. Azərbaycan həqiqətləri. 1917-1920. Bakı: 2012

47. Qasımlı M.C. Ermənistanın sovetləşdirilməsindən Azərbaycan ərazilərinin işğalınadək erməni iddaları:tarix-olduğu kimi (1920-1994-cü illər). Bakı: Elmin inkişaf fondu. 2016,s. 526.

48. Qasımlı M. Hüseynov C. Azərbaycanın baş nazirləri. Bakı: 2005.

49. Qədiməliyev A.R. Azərbaycan Respublikasında parlamentralizm ənənələri və müasirlik. Bakı: “Qanun” nəşriyyatı, 2013, 200 s.

50. Mahmudov Y.M.Azərbaycan Xalq Cümhuriyyəti-Şərqdə ilk parlamentli respublika//Bakı Universitetinin xəbərləri. Humanitar elmlər seriyası, 2001-, s.108-121.

51. Məmmədov İ.A. Dövlət və hüquq nəzəriyyəsi. Bakı: “Çıraq” nəşriyyatı, 2005. 624 s.

52. Məmmədova H.İ. Qarabağ general-qubernatorluğunun erməni təcavüzünə qarşı mübarizəsi tarixindən səhifələr. Bakı: 1999

53. Məlikova M.F. Dövlət və hüquq nəzəriyyəsi. Bakı: “Maarif nəşriyyatı”.1988, 383 s.

54. Məmmədzadə M.B. Milli Azərbaycan hərəkatı. Bakı: 1992

55. Nağıyev F.T. Konstitusiya hüququ. Bakı: “Qanun” nəşriyyatı, 2014. s.240

56. “Neft məhsullarında aksizlərin müəyyən edilməsi haqqında” 9 fevral 1920-ci il tarixli Qanun/Azərbaycan Respublikası DA: f. 895, siy.3, iş 70, v. 7.

57. “Neft sənayesinin milliləşdirilməsinin ləğv edilməsi” haqqında 1 oktyabr 1918-ci il hökumət qərarı. “Azərbaycan” qəzeti, 7 oktyabr 1918-ci il.№5.

58. Səlimov Ş. Cümhuriyyət dövründə beynəlxalq münasibətlərdə Azərbaycan nefti məsələsi (1918-1920-ci illər). Bakı: 2004.

59. "Ölüm cəzasının müvəqqəti bərpası haqqında" 12 avqust 1918-ci tarixli hökumət Qərarı /Azərbaycan Respublikasının DA: f.100, siy. 4, iş. 1, v

60. "Özgə əmlakı əleyhinə yönəlmiş cinayətlərə görə cəza verilməsi üçün ədalət məhkəməsinin səlahiyyətlərinin artırılması" haqqında 18 avqust 1919-cu il tarixli Qanun / "Azərbaycan" qəz., 1919, 21 avqust № 176.

61. "Parlament iclaslarında iştirak etməyən deputatlar" haqqında 16 yanvar 1919-cu il tarixli Qanun / "Azərbaycan" qəz., 1919, 18 yanvar № 11.

62. Süleymanov M. Azərbaycan Ordusu (1918-1920). Bakı: 1999

63. Süleymanov M. Qafqaz İslam Ordusu və Azərbaycan. Bakı: 1999

64. Rəsulzadə M. Ə. Azərbaycan Cümhuriyyəti. Bakı: 1990

65. Rəsulzadə M. Ə. Əsrimizin Siyavuşu. Çağdaş Azərbaycan ədəbiyyatı. Çağdaş Azərbaycan tarixi. Bakı: "Gənclik", 1990. 112 s.

66. "Rusiya və Zaqafqaziya qanunlarının müvəqqəti qüvvədə saxlanılması barədə" 23 iyun 1918-ci il tarixli hökumət qərarı /Azərbaycan Respublikası DA: f.100, siy. 2, iş 7, v. 5.

67. "Hərbi idarənin təşkil edilməsi haqqında" Azərbaycan Xalq Cumhuriyyəti parlamentinin 26 may 1919-cu il tarixli qanunu. /Azərbaycan Respublikası DA: f. 895, siy. 3, iş 36, v. 47-48.

68. Zaqafqaziya Seyminin Müsəlman Fraksiyası və Azərbaycan Milli Şurası iclaslarının protokolları. 1918-ci il. Bakı: 2006

**Rus dilində**

69. Азербайджанская Демократическая Республика (1918-1920 гг.). Законодательные акты: Баку, издательство «Азербайджан», 1998, 560 с.

70. Азербайджанская Республика (1918-1920 гг.). Документы и материалы. Баку: издательство «Элм», 1998, 616 с.

71. История государства и права зарубежных стран. Часть 2. (под общей ред. д.ю.н. проф. О.А.Жидкова и д.ю.н. проф. Н.А.Крашенниковой). М., 2004. 720 с.

72. Дождев Д.В. Римское частное право.Учебник для вузов. «Норма».М., 2005. 784 s.

73. Международное право. Учебник (под. ред. д.ю.н. проф. Н.Т.Блатова). «Юридическая литература». М.,1979. 584 s.

74. Международное публичное право. Учебник (под.ред. д.ю.н. проф. К.А.Бекяшева). «Проспект». М.,1999. 640 s.

75. Назарли А. Народное образование в Азербайджанской Республике (1918-1920 годы). Б., 2008

76. Черниловский З.М. Всеобщая история государства и права. М., 1996. 576 с.

**Dos. RAHİB AKBAROV**

# AZƏRBAYCAN DEMOKRATİK RESPUBLİKASININ DÖVLƏT VƏ HÜQUQ TARİXİ (monoqrafiya).

28 may 1918- 27 aprel 1920.

**(azərbaycan dilində).**

ИСТОРИЯ ГОСУДАРСТВА И ПРАВА АЗЕРБАЙДЖАНСКОЙ ДЕМОКРАТИЧЕСКОЙ РЕСПУБЛИКИ (монография).

28 май 1918- 27 апрель 1920.

(на азербайджанском языке).

**HİSTORY OF THE STATE AND LAW OF THE AZERBAİJAN DEMOCRATİC REPUBLİC (monograph).**

**28 may 1918- 27 april 1920.**

**(in azerbaijan language).**

Bakı-2018



Əkbərov Rahib Abdulla oğlu Siyəzən (keçmiş Dəvəçi) rayonunun Tuğay kəndində anadan olub. Elmi-pedoqoji fəaliyyətə A.A.Bakıxanov adına Tarix İnstitutundan başlayıb. 1994-cü ildə dissertasiya müdafiə edərək tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almışdır. 2001-ci ildən Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Hüquq kafedrasında dosent vəzifəsində fəaliyyət göstərir.

Ali məktəblərdə "hüquqşünaslıq" ixtisası üzrə dövlət və hüquq tarixinin öyrənilməsindən bəhs edən və Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən təsdiq edilmiş bir sıra dərslik, dərs vəsaiti, metodik vəsait və fənn proqramlarının müəllifidir.

R.Əkbərov hüquq tarixindən bəhs edən "Feodalizm dövründə idarəçilk sistemi və hüquq"-dərs vəsaiti ("Diqesta" nəşriyyatı-2000-ci il, 174 səh.), "Azərbaycanın dövlət və hüquq tarixi"-dərs vəsaiti ("Diqesta" nəşriyyatı-2001-ci il, 488 səh.), "Xarici ölkələrin dövlət və hüququ"-mühazirə kursu ("Qanun" nəşriyyatı-2003-cü il, 248 səh.), "Baltikyanı və slavyan xalqlarının dövlət və hüquq tarixi"-dərs vəsaiti ("Qanun" nəşriyyatı, 2004-cü il, 128 səh.), "Xarici ölkələrin dövlət və hüquq tarixi"-dərs vəsaiti ("Qanun" nəşriyyatı, 2005-ci il, 516 səh.), "Azərbaycanın dövlət və hüquq tarixi"-monoqrafiya, ("Qanun" nəşriyyatı, 2009-cu il, 604 səh.), "Müasir hüquq sistemləri"-dərslik ("Qanun" nəşriyyatı, 2014-cü il, 700 səh.) və "Avropa hüququ"-dərs vəsaiti ("Elm və Təhsil" nəşriyyatı, 2016-cı il, 354 səh.) kitabları nəşr olunmuşdur. Azərbaycan Xalq Cümhuriyyətinin hüquq tarixinə dair məqalələri bir sıra beynəlxalq elmi konfranslarda, həmçinin Belorus, Moldova və Türkiyə respublikalarında çap edilib.

Dos. Rahib Əkbərov hal-hazırda Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında "Azərbaycanın hüquq tarixi", "Müasir hüquq sistemləri", "Hüququn tarixi və metodologiyası" fənnlərini tədris edir.